SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD

# QURANİ-KƏRİMDƏ XİTABLAR

BEŞİNCİ CİLD

Bakı – 2012

**Seyyid Əliəkbər  Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, "Qələm" nəşriyyatı, 2012. 394 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor:     Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın "Qurani-kərimdə xitablar" mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 01 iyul 2012-ci tarixli DK-360/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir

## QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR (BİRİNCİ NÜMUNƏNİN DAVAMI)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبياءِ وَالْمُرْسَلِيَنَ حَبيبِنا وَحَبيبِ اِلهِ الْعالَمينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

## QURAN ƏBƏDİ MÖCÜZƏDİR

Ötən bəhslərimizdə müqəddəs Qurani-Kərimdə olan xitablar barədə kifayət qədər söz açdıq. Qeyd etdik ki, Allah-təala Quranda müxtəlif növ xitablarla insanlara müraciət edir. Həmin xitablardan nümunə üçün bəzilərini də nəzərinizə çatdırdıq. Əsas söhbətimiz isə Allahın iman gətirənlərə xitabları barədədir ki, bir nümunə barəsində söz açmışdıq. Yəni söhbətimizin əsas məğzi “Nisa” surəsinin 136-cı ayəsi ətrafında idi. Allah-təala bu mübarək ayədə iman gətirənlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Ey Allaha iman gətirənlər! Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin! Ey dillə iman gətirmiş kəslər, (səmimi qəlbdən)

iman gətirin! Ey imanları gerçəkləşmiş kəslər, onun qorunmasında möhkəm olun. Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə kafir olsa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.

Bu mübarək ayədə Allah-təala ilk növbədə iman gətirənlərə xitab edərək bir daha iman gətirmələrini bəyan edir. Əlbəttə, ayənin bu hissəsi barədə ətraflı şəkildə söhbət etmişik. Sonra Allah-təala Onun peyğəmbərinə iman gətirməyi əmr edir. Ayənin bu hissəsi barədə də geniş söhbət etdik və söhbətimiz buradək gəlib çatdı ki, biz peyğəmbərləri tanımağın yollarını da bildirdik. Yəni peyğəmbərlik iddiası edən bir insanın iddiasının doğru olub-olmamasının hansı yollarla sübuta yetirilməsindən söz açdıq. Burada xatırlatmaq üçün bir daha qeyd etmək lazımdır ki, peyğəmbərlər öz peyğəmbərliklərini sübuta yetirmək üçün əllərində möhkəm sənəd və sübutlarla gəlmişlər. Çünki dünyada ən böyük iddia peyğəmbərlik iddiası olduğundan bunun təsdiqi üçün də möhkəm dəlillərə və sübutlara böyük ehtiyac vardır.

Peyğəmbərlərin əllərində olan sübut və dəlillərdən biri də möcüzədir ki, ötən bəhslərdə bu barədə müfəssəl şəkildə söhbət etdik və nümunə olaraq böyük peyğəmbərlərin bəzi möcüzələrindən də söz açdıq. Lakin bizim əsas nəzərdə tutduğumuz məsələ İslam Peyğəmbəri(s) ilə bağlıdır. İslam Peyğəmbəri(s) sonuncu, ümumbəşəri və əbədi bir peyğəmbər olduğuna və onun gətirdiyi İslam dini qiyamətə qədər davam edəcəyinə görə Həzrətin(s) möcüzəsi də gətirdiyi dinlə uyğun olmalıdır. Artıq qeyd olundu ki, İslam Peyğəmbərinin(s) iki cür möcüzəsi vardır: müvəqqəti və əbədi möcüzələr. Həzrətin(s) müvəqqəti möcüzələri Onun öz zamanında

göstərilmiş və insanları gətirdiyi dinə inandırmışdır. İslam Peyğəmbərinin(s) əsas və əbədi möcüzəsi isə Allahın müqəddəs kitabı olan Qurani-Kərimdir. Oxuduğumuz ayənin üçüncü hissəsində Allah- təala həmin məsələyə işarə edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ

-Ey Allaha iman gətirənlər! Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba iman gətirin!

Allah-təala bu mübarək ayədə iman gətirənlərə Onun Peyğəmbərinə(s) nazil etdiyi kitaba (Qurana) iman gətirməyi əmr edir. Qurani-Kərim elə bir kitabdır ki, nazil olduğu gündən qiyamətə qədər qalacaqdır. Qurani-Kərim Peyğəmbərin(s) əsas möcüzəsi olduğundan və Allah-təala iman gətirənlərə Qurana iman gətirməyi əmr etdiyinə görə ilk növbədə müqəddəs Quran kitabının özü barədə müəyyən qədər söz açmağa böyük ehtiyac vardır. İnşallah, Quran barədə ayə və hədislərə əsasən müəyyən qədər söz açdıqdan sonra bu müqəddəs kitabın həqiqətən də möcüzə olması ilə bağlı söhbətimizə başlayacağıq.

## Quranın adları

Burada daha yaxşı olar ki, Quran barədə söhbətimizi ilk növbədə onun adları ilə başlayaq. Yəni baxaq görək Quranın neçə adı vardır və bu adların mənası nədir?

Ümumiyyətlə, Quran barədə tədqiqatçı alimlər çox böyük və mükəmməl elmi kitablar yazmışlar. Quran barədə daha ətraflı və müfəssəl məlumatlar əldə etmək istəyən hər bir kəs həmin kitablara müraciət edə bilərlər.

Ümumi məlumata gəldikdə isə, bəhsimizi Quranın adları ilə başlayırıq.

**1. Quran**

Quran ayələrinə və alimlərin nəzəriyyələrinə əsasən, bu müqəddəs kitabın dörd məşhur adı vardır. Əlbəttə, Quranın başqa adları da mövcuddur, amma onlardan ən çox məşhur olanı bu dörd addan ibarətdir. Allah-təalanın nazil etdiyi bu müqəddəs kitabın birinci adı "Quran"dır. "Əraf" surəsinin 204-cü ayəsində oxuyuruq:

وَإِذَا قُرِىءَ الْقُرْآنُ فَاسْتَمِعُواْ لَهُ وَأَنصِتُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ

-Quran oxunan zaman ona qulaq asın və susun ki, bəlkə rəhm olundunuz.

Bu ayədə həmin müqəddəs kitabın adı "Quran" sözü ilə ifadə olunmuşdur. Yəni bu kitabın adı Qurandır və oxunan zaman susub ona qulaq asmaq lazımdır. Hər bir kəs Quran oxunan zaman susub ona qulaq asarsa, Allahın rəhməti həmin şəxsə nazil olmuş olar.

Quran Allahın Peyğəmbərə(s) nazil etdiyi kitabın ən mühüm adıdır. Həmin ad Quranın adı kimi əlli dəfə bu müqəddəs kitabda zikr olunmuşdur. "Quran" sözünün mənası ərəb dilində "qərəə" sözündən götürülüb və "oxunmuş", "oxumalı" və "cəmlənmiş" mənalarını ifadə edir.

**2. Kitab**

Allahın nazil etdiyi müqəddəs Quranın ikinci məşhur adı "Əl-kitab"dır. Allah-təala müxtəlif ayələrdə bu kitabın adını bəzən Quran, bəzən də "Kitab" kimi bəyan edir. Allah-təala "Səcdə" surəsinin 2-ci ayəsində belə buyurur:

تَنزِيلُ الْكِتَابِ لَا رَيْبَ فِيهِ مِن رَّبِّ الْعَالَمِينَ

-Bu kitabın aləmlərin Rəbbi tərəfindən nazil edilməsində heç bir şəkk-şübhə yoxdur.

Quranda onun "Kitab" adı ilə adlandırılmasına dair təxminən əllidən artıq ayəyə rast gəlmək mümkündür. Kitab təkcə İslam Peyğəmbərinə(s) nazil olan Quranın deyil, həmçinin keçmiş peyğəmbərlərə nazil olan müqəddəs kitabların adlarından biri olmuşdur. Buna görə də onlara və iman gətirənlərinə kitab əhli deyilir. "Kitab" sözünün mənasına gəldikdə isə, "yazılmış" və "vacib olunmuş" mənalarını ifadə edir. Məsələn, Allah-təala "Bəqərə" surəsinin 183-cü ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsani istəklərdən) çəkinəsiniz.

Burada qeyd olunmalıdır ki, Quranın nazil olması elmin inkişaf etmədiyi, lakin ədəbiyyat və şeriyyətin güclü olduğu bir dövrə təsadüf etdiyindən onun "Quran" və ya "Kitab" adlandırılmasında çox böyük və mühüm təsiri olduğunu göstərir. Yazıçılar, şairlər və alimlər kitab yazarkən ona yaxşı bir ad qoymaq istəyərlər. Yəni kitab yazan hər bir şəxs öz kitabına gözəl və cəlbedici bir ad qoymaqla oxucuların diqqətini özünə cəlb etmək istəyər. Allah-təala da nazil etdiyi bu müqəddəs kitaba ilk növbədə "Quran" və "Kitab" adlarını verməklə tarixin bütün dövrlərində mədəni və elmli insanlara bu kitabda elm və mədəniyyətin olduğunu başa saldı. Xüsusilə nazil olmuş

ilk ayənin elm barəsində olması da  bu məsələni bir daha təsdiq edir.

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ

-Oxu! (Bu kitabı bütün məxluqatı) yaradan Rəbbinin adı ilə.

"Ələq" surəsinin birinci, habelə nazil olmuş ilk ayə məhz elm və oxumaqla bağlı olan bir ayədir ki, həmin ayə nazil olduqda hamının təəccübünə səbəb oldu. Təəccüblüsü burasındadır ki, o zaman ilk ayəsi oxumaq və elmlə bağlı olan, "Quran" və "Kitab" adlanan bu kitabın yazıb-oxumağı bilməyən bir insana nazil olması insanlara çox böyük və müsbət təsir göstərmişdir.

### 3. Furqan

İslam Peyğəmbərinin(s) Allah-təala tərəfindən gətirdiyi kitabın üçüncü məşhur adı "Əl-Furqan"dır. Hətta Quranın surələrindən birinin adı da məhz "Furqan"dır. Həmin surənin birinci ayəsində buna belə işarə olunmuşdur.

تَبَارَكَ الَّذِي نَزَّلَ الْفُرْقَانَ عَلَى عَبْدِهِ لِيَكُونَ لِلْعَالَمِينَ نَذِيرًا

-Furqanı (haqq ilə batili bir-birindən ayıran, ayə və surələri bir-birindən ayrı olan Quranı) aləmdəkilərin hamısını (kökləri kəsilənədək bütün insan və cinləri) qorxutmaq üçün bəndəsinə tədricən nazil edən (Allah) uca, əbədi və çox bərəkətlidir.

"Furqan" Quranın adı kimi iki ayədə işlənmişdir. Həmçinin Həzrət Musanın(ə) kitabının (Tövratın) adlarından biri də "Furqan" olmuşdur. "Furqan" sözünün mənasına gəldikdə isə, ərəb dilində "fərəqə" sözündən götürülmüş "fərqlənmək", "ayırmaq" mənasını ifadə edir.

“Furqan” kəlməsinin öz mənası isə haqq ilə batili fərqləndirən, yaxud haqqı batildən ayıran deməkdir.

**4. Zikr**

Quranın dördüncü məşhur adına gəldikdə isə, bu “Əz-zikr” adıdır. “Hicr” surəsinin 9-cu ayəsində oxuyuruq:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

-Həqiqətən, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu (təhrifdən, ləğv olunmadan və müddətinin sona çatmasından) Biz Özümüz qoruyarıq.

“Zikr” sözü “xatırlatmaq” və ya “yada salmaq” mənalarını verir.

Burada sual oluna bilər ki, nə üçün Allah-təala bu ayədə “Quranı Biz Özümüz qoruyacağıq”, - deyə buyurur? Cavab belədir ki, İslamdan öncə nazil olmuş kitabların heç biri olduğu kimi qalmadı, yəni qorunub saxlanılmadı. Onların hamısını təhrif edib sıradan çıxartdılar. Həmin kitabların hamısını dəyişdirib insanlara tamamilə başqa formada çatdırdılar. Ona görə də bu kitabların orijinal variantları artıq aradan getmişdir.

Hazırda İncil və Tövrat adı ilə çap olunub insanlara təqdim olunan kitabların hamısı uydurma və təhrif olunmuş ifadələrdən başqa bir şey deyildir. Onların hamısı bəzi insanların öz şəxsi fikir və düşüncələri əsasında düzəldilmiş nağıllardır ki, Tövrat və İncil adı ilə insanların başını qatırlar. Bəzi insanların da din barəsində düşüncə və fikirləri həssas olmadığından onlar elə güman edirlər ki, bu kitablar həqiqətən də Tövrat və İncildir. Bir sıra insanlar da din barədə tam ciddiyyətlə düşünmürlər və dindarlardan eşitdiklərinin haqq-həqiqət olduğunu zənn

edərək bununla kifayətlənirlər. Əgər bu adamlar iman gətirdikləri kitabı əvvəldən axıra kimi diqqətlə oxusalar və araşdırma aparsalar, o zaman başa düşərlər ki, onları aldadırlar. Öz dinləri barədə tədqiqat aparmağa vaxtları və hövsələləri olmadığından eşitdiklərini qəbul edir və bununla da kifayətlənirlər. Daha başa düşmürlər ki, Allahın Qurandan əvvəl onlara nazil etdiyi kitabların hamısını dəyişdirib təhrif etmişlər.

Hazırda xristianların əllərində olan kitabların heç biri Allahın nazil etdiyi İncil deyildir. Onlar İncili tamamilə dəyişdirib öz istədikləri kimi təhrif etmişlər. Çünki İncildə və Tövratda olan bəzi məsələləri İslam Peyğəmbəri(s), Həzrət Əli(ə), habelə digər məsum imamlarımız bizim üçün bəyan etmişlər. Onların buyurduqlarından başa düşürük ki, həmin məsələlər İncildə və Tövratda var imiş. Peyğəmbər(s) və imamlarımız həm Tövratı, həm İncili və həm də öz kitabımız olan Qurani-Kərimi əzbərdən bilirdilər. Onlar səmavi kitabların həm mənasına, həm də təfsirinə çox gözəl bələd idilər. Buna görə də Peyğəmbərin(s) və imamlarımızın Tövrat və İncil barədə buyurduqları mətləblərə inanır və onları qəbul edirik.

Odur ki, Tövrat və İncil adı ilə çap olunmuş, eləcə də başqalarının dili ilə söylənilmiş fikirlərə inanmırıq. Qurana gəldikdə isə, Allah-təala buyurur ki, biz Quranı nazil etdik və Biz Özümüz də onu qiyamətə qədər hər cür təhriflərdən qoruyacağıq. Həm Quranın öz buyurduğuna, həm də bütün İslam alimlərinin yekdil rəyinə əsasən, Quran təhrif olunmayıb və nazil olduğu kimi qalır. İslamda olan bütün firqələrin alimlərinin 99 faizindən çoxunun fikri belədir ki, Quranda heç bir təhrifə yol verilməmişdir. Ola bilər ki, İslamın bəzi firqələrinin kitablarında Quranın təhrif olunmasına dair bir-iki mətləb

tapılsın. Ancaq bunlar da kənardan daxil olan məlumatlardır və onların heç birinin əsası və sübutu yoxdur.

Ümumiyyətlə, İslam dünyası firqəsindən asılı olmayaraq Quranın təhrif olunmamasında yekdil fikrə malikdir və onlar möhkəm sənədlərə əsasən bu müqəddəs kitabda heç bir təhrifə yol verilmədiyini qəbul edirlər. Əgər ayrı-ayrı firqələrin təmsilçiləri bir-birilərini kənardan daxil ol-
an məlumatlarla və zəif söhbətlərlə Quranın təhrif olunmasında məhkum etmək istəsələr, bu, heç bir firqənin xeyrinə olmayacaq. İslam aləmində firqələrin bir-biri ilə ixtilafları onların özlərinin yox, düşmənlərin xeyrinə nəticələnəcək. Ona görə də hər bir müsəlman başa düşməlidir ki, bu cür məsələlərlə bir-birini məhkum etmək yalnız düşmənlərin sevincinə səbəb olacaqdır. Quranın təhrif olunmasına dair ola bilər ki, bəzi kitablarda hansısa qeyri-düzgün hədislər yazılmış olsun. Bununla belə, hər kəs bilir ki, Quran təhrif olunmayıb və yazılmış həmin söhbətlərin heç bir əsası yoxdur. Məsələn, “Səhihi-Müslim” və “Səhihi- Buxari” kimi kitablarda Ayişə xanımın dilindən keçinin Quran ayəsini yeməsi haqda söhbət açılmışdır. Yəni ayə nazil oldu və Peyğəmbər(s) həmin ayəni yazdırıb bir kənara qoydu. Elə bu zaman bir keçi gəlib həmin ayəni tamamilə yeyib qurtardı. Həmin ayə artıq Quranda yoxdur.

Bəzi kitablarda qeyd olunduğu kimi, bu cür fikirlərin mövcud olması mümkündür. Lakin heç bir firqə bu kimi məsələləri qəbul etmir. Əgər hansısa bir ayəni keçi yeyibsə və həmin ayə artıq əlimizdə deyilsə, məgər bu o deməkdir ki, Quranda təhrifə yol verilib? Bu əsla belə deyildir. Əlbəttə, belə zəif hədislərin olması da

mümkündür. Lakin İslam alimləri yekdil olaraq bu kimi hədislərin əsassız olduğunu artıq sübuta yetirmişlər.

Məhz elə buna görə də heç bir firqə Quranın təhrif olunmasını qəbul etmir. Bu müqəddəs kitab Peyğəmbərə(s) nazil olduğu kimi əlimizə gəlib çatmışdır və qiyamətə qədər də onda heç bir təhrifə yol verilməyəcəkdir. Çünki Quran nazil olduğu kimi Həzrət Əlinin(ə) hafizəsində və onun yazılarında qorunub saxlanmışdır. Ondan sonra isə İmam Həsənin(ə), İmam Hüseynin(ə) və digər imamlarımızın hafizələrində qorunub saxlanılmışdır.

Əlbəttə, burada onu da qeyd etmək lazımdır ki, o zamanlar qarelər(Quran oxuyanlar) və hafizlər də var idi ki, Quranı əzbərdən bilir-
dilər. Amma qarelərə və hafizlərə etibar etmək olmazdı. Çünki onlar hansısa ayəni unuda və ya yaddan çıxara bilərdilər. Bizim üçün ən etibarlısı Peyğəmbər(s) və onun Əhli-beytidir(ə) ki, məhz onlar Quranın hər bir ayəsini olduğu kimi bizə çatdırmışlar. Quran Peyğəmbərdən(s) sonra Həzrət Əlinin(ə) hafizəsində qorunub saxlanıldı və olduğu kimi bizə gəlib çatmışdır. Böyük alimlərimiz də Quranın qorunub saxlanılmasında əllərindən gələni əsirgəməmiş və onun hər bir ayəsini mühafizə etmişlər.

Əlimizdə olan bu müqəddəs kitab nazil olduğu kimi qorunub saxlanılmış və onun hər hansı bir hərf, kəlmə və ayəsində belə dəyişiklik baş verməmişdir. Ən ümdə məsələ odur ki, Allah-təala bu müqəddəs kitabı hər cür təhrifdən qorumuş və qiyamət gününə qədər də qoruyacağını vəd etmişdir. Sual oluna bilər ki, Allah-təala Quranı hansı yollarla və kimlərin vasitəsilə qoruyub saxlayır? Bu sualın cavabı belədir ki, Allah-təala bu müqəddəs kitabı Əhli-beytin(ə) vasitəsilə qoruyub

saxlamışdır. Əgər Əli ibn Əbu Talib(ə) və digər məsum imamlarımız olmasaydı, bugünkü günə qədər Qurandan heç bir əsər-əlamət belə qalmayacaqdı. Yəni düşmənlər onun hər bir ayəsinə müdaxilə edib öz istəklərinə uyğun şəkildə dəyişdirəcəkdilər. Necə ki, onlar Peyğəmbərin(s) bir çox hədislərini yandıraraq həmin hədislərin bizə gəlib çatmasına imkan vermədilər və o hədisləri öz istədikləri kimi mənalandırdılar.

Əlbəttə, əgər Əhli-beyt(ə) olmasaydı, onlar Quranın ayələrini də dəyişdirib özlərinə sərf etdiyi kimi yazacaqdılar. Düşmənlər Quranın təhrif olunmasına yol tapmadıqları üçün ondakı ayələri camaata başqa cür çatdırmağa başladılar. Onlar elə düşünürdülər ki, bəlkə bu yolla insanları Allahdan uzaqlaşdıra bilərlər. Bütün bunlara baxmayaraq, hər bir kəs dərk etməli və bilməlidir ki, Quranın heç bir hərfində belə dəyişiklik etmək mümkün olmayacaq və onun mənasını heç bir kəs öz istədiyi kimi yoza bilməyəcəkdir. Çünki Allah-təala Peyğəmbərdən(s) sonra Əhli-beytin(ə) vasitəsilə qoruyub saxladı və on ikinci imamımızın köməyi ilə qiyamətə qədər qoruyub saxlayacaqdır. Təsadüfi deyildir ki, Həzrət Peyğəmbər(s) dəfələrlə, hətta ömrünün son anlarında belə Quranı və Əhli-beyti(ə) bütün müsəlmanlara tapşırmışdır.

Həzrət Peyğəmbər(s) dünyasını dəyişən zaman müsəlmanlara belə vəsiyyət etdi: "Ey müsəlmanlar! Mən sizə 23 il peyğəmbərlik etmişəm və siz də məni qəbul etmisiniz. Həqiqətən, mən Allah tərəfindən dəvət olunmuşam və yaxın vaxtlarda o dəvəti qəbul edəcəyəm. Odur ki, mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Sizə çox-çox təkid edirəm, məndən sonra o iki şeydən ayrılmayın. Mehriban və mərhəmətli olan Allah mənə xəbər vermişdir ki, bu iki şey cənnət hovuzunda

mənə qovuşana qədər bir-birindən ayrılmayacaqlar. Diqqətli olun! Görün məndən sonra bu iki əmanətlə necə rəftar edəcəksiniz. Siz bu iki əmanətdən nə qədər möhkəm yapışsanız, heç bir vaxt öz yolunuzu azmayacaqsınız. O iki əmanətin biri Allahın kitabı olan Qurani-Kərimdir. Bu kitab Allahın qırılmaz ipidir. Bu ipdən möhkəm yapışın ki, şeytan sizi yoldan çıxarmasın və haqq yoldan azmayasınız. Biri də mənim Əhli-beytimdir. Ey müsəlmanlar! Diqqətli olun: bu iki əmanət qiyamət gününə qədər bir-birindən ayrılmayacaq. Əgər bunlardan birini tutub, o birindən əl çəksəniz, özünüzü həlak etmiş olacaqsınız. Quran və Əhli-beyt(ə) bir-birindən ayrılmazdır və bu birlik qiyamət gününə qədər davam edəcəkdir."

Bu hədis demək olar ki, İslamın bütün firqələrinin kitablarında qeyd olunmuşdur. Heç bir kəs bu hədisi danmır və dana da bilməyəcəkdir. Çünki hamı yekdilliklə qəbul etmişlər ki, Peyğəmbər(s) belə bir hədisi buyurmuşdur. Görürük ki, Peyğəmbər(s) həm Quranı, həm də Əhli-beyti(ə) bizə təkidlə tapşırıb vəsiyyət etmişdir. Hər bir kəs bu iki əmanəti bir-birindən ayırsa, İslama xəyanət etmişdir. Hər bir kəs Peyğəmbərin(s)
tapşırdığı bu iki əmanəti bir-birindən ayırmağa çalışsa, həm Qurana, həm də Əhli-beytə(ə) xəyanət etmişdir. Əhli-beyt(ə) Quranın təfsirçisi olduğu üçün Peyğəmbər(s) təkidlə onların hər ikisindən möhkəm yapışmaq barədə müsəlmanlara göstəriş verir. Əgər Quranı onun təfsirçisindən(Əhli-beytdən(ə)) ayırsalar, o zaman Quran da etibardan düşər. Çünki Quran yazıya alınmış bir qanundur və onu necə oxuyub şərh etsələr, o cür də insanlar tərəfindən qəbul ediləcəkdir. Buna görə də Qurana təfsirçi lazımdır və İslam Peyğəmbəri(s) həmin

təfsirçiləri bizə göstərmişdir. Məlumdur ki, Quranda mütəşabih(kinayəli, ikimənalı) və qaranlıq yerlər də vardır və onları yalnız Peyğəmbər(s) və Əhli-beyti(ə) açıqlaya bilərlər. Onlardan savayı başqa heç bir kəsə ixtiyar verilmir ki, Quranın ayəsini oxuyub özü bildiyi və başa düşdüyü kimi təfsir etsin.

Quranın sifətləri barədə oxuduqda görürük ki, bəzi ayələr möhkəm, bəzisi isə mütəşabihdir. Bunlar Quranın sifətlərindəndir. Bu məsələni Quran özü bizə buyurur. İnşallah, gələcək bəhslərimizdə bu barədə geniş söhbət açacağıq. Hələlik xülasə şəklində və nümunə olaraq bu barədə “Zümər” surəsinin 23-cü ayəsinə diqqət yetirək:

اللَّهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُّتَشَابِهًا

-Allah sözün ən gözəlini – ayələri biri digərinə bağlı və bir-birini açıqlayan, təfsir edən, (ayələrinin hamısı kəlmələrin fəsahəti, bəyanının möhkəmliyi və mənasının dərinliyi baxımından) bir-birinə bənzəyən kitab şəklində nazil etmişdir.

Quranda olan mütəşabih ayələri açıqlamaq üçün təfsirçi lazımdır ki, Peyğəmbər(s) bu işi özündən sonra yalnız Əhli-beytin(ə) ixtiyarına vermişdir. Hər bir kəs Quranı öz düşündüyü kimi təfsir edə və onu mənalandıra bilməz. Onun da öz mütəxəssisləri vardır ki, Peyğəmbər(s) vaxtilə onları bizə tanıtdırıb və bizim üçün əmanət qoyub getmişdir. Həzrət Əli(ə) Quranın möhkəm və mütəşabih ayələri barədə çox gözəl açıqlamalar vermiş və onların mənasını bizim üçün bəyan etmişdir.

اَلإمَام عَلِيّ (ع) – لَمَّا سُئِلَ عَن تَفسِير الْمُحكم وَالْمُتَشابِه مِن كِتابِ الله عَزّ وجلّ:

أَمّا الْمُحكَم الّذي لَمَ ينسخه شَئ مِن القُرآن فَهُو قَولُ الله عزّ وجلّ: ﴿هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ﴾ وَإِنَّمَا هَلكَ النَّاس فِي الْمُتَشَابِه لِأَنَّهُم لَمَ يَقِفُوا عَلى مَعناهُ وَلَمَ يَعرِفُوا حَقِيقَتَهُ، فَوَضَعُوا لَهُ تَأوِيلاتٍ مِن عِند أَنفُسِهِم بِآرَائِهِم وَاستَغنَوا بِذلِك عَن مَسأَلَةِ الأَوصِيَاء...

-İmam Əlidən(ə) Quranda olan möhkəm və mütəşabih ayələr barədə soruşduqda Həzrət(ə) belə buyurdu: Möhkəm ayələr odur ki, onların mənası açıq-aydındır və biz onları oxuyub əməl edirik. Heç bir ayə gəlib onu ləğv edə və mənasını dəyişdirə bilməz. Bu (Quranda) Allahın sözüdür: “Bu kitabı sənə nazil edən Odur. Onun (kitabın) bir hissəsi kəlmələri aşkar (və mənası aydın) olan “möhkəm” ayələrdir ki, onlar kitabın əsası və anasıdırlar (başqa ayələrdə olan qaranlıq məqamlar onların vasitəsilə aradan qaldırılır). Digər bir hissəsi “mütəşabih” (bir neçə mənası olan) ayələrdir.” Həqiqətən, insanlar mütəşabih ayələrin üstündə məhvə düçar olurlar. Çünki onların mənasını başa düşməyib həqiqəti dərk etmirlər. Həmin ayələrin mənasını Peyğəmbərin(s) vəsisindən soruşub öyrənmədən öz rəy və düşüncələri ilə təfsir edir və bununla da kifayətlənirlər. (Buna görə də məhvə düçar olurlar.)

وَأَمّا الْمُتَشابِه مِنَ القُرآن فَهُو الَّذِي اِنْحَرَفَ مِنهُ، مُتّفِقُ اللَّفظ مُختَلِفُ الْمَعنَى، مثل قَولُهُ عَزّ وَجَلّ: ﴿يُضِلُّ اللّهُ مَن يَشاء وَيَهدِي مَن يَشاء﴾ فَنَسَبَ الضَّلالَةَ إِلَى نَفسِهِ فِي هَذا الْمَوضَع، وَهَذا ضَلالُهُم

عَن طَرِيق الْجَنّة بِفِعلِهِم، وَ فِي مَوضِعٍ آخَر وَنَسَبه إِلى الأَصنَام فِي آيةٍ أُخرى...

-Quranın mütəşabih ayələrinə gəldikdə isə sözlər eyni, ancaq mənalar isə müxtəlifdir. Məsələn, Allah-təala bir ayədə belə buyurur: “Allah istədiyini azğınlığa boşlayır və istədiyini hidayət edir.” Allah-təala bu ayədə insanı azdırmağı Özünə aid edir. Bunun mənası odur ki, Allah insanları öz nalayiq əməllərinə görə cənnət yolundan çıxarar. Digər bir ayədə azdırmağı bütlərə, başqa ayələrdə isə kafirlərə və başqalarına aid edir.

Həzrət Əlinin(ə) möhkəm və mütəşabih ayələr barədə gözəl açıqlaması insanlara başa salır ki, həmin ayələrin müxtəlif mənaları vardır. Bu mənaları başa düşməkdən ötrü isə mütləq Peyğəmbərin(s) vəsisindən və Əhli-beytindən(ə) öyrənmək lazımdır. İnsanların məhvə düçar olmasının səbəbi də məhz Peyğəmbərin(s) vəsisinin sözlərinə əhəmiyyət vermədən, habelə mütəşabih ayələrdəki həqiqəti dərk etmədən onları öz rəy və düşüncələri əsasında mənalandırmaları və təfsir etmələridir. Odur ki, Peyğəmbər(s) dəfələrlə Həzrət Əlini(ə) müsəlmanlara tapşırmış və onun barəsində müxtəlif kəlamlar buyurmuşdur. O cümlədən “Mən elmin şəhəri, Əli isə onun qapısıdır” hədisi ən məşhur hədislərdən biridir ki, bütün İslam firqələrinin kitablarında qeyd olunmuşdur. Hər bir kəs elm öyrənmək istəyirsə, mütləq o qapıdan daxil olmalıdır. Amma insanların bir qismi Peyğəmbərin(s) həmin sözlərinə məhəl qoymadan Quran ayələrini istədikləri kimi şərh edir və özlərinin də bu məsələdə haqlı olduqlarını güman edirlər.

Qeyd etdik ki, Həzrət Peyğəmbərdən(s) sonra Həzrət Əli(ə) başda olmaqla digər imamlarımız Quranın təfsirçiləridir. Quranı təfsirçisindən ayırmaq isə insanları əlbəttə ki, azğınlığa və bədbəxtliyə sürükləyər. Mütəşabih ayələrdəki mənanı üzə çıxarmaq üçün mütləq təfsirçiyə və canlı Qurana ehtiyac duyulur. Quranda, ümumiyyətlə, hər bir şey yazılmışdır. Hər bir şeyi Quran ayələrindən üzə çıxarmaq üçün imam və təfsirçi olmalıdır. Həqiqətən də Quran ayələrinin şərhçisi və təfsirçisi məsum imamlardır. Hansı ayənin mənasının necə olduğunu hamıdan yaxşı onlar bilirlər.

Quran bir qanundur ki, təfsirçisi və izah edəni olmasa, heç bir vaxt onun qaranlıq yerlərini başa düşmək olmaz. Bəziləri elə güman etməsin-
lər ki, təkcə Quran onlara kifayət edər. Əgər Quranın yanında onun təfsirçisi olmasa, insan heç bir vaxt ayələri olduğu kimi başa düşə bilməz. Təfsirçi insana başa salır ki, hansı ayənin mənası necədir. Məsələn, yol hərəkəti qaydalarına diqqət yetirdikdə görürük ki, işıqforun qırmızı işığında heç bir sürücü nəqliyyat vasitəsini hərəkət etdirə bilməz. Lakin yolayrıcında bir yol polisi dayanıb sürücülərə qırmızı işıqda keçməyi göstəriş verirsə, bu zaman sürücü nəqliyyat vasitəsini sürməli və qırmızı işıqda dayanmamalıdır. Çünki yol polisi yol hərəkəti qaydalarını tənzimləyən bir şəxsdir. O, hər nə göstəriş verirsə, sürücülər də onun göstərişinə uyğun şəkildə hərəkət etməlidirlər. Əgər yol polisi yaşıl işıqda sürücüyə dayanmağı əmr edirsə və bu zaman sürücü nəqliyyat vasitəsini sürüb keçsə, deməli qanunu pozmuşdur.

Odur ki, bəziləri belə güman edirlər ki, yalnız Allah-taalanın kitabı onlara kifayət edər. Bu cür adamlar kitabdan savayı başqa heç bir şeyi qəbul etmək istəmirlər.

Əgər təkcə Allah-təalanın kitabı kifayət etsəydi, o zaman Peyğəmbər(s) də bunu buyurardı. Lakin gəlin unutmayaq ki, Peyğəmbər(s) müqəddəs kitabımızla yanaşı Əhli-beyti(ə) də bizə tapşırmışdır. Həzrət(s) hətta ömrünün axır günlərində də Quran və Əhli-beyti(ə) bizə vəsiyyət etmiş və əmanət qoymuşdur. Ona görə də Quranı Əhli-beytdən(ə) və Əhli-beyti(ə) Qurandan ayırmaq olmaz. Hər bir kəs bu iki əmanəti bir-birindən ayımaq istəsə, İslama və Peyğəmbərə(s) xəyanət etmişdir.

Həzrət Əli(ə) Quranın canlı ifadəçisi və təfsirçisidir. Peyğəmbərdən(s) sonra Quranın ayə və yazılarının mənasını Həzrət Əli(ə) açıqlayır və onları insanlara başa salırdı. Mərhum Ayətullah İmam Xomeyni Qorbaçova vaxtilə dərin məzmunlu bir məktub yazmışdı. Beynəlxalq normalara görə bir ölkə başçısı digər ölkənin rəhbərinə məktub yazıb göndərərkən onu mütləq səfir vasitəsilə həyata keçirir. Mərhum İmam Xomeyninin yazdığı həmin məktub ideoloji, fəlsəfi və elmi bir məktub olduğundan onu fəlsəfə ustadlarından biri olan Ayətullah Cavad Amili ilə göndərdi. Çünki belə bir məktubdan nə səfirin, nə də prezidentin anlayışı ola bilərdi. Həmin məktubu fəlsəfə ustadı aparmalı idi ki, oradakı qaranlıq məqamları Qorbaçova izah edib açıqlasın.

Quran da elə müqəddəs bir kitabdır ki, onun hər bir ayə və kəlməsinin geniş və müfəssəl mənaları vardır. Həmin mənaların açıqlanması isə şahların, xəlifələrin və b. işi deyil. Onun mənalarını yalnız və yalnız Allahın yer üzündə olan höccətləri açıqlaya bilər. Həzrət Peyğəmbər(s) qeybdən əxz etdiyi elmləri məhz həmin höccətlərə öyrətmiş və onları bizə tanıtdırmışdır. Buna görə də hər kim Quranı onun təfsirçisindən (Əhli-beytdən(ə)) ayırsa, yolunu azmışdır.

## Quranın sifətləri

Qurani-kərim Allah-təala tərəfindən insanlara göndərilmiş müqəddəs bir kitabdır. Bu kitab İslam Peyğəmbərinin(s) əbədi möcüzəsidir. Quran bizim üçün əbədi möcüzə olduğundan hər birimiz bu haqda ətraflı və lazımi məlumatlara malik olmalıyıq. Bir qədər əvvəl Quranın dörd məşhur adı ilə tanış olduq. Bütün bunlardan əlavə, Quran ayələrində və hədislərdə həmin müqəddəs kitabın sifət və xüsusiyyətləri də qeyd olunmuşdur. Bu bəhsimizdə məlumat üçün sadəcə olaraq Quranın bəzi sifətləri ilə tanış olacağıq. Aydındır ki, Quranın hər bir sifətinin də özünəməxsus mənası və cəhəti vardır.

### 1. Mütəşabih

Quranın sifətlərindən birinin adı "mütəşabih", yəni ayələrin bir-birinə bənzər olmasıdır ki, biz bu barədə azacıq da olsa söhbət açdıq. İnşallah, gələcək bəhslərimizdə, yəni Quranın özü barədə olan bəhslərimizdə onun bu sifəti haqda geniş bəhs edərik. "Zümər" surəsinin 23-cü ayəsində bu barədə oxuyuruq:

اللَّهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُّتَشَابِهًا

-Allah sözün ən gözəlini – ayələri biri digərinə bağlı və bir-birini açıqlayan, təfsir edən, (ayələrinin hamısı kəlmələrin fəsahəti, bəyanının möhkəmliyi və mənasının dərinliyi baxımından) bir-birinə bənzəyən kitab (şəklində) nazil etmişdir.

### 2. Burhan

Quranın sifətlərindən birinin adı “burhan”dır. “Burhan” sözünün mənası “açıq-aydın dəlil, sübut” deməkdir. “Nisa” surəsinin 174-cü ayəsində oxuyuruq:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ

-Ey insanlar, həqiqətən, Rəbbinizdən sizə bir dəlil-sübut gəlmişdir.

Bu ayədə Allah-təala Quranın sifətlərindən birinə işarə edərək bəyan edir ki, ey insanlar, Allah tərəfindən sizin üçün elə bir kitab nazil olmuşdur ki, onda heç bir qaranlıq və üstüörtülü bir şey yoxdur. Yəni bu kitab sizin üçün açıq-aydın dəlil və sübutdur.

### 3. Bəyyinə

Quranın ikinci sifəti elə həmin mənadadır ki, “bəyyinə” sözü ilə ifadə olunmuşdur. “Bəyyinə” sözünün mənası “sözə aydınlıq gətirmək” deməkdir. Yəni insan bir sözü dedikdə onu açıqlamaq üçün gətirdiyi dəlil-sübut çox aydın olmalı və qaranlıq heç bir məqam qalmamalıdır. İnsanın bir sözü sübut etmək üçün aydın dəlillər gətirməsinə “bəyyinə” deyilir. “Ənam” surəsinin 157-ci ayəsində belə oxuyuruq:

فَقَدْ جَاءكُم بَيِّنَةٌ مِّن رَّبِّكُمْ وَهُدًى وَرَحْمَةٌ

-Beləliklə, həqiqətən, sizin üçün Rəbbiniz tərəfindən dəlil-sübut, yaxud hidayət və rəhmət amili gəlmişdir.

### 4. Nur

Quranın üçüncü sifəti “nur” kəlməsi ilə bəyan olunmuşdur ki, “Təğabun” surəsinin 8-ci ayəsində buyurulur:

فَآمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَالنُّورِ الَّذِي أَنزَلْنَا

-Elə isə Allaha, Onun Rəsuluna və nazil etdiyimiz nura iman gətirin!

Bu ayədə işlənmiş “nur” kəlməsi Quranın sifətlərindən biridir ki, Allah-təala ona iman gətirilməsi barədə insanlara göstəriş verir.

**5. Mübarək**

Quranın sifətlərindən biri də “mübarək”dir. “Ənam” surəsinin 155-ci ayəsində belə oxuyuruq:

وَهَذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ فَاتَّبِعُوهُ وَاتَّقُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ

-Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır. Buna görə də ona tabe olun və təqvalı olun, bəlkə rəhm olundunuz.

Allah-təala bu ayədə nazil etdiyi kitabın əvvəldən axıradək mübarək və bərəkətli olmasına işarə edərək hamını ona tabe olmağa dəvət edir.

**6. Əziz**

Quranın sifətlərindən birinin adı “əziz”dir ki, “Fussilət” surəsinin 41-ci ayəsində belə buyurulur:

وَإِنَّهُ لَكِتَابٌ عَزِيزٌ

-Doğrudan da bu (Quran) möhkəm, qalib və məğlubedilməz bir kitabdır.

Əziz o deməkdir ki, heç bir vaxt məğlub olmaz. Yəni heç bir şey ona qalib gələ bilməz. Əziz olana heç bir kəs heç bir zaman qələbə çala bilməz. Alimlərdən biri belə yazır: “İnsan əllərinə yağ sürtüb suyun içinə saldıqda su onun dərisinə çatmaz. Çünki yağ suyun həmin adamın

dərisinə çatmasına mane olacaq. Belə olduqda həmin şəxsin əllərinə əziz deyilir.” Həmin alim bu misalı çəkməklə insanları başa salır ki, Quran əziz olduğundan heç bir batil söz ona nüfuz edə bilməz. Heç bir elm, məntiq, söz Qurana təsir göstərə bilməz. Çünki Quran onların hamısından güclü və möhkəmdir. Allah Özü əziz olduğundan Onun nazil etdiyi Quran, göndərdiyi Peyğəmbər(s) və iman gətirən möminlər əzizdirlər. Heç bir şey onlara qalib gələ bilməz. Hətta şeytanın da onlara qalib gəlməyə gücü çatmır. “Munafiqun” surəsinin 8-ci ayəsində belə oxuyuruq:

وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَعْلَمُونَ

-İzzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur, lakin munafiqlər (bunu) bilmirlər.

**7. Moizə (öyüd-nəsihət)**

“Moizə” Quranın sifətlərindən biridir ki, Allah-təala “Yunis” surəsinin 57-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), ürəklərdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.

Öyüd-nəsihət elə bir şeydir ki, insanların qəlbini yumşaldaraq onları qəflət yuxusundan oyadır. Öyüd-nəsihət odur ki, insana keçmişdə olanları xatırladaraq gələcəyini başa salır. Moizə insanları şeytan və şeytansifət

insanların şərindən xəbərdar edərək onları ayıldır. Moizə elə bir şeydir ki, insanların qəlbinə təsir göstərir. Bəzən bir kəlmə söz belə insanın qəlbinə elə təsir göstərir ki, onun taleyini tamamilə dəyişir. Tarixdə bu kimi nümunələrə çox rast gəlmək mümkündür və həqiqətən də bircə kəlmə öyüd-nəsihət bir çox insanların taleyini dəyişərək onları hidayət etmişdir.

Quran elə bir moizədir ki, keçmişdəki peyğəmbərlər və onların ümmətləri barədə, habelə onların başlarına gələn hadisələri bizə danışır. Həm düşmənlərdən, həm də möminlərdən bəhs edərək keçmişdə baş verənləri bizə nəql edir. Nuh(ə), İbrahim(ə), Musa(ə), İsa(ə) və digər peyğəmbərlərin başına gələn əhvalatlardan söz açaraq bizi və gələcək nəsilləri yuxudan oyadır.

**8. Rəhmət**

Quranın sifətlərindən biri "rəhmət"dir. Əlbəttə, Quran o kəslər üçün rəhmət və hidayətdir ki, ona iman gətiriblər. "Nəml" surəsinin 77-ci ayəsində belə oxuyuruq:

وَإِنَّهُ لَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Və əlbəttə o, möminlər üçün başdan-başa hidayət (doğru yol göstərən) və mərhəmətdir.

**9. Hidayət**

"Hidayət" Quranın sifətlərindən biridir ki, "Bəqərə" surəsinin 2-ci ayəsində belə buyurulur:

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

-Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqama malik kitab pəhrizkarlar (təqvalılar) üçün hidayət mənbəyidir.

Quranın nazil olmasının ümdə səbəbi insanları hidayət etməkdir. Yəni Quran əsasən insanları hidayət etmək üçün nazil olmuşdur. Kəlam elmində hidayət məsələsini dörd mərhələyə bölmüşlər ki, Quran ayələrində də buna işarə olunmuşdur. Bəlkə belə desək, daha yaxşı olar: Kəlam elmində Quran ayələrinə əsasən hidayəti dörd hissəyə ayırmışlar ki, hər biri barədə ayələrə rast gəlmək mümkündür. Çünki Kəlam elmi Qurandan başlanğıc götürür. Kəlam elmi başlanğıcdan sonadək olanlardan söz açır. Bir sözlə desək, tövhiddən məadadək olan elmə kəlam elmi deyilir. Kəlam elmi Qurandan və Peyğəmbərin(s) sözlərindən istifadə olunmaqla meydana gəlmişdir. Məntiq və fəlsəfə elmlərinə gəldikdə isə, bunlar müstəqil bir elmdir ki, İslamdan əvvəl Aristotel və Sokrat kimi böyük alimlər də həmin elmin daşıyıcıları olmuşlar. İslam fəlsəfəsinin təməlini isə Həzrət Əli(ə) qoymuş və bunu Kumeyl ibn Ziyada öyrətmişdir.

Qeyd olunduğu kimi, kəlam elmində hidayəti dörd qismə ayırmışlar. Burada çox yaxşı olar ki, hidayətin həmin növləri ilə tanış olaq.

## Təkvini hidayət

Hidayətin birinci qismi təkvini hidayətdir. Yəni Allah-təala təkcə insanın deyil, həmçinin hər bir məxluqun fitrətində bu hidayəti qoymuşdur. Heyvanların, bitkilərin və hətta cansızların da fitrətində özünəməxsus hidayət vardır. Yəni Allah-təala hər bir şeyin zatında hidayət yaratmış və şəxsən Özü onları hidayət edərək inkişaf etdirir. Allah-təala hər bir şeyin zatında bu hidayəti yaratmaqla onları kamilliyə doğru hərəkət etdirir. Bu barədə "Taha" surəsinin 50-ci ayəsində belə oxuyuruq.

رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى

-Bizim Rəbbimiz hər bir şeyə onun məxsus yaradılışını əta edən, sonra (ona) doğru yol göstərəndir.

Bu ayədən açıq-aydın görürük ki, Allah-təala hər bir şeyi yaratdıqdan sonra onu hidayət edir və ona doğru yolu göstərir. Bu hidayət həmin hidayətdir ki, Allah-təala insanların fitrətinə də qoymuşdur. “Əla” surəsinin 3-cü ayəsində belə buyurulur:

وَالَّذِي قَدَّرَ فَهَدَى

-Və o kəs ki, (hər bir məxluq üçün kəmiyyət və keyfiyyət baxımından) bir əndazə (ölçü) qoydu, beləliklə də (onları öz kamilliklərinə doğru) yönəltdi.

“Ənbiya” surəsinin 33-cü ayəsində gecə və gündüz, günəş və ayın da  zatında bir hidayət olduğu barədə belə buyurulur:

وَهُوَ الَّذِي خَلَقَ اللَّيْلَ وَالنَّهَارَ وَالشَّمْسَ وَالْقَمَرَ كُلٌّ فِي فَلَكٍ يَسْبَحُونَ

-Gecə və gündüzü, günəş və ayı (da) yaradan Odur. (Onların) hər biri bir çevrədə üzür.

Təkvini hidayət elə bir şeydir ki, onun üçün peyğəmbər göndərmək lazım deyil. Çünki məxluqun hamısında istər-istəməz həmin təkvini hidayət vardır.

## Əqli hidayət

Hidayətin ikinci qismi əqli hidayətdir. Bu hidayət növü insanlar barəsindədir ki, Allah-təala onlara ağıl verməklə hidayət yolunu göstərir və onları doğru yola yönəldir. Əgər Allah-təala peyğəmbər göndərməsəydi belə insanlar

öz ağılları ilə yaxşını pisdən ayıra bilərdilər. Çünki insanlar ağlın vasitəsilə pisi yaxşıdan, ağı qaradan, xeyiri şərdən və haqqı batildən ayıra bilirlər. İnsan iki yol ayrıcında qaldıqda belə ağlın vasitəsilə haqqı batildən ayıra və doğru yolu müəyyənləşdirə bilər. “Bələd” surəsinin 8-10-cu ayələrində belə buyurulur:

أَلَمْ نَجْعَل لَّهُ عَيْنَيْنِ. وَلِسَانًا وَشَفَتَيْنِ. وَهَدَيْنَاهُ النَّجْدَيْنِ

-Məgər Biz ona iki (görən) göz vermədikmi?! Və (eləcə də) bir dil və iki dodaq (vermədikmi)?! Və ona iki yolu (maddi və mənəvi cəhətdən xeyir və şər yolunu) göstərmədikmi?!

Deməli, insanlar öz gözləri, dil-dodaqları və ağılları ilə haqqı batildən, düzü əyridən, xeyiri şərdən və pisi yaxşıdan ayıra bilərlər. Əgər insanlar üçün peyğəmbər gəlməsəydi belə onlar yenə də zülm etməyin, oğurluğun və s. kimi günahların pis əməl olduğunu öz ağılları ilə başa düşəcəkdilər. “Şəms” surəsinin 8-ci ayəsində belə buyurulur:

فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

-Sonra da günahlarını və təqvalı olmağını ona ilham etmiş və onu iş görməyə qadir etmişdir.

Bu, hidayətin ikinci qismidir ki, Allah-təala insana ağıl verməklə onu hidayət etmişdir. Həzrət Əli(ə) peyğəmbərlərin göndərilməsi barədə söz açarkən buna işarə etmişdir. Yəni Allah-təala peyğəmbərləri ona görə göndərməyib ki, onlar Allahı insanlara tanıtdırsınlar. İnsanlar öz ağılları ilə Allahı tanıyırlar. Peyğəmbərlər bunu insanların yadlarına salmaq və onları Allaha ibadət etməyə dəvət etmək üçün gəlmişlər. Onlar insanların şəhvət və günahların təsiri altında qalmış ağıllarını

cilalayıb təmizləmək üçün gəlmişlər. Həzrət Əli(ə) bu barədə belə buyurur:

فَبَعَثَ فِيهِمْ رُسُلَهُ، وَوَاتَرَ إِلَيْهِمْ أَنْبِيَاءَهُ، لِيَسْتَأْدُوهُمْ مِيثَاقَ فِطْرَتِهِ، وَيُذَكِّرُوهُمْ مَنْسِيَّ نِعْمَتِهِ، وَيَحْتَجُّوا عَلَيْهِمْ بالتَّبْلِيغِ، وَيُثِيرُوا لَهُمْ دَفَائِنَ الْعُقُولِ

-Beləcə, Allah-təala onların arasından Öz peyğəmbərlərini seçərək onlarda fitri olan Tanrının əhd-peymanını tələb etmək və unudulmuş neməti *(fitri tövhidi)* xatırlatmaları, təbliğat yolu ilə onlarla söhbət etmələri *(dəlillərlə danışmaları),* gizlənmiş ağılları *(ki, küfrün tozu altında gizlənmiş və zəlalətin, günahların qaranlığının təsirindən örtülmüşdü)* üzə çıxararaq işə salmaları və Allahın qüdrət nişanələrini onlara *(insanlara)* göstərmələri üçün onları bir-birinin ardınca göndərdi.

Allah-təala zərr aləmində bütün insanlardan vəd aldıqdan sonra onları yaratmışdır. İnsanlar isə yaradıldıqdan sonra verdikləri bu vədi unutmuşlar. Sual oluna bilər ki, insan Allaha hansı vədləri vermişdir? Quran ayələrinə və hədislərə əsasən, cavab olaraq demək olar ki, həmin vədlərdən biri Allaha ibadət etmək vədidir ki, insan yaradıldıqdan sonra Ona ibadət edəcəyinə və şeytana ibadət etməyəcəyinə söz vermişdir. “Əraf” surəsinin 172-ci ayəsində oxuyuruq:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

-O zaman sənin Rəbbin Adəm övladlarından – onların belindən övladlarını çıxardı (tarix boyu tədricən onları bir-birinin belindən dünyaya gətirdi) və onları özlərinə şahid tutdu ki: “Mən sizin Rəbbiniz deyiləmmi?” Onların hamısı “Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik” - dedilər. (Allah belə etdi ki,) məbada qiyamət günü “biz bundan (tövhid və rübubiyyətdən) qafil idik” deyəsiniz.

İnsanlar öz ağılları vasitəsilə Allahın varlığını başa düşürlər. Lakin unutqanlıq və dünyanın bəzək-düzəklərinə aludə olmaları üzündən bütün verdikləri vədlər yadlarından çıxmışdır. Allah-təala peyğəmbərləri göndərməklə bu məsələni onların yadlarına salır, eləcə də şəhvət və günahların təsiri altında qalmış ağılları üzə çıxarır. Odur ki, peyğəmbərlər gəlib insanlara başa salırlar ki, onlar bu dünyaya Allaha ibadət etmək üçün gəlmişlər.

## Təşrii hidayət

Hidayətin üçüncü qismi təşrii hidayətdir. Təşrii hidayət odur ki, Allah- təala peyğəmbər və şəriəti göndərməklə insanlara doğru yolu göstərir. Bu, Allahın insanlara olan lütf və mərhəmətidir. “Ənbiya” surəsinin 73-cü ayəsində bu barədə belə buyurulur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ

-Onları (peyğəmbərləri) Bizim əmrimizlə doğru yola yönəldən rəhbərlər etdik və onlara xeyir işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik.

“İsra” surəsinin 9-cu ayəsində belə buyurulur:

إِنَّ هَذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

-Həqiqətən, bu Quran (insan cəmiyyətini) ən möhkəm, sabit yola və dinə hidayət edir.

“Şura” surəsinin 52-ci ayəsində belə buyurulur:

وَإِنَّكَ لَتَهْدِي إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Şübhəsiz, sən (insanları) doğru yola yönəldirsən.

Allah-təala peyğəmbər və kitablar göndərməklə insanları hidayət edir və höccəti tamamlayır. Sonradan bir insan deməsin ki, “mənim bundan xəbərim yox idi, mən bunları bilmirdim və mənə öyrədən olmayıb.”

## Xüsusi hidayət

Hidayətin dördüncü qismi isə yalnız xüsusi insanlara aiddir. Bu hidayət hamı üçün deyildir. Yəni hər bir kəs özünü bu məqama çatdıra bilsə, Allah-təala həmin şəxsə xüsusi inayət edərək onu hidayət edər. Bu hidayət insanların ibadətinin vasitəsilə əldə olunur. Bu hidayət o insanlara məxsusdur ki, onlar qeyd edilən üç hidayəti görmüş olsunlar. Yəni əgər bir insan fitri, əqli və təşrii hidayət vasitəsilə doğru yolu taparsa, dördüncü hidayətə də nail ola biləcəkdir. Hər kəs Peyğəmbərin(s) gətirdiyi dinə mükəmməl şəkildə əməl edərsə, Allah- təala həmin şəxsi xüsusi hidayət mərhələsinə çatdırar. “Muhəmməd” surəsinin 17-ci ayəsində elmül-yəqindən eynül-yəqinə keçən insanlar barədə belə oxuyuruq:

وَالَّذِينَ اهْتَدَوْا زَادَهُمْ هُدًى وَآتَاهُمْ تَقْواهُمْ

-(Allah) doğru yolda olanların hidayətlərini (daha da) artırıb və onlara vəziyyətlərinə münasib pəhrizkarlıq (ruhu) bəxş edib.

Bunun əksinə gəldikdə isə, üç hidayətlə doğru yola gəlməyənlər və Allahın ayələrinə iman gətirməyənlərə dördüncü hidayət yoxdur. "Nəhl" surəsinin 104-cü ayəsində buyurulur:

إِنَّ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ لاَ يَهْدِيهِمُ اللّهُ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Şübhəsiz, Allahın ayələrinə və aydın dəlillərinə iman gətirməyənləri Allah-təala hidayət etməyəcək və onlar üçün ağrılı bir əzab vardır.

Beləliklə, məlum olur ki, hər bir kəs hidayətin üç ilkin mərhələsində doğru yola yönəlsə, Allaha, Peyğəmbərə(s) və Qurana sidq ürəklə iman gətirib dini məsələlərə Allahın buyurduğu kimi tam incəlikləri ilə riayət etsə, Allah-təala həmin şəxsi xüsusi inayət edər və onun qəlbinə ilham bəxş edərək bütün, hətta ən xırda məsələlərdə belə onu hidayət edər. Bu hidayət elə bir şeydir ki, dini, elmi, ictimai və siyasi məsələlərdə də insanın qəlbinə Allah-təala tərəfindən ilham olunur. Bu, Allahın xüsusi bir hidayətidir ki, onu bəzi insanlara inayət edir. Bir daha qeyd etməliyəm ki, bu məqama yalnız hidayətin üç mərhələsində özünü doğrultmuş kəslər nail ola bilərlər.

Tarix boyu biz Allahın xüsusi hidayətini əldə etmiş insanların şahidi olmuşuq. Nümunə üçün belə insanların həyatında baş vermiş hallardan bir neçəsinə diqqət yetirək. Seyid Hüseyn Qəzvini Nəcəf şəhərində yaşayan böyük alimlərdən biri idi. O deyir: "Mənim iki kitaba böyük ehtiyacım var idi. Nə qədər axtarırdımsa, həmin kitabları əldə edə bilmirdim. Gecələrin birində yuxuda Şəhid Əvvəli (Məhəmməd ibn Məkkini) gördüm. Onunla bir az söhbət etdikdən sonra dedim: Mən axtardığım iki cild kitabı tapa bilmirəm. Şəhid mənə dedi: Həmin kitablar

məndə var. Ondan xahiş etdim ki, həmin kitabları mənə versin. Şəhid həmin kitabları mənə verdi. Yuxudan ayıldıqda gördüm ki, həmin kitablar mənim yanımdadır.”

Yaxın dostlarımdan biri deyir: “Dəxil adlı bir şairin İmam Hüseyn(ə) barəsində gözəl bir şeri var idi. Mən onu uşaq vaxtlarımda əzbərləyib yadımda saxlamışdım. Axır vaxtlarda həmin şeir yadımdan çıxmışdı. Nə qədər çalışırdımsa, yadıma sala bilmirdim. Gecələrin birində yatmazdan öncə öz-özümə dedim: Çox heyiflər olsun ki, həmin şeir yadımdan çıxıb. Bu fikirlə də yuxuya getdim. Yuxuda gördüm ki, böyük bir kitabxanaya getmişəm. Rəflərin birində gözüm Dəxilin kitabına sataşdı. Öz-özümə dedim: Yaxşı oldu ki, bu kitabı gördüm. Həmin kitabı götürüb unutduğum şeri oxudum və əzbərlədim. Yuxudan ayıldıqda gördüm ki, həmin şeir bütünlüklə yadımda qalıb.”

Seyid Əli Şüştəri Şeyx Ənsari ilə eyni dövrdə yaşayan böyük alim və müctəhidlərdən biri idi. Seyid Əli ilə Şeyx Ənsari dost idilər. Onun oğlu deyir: “Atam bərk xəstələnmişdi. Onun halı demək olar ki, son anlarını yaşayan insanın halını xatırladırdı. Atamın belə bir vəziyyətdə olduğunu Şeyx Ənsariyə xəbər verməmişdim. Gecə yarısı atamın vəziyyətinin daha da pisləşdiyini görüb Şeyxə xəbər vermək fikrinə düşdüm. Çünki əgər atamın başına bir iş gəlsəydi, sabah Şeyx məni danlayardı ki, nə üçün mənə xəbər verməmisən? Sakitcə lampanı götürüb Şeyxi çağırmaq üçün qapıdan çıxmaq istəyəndə atam gözlərini açıb soruşdu: Oğlum, hara gedirsən? Mən ona yalan danışa bilmədiyim üçün dedim: Şeyxi çağırmağa. Atam dedi: Çağırmağa ehtiyac yoxdur. Bir azdan özü gələcək. Mən keçib bir tərəfdə əyləşdim. Azacıq keçmişdi ki, qapı döyüldü. Atam dedi: Oğlum, Şeyx gəldi, dur

qapını aç. Qapını açdıqda Şeyx Ənsarini görüb çox təəccübləndim. O gəlib atamın yanında əyləşdi. Hal-əhval tutduqdan sonra atam dedi: Şeyx, deyəsən vəziyyətim çox ağırdır. Şeyx dedi: İnşallah, yaxşı olarsan. Atam dedi: Yox, mənə elə gəlir ki, dünyadan köçmək zamanıdır. Şeyx dedi: İnşallah, sağalarsan. Atam dedi: Əlamətdən nə başa düşürsən? Şeyx dedi: Əlaməti budur ki, sənin mənə cənazə namazı qılmağını indidən görürəm. Sonra mənə işarə etdilər ki, onları tək buraxım. Mən otaqdan çıxdım və onların bir-biri ilə nə söhbət etdiklərini eşitmədim.

Şeyx atamla söhbət etdikdən sonra ayağa qalxıb getdi. Səhərisi dərsdə tələbələrinə dedi: Seyid Əli bərk xəstələnmişdir. Nə üçün ona baş çəkməyə getmirsiniz? Dərs qurtardıqdan sonra özü də tələbələrə qoşulub Seyid Əlini ziyarət etməyə getdi. Şeyx Ənsari tələbələrlə birlikdə atamın yanına gələndə özünü elə aparırdı ki, sanki gecə burada olmamışdı.

Bir neçə gündən sonra atam tamamilə sağaldı. Həmin hadisənin üstündən bir neçə il keçdikdən sonra atama xəbər verdilər ki, Şeyx Ənsari rəhmətə gedib. Atam onun cənazə namazını qılarkən onların həmin gecə etdikləri söhbət yadıma düşdü."

Bu kimi hadisələr bizim üçün təəccüblü olsa da böyük ariflər, abidlər və özlərini bu dünyada Allah istədiyi kimi tərbiyə edən insanların gündəlik həyatlarında adi bir məsələyə çevrilmişdi. Onlar neçə illər zəhmət çəkib özlərini bu mərhələyə çatdıraraq Allahın xüsusi hidayətini, lütf və mərhəmətini əldə etmişlər.

Nəcəf şəhərindəki ustadlardan biri deyir: "Günlərin birində Həzrət Əlinin(ə) hərəmini ziyarət edirdim. Gördüm ki, Ayətullah Şeyx Ənsari gəldi. Mənim yanımdan keçəndə əlindəki kiçik bağlamanı mənə verib

buyurdu: Bunun yarısını özün götür, yarısını da şagirdlərinə payla. Həmin bağlamanı evə gətirib açdıqda gördüm ki, bağlamada mənim borclarım qədər pul vardır. Öz-özümə fikirləşdim ki, bütün bunları aparıb borclarımı qaytarım. Sonra Şeyxdən yenə də pul alıb tələbələrə verərəm. Ertəsi günün gecəsi yenə də ziyarətə getmişdim. Gördüm ki, Şeyx də oradadır. Yenə mənim yanımdan keçəndə buyurdu: Sən yarısını götür və yarısını da tələbələrinə ver. Borcunun yarısını qaytar, digər yarısını isə sonra verəcəyəm."

Bütün bunlar elə bir haldır ki, Allah-təala hər bir insana əta edə bilər. Yəni hər bir insanda hidayətin bütün mərhələlərinə nail olmaq üçün bu istedad və qabiliyyət vardır. Lakin bəzi insanlar istəyərək çalışıb bu məqama nail olurlar, bəzi insanlar isə heç bu şeyin fikrində belə deyillər.

Odur ki, Quranın sifətlərindən biri hidayətdir ki, fitri və ağıl vasitəsilə hidayət olunmuş insanları hidayət edər. Ayədə qeyd olunduğu kimi, Quran təqvalı insanları hidayət edər. Təqvasız insanlar isə Quranın həmin hidayətindən məhrum olarlar. Yəni əgər bir insan hidayət olunmaq istəyirsə və bu yolda əlindən gələn qədər çalışırsa, Quran da həmin şəxsi hidayət edər.

**10. Şəfa**

Quranın sifətlərindən biri də "şəfa"dır. Quran insanın həm ruhuna, həm də cisminə şəfa verər. "İsra" surəsinin 82-ci ayəsində belə oxuyuruq:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Biz Qurandan möminlər üçün (mənəvi və ictimai xəstəliklərə) şəfa və rəhmət olan şeyi nazil edirik.

İnşallah, gələcək bəhslərimizdə Quranın insana necə şəfa verməsi haqda söhbət edəcəyik. Burada xatırlatmaq üçün qeyd etməliyəm ki, Quran xəstə insanların həm ruhuna, həm də cisminə şəfa verir. Quran nifaq və küfr xəstəliyinə düçar olmuş insanın həm nifaqına, həm də küfrünə şəfa verər. Küfr çirkabından qurtarmaq istəyən hər bir insan Qurana iman gətirsə, bu kitab onun küfrünə şəfa verər. Çünki Quranda yalnız iman gətirənlər üçün şəfa və rəhmət vardır. Əgər bir insan küfrdən nicat tapmaq istəsə, iman gətirməklə Quranın şəfasını əldə edə bilər. Bundan əlavə, hər bir ayənin özünəməxsus xüsusiyyəti vardır ki, müxtəlif xəstəliklərin dərmanıdır. Hətta canı xəstə olan insanlar belə öz dərdlərinin dərmanını Quranda tapa bilərlər. Yüzlərlə, minlərlə insanın şahidi olmuşuq ki, Quran ayələri onların dərdlərinə şəfa vermişdir. Bu barədə gündəlik həyatımızda baş verən hadisələrdən birini sizin nəzərinizə çatdırıram.

Seyid Hüseyn adlı bir şəxs deyir: “Məni möhkəm bel ağrısı tutmuşdu. Ağrının şiddətindən çox əziyyət çəkirdim. İmam Zamana(ə.c) təvəssül etmək üçün Cəmkərana getdim. Yaxınlıqda bir çayxana var idi. Bir neçə gün gedib həmin çayxanada əyləşdim. Amma bu ağrıların əlindən qurtara bilmirdim. Axırıncı gecə yuxuda bir nəfər gəlib mənə dedi: "Cəmkərana gedərkən İmam Zamanı(ə.c) məsciddə gözləmək lazımdır, çayxanada yox." Yuxudan ayılıb Cəmkərana yollandım. Həmin gecəni məsciddə ibadət və dua etməklə məşğul oldum. Səhər tezdən bir nəfər gəlib yanımda əyləşdi və məndən hal-əhvalımı soruşdu. Mən ona bel ağrısından şikayət etməyə başladım. Həmin şəxs əlini belimin ağrıyan yerinə qoyub “Həşr” surəsinin 21-ci ayəsini oxudu:

لَوْ أَنزَلْنَا هَذَا الْقُرْآنَ عَلَى جَبَلٍ لَّرَأَيْتَهُ خَاشِعًا مُّتَصَدِّعًا مِّنْ خَشْيَةِ اللَّهِ وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ

-Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, mütləq onun Allah qorxusundan zəlil olub kiçildiyini və parçalandığını görərdin. Və bu məsəlləri insanlar üçün çəkirik ki, bəlkə fikirləşələr.

Bu ayəni oxuduqdan sonra mənə dedi: Qalx ayağa, baxaq görək ağrıyır, ya yox? Mən ayağa qalxdım. Belimdə daha ağrı hiss etmədim. Yoxlamaq üçün bir az gəzişdim. Məsciddən çölə çıxıb həyətdə o yan, bu yana getdim. Belimin ağrısı tamamilə yox olmuşdu. Şəfa tapdığım üçün Allaha şükür etdim. Yenidən məscidə qayıdıb həmin möminə təşəkkür etmək istədim. Lakin içəri girəndə onu orada görmədim. Başa düşdüm ki, təvəssül etdiyimə görə Allah-təala İmam Zamanın(ə.c) vasitəsilə mənə şəfa verdi.”

Beləliklə, qeyd olunan ləqəblər Quranın sifətləridir ki, həmin müqəddəs kitabda bəyan olunmuşdur. Bunu da bilmək lazımdır ki, hər bir sifətin bir cəhəti və xüsusiyyəti vardır.

## İslam hədislərində Quranın sifətləri

Ötən bəhslərimizdə Quran ayələrinə əsasən onun ad və sifətləri ilə tanış olduq. Burada çox yaxşı olar ki, Quranın sifətləri barədə nəql olunmuş hədislərdən bir neçəsinə də diqqət yetirək.

### 1. Şəfaətçi

İslam hədislərinə əsasən Quranın ləqəb və sifətlərindən biri “şəfaəti qəbul ediləcək şəfaətçi”dir. Yəni

Quran qiyamət günündə şəfaət edəcək və onun şəfaəti Allahın məhzərində qəbul olunacaqdır. Əlbəttə ki, Quranın bu şəfaəti yalnız möminlərə şamil ediləcək.

Şəfaətin mənası budur ki, abırlı və Allah-təala yanında hörməti olan bir şəxs günahları ucbatından əzaba düçar olmuş möminlərin əlindən tutaraq Allahın məhzərində onlara şəfaət etsin.

Qiyamət günü Allah-təala Peyğəmbərə(s), Əhli-beytinə(ə) və bir qrup başqa insanlara şəfaət etmək icazəsini verəcəkdir. Ümumiyyətlə, şəfaət Allaha məxsusdur. Qiyamət gününün maliki Allahdır. Həmin gün heç bir kəsə ixtiyar verilməyəcəkdir. Allah-təala şəfaət etməyi kimə icazə verərsə, həmin şəxslər də qiyamət günü günahkar möminlərə şəfaət edə biləcəklər. Yəni yalnız Allahın icazə verdiyi şəxslər qiyamət günü şəfaət edə biləcəklər. Onlardan başqa heç bir kəsə bu ixtiyar və icazə verilməyəcəkdir. Quranda bu barədə olan bir sıra ayələrə rast gəlmək mümkündür. Məsələn, "Zumər" surəsinin 44-cü ayəsində belə buyurulur:

قُل لِّلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَّهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ

-De: Şəfaət tamamilə Allaha məxsusdur. Göylərin və yerin hakimiyyəti Onundur.

Bu ayədə açıq-aydın şəkildə bəyan olunur ki, şəfaət yalnız Allaha məxsusdur və bütün ixtiyarların hamısı Onun əlindədir. Digər ayələrə diqqət yetirdikdə görürük ki, Allah-təala bəzi kəslərə şəfaət etmək icazəsini verəcəkdir. "Bəqərə" surəsinin 155-ci ayəsində belə buyurulur:

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

-Kim Onun izni olmadan Onun yanında şəfaət edər?

Bu ayədən də görürük ki, əlbəttə, Allah bəzi insanlara şəfaət etməyə icazə verəcəkdir. Deməli, qiyamət günü yalnız Allahın icazə verdiyi kəslər şəfaət edəcək və onlardan başqa heç bir kəsin bu işi görməyə ixtiyarı və icazəsi yoxdur.

Şəfaətlə bağlı hədislərdən danışası olsaq, bunlar o qədər çoxdur ki, həmin hədisləri toplayıb neçə-neçə kitablar yazmaq olar. Bu bəhsimiz şəfaətlə bağlı olmadığından sadəcə olaraq bir neçə hədislə kifayətlənəcəyik.

قَالَ رَسُول اللهُ(ص): لِكُلِّ نَبِيٍّ دَعوةٌ قَد دَعَا بِهَا وَ قَد سَأَلَ سُؤلاً فَاستَجِيب، و قد خَبَأتُ دَعوَتِي لِشَفاعَتِي لِأُمَّتِي يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər peyğəmbər Allah dərgahına dua etmiş və Ondan bir şey istəmişdir. Allah da onların istəyini yerinə yetirmişdir. Amma mən (Allahdan) öz xahişimi qiyamət günü ümmətimə şəfaət etmək üçün saxlamışam."[1]

Deməli, Həzrət Peyğəmbər(s) qiyamət günündə Allahın izni ilə öz ümmətinə şəfaət edəcəkdir. Ola bilsin ki, kimlərsə Peyğəmbərin(s) şəfaətini qəbul etməsinlər. O şəxslərin bu məsələyə imanı olsa da, olmasa da Peyğəmbərin(s) qiyamət günü şəfaət etməsi haqdır. Amma Peyğəmbər(s) onun şəfaətinə inanmayanlara şəfaət etməyəcək.

قَالَ رَسُول اللهُ(ص): شَفاعَتِي يَوم القِيَامَةِ حَقٌّ، فَمَن لَمَ يُؤمِن بِهَا لَمَ يَكُن مِن اَهلِهَا

[1] Mizanül-hikmə, 6-cı cild, səh.2788.

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü mənim şəfaət etməyim haqdır. Kim mənim şəfaət etməyimə iman gətirməsə, Allah-təala şəfaətimi ona çatdırmayacaq.”[1]

Qiyamət günü Peyğəmbərin(s) şəfaətinə inanmayanların haqqı yoxdur ki, Həzrətdən(s) şəfaət istəsinlər. Çünki onlar Peyğəmbərin(s) şəfaətçi olduğuna inanmırdılar. Buna görə də onlar Həzrətin(s) şəfaətindən məhrum olacaqlar.

Burada sual oluna bilər ki, qiyamət günü Allah hansı insanlara şəfaət etməyə icazə verəcəkdir? Bu sualın cavabını Həzrət Peyğəmbər(s) bir hədisdə belə buyurur: “Qiyamət gününün şəfaətçiləri bunlardır: Peyğəmbərlər, (həqiqi və elinə xidmət edən dini) alimlər, şəhidlər, Quran və sizin Peyğəmbərinizin əhli-beyti.”

Buna görə də Quranı oxuyub öyrənmək barədə bir çox hədislər nəql olunmuşdur. Əgər Quran insana şəfaətçi olacaqsa, bəs insan nə üçün onu oxuyub öyrənməməlidir. Həm Quran ayələrində, həm də Peyğəmbərin(s) və məsum imamların hədislərində bu müqəddəs kitabı öyrənməyə çox təkid edilir.

قَالَ رَسُول اللهُ(ص): تَعَلَّمُوا القُران فَإِنَّهُ شَافِعٌ يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Quran öyrənin, çünki o, qiyamət günü şəfaətçidir.”[2]

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 175-ci xütbəsində Quran barəsində belə buyurur:

---

[1] Mizanül-hikmə,6-cı cild, səh.2790.
[2] Mizanül-hikmə,6-cı cild, səh.2796.

وَاعْلَمُوا أَنَّهُ شَافِعٌ مُشَفَّعٌ... وَأَنَّهُ مَنْ شَفَعَ لَهُ الْقُرْآنُ يَوْمَ الْقِيَامَةِ شُفِّعَ فِيهِ

-Bilin ki, Quran *(qiyamətdə)* şəfaəti qəbul ediləcək şəfaətçidir. Quran qiyamət günü kimə şəfaət etsə *(söz və əməlinin doğruluğuna şəhadət versə)*, onun həmin şəxs barəsindəki şəfaəti qəbul olunar.

**2. Təsdiqləyici**

Hədislərdə nəql olunan Quranın sifət və ləqəblərindən biri "Sözü təsdiq ediləcək doğruçu"dur. Quran qiyamət günü bir dəstə insana şəfaət etdiyi kimi, bir dəstə insandan da şikayət edər və onun sözü təsdiq olunar. Hədislərdə deyilir ki, qiyamət günü bir neçə şey Allaha şikayət edər. Onlardan biri nahaq tökülən qanlar, nahaq qan tökülmüş yer, insanın üzərində yatdığı və sübh namazına durmadığı yer və s. şeylər insanlardan şikayət edəcəkdir. Onlardan biri də Allahın müqəddəs kitabı olan Qurandır ki, qiyamət günü şikayət edər və onun sözü təsdiqlənər. Həzrət Əli(ə) həmin xütbədə belə buyurur:

وَاعْلَمُوا أَنَّهُ... وَقَائِلٌ (مَاحِلٌ) و مُصَدَّقٌ، وَأَنَّهُ مَنْ شَفَعَ لَهُ الْقُرْآنُ يَوْمَ الْقِيَامَةِ شُفِّعَ فِيهِ، وَمَنْ مَحَلَ بِهِ الْقُرْآنُ يَوْمَ الْقِيَامَةِ صُدِّقَ عَلَيْه

-Bilin ki, Quranın sözü təsdiq ediləcək doğruçudur. Quran qiyamət günü *(eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allahın hüzurunda)* kimi çirkin və nalayiq bilsə *(küfr, ikiüzlülük, pis davranış və şəhvətpərəstliyi barəsində şəhadət versə)* sözü həmin şəxsin ziyanına təsdiqlənər.

**3-4. Möhkəm ip və doğru yol**

Hədis və rəvayətlərdə Quranın sifətlərindən biri də möhkəm və qırılmaz ip, digəri isə ən doğru və düzgün olan yoldur. Həzrət Peyğəmbər(s) möminlər üçün Quran barəsində müfəssəl bir xütbə oxumuşdur. Həmin xütbənin bir hissəsi belədir:

قَالَ رَسُولُ اللهِ(ص): لا خَيرَ فِي العِيش اِلاّ لِمُستَمِعٍ وَاعٍ اَو عَالِمٍ نَاطِقٍ. أَيُّهَا النَّاسُ إِنَّكُم فِي زَمانٍ هُدنَةٍ وَ اِنَّ سِيرَ بِكُم سَرِيعٌ وَ قَد رَأَيتُم الَّيلَ وَ النَّهار وَالشَّمسَ وَالقَمْرَ يُبْلِيانِ كُلَّ جَدِيدٍ وَ يُقَرِّبَان كُلَّ بَعِيدٍ وَ يَأتِيانِ بِكُلِّ مُوعدٍ فَأَعِدُّوا الْجِهادَ لِبُعدِ الْمِضمَار

-Həzrət Peyğəmbər(s) buyurur: “Yaşayışda (dünya həyatında) eşidən və düşünən insanlar və natiq (alim) insanlardan başqası üçün bir xeyir yoxdur. Ey insanlar! (Camaat!) Həqiqətən də siz hazırda rifah və asayişdə yaşayırsınız. Siz çox sürətlə səfər edirsiniz. (Təbiətdə) gördüyünüz gecə və gündüz, Günəş və Ay əl-ələ verib bütün təzəlikləri köhnəldir, bütün uzaqlıqları yaxınlaşdırır və bütün olacaqlar üçün verilən vədləri çatdırır. Özünüzü qarşıdan gələn böyük bir müsabiqəyə hazır edin. (Yaxud qarşıda sizi gözləyən böyük bir yarış üçün çalışın.)”

فَقَامَ مِقْدَادُ بْنُ الْأَسْوَدِ فَقَالَ: يَا رَسُولَ اللَّهِ مَا الْهُدنَة؟

-Miqdad ibn Əsvəd ayağa qalxıb dedi: “Ya Rəsulallah, hüdnə (rifah və asayiş) nədir?”

قَالَ(ص): بَلَاءٌ وَ انْقِطَاعٌ. فَإِذَا الْتَبَسَتْ الْأُمُورُ عَلَيْكُم كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْآنِ... و مَنْ جَعَلَهُ أَمَامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ وَ مَنْ جَعَلَهُ خَلْفَهُ سَاقَهُ إِلَى النَّارِ وَ هُوَ الدَّلِيل اِلى خَير سَبِيلٍ وَ هُوَ الفَصلُ

لَيسَ بِالْهَزَلِ... لَهُ ظَهْرٌ وَ بَطْنٌ وَ ظَاهِرُهُ حُكْمٌ وَ بَاطِنُهُ عِلْمٌ... عَمِيقٌ بَحرُه لا تُحصَى عَجائِبُهُ وَلا يَشبَعُ مِنهُ عُلَمَاؤُهُ وَ هُو حَبلُ اللهِ الْمَتِين وَ هُوَ الصِراطُ الْمُستَقِيم

-Həzrət(s) buyurdu: "Bəla və imtahan yeridir. Bir gün onun sonu çatıb yox olacaq. Elə isə çaşqınlıq və fitnələr üstünüzə qaranlıq gecə kimi üz gətirdikdə (hücum çəkdikdə) Qurandan möhkəm yapışın (Qurana pənah aparın). Hər kəs onu özünə rəhbər və yolgöstərən tutsa, Quran həmin şəxsi aparıb cənnətə çıxaracaq. Hər kəs ondan qabağa düşsə, Quran onu cəhənnəmə yönəldəcək. Quran ən gözəl bələdçi və yolgöstərəndir.[1] O, haqqı batildən ayırandır... Onun həm zahiri, həm də batini vardır. Onun zahiri (Allahın) hökmləri, batini isə (Allahın) elmidir. Quran dərin bir dəryadır. Onun qəribəlikləri və möcüzələri tükənməzdir. Alimlər onun elmindən heç vaxt doymazlar. Quran Allahın möhkəm və qırılmaz ipidir. Quran ən düzgün və doğru yoldur."[2]

### 5. Qəlblərin baharı

Hədislərə görə Quranın ləqəb və sifətlərindən biri də "Qəlblərin baharı"dır. Quran insanın qəlbini dirildir və pasını təmizləyir. Quran qəlblərə həyat bəxş edir. Quran qəlbləri ağardıb təmizləyir. Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, qəlblər dəmir paslandığı kimi paslanar."

---

[1] Buna görə də bələdçinin arxası ilə gedərlər, ondan qabağa düşməzlər.
[2] Mizan-mütərcim,10-cu cild, səh.4802.

Soruşdular: "Ya Rəsulallah, dəmir paslandıqda onu müəyyən alətlərlə cilalayıb təmizləmək olur. Bəs qəlblər paslandıqda onu necə təmizləyək?" Həzrət(s) buyurdu: "Ölümü xatırlamaq və Quran oxumaqla."

Əgər insan ölümü həmişə yada salıb xatırlasa, qəlbinin pas və qaralığı aradan gedər və nuranilәşər. Ümumiyyətlə, insan başa düşməlidir ki, hamı üçün qəfil gələn ölüm bir gün onun qapısını da döyəcəkdir. İnsan həmişə yadında saxlamalıdır ki, bir gün Əzrayıl onun da canını almaq üçün gələcək. Ölüm elə bir şeydir ki, heç bir kəs onu inkar edə bilmir. Çünki hamının gözü qarşısında gündə minlərlə insan dünyadan gedir. Buna görə də hər bir insan bilsin və yadında saxlasın ki, ölüm gec-tez onun üçün də gələcəkdir. Odur ki, insan özünü daim ölümə hazır saxlamalı və Allahın buyurduqlarına olduğu kimi əməl etməlidir. Bunun üçün də çox yaxşı olar ki, insan hərdən qəbiristanlığa getsin, dünyasını dəyişmiş qəbiristanlıq əhlinə salam versin və onların ruhuna "Fatihə" və dualar oxusun. İmamlarımızın həyatına diqqət yetirdikdə görürük ki, onlar da qəbiristanlıq əhlinə salam verər və onlarla söhbət edərdilər. Həzrət Əli(ə) qəbiristanlıq əhli ilə elə söhbət edərdi ki, hamını təəccübləndirərdi. Həzrət(ə) dünyasını dəyişənlərlə və qəbiristanlıqda yatanlarla çox gözəl söhbət edər və bununla da ətrafdakılara bir sıra məsələləri çatdırardı.

"Nəhcül-bəlağə"nin 130-cu məktubunda belə yazılır. Həzrət Əli(ə) Siffeyn müharibəsindən qayıdarkən Kufə qəbiristanlığının yanında dayanaraq üzünü qəbirlərə tutub buyurdu:

يَا أَهْلَ الدِّيارِ الْموهِشَةِ وَ الْمِحَالِ الْمُقْفِرَةِ والْقُبُورِ الْمُظْلِمَةِ يَا أَهْلَ التُّرْبَةِ يَا أَهْلَ الْغُرْبَةِ يَا أَهْلَ الْوَحْدَةِ يَا أَهْلَ الْوَحْشَة أَنْتُمْ لَنَا فَرَطٌ سَابِقٌ وَنَحْنُ لَكُمْ تَبَعٌ لاحِقٌ أَمَّا الْدُورُ فَقَدْ سُكِنَتْ وَ أَمَّا الْأَزْوَاجُ فَقَدْ نُكِحَتْ وَ أَمَّا الْأَمْوَالُ فَقَدْ قُسِمَتْ هَذَا خَبَرٌ مَاعِنْدَ نَا وَ مَا خَبَرٌ مَا عِنْدَكُمْ ثُمَّ الْتَفَتَ إِلى أَصْحَابِهِ فَقَالَ: أَمَّا لَوْ أُذِنَ لَهُمْ فِي كَلامِي لَأَ خْبرُوكُمْ إِنَّ خَيْرَ الزَّادِ التَّقْوى

-Ey vəhşətli evlərin sakinləri! Ey zülmət qəbirlərin əhli! Ey torpaq altında yatanlar! Ey qürbət əhli! Ey tənha evlərin əhli! Ey vəhşət əhli! Siz bizdən əvvəl bu diyara gəldiniz və biz də sizə qovuşacağıq. Əgər burda olan xəbərləri eşitmək istəyirsinizsə, sizə çatacaq xəbərlər budur: Siz öləndən sonra evlərinizdə başqaları sakin oldu. Həyat yoldaşlarınız başqaları ilə evləndi. Vərəsələriniz mallarınızı öz aralarında bölüb dağıtdılar. Buradan sizə çatacaq xəbərlər yalnız bunlardır. İndi oradakı xəbərləri siz deyin.

Sonra Həzrət(ə) üzünü əshabına tərəf çevirib buyurdu: "Əgər onlara danışıq icazəsi verilsəydi, onlar durub belə deyərdilər: "Ya Əli, burada hər şeydən mühüm və dərdə dəyən əməl yalnız təqvadır."[1]

İnsan dünyasını dəyişdikdən sonra kimliyindən asılı olmayaraq orada dərdinə dəyin bir şey varsa, o da yalnız təqvadır. Buna görə də insan ölümü yada salmaqla yanaşı, təqvanı da əldə etməlidir. Boş-boşuna ölümü xatırlamaq

[1] Nəhcül-bəlağə, 130-cu hikmət.

insana fayda verməz. İnsan ölümü yada saldıqca ibrət almalı və əməllərini də düzəldərək qəlbini cilalamalıdır.

Həmçinin insanın qəlbini cilalayıb onun qaralığını təmizləyən amillərdən biri də Quran oxumaqdır. Qeyd olunduğu kimi, həm Quran ayələri, həm də məsumlar bizə çoxlu Quran oxumağı tövsiyə etmişlər. Quran insanın qəlbinə şəfa verib onu cilalayar. Quran hər bir dərdin dərmanıdır. Quran insanın ruhunun, cisminin və cəmiyyətinin dərmanıdır.

İntizam Kəşmiri adlı böyük bir alim deyir: "Günlərin birində Xorasanda Ayətullah Şeyx Həsənəli İsfahaninin yanına gedib ondan məsləhət istədim. Ayətullah Şeyx Həsənəli böyük alim və ariflərdən biri idi. Böyük müctəhidlər ona çox ehtiram göstərirdilər. Ona dedim ki, ağa, mən gecə namazı qıla bilmirəm. Bundan əlavə, işlərim də heç düz gətirmir. Ruhum xarab olub, ibadətə meylim azalıb və ruzi qazanmaq mənim üçün çətinləşib. Xahiş edirəm, mənə elə bir şey öyrədəsiniz ki, Allah mənim bütün işlərimi sahmana salsın. Şeyx Həsənəli azacıq susduqdan sonra buyurdu: "Hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxusan problemlərin həll olunacaq."

Mən ona təşəkkürümü bildirib evə qayıtdım. "Yasin" surəsinin yarısını əzbərdən bilirdim. Bir neçə gün oxuyub həmin surəni tam əzbərlədim. Hər gün sübh namazından sonra işə gedərkən yolda gedə-gedə bir dəfə "Yasin" surəsini oxuyurdum. Bir müddət beləcə davam etdim. Lakin yenə də nə gecə namazına müvəffəq ola bildim, nə də işlərim düzəldi.

Günlərin birində işlə əlaqədar olaraq Xorasana getdim. Hava həm yağışlı, həm də soyuq idi. Görüşəcəyim adamın qapısına getdim. Qapını nə qədər döydümsə, açan

olmadı. Öz-özümə dedim: Görəsən, mən gecənin bu vaxtında hara getsəm yaxşı olar. Birdən yadıma düşdü ki, Şeyx Həsənəlinin evinə gedim, həm də onun mənə verdiyi tapşırığın təsiri olmadığını deyib giley-güzarlıq edərəm. Şeyxin qapısına çatdıqda gördüm ki, evin işıqları yanır və qapı da açıqdır. Həyətə daxil olduqda gördüm ki, evdə məclis təşkil olunub və içəridə xeyli adam vardır. Şeyxin əyləşdiyi otaqda adam çox idi. Hava soyuq olduğuna görə qapını örtmüşdülər. Dəhlizdə isə bir neçə nəfər əyləşib onun söhbətinə qulaq asırdı. Mən də dəhlizdə əyləşib onun sözlərini dinləməyə başladım. Şeyx söhbət əsnasında mövzunu dəyişib bir söz dedi. O, mənim dəhlizdə əyləşdiyimi görmürdü. Amma onun bu sözü sanki mənə aid idi. Dedi ki, bəli, bəli. Bəziləri gəlib məndən gecə namazına müvəffəq olmaları və işlərinin səhmana düşməsi üçün məsləhət istəyirlər. Mən də onlara deyirəm ki, hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxuyun. Onlar da gedib "Yasin" surəsini dəstəmazlı və üzü qibləyə əyləşdiyi halda oxumaq əvəzinə, yol gedə-gedə, işləri ilə məşğul ola-ola oxuyurlar. Elə başa düşürlər ki, yol gedə-gedə, iş görə-görə "Yasin" surəsini oxuduqda problemləri həll olunacaqdır. Bir ildən sonra da Məşhədə başqa bir iş üçün gəlir və işi alınmır. Dünya işinin alınmadığını görərək yenə də mənim yanıma gəlir və axirət işinin alınmaması yadına düşdüyündən mənə giley-güzarlıq etmək istəyir. Diqqətli olmaq lazımdır. Diqqətli olmaq lazımdır. Diqqətli olmaq lazımdır.

Şeyx bu sözləri deyib yenə də əvvəlki söhbətini davam etdirməyə başladı. Mən də onun sözlərindən payımı götürdüm və başa düşdüm ki, diqqətsizlik üzündən problemlərim öz həllini tapmamışdır.

Bu hadisə sadəcə böyük bir alim barəsində olan bir əhvalatdır. Bundan öndə isə bizim üçün Peyğəmbərin(s) və məsum imamların söylədikləri dayanır ki, onlar Quran oxumaq barədə bizə kifayət qədər dəyərli nəsihətlər etmişlər. Əgər insan Quran oxusa və onun göstərişlərinə dəqiqliklə əməl etsə, sanki həkimə gedib xəstəlikləri üçün müalicə yazdıran və həmin müalicəni dəqiqliklə yerinə yetirərək şəfa tapmış xəstə kimi olar. Hər bir insan mütləq Qurana dəqiqliklə və Allahın buyurduğu kimi əməl etməlidir. Əgər bu işdə dəqiqlik olmasa və hər bir şəxs öz bildiyi kimi hərəkət etsə, o zaman heç bir vaxt dərdinə dərman edə bilməyəcək. Belə olduqda əlbəttə ki, insanın özündən başqa kimisə qınamağa haqqı yoxdur.

Əgər müsəlmanlar müqəddəs Quran kitabını açıb oxusaydılar və onun ayələrinə əməl etsəydilər, onda əvvəllər inkişaf etdikləri kimi inkişaf edər və cürbəcür bədbəxtliklərlə üzləşməzdilər. Müsəlmanların ən böyük bədbəxtçiliyi onların öz dinlərindən və müqəddəs kitablarından xəbərsiz olmalarıdır. Əgər müsəlmanlar Qurana əsaslanıb onun buyurduğu kimi hərəkət etsəydilər, o zaman hər bir müsəlman bir sahə üzrə böyük mütəxəssis olardı. İbn Sina, Nəsrəddin Tusi kimi məşhur və böyük alimlər məhz Quranın bütün incəliklərinə əməl etdiklərinə görə elmdə inkişaf etmişdilər. Odur ki, hazırda da onların şəkilləri xarici ölkə universitetlərində digər nümunəvi alimlərin şəkli kimi şərəf lövhələrinə vurulmuşdur. Lakin sonradan müsəlmanlar Qurandan ayrı düşdülər və öz bildikləri kimi hərəkət etməklə özlərini ağır və pis bir vəziyyətə saldılar. Düşmənlər də bu kimi məqamlardan istifadə edərək müsəlmanların əlində olanların hamısını onlardan aldılar. O cümlədən də Qüds məscidini ələ keçirdilər ki, bu məkan hazırda da zalımların əlindədir.

Əgər müsəlmanların vəhdəti olsaydı və hamı Quranın ətrafında, həm də bir əqidədə toplaşsaydı, heç bir qüvvə onlara qalib gələ bilməzdi. Belə olduğu təqdirdə müsəlmanların bir hissəsi də öz vətənlərindən ayrı düşməzdilər. Bütün bu kimi bədbəxtliklərin hamısı müsəlmanların İslamdan və Qurandan ayrı düşməsinin nəticəsidir.

Böyük alimlərdən biri belə yazmışdır: "İslam başqa, müsəlmanlar tamam başqadır." Yəni bir çox müsəlmanın İslam və Qurandan heç bir xəbəri olmadığına görə müsəlman olmalarına baxmayaraq, dinin hər hansı bir əməl və nişanəsi onlarda yoxdur.

Uca Allahdan istəyim budur ki, müsəlmanlar İslamı olduğu kimi qəbul edib onun hökmlərinə tam dəqiqliklə əməl etsinlər. Belə olduqda hamı öz istəyinə çatar. Çünki Allahın istədiklərinə əməl edənlərə Allah-təala özü kömək olar və onları xoşbəxtlik zirvəsinə ucaldar. Necə ki, Allah-təala "Muhəmməd" surəsinin 7-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن تَنصُرُوا اللَّهَ يَنصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ

-Ey iman gətirənlər! Əgər Allaha (Onun peyğəmbərinə, dininə və kitabına) yardım etsəniz, Allah da (məqsədlərinizə çatmaqda) sizə yardım edər və qədəmlərinizi möhkəmləndirər.

## 6. İlahi süfrə

Hədislərdə Quranın sifətlərindən biri "Mədubətullah", yəni "İlahi süfrə" adlandırılmışdır. Quran Allahın insanlar üçün açdığı geniş bir süfrədir. Odur ki, hamını bu süfrə kənarında əyləşməyə dəvət edir. Quran Allahın insanlar üçün nazil etdiyi gözəl bir süfrədir. İnsanlar bacardıqları qədər bu süfrədən istifadə etməlidirlər. İslam Peyğəmbəri(s) bu barədə belə buyurur:

الْقُرْآنُ مأدُبةُ الله فَتَعَلَّمُوا مَأدُبَتهُ مَا اسْتَطَعتُم

-Quran Allahın insanlar üçün yer üzündə açdığı ən gözəl və dolu bir süfrədir. Bacardığınız qədər bu süfrədən istifadə edin (öyrənin).[1]

Bu hədisdə işlənən "Mədubə" kəlməsi içi dolu, geniş və xeyrə açılan bir süfrəyə deyilir. Süfrə açdıqda iki mühüm əmələ riayət edilməlidir. İlk növbədə onu xeyrə açmalı, ikincisi isə süfrənin üstü müxtəlif nemətlərlə doldurulmalıdır. Qurani-Kərim də Allahın yer üzündə açdığı ən gözəl süfrəsidir. Allah-təala bütün insanları bu süfrəyə dəvət edir. Buna görə də dəvəti qəbul edib həmin süfrənin kənarında əyləşənlər bacardıqları qədər ondan istifadə etməlidirlər.

Quran elə bir kitabdır ki, insanı hər bir şeydən xəbərdar edir. İnsana lazım olan hər bir şeyi öyrədir. İnsanlara keçmişdən və gələcəkdən xəbər verir.

قَالَ عَلِيٌّ(ع): فِي الْقُرآنِ نَبَأُ مَا قَبلَكُم وَخَبَرُ مَا بَعدَكُم وَحُكمُ مَا بَينَكُم

-Həzrət Əli(ə) buyurur: "Keçmişdəkilərin xəbəri, gələcəyin məlumatı və hazırkı zamanın hökmlərinin hamısı Qurandadır."[2]

Quran insanın xasiyyətini dəyişdirər və onu səadətə qovuşdurar. Allahın insanlar üçün açdığı bu süfrənin çox gözəl xüsusiyyətləri var. Yuxarıda qeyd etdiyimiz Həzrət Əlinin(ə) Quran barədə buyurduğu kəlamda buna belə

[1] Mizanül-hikmə,10-cu cild, səh.4812.
[2] Mizanül-hikmə,10-cu cild, səh.4812.

işarə olunur: “Quranla oturan *(onu oxuyaraq barəsində fikrə dalıb düşünən)* elə bir kəs yoxdur ki, onun yanından duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun.”

Bu süfrənin kənarında əyləşib ondan istifadə etdikdən sonra ayağa qalxan şəxs özündə bir cəhətin çoxaldığını və digər bir cəhətin isə azaldığını hiss edəcəkdir. Yəni Quranla ünsiyyətdə olan şəxs bir tərəfdən hidayət olunma cəhətindən irəlilədiyini başa düşəcək və digər tərəfdən isə cəhalət, korluq və nadanlığının azaldığını hiss edəcəkdir.

Quranı öyrənib onun hökmlərinə əməl etmək insan üçün ən böyük xoşbəxtlikdir. Çünki Quran həm bu dünyada insanı hidayət edib ona yol göstərir, həm də axirətdə bir çox məqamlarda ona yardımçı olacaqdır. Bir sözlə desək, Quranla ünsiyyətdə olan hər bir insan mütləq ondan bəhrələnəcəkdir. Bu barədə çoxlu hədis və rəvayətlər də mövcuddur. Nümunə üçün Peyğəmbərin(s) Quran barəsində Məaza etdiyi vəsiyyətə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): يَا مَعاذ، إِن اَرَدْتَ عِيش السُّعَداء، وَمَيّتَةَ الشُّهَداء، وَالنّجاةَ يَومَ الْحَشر، وَ الأَمن يَومَ الْخَوف، وَالنُّورَ يَومَ الظُّلُمَات، وَالظِّلَّ يَومَ الْحَرُور، وَالرِّيَّ يَومَ العَّطَش، وَالوَزنَ يَومَ الْخِفَّة فَادْرُسِ القُرآن فَإِنَّهُ ذِكرُ الرَّحمان وَحِرزٌ مِنَ الشّيطَان وَ رُجْحَانٌ فِي الْمِيزَان

-Ey Məaz, xoşbəxt insanlar kimi yaşamaq, şəhidlər kimi ölmək, məhşər günündə nicat tapmaq, qorxudan amanda qalmaq, zülmət qaranlıqda nur görmək, yandırıcı istidə sərin və kölgədə olmaq, susuzluqdan sirab olmaq,

hesab-kitabının yüngülləşməsini istəyirsənsə Quran öyrən. (Quranı oxuyub əməl et). Həqiqətən o (Quran) Rəhman olan Allahın zikri, şeytandan amanda qalmaq üçün möhkəm qaladır və (qiyamət günü) tərəzidə (yaxşı əməllərin) ağır gəlməsinə səbəb olar.[1]

İnsan daim düşünməli və dünyaya nə üçün gəldiyini dərk etməlidir. Allah-təala insanı məhz buna görə yaratmışdır ki, göndərdiyi kitabın əsasında öz həyatlarını qurub ibadət etsinlər. Məsələn, bir tələbə məktəbə gedirsə, deməli onun bütün işi-gücü dərs oxuyub öyrənməkdir. Məktəbdə ondan dərslə bağlı sual soruşulursa, mütləq cavab verməlidir. Dərsi bilmədikdə və ondan "nə üçün öyrənməmisən?"- deyə soruşduqda "oxumağa vaxtım olmayıb",- desə üzrü qəbul olunmayacaqdır. Çünki hər bir tələbə və şagirdin əsas işi məhz dərs oxumaqdan ibarətdir.

Bu misalı çəkməklə onu demək istəyirəm ki, insan bu dünyaya Quranı öyrənib ona əməl etmək üçün gəlmişdir. Əgər bir insan Quranı öyrənmirsə, yaxud ona əməl etmirsə, qiyamət günü onun heç bir üzrü qəbul olunmayacaq. Allah-təala insanı ibadət etmək üçün yaratmışdır. Əgər insan başını digər işlərlə qatıb əsas hədəfdən uzaq düşsə, qiyamət günü Allaha nə cavab verəcəkdir? Buna görə də hər bir insan Allahın göndərdiyi kitabdan dərs almalı və öz həyatını onun əsasında kökləməlidir.

**7. Nəsihət edən və yolgöstərən**

Hədislərə əsasən Quranın sifət və ləqəblərindən biri də onun ən gözəl nəsihətçi və yolgöstərən olmasıdır. Bu

[1] Mizanül-hikmə,10-cu cild, səh.4814.

barədə bir çox hədislər nəql olunmuşdur ki, onlardan birini nəzərinizə çatdırıram.

قَالَ عَلِيٌّ(ع): اِعْلَمُوا أنَّ هَذا القُرآن هُو النَّاصحُ الَّذِي لا يَغُشّ، وَالهَادِي الَّذِي لا يُضِلّ والمحَدِّثُ الَّذِي لا يَكْذِب وَمَا جَالَسَ هَذَا القُرآنَ اَحَدٌ اِلاّ قَامَ عَنهُ بِزِيادَةٍ وَ نُقصَانٍ زِيَادَةٍ فِي هدىً اَو نُقصَانٍ مِن عَمي....

-Həzrət Əli(ə) buyurur: "Bilin ki, bu Quran *(düz yola istiqamətləndirməsində)* xəyanət etməyən öyüdverən, azdırmayan bələdçi və *(söhbətində)* yalan deməyən natiqdir. Bu Quranla oturan *(onu oxuyaraq barəsində fikrə dalıb düşünən)* elə bir kəs yoxdur ki, onun yanından duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun."[1]

## Quran İlahi vəhydir

Hamıya məlumdur ki, Qurani-Kərim Allahın insanları hidayət etməsi üçün göndərdiyi müqəddəs bir kitabdır. Sual oluna bilər ki, bu kitab Allah tərəfindən bizim əlimizə hansı yolla gəlib çatmışdır? Bu sualın cavabını bilmək üçün qısaca da olsa bir mətləbi bilməyimiz vacibdir.

Həmin mətləb budur ki, bütün müsəlmanlar firqəsindən asılı olmayaraq Quranın İlahi vəhy olduğunu yekdilliklə qəbul edirlər. Yəni hamı bilir ki, Quran vəhy vasitəsilə Peyğəmbərə(s) nazil olmuş və nazil olduğu kimi də insanların əlinə çatmışdır.

---

[1] Nəhcül-bəlağə, 175-ci xütbə.

Burada çox yaxşı olar ki, vəhyin nə olduğunu və onun mənasını öyrənək. Lüğətdə "vəhy" kəlməsi ərəb sözü olub "işarə", "peyğam" (mesaj), "gizli söz", "gizli əlamətlərlə söz demək" və "tələsik" mənalarını ifadə edir. Bu mənalardan belə aydın olur ki, əgər insan öz sözünü başqasına arada söz olmadan işarə ilə başa düşüb dərk edəcəyi tərzdə başa salsa və həmin şəxs də onun fikrini o istədiyi kimi başa düşüb dərk etsə, buna vəhy deyilir. Qurana diqqət yetirdikdə vəhyin bütün mənalarına işarə edildiyinin şahidi oluruq. Ümumiyyətlə, Quranda üç növ vəhydən söhbət açılmışdır. Onlardan biri Allahın, ikincisi insanın, üçüncüsü isə şeytanın vəhyidir. Bu bəhsimizdə hər üç vəhy barədə söhbətimiz olacaq. İlk növbədə Allahın vəhyi barədə söhbətimizə başlayaq.

## Allahın vəhyi

İlahi vəhy odur ki, Allah-təala bütün yaratdıqlarının hamısına Öz istədiyini (sözünü və əmrini) çatdırır. Yəni Allah-təala aləmdə yaratdığı bütün varlıqların hamısına, hətta daşlara, dağlara, bitkilərə, canlılara və s. məxluqlara vəhy etmişdir. Lakin şüurlu və müdrik olmayan varlıqlara Allah-təala təkvini yolla vəhy edib Öz sözünü çatdırmışdır. Yəni Allah- təala hidayət olunmağı onların fitrətində qərar vermişdir. Əlbəttə, ötən bəhslərimizdə bu barədə azacıq da olsa söhbət etmişik. Bütün məxluqlar Allahın təkvini hidayətinin nəticəsində Onun istədiyi kimi hərəkət və inkişaf edir. Bütün bu məxluqların heç biri indiyə qədər qanun pozuntularına yol verməmişdir. İstər ağaclar, istər küləklər, istər od, istər ay, istər günəş və s. kimi varlıqların heç biri Allahın iradəsindən kənara çıxmamış və çıxmayacaq da.

İstisna hallar baş verdikdə bunlar da Allahın iradə və istəyi əsasında baş verir. Əgər odun xüsusiyyəti yandırmaqdırsa, bəzi hallarda Allahın iradəsi ilə öz təsirini itirir. Məsələn, Həzrət İbrahimi(ə) odun içinə atdıqda Allah-təala oda onu yandırmamağı və soyuq olmağı əmr etdi. Həmçinin təndirin içərisində Musanı(ə) yandırmamağı əmr verdi. Bütün bunlar Allahın əmri və iradəsi ilə baş verir. Heç biri Allahın qanununu poza bilməz. İstisna hallarda öz xüsusiyyətlərini itirmələri də Allahın əmri ilə baş verir. Bu hidayət Allahın təkvini hidayətidir ki, onu bütün əşyalara vəhy etmişdir. Bütün əşyaların hamısının Allahla əlaqəsi vardır. Yəni onlar hər an Allahın əmri ilə hərəkət edirlər. Allah-təala dağa nə vaxt partlayıb toz olmağı əmr versə, dağ partlayıb toz olacaqdır. Yer kürəsi və digər planetlərin hamısı çox dəqiq və nizam-intizamla hərəkət edirsə, bütün bunların hamısı Allahın onlara etdiyi vəhyin nəticəsindədir. Bu gözəlliklə və nizam-intizamla hərəkət edən yer kürəsinə bir zaman pozulub dağılmağı əmr edəcəkdir. Buna işarə olaraq "Zəlzələ" surəsində oxuyuruq:

إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا. وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا. وَقَالَ الْإِنسَانُ مَا لَهَا. يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا. بِأَنَّ رَبَّكَ أَوْحَى لَهَا

-Yer özünəməxsus (yaradılışın tarixində yalnız bircə dəfə baş verəcək) bir titrəyişlə titrədiyi zaman, yer öz qiymətli yüklərini və çox dəyərli mallarını (ölüləri, mədənləri və xəzinələri) çıxarıb atacağı zaman. Və (onun köksündən çıxan) insan (təəccüb və dəhşətlə): "Buna nə olub?!" - deyəcəyi zaman. Məhz o gün yer öz xəbərlərini açıb söyləyər. Ona görə ki, sənin Rəbbin ona vəhy etmişdir.

“İnfitar” surəsinin əvvəllərinə diqqət yetirdikdə qiyamətin nişanələrindən və göydəki ulduzlar, habelə dənizlərin aqibətindən söz açaraq belə buyurur:

إِذَا السَّمَاء انفَطَرَتْ. وَإِذَا الْكَوَاكِبُ انتَثَرَتْ. وَإِذَا الْبِحَارُ فُجِّرَتْ

-Göy yarıldığı zaman, ulduzlar dağılıb səpələndiyi zaman, dənizlər yarıldığı (və sular bir-birilərinə qarışdığı), yaxud qaynayıb dolduğu zaman.

Göyün necə yarılacağını, ulduzların necə səpələnib dağılacağını və dənizin suyunun necə qaynayıb çölə töküləcəyini bizim şüurumuz dərk etmir. Böyük alimlərin heç biri qiyamət günü bu nizam-intizamın necə pozulacağını bilmir. Amma hər halda bütün bunlar baş verəcəkdir. Bütün insanlar həmin günü görəcəklər və dünyanın aqibətinin və dağılmasının şahidi olacaqlar. Allah-təala bütün bu aləmi insana görə yaratmışdır. Bütün insanlar yerin zəlzələ edəcəyini, qəbirlərdən qalxmağını, ulduzların dağılmasını və s. kimi əlamətlərin hamısını görəcəklər. Hamı bir nəfər kimi məhşərə gələcəkdir. Kimi cənnətə gedib xoşbəxtlərin cərgəsinə, kimisi isə cəhənnəmə gedərək bədbəxtlərin cərgəsinə qoşulacaq.

Allah-təala bütün bunların hamısını insan üçün yaradıb və insana da göstərəcəkdir. Aləmdə olan bütün varlıqların heç biri Allahın izni olmadan, yəni özbaşına hərəkət etmir. Bütün varlıqların hamısı insanlar üçün yaradılmışdır. İnsanın şərafəti hər bir şeydən üstün olduğundan ona ixtiyar vermişdir. Digər varlıqların heç birinə belə bir ixtiyar verilməyib. Məsələn, günəşin istədiyi vaxt çıxıb, istədiyi vaxt batmağa  ixtiyarı yoxdur. Gördüyümüz bütün bu qalaktika bir saniyə belə onun üçün qoyulan qanunu poza bilməz. Çünki onda olanlara belə bir ixtiyar verilməmişdir. Əgər buraya daxil olanlardan biri bir

saniyə belə mövcud nizamı pozarsa, o zaman bütün sistem bir-birinə dəyər.

Deməli, Allah-təala onları yaratmış və onlar üçün qanun da müəyyən etmişdir. Buna görə də onlar heç bir vaxt Allahın qanununu poza bilməzlər. Allah-təala nə vaxt onlara pozulub dağılmağı vəhy edərsə, o zaman onlar da pozulub dağılacaqlar. Amma insana azacıq ixtiyar verilmişdir. İnsan ona verilmiş  bu azacıq ixtiyarla bütün aləmi bir-birinə vurur. Əlbəttə, onu da bilmək lazımdır ki, insana da bütün həyatı boyu tam ixtiyar verilməyib. Sadəcə olaraq bədən üzvləri ilə bağlı hərəkətlərində ona belə bir ixtiyar verilmişdir. İnsanın dünyaya gəlməsi, yaşaması, get-gedə böyüyüb qocalması və nəhayət, dünyadan getməsi onun ixtiyarında deyildir.

Kim deyə bilər ki, mən qocalmıram? Kim deyə bilər ki, mən ölməyəcəyəm? Heç bir kəs bu məsələlərə müdaxilə edə bilməz və edə bilməyəcək də. İnsan istəsə də, istəməsə də dünyaya gəlir və istəsə də, istəməsə də qocalığa doğru gedir, yaxud istəsə də, istəməsə də dünyadan gedir. Bu, Allahın insanda olan təkvini qanunudur ki, həmin qanunu heç kim poza bilməyəcəkdir. Allah-təalanın təkvini iradəsində isə insana ixtiyar verilməyib. Sadəcə olaraq dünyaya gələndən dünyadan gedənədək ona öz hərəkətlərində sərbəstlik verilmişdir. İnsanın bundan artıq heç bir şeyə ixtiyarı yoxdur.

Məsələn, Allaha, Peyğəmbərə(s) və Qurana inanıb-inanmamaq insanın öz ixtiyarındadır. Haqq sözü söyləyib-söyləməmək, namaz qılıb-qılmamaq və s. kimi əməllərin yerinə yetirilməsində insana ixtiyar verilmişdir. İslam dinini qəbul edib-etməməyi də insanın öz ixtiyarına buraxmışdır. Çünki dində məcburiyyət yoxdur. Lakin Allahın dinini qəbul etdikdən sonra Onun müəyyən etdiyi

qanunları pozan şəxsə cəza tətbiq olunacaqdır. Məsələn, bir uşaq məktəbə gedənədək ondan dərs oxumaq tələb edilmir. Lakin məktəbə daxil olduqdan və dərslərə başladıqdan sonra onun dərslərini oxumamağa ixtiyarı yoxdur. Əgər uşaq dərs oxumayacaqdısa, bəs onda nə üçün məktəbə daxil olmuşdur? Əgər oxumursa, o zaman məktəbi tərk etməlidir. Əgər bir şəxs müsəlman olmaq istəmirsə, heç bir kəs onu bu işə məcbur edə bilməz. Amma əgər bir insan öz ixtiyarı ilə İslam dinini qəbul edirsə, artıq onun İslamın qanunlarını pozmağa da ixtiyarı yoxdur. Çünki öz xoşu ilə İslam dinini qəbul edərək müsəlmanların cərgəsinə daxil olmuşdur.

Beləliklə, insana ixtiyar verildiyi üçün Allah-təala onlara vəhy edərək hidayət edir. İnsan iki yolun ayrıcında qaldıqda Allah-təala onu haqq yola hidayət etmək istəyir. Bu səbəbə görə də Allah-təala insanlara vəhy vasitəsilə yol göstərir. Allahın hidayət məqsədilə vəhy etməsi dörd qisimdir. Bu dörd qisim vəhy peyğəmbərlərə, mələklərə, saleh bəndələrə (ilham verərək) və təkvini olaraq insanların özünə edilən vəhydir. Burada hər bir vəhydən söz açmağımız yaxşı olardı.

**1) Allahın peyğəmbərlərə vəhyi**

İlk növbədə Allahın peyğəmbərlərə olan vəhyi barədə söz açaq. Allah-təala peyğəmbərlərə üç yolla vəhy etmişdir. Burada hər üç vəhy barədə nümunələrə diqqət yetirək:

1. Allahın peyğəmbərlərə etdiyi vəhylərdən biri arada vasitə olmadan olan vəhydir. İslam Peyğəmbərinin(s) buyurduğuna əsasən peyğəmbərlərə gələn ən çətin vəhy birbaşa olan vəhydir. Bu vəhy gəldikdə Peyğəmbərin(s) qızdırması qalxar, alnından tər axar və bədəni ağırlaşardı.

Belə bir vəhy az olmasına baxmayaraq, peyğəmbərlərə çox çətinlik törədirdi. Hədislərdə nəql olunmuşdur ki, Peyğəmbərə(s) miniyin üstündə vəhy gəldikdə Həzrətin(s) çəkisi o qədər ağırlaşardı ki, həmin ağırlığın təsirindən heyvanın qarnı az qalırdı yerə dəysin. Bu vəhy ən çətin vəhydir ki, peyğəmbərlərə gəlirdi. Həzrət Peyğəmbər(s) buyurur: "Mənə birbaşa vəhy gəlməzdən öncə bir səs eşidirəm. Bu səsi eşitdikdən sonra sakit dayanıram. Sonra Allahın mənə çatdırdıqlarını dərk edirəm və özüm də elə bir hala düşürəm ki, az qalır ruhum bədənimdən ayrılsın. Vəhylərin hamısını qəbul edib dərk etdikdən sonra yavaş-yavaş halım özümə qayıdır. Mənə belə bir vəhy gəldikdə göyün mələkləri də bundan xəbərdar olurdular. Bu anlar mənim üçün o qədər çətin olurdu ki, həmin çətinlik mələklərə də təsir göstərirdi. Belə bir halda bütün mələklər səcdəyə gedirdilər."

2. Peyğəmbərlərə gələn vəhyin ikincisi qeybdən xüsusi səs eşitməklə baş verirdi. Yəni Allah-təala bir səs yaradaraq onlara vəhy edir, onlar da bu vəhyi qəbul edib dərk edirdilər. Həzrət Musa Peyğəmbərin(ə) əhvalatına diqqət yetirdikdə görürük ki, Həzrət(ə) Mədyəndən Misirə yola düşdükdə öz əhli-əyalı ilə birlikdə gedirdi. Yolda birdən-birə göy guruldayıb şimşək çaxdı və güclü yağış yağmağa başladı. Bir tərəfdən də onun həyat yoldaşının uşaqdan azad olmaq vaxtı yetişdi. Musa(ə) əvvəlcə uzaqda bir işıq gördü. Ailəsinə dedi ki, siz burada gözləyin, mən gedib sizin üçün od gətirim və burada tonqal qalayaq. Musa(ə) həmin işığa yaxınlaşdıqda bir ağacdan nur qalxdığını və səs gəldiyini gördü. Allah-təala orada Musanı(ə) peyğəmbər təyin etdi. Bu barədə "Qəsəs" surəsinin 30-cu ayəsində belə oxuyuruq:

فَلَمَّا أَتَاهَا نُودِي مِن شَاطِئِ الْوَادِي الْأَيْمَنِ فِي الْبُقْعَةِ الْمُبَارَكَةِ مِنَ الشَّجَرَةِ أَن يَا مُوسَى إِنِّي أَنَا اللَّهُ رَبُّ الْعَالَمِينَ

-Musa odun yaxınlığına gəldikdə o vadinin sağ tərəfindən, o bərəkətli (mübarək) torpaq sahəsindən, (oradakı) ağacdan nida gəldi ki, “Ya Musa, şübhəsiz, aləmlərin Rəbbi olan yeganə Allah Mənəm.”

Bəzən İslam Peyğəmbərinə(s) də belə vəhylər gəlirdi. Məsələn, Peyğəmbər(s) meraca gedərkən Allah-təala bir səs yaratdı və həmin səsin vasitəsilə Peyğəmbərlə(s) danışdı. Peyğəmbər(s) meraca gedərkən göyləri gəzib cənnət və cəhənnəmin əhlini gördükdən sonra Allah-təala ona səslə vəhy edib moizə etdi. Peyğəmbər(s) meracdan qayıtdıqdan sonra gördüklərini və Allahın ona buyurduqlarını möminlərə də söylədi. Həmin söhbətlərin hamısı “Merac hədisi” adlı bir kitabda hazırda əlimizdədir.

Bəzən Allah-təala səs yaradaraq peyğəmbərlərə istər yuxuda, istərsə də oyaq vaxtı vəhy edir. Qeyd etmək lazımdır ki, peyğəmbərlərin yatması adi insanların yatması kimi deyil. Onlar yatarkən gözlərinin yumulmasına baxmayaraq, qəlbləri həmişə oyaq olmuşdur. Məsələn, Həzrət İbrahim(ə) yuxuda eşitdiyi vəhyi oğlu İsmayıla(ə) danışdı. “Saffat” surəsinin 102-ci ayəsində oxuyuruq:

قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانظُرْ مَاذَا تَرَى قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ سَتَجِدُنِي إِن شَاءَ اللَّهُ مِنَ الصَّابِرِينَ

-(İbrahim) dedi: “Oğlum! Mən yuxuda hey görürəm ki, sənin başını kəsirəm (boğazına bıçaq çəkirəm). Bəs bax (gör) nəzərin nədir?” (İsmayıl) dedi: “Ey ata! Sənə əmr ediləni yerinə yetir. Allahın istəyi ilə məni səbirlilərdən görəcəksən!”

Həzrət İbrahim(ə) İsmayılı(ə) götürüb qurbangaha apardı. Onu yerə uzadıb xəncəri boğazına çəkdi, lakin xəncər İsmayılın(ə) boğazını kəsmədi.

Bir neçə dəfə təkrar etdi, lakin xəncər onun başını kəsmədi ki, kəsmədi. Yenə də bir neçə dəfə bu işi təkrar etdi, lakin xəncər uşağın başını kəsmədi. Həzrət İbrahim(ə) elə başa düşdü ki, xəncər kütdür. Buna görə də hirslənib onu daşa vurdu. Daş iki yerə bölündü. Elə bu zaman İbrahimin(ə) qulağına bir səs gəldi: “Ey İbrahim, Xəlil (İbrahim) mənə kəsməyi, Cəlil (Allah) isə mənə kəsməməyi əmr edir. Mən Allahın əmrini yerinə yetirirəm.”

Allah-təala Həzrət İbrahimi(ə) imtahan etməklə imamət məqamına çatdırmaq istəyirdi. İmamət məqamı yüksək bir dərəcə olduğundan bəzi peyğəmbərlərə müxtəlif imtahanlardan keçdikdən sonra bu dərəcə verilmişdir. Həzrət İbrahim(ə) Allahın buyurduğunu layiqincə yerinə yetirdiyi üçün Allahın əmri ilə xəncər İsmayılın(ə) başını kəsmədi. “Saffat” surəsinin 104-106-cı ayələrində bu barədə oxuyuruq:

وَنَادَيْنَاهُ أَنْ يَا إِبْرَاهِيمُ. قَدْ صَدَّقْتَ الرُّؤْيَا إِنَّا كَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ. إِنَّ هَذَا لَهُوَ الْبَلَاءُ الْمُبِينُ

-Biz ona xitab etdik ki: “Ey İbrahim! Həqiqətən, sən yuxunu həyata keçirdin. (Çünki həmin yuxunun mənası bıçağın hulquma çəkilməsi idi, hərçənd ki, həm ata, həm də oğul onun mənasının uşağın başının kəsilməsi olduğunu başa düşmüşdülər.) Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Şübhəsiz, bu (hadisə) həmin aşkar imtahandır.”

3. Peyğəmbərlərə gələn vəhyin üçüncüsü isə mələklər vasitəsilə göndərilən vəhydir. Məsələn, Allah-təala mələklərin birinə müəyyən sözlərin peyğəmbərə çatdırılması üçün göstəriş verir. Quran ayələrinə əsasən Peyğəmbərə(s) nazil olan və vəhy gətirən mələyin bir adı cənab Cəbrayıldır(ə). “Bəqərə” surəsinin 98-ci ayəsində belə buyurulur:

مَن كَانَ عَدُوًّا لِّلّهِ وَمَلآئِكَتِهِ وَرُسُلِهِ وَجِبْرِيلَ وَمِيكَالَ فَإِنَّ اللّهَ عَدُوٌّ لِّلْكَافِرِينَ

-Kim Allah, Onun mələkləri, peyğəmbərləri, Cəbrayıl və Mikayıl ilə düşmən olsa (kafirdir və) şübhəsiz, Allah da kafirlərə düşməndir.

Mələklərin hamısından əzəmətlisi və şərafətlisi cənab Cəbrayıldır(ə). Allah-təala bu mələyi vəhy işlərinə məmur etmişdir. Onun bir adı Ruhul-Əmindir ki, “Şüəra” surəsinin 192-194-cü ayələrinbə belə buyurulur:

وَإِنَّهُ لَتَنزِيلُ رَبِّ الْعَالَمِينَ. نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ. عَلَى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنذِرِينَ

-Şübhəsiz, bu (Quran) aləmlərin Rəbbinin nazil etdiyidir. Ruhul-Əmin (Cəbrayıl) onu endirdi. Qorxudanlardan (Peyğəmbərlərdən) olasan deyə sənin qəlbinə (nazil etdi).

Cənab Cəbrayılın(ə) adlarından biri Ruhul-Qudusdur ki, “Nəhl” surəsinin 102-ci ayəsində belə buyurulur:

قُلْ نَزَّلَهُ رُوحُ الْقُدُسِ مِن رَّبِّكَ بِالْحَقِّ لِيُثَبِّتَ الَّذِينَ آمَنُواْ وَهُدًى وَبُشْرَى لِلْمُسْلِمِينَ

-De: “Bu (Quranı) Ruhul-Qudus (Cəbrayıl, xəta və günah çirkindən pak olan ruh) Rəbbin tərəfindən haqq olaraq (və uca və əqli bir məqsəd üçün) tədricən nazil etmişdir ki, iman gətirənləri sabitqədəm etsin və müsəlmanlar üçün hidayət və müjdə olsun.”

Quranda vəhy mələyinin bir adı da Ruh kəlməsi ilə bəyan edilmişdir. “Qədr” surəsinin 4-cü ayəsində belə buyurulur:

تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ

-O gecə mələklər və Ruh (Cəbrayıl) Rəbbinin izni ilə (həmin gecədən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir iş(in təqdir, tənzim və sabit edilməsin)dən ötrü yerə enər.

Cənab Cəbrayılın(ə) məqam və şərafəti üstün olduğundan Allah- təala bu ayədə onun adını xüsusi olaraq bəyan edir. Bu mələyin məqam və əzəməti digər mələklərdən üstün olduğuna görə Allah-təala onun adını xüsusi çəkir. Məsələn, bir ölkənin nazirləri bir məclisə toplaşırlar. Elan edirlər ki, bütün nazirlər orada idi. Baş nazir də oraya gəlmişdi. Belə götürdükdə onların hamısı nazirdir, amma baş naziri xüsusi qeyd etməklə onun məqam və üstünlüyünü bildirirlər.

Allah-təala bir çox hallarda Peyğəmbərə(s) cənab Cəbrayıl(ə) vasitəsilə vəhy göndərirdi. Cənab Cəbrayıl(ə) iki vəhy gətirərkən Peyğəmbərin(s) yanına iki surətdə gəlirdi. Ərəblərin arasında Dəhyət ibn Xəlifə adlı (o, Dəhyeyi Kəlbi ləqəbi ilə tanınmışdı) nurani, yaraşıqlı və yaşlı bir kişi var idi. Cənab Cəbrayıl(ə) əksər vaxtlarda onun surətində Peyğəmbərin(s) yanına gələrək vəhyi gətirər və söhbət edərdilər. Cəbrayılı(ə) belə bir surətdə görmək Peyğəmbər(s) üçün çox rahat idi. Yəni

Peyğəmbər(s) üçün ən asan vəhy Cəbrayılın(ə) bu surətdə Onun(s) yanına gəlməsi zamanı baş verirdi. Həmişə Peyğəmbərə(s) vəhy gətirərkən Həzrətdən(ə) icazə alar, sonra isə evinə daxil olardı. Peyğəmbərlə(s) söhbət edərkən çox ədəb-ərkanla əyləşər və Allahın buyurduqlarının hamısını ona çatdırıb gedirdi.

Cənab Cəbrayıl(ə) bəzən də olduğu kimi, yəni öz surətində nazil olurdu ki, bu da Peyğəmbərə(s) çox ağır və çətin idi. Bu hal cəmi iki dəfə baş vermişdir. Birinci dəfə peyğəmbərliyə məbus olan və ilk vəhyin nazil olduğu zaman, ikinci dəfə isə meraca gedən zaman Cəbrayılı(ə) olduğu kimi görmüşdür. Həzrət Peyğəmbər(s) buyurur: “Cəbrayıl(ə) öz surətində nazil olduqda yer üzü şərqdən qərbə qədər onun əzəməti ilə dolurdu.”

Allah-təala Quranın “Nəcm” surəsinin 5-6-cı ayələrində cənab Cəbrayılın(ə) öz surətində nazil olması barədə belə buyurur:

عَلَّمَهُ شَدِيدُ الْقُوَى. ذُو مِرَّةٍ فَاسْتَوَى

-Onu ona (Peyğəmbərə) qüvvələri möhkəm və güclü olan (əmanətdar Cəbrayıl) öyrətmişdir. (Yaradılışında) güc və qüvvə (və ağılda möhkəmlik və mətanət) sahibi olan! Beləliklə, o, (özünün əsl qiyafəsində Peyğəmbərin (s) qarşısında) dayandı.

Allah-təala cənab Cəbrayıla(ə) xüsusi şərafət və əzəmət vermişdir. Yalnız ona bu ləyaqəti bəxş etmişdir və əksər hallarda Öz vəhylərini onun vasitəsilə Peyğəmbərə(s) çatdırırdı. Bəzi nadanlar isə tanımadan, dərk etmədən Allahın bu əzəmətli mələyi ilə düşmənçilik edirdilər. Onlar Mədinədə yaşayan Fədək yəhudiləri idi.

İbn Abbas deyir: “Günlərin birində (həmin) yəhudilər Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: “Bizim

sənə bir neçə sualımız vardır. Əgər suallarımıza cavab versən, sənə iman gətirəcəyik. Birinci sualımız budur ki, sən öz yatmağın haqqında bizə danış. Çünki bizim kitablarımızda axirəzzaman Peyğəmbərin(s) yatması barədə söhbət olunmuşdur.”

Peyğəmbər(s) buyurdu: “Mən yatarkən gözlərim yumulur, qəlbim isə həmişə oyaqdır.”

Yəhudilər bir neçə sual da verib cavablarını aldıqdan sonra dedilər: “Sonuncu sualımız da budur ki, hansı mələk sənə vəhy gətirir?”

Peyğəmbər(s) buyurdu: “Cənab Cəbrayıl(ə).”

Onlar dedilər: “Bizim Cəbrayıldan xoşumuz gəlmir. O, bizim düşmənimizdir. Müharibə zamanı o, bizim üçün ağır və çətin hökmlər gətirərdi. Buna görə də ondan xoşumuz gəlmir. Əgər Mikayıl sənə vəhy gətirərsə, biz sənə iman gətirərik. Əgər Cəbrayıl sənə vəhy gətirirsə, onda biz sənə iman gətirməyəcəyik.”

Söhbət bura çatdıqda Allah-təala “Bəqərə” surəsinin 97-98-ci ayələrini nazil etməklə onların cavabını verir və yəhudiləri tənqid edərək mələklərə qarşı düşmən olanları kafir adlandırır.

قُلْ مَن كَانَ عَدُوًّا لِّجِبْرِيلَ فَإِنَّهُ نَزَّلَهُ عَلَى قَلْبِكَ بِإِذْنِ اللّهِ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَهُدًى وَبُشْرَى لِلْمُؤْمِنِينَ

مَن كَانَ عَدُوًّا لِّلّهِ وَمَلآئِكَتِهِ وَرُسُلِهِ وَجِبْرِيلَ وَمِيكَالَ فَإِنَّ اللّهَ عَدُوٌّ لِّلْكَافِرِينَ

-(“Cəbrayılla düşmənik və buna görə də səni qəbul etmirik” – deyən yəhudilərin cavabında) de: “Cəbrayılla düşmən olan kəs (əslində Allahın düşmənidir, çünki) o, Quranı sənin qəlbinə Allahın əmri (və ya əzəli iradəsi) ilə

ondan qabaq olan (səmavi kitab)ların təsdiqedicisi və möminlər üçün hidayət və müjdə olaraq nazil edib.” Kim Allah, Onun mələkləri, peyğəmbərləri, Cəbrayıl və Mikayıl ilə düşmən olsa (kafirdir və) şübhəsiz, Allah da kafirlərə düşməndir.

Bu bəhsin nəticəsi olaraq bildik ki, Allah-təala peyğəmbərlərə üç növ vəhy göndərir. Bir vəhyi birbaşa, ikinci vəhyi səs yaratmaqla, üçüncü vəhyi isə cənab Cəbrayıl(ə) vasitəsilə göndərir.

**2) Allahın mələklərə vəhyi**

Qeyd olundu ki, Allah-təala dörd qisim mövcudata xüsusi tərzdə vəhy etmişdir. Həmin vəhylərdən birincisi peyğəmbərlərə olan vəhydir ki, yuxarıda bu haqda söhbət olundu. İkinci qisim vəhy Allahın mələklərə olan vəhyidir. “Ənfal” surəsinin 12-ci ayəsini oxuduqda Allahın mələklərə etdiyi vəhyin şahidi oluruq. Allah-təala bu mübarək ayədə belə buyurur:

إِذْ يُوحِي رَبُّكَ إِلَى الْمَلآئِكَةِ أَنِّي مَعَكُمْ فَثَبِّتُواْ الَّذِينَ آمَنُواْ سَأُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرَّعْبَ

-O zaman Rəbbin mələklərə vəhy edirdi ki: “Mən sizinləyəm! Odur ki, iman gətirənlərin qədəmlərini sabit edin. Tezliklə kafirlərin qəlblərinə qorxu salaram.”

Bu ayə Bədr müharibəsi barəsində nazil olmuşdur. Bədr müharibəsi İslamın ən ağır və çətin müharibələrindən biri idi. Bu müharibədə Allah- təala müsəlmanlara xüsusi yardım edərək onlara kömək etmək üçün mələklərə vəhy etdi. Beləcə, mələklər Allahın əmri ilə müsəlmanlara yardım etmək üçün nazil oldular. Bir

tərəfdən də Allah-təala kafirlərin qəlbində qorxu və vəhşət yaradaraq onları məğlub etdi.

**3) Allahın saleh bəndələrə vəhyi**

Allahın üçüncü qisim vəhyi saleh bəndələrinə etdiyi vəhydir ki, buna “ilham” da deyilir. Yəni Allah-təala saleh və mömin bəndələrinin qəlbinə ilham verərək onları hidayət edir və doğru yolu göstərir. İnsanlar elə başa düşməsinlər ki, Allah-təala yalnız peyğəmbərlərə və mələklərə vəhy göndərir. Bir çox hallarda istədiyi sözü öz bəndələrinin qəlbinə ataraq onlara ilham verir. Belə bir hal əksər insanlarda müşahidə olunur. Xüsusilə imanı çox və güclü olan insanlarda daha tez-tez baş verə bilir. Ümumiyyətlə, insanın imanı hər nə qədər çox olarsa, onun qəlbinə belə ilhamlar daha çox gəlir. Bəzən bir insan hansısa bir mövzu barədə söz açıb kiminləsə məsləhətləşir. Qərar qəbul olunduqdan sonra söhbətin davamında onun qəlbinə və beyninə elə bir fikir gəlir ki, onu söyləməklə öncə qəbul etdikləri qərarı dəyişib həmin fikri bəyənirlər. Onun qəlbinə gələn fikri hamı bir qərar kimi qəbul edir və işə başladıqdan sonra nəticə də hamını qane edir. İnsanların başına yüzlər-lə, minlərlə belə hadisələr gəlmişdir. Qeyd etməliyik ki, insanların imanı və təqvası nə qədər çox olarsa, Allah-təala da onların qəlblərinə ilham verməklə doğru yolu göstərib hidayət edər. Quran ayələrini oxuduqda nümunə üçün bu kimi hadisələrə çox rəst gəlirik. Məsələn, Musa Peyğəmbərin(ə) anası adi bir insan idi. O, peyğəmbər və yaxud mələk deyildi. Lakin Allah-təala onun qəlbinə vəhy edərək bəzi şeyləri ona başa saldı. Bu hadisə Musanın(ə) dünyaya gəlməsi ərəfəsində baş vermişdi.

Artıq Musanın(ə) dünyaya gəlməsinə az qalırdı. Uşağın dünyaya gəlməsi yaxınlaşdıqca Yukabidin həyəcanı daha da çoxalırdı. Ona görə qorxurdu ki, fironun adamları bundan xəbər tutsaydılar uşağı öldürəcəkdilər. Yukabidin bir mamaça tanışı var idi. Onunla görüşüb vəziyyəti danışdı və xahiş etdi ki, uşaq dünyaya gələndə ona kömək etsin. Bu söhbəti sirr olaraq saxlamağı da ondan xahiş etdi. Musa(ə) dünyaya gələrkən Allah-təala onun camalında bir nur yaratdı. Bu nurdan göylərə bir nur ucalırdı. Mamaça heyrət içində donub qalmışdı. Musanın(ə) anasına dedi: "Dostluğumuza baxmayaraq mən bu məsələni firona xəbər verəcəkdim. Çünki canımdan qorxuram. Sonra xəbər tutsalar mənim üçün böyük təhlükə yaranar. Lakin bu uşağın məhəbbəti və nuru qəlbimə elə doldu ki, daha heç bir kəsə bu haqda bir kəlmə belə demərəm. Bu uşağın başından bir tükün əskik olmasını belə istəmirəm. Mən artıq onu bir ana kimi sevirəm."

Bu sözlərdən sonra Yukabidin ürəyi rahat oldu. Məmurlar mamaçanın o evə tez-tez gedib-gəlməyindən xəbər tutub şübhələndilər. Dərhal axtarış aparmaq üçün İmranın evinə tökülüşdülər. Musanın(ə) anası işin bu yerdə olduğunu gördükdə uşağı bir parçaya büküb yanar təndirin içinə atdı. Məmurlar evə girib hər yeri axtarmağa başladılar. Təndirin ağzını açdıqda gördülər ki, təndir yanır. Bir şey tapmadıqda isə naümid geri qayıtdılar. Lakin mamaçanın bu evə nə üçün tez-tez gəlib-getdiyini soruşdular. Yukabid dedi: "Mən onunla çoxdandır ki tanışam. Buna görə də bir-birimizin evinə tez-tez gedib-gəlirik."

Məmurlar çıxıb getdikdən sonra Yukabid uşağı təndirə atdığını xatırlayanda huşdan getdi. Özünə

gəldikdən sonra təndiri açdıqda isə gördü ki, Musa(ə) odun içində və parçanın arasında sağ-salamatdır. Allah-təala odu Musa(ə) üçün gülüstana çevirmişdi. Yukabid uşağı təndirdən çıxarıb bağrına basdı. Sonra isə Musaya(ə) süd verdi. Süd əmdiyi müddətdə bu uşağın səsini heç bir qonşu eşitmirdi. Allah ona elə bir mərhəmət etmişdi ki, bu müddətdə, yəni üç aylığından altı aylığına qədər bircə dəfə belə ağlamadı və onun səsini kimsə eşitmədi. Lakin anası fironun adamlarının bundan xəbər tutub uşağı öldürəcəklərindən çox qorxurdu. Allah-təala onu bu nigarançılıq və qorxudan xilas etmək üçün ona vəhy etdi. “Qəsəs” surəsinin 7-ci ayəsində buyurulur:

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ

-Biz Musanın anasına sirli və sürətli bir şəkildə ilham etdik: “Onu əmizdir, elə ki, ondan ötrü (Fironun adamlarının ondan xəbər tutmalarından) qorxdun, onu (bir sandığın içərisinə qoy və) dəryaya at. Qorxma və qəmgin olma, şübhəsiz, Biz onu sənə qaytararıq və özünü də şəriət sahibi olan peyğəmbərlərdən edərik.”

Aydındır ki, Həzrət Musanın(ə) anası nə peyğəmbərdir, nə də mələk. Sadə, nəcib və imanlı bir insan olduğu üçün və Musa(ə) da onun bətnindən dünyaya gəldiyindən Allah-təala onun qəlbinə ilham verərək doğru yolu göstərdi. Allah-təala onun qəlbinə vəhy etməklə bu çətinliklərdən və nigarançılıqlardan nicat verdi.

Bir daha qeyd etməliyəm ki, insanın qəlbində Allaha nə qədər iman çoxalarsa, bu kimi vəhylər də daha çox qəlbinə gələr. Bu vəhyin mənası o demək deyil ki, Allah-təala Cəbrayıl(ə) və yaxud digər mələkləri göndərməklə

insanlara vəhy edir. Allah-təala insanlara belə vəhylər edərkən müəyyən sözləri onların qəlbinə və fikrinə salır. Musanın(ə) anasına da ilham gəldikdən sonra onun ürəyi o qədər sakit oldu ki, bütün nigarançılıq və qorxulardan rahat oldu. Tam yəqinliklə bildi ki, uşağı sandığa qoyub çaya atsa da belə, uşaq sağ-salamat onun özünə qayıdacaqdır.

**4) Allahın digər mövcudata vəhyi**

Allahın dördüncü qisim vəhyi isə şüuru, dərki olmayan və cansız varlıqlara göndərdiyi vəhydir. Əlbəttə, ötən bəhslərimizdə bu barədə müəyyən qədər bəhs etmişik. Bu vəhy Allahın təkvini iradə və istəyidir ki, digər canlılara və cansızlara vəhy edir. Yəni bu o deməkdir ki, Allah-təalanın bütün yaratdıqları ilə sıx əlaqəsi vardır. Belə də deyə bilərik ki, bütün məxluqatın hamısının Allaha bağlılığı var. Bütün yaradılışın hamısı, hətta çayların daşları, qumlar, torpaqlar, bitkilər, canlılar və cansızlar da Allahın iradəsi ilə hərəkətdədirlər. Allah-təala hər bir şeyə ilham vermişdir. Yəni necə yaşamağın yollarını onların fitrətində müəyyən etmişdir. Bu məsələyə dair Quranın bir çox ayələrində nümunələrə rast gəlmək mümkündür. Məsələn, arılar barəsində "Nəhl" surəsinin 68-69-cu ayələrində oxuyuruq:

وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ. ثُمَّ كُلِي مِن كُلِّ الثَّمَرَاتِ...

-Və Rəbbin bal arısına vəhy etdi (onun təbiətində bu əməlin şövq və qüdrətini qoydu) ki: "Dağlardan, ağaclardan və qurulan çardaqlardan (özünə münasib) evlər

götür! Sonra bütün meyvələrdən (və ağac və bitkilərin şirəsindən) ye.”

Cansız əşyalara gəldikdə isə Allah-təala göylərə də vəhy edərək onların müəyyən işlər görəcəklərini əmr etmişdir. “Fussilət” surəsinin 12-ci ayəsində oxuyuruq:

وَأَوْحَى فِي كُلِّ سَمَاء أَمْرَهَا

-Yaşayış (hərəkət) tərzini göylərin hər birinə vəhy etdi.

Allah-təala bütün göylərə və göylərdə olan mövcudatın hamısına vəhy edərək onlar üçün nizam-intizam müəyyən etmişdir. Heç bir varlıq onun üçün vəhy olunan qanunu poza bilməz. Bu, Allahın təkvini iradəsidir ki, onların heç biri bu qanunu pozmayıb və poza da bilməz. Onlar Allahın iradəsi ilə daim hərəkətdədirlər. Nə vaxt Allah-təala onlara pozulmağı əmr edərsə, o zaman da pozulub dağılacaqlar. Hər bir halda onların hamısı Allahın iradə və əmrinin tabeliyindədirlər.

## İnsanın vəhyi

Artıq qeyd olundu ki, Allah-təala bütün mövcudata vəhy edir. Onlardan biri peyğəmbərlərə, biri mələklərə, biri insanların qəlbinə və biri isə canlı və cansız varlıqlara olan vəhylərdir. İkinci növ vəhyə gəldikdə isə bu, insanların bir-birinə olan vəhyidir. Sual oluna bilər ki, insanların bir-birinə vəhy etməsi və bunun əlaməti nədir? Cavab budur ki, insanlar bir söz demədən müəyyən bir işarə, əlamət və ya nişanələrlə öz ürəklərindəki sözləri bir-birilərinin beyninə ötürürlər. Qarşı tərəf də bu əlamət və işarələrlə onun fikrini mükəmməl şəkildə başa düşür. Belə vəhylər insanlar arasında çox olmuşdur. Quran ayələrinə

diqqət yetirdikdə də bu kimi vəhylərin şahidi oluruq. Məsələn, Zəkəriyyə Peyğəmbərin(ə) dastanında buna işarə olunmuşdur. Həzrət Zəkəriyyə(ə) Allahın peyğəmbəri idi. Onun yaşı səksəni ötmüşdü, lakin övladı yox idi.

Məryəm(s.ə) dünyaya gəldikdən sonra onu aparıb Beytül-müqəddəsə xidmətçi qoydu. Həzrət Məryəm(s.ə) Beytül-müqəddəsdə həm iş görür, həm də ibadətlə məşğul olurdu. Zəkəriyyə(ə) də onu öz öhdəsinə götürmüşdü. Hər gün gedib ona baş çəkir və halı ilə maraqlanırdı. Zəkəriyyə(ə) hər dəfə Məryəmə(s.ə) baş çəkməyə gedəndə onun yanında hazır ərzaq məhsulları görürdü. Odur ki, ondan soruşardı: “Ey Məryəm, sənə bu ruzi haradandır?” (Məryəm) deyərdi: “O Allah tərəfindəndir, çünki Allah istədiyinə saysız-hesabsız ruzi verir.” Zəkəriyyənin(ə) də övladı olmadığı üçün Məryəmi görəndə övlad həvəsinə düşdü və Allahdan ona bir övlad verməsini xahiş etdi. “Ali-İmran” surəsinin 38-39-cu ayələrində bu barədə oxuyuruq.

هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُ قَالَ رَبِّ هَبْ لِي مِن لَّدُنْكَ ذُرِّيَّةً طَيِّبَةً إِنَّكَ سَمِيعُ الدُّعَاء. فَنَادَتْهُ الْمَلآئِكَةُ وَهُوَ قَائِمٌ يُصَلِّي فِي الْمِحْرَابِ أَنَّ اللّهَ يُبَشِّرُكَ بِيَحْيَى مُصَدِّقًا بِكَلِمَةٍ مِّنَ اللّهِ وَسَيِّدًا وَحَصُورًا وَنَبِيًّا مِّنَ الصَّالِحِينَ

-Zəkəriyyə həmin vaxt oradaca öz Rəbbini çağırdı və dedi: “Ey Rəbbim, Öz tərəfindən mənə pak olan bir övlad əta et ki, həqiqətən, Sən duanı eşidənsən.”

Beləcə, mələklər onu öz mehrabında namaz və dua üçün durduğu halda səslədilər ki: “Allah səni Yəhya (adlı bir övlad) ilə müjdələyir ki, o, Allah tərəfindən olan kəlməni (İsanı) təsdiq edən, (öz qövmünün) böyüyü və rəhbər(i), (bütün batil işlərdən) çəkinən və ləyaqətlilərin nəslindən olan bir peyğəmbərdir.”

Beləliklə, Allah-təala Zəkəriyyə Peyğəmbərə(ə) Yəhyanı(ə) nəsib etdi. Həzrət Yəhya(ə) kiçik yaşlarında

peyğəmbərliyə çatdı və doqquz yaşında onu şəhid edib başını kəsdilər. Başını kəsdikdən sonra teştə qoyub gəzdirdilər. Tarixə nəzər saldıqda iki insanın başının teşt içində gəzdirildiyinin şahidi oluruq. Biri Allahın peyğəmbəri Həzrət Yəhyanın(ə), biri isə Həzrət İmam Hüseynin(ə) başı idi ki, saraylarda teştin içinə qoymuşdular.

Həzrət Yəhyanın(ə) anadan olması xəbərini Həzrət Zəkəriyyəyə(ə) dedilər. Zəkəriyyə(ə) bu xəbəri eşitdikdə çox şad oldu və Allaha şükür etdi. Sonra öz qövmünün yanına gəlib işarə ilə onlara vəhy etdi. “Məryəm” surəsinin 11-ci ayəsində oxuyuruq:

فَخَرَجَ عَلَى قَوْمِهِ مِنَ الْمِحْرَابِ فَأَوْحَى إِلَيْهِمْ أَن سَبِّحُوا بُكْرَةً وَعَشِيًّا

-Beləcə, o, mehrabdan qövmünün yanına getdi və onlara vəhy (işarə) etdi ki, səhər və axşam Allahı pak sifətlərlə mədh edin (və ya namaz qılın. Və onlar bu işarədən başa düşdülər ki, övlad vədinin həyata keçməsi yaxınlaşıb).

Bu ayədə görürük ki, Həzrət Zəkəriyyə(ə) öz qövmünün yanına gəldikdə onlara işarə ilə başa saldı ki, sübh və axşam Allaha zikr, ibadət və mədh etsinlər. Həmçinin işarə ilə bildirdi ki, Allah-təala mənim dualarımı qəbul edərək bir övlad nəsib etdi. Bu ayədə Allah-təala Zəkəriyyənin(ə) öz qövmünə vəhy etməsinə işarə edir.

Qeyd etmək lazımdır ki, insanların bir-birinə belə vəhy etmələri dəfələrlə müşahidə olunmuşdur. Onların bəziləri çox əhəmiyyətli olduğundan tarixi mənbələrdə yazılmış və bizim üçün nəql olunmuşdur. Bəziləri isə mühüm olmadığından onları qeydə alan da olmamışdır. Belə də demək olar ki, bir çox belə mühüm hallar baş

vermişdir ki, yazılmadığı üçün unudulub yaddaşlardan silinmişdir. Çünki məlumdur ki, bir hadisə və yaxud əhvalatı tarixi mənbələrdə yazmasalar, illər keçdikcə həmin hadisə də unudulub yaddaşlardan silinəcəkdir. Hər bir halda insanların bir-birinə olan vəhyi barədə bir çox hədis və rəvayətlər bizə gəlib çatmışdır. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək.

## Həzrət Əli(ə) və Zazanın əhvalatı

Sədi Xəffaf Həzrət Əlinin(ə) dövründə yaşayan möminlərdən biri idi. O deyir: Günlərin birində Zazanı[1] gördüm ki, ərəb ləhcəsi ilə və gözəl avazla Quran oxuya-oxuya gedirdi. Təəccüblənərək öz-özümə dedim ki, Zazan əcəm[2] olduğu halda belə gözəl Quran oxumağı necə öyrənib? Çünki əcəmlər heç bir vaxt Quranı eynilə ərəblər kimi oxuya bilməzlər. Bu müəmmalı sirrin üstünü açmaq üçün Zazana yaxınlaşıb dedim: "Sən belə gözəl Quran oxumağı haradan öyrənmisən? Elə gözəl oxuyursan ki, adamın ruhunu oxşayır." Zazan təbəssüm edərək dedi: "Mənim belə Quran oxumağımın öz hekayəti və əhvalatı var. Mən Quran oxumağı elə belə öyrənməmişəm." Dedim: "Olarmı həmin hekayəti mənim üçün danışasan?" Zazan dedi: "Bilirsənmi ki, mənim Həzrət Əli(ə) ilə çox yaxın münasibətim var. Günlərin birində əyləşib öz-özümə şeir oxuyurdum. Həzrət Əli(ə) şeir oxumağımı

---

[1] Onun əsl adı Əbu Umrədir ki, camaat arasında Zazan ləqəbi ilə tanınmışdır. Zazan o zamanlar İran ərazisindən ərəbistana getmiş, iman gətirmiş və Həzrət Əli(ə) ilə tanış olmuşdu. Onun Həzrət Əliyə(ə) böyük məhəbbət və hörməti var idi.

[2] Qeyri-ərəb. O zamanlar iranlılara əcəm deyilirdi.

eşidib mənə buyurdu: Zazan, nə üçün Quran oxumaq əvəzinə şeir oxuyursan? Dedim: Ya Əmirəl-möminin, Quran ərəb dilində olduğu üçün mən onu oxuya bilmirəm. Buna görə də hərdənbir boş vaxtlarımda bildiyim şeirləri oxuyuram. Həzrət(ə) buyurdu: Quran oxumağı öyrənmək istərdinmi? Dedim: Əlbəttə, istəyirəm. Həzrət Əli(ə) dodaqlarını qulağıma yaxınlaşdırıb nəsə oxudu. Onun oxuduğu sözlərin heç birini başa düşmədim. Sonra ağzının suyundan götürüb mənim ağzıma sürtdü. Həmin andan bütün Quranı ərəb ləhcəsi ilə əzbər oxuyuram."

Sədi Xəffaf deyir: Bu hadisənin üstündən illər ötdükdən sonra İmam Baqirin(ə) imamət dövrü gəldi. Günlərin birində Həzrətin(ə) ziyarətinə getmişdim. Zazanla olan söhbətimi Həzrət(ə) üçün danışdım. Sonra dedim ki, ey Peyğəmbər(s) övladı, görəsən Həzrət Əlinin(ə) Zazanın qulağına oxuduğu sözlər hansı sözlər idi? Çünki o sözləri heç Zazanın özü də başa düşməmişdi. İmam Baqir(ə) buyurdu: "Həzrət Əli(ə) Zazanın qulağına İsmi Əzəmi oxumuşdu."

## Hacı Əli Salmanın əhvalatı

Hacı Əli Salman adlı bir mömin başına gələn əhvalatı belə danışır: "Mənim 14-15 yaşım olardı. Quran oxumağı öyrənməyə çox həvəsim var idi. Nə qədər çalışırdımsa oxuya bilmirdim. Bir gün birdən-birə ürəyimə İmam Zamana(ə.c) təvəssül etmək fikri düşdü. Həmin andan Həzrətə(ə.c) təvəssül etməyə başladım. Sanki o həzrətlə söhbət edərək
ondan mənə Quran öyrətməsini xahiş edirdim. Gecələrin birində yuxuda bir nəfəri gördüm. O, mənə dedi: Kərbəlaya getmək istəyirsənmi? Dedim: Əlbəttə,

istəyirəm. Bu sözü deyən kimi gördüm ki, onunla birgə Kərbəladayam. O, mənə dedi: Burada əzadarlıq məclisi var. Gəl gedək, orada iştirak edək. Həmin məclisə daxil olduqda gördüm ki, orada çox möhtərəm və nurani bir insan əyləşib. Onun qarşısında bir az çörək və bir kasa şorba vardı. Mən ona diqqətlə baxdıqda o, məni yanına çağırdı. O, çörəyi qızdırıb mənə tərəf uzatdı və dedi: Al bu çörəyi ye. Mən çörəyi ondan alıb yedim. Çörəyi yedikdən sonra rövzəxan rövzə oxumağa başladı. Biz əyləşib axıra qədər rövzəyə qulaq asdıq. Məclis başa çatan kimi yuxudan ayıldım. Sonra Quranı götürüb oxumağa başladım. Gördüm ki, bütün Quranı əvvəldən axıradək ərəb ləhcəsi və qayda- qanunu ilə üzündən oxumağı bacarıram. Hətta Quran məclislərində böyük qarelər Quran oxuyarkən səhv etdikdə belə onların səhvini tuturdum.

Günlərin birində ustadlardan biri mənə dedi: Axı sən Quran oxumağı bacarmırdın. Necə oldu ki, bu gün sən böyük Quran ustadlarında səhv tuta bilirsən? Dedim: Bütun bunlar Həzrət Höccətin(ə.c) bərəkətindəndir.”

## Şeyx Həsənəli İsfahani və Məşhədin azançısı

Məşhəd şəhərində hərəmdə azan deyən bir nəfər yaşayırdı. O deyir: “Yaxşı səsim olduğu üçün hərəmdə həmişə azanı mən verirdim. Ayətullah Şeyx Həsənəli İsfahani həmin dövrün böyük və görkəmli alimlərindən idi. O da Məşhəd şəhərində yaşayırdı. Günlərin birində xəbər yayıldı ki, Şeyx dünyasını dəyişib. Onu dəfn etdilər. Mən hər gün azanı deyib namaz qıldıqdan sonra onun qəbrinin kənarına gedər və “Fatihə” surəsini oxuyardım.

Günlərin birində həmin qayda ilə onun qəbrinin kənarında əyləşib "Fatihə" surəsini oxudum. Elə bu an məni yuxu tutdu. Başımı onun qəbrinin üstünə qoyub yatdım. Yuxuda gördüm ki, Şeyx Həsənəli yanıma gəlib deyir: Nəyə görə mənim üçün "Taha" və "Yasin" surələrini oxumursan? Dedim: Ağa, axı mən azan və namazın sözlərindən başqa bir şey bilmirəm. Heç Quranı belə üzündən oxumağı bacarmıram. Şeyx dedi: Elə isə oxu. Dedim: Axı oxuya bilmirəm. Üç dəfə mənə dedi: Oxu. Elə bu an yuxudan oyandım. Baxıb gördüm ki, artıq "Taha" və "Yasin" surələrini əzbərdən oxuyuram. Həmin gündən sonra onun qəbrinin üstündə "Taha" və "Yasin" surələrini oxuyurdum."

## Ayətullah Dəstiğeyb və Hacı Əlinin əhvalatı

Ayətullah Şəhid Dəstiğeyb İslam tarixində böyük və görkəmli alimlərdən biri idi. Onu uzun müddət sürgün etmişdilər. Yetmişdən artıq yaşı var idi və çox nurani, yaraşıqlı bir insan idi. İran İslam İnqilabından sonra rəhmətlik İmam Xomeyninin(r) göstərişi ilə Şirazda İmam-cümə idi. Onu məsciddə terror etdilər. Belə ki, bütün bədəni tikə-tikə olub ətrafa səpələnmişdi.

O, şəhid olduqdan sonra həyat yoldaşından onun haqqında müsahibə götürmüşdülər. Həyat yoldaşı deyir: "Otuz ilə yaxın olardı ki, özü üçün bir kəfən almışdı. Hər il bir dəfə həmin kəfəni əyninə geyinərdi. Kəfən adətən üç hissədən ibarət olur. Amma o, özü üçün həmin parçadan kiçik bir torba da tikdirmişdi. Kəfəni geyinib soyunduqdan sonra onu həmin torbanın içinə qoyurdu. Mən dəfələrlə ondan soruşmuşdum ki, bu torbanı nə üçün tikdirmisən?

Amma o, başını aşağı salıb bir söz demirdi. Sualıma cavab verməmdiyi üçün daha bu haqda soruşub onu narahat etmədim. Şəhid olduqdan sonra onu dəfn etdilər. Həmin gecə yatıb yuxuda onu gördüm. Yuxuda mənə dedi: Sən məndən həmin torba barədə soruşurdun, amma mən sənə cavab vermirdim. Amma bu gecə sənin sualına cavab verməyin vaxtı çatıb. Həmin torba bu gün lazım olacaq. Məni şəhid etdilər və bədənim tikə-tikə oldu. Amma bədənimin bir parçası düşüb qapının arxasında qalıb. Bundan heç bir kəsin xəbəri yoxdur. Həmin tikənin həm sümüyü, həm də əti var. Oğluma tapşır ki, həmin əti götürüb qüsl versinlər, sonra isə dediyim torbanın içinə qoyub qəbrimdə dəfn etsinlər."

Ayətullah Dəstiğeyb deyir: "Mənim Hacı Əli adlı bir uşaqlıq dostum var idi. O, axır vaxtlarda xəstələnmişdi. Günlərin birində o, özünü həkimə göstərdikdən sonra mənim yanıma qonaq gəldi. Əlində bir "Məfatih", bir də Quran kitabı var idi. Onları mənə verib dedi: Bu kitabları sənin üçün hədiyyə gətirmişəm. Mən təəccüblə ona dedim: Niyə zəhmət çəkmisən? Mənim həm "Məfatih"im, həm də Quranım var.

O dedi: Bunlar adi hədiyyələr deyil. Bunlar mənim əlimə xüsusi lütf və mərhəmətlə gəlib çıxmışdır. Sən məni uşaq vaxtlarımdan tanıyırsan. Mənim atam rəhmətə getdikdən sonra yetim qaldım. Buna görə də alverlə məşğul olub özümü dolandırmağa başladım. Başım işə qarışdığı üçün Quran oxumağı öyrənə bilmədim. Günlərin birində Kərbəlaya getmişdim. Ərəfə günü İmam Hüseynin(ə) qəbrini ziyarət etmək üçün hərəmə getdim. Amma ziyarətnaməni oxuya bilmirdim. Hərəmdə böyük bir izdiham var idi. Ətrafıma göz gəzdirirdim ki, ziyarətnaməni oxuyan bir kəs varsa ondan xahiş edim

oxusun, mən də təkrarlayım. Çox çalışdım, amma elə bir adam tapa bilmədim. Buna görə də halım dəyişdi və ağlamağa başladım. Üzümü İmam Hüseynin(ə) qəbrinə tutub ağlaya- ağlaya dedim: Ya Hüseyn ibn Əli, mən sənin ziyarətinə gəlmişəm. Amma ziyarətnaməni oxumağı bacarmıram. Elə bu halda bir nəfər mənim əlimdən tutub dedi: Ziyarətnaməni oxumaq istəyirsən? Dedim: Bəli. Dedi: Gəl, ikimiz birlikdə oxuyaq. Həmin şəxs varis ziyarətnaməsini oxuduqca mən də təkrar edirdim. Qurtardıqdan sonra mənə dedi: Mən varis ziyarətnaməsini sənin üçün oxudum. Əminəllah ziyarətnaməsini isə sən özün oxuyarsan. Sonra dedi: Hərəmdən çıxan kimi bir kitabxana var. O kitabxanada Şeyx Mehdi adlı bir satıcı işləyir. Gedib ondan bir "Məfatih" kitabı alarsan. Ondan sonra özün həmin kitabı oxuyarsan.

O, mənə bu sözləri dedikdən sonra səcdəyə düşüb Allaha şükür etdim. Başımı səcdədən qaldırdıqdan sonra həmin adamı yanımda görmədim. Sonra hərəmdən çıxıb həmin kitab mağazasına gəldim. Qapıdan içəri girən kimi Şeyx Mehdi əlində tutduğu "Məfatih" kitabını mənə uzadıb dedi: Al, bu kitab sənə çatacaq. Mən cibimdən pul çıxarıb ona vermək istədikdə dedi: Narahat olma, kitabın pulu çatıb.

Mən kitabı ondan alıb mağazadan çıxdım. Evə gəldikdən sonra öz-özümə dedim: Görəsən bu kitabın pulunu Şeyx Mehdiyə kim verib? Bu sual mənim fikrimdə qaldı. Fikirləşdim ki, səhər gedib Şeyx Mehdidən bu kitabın pulunu verən adam barəsində soruşaram. Səhər həmin mağazaya yollandım. Yolda başqa bir işim çıxdı və başım qarışdı. Üç dəfə Şeyx Mehdinin yanına getməyə cəhd etdim, lakin başım başqa işlərə qarışdığı üçün yadımdan çıxdı. Sonra yaşadığım şəhərə qayıtdım. Bu

hadisənin üstündən üç il keçdikdən sonra Kərbəlaya getdim. Birdən həmin hadisə yadıma düşdü. Tez Şeyx Mehdinin mağazasına yollandım. Qapıdan içəri girdikdə onu görmədim. Ətrafdakılardan onun harada olduğunu soruşdum. Mənə dedilər ki, Şeyx Mehdi rəhmətə gedib. Sənin üçün hədiyyə gətirdiyim bu "Məfatih" kitabı da həmin kitabdır. Mən həmin gündən bu kitabı oxuya bilirdim. Sonra o həzrətə təvəssül edib Quran oxumağı da öyrəndim. Bu iki kitab həmin kitablardır ki, həmişə oxuyurdum."

Odur ki, öz həyatımızda bu kimi bir çox nümunələrə rast gəlmək mümkündür. Kimsə təvəssül edərək Allaha yalvarıb nuraniyyət əldə edir. Bəzən isə Allah-təala Özü ilham verir, bəzən də bir sıra insanlar vasitəsilə ilham verib insana nuraniyyət bəxş edir. Böyük şəxsiyyətlərin arasında saysız-hesabsız belə əhvalatlar olmuşdur. Bütün bunlar çox mötəbər insanların dili ilə danışılan söhbətlərdir. Ola bilsin ki, bəzi insanlar müəyyən sözlər danışmış olsunlar və onların sözlərinə inanmamaq da olar. Amma bir çox əhvalatları elə insanlardan eşidirik ki, bütün dünyanı onlara versələr belə bircə kəlmə də olsun yalan danışmazlar. Belə əhvalatlar da məhz bu kimi insanların dili ilə söylənilmişdir. Bu cür əhvalatlar zamanı insanların bir-birinə ilham verdiklərinin açıq-aydın şahidi oluruq.

## Şeytanın vəhyi

Qeyd olundu ki, vəhy üç qisimdir. Birinci qisim Allahın peyğəmbərlərə, mələklərə, saleh bəndələrinə və digər mövcudata olan vəhyidir. İkinci qisim vəhy insanın digər insana olan vəhyidir. Bu barədə artıq lazımi qədər

bəhs etdik və Quran ayələrindən nümunələr oxuduq. Üçüncü qisim vəhy isə şeytanın vəhyidir.

Allah-təala Quranda iman gətirənlərə xitab edərək bəyan etmişdir ki, şeytan sizin açıq-aydın düşməninizdir. Hər bir insan bilməlidir ki, şeytana tabe olmağın çox acınacaqlı nəticəsi olacaq. Hər bir kəs şeytanın istəklərini yerinə yetirib ona tabe olsa, şeytan onun aqibətini bərbad edəcəkdir. Əlbəttə, bu barədə gələcək bəhslərimizdə lazımi qədər söz açacağıq. İndi isə əsas sözümüz şeytanın vəhy və təlqin etməsi barədədir ki, o, həmişə öz nəslindən olanlara, davamçılarına və dostlarına vəhy edir. "Ənam" surəsinin 121-ci ayəsində belə oxuyuruq:

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ وَإِنْ أَطَعْتُمُوهُمْ إِنَّكُمْ لَمُشْرِكُونَ

-Həqiqətən, şeytanlar öz köməkçi və dostlarına sizinlə mübahisə edərək çəkişsinlər deyə gizlincə təlqin edirlər. Əgər onlara itaət etsəniz, onda siz də (ya doğrudan) müşriksiniz, (ya da müşrik hökmündəsiniz).

Şeytan həmişə insanı yoldan çıxarmaq üçün gizli surətdə hərəkətə keçir. Onun insanların qəlbinə daxil olmağa icazəsi vardır. Bu icazədən istifadə edərək həmişə insanların qəlbinə girərək onları yoldan çıxarmağa çalışır. Bu, şeytanın vəhyidir ki, insanların qəlbinə daxil olaraq onları çaşdırır və yavaş-yavaş haqq yoldan çıxarır. Şeytanın bu hərəkəti həmişə gizli şəkildə baş verir. Qeyd olunan ayədən də aydın olur ki, şeytan öz köməkçilərinə və dostlarına Allahın mömin bəndələrini gizli surətdə yoldan çıxarmağı vəhy edir.

Bu ayədə "övliya" kəlməsi işlənmişdir. "Vəliy" sözündən götürülmüş bu kəlmənin müxtəlif mənaları

vardır. Bir mənası rəhbər, ağa, başçı, digər mənası isə dost anlamını ifadə edir. Quranda bu kəlmə çox yerdə işlənmişdir. Lakin hamısı eyni mənanı daşımır. Bəzi yerlərdə başçı və rəhbər mənasında, bəzi yerlərdə isə dost mənasında işlənmişdir. Üsul elmini oxuyanlar bilirlər ki, ərəb dilində hər bir kəlmənin öz mənası vardır. Elmsiz Quranı məna və təfsir etmək insanı küfrə aparıb çıxardar. Yəni əgər bir kəs elmi olmadan Quranı tərcümə və təfsir etməyə çalışsa, onun bu əməli insanları düz yoldan və həqiqətdən uzaqlaşdırar.

Ərəb dilində eynimənalı(sinonim), yaxud müştərək sözlər vardır. Demək olar ki, bütün dillərdə hər bir sözün öz mənası var. Bəzən isə görürük ki, bir neçə söz eyni bir mənanı verir. Məsələn, insan, adam və bəşər dedikdə bu üç sözün bir mənası vardır. Bəzən də görürük ki, söz birdir, lakin onun mənaları müxtəlifdir. Məsələn, Azərbaycan dilindəki "üzüm" kəlməsinə diqqət yetirək. Bu kəlməni tək işlətdikdə bir neçə məna alındığına görə heç kəs danışanın məqsədini aydınlaşdıra bilməyəcək. Çünki "üzüm" kəlməsi meyvə, suda üzmək, nəyisə üzmək (qırıb kəsmək), insanın bədənində olan üz (sifət) mənalarını ifadə edir.

Quran ayələrinə diqqət yetirdikdə sinonim və müştərək sözlərə tez- tez rast gəlmək olur. Eyni zamanda mənası çox olan bir kəlmənin hansı anlamda işləndiyini bilmək üçün insan mütləq Quranşünas olmalıdır. Əgər bir insan Quranın elmini bilməsə, yaxud Quranşünas olmasa, heç bir vaxt onun mənasını başa düşə bilməyəcək və bu müqəddəs kitabın insanlara çatdırmaq istədiklərini öz dərk etdiyi kimi tərcümə və təfsir edəcəkdir.

Bu baxımdan Quranda və Peyğəmbərin(s) hədislərində işlənmiş "vəliy" kəlməsinin də müxtəlif

mənaları vardır. Bu kəlmə “dost”, “rəhbər”, “insanları hidayət edən” və s. mənalarda işlənmişdir. Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.” Bu hədisdə işlənmiş “mövla” kəlməsi dost mənasında yox, rəhbər və başçı mənasında işlənmişdir. Peyğəmbər(s) insanların rəhbəri və ağasıdır. Buna görə də Əlini(ə) özündən sonra bütün insanlara rəhbər təyin etdi. Ümumiyyətlə, insanları Əlidən(ə) uzaqlaşdırmaq istəyən kəslər Peyğəmbər(s) barəsində “vəliy” kəlməsini “rəhbər”, Əlinin(ə) barəsində isə “dost” kimi mənalandırırlar. Halbuki Peyğəmbər(s) onu insanlar üçün rəhbər və başçı təyin etmişdir. İnsan bütün bu kimi sözlərin mənalarını dəqiq və aydın şəkildə başa düşmək üçün elmləri dərindən öyrənməli və yalnız bundan sonra isə Quranın tərcümə və təfsiri ilə məşğul olmalıdır. Elmin hər bir sahəsi belədir. Bir neçə kitab oxumaqla, yaxud ərəb dilində beş-on kəlməni öyrənməklə Quranın təfsirçisi olmaq qeyri-mümkündür.

Yuxarıda qeyd etdiyimiz ayədə işlənmiş “övliya” kəlməsi burada dost mənasındadır. Allah-təala bu ayədə bəyan edir ki, şeytanlar sizinlə mücadilə etmək və sizi yoldan çıxarmaqdan ötrü öz dostlarına vəhy edirlər. Əgər siz (iman gətirənlər) onlara tabe olub itaət etsəniz, o zaman müşriklərdən olacaqsınız.

Bu ayədə şeytanın öz dostlarına, davamçılarına və nəslinə vəhy etdiyi barədə söz açılır. Burada belə bir sual oluna bilər ki, şeytanın vəhyi nədir və kimlərə vəhy edir?

Bu sualın cavabı belədir ki, şeytanın özü başda olmaqla, onun nəsli, dostları, dəstəsi və ona tabe olan insanlar vardır. Şeytan onların hamısı ilə əlaqə saxlayır və onlara vəhy (təlqin) edir. Çünki şeytan Allaha bəndələri yoldan çıxarmasına dair söz vermişdir. O, bilmirdi ki,

başına nə kimi hadisələr gələcək. Allahın dərgahından qovulmamışdan öncə onun adı Əzazil idi. Həzrət Əli(ə) buyurur: “Şeytan Allahın ərşində 6 min il ibadət etmişdi. Günlərin birində cənnətin bir tərəfində belə bir yazı gördü: “Bir gün nemət içində yaşatdığımız bəndələrdən birinə bir iş əmr edəcəyik. Lakin o, bizim əmrimizə tabe olmayacaq və bu işdən imtina edəcəkdir. Belə olduqda onu dərgahımızdan qovar və lənətə düçar edərik.”

Şeytan bu yazını oxuduqdan sonra öz-özünə təəccübləndi və Allaha dedi: “İlahi, Sənin lənətinə səbəb olan kəs kimdir? Onun adını bizə söylə ki, biz də ona lənət oxuyaq.” Allah-təala onun adını çəkmədi. Şeytan min il həmin şəxsə lənət oxudu. Lakin onun min il öz-özünə lənət oxumasından xəbəri yox idi. Mələklər onun yanına gəlib dedilər: “Cənnətdə belə bir yazı yazılmışdır. Allaha bizi bu bəladan qurtarması üçün dua et. Şeytan dedi: Hamınız bir yerə toplaşın, mən də sizə dua edim. Bütün mələklər toplaşdıqdan sonra şeytan belə dua etdi: “İlahi, bunları öz pənahında saxla və o bəladan nicat ver.”

Şeytan bütün mələklərə dua etdi, lakin özünə dua etmədi. Allah- təala bütün mələkləri həmin bəladan saxladı. Adəm xəlq olunduqdan sonra şeytanın özü həmin bəlaya düçar oldu. Allah-təala Adəmi(ə) yaratdıqdan sonra bütün mələklərin hamısına ona səcdə etməyi əmr etdi. Bütün mələklər hamılıqla Adəmə(ə) səcdə etdilər. Lakin şeytan bu əmrdən boyun qaçırtdı. Allah-təala ondan soruşdu: “Nə üçün Adəmə səcdə etmirsən? Şeytan təkəbbürlülük göstərib dedi: Sən məni oddan, onu isə torpaqdan yaratmısan. Mən ona səcdə etmərəm.”

Şeytanın işi elə oradan başlandı. Allah-təala onu Öz dərgahından qovub buyurdu: “Qiyamət gününə qədər Mənim lənətim olsun sənə.” Şeytan işin bu yerdə

olduğunu görüb dedi: “Sənə etdiyim 6 min il ibadətin əvəzini vermirsənmi? Allah-təala buyurdu: İbadətlərinin əvəzində nə istəyirsən? Şeytan dedi: Səndən insanların qəlbinə yol tapmağı istəyirəm.” Allah-təala onun ibadətlərinin əvəzində ona bu icazəni verdi. Hədislərdə nəql olunur ki, şeytan bu icazədən istifadə edərək hətta insanların damarlarında qan dövr etdiyi kimi dövr edə bilir. Şeytan bu icazəni aldıqdan sonra dedi: “Yaratdığın bəndələrin çoxunu cəhənnəmə aparacağam.”

Beləliklə, şeytan qarşısına belə bir məqsəd qoyub Allahın bəndələrini yoldan çıxarmağa başladı. Onun nəsli və dostları artdıqca onları başına toplayıb bu işdə əlindən gələni etməyə başladı. Şeytan öz dostlarını başına yığaraq onlarla söhbət edir və Allahın bəndələrini yoldan çıxarmaq üçün müxtəlif planlar hazırlayır. Burada yaxşı olar ki, şeytanın vəhy etdiyi məqamlardan bir neçəsini nəzərinizə çatdırım.

## Adəmin(ə) tövbəsinin qəbul olunduğu gün

Şeytan ilk növbədə öz düşməni olan Adəmi(ə) yoldan çıxarmaq üçün işə başladı. Allah-təala Adəmi(ə) yaratdıqdan sonra onu cənnətdə məskunlaşdırdı. Ona bütün naz-nemətlərdən istifadə etməyə icazə verdi. Lakin bir meyvədən yeməyi ona qadağa qoydu. Şeytan fürsətdən istifadə edib Adəmi(ə) həmin meyvəni yeməyə həvəsləndirib onu yoldan çıxartdı. Adəm(ə) qadağan olunmuş meyvəni yedikdən sonra Allah-təala onu cənnətdən çıxartdı. Şeytan bu işi gördüyü üçün çox sevinirdi. Çünki səcdə etmədiyi və düşmən kəsildiyi Adəmi(ə) yolundan çıxartmışdı. Adəm(ə) cənnətdən qovulduğu üçün səhv iş gördüyünü başa düşüb peşman

oldu. Bu səhv və peşmançılığını aradan qaldırmaq üçün Allahdan onu bağışlamasını dilədi. Allah-təala ona tövbə etməyin yolunu öyrətdi. “Bəqərə” surəsinin 37-ci ayəsində bu barədə belə oxuyuruq:

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

-(Yer üzündə bir müddət qaldıqdan) sonra Adəm öz Rəbbi tərəfindən bəzi kəlmələr aldı (ona tövbə təlqin olundu və ya öyrədilən adlarla ona tövbə ilham olundu və o, tövbə etdi). Allah da ona nəzər edərək tövbəsini qəbul etdi. O, çox tövbə qəbul edən və mehribandır.

Alimlər bu ayənin təfsiri zamanı yazmışlar ki, Allahın Adəmə(ə) öyrətdiyi həmin kəlmələr beş kimsənin adıdır. Həmin adlar Məhəmməd(s), Əli(ə), Fatimə(s.ə), Həsən(ə) və Hüseyndən(ə) ibarətdir. Adəm(ə) həmin adları dilinə gətirərək tövbə etdi. Allah-təala Adəmin(ə) tövbəsini qəbul etdikdə şeytan uca səslə fəryad qopardı. Elə qışqırdı ki, səsini bütün mələklər eşitdi. Onun fəryad qopartmasının səbəbi isə bu idi ki, planlar qurub Adəmi(ə) yoldan çıxarmışdı. Bircə tövbə ilə Allah onu bağışladı və şeytanın bütün zəhmətləri hədərə getdi. Ondan sonra qarşısına belə bir məqsəd qoydu ki, hansı yolla olursa-olsun Adəmin(ə) övladlarının cənnətə getməsinə imkan verməsin.

## İslam Peyğəmbərinin(ə) anadan olduğu gecə

Şeytanın nalə edib fəryad qopardığı və öz dostlarını başına toplayıb onlara vəhy etdiyi məqamlardan biri İslam Peyğəmbərinin(s) anadan olduğu gecə idi. Şeytanın hər bir yerə getmək icazəsi var idi. Gecələrin birində ərşə çıxarkən onu oraya qoymadılar. Buna görə də öz-özünə təəccübləndi və yer üzünə qayıdıb Məkkəyə gəldi. Kəbənin ətrafına, Məscidül-hərama daxil olmaq istədi. Lakin onu ora da buraxmadılar. Mələklərdən bunun sirrini soruşdu, lakin heç bir kəs ona cavab vermədi. Axırda bütün bunların səbəbini Cəbrayıldan(ə) soruşdu. Cəbrayıl(ə) dedi: "Bu gecə sonuncu Peyğəmbər(s) dünyaya gəlib. Ona görə də sənə bir çox yerlərə getməyə icazə yoxdur." Şeytan soruşdu: "Mənim onda payım varmı? Mən onu yoldan çıxara biləcəyəmmi?" Cəbrayıl(ə) dedi: "Xeyr." Şeytan soruşdu: "Bəs ümmətinin qəlbinə girə biləcəyəmmi?" Cəbrayıl(ə) dedi: "Bəli." Şeytan dedi: "Elə isə bu mənə bəs edər."

Həmin söhbətdən sonra şeytan öz dostlarını, nəslini başına toplayıb onlara vəhy etdi və İslam ümmətini yoldan azdırmaq üçün planlar qurmağa başladı.

## "Tövbə" ayəsi nazil olarkən

Şeytan daim Allahın bəndələrini yoldan çıxarmaq üçün əlindən gələnləri edir və insanların Allaha olan imanını son damlasına qədər əllərindən almayınca onlardan əl çəkmir. "Tövbə" ayəsi nazil olduqdan sonra onun işi daha da çətinləşdi. Yenə də öz nəslini və dostlarını başına toplayıb iclas keçirdi. Onlara vəhy edərək bildirdi ki, biz illər boyu zəhmət çəkib Adəm(ə)

övladlarını yoldan çıxardırıq. Lakin onlar bircə dəfə Allaha tövbə etdikdə Allah-təala onların günahlarını bağışlayır. Belə olduqda illərlə çəkdiyimiz zəhmət hədərə gedir. Ona görə də bir çarə qılmaq və insanları Allahdan uzaqlaşdırmaq lazımdır. Onlar birlikdə belə bir mövzu ətrafında məsləhətləşməyə başladılar. Nəticədə belə bir qərara gəldilər ki, insanlara tövbə etməyə imkan verməsinlər. Yəni insan tövbə edib Allaha tərəf qayıtmaq fikrinə düşdükdə şeytanlar onun qəlbinə girər və onu çaşdıraraq tövbəni təxirə salmağa çalışarlar. Şeytanlar bu qərarı qəbul etdikdən sonra onu həyata keçirməyə başladılar.

Həyatda o qədər insanların şahidi oluruq ki, tövbə etməyi bu gün- sabaha saxlayırlar. Onlar öz-özlüyündə fikirləşirlər ki, məsələn, qardaşımın toyundan sonra tövbə edərəm. Yaxud Məşhəd və Məkkə ziyarətinə gedib orada tövbə edərəm. Filan işlərimi səhmana saldıqdan sonra namaz qılaram. Bu kimi düşüncələrlə tövbə etməyin vaxtını uzadır və sabah başına nə gələcəyi haqda düşünmür. Bütün bunlar şeytanın öz dostlarına etdiyi vəhy və təlqindir ki, bu kimi yollarla insanların qəlbinə girərək onları Allahdan uzaqlaşdırmağa və cəhənnəmə aparmağa çalışırlar. Buna görə də insan şeytanın bu hiyləsinə aldanmamaq üçün tövbəni təxirə salmamalı, namaz qılmırsa, elə həmin gündən namaza başlamalı və pis işlərdən çəkinməlidir. Həm də tövbəni və namazı təxirə salmağın nə mənası vardır? Əgər insan namazı sabahdan qılacaqsa, elə bu gündən etibarən qılmağa başlasa daha yaxşı olar. Yaxud Məşhədə gedib tövbə edəcəyini qərara alır. Halbuki tövbə etmək üçün harasa getmək lazım deyil. Əgər insan öz evində tövbə edib bağışlanmasını diləsə, Allah onun günahlarını bağışlayar və tövbəsini də qəbul

edər. Bir sözlə desək, insan bütün bəhanələri kənara qoyub Allahın yoluna qədəm qoyarsa, həm şeytanın belini sındırmış olar, həm də cənnətin qapılarını üzünə açar.

## Qədir Xum günü

Şeytanın öz nəslinə və dostlarına vəhy etdiyi məqamlardan biri Qədir Xum günü idi. Həmin gün "Maidə" surəsinin 67-ci ("Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır!") ayəsi Peyğəmbərə(s) nazil oldu. Həzrət Peyğəmbər(s) orada bütün camaatı bir yerə topladı. Qabaqda gedənlər dayandı və arxada gələnlərin hamısı gəlib çatdı. Orada təxminən yüz mindən artıq insan var idi. Dəvələrin yəhərlərini bir- birinin üstünə qoyub uca bir yer düzəltdilər. Peyğəmbər(s) həmin yerə çıxıb Həzrət Əlini(ə) yanına çağırdı. Sonra onun əlindən tutub yuxarı qaldıraraq buyurdu: "Mən kimin ağası və rəhbəriyəmsə, Əli də onun rəhbəridir." Həzrət Peyğəmbər(s) Əlini(ə) imamətə təyin etdikdən sonra hamı bir-bir gəlib ona beyət edərək Həzrəti(ə) təbrik etdilər. Bircə Müaviyə bunu etmədi. Peyğəmbərin(s) həmin sözlərini eşidən kimi hirslənib müsəlmanlardan ayrıldı. Sonra Həzrət Peyğəmbər(s)üzünü camaata tutub buyurdu:

حُبُّ عَلِيٍّ حَسَنَةٌ لا يَضُرُّ مَعَهَا سَيِّئَةٌ

-Əlini(ə) sevmək elə yaxşı bir işdir (ibadətdir) ki, heç bir günahın ona təsiri olmaz.

Peyğəmbərin(s) bu cümləsi şeytana od vurdu. Şeytan bu sözü eşitdikdə çox narahat oldu. Bütün planlarının alt-üst olduğunu başa düşdü. Elə oradaca öz dostlarını və nəslini ətrafına toplayıb onlara vəhy etməyə başladı. Məsləhət və məşvərətdən sonra insanları Əlidən(ə)

uzaqlaşdırmaq qərarına gəldilər. Şeytan öz-özünə düşündü ki, əgər insanlar Əliyə(ə) məhəbbət bəsləsələr, bu məhəbbət onların hamısını cənnətə aparacaq. Buna görə də belə qərara gəldi ki, insanları ondan ayırmaq lazımdır. Öz-özünə dedi: “Mən Allaha söz vermişəm ki, bəndələrinin çoxunu cəhənnəmə aparacağam. Əgər insanlar Əlini(ə) sevsələr, mənim sözlərim boşa çıxacaq.”

Şeytan və dostları belə bir qərar qəbul edərək insanları Əlidən(ə) uzaqlaşdırmağa başladılar. Şeytanın özü, həmçinin nəsli, dostları və ona tabe olanların hamısı əl-ələ verərək bacardıqlarını etdilər. İndi hamımız şahidik ki, Həzrət Əli(ə) ilə nə qədər düşmənçilik edənlər vardır. Harada Əlinin(ə) adını görürlərsə, sanki ən böyük düşmənlərini görmüşlər. Əlinin(ə) adı çəkilən yerdə qəzəblənib öz düşmənçiliklərini izhar etmişlər. Halbuki Həzrət Əli(ə) bütün İslam dünyasının rəhbəridir. Digər xəlifələri bir qrup müsəlman qəbul edir, bir qrupu isə qəbul etmir. Lakin Əli(ə) ibn Əbu Talibi firqəsindən asılı olmayaraq bütün İslam dünyası qəbul edir. Sual oluna bilər ki, bəs nə üçün bir çox insanlar onun adını eşitdikdə qıcıqlanırlar? Cavab budur ki, şeytan və onun dostları insanları Əlidən(ə) ayıracaqlarına söz vermişlər. Hər bir kəs şeytana tabelik göstərərsə əlbəttə ki, Əlidən(ə) uzaq düşəcəkdir. Şeytana da məhz bu lazımdır.

## Aşura günü

Şeytanın öz dostlarına vəhy etdiyi məqamlardan biri də aşura günü olmuşdur. Aşura günü İslam aləmində ən faciəli və dəhşətli bir gün idi. İmam Hüseyni(ə) həmin gün şəhid etdilər. Şeytan həmin gün çox şad idi və ona görə sevinirdi ki, yüz minlərlə insanı cəhənnəmlik etmişdir.

Təxminən yüz min insan Peyğəmbərin(s) balasının başını kəsmək üçün Kərbəlaya toplaşmışdı. Bu insanlar namaz qılmalarına və oruc tutmalarına baxmayaraq, şeytan onları elə qızışdırıb yoldan çıxartmışdı ki, öz peyğəmbərlərinin balasının başını kəsmək üçün Kərbəlada hazır dayanmışdılar. Şeytan Peyğəmbərin(s) ümmətini Həzrətin(s) qucağında böyüyən, onun boğazından və dodaqlarından öpdüyü uşağının başını kəsmək üçün qızışdırıb Kərbəlaya topladığına görə fərəh hissi keçirirdi.

O zaman Peyğəmbərin(s) vəfatından heç altmış il belə keçməmişdi. Hələ Peyğəmbəri(s) sağlığında görənlərin çoxu sağ idi. Onlar dəfələrlə öz gözləri ilə görmüşdülər ki, Peyğəmbər(s) İmam Hüseyni(ə) bağrına basaraq üzündən, boğazından və dodağından öpüb buyurardı: "Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır." Bu hadisənin üstündən elə də çox vaxt ötməmişdi. Hamı bunu çox gözəl bilirdi. Bütün bunlara baxmayaraq, yüz minlərlə insan şeytana aldanıb İmam Hüseynin(ə) başını kəsməkdən ötrü Kərbəlaya gəlmişdilər. Şeytan Peyğəmbərin(s) öpdüyü həmin boğaza qılınc vurdurdu.

Şeytan bütün bunları etməklə çox sevinirdi. Ona görə sevinirdi ki, yüz minlərlə insanı cəhənnəmə aparırdı. Lakin onun sevinci elə də uzun çəkmədi. İmam Hüseyn(ə) qətlə yetirildiyi yerdə Allaha minacat edirdi. Allah-təala göyün bütün pərdələrini kənara çəkərək mələklərə əmr etdi ki, Hüseynin(ə) minacatına tamaşa etsinlər. Bütün mələklər İmam Hüseynin(ə) Allaha minacat etməsinə qibtə edirdilər. Allah-təala göyün pərdələrini kənara çəkməklə mələkləri başa salırdı ki, siz bir zaman insanı yaratmağıma görə Mənə etiraz edirdiniz. İndi isə bir baxın

mənim bəndəmə və görün ki, qanına bələnmiş halda Mənə necə ibadət edir?

Göyün pərdələri çəkildikdə şeytan orada müəyyən yazıları görərək çox narahat oldu. Elə narahat oldu ki, hətta tutduğu işdən peşmançılığını bildirdi. Ərşdə bu sözlər yazılmışdı: "Hər kəs bu Hüseyni ziyarət etsə, hər bir addımına bir həcc ziyarətinin savabını verəcəyəm. Hər kəs onun üçün ağlasa, həmin şəxsin günahlarını bağışlayacağam. Hər kəs öz malından onun əzadarlığı üçün xərcləsə, dünya və axirətin bərəkətini həmin şəxsə verəcəyəm."

Şeytan bu sözləri oxuyub fəryad qopardı. Başa düşdü ki, çox böyük bir səhv etmişdir. Ona görə ki, yüz min insanı cəhənnəmlik etməsinə baxmayaraq, milyonlarla insan Hüseynə(ə) ağlamaqla cənnətə gedəcəklər. Sonra Allaha dedi: "İlahi, bütün bu savablar Hüseynin(ə) hansı xüsusiyyətinə görədir? Əgər yaralı olduğuna görədirsə, Əyyub Peyğəmbər(ə) də yaralı idi. Əgər susuzluğuna görədirsə, bir çox peyğəmbərlər də susuz qalıblar."

Allahdan ona nida gəldi: "Bütün bunlar Hüseynin(ə) səbrinə görədir."

Şeytan dedi: "Əgər hava bir az da isti olsaydı, o, səbr edə bilməyəcəkdi."

Allah-təala günəşə əmr verdi ki, hərarətini daha da artırsın. Günəş hərarətini o qədər artırdı ki, dünyada həmin gündən isti bir gün olmamışdı. Tarixi mənbələrdə yazırlar ki, dünyada ən isti gün aşura günü olub. Həmin gün hətta atlar belə ayaqlarını torpağın üstünə qoya bilmirdilər. Bütün bunlara baxmayaraq, İmam Hüseyn(ə) başını isti qumların üstünə qoyaraq Allaha belə münacat edirdi:

إِلهي رِضاً بِقَضائِك، وَتَسلِيماً لِأَمرِكَ لا مَعبُود سِوَاك ، يَا غِيَاثَ الْمُستَغِيثِين

-Pərvərdigara, Sənin qəza-qədərinə razı və Sənin əmrinə təslimər. Səndən başqa məbud yoxdur. Ey pənahsızların ən ulu pənahı.

Şeytan İmam Hüseynin(ə) bu minacatını eşitdikdə nalə edib fəryad qopararaq dedi: "Mən yüz minlərlə insanı cəhənnəmə apardım. Amma Hüseyn ibn Əli(ə) milyonlarla insanı özü ilə cənnətə aparacaqdır."

## Quranın nazil olması

Ötən bəhslərimizdə həm Quranın İlahi vəhy olması, həm də vəhyin nə olduğu barədə söz açdıq. Əsas mövzumuz İslam Peyğəmbərinin(s) ən böyük və əbədi möcüzəsi olan Qurani-Kərim haqda olduğundan burada həmin müqəddəs kitabın nazil olmasından bəhs etməyimizə də böyük ehtiyac vardır.

"Nüzul" kəlməsi "nazil olmaq" deməkdir. Quranın nazil olmasına "nüzul" deyilir. Burada Quranın nazil olması barədə üç mühüm məsələyə toxunmaq lazımdır. Həmin üç məsələyə növbəti bəhslərimizdə xüsusi diqqət yetiriləcəkdir.

### 1. Quranın nazil olmasının lüğətdə və ayələrdə olan mənası

Birinci məsələ "nüzul" kəlməsinin mənası barədədir və lüğətdə Quranın nazil olmasının mənası hamıya aydındır. "İnzal" və "tənzil" kəlmələri Quranda təxminən otuz dəfə zikr olunmuşdur. "Nüzul" kəlməsi isə yuxarıdan aşağıya endirmək və yuxarıdan aşağıya göndərmək

mənalarını ifadə edir. Quranda işlənmiş bu kəlmələr də elə həmin mənaları ifadə edir. Əlbəttə, burada nazil olmuş şeyin maddi, yaxud da mənəvi bir şey olmasının heç bir fərqi yoxdur. Quranda "nazil olmaq" ifadəsi yalnız həmin müqəddəs kitab barəsində işlənməmişdir. Maddi nemətlərin bəzisinə də belə bir ifadə ilə işarə olunmuşdur. Məsələn, suyun göydən endirilməsi haqda "Nəbə" surəsinin 14-cü ayəsində belə oxuyuruq:

وَأَنزَلْنَا مِنَ الْمُعْصِرَاتِ مَاء ثَجَّاجًا

-(Buluda) təzyiq göstərən küləklərdən və topa halında bir-birinə sıxılmış buludlardan (yağış, qar və dolu şəklində) bolluca axar su nazil etdik.

Həmçinin Quranın nazil olması barədə də həmin ifadə ilə söz açılır. "Qədr" surəsinin 1-ci ayəsində belə buyurulur:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ

-Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik.

Bu ayələrdən aydın olur ki, "nüzul" Quranda istər maddi, istərsə də mənəvi bir şey barəsində işlənmişdir. Hər bir halda həm lüğətdə və həm də Quranda "nüzul" kəlməsi yuxarıdan aşağıya endirmək mənasını ifadə edir.

**2. Quranın nazil olmasının növləri**

İkinci məsələ budur ki, Quranın nazil olmasının bir neçə cür qaydası vardır. Həm quranşünaslarn sözlərindən, həm də Qurani-Kərimin öz ayələrindən belə başa düşülür ki, bu müqəddəs kitabın nazil olmasının iki növ qaydası mövcuddur. Onlardan biri tədricən (hissə-hissə), digəri isə

birdən (bir dəfəyə) adlanır. Burada daha yaxşı olar ki, hər iki cür nazil olma barədə müəyyən qədər söz açaq.

## Quranın tədricən nazil olması

Qeyd edildiyi kimi, Quranın tədricən nazil olması onun hissə-hissə nazil olmasına deyilir. Yəni Allah-təala Quranı iki dəfə nazil etmişdir. Quranın tədricən nazil olması odur ki, Allah-təala bütün Quranı 23 il ərzində və həm də ayə-ayə, surə-surə, necə deyərlər hissə-hissə Peyğəmbərə(s) nazil etmişdir. Bütün ayələr nazil olunduqdan sonra bir yerə toplanıb kitab halına salınmışdır ki, hazırda əlimizdə olan Quran kitabı həmin ayələrin toplusudur. Quranın tədricən nazil olmasında heç bir şəkk-şübhə yoxdur. Yuxarıda qeyd olunduğu kimi, Allah-təalanın dörd qisim vəhyi vardır. Həmin vəhylərdən biri peyğəmbərlərə olan vəhydir. İslam Peyğəmbərinə(s) isə Allah-təala tərəfindən üç növ vəhy olunmuşdur. Allah-təala həmin üç növ vəhyin vasitəsilə bu Quranı ayə-ayə, surə-surə Peyğəmbərə(s) nazil etmişdir. Quranın tədricən nazil olması haqda “İsra” surəsinin 106-cı ayəsində oxuyuruq:

وَقُرْآناً فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَى مُكْثٍ وَنَزَّلْنَاهُ تَنزِيلاً

-Biz bu Quranı sənə hissə-hissə və ayrı-ayrı oxuduq (surə-surə və ayə-ayə nazil etdik və ya hadisələrin baş verməsinə uyğun olaraq böldük) ki, onu insanlara tələsmədən, yavaş-yavaş oxuyasan və Biz onu tədricən (iyirmi üç il ərzində) nazil etdik.

Deməli, Quran müxtəlif münasibətlərlə 23 il ərzində ayə-ayə və surə-surə nazil olunmuşdur. Bir sıra hallarda camaat Peyğəmbərdən(s) bəzi sualların cavabını istədikdə

Həzrət(s) susar və Allah-təala tərəfindən ayə nazil olunduqdan sonra həmin sualları cavablandırardı. Bəzən müsəlmanlar müharibələrdə hansısa bir məsələ ilə qarşılaşdıqda, Peyğəmbərin(s) hüzuruna gəlib öhdələrinə düşən vəzifələrini soruşarkən Peyğəmbər(s) yenə də Allahın əmrini gözləyər və ayə nazil olduqdan sonra onlara cavab verərdi. Allah-təala bəzən əqidə prinsipləri, bəzən bir sıra şəriət hökmləri ilə bağlı bir məsələ qarşıya çıxdıqda, yaxud bəzən də müxtəlif hadisələr zamanı Peyğəmbərə(s) vəhy edərək ayələr nazil edirdi. İslam Peyğəmbəri(s) isə Allah-təala tərəfindən nazil olan bütün ayələri insanlara çatdırmışdır.

Burada qeyd etməliyik ki, keçmiş peyğəmbərlərə nazil olan kitablar bir dəfəyə nazil olmuşdur. Yəni onlara nazil olan kitablar ayə-ayə və ya surə-surə nazil olmamışdır. Qurani-Kərim İslam Peyğəmbərinə(s) tədricən nazil olduqda münafiqlər hiyləyə əl ataraq bir sıra sözlər yaymağa başladılar. Ümumiyyətlə, münafiqlər, müşriklər və kafirlər həmişə haqq yolda olanlara sataşmaq, onlara qarşı hiylələr işlətmək üçün əllərindən gələni əsirgəməmişlər. Onlar həmişə pusquda dayanaraq müəyyən incə məsələləri camaatın gözündə qabartmaqla insanları haqq yoldan uzaqlaşdırmağa çalışmışlar. Tarix boyu onların işi belə olmuşdur, belə olub və belə də olacaqdır. Quran ayələri tədricən nazil olarkən onlar etiraz edərək dedilər: "Nə üçün Quran Peyğəmbərə(s) bir dəfəyə nazil olmadı?"

Onlar belə bir sözü deməklə İslam dinini və Quranı şübhə altına almaq istəyirdilər. Bu kimi hiylələrlə meydana girərək camaatı dindən uzaqlaşdırmaq fikrindəydilər. Onlar bu sözləri deyərək etiraz etdikdə

Allah-təala “Furqan” surəsinin 32-ci ayəsini nazil etdi və onların cavabını verərək ağızlarını yumdu.

وَقَالَ الَّذِينَ كَفَرُوا لَوْلَا نُزِّلَ عَلَيْهِ الْقُرْآنُ جُمْلَةً وَاحِدَةً كَذَلِكَ لِنُثَبِّتَ بِهِ فُؤَادَكَ وَرَتَّلْنَاهُ تَرْتِيلًا

-Küfr edənlər dedilər: “(Əgər Quranın mənbəyi Allahın elmidirsə, onda) nə üçün Quran ona bir yerdə (bütöv halda) nazil olmayıb?” Onun vasitəsilə sənin qəlbinə sabitlik və möhkəmlik vermək üçün (onun nazil olması) belədir. Və (buna görə də) onu yavaş-yavaş, bir-birinin ardınca (iyirmi üç il ərzində müxtəlif həcmlərdə sənə) oxuduq.

Allah-təala bu ayədə küfr edənlərin suallarına cavab verərək Quranın tədricən nazil olmasının faydasını açıqlayır. Quranın tədricən nazil olmasının faydalarından biri Peyğəmbərin(s) qəlbinə sabitlik və möhkəmlik verməkdir. Münafiqlər və kafirlər həmişə Peyğəmbərə(s) müxtəlif sözlər deyərək ona dilyarası vururdular. Bəzi sözlərlə Peyğəmbərin(s) və möminlərin xətrinə dəyərək onları ruhdan salmaq istəyirdilər. Belə olduqda Allah-təala ayə nazil etməklə Həzrətin(s) və möminlərin ürəyini dağ kimi möhkəm edib sakitləşdirirdi. Həmçinin Allah- təala Peyğəmbərin(s) qeyb aləmi ilə əlaqəsinin kəsilməməsi üçün ayələri tədricən ona nazil etmişdir.

Quranın tədricən nazil olmasının faydalarından biri də müsəlmanların təlim-tərbiyə olunmasından ötrü işin asanlaşdırılması məqsədini  daşıyır. Yəni əxlaqi baxımdan hər gün, yaxud hər həftə ayə nazil etməklə müsəlmanların bunlardan dərs alaraq öz əxlaq və mənəviyyatlarını tərbiyə etmələrinə imkan yaratmışdır. Çünki əgər Quran bütövlükdə nazil olsaydı və Peyğəmbər(s) də onun

hamısını bir dəfəyə camaata çatdırsaydı, insanlarda əxlaq və tərbiyə istənilən səviyyədə ola bilməzdi. Yəni hərdən bir ayənin nazil olması və Peyğəmbərin(s) həmin ayəni camaata oxuması ilə insanlar məsələnin nə yerdə olduğunu daha yaxşı və daha asan qavraya bilirdilər.

Quranın tədricən nazil olmasının faydalarından biri də onun bu yolla insanların yaddaşlarında daha asan qalmasına səbəb olmasıdır. Quran ayələri nazil olduqca Peyğəmbər(s) həmin ayələri camaat üçün oxuyar, möminlər də həmin ayələri yazaraq, yaxud əzbərləyərək yadda saxlayırdılar. Hazırda Quran hafizləri Qurani-Kərimi əzbərləmək istəyənlərə tövsiyə edərkən belə bir proqram tərtib etmişlər ki, gündə bir-iki ayə əzbərləmək və bu işi davamlı şəkildə görmək lazımdır.

Quran ayələrinin tədricən nazil olmasına dair bir çox misallar da çəkmək mümkündür. Nümunə olaraq haram içkilər barədə nazil olmuş ayələrə diqqət yetirək. Allah-təala haram içkiləri birdən-birə qadağa etmədi. Yəni ilk növbədə onların pis olduğunu insanlara bəyan etdi. Beləcə, “Nəhl” surəsinin 67-ci ayəsini nazil etdi:

وَمِن ثَمَرَاتِ النَّخِيلِ وَالأَعْنَابِ تَتَّخِذُونَ مِنْهُ سَكَرًا وَرِزْقًا حَسَنًا

-Xurma və üzüm ağaclarının meyvələrindən (pak olmayan) məstedici mayelər və həmçinin gözəl və pak ruzi alırsınız.

Allah-təala ilk növbədə bu ayədə birdən-birə şərabı qadağan etmədi. Sadəcə olaraq onun pis olduğunu camaata başa saldı. Yəni yaxşı bir ruzinin qarşısında pis bir şeyin olduğunu bəyan etdi. Xurma və üzümdən həm pak şeylər düzəldirsiniz, həm də onlardan məstedici və pak olmayan şeylər alırsınız. Peyğəmbər(s) də Məkkədə bu cümlədən artıq onlara bir söz demədi. Sadəcə olaraq bu

işin pis olduğunu vurğuladı. Bu ayədə hamıya eşitdirdi ki, İslam həmin işi (meyvələrdən içki düzəldib içməyi) bəyənmir. Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət etdikdən və İslam cəmiyyətini yaratdıqdan sonra "Bəqərə" surəsinin 219-cu ayəsi nazil oldu. Bu ayədə Allah-təala Peyğəmbərlə(s) söhbət edir və içki barədə soruşanlara hansı cavabın verilməsini buyurur.

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا

-Səndən şərab və qumar barəsində soruşurlar, de: "O ikisində (onlara mürtəkib olmaqda) böyük günah və insanlar üçün (maddi) mənfəətlər vardır və onların günahı mənfəətlərindən böyükdür."

Bu ayədə də hələ qəti haram və qadağa söhbəti açılmır. Sadəcə olaraq şərabın maddi mənfəəti olmaqla yanaşı, onun böyük günah olduğunu və ziyanlarını camaata başa salır. Bu ayədə əvvəlki ayəyə nisbətən şərabın pis olduğuna daha çox təkid edilir. Üstündən az bir müddət keçdikdən sonra üçüncü mərhələdə "Nisa" surəsinin 43-cü ayəsi nazil olur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ

-Ey iman gətirənlər, sərxoş halda (sərxoşluğunuz aradan gedənə) və nə dediyinizi bilənə kimi namaza yaxınlaşmayın.

Bu ayədə Allah-təala möminlərə xitab etdikdən sonra bəyan edir ki, namaz qılarkən məst halında olmayın. Bunun mənası o demək deyil ki, məst olmuşsunuzsa namazı sonra qılarsınız. Mənası belədir ki, namaz vacib

olduğu üçün mütləq məstedici içkiləri bir kənara qoymalısınız. Bu mərhələdə artıq məsələnin ciddi olduğuna təkid edilir. Dördüncü və sonuncu mərhələdə şərabın qəti qadağan olunmasını bəyan edir. Allah-təala “Maidə” surəsinin 90-cı ayəsində həm şərabın, həm də bir sıra əməllərin çox pis iş olduğunu insanlara başa salaraq belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları murdardır və şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.

Bu ayədə Allah-təala son nöqtəni qoyaraq sözü yekunlaşdırır və bütün bu sadalanan işlərdən çəkinmək barədə qətiyyətlə göstəriş verir. Əvvəlcə onların çirkin və murdar əməl olduğunu önə çəkir, sonra isə bu işlərin şeytanın ixtiralarından olduğunu açıqlayaraq onlardan çəkinməyi əmr edir.

Nümunə üçün qeyd etdiyimiz ayələrdən açıq-aydın görürük ki, İslam dini insanları tədricən belə bir gözəlliklərin təsiri altında tərbiyə edir. Əgər Quran belə, yəni tədricən nazil olmasaydı, Peyğəmbər(s) müsəlmanların tərbiyə olunmasında istənilən nailiyyəti əldə edə bilməzdi.

## Quranın birdəfəyə nazil olması

Quranın nazil olmasının ikinci növü isə onun birdəfəyə nazil olmasıdır. Qurani-Kərim İslam Peyğəmbərinə(s) həm tədricən, həm də birdəfəyə nazil olmuşdur. Biz belə bir

nəticəyə gəlirik ki, Quran iki dəfə nazil olmuşdur. Bir dəfə 23 il ərzində ayə-ayə, surə-surə nazil olmuşdur, bir dəfə isə bütövlükdə hamısı Peyğəmbərin(s) mübarək qəlbinə nazil olub. Deməli, Quran iki dəfə nazil olmuşdur və hər bir nazilolmanın özü barəsində də ayrıca ayələr vardır. "Bəqərə" surəsinin 185-ci ayəsində belə buyurulur:

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ

-Ramazan ayı Quranın nazil olduğu bir aydır.

Bu ayədən məlum olur ki, Quran mübarək ramazan ayında nazil olmuşdur. "Qədr" surəsinin 1-ci ayəsində Quranın nazil olduğu gecə də bizim üçün açıqlanaraq belə buyurulur:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ

-Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik.

Qədr gecəsinin necə bir gecə olması barədə isə "Duxan" surəsinin 3-cü ayəsində oxuyuruq:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةٍ مُّبَارَكَةٍ

-Biz onu çox bərəkətli bir gecədə nazil etdik.

Bəyan edilən ayələrdə Quranın birdəfəyə nazil olmasına işarə edilir. Bu ayələrdə Quranın həm nazil olduğu ay, həm gecəsi, həm də həmin gecənin necə bir gecə olduğu bizim üçün bəyan edilir.

Sual oluna bilər ki, Quranın birdəfəyə nazil olması nə vaxt baş vermişdir? Bu sualın cavabı belədir ki, Peyğəmbər(s) nübüvvətə çatdıqdan sonra, yəni hələ İslamın təbliğinə başlamazdan öncə Quran bütünlüklə (tam mənası ilə) onun mübarək qəlbinə nazil olmuşdur. Beləliklə, Quran ayələrinə əsaslanıb deyə bilərik ki, bu

müqəddəs kitab iki dəfə nazil olmuşdur: bir dəfə Həzrətin(s) mübarək qəlbinə, bir dəfə isə ayə-ayə, surə-surə göndərilmişdir.

### 3. Quranın nazilolma səbəbi

Bu bəhsimizdə olan üçüncü əsas məsələ isə Quran ayələrinin nazilolma səbəbidir. Yəni Quran ayələrini mənalandırmaq və təfsir etmək üçün mütləq onların nazilolma səbəblərini bilmək lazımdır. Quranda bəzi ayələr vardır ki, əgər insan həmin ayələrin nazilolma səbəbini bilməsə, onları düzgün təfsir və məna edə bilməyəcək. Ayələrin nazilolma səbəbini bilmək isə Quranın təfsirində və mənalandırılmasında çox böyük rol oynayır. Əlbəttə, burada qeyd etmək lazımdır ki, "şəni nüzul" və "səbəbi nüzul" hər ikisi eyni mənanı daşıyır. Lakin onların arasında bir fərq var ki, təfsir alimləri onu çox gözəl bilir və izah edirlər. Biz indi ayələrin təfsirindən bəhs etmədiyimiz üçün hər ikisini bir məna kimi qəbul edək. Bununla belə, onların fərqi barədə azacıq da olsa izah vermək istəyirəm. Məsələn, bir ayə kiminsə barəsində nazil olubsa, buna "şəni nüzul", hansı gün və hansısa hadisə ilə əlaqədar nazil olubsa buna "səbəbi nüzul" deyilir. Bunu daha açıq şəkildə başa düşmək üçün Peyğəmbərin(s) bir hədisini nəzərinizə çatdırıram. Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Salman biz əhli-beytdəndir." Peyğəmbər(s) bu sözü Salmanın barəsində işlətdiyi üçün buna "şəni nüzul" deyilir. "Səbəbi nüzul" isə Peyğəmbərin(s) həmin sözü nə vaxt və hansı hadisə ilə əlaqədar olaraq buyurmasıdır. Onunla bağlı olan hadisə belədir:

-Xəndək müharibəsində onun yaşının çox olmasına baxmayaraq, gördüyü işlər on nəfərin işinə bərabər idi.

Məsələn, Mədinə ətrafında xəndək qazırdılar ki, düşmən hücuma keçə bilməsin. Həmin xəndəyi qazdıqları zaman Salmanın qazdığı yer digər on nəfərin qazdığı yerdən daha böyük idi. Yəni on nəfərin görə biləcəyi işi o, təkbaşına görürdü. Elmi öz yerində olmaqla yanaşı, o, həm də işgüzarlığı, fərasəti, fəallığı və zirəkliyi ilə fərqlənidi. Xəndək hadisəsində Mühacirlər və Ənsar arasında kiçik bir mübahisə baş verdi. Mühacirlər Salmanı öz tərəflərindən, Ənsar isə öz tərəflərindən hesab edirdilər. Yəni biri deyirdi ki, Salman bizdəndir, digəri isə onların tərəfindən olması barədə iddia ilə çıxış edirdilər. Həzrət Peyğəmbər(s) onların bu mübahisələrini görərək Salmanın şərafətinin daha çox olduğunu söyləyib belə buyurdu: “Salman biz Əhli-beytdəndir.”

Deməli, “şəni nüzul” və “səbəbi nüzul” arasında olan fərqin nə olduğu bizə aydın oldu. Beləliklə, hər kəs Quran ayələrinin nazil olma səbəbini bilməsə, mənasını da başa düşməyəcək. Misal üçün ayələrdən birini və onun nazil olma səbəbini diqqətinizə çatdırıram. Allah-təala “Bəqərə” surəsinin 158-ci ayəsində belə buyurur:

إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِن شَعَآئِرِ اللّهِ فَمَنْ حَجَّ الْبَيْتَ أَوِ اعْتَمَرَ فَلاَ جُنَاحَ عَلَيْهِ أَن يَطَّوَّفَ بِهِمَا...

-Həqiqətən, Səfa və Mərvə (dağları) Allahın (dininin və Ona sitayişin) əlamət və nişanələrindəndir. Odur ki, Allah evinin “həcc” ziyarətini edən, yaxud “ümrə”ni yerinə yetirən şəxsin o ikisini təvaf etməsində (ikisi arasında “səy” etməsində) ona (nəinki) heç bir günah yoxdur (əksinə vacibdir. Çünki İslamdan qabaqkı müşriklərin Səfa və Mərvənin hər birində bir büt qoyub,

hər dövrdə onlara təzim etmələri, sizin Allah üçün olan “səy” əməlinizin haramlığına səbəb olmur).

Səfa və Mərvə Məkkədə olan iki kiçik dağdır ki, aralarında 420 metr fasilə vardır. Hacılara vacibdir ki, yeddi dəfə o dağlar arasında səy əməlini yerinə yetirsinlər. Bu əməl rükn və vacib əməllərdən biridir. Hər kəs Səfa və Mərvə dağları arasındakı bu əməli yerinə yetirməsə, həcci pozular. Lakin Quran ayəsinə baxdıqda onun vacibliyini başa düşmək olmur. Ayəni oxuduqda ilk növbədə belə başa düşülür: “o ikisini təvaf etməsində (ikisi arasında “səy” etməsində) ona heç bir günah yoxdur.” Bu ayəni oxuduqda belə başa düşülür ki, o dağların arasında səy etməyin eybi və günahı yoxdur. Yəni bu işi görməyə də bilər. Amma əgər bu işi görsə, heç bir günahı yoxdur. Əsl həqiqət isə belə deyildir. Əgər təfsirçi bu ayənin nazilolma səbəbini bilmədən onu məna və təfsir etməyə çalışarsa, bu, düzgün başa düşülməyəcək. Həmçinin Quranın tərcüməsini oxumaq və ayələri əzbərləmək onun ayələrinin mənasını başa düşmək demək deyildir. Ərəb dilini öyrənmək və bir-iki kitab oxumaq buna dəlalət etmir ki, insan Quranı tamamilə təfsir edə bilər. Quran ayələrinin nazilolma səbəbini bilmədən təfsir və məna etmək insanı küfrə aparıb çıxarar. Quran bir qəzet və jurnal məqaləsi deyildir ki, oxuyub bir nəticəyə gələsən və onun mənasını dəqiqliklə başa düşəsən. Quranı oxumaq və onu başa düşmək üçün insan mütləq quranşünas olmalıdır. Ərəb dilini bilmək insanın quranşünas olmasına dəlalət etmir. Quranı təfsir edən, onun hökmlərini aşkara çıxaran insan ərəb dilini bilməklə yanaşı, mütləq Quran elmlərini də bilməli və quranşünas olduqdan sonra bu işə başlamalıdır.

Qeyd etdiyimiz ayənin nazilolma səbəbinə gəldikdə isə deməliyik ki, İslam dinindən əvvəl bütpərəstlər hər il öz adət-ənənələrinə uyğun olaraq həcc ziyarətini, o cümlədən Səfa və Mərvə arasındakı əməlləri yerinə yetirmək üçün Məkkəyə gedirdilər. Onlar hər iki dağın başına büt qoymuşdular. Hər dəfə dağın üstünə çıxaraq əllərini o bütlərə sürtürdülər. İslam dini zühur etdikdən sonra həcc əməlləri bərpa olundu. Peyğəmbər(s) Səfa və Mərvə dağları arasında yeddi dəfə təvaf etməyin vacib olduğu barədə müsəlmanlara göstəriş verdi. Bu göstəriş bəzi müsəlmanların xoşuna gəlmədi. Onlar dedilər ki, üstündə büt olan dağların arasında necə təvaf edək?

Allah-təala "Bəqərə" surəsinin 158-ci ayəsini nazil etdi və bildirdi ki, bu dağların üstündə bütlərin olmasının sizin əməllərinizə heç bir ziyanı yoxdur və günah deyildir. Allah-təala bu ayədə həmin müsəlmanların qəlblərində bütlərə qarşı olan çirkinliklərə cavab verərək onları başa salır ki, siz öhdənizə düşən vacib əməllərinizi yerinə yetirin. O bütlərin oraya qoyulmasının sizin əməllərinizə ziyanı yoxdur. Siz öz öhdənizə düşən vəzifələrinizə dəqiqliklə əməl edin. Axırda bu əməlləriniz o bütlərin, müşriklərin, münafiq və kafirlərin aradan getməsinə səbəb olacaq. Siz hansısa bütə, yaxud müşrikə görə vacib olan əməllərinizi tərk etməyin.

Quran insanları hidayət edən İlahi bir kitabdır. Quran İslam Peyğəmbərinin(s) bizim üçün qoyduğu yadigar və əbədi möcüzədir. Peyğəmbər(s) hətta ömrünün son anlarında belə həm Quranı, həm də Əhli-beyti(ə) bizə vəsiyyət etmişdir. Quran elə bir kitabdır ki, onun mənasını və təfsirini Peyğəmbərdən(s) sonra Əhli-beyt(ə) bizim üçün açıqlamışdır. Əgər hər kəs Əhli-beyti(ə) Qurandan ayırsa, onun ayələrinin mənasını başa düşməyəcək.

Düzdür, Qurandan istifadə edib ondan bəhrələnə bilərik. Amma onun tam mənasını və hidayət yolunu tapmaq üçün mütləq Əhli-beytə(ə) müraciət etməliyik. Əgər insanların qulaqlarına Quran ayələri dəyirsə və onlar bundan ləzzət alırlarsa, bu, Quranın mənəviyyat tərəfidir. Bu ləzzət Quranın hidayət kitabı olmasından irəli gəlir.

İki nəfər xristian başlarına gələn hadisəni belə danışırlar:

-Mərakeşdə bir məsələyə görə bizi zindana saldılar. Orada İraqdan bir ərəblə tanış olduq. Təsadüfən üçümüz bir otaqda qalmalı olduq. O, müsəlman olduğu üçün demək olar ki, hər gün Quran oxuyurdu.Biz yavaş-yavaş onunla tanış olub dostlaşdıq. O, ərəb dilində bəzi sözləri bizə öyrətmişdi. Günlərin birində Quran oxuyarkən bu ayə bizə çox xoş gəldi və bizə təsir etdi:

وَاسْأَلُواْ اللّهَ مِن فَضْلِهِ إِنَّ اللّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا

-Allahdan (bir şey istədikdə) Onun fəzlindən istəyin ki, həqiqətən, Allah hər bir şeyi biləndir (hər bir kəsə onun xeyrinə olanı verir).[1]

Başqa bir gün Quran oxuyarkən bu ayəni oxudu və o da bizə xoş gəldi.

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ

-Rəbbiniz buyurdu: "Məni çağırın ki, Mən də duanızı qəbul edim."[2]

Günlərin birində bu ayəni də oxuyarkən bizə xoş gəldi.

---

[1] Nisa surəsi, ayə 32.
[2] Ğafir surəsi, ayə 60.

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ

-Mənim bəndələrim səndən Mənim barəmdə soruşanda (de ki,) Mən həqiqətən, (hamıya) yaxınam, Məni çağıran zaman dua edənin duasını qəbul edirəm.[1]

İraqlı ərəbin Quran oxuması bizim qəlbimizə çox böyük təsir göstərmişdi. Xüsusilə Quranın bu kimi ayələri bizi düşünməyə vadar etmişdi. Bir-birimizlə söhbət edərkən deyirdik ki, deyəsən, keşişlər bizi aldadırlar. Onlar bizlə Allah arasında maneə yaradıblar. Onlar bizə icazə vermirlər ki, ürəyimizdə olan sözü birbaşa Allaha deyək. Bizə deyirlər ki, əgər günahınız varsa, gərək gəlib bizə bir şey (puldan, hədiyyədən) verəsiniz, biz də günahınızı bağışlayaq. Lakin Məhəmmədin(s) gətirdiyi bu kitabda isə insanların Allahı birbaşa çağırmasına icazə verilir. İnsanlar hər nə istəsələr, Allahdan istəyə bilərlər. Hərdən bu barədə bir-birimizlə söhbət edirdik. Aylar ötdü, günlər keçdi, dustaqxana həyatı gündən-günə bizim üçün daha da ağırlaşdı. İş o yerə gəlib çatdı ki, bizə hətta içməyə su belə tapılmadı. Susuzluqdan az qalırdı ki, canımız çıxsın. Elə bu an iraqlının Qurandan oxuduğu həmin ayələr yadımıza düşdü. Fikirləşdik ki, Allahdan istəsək, O, bizə nicat verər. Əgər belədirsə, onda nə üçün də istəməyək? Beləliklə, təmiz əqidə və pak niyyətlə Allaha yalvarıb bizi bu acınacaqlı vəziyyətdən qurtarmasını istədik. Allah-təala dualarımızı qəbul edib ağlımıza gəlməyən halda bizi həmin acınacaqlı vəziyyətdən çıxardı. Tez bir zamanda su məsələsi də öz həllini tapdı. Bizimlə bir otaqda qalan iraqlı müsəlman

[1] Bəqərə surəsi, ayə 186.

dedi: “Deyəsən, sizin dininiz haqq dindir. Çünki Allah sizin dualarınızı qəbul etdi.” Biz onu başa salıb dedik: “Xeyr, əksinə, biz İslamı qəbul etdiyimizə görə və Allahdan bir müsəlman kimi xalis niyyətlə istədiyimizə görə Allah-təala bizi bu bəladan qurtardı. Biz müsəlmançılığı səndən öyrənmişik.”

Həqiqətən də əgər insan təmiz ürəklə, xalis niyyətlə Allaha üz tutub dua edərsə, Allah həmin şəxsin duasını qəbul edər. Əgər bəzi vaxtlar dualarımız qəbul olunmursa, bunun günahı bizim özümüzdədir. İnsanın dualarının qəbul olunmasının şərtləri vardır. Əgər insan həmin şərtlərə riayət edərsə və təmiz ürəklə, möhkəm imanla Allaha dua edərsə, əlbəttə ki, onun duaları da müstəcəb olar. Əlbəttə, bu o demək deyil ki, insan hər nə istəyirsə, Allah mütləq onu qəbul edəcəkdir. Əgər Allahın təqdirində bir işin baş tutması varsa, O, bunu məsləhət görürsə, o zaman yerinə yetər. Bəzən Allah-təala Öz məsləhətinə görə insanın istəklərini yerinə yetirmir. Bütün bunlar Allahın hikmətidir və biz dua barəsində olan söhbətlərimizdə bu haqda kifayət qədər danışmışıq. Lakin bir çox duaların qəbul olunmamasının səbəbi insanın əməllərinin nəticəsi ilə bağlıdır. Məsələn, günlərin birində bir nəfər İslam Peyğəmbərindən(s) soruşdu: “Ya Rəsulallah, nə üçün mənim dualarım qəbul olunmur?” Peyğəmbər(s) buyurdu: “Dualarının qəbul olunmasını istəyirsənsə, haram yeməklərdən çəkin.” Digər bir hədisdə isə belə nəql olunur ki, bir nəfər Həzrət Musaya(ə) dedi: “Ey Allahın Peyğəmbəri(ə), nə üçün mənim dualarım qəbul olunmur?” Musa(ə) buyurdu: “Dualarının qəbul olunmasını istəyirsənsə, evindən bütləri çıxart.”

## Quranın nizamla yazılıb tərtib olunması

Məlum olduğu kimi, bizim əsas mövzumuz Quranın İslam Peyğəmbərinin(s) əbədi möcüzəsi olması barədədir. Artıq qeyd olundu ki, İslam Peyğəmbəri(s) sonuncu peyğəmbərdir. Həzrətin(s) gəlişi ilə də peyğəmbərliyə son qoyuldu. Keçmiş peyğəmbərlərin möcüzələri olduğu kimi, İslam Peyğəmbərinin(s) də müxtəlif möcüzələri vardır. İnsanlar peyğəmbərlərin həmin möcüzələrini görüb Allaha iman gətirər və o peyğəmbəri qəbul edərdilər. Lakin Həzrət Məhəmməd(s) sonuncu peyğəmbər olduğu üçün onun möcüzəsinin əbədi olması da vacibdir. Yəni İslam Peyğəmbəri(s) qiyamətə qədər peyğəmbər olaraq qaldığı üçün onun elə bir möcüzəsi olmalıdır ki, qiyamətədək qalmış olsun. İslam Peyğəmbəri(s) əbədi peyğəmbər olduğundan onun möcüzəsi də əbədi möcüzədir. Məlum olduğu kimi, İslam Peyğəmbərinin(s) əbədi möcüzəsi Qurandır. Allah-təala “Nisa” surəsinin 136-cı ayəsində iman gətirənlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ

-Ey Allaha iman gətirənlər, Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin.

Allah-təala bu mübarək ayədə Ona, Rəsuluna(s) və Rəsuluna(s) nazil etdiyi kitaba iman gətirməyi buyurur. Buna görə də hər bir insan iman gətirdiyi bir şey haqda tədqiqat aparmalı və onun barəsində lazımi qədər məlumat toplamalıdır. Quran Allah tərəfindən insanlara göndərilmiş müqəddəs bir kitabdır. Bunun üçün iman gətirdiyimiz bu

kitabın kimə və necə nazil olması haqda məlumat əldə etməliyik.

Ötən bəhslərimizdə bu barədə geniş şəkildə bəhs etdik və bildik ki, Allah-təala Qurani-Kərimi İslam Peyğəmbərinə(s) vəhy vasitəsilə nazil etmişdir. Həmçinin Quranın iki dəfə, həm birdəfəyə Peyğəmbərin(s) mübarək qəlbinə, həm də tədricən ayə-ayə, surə-surə nazil olması barədə söz açdıq. Əsas bəhsimizə başlamazdan öncə bir məsələnin qeyd olunmasına da ehtiyac duyulur. Çünki bu məsələ bir çox insanların maraq və diqqətini cəlb edir. Həmin məsələ Quranın yazılıb kitab şəklində tərtib olunması ilə bağlıdır. Sual oluna bilər ki, əlimizdə olan bu Quran 23 il müddətində ayə-ayə Peyğəmbərə(s) nazil olduqdan sonra onu kim tərtib edib kitab halına salmışdır? Quran ümumiyyətlə, hansı tarixdə yazılıb kitab halına salınmış, onun ayə və surələrini kim tənzimləyib hazır şəklə gətirmişdir?

Həmin sualları cavablandırmazdan öncə bunu da bilmək lazımdır ki, bir sıra məsələlərdə bəzi firqələr arasında müxtəlif ixtilaflara da rast gəlinməsi mümkündür. Amma bəzi məsələlər barədə isə tikir ayrılığı çox azdır. Firqələr arasında az ixtilaf olan məsələlərdən biri Quranın necə nazil olması, onun tərtib edilməsi və yazılması ilə bağlıdır. Əgər bu məsələdə hansısa kiçik bir fikir ayrılığına rast gəliriksə, deməli, yox dərəcəsindədir. Çünki Quranın necə nazil olması, toplanıb kitab halına salınma məsələsini firqəsindən asılı olmayaraq bütün İslam dünyası yekdilliklə qəbul edir. Hamının əqidəsi belədir ki, Allah-təala Quranı Cəbrayıl(ə) vasitəsilə Peyğəmbərə(s) nazil etmiş və Peyğəmbərin(s) vasitəsilə bir neçə mərhələdə tənzimlənmişdir. Hər üç mərhələni diqqətinizə çatdırıram.

**1. Kəlmələrin tənzimlənməsi**

Quranın ilkin tənzimlənməsi onun kəlmələrinin nizama salınması ilə bağlıdır. Baxaq görək, ayələrdə olan kəlmələr necə tənzimlənib? Buna misal olaraq Quranın hər hansı bir ayəsini misal çəkmək mümkündür. Məsələn, “Tövhid” surəsində olan “Qul huvəllahu əhəd” bir ayədir. Həmçinin “Bismillahir-rəhmanir-rəhim” ayəsi başda olmaqla bu surə beş ayədən ibarətdir. Quran Allahın kəlamı olduğu üçün hər bir ayənin kəlmələrini də Allah Özü tənzimləmişdir. Bu barədə İslam aləmində heç bir fikir ayrılığı yoxdur. Hər bir kəs bilir ki, Quranın bütün ayələri Allahın Öz sözü olduğu üçün hər bir ayənin tənzimlənməsi də Ona məxsusdur. Məsələn, “Əlhəmdu lillahi Rəbbil aləmin” Quranın bir ayəsidir. Bu, insanların sözü deyil. Bütün ayələrdəki sözlər Allahındır və onların nizamlanması da Allaha məxsusdur. Ayədə hansı kəlmənin harada olmasını Allah-təala Özü bizə bəyan etmişdir. Bir sözlə desək, nazil olmuş hər bir ayənin kəlmələrini əvvəldən-axıradək Allah Özü tənzimləmişdir.

Ayələrdəki kəlmələrin nizamlanmasında heç bir kəsin şəkk-şübhəsi və ya fikir ayrılığı yoxdur. Əgər bu məsələdə ixtilaf olmuş olsa, o zaman Quranın təhəddisi aradan qalxar. Çünki Quranın təhəddisi kəlmələrin üzərindədir. Bu barədə peyğəmbərlərin möcüzələri mövzusunda geniş bəhs etmişik və gələcək bəhslərimizdə də buna toxunacağıq. “Təhəddi” odur ki, Quranın Allah tərəfindən nazil olmasına şəkk-şübhə edənləri mübarizəyə çağırır və bəyan edir ki, əgər bacarırsınızsa, siz də Quranın bənzərini ortaya qoyun. Quranın möcüzə olması bundadır ki, heç bir kəs onun bənzərini yarada bilməyəcəkdir. Bu elə bir möcüzədir ki, hamını elmi və məntiqi mübarizəyə dəvət edir.

Möcüzənin şərtlərindən biri də təhəddisi ilə olmasıdır. Məsələn, Musa(ə) çəliyini camaata göstərib dedi: "Mən bu çəliyi yerə atdıqda o, dönüb əjdaha olacaq. Əgər bu möcüzəni qəbul etmirsinizsə, bacarırsınızsa siz də belə bir möcüzə göstərin."

İsa Peyğəmbərin(ə) möcüzələrindən biri ölüləri diriltmək idi. Neçə illər dünyasını dəyişmiş ölüləri dirildə bilirdi. Dəfələrlə bu möcüzəni insanlara göstərmişdir. Onun bu möcüzələrinə inanmayanları isə mübarizəyə dəvət edib buyurardı: "Əgər mənim möcüzəmə inanmırsınızsa və əgər bacarırsınızsa siz də bir ölünü dirildin."

Qurani-Kərim də İslam Peyğəmbərinin(s) əbədi möcüzəsidir. Quran özü insanları mübarizəyə çağırır və bildirir ki, hər kim bu kitaba şəkk-şübhə edirsə, o zaman onun surələrinə bənzər bir surə gətirsin. Möcüzənin bu şərtinə "təhəddi" deyilir. Əgər Quran ayələrinin kəlmələrini səhabələr və yaxud başqaları tənzimləsəydi, o zaman Quranda olan fəsahət, bəlağət və lətafət aradan gedərdi. Belə olduqda Quran da öz ecazkarlığını itirərdi. Buna görə də hər bir ayənin kəlmələrini Allah-təala Özü tənzimləmişdir.

**2. Ayələrin tənzimlənməsi**

Beləcə, məlum oldu ki, ayələrin hər bir kəlməsini Allah-təala Özü tənzimləmişdir. Sual oluna bilər ki, bəs ayələrin ardıcıllığını kim tənzimləyib? Məsələn, "Bəqərə" surəsində 286, "Ali-İmran" surəsində 200, "Yasin" surəsində 83, "Nəbə" surəsində 40, "Kövsər" surəsində isə 3 ayə vardır. Görəsən, kim bütün bu ayələri surə-surə tənzimləmişdir? Firqəsindən asılı olmayaraq bütün İslam alimləri bu fikirdədirlər ki, Quran ayələrinin surələrdə

tənzimlənməsi “toqifi”dir. “Toqifi” odur ki, hər hansı bir əməli Peyğəmbər(s) başda olmaqla on dörd məsum yerinə yetirmiş olsun. Şəxsən Peyğəmbərin(s) özü bu işi görmüşdür. Yəni müxtəlif sənəd-sübutlara əsasən, ayələrin surələrdə nizamlanmasını şəxsən İslam Peyğəmbərinin(s) özü etmişdir. Məsələn, “Bəqərə” surəsində olan ayələri bir-birinin kənarına düzmüşdü. Bəzi ayələr vardır ki, Peyğəmbərin(s) ömrünün axırlarında nazil olmuşdur. Həzrətin(s) göstərişinə əsasən, həmin ayəni “Bəqərə” surəsində yerləşdirmişlər. Bəzi ayələrin İslamın əvvəllərində nazil olmasına baxmayaraq, Həzrət Peyğəmbər(s) həmin ayəni Quranın ortasındakı surələrin birində yerləşdirmişdir. Deməli, Peyğəmbər(s) hələ sağlığında hər bir surədəki ayələri bir-birinin ardınca düzmüşdür. Peyğəmbər(s) həmçinin bir qrup möminə göstəriş vermişdir ki, ayələr nazil olduqca onları yazsınlar. Onlar da ayələri Peyğəmbərin(s) dilindən eşitdikcə taxtanın, sümüyün və dəridən hazırlanmış kağızların üzərinə yazaraq saxlayırdılar. Həzrət Peyğəmbər(s) sağlığında həmin ayələri, eləcə də hansı surədə nə qədər ayənin olduğunu tənzimləmişdir. Bütün bunların hamısının bir səbəbi və əlamətləri vardır və buna görə də Həzrət Peyğəmbər(s) özü həmin işi yerinə yetirmişdir.

### 3. Surələrin tənzimlənməsi

Biz Quranın tənzimlənib tərtib olunması ilə bağlı iki məsələyə artıq toxunduq. Birincisi kəlmələrin, ikincisi isə ayələrin tənzimlənməsindən kifayət qədər bəhs etdik. Bildik ki, bu məsələdə heç bir fikir ayrılığı yoxdur. Burada vurğulanan əsas məsələ surələrin bir-birinin ardınca tənzimlənməsi barədədir. Əgər firqələr arasında Quranın tənzimlənməsi məsələsində fikir ayrılığı

yaranırsa, bu ixtilaf yalnız surələrin toplanması barədədir. Burada belə bir sual verilə bilər ki, Quranda kəlmə və ayələrin tənzimlənməsi aydındır. Bəs Quranın surələrini kim ardıcıl olaraq tənzimləmişdir? Bu suala cavab olaraq iki variant irəli sürülmüşdür. Birinci variant budur ki, surələri də Peyğəmbər(s) özü tənzimləyib. Ancaq bu variantın dəlil və sübutları həm azdır, həm də sənədləri zəifdir. İkinci variant isə budur ki, surələrin tənzimlənməsi Peyğəmbərdən(s) sonra onun səhabələrinin öhdəsinə düşmüşdür. Yəni alimlərin əksəriyyətinin buyurduqlarına əsasən, Quranın surələrinin bir-birinin ardınca tənzimlənməsini səhabələr yerinə yetirmişlər. Çünki Peyğəmbərin(s) özü bu işi görməyi vəsiyyət etmişdir.

Deməli, Quranın surələri Peyğəmbərdən(s) sonra, yəni onun səhabələrinin dövründə tənzimlənmişdir. Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra Həzrət Əli(ə) altı ay evdən çölə çıxmadı və bu müddətdə yalnız Quranın surələrini tənzimləməklə məşğul oldu. Bəzi hədislərdə belə nəql olunur ki, Həzrət Əli(ə) bu haqda buyurmuşdur: "Mən namazdan başqa çiynimə əba salmayacağam. (Yalnız namazdan- namaza əba geyinəcəyəm)." Həzrət Əlinin(ə) bu sözlərinin mənası belədir ki, yəni evdən bayıra çıxmayacağam. Həzrət Əli(ə) altı ay evdə oturub Quran ayələrini Peyğəmbərin(s) vəsiyyətinə əsasən və Peyğəmbərin(s) tənzim etdiyi kimi tərtib etdi və surələri bir-birinin ardınca düzdü.

Həmin vaxt Quranın bəzi ayələri nazik taxtaların, bəziləri dəri kağızların, bəziləri isə sümüklərin üzərində yazılaraq pərakəndə halda idi. Həzrət Əli(ə) onların hamısını cəmləşdirib böyük parça üzərində yazdı. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, Həzrət Əli(ə) şəxsən özü Quranın hafiz və natiqi idi. Həzrət(ə) bütün Quranı mənası

ilə birgə əzbər bilirdi. Altı aydan sonra həmin parçanı dəvənin üstünə qoyaraq məscidə gətirdi. Əbu Bəkr məsciddə əyləşmişdi. Bəzi müsəlmanlar da orada idilər. Həzrət Əli(ə) məscidə daxil olduqdan sonra üzünü camaata tutub buyurdu: "Camaat, mən Peyğəmbərdən(s) sonra altı ay evdə oturub Həzrətin(s) vəsiyyətinə əsasən Quranı bir yerə toplayaraq bu parçanın üzərində yazıb gətirmişəm. Bilin ki, Quran yazılıb və biz bu işdən qafil olmamışıq."

Orada əyləşənlərdən biri ayağa qalxıb dedi: "Ya Əli, bizim sənin gətirdiyin Qurana ehtiyacımız yoxdur. Biz özümüz bu işi görə bilərik və sənin bizim üçün Quran yazmağına ehtiyac yoxdur."

Həzrət Əli(ə) buyurdu: "Mən Quranın qeyd edəni və natiqiyəm. Peyğəmbər(s) sizə Quranla məni bir yerdə vəsiyyət etmişdir. Peyğəmbər(s) Quranın bütün incəliklərini mənə öyrətmişdir. İndi ki mənim yazdığım Qurana ehtiyacınız yoxdur, mən bunu aparıb özümlə saxlayacağam. Yazdığım bu Quranı övladım Mehdinin(ə.c) zamanına qədər görməyəcəksiniz."

Bəli, Peyğəmbərdən(s) sonra Quranın surələrini tənzimləyən ilk insan Həzrət Əli(ə) oldu. Lakin bir sıra adamlar onun yazdığı Quranı qəbul etmədilər. Bu hadisənin üstündən az bir müddət keçdikdən sonra bəzi səhabələr birinci xəlifənin yanına gəlib dedilər: "Quranın yazılıb səhifələnməsi vacibdir. Çünki müharibələrdə 400 nəfərə qədər Quran hafizi şəhid olubdur. Əgər yerdə qalan hafizlər də həlak olsalar, Quranın əldən çıxma təhlükəsi yarana bilər.

Həmin vaxt Zeyd ibn Sabit Peyğəmbərin(s) vəhyləri yazmaq üçün təyin etdiyi qırx katibdən biri idi. O deyir: "Bir gün Əbu Bəkr məni yanına çağırıb dedi: Quran

hafizlərinin bir hissəsi müharibədə şəhid olubdur. Qorxuram ki, yerdə qalanları da həlak olsalar, Quranın böyük bir hissəsinin əldən çıxma təhlükəsi ilə qarşılaşa bilərik. Buna görə də sənə Quranı tənzimləyib yazmağı tapşırmaq istəyirəm.”

Zeyd deyir: “Əvvəlcə mən bu işi boynuma götürməkdən imtina etdim. Lakin xəlifənin bir neçə dəfə xahiş etməsindən sonra dedim: Quranı necə cəmləşdirim? Əbu Bəkr dedi: Sən ağıllı bir gəncsən. Peyğəmbərin(s) vəhylərini yazan katiblərdən biri olmusan. Bu işi sən yerinə yetirsən çox yaxşı olar.”

Zeyd deyir: “Peyğəmbərin(s) bu işlə bağlı vəsiyyətinə əsasən onun təklifini qəbul edərək işə başladım. Daşların və taxtaların üstünə yazılmış ayələri toplamağa başladım.”

Zeyd ibn Sabit Əbu Bəkrin fərmanı ilə Quranı tənzimləyən ilk şəxs idi. Əlbəttə, Həzrət Əli(ə) artıq Quranı tənzimləyib yazmış və bu işi başa çatdırmışdı. Lakin çox təəssüflər olsun ki, onun toplayıb tərtib etdiyi Quranı qəbul etmədilər. Ondan sonra Zeyd ibn Sabit bu işi yerinə yetirmək məqsədilə 25 nəfərdən ibarət bir heyət yaratdı. Özü də onlara rəhbərlik edərək Quranı toplayıb tərtib etməyə başladılar. Həmin heyət hər gün Mədinə məscidinə toplaşıb bu işlə məşğul olurdu. Onlar müsəlmanlara da elan etdilər ki, hər kəsin əlində Quran ayəsi və yaxud surəsi varsa, gətirib onlara versinlər.

Beləliklə, hər kəs əlində olan Quran ayələrini gətirib onlara göstərirdi. Əlbəttə, onlar gələn hər bir kəsin dediklərini və ya şifahi ayə söyləyənlərin sözlərini də qəbul etmirdilər. Onların xüsusi bir üslubu var idi və bu üslub əsasında ayələri gətirənlərin sözlərini qəbul edirdilər. Həmin qaydalara əsasən hər kəsin əlində ayənin

yazılı forması var idisə, onu qəbul edər və bununla yanaşı iki nəfər şahid də çağırırdılar. Yəni həmin şahidlər Quranı əzbər bilən, yaxud müvafiq ayəni Peyğəmbərin(s) dilindən eşidən insanlar olmalıydı. Onlar gəldikdən sonra həmin ayəni əzbərdən deyər, heyətin üzvləri isə gətirilən ayələri onların dedikləri ilə tutuşdurardılar. Ayələr hafizlərin söylədikləri ilə uyğun gəldikdə onu qəbul edib yazırdılar. Beləcə, həmin heyət Zeyd ibn Sabitin rəhbərliyi ilə bütün Quranı toplayıb kitab halına saldı.

Peyğəmbərin(s) vəfatından və Həzrət Əlinin(ə) yazdığı Quranın qəbul edilməməsindən sonra Zeyd ibn Sabit, Abdullah ibn Məsud, Ubbi ibn Kəb, Miqdad ibn Əsvəd, Salim Movla əbi Hüzeyfə və Əbu Musa Əşəri kimi səhabələr də Quranı toplamağa başladılar. Onların hər biri öz yaşadıqları bölgənin tanınmış şəxsiyyətləri idilər. Belə bir vəziyyətdə cəmiyyətdə böyük bir problem yarandı. Həmin problem isə ondan ibarət idi ki, hər tayfa öz aliminin topladığı Quran kitabını oxuyurdu. Məsələn, Abdullah ibn Məud kufəli olduğu üçün Kufə camaatı onun tərtib etdiyi Quran kitabını qoyub Zeyd ibn Sabitin topladığı Quranı oxumurdular. Həmçinin Mədinə camaatı da Ubbi ibn Kəbin hazırladığı Qurandan savayı başqa heç bir Quran kitabını oxumurdular. Eləcə də Bəsrə camaatı Əbu Musa Əşərinin, Dəməşq camaatı isə Miqdad ibn Əsvədin topladığı Quranı oxuyurdular. Hər kəs təəssübkeşlik göstərərək yalnız özlərinə yaxın olan alimin hazırladığı Quranı oxuyur və başqa Quran kitablarını isə oxumurdular. Bundan əlavə, hər bir səhabənin hazırladığı Quran kitabının tərtib olunması qaydası da bir-birindən fərqlənirdi. Hər biri öz səliqə-səhmanına uyğun formada Quran kitabını toplamışdı. Onların səliqə-səhmanları və üslubları da fərqli olduğundan camaat arasında bu

məsələdə fikir ayrılığı yaranmışdı. Yəni Bəsrə camaatı Quranı bir üslubda, Kufə camaatı başqa bir üslubda və s. bölgələrin camaatı isə tamamilə başqa üslubda oxuyurdular. Yaranmış belə bir vəziyyət Quran kitabının müsəlmanlar arasında bir neçə formada oxunmasına səbəb oldu.

Hüzeyfə İslam aləmində tanınmış və böyük şəxsiyyətlərdən biri idi. O deyir: “Döyüşlərin birindən qayıdarkən belə bir hadisənin şahidi oldum. Yolboyu müxtəlif məntəqələrdən keçərkən gördüm ki, hər bir bölgədə Quran kitabını bir cür oxuyurlar. Bu əhvalatı Səid ibn Asa danışdım. Dedim ki, Səid, mən səfərdən qayıdarkən mühüm bir məsələ ilə rastlaşdım. Əgər bu məsələyə lazımi diqqət yetirilməsə, camaat arasında Quranla bağlı fikir ayrılığı yaranacaqdır. Səid soruşdu: O nə məsələdir elə? Dedim: Dəməşqdən keçərkən yerli əhali Quranı İbn Məsudun tərtib etdiyi kimi, Kufədən keçərkən isə oranın camaatı Quranı Əbu Musanın topladığı kimi oxuyurdular.”

Hüzeyfə deyir: “Sonra Səidlə birlikdə Kufəyə gedib bir qrup səhabə ilə bu məsələni müzakirə etdik. Bəzilərini çıxmaq şərtilə qərara gəldik ki, Osmanın yanına gedib bu məsələni həll edək. Mən Osmanın yanına gedib gördüklərimi ona danışdım və bu məsələni həll etməyin zəruri olduğunu vurğuladım.”

Yəzid Nəxəi adlı bir nəfər deyir: “Günlərin birində Kufə məscidinə daxil oldum. Orada iki qrup insanın əyləşdiyini gördüm. Biri Abdullah ibn Məsudun topladığı, digəri isə Əbu Musa Əşərinin tərtib etdiyi Quranı oxuyurdular. Heç biri digərinin Quranını qəbul etmirdi. Hər kəs özünə yaxın olan alimin hazırladığı Quran kitabını

oxuyur və başqasını qəbul etmirdi. Bu hadisəni Osmana xəbər verdim.”

Ənəs ibn Malik deyir: “Osmanın xilafəti dövründə Kufədə belə bir ixtilaflı vəziyyət yaranmışdı. Quran müəllimləri şagirdlərə dərs deyərkən bəzisi İbn Məsudun, bəzisi Əbu Musa Əşərinin, bəzisi isə digər tərtibçinin Quran kitabına uyğun şəkildə dərs deyirdilər. Bu xəbər də Osmanın qulağına çatdı.”

Osman məsələnin ciddi olduğunu görüb bu barədə fikirləşməyə başladı. Axırda məcbur olub problemi aradan qaldırmaq qərarına gəldi. Sonra bir komitə təşkil edib sədrliyini Zeyd ibn Sabitə tapşırdı. Həmin komitəyə həmçinin Səid ibn As, Abdullah ibn Zübeyr, Əbdürrəhman ibn Haris ibn Hüşam kimi səhabələri də cəlb etdi. Onlar Zeyd ibn Sabitin rəhbərliyi ilə işə başladılar. Onlar işə başladıqdan sonra da bir qrup insan həmin komitəyə daxil olanları qəbul etmədi. Yenə də təəssübkeşlik üzündən belə iddia edirdilər ki, bu komitənin üzvləri kimdir ki, Quranı tərtib etməklə məşğuldurlar. Zeyd ibn Sabit bu işin alınmayacağını görüb cəmiyyətdə birlik yaratmaq üçün Übbi ibn Kəb, Malik ibn Əbi Amir, Kəsir ibn Əfləh, Ənəs ibn Malik, Abdullah ibn Abbas kimi hər bir kəsin qəbul edəcəyi səlahiyyətli şəxsiyyətləri də həmin komitəyə dəvət etdi. Beləliklə onlar işə girişib Quranın surələrini tənzimləməyə başladılar. İş sona çatdıqdan sonra gözəl nəticə verdi. Bütün səhabələr onu yekdilliklə qəbul etdilər.

Burada qarşıya belə bir sual çıxır. Görəsən, Osmanın təşkil etdiyi bu komitənin üzvlərinin hazırladığı Quran kitabını Həzrət Əli(ə) qəbul etdimi?

İbn Əbi Davud deyir: “Həzrət Əli(ə) xilafətə çatdıqdan sonra buyurdu: And olsun Allaha, Osman

Quranın səhifələnməsi və yazılması barədə mənimlə məsləhətləşməmiş bir iş görmədi. Quranın yazılmasında hər bir məsələni mənimlə məsləhətləşirdi. Beləliklə mənim məsləhətimlə Osmanın vaxtında Quran yazılıb tərtib olundu. Hətta bir gün Osman mənə dedi ki, camaat mənə belə deyir: "Sənin Quran oxumağın Əlinin(ə) Quran oxumasından yaxşıdır. Amma bu sözlər küfrdür."

Həzrət Əli(ə) buyurur: "Osman Quranı toplamaq fikrinə düşdükdə mən ondan soruşdum: Bu barədə nə düşünürsən? Osman dedi: İstəyirəm ki, bütün camaatın əlində olan Quran bir olsun. Buna görə də bir komitə yaradıb tapşırıq verəcəyəm ki, Quranı hamının (bütün səhabə və ləyaqətli insanların) qəbul edəcəyi tərzdə yazsınlar. Belə olduqda daha müsəlmanlar arasında Quranla bağlı fikir müxtəlifliyi yaranmaz. Həzrət Əli(ə) buyurdu: Çox gözəl fikirdir."

Başqa bir rəvayətdə Həzrət Əli(ə) belə buyurur: "Əgər Quranı səhifələməyi və surələri tənzimləməyi mənə tapşırsaydılar, Osmanın gördüyü işi görərdim."

Həzrət Əli(ə) həm Quranın hafizi, həm də natiqi idi. Allahın ayələri nazil olarkən həmişə Peyğəmbərin(s) yanında olardı. Peyğəmbərə(s) vəhy gələn zaman dəfələrlə o, mübarək başını Əlinin(ə) dizi üstünə qoymuşdu. Həzrət(ə) Kufəyə gəldiyi zaman qırx gün sübh namazında "Əla" surəsini oxudu. Münafiqlər öz hiylələrini işə salıb dedilər: "Deyəsən, Əli bu surədən başqa heç bir surə bilmir."

Həzrət Əli(ə) bir xütbə oxudu ki, orada həmin məsələyə işarə edir və Quranın bütün ayələrindən və incəliklərindən xəbərdar olduğunu camaata söyləyirdi. Həmin xütbənin bir hissəsi belədir:

وَ قَدْ عَلِمْتُمْ مَوْضِعِي مِنْ رَسُولِ اللَّهِ- صلى الله عليه واله- بِالْقَرَابَةِ الْقَرِيبَةِ وَ الْمَنْزِلَةِ الْخَصِيصَةِ وَضَعَنِي فِي حِجْرِهِ وَ أَنَا وَلِيدٌ يَضُمُّنِي إِلَى صَدْرِهِ وَ يَكْنُفُنِي فِي فِرَاشِهِ وَ يُمِسُّنِي جَسَدَهُ وَ يُشِمُّنِي عَرْفَهُ وَ كَانَ يَمْضَغُ الشَّيْءَ ثُمَّ يُلْقِمُنِيهِ وَ مَا وَجَدَ لِي كَذْبَةً فِي قَوْلٍ وَ لَا خَطْلَةً فِي فِعْلٍ وَ لَقَدْ قَرَنَ اللَّهُ بِهِ- صلى الله عليه واله- مِنْ لَدُنْ كَانَ فَطِيماً أَعْظَمَ مَلَكٍ مِنْ مَلَائِكَتِهِ يَسْلُكُ بِهِ طَرِيقَ الْمَكَارِمِ وَ مَحَاسِنَ أَخْلَاقِ الْعَالَمِ لَيْلَهُ وَ نَهَارَهُ وَ لَقَدْ كُنْتُ أَتَّبِعُهُ اتِّبَاعَ الْفَصِيلِ أَثَرَ أُمِّهِ يَرْفَعُ لِي فِي كُلِّ يَوْمٍ مِنْ أَخْلَاقِهِ عَلَماً وَ يَأْمُرُنِي بِالِاقْتِدَاءِ بِهِ وَ لَقَدْ كَانَ يُجَاوِرُ فِي كُلِّ سَنَةٍ بِحِرَاءَ فَأَرَاهُ وَ لَا يَرَاهُ غَيْرِي وَ لَمْ يَجْمَعْ بَيْتٌ وَاحِدٌ يَوْمَئِذٍ فِي الْإِسْلَامِ غَيْرَ رَسُولِ اللَّهِ- صلى الله عليه واله- وَ خَدِيجَةَ وَ أَنَا ثَالِثُهُمَا أَرَى نُورَ الْوَحْيِ وَ الرِّسَالَةِ وَ أَشُمُّ رِيحَ النُّبُوَّةِ وَ لَقَدْ سَمِعْتُ رَنَّةَ الشَّيْطَانِ حِينَ نَزَلَ الْوَحْيُ عَلَيْهِ صلى الله عليه واله فَقُلْتُ يَا رَسُولَ اللَّهِ مَا هَذِهِ الرَّنَّةُ فَقَالَ هَذَا الشَّيْطَانُ قَدْ أَيِسَ مِن عِبَادَتِهِ إِنَّكَ تَسْمَعُ مَا أَسْمَعُ وَ تَرَى مَا أَرَى إِلَّا أَنَّكَ لَسْتَ بِنَبِيٍّ وَ لَكِنَّكَ لَوَزِيرٌ وَ إِنَّكَ لَعَلَى خَيْرٍ

-Siz mənim Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* yanında yaxın qohumluq, yüksək məqam və xüsusi ehtiram səbəbindən olan qədr-qiymət və dərəcəmi bilirsiniz *(ki, mən Həzrətin yanında belə böyük bir hörmət və məqama malik idim və məni xilafətə təyin etmişdi).* O,

məni uşaqlıqdan öz yanında böyüdüb. O, məni sinəsinə sıxar, yatanda qucağına alar, bədənini bədənimə sürtər, öz xoş ətrini mənə iylədər, *(ata öz övladına etdiyi kimi)* ağzıma çeynənmiş yemək qoyardı. O, mənim sözümdə yalan, əməlimdə səhv və xəta tapmadı. Peyğəmbər *(səlləllahu əleyhi və alih)* süddən ayrılandan sonra Allah-təala mələklərinin ən böyüyünü Həzrətə yoldaş etdi ki, gecə-gündüz onu nəciblik yollarına və dünyanın gözəl xislətlərinə doğru yönəltsin. Mən dəvə balası anasının dalına düşüb getdiyi kimi onun arxasınca gedirdim. O, hər gün öz xislətlərindən bir bayraq və əlamət ucaldır *(büruzə verir)* və mənə ona yiyələnməyi əmr edirdi. *(Peyğəmbərliyə təyin edilməmişdən qabaq)* hər il *(bir ay insanlardan uzaqlaşaraq ibadət və bəndəliklə məşğul olmaq üçün Məkkə yaxınlığındakı dağlardan biri olan)* Hirada məskunlaşardı. Həmin müddətdə mən onu görərdim və onu məndən qeyrisi görməzdi. Həmin zaman İslam Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* və *(o Həzrətin arvadının)* Xədicənin evindən başqa heç bir evə daxil olmamışdı və mən onların üçüncüsü idim. Vəhy və (ilahi) elçilik nurunu görür, nübüvvət və peyğəmbərlik ətrini duyurdum. *(Vəhy nazil olan zaman Həzrətlə birgə idim və heç bir tərəddüd etmədən nazil olanlara iman gətirirdim.)* Həzrətə *(səlləllahu əleyhi və alih)* vəhy nazil olanda şeytanın səsini eşitdim. Dedim: Ey Allahın Peyğəmbəri, bu nə səsdir? Buyurdu: Bu, şeytanın səsidir, o, pərəstiş edilməkdən ümidsizliyə qapılıb.[1] Sən mənim

---

[1] Bu vəhy nazil olduqdan sonra insanların azğınlıq və zəlalətdən çıxıb ona tabe olmayacaqlarını bildiyi üçün ümidsizləşib nalə və fəryad qoparır.

eşitdiklərimi eşidir, gördüklərimi görürsən *(hər şeydə mənimlə bərabərsən).* Sən yalnız peyğəmbər deyilsən, lakin vəzirsən; sən xeyir və yaxşılıqdasan.[1]

Həzrət Əli(ə) həm quranşünas, həm də Quranın natiqi idi. Həzrət Əli(ə) Osmanın dövründə təyin olunmuş komitə tərəfindən yazılmış Quranı təsdiqlədi. Çünki Quranın yazılıb tənzimlənməsi məhz Həzrətin(ə) məsləhətləri ilə həyata keçirilmişdir. Osman Quranın tənzimlənməsi qərarına gəldikdə hər bir məsələni Həzrət Əli(ə) ilə məsləhətləşirdi. Həzrət Əli(ə) Osmanın vasitəsilə də olsa həmin komitənin işlərinə nəzarət edirdi. Hazırda əlimizdə olan Quran kitabı həmin kitabdır ki, Osmanın dövründə tənzimlənmiş və Peyğəmbərin(s) canişini, eləcə də vəsisi olan Həzrət Əli(ə) bu kitabı təsdiqləmişdir.

[1] Nəhcül-bəlağə, 234-cü xütbə.

# QURANIN MÖCÜZƏ OLMASI

Bizim əsas mövzumuz Quranın möcüzə olması barədədir ki, ötən bəhslərimizdə müqəddimə olaraq Qurani-Kərimin özü haqda müəyyən qədər söz açdıq. Bütün bu müqəddimədən sonra isə əsas bəhsimizə başlaya bilərik.

Bir daha xatırlatmaq istərdik ki, bütün peyğəmbərlərin hamısının möcüzələri olmuşdur. Həmçinin İslam Peyğəmbərinin(s) də müxtəlif və həm də özünəməxsus möcüzələri var idi. Bu barədə keçmiş bəhslərimizdə geniş söz açmışıq və peyğəmbərlərin möcüzələrindən bir neçə nümunəni də sizlərə təqdim etmişik. Keçmiş peyğəmbərlərin nə qədər möcüzəsi olmuşdursa, onların hamısını İslam Peyğəmbəri(s) də göstərmişdir. Əgər onlar ölüləri dirildirdilərsə, İslam Peyğəmbəri(s) də bu işi görmüşdür. Əgər kor insana şəfa vermişlərsə, İslam Peyğəmbəri(s) də bunu etmişdir. Bir sözlə desək, keçmiş peyğəmbərlərin xəstəyə şəfa vermək, göy aləminə səyahət və s. kimi möcüzələrindən İslam Peyğəmbərində(s) də görsənmişdir. Lakin İslam Peyğəmbərinin(s) bir möcüzəsi vardır ki, həmin möcüzə bütün möcüzələrin hamısından fərqli və üstündür. Həmin möcüzə onun gətirdiyi müqəddəs Qurani-Kərimdir. Qurani-Kərimin özü həqiqətən də ən böyük və əbədi olan bir möcüzədir. Bu bəhsə başlamazdan öncə çox yaxşı olar ki, iki məsələyə xüsusi diqqət yetirək.

Həmin məsələlərdən biri budur ki, Quranın fərqli və üstün cəhətləri vardır. Həmin fərqli və üstün cəhətlərdən birincisi odur ki, Qurani-Kərim heç bir zaman və məkanla məhdudlaşmır. Yəni heç bir zaman və məkan onu məhdudlaşdıra bilmir. Keçmiş peyğəmbərlərin

möcüzələri, eləcə də İslam Peyğəmbərinin(s) digər möcüzələrinin hamısı müəyyən bir zamanda və məkanda baş vermişdir. Məsələn, Həzrət İsanın(ə) beşikdə danışması müəyyən bir zaman çərçivəsində özünü göstərmişdir. Bu hadisədən otuz il keçdikdən sonra həmin möcüzə necə deyərlər, artıq möcüzə sayılmır. Nəinki otuz, bəlkə heç beş ildən sonra da möcüzə sayılmayacaq. Çünki uşağın beş yaşında danışması adi hal kimi qəbul olunur və bir çox uşaqlar beş yaşında danışıb söhbət edə bilirlər. Amma yenicə doğulmuş 2-3 günlük uşağın beşikdə peyğəmbər kimi danışıb anasının paklığına şəhadət verməsi artıq möcüzədir. İbrahim Peyğəmbərin(ə) möcüzəsinə diqqət yetirdikdə görürük ki, qalanmış tonqalın odu onu yandırmadı. Odun İbrahimi(ə) yandırmaması həmin zaman və məkanda möcüzə sayılırdı. Başqa bir vaxt əlini oda toxundursa, onu yandıra bilər. Amma məhz həmin gün və həmin məkanda möcüzə olaraq od-alovun içi İbrahim(ə) üçün gülüstana çevrildi və od onu yandırmadı.

Deməli, bütün peyğəmbərlərin möcüzələri və eləcə də İslam Peyğəmbərinin(s) Qurandan başqa bütün digər möcüzələri müəyyən zaman və məkan çərçivəsi ilə məhdudlaşmışdır. Vaxt keçdikcə həmin möcüzələr insanların yaddaşlarından tamamilə silinib gedir. Lakin Quran elə bir möcüzədir ki, heç bir zaman və məkanla məhdudlaşmır. Ona görə də deyirlər ki, Quran ümumbəşəridir. Yəni bütün insanlar üçün göndərilmişdir və heç bir məkan onu məhdudlaşdıra bilmir. Quran təkcə müsəlmanlardan ötrü göndərilməyib. Bütün insanlar üçün göndərilmişdir və onu qəbul edən hər bir kəs müsəlman sayılır. Həmçinin əbədi bir möcüzə olub, heç bir zamanla məhdudlaşmır. Yəni Quran nazil olduğu gündən

möcüzədir və qiyamət gününə qədər möcüzə olaraq qalacaq.

Quranın ikinci fərqli və üstün cəhəti budur ki, Qurani-Kərim ruhani bir möcüzədir. Məsələn, Həzrət İsanın(ə) xəstələrə şəfa verməsi, ölünü diriltməsi və s. cismani möcüzələr idi. Bıçağın İsmayılın(ə) başını kəsməməsi, ayın iki hissəyə bölünməsi kimi möcüzələr cismani möcüzələrdir. Amma Quran isə mənəvi və ruhani möcüzədir. Başqa möcüzələr insanın gözünü və qulağını əhatə edir, Quran isə insanın qəlbini, fikrini və elmini əhatə edir. Bu da Quranın ikinci üstünlüyüdür ki, onun ayə və kəlmələri insanların ağlını və qəlbini öz təsiri altına sala bilir.

Quranın üçüncü üstün və fərqli cəhəti odur ki, möcüzə olduğunu özü açıqlayır. Onu gətirən Peyğəmbərin(s) həmişə onun yanında olmasına və Quranın möcüzə olduğunu insanlara başa salmasına ehtiyac yoxdur. Digər möcüzələrə diqqət yetirdikdə görürük ki, mütləq onu gətirən peyğəmbər həmin möcüzələrin yanında olmalı və onların vasitəsilə göstərilməlidir. Məsələn, İsa Peyğəmbər(ə) ölünü dirildirdisə, mütləq onun hüzuru olmalıdır. Əgər İslam Peyğəmbəri(s) ayı iki hissəyə bölürdüsə, mütləq özü bu işi görməli idi. Yəni həmin möcüzəni özü göstərməliydi. Əgər istisna hal kimi bir ölünü diriltmək üçün Həzrət Əlini(ə) bu işə məmur etdisə, öz hüzuru ilə baş verdi. Yəni möcüzə göstərən peyğəmbərlər mütləq həmin möcüzənin yanında olmalı və özü göstərməlidir. Lakin Quranın üstünlüyü bundadır ki, möcüzə olduğunu özü bəyan edir. Əbədi möcüzə olduğu üçün onu gətirən peyğəmbərin də əbədi onun yanında olmasına ehtiyac yoxdur. Quran harada olmasından asılı olmayaraq möcüzə olduğunu özü

bəyan edir. Quranı açıb oxuyan, bu müqəddəs kitabla maraqlanan onun həqiqətən də möcüzə olduğunun şahidi ola bilir.

Möcüzə haqda ötən bəhslərimizdə lazımi qədər söhbət etmişik. Yada salmaq üçün qısaca da olsa bu məsələyə toxunmaq istərdik. Möcüzə odur ki, insan elə bir iş görmüş olsun ki, sadəcə istedadla həmin işi görmək mümkün olmasın. Məsələn, Peyğəmbər(s) bir gecənin içində bütün ərşi dolanıb qayıtmışdır. Aydın məsələdir ki, sadəcə istedadla bu işi görmək qətiyyən mümkün deyildir. Bunu etmək üçün insanda pərdəarxası mənəvi bir qüvvənin olmasına böyük ehtiyac vardır. Möcüzənin şərtlərindən biri budur ki, onu heç bir kəsə öyrətmək mümkün olmasın. Yəni möcüzə odur ki, peyğəmbər Allahın izni olmadan onu kiməsə öyrətməsi mümkün deyil.

Möcüzənin şərtlərindən biri budur ki, onu göstərən insan peyğəmbərlik iddiasında olsun. Yəni möcüzəni yalnız peyğəmbərlər göstərə bilərlər. Əgər bir insan peyğəmbərlik iddiası etmədən heç bir kəsin edə bilmədiyi bir işi görə bilsə və ya onun dua etməsi ilə xəstə şəfa taparsa, buna möcüzə yox, kəramət deyilir. Möcüzə odur ki, onu göstərən şəxs peyğəmbər olduğunu da təsdiq etsin. Möcüzənin üçüncü şərti isə onun təhəddisinin olmasıdır. Ötən bəhslərimizdə bu barədə lazımi qədər söz açdıq. Qeyd etdik ki, möcüzə göstərən şəxs camaatı inandırmaq üçün onların da belə bir möcüzə göstərmələrini tələb edir. Hər kəs onun kimi bir möcüzə göstərə bilsə, o zaman iddiası batil olur. Məsələn, Musa Peyğəmbər(ə) firona və sehrbazlara buyurdu: "Mən əlimdəki çəliyi yerə atdıqda dönüb əjdaha olacaq. Buna şübhəniz varsa, o zaman bacarırsınızsa, siz də bu işi görün." İsa Peyğəmbər(ə) öz

qövmünə buyurdu: “Qəbirlərdə yatan hansı ölünü istəyirsinizsə, sizin üçün dirildib möcüzə göstərim. Əgər mənim bu möcüzəmə inamınız yoxdursa və əgər bacarırsınızsa, siz də ölünü dirildin.”

Deməli, möcüzənin şərtlərindən biri budur ki, onu göstərən şəxs camaatı mübarizəyə dəvət edərək onlardan da eynilə belə bir möcüzə göstərmələrini tələb edir.

Bəhsimizdən öncə zəruri olan məsələlərdən ikincisi də budur ki, İslam Peyğəmbəri(s) Ərəbistanda zühur etmişdir. Ərəbistanın mühüm şəhərlərindən biri isə Məkkə şəhəridir. Peyğəmbər(s) də həmin şəhərdə dünyaya göz açmışdır. Peyğəmbərin(s) anadan olduğu və böyüyüb boya-başa çatdığı bu ölkə çox geri qalmışdı. Bəzi ölkələrdə elm və texnikanın yüksək səviyyədə inkişaf etməsinə baxmayaraq, Ərəbistan bu sivilizasiyadan tam uzaq düşmüş bir məntəqə idi. Orada elmi və s. sahələrdə hər hansı bir inkişafdan söz belə gedə bilməzdi. Camaatın vəziyyəti də çox ağır idi. Onlar hərtərəfli bədbəxt və geridə qalmış insanlar idilər. Belə ki, hətta öz qızlarını belə diri-diri torpağa basdırırdılar. Ərəbistanın İslamdan öncəki vəziyyəti barədə tarixi mənbələrdən kifayət qədər məlumat əldə etmək mümkündür.

Digər bir məsələ isə ondan ibarətdir ki, həmin məntəqədə hər hansı bir inkişafın baş verməsi üçün elə bir əsas da yox idi. Yəni inkişafın baş verməsi üçün zəruri olan əsas şərtlər, hətta su belə yox idi. Məkkə şəhəri isə dağların arasında qərar tutmuşdu. Həzrət İbrahim(ə) oraya dua etmişdi. Allah-təala İbrahimə(ə) Hacər xanımdan bir oğlan uşağı bəxş etdi. Onun adını İsmayıl qoydular. Uşaq dünyaya gəldikdə Allah- təala İbrahimə(ə) göstəriş verdi ki, uşağı və anasını götürüb öz yaşadığı şəhərdən çıxsın. İbrahim(ə) uşağı və anasını götürüb şəhərdən çıxdı. O

qədər yol getdilər ki, nəhayət, gəlib Kəbənin olduğu yerə çatdılar. O zaman Kəbədən əsər-əlamət belə yox idi. Bir zamanlar oranı sel basmış, su hər yanı yuyub aparmışdı. Artıq orada quraqlıq mövcud idi, nə bir bitki, nə də su var idi. Burada hətta bir quş belə uçmurdu.

Allah- təala İbrahimə(ə) göstəriş verdi ki, uşağı anası ilə birgə orada qoyub getsin. Həzrət İbrahim(ə) Hacər xanımla İsmayılı orada qoyub yola düzəldi. Bir qədər getmişdi ki, ürəyi dözməyib geri baxdı. Geri baxandan sonra əllərini açıb belə dua etdi: "İlahi, bu ölkədə bolluq yarat və buranın məhəbbətini hamının qəlbinə sal." Allah-təala onun bu iki duasını qəbul etdi. Sonra İbrahim(ə) yoluna davam edib öz ölkəsinə qayıtdı. Hacər xanım isə körpə uşaqla orada qaldılar. İş o yerə gəlib çatdı ki, az qaldı uşaq susuzluqdan ölsün. Hacər xanım su axtarıb tapmaq üçün o tərəfə, bu tərəfə qaçmağa başladı. Uşağın yanına qayıtdıqda gördü ki, uşağın ayaqlarının altından su çıxır. Həmin gündən sonra həmin məntəqə abadlaşmağa başladı. Bununla belə, həmin məntəqə sivilizasiyadan çox uzaq idi. İslam Peyğəmbəri(s) belə bir yerdə dünyaya gəlmiş və orada peyğəmbərliyə çatmışdı.

Burada qeyd olunası məsələlərdən biri də o idi ki, Peyğəmbər(s) dərs oxumamışdı. Nə yazmağı bilirdi, nə də oxumağı. Məkkədə heç bir məktəb yox idi. Bu məntəqənin camaatı əsasən savadsız idi. Az adam tapılardı ki, öz adını və ya şeir yazmağı bacarsın. Çünki məntəqə camaatı şeir yazıb oxumaqla məşğul idi. Poeziyadan savayı başqa heç bir sahədə inkişaf yox idi. Əgər dərs oxumağa həvəsi olan bir şəxs tapılsaydı, yenə də oxumağa heç bir kitab yox idi.

Bu iki məsələni dəqiqləşdirdikdən sonra baxaq görək, Quran öz möcüzəsi barədə insanlara nə deyir? İlk

növbədə “Ənkəbut” surəsinin 48-ci ayəsinə diqqət yetirək. Allah-təala bu ayədə Peyğəmbərə(s) belə buyurur:

وَمَا كُنتَ تَتْلُو مِن قَبْلِهِ مِن كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَّارْتَابَ الْمُبْطِلُونَ

-Sən bu Qurandan öncə heç bir yazı və kitab oxumurdun. Və öz əlinlə heç bir yazı yazmırdın. Əgər belə olmasaydı, onda batilə uyanlar (sənin peyğəmbərliyinə və Qurana) şəkk edərdilər.

Bu ayədə açıq-aydın görürük ki, əgər Peyğəmbər(s) yazıb-oxumağı bilsəydi, camaat Quran barədə şəkk-şübhəyə düşər və onu Peyğəmbərin(s) özünün yazdığını düşünərdilər. Camaat elə başa düşərdi ki, Məhəmməd(s) alim olduğundan özü bu kitabı tərtib etmişdir. Peyğəmbər(s) yazıb-oxumağı bilmirdi, amma Allah-təala ona mükəmməl bir əxlaq öyrətmişdi. Allah-təala Peyğəmbərə(s) şifahi olaraq tərbiyə vermişdi. Belə ki, peyğəmbərliyə çatmamışdan öncə də, yəni ötən qırx il müddətində ondan artıq-əskik bir hərəkət görünməmişdi. Bu qırx ildə dilinə bircə dəfə də olsun yalan gəlməmiş, əmanətə xəyanət etməmişdi. İstər dost, istərsə də düşmən heç bir vaxt Peyğəmbərdən(s) nalayiq bir hərəkət görməmişdi.

Həzrət(s) peyğəmbərliyə çatdıqdan sonra öz qohum-əqrəbasını ilahi dəvətə çağırdı və günlərin birində Səfa dağının üstünə çıxaraq uca səslə “Ya Səbaha” - deyə çağırdı. “Ya Səbaha” ərəblərdə həyəcan çığırışıdır. Yəni düşmənin qəfil hücumunu gördükdə bu sözü həyəcan şüarı kimi uca səslə deyib camaatı çağırar və beləcə düşmənin hücuma keçdiyini xəbər verərdilər. Peyğəmbərin(s) bu sözünü eşitdikdə hamı həmin yerə toplaşdı. Həzrət

Peyğəmbər(s) qəbilə başçılarının adını bir-bir çəkdi. Hamı nə baş verdiyini eşitmək üçün sakitcə dayanıb qulaq asırdı. Öz-özlərinə fikirləşirdilər ki, görəsən, hansı mühüm hadisəyə görə Məhəmməd(s) bizi buraya çağırıb. Həzrət Peyğəmbər(s) üzünü onlara tutub buyurdu: "Əgər sizə filan dağın arxasından düşmənlərin hücuma keçdiyini xəbər versəm, mənim sözümə inanarsınızmı? Hamı yekdilliklə dedi: Biz indiyədək sənin dilindən yalan eşitməmişik. Əgər düşmənin bizə hücum etməsi xəbərini versən, sənə inanıb özümüzü düşmən hücumundan müdafiə etmək üçün hazırlıq işləri görərik." Həzrət Peyğəmbər(s) buyurdu: "İndi ki, siz mənim sözlərimə inanırsınız və mənim dilimdən yalan eşitməmisiniz, bundan sonra da eşitməyəcəksiniz. Elə isə qulaq asın, məni dinləyin. Mən sizi Allahın şiddətli əzabından qorxmağa, Ona iman gətirməyə dəvət edirəm. Əgər Allaha iman gətirməsəniz, Onun şiddətli əzabı sizlərə nazil olacaq."

Hamı onu düzgün və etibarlı bir adam kimi tanıyırdı. Hətta düşmən belə öz pulunu etibarlı bir adama tapşırmaq istədikdə gətirib ona tapşırırdı. Tam əminliklə bilirdilər ki, Məhəmməd(s) heç bir vaxt əmanətə xəyanət etməz. Amma yazıb-oxumaq məsələsinə gəldikdə, o, nə yaza bilirdi, nə də oxuya bilirdi. Bu, Qurani-Kərimin ecazkarlığını göstərmək üçün Allahın bir hikmətiydi. Əgər Peyğəmbər(s) yazıb-oxumağı bilsəydi, camaat Quranın Allah-təala tərəfindən göndərildiyinə inanmayacaqdı. Elə başa düşəcəkdilər ki, bütün bu sözləri Məhəmməd(s) özü yazıb. Ayələr nazil oduqda hamı başa düşdü ki, bu sözlər Məhəmmədin(s) sözləri deyil. Buna görə də onun peyğəmbərliyini qəbul edərək iman gətirməyə başladılar. "Əraf" surəsinin 157-ci ayəsində belə buyurulur:

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ...

-O kəslər ki, dərs oxumamış, yazı yazmamış bu elçi və Peyğəmbərə tabe olurlar.

Ayədə işlənmiş “ummiy” kəlməsi məktəb görməyən, yazıb-oxumağı bilməyən insana deyilir. İslam Peyğəmbəri(s) də heç bir məktəb oxumamışdı və yazıb-oxumağı bilmirdi. İnsanlar Həzrətə(ə) inanırdılar. Əgər onun savadı olsaydı, Quranın Allah tərəfindən göndərilməsinə şəkk-şübhə ilə yanaşardılar. Peyğəmbərin(s) yazıb-oxumağı bilməməsi Allah-təalanın bir hikməti idi.

Tarix boyu o qədər istisna halların şahidi olmuşuq ki, savadsız insanlar bir gecənin içində və ya bir hadisənin nəticəsində Quranı əzbər oxumuşlar. Əgər belə hadisələrdən danışası olsaq, o zaman yüzlərlə insanın adını çəkmək mümkündür. Nümunə üçün onlardan bir neçəsini diqqətinizə çatdırmaq istəyirəm.

Sədi Xəffaf Həzrət Əlinin(ə) dövründə yaşayan möminlərdən biri idi. O deyir: “Günlərin birində Zazanı gördüm, o, ərəb ləhcəsi ilə və gözəl avazla Quran oxuya-oxuya gedirdi. Təəccüblənərək öz-özümə dedim ki, Zazan əcəm olduğu halda belə gözəl Quran oxumağı necə öyrənib? Çünki əcəmlər heç bir vaxt Quranı eynilə ərəblər kimi oxuya bilməzlər. Bu müəmmalı sirrin üstünü açmaq üçün Zazana yaxınlaşıb dedim: Sən belə gözəl Quran oxumağı haradan öyrənmisən? Elə gözəl oxuyursan ki, adamın ruhunu oxşayır. Zazan gülümsəyərək dedi: Mənim belə Quran oxumağımın bir hekayəti və əhvalatı var. Mən Quran oxumağı elə belə öyrənməmişəm. Dedim: Həmin hekayəti mənim üçün danışa bilərsənmi? Zazan dedi: Bilirsən ki, mənim Həzrət Əli(ə) ilə çox yaxın

münasibətim var. Günlərin birində əyləşib öz-özümə şeir oxuyurdum. Həzrət Əli(ə) şeir oxumağımı eşidib mənə buyurdu: Zazan, nə üçün Quran oxumaq əvəzinə şeir oxuyursan? Dedim: Ya Əmirəlmöminin, Quran ərəb dilində olduğu üçün mən onu oxuya bilmirəm. Namazın sözlərindən başqa ərəb dilində bir şey oxuya bilmirəm. Buna görə də hərdənbir boş vaxtlarımda bildiyim şeirləri oxuyuram. Həzrət Əli(ə) buyurdu: Quran oxumağı öyrənmək istərdinmi? Dedim: Əlbəttə, istəyirəm. Həzrət Əli(ə) dodaqlarını qulağıma yaxınlaşdırıb nəsə oxudu. Onun oxuduğu sözlərin heç birini başa düşmədim. Sonra ağzının suyundan götürüb mənim ağzıma sürtdü. Həmin andan bütün Quranı ərəb ləhcəsi ilə əzbər oxuyuram.”

İranda Kərbəlayı Kazım adlı bir şəxs yaşayırdı. Təxminən 130 il bundan əvvəl Fərahan şəhərinin Saruq kəndində dünyaya gəlmişdi. O, 78 yaşında, təxminən 52 il bundan əvvəl dünyasını dəyişmişdir. Savadsız, lakin çox təmiz bir insan idi. Allah-təala ona bütün Quranı əzbərdən oxumağı mərhəmət etmişdi. Onu görənlərin bəzisi hələ də həyatdadır. Ayətullahül-üzma Bürucerdi, Ayətullah Milani, Ayətullah Seyyid Sədrəddin Sədr, Ayətullah Xonsari, Ayətullah Nəcəfi Mərəşi, Ayətullah Məkarim Şirazi kimi alimlər onunla söhbət etmişlər. O, başına gələn hadisəni belə danışır: “Məhərrəm günlərinin birində işdən çıxaraq məscidə getdim. Gördüm ki, bir alim minbərdə moizə edir. Əyləşib onun söhbətlərinə qulaq asmağa başladım. Söhbət xüms və zəkat məsələsinə çatdıqda buyurdu: “Hər kəs xümsü verilməmiş malla evində belə qüsl versə, verdiyi qüsl və qıldığı namaz batildir.”

Söhbətə axıra qədər qulaq asdıqdan sonra evə gəlib fikirləşməyə başladım. Baxıb gördüm ki, mən elə bir insanın yanında işləyirəm ki, o adam xüms verən adam

deyil. Səhərisi gün işə gedib əvvəlcə ona bu barədə danışdım. Lakin o, məni başa düşmək istəmədi. Yəni xüms vermək fikrində deyildi. Mən işin belə olduğunu görüb daha onunla işləmədim. Bir müddət qonşu kənddə çalışdım. Sonra öz kəndimizə qayıdaraq qazandığım pulla torpaq sahəsi götürdüm. Beləliklə, əkin- biçinlə məşğul olmağa başladım. Hər il öz malımın xüms-zəkatını vaxtlı-vaxtında verirdim. Günlərin birində buğdanı küləyə verib arıtlayırdım. Bir az işləmişdim ki, külək dayandı və hava çox isti oldu. Belə havada işləməyin mümkün olmadığını görərək heyvanlar üçün bir az ot yığıb evə yollandım. Yolda bir nəfərlə rastlaşdım. Mən hər il ona buğdadan pay verirdim. O, məni görüb dedi: "Hər il mənə buğda verirdin. Nə əcəb bu il vermədin?" Ona dedim: Hələ buğdanı təmizləməmişəm. Allah qoysa təmizləyib verəcəyəm.

O, məndən öz dili ilə buğda istədiyi üçün geri qayıdıb payını ayırdım və ona verdim. Sonra evə sarı yollandım. Yolun üstündə iki İmamzadə var idi. İmamzadəyə yaxınlaşdıqda iki nurani gənc oğlan mənə yaxınlaşıb dedi: "Kərbəlayı Kazım, gəl, gedək bu İmamzadədə bir "Fatihə" oxuyaq." Mən onlara dedim: "Mən elə təzəcə gedib oranı ziyarət etmişəm." Onlar dedilər: "Gəl, bizimlə bir də gedək." Onlarla razılaşıb İmamzadəyə getdik. Yükümü qapının ağzına qoyub bir az dincəldim. Sonra içəri keçib "Fatihə" verdik. Həmin gənclər mənə dedilər: "Gəl, gedək o biri İmamzadəni də ziyarət edək." O biri ziyarətgaha da gedib "Fatihə" oxudum.

Gənclər məndən soruşdu: "Sən nə oxuyursan?" Dedim: "Mən bir "Fatihə", bir də "Qul huvallah" surəsini bilirəm. Namazın sözlərindən başqa bir şey bilmirəm ki,

oxuyum.” Mənə dedilər: “Ziyarətgahın tavanına bax.” Başımı yuxarı qaldırıb baxanda tavandan gözqamaşdırıcı işıq saçırdı. Sonra mənə dedilər: “Yazıları oxu.” Dedim: “Axı mən oxuya bilmirəm. Mənim savadım yoxdur. Adımı da yazsanız, oxuya bilmərəm.” Onlardan biri əlini sinəmə qoyub yavaşca sıxaraq dedi: “İndi oxu.” O, mənim sinəmi sıxdıqda özümdə ağrı hiss etdim. Sonra başımı yuxarı qaldırıb baxdıqda tavandakı yazıları gördüm. Elə oradaca huşumu itirdim.

Özümə gəldikdən sonra həmin gəncləri orada görmədim. Ziyarətgahdan çıxaraq yükümü götürüb çiynimə atdım və evə sarı yollandım. Yolda gördüm ki, öz-özümə nəsə oxuyuram. Birdən həmin iki gənc oğlanla birgə ziyarətə getməyim və orada baş verən bütün hadisələr yadıma düşdü. Sonra başa düşdüm ki, oxuduğum Quran ayələridir. Allah-təala Quranı əvvəldən axıradək əzbərdən bilməyi mənə inayət etmişdi. Kənddə hamı bilirdi ki, mənim savadım yoxdur. Bu hadisədən sonra məhəlləmizdə yaşayan alimin yanına gedib başıma gələnləri danışdım. Həmin alim Quranı açaraq mənim üçün müxtəlif yerlərdən ayələr oxudu. O, hər bir ayəni oxuyan kimi mən də oxuyaraq davam edirdim. Hansı ayəni oxuyurdusa, sonra məndən onun hansı surədə olduğunu soruşurdu. Mən də həmin ayələrin yerini deyirdim.”

Ayətullah Məkarim Şirazi deyir: “Bir gün Kərbəlayı Kazımı çağırıb danışdırdım. Beş-altı surənin hərəsindən bir kəlmə götürüb ayə kimi ona oxudum və hansı ayə olduğunu soruşdum. O dedi: Mənimlə zarafat edirsiniz? Bu, ayə deyil. Bu cümlənin bir kəlməsi filan surənin filan ayəsində, digər kəlməsi filan surənin filan ayəsindədir.”

Ayətullah Bürucerdi deyir: “Mən Kərbəlayı Kazımla söhbət edib onu danışdırmışdım. O, Quranı elə əzbər bilirdi ki, hər bir surəni əvvəldən axıra və axırdan əvvələ qədər oxumağı bacarırdı.”

Bunlar istisna hallardır ki, Allah-təala bəzən bir sıra insanlara inayət edir. Amma İslam Peyğəmbərinin(s) məsələsi tamamilə başqa bir məsələdir. Peyğəmbərin(s) Allah tərəfindən gətirdiyi bu müqəddəs kitab bütün insanları mübarizəyə çağırır. Quran onun barəsində şəkk-şübhə edənlərin hamısını açıq-aydın mübarizəyə çağıraraq bəyan edir ki, hər kimin bu barədə şübhəsi varsa, o zaman istədiyi şəxsi özünə yardımçı tutaraq ona bənzər bir kitab gətirsin. Qurani-Kərim nazil olduğu gündən qiyamət gününədək bütün insanların və cinlərin hamısını bu mübarizəyə dəvət edir.

## Mübarizəyə dəvət

Qeyd olundu ki, Quran İslam Peyğəmbərinin(s) əbədi möcüzəsidir. Biz artıq bu möcüzənin digər möcüzələrdən fərqi barədə söz açdıq. Həmçinin öyrəndik ki, möcüzənin şərtlərindən biri də odur ki, tərəf müqabili mübarizəyə dəvət edərək bildirilir ki, əgər hünəriniz varsa, siz də belə bir möcüzə göstərin. Qurani-Kərim böyük və əbədi möcüzə olduğundan onun mübarizə üsulu belədir. “İsra” surəsinin 88-ci ayəsində oxuyuruq:

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

-De: “Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir

yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar belə onun bənzərini gətirə bilməzlər.”

Bu ayə də bütün insanları və cinləri Quranın bənzərini gətirməyə dəvət edir. “Hud” surəsinin 13-cü ayəsində məsələ tərəf müqabil üçün asanlaşdırılaraq belə buyurulur:

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِعَشْرِ سُوَرٍ مِّثْلِهِ مُفْتَرَيَاتٍ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ

-Yoxsa “o, bunu (Quranı) özündən uydurmuşdur (və yalandan Allah nisbət verir)!” deyirlər! De: “Əgər doğruçusunuzsa, siz də onun kimi on uydurma surə gətirin və (onu düzəltmək üçün) Allahdan başqa kimi bacarırsınız, çağırın.”

Bu ayə də bildirir ki, əgər bütöv bir Quranın bənzərini gətirə bilmirsinizsə və o zaman bacarırsınızsa on surənin bənzərini gətirin. “Yunis” surəsinin 38-ci ayəsində mübarizənin şərti daha da asanlaşdırılaraq belə buyurulur:

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ

-Yoxsa “bunu (Quranı Məhəmməd) yalandan düzəltmişdir” - deyirlər. De: “Belə isə əgər doğruçusunuzsa (kəlmənin fəsihliyi, mənanın dərinliyi, müxtəlif elmləri əhatə etmə və qeyb aləmindən xəbər verməkdə) ona bənzər bir surə gətirin və (bu işdə) Allahdan başqa kimi bacarırsınızsa, köməyə çağırın.”

Quran açıq-aydın şəkildə hamını elmi mübarizəyə dəvət edir. Hər bir kəs Quranın möcüzə olmasına inanmırsa, elə isə hünəri çatırsa, onun surələrinə bənzər bir surə gətirsin. Belə də deyil ki, Quran təkcə keçmiş

zamanda olan savadsız və elmsiz insanları mübarizəyə çağırır. Quran əbədi möcüzə olduğundan qiyamətə qədər bu iddianı edir və hamını belə bir mübarizəyə dəvət edir. O zamanlar elm inkişaf etməmişdi, amma indi bu sahədə çox böyük inkişaf vardır. O zaman ədəbiyyat zəif idisə, amma indi xeyli inkişaf etmiş və mükəmməlləşmişdir. Hansı dövrün olmasından asılı olmayaraq Quran insanları hər zaman belə bir mübarizəyə səsləyir. Kim belə bir mübarizəyə çıxmaq istəyirsə, buyura bilər.

## Quran əleyhinə elmi mübarizənin başlanması

Quran bütün insanları elmi mübarizəyə dəvət edir. Bu iddianı eşidən bir sıra insanlar Quranla mübarizə etmək fikrinə düşdülər. Quranın bu dəvəti onları belə bir mübarizəyə qatılmağa vadar etdi. Tarixdə bu cür insanlara çox rast gəlmək mümkündür. Lakin onlar bu mübarizədə məğlubiyyətə düçar oldular və biabırçılıqdan savayı başqa bir şey əldə edə bilmədilər. Quranla mübarizəyə qalxanlardan bir neçəsini nümunə üçün nəzərinizə çatdırıram.

## Museyləmə

İslamın zühurundan az bir müddət keçmişdi. Museyləmə ibn Həbib İslam Peyğəmbərinin(s) dövründə yaşayırdı. O, Hicazın (indiki Səudiyyə Ərəbistanı) şərq hissəsində yerləşən Yəmamə şəhərindən idi. Museyləmə şöhrətpərəst bir insan olduğundan İslamın belə inkişaf etdiyini, Peyğəmbərin(s) izzət və əzəmətini görərək peyğəmbərlik iddiasına düşdü. O, elə düşünürdü ki, peyğəmbərlik iddiası edərsə, belə bir əzəmətə malik

olacaqdır. Bu cür izzət və əzəməti əldə etmək üçün bir ara peyğəmbərlik iddiası edib camaatı ətrafına yığmaq istədi. Lakin camaat ona inanmayıb adını kəzzab (yalançı) Museyləmə qoydular. Museyləmə adı çox yayıldığından camaat onu tanımaq üçün ona yalançı Museyləmə adını vermişdilər. O, şöhrətpərəst bir insan olduğundan bir gün camaatı başına toplayaraq peyğəmbərlik iddiası edib Rəhman adlı bir mələyin ona nazil olduğunu söylədi. İslam Peyğəmbərinə(s) cənab Cəbrayıl(ə) nazil olduğu üçün Museyləmə də öz mələyinin adını Rəhman qoymuşdu.

Museyləmə yavaş-yavaş özünü camaata belə tanıtdırmışdı. Günlərin birində o, İslam Peyğəmbəri(s) ilə görüşüb dedi: "Mən səninlə razılığa gələ bilərəm. Mən sənə bir şərtlə iman gətirib səni təbliğ edə bilərəm. Şərtim budur ki, sən özündən sonra məni vəsi və canişinin təyin et." Həzrət Peyğəmbər(s) buyurdu: "Məni peyğəmbərliyə seçən Allahdır. Mənim vəsi və canişinimi də Allah Özü təyin edir. Bu, mənim ixtiyarımda deyil. Mənim canişinimi təyin etmək nə mənim, nə sənin, nə də Şuranın ixtiyarında deyil."

Museyləmə Peyğəmbərin(s) onunla razılaşmadığını görüb qayıtdı. Qayıtdıqdan sonra isə Peyğəmbərə(s) belə bir məktub yazdı:

أَمّا بَعد فَانِّي قَد شُورِكتَ فِي الأَرضِ مَعَكَ وَ اِنَّما لَنَا نِصفَ الأَرض وَ لِقُرَيشٍ نِصفُهَا لَكِنَّ قُرَيشًا قَومٌ يَعتَدُون

-Mən yer kürəsində səninlə şərikəm. Torpaqların yarısı biz yəmaməlilərin, yarısı da qureyşlilərindir. Lakin Qureyş öz haqqından artığına təcavüz etmişdir.

Museyləmə belə bir insan idi. Onun ətrafında olanlar da müxtəlif sözlərlə onu qızışdıraraq Peyğəmbəri(s) yıxmağa çağırırdılar. Museyləmə Quran ayələrini oxuyub özündən ayələr düzəltməyə başladı. Guya onun Rəhman adlı mələyi ona da ayələr gətirir. Günlərin birində “Naziat” surəsindəki ayələrin müqabilində cümlələr düzəldib oxudu. Əlbəttə, bəzi şəxslərin yazdığına görə, Museyləmə “Naziat” surəsindəki ayələrin qarşılığında özündən cümlələr uydurmuşdu.

Burada ilk növbədə “Naziat” surəsinin bir neçə ayəsinə diqqət yetirək, ondan sonra Museyləmənin düzəltdiyi cümlələrə baxaq. Allah- təala bu mübarək surədə buyurur:

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم. وَالنَّازِعَاتِ غَرْقًا. وَالنَّاشِطَاتِ نَشْطًا. وَالسَّابِحَاتِ سَبْحًا. فَالسَّابِقَاتِ سَبْقًا. فَالْمُدَبِّرَاتِ أَمْرًا

-Bağışlayan və mehriban Allahın adı ilə. And olsun kafirlərin canlarını şiddətlə (bədənlərindən) çəkib çıxaran mələklərə. (And olsun) möminlərin canlarını yumşaqlıqla və rahatlıqla alan mələklərə və şərqdən aramla çıxan (və qərb tərəfə gedən) ulduzlara. (And olsun) insanların ruhlarını aldıqdan sonra sürətlə bərzəx cənnətinə, yaxud cəhənnəminə aparan mələklərə. (And olsun) Allahın əmrlərini yerinə yetirməkdə bir-birilərini ötən mələklərə və (and olsun) haqq yolunda döyüşənlərin bir-birilərini qabaqlayan atlarına. (And olsun) dünyanın işlərini idarə edən mələklərə (aləm onların Allah iradəsinin inikası olan iradələri ilə idarə edilir). (Bu beş andda məqsəd budur ki, siz hamınız diriləcəksiniz). O gün o titrədən (surun birinci dəfə üfürülməsi bütün kainatı) şiddətlə titrədəcək (sükunət

halında olan cisimlərin hamısı titrəyəcək və bütün canlılar öləcəklər).

Allahın nazil etdiyi bütün ayələrdə dərin mənalar, geniş söhbətlər və haqq-həqiqətlər vardır. Quran ayələrinin hər bir kəlməsində və cümləsində minlərlə mühüm məsələ mövcuddur. Hər bir kəs sözləri nəzmə çəkərək ağlına gələnləri yazmaqla buna nail ola bilməz. Hər bir kəsin ayələrin nəzminə uyğun olaraq ağlına gələnləri yazmaqla ayə düzəltməsi mümkün deyildir. Heç bir kəs bu ayələrə bərabər özündən cümlə uydura bilməz. Belə bir iş qətiyyən mümkün də deyil. Hər bir kəs Quranla mübarizəyə qalxsa, bunun axırının məğlubiyyət və biabırçılıq olduğunu bilməlidir. Museyləmə də həmin insanlardan biri idi. O, Quranla mübarizəyə qalxmış və Quranın ayələri müqabilində cümlələr düzəltmək istəmişdir. Onun bu ayələr müqabilində düzəltdiyi sözlərə gəldikdə isə nümunə olaraq aşağıda təqdim edirik.

وَالْمُبَذِّراتِ بَذرًا. وَالْحَاصِدَاتِ حَصدًا. وَالدَّارِيَاتِ قَمحًا. وَالطَاحِنَاتِ طَحنًا. وَالْعَجِنَاتِ عَجرًا. وَالْخَابِزَاتِ خبزًا. وَالثَّارِدَاتِ ثَردًا. وَاللاقِمَاتِ لَقمًا.

-And olsun (taxıl) əkənlərə. And olsun onları biçənlərə. And olsun o buğdaları sovurub samanından ayıranlara. And olsun o buğdalardan un düzəldib xəmir yoğuranlara. And olsun ondan çörək bişirənlərə. And olsun o çörəkləri doğrayıb xörəyin içinə tökənlərə. And olsun o yağlı tikələri götürüb yeyənlərə.

Bunlar Museyləmənin "Naziat" surəsinin ayələri müqabilində düzəltdiyi cümlələr idi. Ayətullah Məkarim Şirazi onu tənqid edərək yazır ki, Museyləmənin bəzi

sözlər yadından çıxmışdır. Gərək bu sözləri də o cümlələrə əlavə edəydi.

وَالْهَاضِمَاتِ هَضمًا. وَالدَّافِعَاتِ دَفعًا

-And olsun onu həzm edənlərə və and olsun onu (həzm etdikdən sonra ayaq yolunda) dəf edənlərə.

Bəziləri deyirlər ki, Museyləmə “Naziat” surəsinin deyil, “Adiyat” surəsinin ayələri müqabilində bu cümlələri uydurmuşdur. “Adiyat” surəsinin quruluşu da “Naziat” surəsinin quruluşuna bənzəyir. Allah-təala bu mübarək surədə bir sıra andlar içdikdən sonra müəyyən məsələləri bəyan edir. Hər bir andın isə böyük və dərin mənaları vardır. Burada çox yaxşı olar ki, “Adiyat” surəsinin nazilolma səbəbinə diqqət yetirək. Bu surə hicrətin səkkizinci ilində nazil olmuşdur. Hicrətin səkkizinci ilində “Zatus-səlasil” müharibəsi baş verdi. Peyğəmbərə(s) xəbər verdilər ki, Yabis adlı bir məntəqədə 12 min nəfərdən ibarət olan bir düşmən qüvvəsi belə bir razılığa gələrək əhd etmişlər ki, Peyğəmbəri(s), Əlini(ə) öldürənə və müsəlmanların ittifaqını dağıdana qədər sakit qalmayacaqlar. Onlar hücuma keçmək üçün hazırlıq işləri görürlər.

Peyğəmbər(s) bir qrup müsəlmanı çağırıb səhabələrdən də bir neçə nəfəri onlara başçı təyin etdi. Sonra onları həmin məsələni həll etmək üçün Yabis məntəqəsinə göndərdi. Onlar Yabisə gəldilər və həmin 12 min nəfərlik qoşunun böyükləri ilə görüşüb söhbət etdilər. Lakin bu söhbət bir nəticə vermədiyindən onlar geri qayıtdılar. Yəni onlara qarşı heç bir iş görə bilmədilər. Peyğəmbər(s) onların kor-peşman qayıtdıqlarını görüb digər bir dəstəni hazırladı. Həzrət Əlini(ə) çağıraraq həmin dəstəyə başçı təyin etdi və məsələni həll etmək üçün

Yabisə göndərdi. Həzrət Əli(ə) atı minib sürətlə həmin məntəqəyə yollandı. Gördü ki, onlar müsəlmanlara qarşı hücuma keçməyə hazırlaşırlar. Həzrət Əli(ə) ilk növbədə onlara İslamı və qardaş olmağı təklif etdi. Onlar Həzrətin(ə) təklifi ilə razılaşmadılar və qəti fikirləri bu idi ki, Peyğəmbərlə(s) müharibə edib müsəlmanları məhv etsinlər. Həzrət Əli(ə) onlara heç bir fürsət verməyib səhərin açılmasını gözləmədən hücuma keçdi. Onların bütün planlarını alt-üst edib qələbə çaldılar. Düşmənin qüvvəsinin bir hissəsini öldürüb, bir hissəsini də əsir götürdü. Bütün mallarını da qənimət kimi yığıb Mədinəyə tərəf yollandı.

Elə həmin gecə Allah-təala “Adiyat” surəsini Peyğəmbərə(s) nazil etdi. Peyğəmbər(s) həmin gün sübh namazında “Həmd” surəsindən sonra bu surəni oxudu. Namaz qurtardıqdan sonra bəzi səhabələr soruşdular: “Ya Rəsulallah, biz heç bu surəni eşitməmişdik.” Peyğəmbər(s) buyurdu: “Bu surə bu gecə mənə nazil oldu. Əli(ə) “Zatus-səlasil”də qələbə çaldıqdan sonra Cəbrayıl(ə) bu ayələri mənə muştuluq olaraq gətirdi.”

Üç gündən sonra gördülər ki, Həzrət Əli(ə) öz dəstəsi ilə Mədinəyə daxil oldu. Hamı sevinclə onları qarşılamağa çıxdı.

“Adiyat” surəsinin bəzi ayələrinə diqqət yetirək. Görək, Allah-təala bu mübarək surədə hansı sözləri və mətləbi bəyan edir.

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم. وَالْعَادِيَاتِ ضَبْحًا. فَالْمُورِيَاتِ قَدْحًا. فَالْمُغِيرَاتِ صُبْحًا. فَأَثَرْنَ بِهِ نَقْعًا. فَوَسَطْنَ بِهِ جَمْعًا. إِنَّ الْإِنسَانَ لِرَبِّهِ لَكَنُودٌ. وَإِنَّهُ عَلَى ذَلِكَ لَشَهِيدٌ. وَإِنَّهُ لِحُبِّ الْخَيْرِ لَشَدِيدٌ.

-Bağışlayan və mehriban Allahın adı ilə. And olsun tövşüyə-tövşüyə çapan (cihad) atlar(ın)a. (And olsun) dırnaqları ilə daşdan qığılcım qoparan atlara. (And olsun) sübh çağı (düşmən üzərinə) hücum edənlərə. Hücumları ilə toz-torpaq qaldıranlara. O hücumla (düşmənlərin) mərkəzinə yol tapanlara (and olsun) ki, həqiqətən, insan öz Rəbbinə qarşı çox nankor, xəsis və itaətsizdir! Və şübhəsiz, o özü də buna şahiddir. Həqiqətən, insan mal-dövlətə fitrətən (zatən) çox hərisdir.

Allah-təala bu surədə Həzrət Əlinin(ə) atına, (mücahidlərin) atların ayaqlarının altından çıxan qığılcımlara, sübh çağı düşmən üzərinə hücum edənlərə and içir. Demək olar ki, Allah-təala bu surənin yarısına qədər and içir. Sonra isə insan barəsində mühüm mətləbləri bəyan edir. Bütün bunlar insanlar üçün böyük mətləblər, böyük sözlərdir ki, misli-bərabəri yoxdur. Quran ayələri müqabilində cümlə düzəldib nəzmə çəkmək hələ ayə demək deyil. Quran ayələri tamamilə bam-başqadır. Heç bir kəs bu ayələrin müqabilində bir cümlə düzəldə bilməz.

Museyləmə bu surələrin müqabilində özündən müxtəlif cümlələr düzəldərək Quranla mübarizə aparmaq fikrinə düşmüşdü. Lakin quraşdırdığı həmin cümlələrdən bir şey alınmadığını görüb qafiyəyə və vəznə uyğun cümlələr düzəltməyə başladı. Onun düzəltdiyi “surə”lərdən biri belə idi.

يَا ضَفدَع بِنت ضَفدَعِين. نَقِّي مَا تنتقين، نِصفُكَ فِي الْمَاء، وَنِصفُكَ فِي الطِّين، لا الْمَاء تكدَرِين، وَلا الشّارِبَ تَمنَعِين

-Ey qurbağa qızı qurbağa, necə quruldayırsan qurulda. Sənin yarı hissən suda, yarı hissən qurudadır

(həm suda yaşayırsan, həm də quruda). Nə suyu lilləndirirsən, nə də su içənlərə mane olursan.

Museyləmə elə başa düşürdü ki, Quranın təsir dairəsi ondakı cümlələrin vəzn və qafiyələrinə görədir. Bunun üçün də ağlına gələn sözləri qafiyəyə düzüb camaata söyləməklə peyğəmbərlik iddiası edirdi. Qurbağa barədə düzəltdiyi "surə"nin də alınmadığını görərək "Fil" surəsinin müqabilində özündən bir surə düzəldib camaata oxumağa başladı.

اَلفِيل مَا الفِيل. وَمَا اَدراكَ مَا الفِيل. لَهُ خُرطُومٌ طَوِيل. وَ ذَنبٌ وَ ثِيل

-Fil. Nədir fil? Sən nə bilirsən ki, nədir fil? Onun uzun xortumu var. Onun qalın quyruğu var.

Museyləmə gördü ki, özündən düzüb-qoşduğu surələrə heç bir kəs əhəmiyyət vermir. Ona görə də çarəsiz qalıb müsəlmanlarla düşmənçiliyini daha da artırdı. Sonra qəbilə müharibələrinin birində Səccan adlı bir qadınla tanış oldu. Səccan elə bir qadın idi ki, onun da öz silahlı dəstəsi var idi. O, bəzi qəbilələrlə müharibə etmiş, bəziləri ilə dost olmuşdu. Sonra Yəmamədə Museyləmə ilə müharibə etmək istədi. Onların hər ikisi İslamın düşməni olduğundan müharibə etmək fikrindən daşındılar. Elə həmin müharibə zamanı da evlənib döyüş səhnəsini toya çevirdilər. Evləndikdən sonra da İslamın əleyhinə çıxdılar. Lakin İslam qoşunu onların kökünü kəsdi.

## Müəllifinin adı gizli saxlanılan kitab

Tarixdə Quran əleyhinə mübarizə aparmaq istəyənlər çox olmuşlar. Lakin bu işə başlayanların hamısı məğlubiyyətə uğrayaraq özlərini biabır etmişlər. Onlar

Quranın surələri müqabilində özlərindən müxtəlif cümlələr düzəldirdilər. Lakin sonradan görürdülər ki, düzəltdikləri cümlələr ədəbiyyat, fəsahət, bəlağət baxımından düzgün deyil. Onların düzəltdikləri cümlələrin nə fəsahəti, nə bəlağəti, nə gözəlliyi, nə də əbədiyyəti vardır. Onların sözlərinin heç bir səbəbi, sübutu, məfhumu, mənası, fəlsəfə və hikməti yox idi. Öz yazdıqlarını özləri oxuduqda tutduqları işdən xəcalət çəkirdilər. Tarix boyu belə insanlara dəfələrlə rast gəlmişik. Ötən bəhsimizdə Quranla mübarizəyə qalxanlardan, yəni Quran ayələrinin müqabilində özündən cümlələr uyduranlardan biri olan Museyləmə barədə söz açdıq. İstərdim ki, bununla bağlı son vaxtlar, yəni əsrimizə təsadüf edən bir nümunəni də diqqətinizə çatdırım.

Təəccüblüsü odur ki, 1913-cü ildə Misir ədəbiyyatçı və alimləri bir yerə yığışaraq Quranla mübarizə aparanlara cavab yazmaq fikrinə düşdülər. Beləcə, orada bir kitab tərtib olundu, lakin onun müəllifinin adını rəsmən elan etmədilər. Çünki yaxşı bilirdilər ki, əgər müəllifin adını yazsalar, hər bir kəs onunla bu barədə elmi müzakirələr aparmaq istəyəcək. Odur ki, dünya alimlərinin, xüsusilə İslamın böyük alimlərinin qarşısında cavab verməli olduqlarını bilərək kitabın müəllifinin adını elan etməyə cəsarətləri çatmadı. Amma həmin kitab ya İngiltərədə, ya da Amerikada çap olundu. Sonra onlar tutduqları bu işin biabırçılıqla nəticələnəcəyini görüb kitabı yığışdırmağa başladılar. Bu kitabda əsasən "Həmd" və "Kövsər" surələrinin müqabilində sözlər yazmışdılar. Yəni həmin kitabda Quranın yalnız bu iki surəsinin müqabilində özlərindən surə düzəltmişdilər.

"Fatihə" surəsi geniş məzmunlu, dərin mənalı bir surədir. "Fatihə" surəsinin fəzilətləri barədə bir çox

hədislər nəql olunmuşdur. “Fatihə” surəsi Quranın mündəricatıdır. Bu surənin özünəməxsus xüsusiyyətləri vardır. Peyğəmbər(s) buyurmuşdur ki, əgər bir ölü üçün yeddi dəfə “Fatihə” surəsini oxusanız, onun dirildiyini gördükdə təəccüblənməyin. “Fatihə” surəsinin çoxlu fəzilətləri vardır. Meyit namazı dua olduğundan ondan başqa bütün namazlarda bu surəni oxumaq vacibdir. “Həmd” surəsinin şərafət və fəziləti o qədər çoxdur ki, hətta bir xəstənin yanında yeddi dəfə bu surəni oxusalar, o, şəfa tapar. Əgər şəfa tapmasa, yetmiş dəfə oxunularsa, xəstə mütləq şəfa tapacaqdır. Bu mubarək surənin o qədər dərin mənaları vardır ki, böyük alimlər onu şərh edərkən çox uzun bir müddətdən sonra “Bismillahir-rəhmanir-rəhim” ayəsindən çıxırlar. Təkcə bu surənin mənasının açıqlanmasına gəldikdə isə günlərlə elmi məclislər təşkil olunmuş və hələ də onun mənasını axıradək tamamlayıb qurtara bilmirlər. İnşallah, gələn bəhslərimizin birində “Fatihə” surəsi haqda qısaca da olsa söz açacağıq.

Amma Quranla mübarizə aparmaq istəyənlər elə başa düşürlər ki, kəlmələri bir-birinin kənarına qoymaqla özlərindən nəsə kəşf etmişlər. Quranın ayələri Allahın kəlamıdır. Hər bir kəlmənin dərin mənaları vardır ki, illər boyu çalışıb oxuduqdan sonra bəzilərinin mənasını başa düşə bilirlər. Onların “Fatihə” surəsinin müqabilində düzəltdikləri cümlələr belədir:

اَلْحَمدُ لِلرّحمن. رَبِّ الأَكوان. اَلْمَلِك الدَّيَّان. لَكَ العِبادَة وَبِكَ الْمُستَعان. اِهدِنا صِراط الإيمان

-Həmd olsun Rəhmana. Hadisələrin Rəbbinə. Əcr və savab verənlərin malikinə. İbadət Sənə məxsusdur və səndən kömək istənilməlidir. Bizi iman yoluna yönəlt...

Onlar “Fatihə” surəsinin qarşılığında bu cür cümlələr düzəltmişdilər. “Fatihə” surəsinin hər bir kəlməsinin geniş mənası var. “Fatihə” surəsindəki “Lillah”, “Rəbb” və “Aləm”in kəlmələrinin böyük və dərin mənaları vardır. Hər bir kəsin kəlmələri bir-birinin yanına qoyub qafiyə düzəltməsi hələ ayə demək deyil. Quranın bütün ayələri Allah-təalanın kəlamıdır. “Fatihə” surəsində “Maliki yovmiddin” ayəsinə diqqət yetirdikdə görürük ki, böyük bir gün baş verəcəkdir. Həmin günün maliki yalnız və yalnız Allahdır. Həmin gün Allah Özü hakim olacaq. Qiyamət günü elə bir gündür ki, “Yovmiddin” kəlməsinin qarşılığında “Dəyyan” kəlməsi daha cılız və kiçikdir. Qiyamət gününün əzəmətində bizim üçün bu qədər bəs edər ki, Allah-təala həmin günün barəsində bu surədə “Maliki yovmiddin” buyurur. Qiyamət günü elə bir gündür ki, ana balasından, qardaş qardaşından qaçacaqdır. Qiyamət günü elə bir gündür ki, onun qorxusundan uşaqların başı ağaracaq.

*Məhşər günü bir gündü, düşər təngə xəlayiq,*
*Gün isti salar ataşi-suzan əvəzində.*

*Yəqub çıxardar balası Yusifi yaddan,*
*Kor oldu o ki, aləmi hicran əvəzində.*

Qiyamət günü elə bir gündür ki, insana nə onun mal-dövləti, nə də övladı fayda verəcək. O gün övlad və mal-dövlət insanın dərdinə dəyməyəcək. Hər bir kəs öz hayında olacaqdır. Qiyamət günü elə bir gündür ki, biz onu təsəvvürümüzə belə gətirə bilmirik. Yerdə zəlzələnin baş verməsi, ulduzların dağılıb səpələnməsi, günəşin partlaması məhz bu gün özünü büruzə verəcək. Hələ indiyə qədər heç bir alim bunun necə baş verdiyini aydınlaşdıra da bilmir. Allah-təala qiyamət gününün malikidir.

Onlar bu ayələrin müqabilində düzəltdikləri cümlələri "Həmd" surəsinin ayələrini mənalandırarkən istifadə etmək istəyirdilər. Çünki onların əlində bundan başqa məna və mətləb yoxdur ki, onu gətirsinlər. Sonra "Kövsər" surəsinin müqabilində özlərindən cümlələr düzəltməyə başladılar. "Kövsər" surəsinin mənasına gəldikdə isə bu mübarək surənin də geniş və dərin mənaları vardır. Allah-təala bu surədə belə buyurur:

بِسمِ اللّٰه الرّحمن الرَّحيم. إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ. إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

-Bağışlayan və mehriban Allahın adı ilə. (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl, Qurban (dəvə) kəs.  Həqiqətən, (sən sonsuz və nəsilsiz deyilsən), sənin düşmənin özü sonsuz və nəsli kəsilmişdir.

Bu mübarək surədə "Kövsər"in kəlməsinin mənaları vardır. Onlar elə başa düşürdülər ki, bu surənin nəzmi ilə özlərindən buna oxşar cümlələr uydurmaqla Qurana qarşı mübarizə apara biləcəklər. "Kövsər" surəsinin qarşılığında özlərindən uydurduqları cümlələr belə idi:

اِنّا اَعطَينَاكَ الجْواهِر. فَصَلّ لِرَبِّكَ وَ جَاهِر. وَلا تَعتَمِد قَولَ سَاحر

-Biz sənə cəvahiri bəxş etdik, sən də uca səslə namaz qıl, sehirbaz və cadugərlərin sözlərinə etina etmə.

Görürük ki, onlar bu surədə də Qurandakı oxşar ifadələrdən istifadə etmiş və heç nədən çəkinmədən bunun adını mübarizə qoymuşdular. Onların tutduqları bu iş o qədər mənasız və dəyərsizdir ki, bu barədə uzun-uzadı bəhs etməyi lüzum görmürəm. Sadəcə bunu qeyd edim ki, "Fatihə" və "Kövsər" surələri ilə həmin adamların bu

surələrin müqabilində özlərindən düzəltdikləri surələri bir-birinin yanına qoyub mənalandırdıqda onların yazdıqları tullantıdan savayı başqa bir şey deyildir. Onların ən böyük acizliyi elə bundadır ki, həmin yazıların müəllifinin adını gizli saxlamışlar. Sonra işin axırının pis olacağını görüb bu məsələdən imtina edərək tutduqları işdən əl çəkdilər.

İslamın böyük alimləri onların özlərindən uydurduqları cümlələrə tutarlı cavablar yazmışlar. O cümlədən Ayətullah Məkarim Şirazi bu barədə bir kitab yazmış və onlara müfəssəl cavablar vermişdir. Həmin kitabda o, özündən surə uyduranlara belə deyir: "Əgər məsələ belə sadəliklə həll olunsaydı, onların yazdıqlarından daha yaxşı cümlələr düzəltmək olardı."

## İbn Əbil Ovca

İmam Sadiqin(ə) dövründə alimlər Həzrətin(ə) elmindən bəhrələnmək üçün onun dərsinə gəlirdilər. O zamanlar İbn Əbil Ovca adlı böyük ədəbiyyatçı və materialist bir alim yaşayırdı. O və onun ətrafındakılar aləmdə mövcud olan mənəviyyatı qəbul etmirdilər. O, hərdənbir İmam Sadiqin(ə) hüzuruna gələr və onlar müxtəlif mövzularda söhbət edərdilər. İmam Sadiqin(ə) tutarlı cavablarını gördükdən sonra heç bir vaxt camaat arasında Həzrətdən(ə) nəyisə soruşub onunla mübahisə etməzdi. Camaat arasında nüfuzdan düşməmək üçün İmam Sadiqlə(ə) bəhsə girməzdi.

İbn Əbil Ovca ədəbiyyatçı olduğundan özü kimi üç nəfər alimi tapıb heç bir kəsin xəbəri olmadan onlara belə dedi: "Gəlin, hər birimiz Quranın dörddə bir hissəsini öhdəmizə götürüb onun bənzərini düzəldək. Çünki Quranın özü də bizi elmi mübarizəyə dəvət edir. Bu işin

üzərində bir il çalışdıqdan sonra Kəbə ətrafında görüşüb hər birimiz yazdıqlarımızı üst-üstə qoyaq və Quran kimi bir kitab düzəldək.” Beləcə, onlar qərarlaşıb ayrıldılar.

Bir ildən sonra isə danışdıqları kimi Kəbə ətrafında görüşdülər. Bir-birindən nə etdiklərini soruşduqda onlardan biri belə dedi: “Sözün düzünü bilmək istəyirsinizsə, mən bu işə əl ata bilmədim. Mənim payıma düşən hissəni oxuyarkən “Hud” surəsinin 44-cü ayəsinə yetişdim. Orada belə yazılmışdır:

وَقِيلَ يَا أَرْضُ ابْلَعِي مَاءكِ وَيَا سَمَاء أَقْلِعِي وَغِيضَ الْمَاء وَقُضِيَ الأَمْرُ

-Və deyildi: “Ey yer, öz suyunu ud və ey göy, (yağışını) saxla!” Su (yerə) hopdu və iş (kafirlərin mütləq baş verməli olan məhvi) bitdi.

Bu ayəni oxuduqda fikirləşdim ki, həmin işi heç bir vaxt bacarmayacağıq. Çünki bu ayənin o qədər fəsahəti, bəlağət və gözəlliyi var ki, onun qarşısında kimsə heç bir şey edə bilməyəcək. Mən bu kəlmələrin qarşısında əlimə qələm alıb nəsə yazmağa həya etdim. Yaxşısı budur ki, öz abrımızı qoruyaq və bu işdən əl çəkək.”

Onlardan biri belə dedi: “Mən də öz öhdəmə düşən hissəni oxuyarkən “Yusif” surəsinin 80-ci ayəsinə yetişdim. Orada belə buyurulur:

فَلَمَّا اسْتَيْأَسُواْ مِنْهُ خَلَصُواْ نَجِيًّا قَالَ كَبِيرُهُمْ أَلَمْ تَعْلَمُواْ أَنَّ أَبَاكُمْ قَدْ أَخَذَ عَلَيْكُم مَّوْثِقًا مِّنَ اللّهِ وَمِن قَبْلُ مَا فَرَّطتُمْ فِي يُوسُفَ فَلَنْ أَبْرَحَ الأَرْضَ حَتَّىَ يَأْذَنَ لِي أَبِي أَوْ يَحْكُمَ اللّهُ لِي وَهُوَ خَيْرُ الْحَاكِمِينَ

-Beləliklə, ondan (Yusifin onların təklifini qəbul etməsindən və qardaşlarının nicat tapmasından) naümid olduqdan sonra pıçıldaşaraq bir kənara çəkildilər. Böyükləri dedi: “Məgər atanızın (Binyamin barəsində)

sizdən möhkəm ilahi bir peyman almasını və keçmişdə də Yusif barəsində nə nöqsanlara yol verdiyinizi bilmirsiniz?! Buna görə də (şəxsən) mən atam mənə icazə verənə və ya Allah mənim barəmdə hökm çıxarana qədər bu diyardan əsla çıxmayacağam. O, hökm edənlərin ən yaxşısıdır."

Bu ayəni oxuduqdan sonra öz-özümə düşündüm ki, biz gərək belə bir ağır yükü öz üzərimizə götürməyəydik. Əgər bu işə qol qoymuş olsaq, abrımız əlimizdən gedəcək."

Söz bu yerə yetişdikdə uzaqdan İmam Sadiqin(ə) gəldiyini gördülər. Onlar bu işi heç bir kəsin xəbəri olmadan gördükləri üçün İmamı(ə) görüb heç nə danışmadılar. İmam Sadiq(ə) oradan keçərkən onlarla salamlaşdıqdan sonra "İsra" surəsinin 88-ci ayəsini oxudu.

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

-De: "Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar da belə onun bənzərini gətirə bilməzlər."

İmam Sadiq(ə) bu ayəni oxuya-oxuya onların yanından ötüb keçdikdən sonra onlar bir-birinin üzünə baxıb mat-məəttəl qaldılar. Çünki onların arasında olan bu məsələni yalnız özləri bilirdilər. Heç bir kəsə bu barədə bir kəlmə də olsa belə söz deməmişdilər. İmam(ə) keçib getdikdən sonra bir-birinə dedilər: "Quranın möcüzəsi budur ki, heç birimiz bir iş görə bilmədik. İmamətin möcüzəsi isə bizim bu etdiklərimizdən xəbərdar olmasıdır."

## Quranın məna və təfsiri Əhli-beytin(ə) sinəsindədir

Tarixdə bir sıra insanlar Qurana qarşı elmi mübarizəyə girişdilər, lakin onların bu cəhdləri çox çəkmədən məğlubiyyətlə nəticələndi. Quran Allahın bəşəriyyətə nazil etdiyi hidayət, dərin mənaları olan və insanın dünya və axirət yollarını göstərən müqəddəs bir kitabdır. Onun hər bir kəlməsi Allah-təalanın sözləridir. Quran ayələrinin mənasını və təfsirini hamıdan yaxşı onu gətirən bilər. Həzrət Peyğəmbər(s) hər bir ayənin mənasını bizim üçün açıqlamışdır. Ömrünün son anlarında həm Quranı, həm də Əhli-beyti(ə) bizə tapşırmışdı. Quran və Əhli-beyt(ə) qiyamət gününə qədər bir-birindən ayrılmayacaq. Peyğəmbər(s) hər ikisini bizə əmanət olaraq tapşırmışdır. Peyğəmbərdən(s) sonra Quranın izah və mənasını Əhli-beyt(ə) bilirdi. Hər bir kəs Quranı Əhli-beytdən(ə) ayırsa, heç bir vaxt onun mənasını və təfsirini bilməyəcəkdir.

Günlərin birində İmam Baqir(ə) bir qrup müsəlmanla əyləşib söhbət edirdi. Onlar İmam Baqirdən(ə) öz suallarını soruşur, Həzrət(ə) də onlara cavab verirdi. Söhbətin əvvəlində İmam Baqir(ə) onlara belə buyurdu: "Sizin üçün danışdığım hər bir söhbətin və məndən soruşduğunuz sualların cavablarının kökü  Qurandadır. Danışdığım hər bir sözün Quranın hansı ayəsində olduğunu soruşmağa ixtiyarınız var. Əgər soruşsanız, sizə cavab verərəm." Sonra İmam Baqir(ə) söhbətinə davam edərək buyurdu: "Həzrət Peyğəmbər(s) müsəlmanlara (bir-birinin qulağına) pıçıltı ilə söhbət etməyi, malı zay etməyi və çox sual verməyi yasaq etmişdir."

Orada əyləşənlərdən biri dedi: “Ey Allahın höccəti, sizin bu dediklərinizin kökü Quranın hansı ayələrindədir?”

İmam Baqir(ə) həmin sözlərin hansı ayədə olduğunu onlara açıqlayaraq ayələri oxumağa başladı:

لاَّ خَيْرَ فِي كَثِيرٍ مِّن نَّجْوَاهُمْ إِلاَّ مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ

-Onların gizli söhbətləri və (bir-birilərinin qulaqlarına) pıçıldadıqlarının çoxunda - sədəqəyə, ya xeyir bir işə və yaxud insanların arasını düzəltməyə əmr edən kəslər(in gizli söhbətləri) istisna olmaqla - bir xeyir yoxdur.[1]

وَلاَ تُؤْتُواْ السُّفَهَاء أَمْوَالَكُمُ الَّتِي جَعَلَ اللّهُ لَكُمْ قِيَاماً

-Allahın sizin (yaşayışınız) üçün dayaq etdiyi mallarınızı (və yetimlərin mallarını), səfehlərə (və az yaşlı yetimlərin özlərinə) verməyin.[2]

لاَ تَسْأَلُواْ عَنْ أَشْيَاء إِن تُبْدَ لَكُمْ تَسُؤْكُمْ

-Sizə aşkar olacağı təqdirdə sizi narahat və qəmgin edəcək şeylər barədə soruşmayın.[3]

İbad ibn Abdullah deyir: “Günlərin birində Həzrət Əli(ə) buyurdu: Elə bir ayə yoxdur ki, mən onu bilməyim. Hər bir ayənin harada və kimin barəsində nazil olduğunu bilirəm. Bir nəfər soruşdu: Ya Əli, sizin barənizdə hansı ayə nazil olmuşdur? Həzrət Əli(ə) buyurdu: Əgər soruşmasaydın, deməyəcəkdim. Bu ayə:

---

[1] Nisa surəsi, ayə 114.
[2] Nisa surəsi, ayə 5.
[3] Maidə surəsi, ayə 101.

إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

-Əslində sən yalnız bir qorxudansan və (bəşər cəmiyyətindən olan) hər bir dəstə üçün bir doğru yol göstərən (ya peyğəmbər, ya imam, ya da rəhbər) vardır.

## Quran ayələrinin təsiri

Quran ayələrinin elə gözəl cəzbetmə qabiliyyəti vardır ki, xüsusilə Peyğəmbər(s) və Əhli-beyt(ə) Quran oxuyarkən insanların qəlbinə ox kimi sancılar, ruhunu dəyişdirərdi. Onların oxuduğu ayələr elə təsir edirdi ki, insanların ruhunu və fikrini düzəldərək hidayət edirdi.

Abdullah ibn Rəvahə möhtərəm səhabələrdən biri idi. Mutə müharibəsində həmin çöldə Allah-təala ona şəhidlik məqamını nəsib etdi. O, Peyğəmbərin(s) əmri ilə bu müharibəyə səfərbər olarkən başqa səhabələrlə görüşüb vidalaşdı. Vidalaşarkən Abdullahı ağlamaq tutdu və gözləri yaşla doldu. Ondan ağlamağının səbəbini soruşduqda belə cavab verdi: “Siz elə təsəvvür etməyin ki, mən dünyadan ayrılmağıma və yaxud ölümün qorxusundan ağlayıram. Məni ağladan Quranın yadıma düşən ayələridir.” Soruşdular: “Hansı ayələr yadına düşdü və səni ağlatdı?” Abdullah “Məryəm” surəsinin 71-72-ci ayələrini oxudu:

وَإِن مِّنكُمْ إِلَّا وَارِدُهَا كَانَ عَلَى رَبِّكَ حَتْمًا مَّقْضِيًّا. ثُمَّ نُنَجِّي الَّذِينَ اتَّقَوا وَّنَذَرُ الظَّالِمِينَ فِيهَا جِثِيًّا

-Sizdən (insanlardan) cəhənnəmə girmək astanasında olmayan və ya ona daxil olmayan bir kəs yoxdur. Bu iş sənin Rəbbinin öhdəsində qəti və (Onun əzəli istəyinə əsasən) labüddür.

Sonra (etiqad və əməllərində) təqvalı olmuş kəsləri (ora düşməkdən və ya daxil olduqdan sonra) qurtaracaq, zalımları isə (əzabın çoxluğundan) diz üstə düşdükləri halda orada boşlayacağıq.

Abdullah ibr Rəvahə bu ayəni oxuduqdan sonra dedi: “Məni ağladan bu ayələrdir. Mən orada nə vəziyyətdə olacağımı bilmirəm. Əgər birdən Allah-təala məni oradan çıxartmasa, nə edəcəyəm?”

Səhabələr ona dua edib yola saldılar. Abdullah da elə oradaca Allahdan günahlarının bağışlanmasını və bu müharibədə şəhid olmağı dilədi. Sonra müharibəyə yola düşdü və həmin döyüşdə şəhidlik zirvəsinə ucaldı.

Allah-təala “Təhrim” surəsinin 6-cı ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ عَلَيْهَا مَلَائِكَةٌ غِلَاظٌ شِدَادٌ لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ

-Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun; onun (o odun) başında Allahın onlara verdiyi əmrdən boyun qaçırmayan, əmr olunanı yerinə yetirən, (danışıqda, əxlaqda və əzab verməkdə) sərt (daş qəlbli) və (cüssədə və iradədə) qüvvətli mələklər durmuşlar.

Bu ayə nazil olduqdan sonra möminlərdən birisi onu oxuyub hey ağlayırdı. Peyğəmbəri(s) onun bu halından xəbərdar etdilər. Həzrət Peyğəmbər(s) onu yanına çağırtdırıb soruşdu: “Nə üçün bu qədər ağlayırsan?”

Dedi: “Ya Rəsulallah, mən bu ayəni oxuyub ağlayıram. Çünki özümü oddan saxlamağa gücüm çatmadığı halda ailəmi oddan necə qoruyum?”

Peyğəmbər(s) buyurdu: “Narahat olma. Özünü yaxşı işlərə əmr etdiyin, pis işlərdən çəkindirdiyin kimi ailəni də eləcə qoru. Onları da yaxşa işlər görməyə dəvət et və pis işlərdən çəkindir. Beləliklə, həm özünü, həm də ailəni oddan qorumuş və onların barəsində öhdənə düşən vəzifəni yerinə yetirmiş olarsan.”

Hənzələ Peyğəmbərin(s) səhabələrindən biri idi. O, şəhid olduqdan sonra ona “Ğəsilul-məlaikə” deyirdilər. Hənzələ bircə gün idi ki, toy edib evlənmişdi. Toy gecəsini həyat yoldaşı ilə birgə keçirtdi. Səhərisi gün Peyğəmbərin(s) əmri ilə döyüş meydanına yollandı və həmin müharibədə şəhid oldu. Onun boynunda cənabət qüslü olduğu üçün mələklər ona qüsl verdilər. Ondan sonra onun adı “Ğəsilul-məlaikə”, yəni “Mələklərin qüsl verdiyi” Hənzələ qaldı. Hənzələnin həyat yoldaşı hamilə oldu. Uşaq dünyaya gəldikdən sonra onun adını Abdullah qoydular. Abdullah çox təqvalı və imanlı bir insan idi. Həmişə Quranda olan cəhənnəm ayələrini eşitdikdə o qədər ağlayırdı ki, az qalırdı canı bədənindən çıxsın. Günlərin birində yenə də həmin ayələrdən birini eşitdi. Ağlayıb ayağa qalxdı. Dostları ona dedi: “Nə üçün ayağa durursan?” Abdullah dedi: “Cəhənnəmi xatırladıqda bir yerdə qərar tutub əyləşə bilmirəm. Qorxuram ki, birdən mən də cəhənnəm əhlindən biri olaram.”

Beləcə, biz görürük ki, Quran ayələrinin nə qədər dərin mənaları, sözlərinin lətafəti, fəsahəti, bəlağət və şirinliyi vardır. Quranın hər bir ayəsi ürəyi kor olmayan insanlara öz təsirini göstərir. Heç bir kəs Quranla mübarizə apara bilməz və heç bir kəsin sözləri Quran

ayələri kimi təsiredici ola bilməz. Kim onun ayələri qarşısında özündən cümlə düzəldib Quranla mübarizə etmək fikrinə düşsə, mütləq məğlub olacaqdır. Quran əbədi möcüzə olduğu üçün qiyamətədək insanları elmi mübarizəyə dəvət edir. Quran buyurur ki, hər bir kəs bu müqəddəs kitaba inanmırsa, yaxud ona şəkk-şübhə edirsə və əgər doğruçu insandırsa, o zaman onun surələrinə bənzər bircə surə gətirsin.

## Quranla elmi mübarizə aparanların acizliyinin səbəbi

Qeyd olundu ki, Quran İslam Peyğəmbərinin(s) ən böyük və əbədi olan möcüzəsidir. Qurani-Kərim elə bir möcüzədir ki, qiyamətədək bütün insanları və cinləri elmi mübarizəyə dəvət edir və bildirir ki, hər kim bu kitaba şəkk-şübhə edirsə, o zaman onun surələrindən birinin bənzərini gətirsin. Quranın bu dəvətini eşidən bəzi ədəbiyyatçılar və özlərini alim hesab edən şəxslər bacardıqlarını etməyə çalışdılar. Lakin nə qədər çalışdılarsa, Quranın surə və ayələri qarşısında öz acizliklərini başa düşüb gördükləri işdən əl çəkmək məcburiyyətində qaldılar. Çünki Peyğəmbərin(s) bu möcüzəsində elə bir cəzbetmə qabiliyyəti vardır ki, onların özlərindən düzəltdikləri cümlələr Quran ayələrinin qarşısında çox cılız və mənasızdır. Ola bilər ki, bəzi insanlar gözəl cümlələr və qafiyələr yazsınlar, amma onlar Quran ayələri kimi ayələri heç bir vaxt düzəldə bilməzlər. Quranda olan özünəməxsus xüsusiyyət və cəzbetmə amilləri başqa heç bir şeydə yoxdur.

Sual oluna bilər ki, min dörd yüz il ərzində Quranla elmi mübarizə aparan böyük alimlər, yazıçılar və

ədəbiyyatçılar nə üçün Qurani-Kərimin qarşısında aciz qalmışlar? Cavab belədir ki, Quran ayələrinin həm zahiri quruluşu mükəmməl və gözəldir, həm də onların mənası dərin və genişdir. Şairlərin, ədəbiyyatçıların, yazıçıların və digər alimlərin əsərlərinə diqqət yetirdikdə onları iki qismə ayırmaq olur. Bir qisim yazıçı-alimin əsərlərinə baxdıqda onların ədəbiyyat baxımından gözəl cümlə quruluşuna fikir verdiklərinin şahidi oluruq. Lakin həmin cümlələrin gözəlliyinə baxmayaraq, onların mənaları çox zəifdir. Bəzi alimlərin əsərlərinə diqqət yetirdikdə isə cümlələrin quruluşunun zəif olmasına və gözəl olmamasına baxmayaraq, onlarda gözəl və dərin mənalı sözlərin şahidi oluruq. Yəni bəzi alimlər, şairlər və ədəbiyyatçılar yazdıqları əsərlərin zahiri gözəlliyinə, bəziləri isə həmin əsərlərin mənalarının dərinliyinə və genişliyinə önəm vermişlər.

Ümumiyyətlə, bütün yazıçıların yazı üslublarını iki qismə ayırmışlar. Onların bir qisminin ədəbi cəhətdən cümlələrinin quruluşu gözəl olmuş olsa da, mənasına gəldikdə, boş və diqqətçəkici deyildir. Digər bir qismində isə cümlələrin mənasına çox diqqət verilməsinə baxmayaraq, onların zahiri gözəlliyi yoxdur. Amma Quran belə deyildir, onun ayələrinin quruluşu həm zahiri gözəllik, həm də məna baxımından öz dərinliyi və genişliyi ilə seçilir. Həzrət Əli(ə) bu barədə belə buyurur: “Quranın gözəl zahiri və dərin batini vardır.”

İmam Baqir(ə) buyurur: “Quranın batini və dərinliyi vardır ki, onun da (yetmiş) batini və dərinlikləri vardır. Quranın zahiri və gözəlliyi vardır ki, onun da (yetmiş) zahiri və gözəllikləri vardır.”

Heç bir yazıçının, alimin, şairin və ədəbiyyatçının qələmindən belə bir əsər meydana gəlməmişdir. Çünki

Qurani-Kərim hansısa şairin və yaxud ədəbiyyatçının yazdığı bir əsər deyildir. Quranın müəllifi və yazıçısı Allahın Özüdür. Quranın hər bir kəlməsi və hərfi Allahındır. Həzrət Peyğəmbər(s) onu Allah-təala tərəfindən insanlara çatdırmışdır. Hətta Peyğəmbərin(s) də onun bir kəlmə və hərfini azaldıb-çoxaltmağa ixtiyarı yoxdur. Əgər Peyğəmbərə(s) Allah-təala tərəfindən xitab ayələri nazil olursa, həmin xitabları da olduğu kimi söyləməlidir. Məsələn, "De: Ey iman gətirənlər!" xitabı tamamilə Allahın sözləridir. Allah-təala Peyğəmbərə(s) xitab edərək iman gətirənlərə müəyyən sözləri çatdırır. Peyğəmbər(s) də Allahın kəlamını olduğu kimi xitabla ("De" kəlməsi ilə) birgə camaata söyləməlidir. Bu kəlmə Peyğəmbərə(s) xitab olunmasına baxmayaraq, Həzrətin(s) icazəsi yoxdur ki, bu kəlməni həmin ayədən çıxarsın. Peyğəmbər(s) Allahın sözlərini nöqtə-vergülünə qədər tam şəkildə çatdırmalıdır. Peyğəmbər(s) Allahla insanlar arasında bir növ vasitəçidir.

Odur ki, Quranın hər bir ayəsinin həm zahiri gözəlliyi, həm də mənasının dərinliyi vardır. Allah-təala bu müqəddəs kitabda hər bir kəslə öz imkanları səviyyəsində söhbət edir. Quranda ibarələr, işarələr, həqiqətlər və incəliklər vardır. Hər bir insan onun incəliklərini və ya işarələrini bilməz.

كِتَابُ اللَّهِ عَزَّ وَ جَلَّ عَلَى أَرْبَعَةِ أَشْيَاءَ عَلَى الْعِبَارَةِ وَ الْإِشَارَةِ وَ اللَّطَائِفِ وَ الْحَقَائِقِ فَالْعِبَارَةُ لِلْعَوَامِّ وَ الْإِشَارَةُ لِلْخَوَاصِّ وَ اللَّطَائِفُ لِلْأَوْلِيَاءِ وَ الْحَقَائِقُ لِلْأَنْبِيَاءِ

-İmam Səccad(ə) buyurur: "Allahın kitabı dörd hissədən ibarətdir: ibarələr, işarələr, incəlik və

həqiqətlərdən. Onun ibarələri avamlar, işarələri xüsusi insanlar, incəlikləri Allahın dostları və həqiqətləri isə peyğəmbərlər üçündür.

Bu hədisdən başa düşürük ki, Quran müxtəlif insanların hər biri ilə bir cür söhbət edir. Yəni avam insanlar sadəcə olaraq Quranın ibarələrini başa düşərlər. Quranda olan işarələrə gəldikdə isə, bunu yalnız xüsusi insanlar başa düşürlər. Bu işarələri avam insanlar başa düşə bilmirlər. Məsələn, bəzi idarə müdirləri özləri ilə müavinləri arasında bir rəmzi işarə qoyurlar. Odur ki, müdirin yazdığı məktubdan onun müavini hansı işi görəcəyini başa düşür və ona uyğun hərəkət edir. Hətta həmin məktubda xəttin hansı rəngdə olmasının da bir əlaməti olur ki, yalnız onlar özləri bu rəmzləri başa düşürlər. Quranda olan işarələr də Allahla Peyğəmbərin(s) arasında olan rəmzlərdir. Məsələn, "Bəqərə" surəsinin əvvəllərinə diqqət yetirək:

الم. ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

-Əlif, Lam, Mim. Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab pərhizkarlar üçün hidayət mənbəyidir.

Bu ayələrdə "Zalikəl-kitab" və "La rəybə fihi" kəlmələrini açıq-aydın başa düşmək olur. Lakin "Əlif, Lam, Mim"i biz başa düşə bilmirik. Çünki bu Allahla Peyğəmbərin(s) arasında olan işarə və rəmzlərdir. Həmçinin Quranda elə incəliklər vardır ki, yenə də avam insanlar həmin incəlikləri bilmir. Quranın bu incəliklərini Allahın övliyaları bilir və başa düşürlər. Amma Quranın bütün həqiqətlərinə gəldikdə isə, onu da yalnız Peyğəmbər(s) bilir. Yəni Quranın həm ibarələrini, həm işarələrini, həm incəliklərini, həm də həqiqətlərini

Peyğəmbər(s) bilir. Həzrət Peyğəmbər(s) bütün bunların hamısını Həzrət Əliyə(ə) öyrətmişdir. Çünki Həzrət Əli(ə) Allahın yer üzərində olan höccətidir. Allah-təala Peyğəmbərdən(s) sonra onu insanlara imam və höccət təyin etmişdir. Ondan sonra İmam Həsən(ə), ondan sonra İmam Hüseyn(ə) və İmam Hüseynin(ə) sülbündən olan doqquz imamdır ki, sonuncusu Həzrət Mehdidir(ə.c). Həzrət(ə.c) hazırda qeyb pərdəsi arxasında yaşayır və inşallah, zühur edib yer üzünü əmin-amanlıq və ədalətlə təmin edəcəkdir.

Odur ki, Quranın incəliklərini, işarə və həqiqətlərini bilmək üçün Əhli-beytin(ə) ətəyindən möhkəm yapışmaq lazımdır. Çünki Peyğəmbər(s) müsəlmanlara həm Quranı, həm də Əhli-beyti(ə) əmanət olaraq tapşırmışdır. Hər kim Əhli-beyti(ə) Qurandan ayırsa, təkcə ibarələrlə kifayətlənməli olacaqdır. Daha onun incəliklərindən və həqiqətlərindən xəbərdar ola bilməyəcək. Belə olduqda Quranın ibarələrini oxuyub Allah-təalanın istədiyi mənada deyil, özü başa düşdüyü kimi dərk edəcəkdir. Yəni ibarələr eyni ilə yerində qalacaq, amma mənaları isə hər kəsin ağlı kəsdiyi qədər olacaq. Belə olduqda insanlar uçuruma doğru yönələcəklər. Bunun bir çarəsi varsa o da Peyğəmbər(s) və Əhli-beytdir(ə). Quranın mənasını, incəlik və həqiqətlərini onlar bizim üçün açıqlamalıdırlar. Hər kim Əhli-beyti(ə) Qurandan ayırsa, əsl həqiqətdə həmin şəxsin özü Qurandan ayrı düşmüşdür. Hər kəs Əhli-beyti(ə) Qurandan ayırsa, Quran həmin şəxs üçün ərəb ibarələrindən başqa bir şey olmayacaq. Yəni onun ibarələrini oxuyub öz bildiyi kimi təfsir edəcəkdir. Hər kəs Quranı öz bildiyi kimi şərh edib açıqlayarsa, Quranın həqiqətlərindən çox uzağa düşmüş olacaqdır.

Beləcə, görürük ki, Quranın zahirində dörd hissə vardır. Bundan əlavə onun hər bir ayəsinin də dərin və geniş mənaları vardır. Quran elə bir kitabdır ki, onu hər dəfə oxuduqca insana təzə gəlir. Bir ayəni min dəfə oxuduqda və onun barəsində fikirləşdikdə yenə də insan üçün təzə görünür. Çünki Quranın təzəliyi həmişə onun özündədir. Elmi şəkildə onun ayələrinin mənasını öyrənmək istədikdə yeni-yeni mənalar kəşf olunacaq. Hər kəs öz bildiyi kimi Quran ayələrini mənalandırıb onun adına bağlaya bilməz. Heç bir kəsin ixtiyarı yoxdur ki, Quran ayələrini öz bildiyi kimi izah edərək şəxsi fikrini həmin ayələrlə əlaqələndirsin.

Burada yaxşı olar ki, Qurandan bir ayəni oxuyub tərcümə edək və onun mənalarını Əhli-beytin(ə) bizə öyrətdiyi kimi aşkara çıxaraq. Baxaq görək, bir ayədə nə qədər məna ola bilər? Məsələn, Allah-təala “Rəd” surəsinin 17-ci ayəsində belə buyurur:

أَنزَلَ مِنَ السَّمَاء مَاء فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ

-(Allah) göydən (yağış, qar və dolu şəklində) su nazil etdi. Beləliklə çaylar(ın hər biri) öz tutumu miqdarında (su götürərək) axdı və sel öz üzərində köpük apardı. Həmçinin (ocaqlarda) zinət və bəzək əşyaları və ya yaşayış vasitələri əldə etmək məqsədilə üzərində od yandırılan şeydə də (mədənlərin qarışıq torpağında da) selin köpüyü kimi köpük vardır. Allah haqq ilə batili belə misal çəkir (həqiqətlər su və filizlər, batillər isə onların köpükləridir).

Amma o köpük bir kənara gedərək məhv olur, (sular və ərimiş filizlər kimi) insanlara fayda verən şey isə yerdə qalır. Allah misalları belə çəkir.

Bu ayəni oxuduqda ilk baxışdan göydən axan su, çayların köpüklənib daşması, yerin altından çıxan faydalı qazıntılar və s. nəzərə çarpır. Həmçinin Allah-təala haqq ilə batilin su ilə köpüyə oxşadığını bizim üçün misal çəkir. Bu ayənin zahiri quruluşu o qədər gözəldir ki, ərəb ədəbiyyatçıları bunu çox yaxşı bilirlər. Bu ayənin o qədər gözəl fəsahəti, bəlağət və şirinliyi vardır ki, heç bir əsər və yazıda belə şirinlik, belə gözəllik yoxdur. Buna görə də hər hansı ədəbiyyatçı bu ayəni oxuduqda onun quruluşu və gözəlliyi qarşısında baş əyir. Amma bu ayənin dərinliyinə girdikdə bir çox mühüm mətləblər üzə çıxır. Gəlin, ayənin içində olan məna və mətləblərin bir neçəsinə diqqət yetirək:

1. Ayədən istifadə olunan birinci mətləbdə görürük ki, haqqı müdafiə edən insanlar dənizin suyu kimi həmişə qalacaq, batili müdafiə edənlər isə köpük kimi məhv olub aradan gedəcəkdir. Tarixə diqqətlə nəzər yetirdikdə bunun açıq-aydın şahidi oluruq. Tarix boyu nə qədər başkəsən, qatil, nahaq və batil insanlar olmuşdur. Onların hansı biri qala bildi. Onlar bu dünyada ongünlük vəzifəyə, şəhvətlərinə, pul-paraya görə nə qədər cinayətlər törətmiş, nahaq hərəkətlər etmişlər. Bütün bunlara baxmayaraq, sonda onlar məhv olub aradan getdilər. Həzrət Əli(ə) insanları haraya çağıraraq keçmişdə olan əhvalatları və insanların aqibətlərini xatırladaraq buyurur:

وَ إِنَّ لَكُمْ فِى الْقُرُونِ السَّالِفَةِ لَعِبْرَةً! أَيْنَ الْعَمَالِقَةُ وَ أَبْنَاءُ الْعَمَالِقَةِ؟ أَبْنَ الْفَرَاعِنَةُ وَ أَبْنَاءُ الْفَرَاعِنَةِ؟ أَيْنَ أَصْحَابُ مَدَائِنِ الرَّسِّ الَّذِينَ قَتَلُوا

النَّبِيِّينَ، وَ أَطْفَؤُوا سُنَنَ الْمُرْسَلِينَ، وَ أَحْيَوْا سُنَنَ الْجَبَّارِينَ؟ أَيْنَ الَّذِينَ سَارُوا بِالْجُيُوشِ، وَ هَزَمُوا بِالأُلُوفِ، وَ عَسْكَرُوا الْعَسَاكِرَ، وَ مَدَّنُوا الْمَدَائِنَ؟

-Sizin üçün keçən dövrlərdə ibrət vardır *(ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız).* Haradadır Əmaliqə və onların övladları?[1] Haradadır *(Misir şahları olmuş)* fironlar və *(onların heç bir nişanələri qalmamış)* övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini söndürən və zalımların ənənələrini dirildən *(həmin əsasda davranan)* Rəss şəhərlərinin əhalisi?[2] Haradadır o kəslər ki, qoşunlarla hər tərəfə gedərək minlərlə insanı məğlub edirdilər və yaxud ordu toplayaraq şəhərlər tikirdilər?!

Batil insanların zülm və haqqı əzmələrinə baxmayaraq, haqq-ədalət olduğu kimi qaldı, amma özləri məhv olub suyun köpüyü kimi aradan getdilər. Həqiqəti, şərafəti və izzəti müdafiə edənlər həmişə yaşayır və yaşayacaqlar. Çünki onlar özlərini əbədiyyətə qovuşduraraq əbədi insanlar olmuşlar.

2. Ayədə olan ikinci mətləb belədir. Batil elə bir şeydir ki, onun nə xasiyyəti var, nə də faydası. Batil tez

---

[1] Əmaliqə İmliq ibn Lavəz ibn İrəm ibn Sam ibn Nuhun övladlarından ibarət bir dəstə olublar və onlar çox böyük bir var-dövlətlə Yəmən və Hicazda padşahlıq ediblər. Sonralar onların kökü kəsilib.

[2] Rəss böyük bir quyunun adı idi ki, insanlar onun ətrafına toplaşaraq "şah ağac" dedikləri və Yafis ibn Nuhun əkdiyi küknar ağacına ibadət edirdilər. Allah onları məhv etdi.

məhv olub aradan gedər və davamı olmaz. Amma haqq isə həmişə davamlı və bərəkətli olar. Çünki Allah-təala Özü haqqa bərəkət vermişdir. Heç bir vaxt görünməmişdir ki, hansısa ağac və ya gülü köpüklə sulasınlar. Çünki köpüyün davamı və bərəkəti yoxdur. Köpük heç bir kəsi susuzluqdan qurtara bilməz. Doğrudur, uzaqdan köpüyə baxdıqda həcm etibarilə insanın gözünü doyuzdurur. Amma insanların və bütün canlıların həyat mənbəyi köpük yox, suyun özüdür.

3. Ayədəki üçüncü mətləb budur ki, çaylar və dənizlərin hər birinin müəyyən bir tutumu olduğu kimi, hər bir insan da bu dünyadan öz tutumu qədər istifadə edir. Hər kəs daha çox istifadə etmək istəyirsə, mütləq tutumunu genişləndirməlidir. Çünki insan öz tutumundan artığını tuta bilməz. Çox istəyirsə, ilk növbədə tutumunu çoxaltmalıdır. Həzrət Musa(ə) peyğəmbərliyə çatdıqda Allaha belə dua etdi:

رَبِّ اشْرَحْ لِي صَدْرِي. وَيَسِّرْ لِي أَمْرِي. وَاحْلُلْ عُقْدَةً مِّن لِّسَانِي.

يَفْقَهُوا قَوْلِي

-Ey Rəbbim, sinəmi genişləndir. İşimi mənə asanlaşdır. Dilimdən (məqsədin çatdırılmasına mane olan) düyünü aç ki, sözümü başa düşsünlər.[1]

İmamların birinin dövründə bir nəfər Quran ayələrini eşidib həyəcanlandı. Təəccüb və həyəcandan əl atıb köynəyinin yaxasını cırdı. İmam buyurdu: Nə üçün belə edirsən? Köynəyi cırmağın sənə nə faydası dəyəcək? Bu işi görməkdənsə, öz səviyyəni artır.

[1] Taha surəsi, ayə 25-28.

İnsanın hansısa bir hadisədən həyəcanlanıb beş dəqiqəlik qeyri-adi iş görməkdənsə öz səviyyəsini artırması daha xeyirlidir. Həyəcanlanıb hansısa bir işi görmək keçəridir. Yəni bir söz insana təsir edir və onu həyəcanlandırır. Az bir müddətdən sonra həmin həyəcan və təəccüb aradan gedir. Lakin insanın öz səviyyəsini artırması davamlı və faydalıdır. Məsələn, bir insanın səviyyəsi az olduqda Allah kəlamından ona söz açdıqda həm halı dəyişir, həm də həyəcanlanır. Amma bir az keçdikdən və pul-para, naz-nemətlər gördükdən sonra yenə də həmin əvvəlki insandır. Səviyyəsiz insana söz beş dəqiqəlik təsir edir və bir az keçdikdən sonra həmin söz öz təsirini itirir. Sözün və imanın insanın qəlbində həmişə təsirli olması üçün mütləq insan səviyyəsini artırmalıdır. İnsan imandan daha çox bəhrələnmək üçün səviyyəsini genişləndirməlidir.

4. Ayədə olan dördüncü mətləb budur ki, batil rəngdən-rəngə və şəkildən-şəklə düşər. Amma haqq isə həmişə bir rəngdə və bir şəkildə olar. Haqq insan vəziyyətinin yaxşı və pis olmasından asılı olmayaraq, imanı həmişə sabitdir. Batil isə belə deyildir. Batil buqələmun kimi rəngdən-rəngə düşər. Köpüklər tez-tez dəyişib bir şəklə düşür, amma suyun şəkli həmişə bir formadadır.

5. Beşinci mətləbdə bizə öyrədir ki, su ilə köpüyün mübarizəsi daimi olduğu kimi, haqq ilə batil də daim mübarizədədir. Bu mübarizənin sonu haqqın qələbəsi ilə nəticələnir.

6. Ayədən istifadə olunan altıncı mətləb budur ki, əgər haqq olmasaydı, batil insanları özünə inandıra bilməzdi. Yəni batil əgər batil olduğunu insanlara desə, heç bir kəs onu qəbul etməz. İnsanları inandırmaq üçün

batil həmişə haqq donu geyinib özünü haqq kimi göstərərək camaatı inandırmağa çalışır. Deməli, batil özünü haqqın sayəsində üzə çıxarır. Əgər doğru söz olmasaydı, hansı yalançı öz yalanını inandıra bilərdi? Çünki heç bir kəs yalanı və aldanmağı xoşlamır. Əgər batil dünyada yaşayırsa, haqqın sayəsində yaşayır. Batil həmişə özünü haqqa oxşadaraq camaatı aldadıb özünə inandırır. Yalan sözə düzgünlük donu geyindirib camaatı aldadırlar. Əgər düz söz olmasaydı, yalan sözə heç bir kəs inanmazdı.

Qeyd olunan mətləblər ayədə olan məqam və incəliklərdən bəzi nümunələr idi ki, nəzərinizə çatdırdım. Əgər bu ayənin mətləb və dərinlikləri barədə söz açası olsaq, o zaman günlərlə danışmaq olar. Böyük alimlər bu ayə barədə çox geniş söhbətlər açmış və dərin mətləbləri üzə çıxarmışlar. Hətta Quran ayələrini oxuyan qeyri-müsəlman alimlər də onun ayələrinin qarşısında baş əyir, sözlərin gözəlliyinə məftun olur, mənalarının dərinliyi və genişliyində boğulduqlarını iddia edirlər. Həmçinin bildirirlər ki, Quran ayələrinin qarşısında cümlə düzəltmək ədəbsizlikdir. Çünki hər bir ayə həm fəsahət, bəlağət və gözəllik cəhətindən, həm də mənasının dərinliyi və genişliyi baxımından ən mükəmməl formada qurulmuşdur. Onun ayələri qarşısında cümlə düzəltmək mümkün deyil.

Tüfeyl ibn Əmr böyük alim, yazıçı və tanınmış bir şəxsiyyət idi. Günlərin birində o, Məkkəyə gəlmişdi. Müşriklər onun böyük şəxsiyyət olduğunu bilirdilər. Bilirdilər ki, əgər Tüfeyl Peyğəmbərə(s) iman gətirsə, onun qohum-əqrəbası da iman gətirəcəkdir. Bu hal da müşriklər üçün ağır olacaqdır.Tüfeyl deyir: "Mən Məkkəyə gələndə mənə Peyğəmbər(s) barədə o qədər nahaq sözlər danışdılar ki, artıq şəkk-şübhəyə

düşmüşdüm. Onlar mənə dedilər: Məkkədə bir nəfər cadugər peyda olub ki, hər kim onu dinləyirsə, cadu ona təsir edir. Məbada onun sözlərinə inanasan. Yaxşısı budur ki, sən Məkkədə gəzərkən onun sözlərini eşitməmək üçün qulaqlarına pambıq tıxa. Mən Məkkəni gəzərkən və Kəbəni ziyarət edərkən Peyğəmbərin(s) səsini eşitməmək üçün qulaqlarıma pambıq tıxamışdım. Qorxurdum ki, birdən məni də ovsunlamış olar. Kəbəni təvaf edib qurtardıqdan sonra səhərisi gün tezdən yenə də Məscidül-Hərama yollandım. Oraya daxil olanda qulağıma gözəl və şirin, ruh oxşayan ayələrin səsi gəldi. Tez qulaqlarımı əllərimlə tutdum. Sonra bir an dayanıb öz-özümə dedim. Axı sən uşaq deyilsən ki, hər sözün təsiri altına düşəsən. Sən özün alim, yazıçı, şair və neçə-neçə insanın müəllimisən. Sən özün başqalarına elm öyrətdiyin halda necə mümkün ola bilər ki, Peyğəmbərin(s) sözləri səni yoldan çıxarsın? Yaxşısı budur onun sözlərinə qulaq asım və onunla şəxsi söhbət edim. Əgər sözlərində məntiq olmuş olsa nə üçün onun sözlərini qəbul etməməliyəm? Əgər məntiqini qəbul etməsəm, öz məntiq və sözlərimdən ona danışaram. Bunları fikirləşərək qulaqlarımı açıb onun hərəkətlərinə fikir verməyə başladım. Peyğəmbər(s) namazını qılıb qurtardıqdan sonra evinə getdi. Mən də onu izləyirdim. Evə daxil olduqdan sonra onun qapısını döydüm. Peyğəmbər(s) qapını açdıqda dedim: "Bir neçə dəqiqə sənə qonaq olmağa icazə verirsənmi?"

Peyğəmbər(s) ədəb və əxlaq nümunəsi olduğundan məni evə dəvət etdi. Əyləşdikdən sonra mən ona dedim: "Mən Məkkəyə daxil olanda sənin haqqında mənə məlumat verdilər. İlk vaxtlar sənin sözlərini eşitməmək üçün qulaqlarıma pambıq tıxamışdım. Sonradan öz-özümə fikirləşib səninlə söhbət etmək qərarına gəldim." Mən

başıma gələnlərin hamısını Peyğəmbərə(s) danışdıqdan sonra dedim: “Dünən danışdığın sözlər mənə təsir etdi. Bu gün fikirləşdim ki, səninlə şəxsi söhbət edim. Olarmı mənim üçün gətirdiyin din haqqında söhbət edib həmin ayələrdən mənim üçün oxuyasan?” Həzrət Peyğəmbər(s) bir neçə fikrini mənimlə bölüşdü və mənim üçün Qurandan bir neçə ayə oxudu. Mən fikrə qərq olmuşdum. Quran ayələrini Peyğəmbərin(s) dilindən eşitmək mənə çox ləzzət etdi. Mən dedim: “Mən indiyə qədər bu gözəllikdə, belə fəsahətli və bəlağətli sözlər eşitməmişdim. İslamın bu gözəllikdə olan qanunlarını mənə başa saldın. Mən sənin gətirdiyin bu dini qəbul edir və sənə iman gətirirəm. İndi mən nə iş görməliyəm.” Həzrət Peyğəmbər(s) buyurdu: “Kəlmeyi-şəhadətini de.” Mən Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət verib müsəlman oldum.”

Beləcə, Tüfeyl Peyğəmbərdən(s) ayrıldıqdan sonra öz qəbiləsinə qayıtdı. Bütün qəbiləsini Peyğəmbərin(s) gətirdiyi dinlə tanış etdi. Onların hamısı İslamı qəbul edib müsəlman oldular. Tarixi mənbələrdə yazırlar ki, Xeybər müharibəsində Tüfeyl öz qəbiləsindən səksən ailə ilə birlikdə gəlib Peyğəmbəri(s) müdafiə etdi. Yəmamə müharibəsində İslamı müdafiə edərək elə həmin döyüşdə şəhadətə çatdı.[1]

Quranın şirinliyi, cəzbediciliyi və gözəlliyi vardır. Bəzən elə insanlar Quran ayələrinin təsiri altına düşür ki, heç bir kəs həmin insanın dəyişəcəyini güman etmirdi. Tarixdə nə qədər insan Quran ayələrinin təsiri altına

---

[1] Füruqi, Əbədiyyət, səh. 335.

düşərək hidayət olmuş və onların aqibətləri xeyirlə qurtarmışdır.

Füzeyl ibn Ayaz yolkəsən və quldur bir insan idi. Onun peşəsi karvanların qarşısını kəsib soymaq və evlərdən oğurluq etmək idi. Özünün də çox böyük imkanları və mal-dövləti var idi. Bütün bunları quldurluqla əldə etmişdi. Özü üçün böyük bir quldur dəstəsi yaradıb onlara başçılıq edirdi. Bəzən karvanların qarşısını kəsərkən camaatı soyur, bəzi adamları isə öldürürdü. Odur ki, karvan yola çıxarkən onun qorxusundan karvansaralarda gizlənir və tam arxayın olduqdan sonra hərəkət edirdilər.

Gecələrin birində Füzeyl bir evə oğurluğa gedirdi. Divarın üstünə qalxıb bir az orada əyləşdi. Birdən qonşunun səsini eşitdi. Qonşu gecə yarısı namaz qılıb Quran oxumaqla məşğul idi. Füzeyl diqqətlə qulaq asdıqda "Hədid" surəsinin 16-cı ayəsini eşitdi:

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَن تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ

-Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yada salmaq və (Ondan) qorxmağın vaxtı çatmayıb?!

Bu ayə Füzeylin ürəyinə ox kimi sancıldı. Bir az düşünüb dedi: "Bəli, and olsun Allaha ki, indi vaxtı çatıb." Sonra divarın üstündən düşüb geri qayıtdı. Yavaş-yavaş gedib bir karvansaraya girdi. Qaranlıq olduğundan heç kəs onu tanımadı. Birküncdə əyləşdi. Orada bir karvan gecələyirdi. Karvanın adamları bir-biri ilə söhbət edib belə deyirdilər: "Görəsən Füzeylin adamları keçib getdilərmi? Nə yaxşı olardı ki, onlar burada olmasınlar. Biz də rahat-rahat yolumuza davam edərdik." Füzeyl ayağa qalxıb dedi: "Qorxmayın, bundan sonra bütün yollar sizə açıqdır. Daha sizin qarşınızı kəsən olmayacaq. Füzeyl artıq

Allahın bəndəsi oldu. Nə qədər ki, o, azad idi, sizin yollarda azadlığınız yox idi. Lakin bu gecədən Füzeyl qul və yollar sizə azad oldu. Çıxın yollara, bundan sonra sizə dəyib-dolaşan olmayacaq.”

Həmin gündən sonra Füzeyl çapıb-taladığı bütün mal-dövləti sahiblərinə qaytardı. Tanımadığı adamların mallarını isə onların adından şəriət qanunu ilə yerbəyer etdi. Füzeyl həmin gündən sonra Allaha ibadət etməyə başladı. Böyük abid və zahidlərin cərgəsinə qoşuldu. Məkkəyə köçüb ömrünün axırına qədər Kəbənin kənarında yaşadı və aşura günü də dünyasını dəyişdi.

Beləliklə, biz görürük ki, Quranın həm sözlərində, həm də onların mənasında böyük təsirlər vardır. Quran Allahın kəlamıdır. Quranın insan mənəviyyatında və onun hidayət olunmasında böyük rolu vardır. Heç bir kəs Quranın əleyhinə elmi mübarizə apara bilməz. Yəni heç bir kəsdə bu işi görməyə qüdrət yoxdur. Düşmən Quranla elm və məntiq əsasında mübarizədə məğlub olduğunu görüb məntiqi, elmi və ağlı bir kənara qoyaraq müharibəyə, savaşa, qan tökməyə və Qurana inananları zindana salmaq yoluna üstünlük verməyə başladı. Quran isə bütün insanları elmi və məntiqi mübarizəyə dəvət edir. Düşmənlər bu mübarizədə aciz olduqlarını görüb qeyri-elmi və qeyri-məntiqi mübarizə yolunu seçərək İslamı məhv etmək qərarına gəlmişlər. İslam haqq olan dindir. Quran Allah tərəfindən göndərilmiş haqq olan kitabdır. Hər kəs onunla mübarizə aparsa, mütləq və mütləq məğlub olacaq və su köpüyü kimi yox olub aradan gedəcəkdir.

## Quranın möcüzə olmasının əlamət və nişanələri

Qeyd olundu ki, Qurani-Kərim İslam Peyğəmbərinin(s) əbədi möcüzəsidir. Ötən bəhslərimizdə bu barədə müəyyən qədər söhbət etmişik. Bu bəhsimizdə də qeyd olunan məsələlərə əlavə olaraq Quranın möcüzəsinin əlamət və nişanələrindən söz açacağıq. Quran elə bir möcüzədir ki, onun bir çox təsiri, əlamət və nişanları vardır. Nümunə olaraq bir neçəsini nəzərinizə çatdırıram.

**1. Quran ayələrinin həmişə təzə və təravətli olması.**

Quranın möcüzə olmasının əlamətlərindən biri budur ki, onun ayə və kəlmələri həmişə təzə və təravətlidir. Yəni Quran heç bir vaxt öz təravətini itirmir və əksinə olaraq onu oxuduqca insan üçün daha da təzə və təravətli olur. Müxtəlif mövzularda yazılmış kitabları birinci dəfə oxuduqda insana maraqlı və şirin gəlir. Lakin həmin kitabı ikinci dəfə oxuduqda yenə də maraqlı gəlməsinə baxmayaraq, insan birinci dəfə aldığı ləzzəti ala bilmir. Bir kitabı təkrar-təkrar oxuduqca onun şirinliyi azalır və getdikcə öz təravətini və maraqlılığını itirir. Həmçinin gözəl çıxış edən və yaxud gözəl söhbət edən şəxsin söhbətinə bir dəfə qulaq asdıqda insana çox maraqlı və şirin gəlir. İkinci dəfə həmin söhbəti dinlədikdə birinci dəfə olduğu kimi bir o qədər də maraqlı olmur. Amma Quran belə deyildir. Quran tamamilə onların əksinədir. Onu təkrar-təkrar oxuduqca insana daha şirin, daha maraqlı gəlir. İnsan Quran oxuduqca heç bir vaxt onun ləzzətindən doymur. İnsan beyni Quran ayələri barədə düşünməkdən yorulmur. Çünki Quran ayələri həmişə təzə və təravətlidir. Bəzi insanlar ərəb dilini gözəl bilir və Quranı yaxşı oxumaqla yanaşı, mənasını da yaxşı başa düşürlər. Bəzi insanlar ərəb dilini bilməklə yanaşı,

Quranın təfsiri ilə də məşğul olub öyrənirlər. Bəzi insanlar isə sadəcə olaraq ərəb əlifbasını öyrənib Quranı üzündən oxuya bilirlər. Bütün bunlara baxmayaraq, hərə öz səviyyəsində və bacardığı qədər Qurandan bəhrə götürür və onun ruhu qidalanır. Hər bir kəs bacardığı qədər Quran oxuyarsa, ayələr onun üçün daha da təzə və təravətli gələr. Həzrət Əli(ə) bu barədə belə buyurur:

قَالَ عَلِيّ(ع) لا تُخلِقُهُ كِثرَةُ الرَّد وَ وُلُوجُ السَّمع

-Quran hər nə qədər təkrar oxunarsa və ona təkrar qulaq asılarsa, heç bir vaxt köhnəlməz.[1]

قَالَ رَسُول الله(ص): كَلامُ الله غَضٌّ جَدِيدٌ طَرِیٌّ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allahın kəlamı həmişə şirin, təzə və təravətlidir."[2]

Bir nəfər İmam Sadiqdən(ə) soruşdu: "Ey Allahın höccəti, görəsən, bu nə sirdir ki, Quranı nə qədər çox oxuyuruqsa, onun təzəliyi və təravəti bizim üçün daha da çoxalır?"

İmam Sadiq(ə) buyurdu:

لأَنَّ اللّٰهَ تَبَارَكَ وَ تَعَالَى لَمْ يَجْعَلْهُ لِزَمَانٍ دُوْنَ زَمَانٍ، وَ لاَ لِنَاسٍ دُوْنَ نَاسٍ، فَهُوَ فِي كُلِّ زَمَانٍ جَدِيدٌ، وَ عِنْدَ كُلِّ قَوْمٍ غَضٌّ إِلى يَوْمِ الْقِيَامَةِ

-Çünki Allah təbarək və təala Quranı müəyyən bir zamana, müəyyən insanlara aid etməyib. Quran qiyamətə

[1] Mizanül-hikmə, hədis16434.
[2] Müstədrəkül vəsail,4-cü cild, səh.237.

qədər bütün zamanlarda və bütün (qövmlər) insanlar üçün təzədir.[1]

Deməli, görürük ki, Quranın möcüzə olmasının əlamətlərindən biri onun həmişə təzə və təravətli olmasıdır. Zamanından asılı olmayaraq, Quran bütün insanlar üçün təzə və yenidir.

**2. Quran insanın qəlbini sakitləşdirir.**

Quranın möcüzə olmasının ikinci əlaməti budur ki, hər bir kəs onunla ünsiyyətdə olarsa və həmişə onu oxuyarsa, həmin şəxsin qəlbi rahatlaşar. Bu, Quranın təsirlərindən biridir ki, hər kəs onu oxuyursa, qəlbi sakitləşir. Quranın özündə də bu məsələyə işarə olunmuşdur. “Rəd” surəsinin 28-ci ayəsində belə oxuyuruq:

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

-Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır.

Quran Allahın ən mühüm zikrlərindən biridir. Quranın öz adlarından biri “Zikr”dir. İmam Səccad(ə) namaz qılarkən “Həmd” surəsində “Maliki yovmiddin” ayəsini dəfələrlə təkrar edirdi. Bu ayəni o qədər təkrar edərdi ki, az qalırdı ruhu bədənindən çıxsın. Bununla belə, bu ayəni zikr etməkdən doymurdu.

قَالَ الإِمَام السَّجَّاد(ع): لَوْ مَاتَ مَنْ بَيْنَ الْمَشْرِقِ وَ الْمَغْرِبِ لَمَا اسْتَوْحَشْتُ بَعْدَ أَنْ يَكُونَ الْقُرْآنُ مَعِي

---

[1] Mizanül-hikmə, hədis 16435.

-İmam Səccad(ə) buyurmuşdur: “Əgər məşriqlə məğribin arasında olanlar (bütün insanların hamısı) ölüb aradan getsələr belə mən tək qaldığıma görə vəhşətə gəlib qorxmaram. Çünki Quran həmişə mənimlədir.”[1]

İmam Səccad(ə) Quranın mənasını çox gözəl bilirdi. Onun ayələrinin ləzzətini çox yaxşı duyurdu. Həzrət(ə) daim Quranla ünsiyyətdə olduğundan və onunla ürəyi sakit olduğu üçün dünyada tək qalsaydı da belə qorxub nigaran olmazdı.

Mərhum Ayətullah Qumşeyi böyük alim və ariflərdən biri idi. Onun oğlanlarından biri dünyasını dəyişmişdi. O deyir: “Oğlum rəhmətə gedəndən sonra nə vaxt mənim yadıma düşürdüsə, “Kəhf” surəsinin 79-cu ayəsini oxuyurdum. Bu ayəni oxuyan kimi ürəyim sakitləşib rahat olurdu.”

أَمَّا السَّفِينَةُ فَكَانَتْ لِمَسَاكِينَ يَعْمَلُونَ فِي الْبَحْرِ فَأَرَدتُّ أَنْ أَعِيبَهَا وَكَانَ وَرَاءهُم مَّلِكٌ يَأْخُذُ كُلَّ سَفِينَةٍ غَصْبًا

-Gəmiyə gəldikdə, o, dənizdə işləyən yoxsulların idi. Mən onu xarab etmək istədim, çünki onların yolunun üstündə bütün (saz vəziyyətdə olan) gəmiləri zorla ələ keçirən bir padşah var idi.

Bu ayə Həzrət Musa(ə) ilə Həzrət Xızrın(ə) əhvalatını bəyan edir. Bəzi təfsirçilər Xızrın(ə) peyğəmbər, bəziləri isə böyük hikmət sahibi olduğunu yazmışlar. Hər halda o elə bir insan idi ki, Musanın(ə) müəllimi olmuşdur. Onların əhvalatı çox uzundur. Həzrət Musa(ə) onun şagirdiydi və onunla səfərə çıxmaq istəyirdi. Xızr(ə) onunla belə bir şərt kəsdi ki, yolda hər nə

---

[1] Üsuli-Kafi,4-cü cild, səh.403.

hadisə baş verərsə, dinməməli və səbir etməlidir. Musa(ə) onunla razılaşdıqdan sonra yola düşdülər. Yoldakı hadisələrdən biri belə baş verdi. Onlar gəmi ilə başqa bir ölkəyə gedirdilər. Həzrət Xızr(ə) gəminin bir yerini sındırıb deşməyə başladı. Musa(ə) dözməyib soruşdu: "Nə üçün camaatın gəmisini sındırırsan?" Xızr(ə) buyurdu: "Axı səninlə şərt kəsmişdim ki, hər nə etsəm etiraz etməyəcək və səbirli olacaqsan." Həzrət Musa(ə) yolda üç dəfə Xızrın(ə) etdiyi işlərə etirazını bildirdi. Xızr(ə) buyurdu: "Burada bizim yollarımız ayrılacaq. Çünki sənin mənimlə yoldaşlıq etməyə gücün çatmır. Amma ayrılmazdan öncə etdiklərimin sirrini sənə deyəcəyəm. ...Gəminin çatacağı şəhərdə bir zalım padşah var. Əmr verib ki, bütün gəmilərdən çoxlu miqdarda vergi alsınlar. Bizim mindiyimiz gəminin sahibləri isə kasıb adamlardır. Mən gəminin bir tərəfini ona görə sındırdım ki, onun köhnə və sınıq olduğunu görüb vergi almasınlar."

Bu əhvalatın özü böyük bir bəhs və mövzudur. Mərhum Qumşeyi Xızrın(ə) əhvalatı olan bu ayəni oxuduqdan sonra deyir: "Mənim oğlumun dünyadan getməsi Allahın məsləhəti ilədir. Buna görə də hər dəfə oğlum yadıma düşdükdə həmin ayəni oxuyuram və bununla da ürəyim rahatlaşır."

Mərhum Ustad Məhəmməd Tağı Cəfəri İslamın böyük alimlərindən biri idi. O deyir: "Gecələrin birində yuxuda Həzrət Əlini(ə) gördüm. Həzrət(ə) əlində tutduğu bir kasa südü mənə verdi. Mən kasanı onun əlindən alıb içdim. Yuxudan ayıldıqdan sonra özümdə dəyişiklik hiss etdim. Bu hadisənin üstündən az bir müddət keçdikdən sonra böyük ustadların biri ilə rastlaşdım. O, mənə dedi: Səni yuxuda görmüşəm. Gördüm ki, sənin yaşadığın yerdə izdiham var. Bir nəfərdən soruşdum ki, görəsən camaat nə

üçün bura yığışıb? Mənə belə cavab verdi: Bütün bu adamlar Şeyx Məhəmməd Tağı Cəfərinin evindən süd alıb içirlər."

Ustadın yuxusu sanki mənim yuxumu tamamladı. Belə hallar bir neçə dəfə başıma gəldikdən sonra elm öyrənmək mənim üçün asanlaşdı. Allah-təala Həzrət Əlinin(ə) vücudu sayəsində sinəmi elmlə doldurdu. Günlərin birində otaqda tək əyləşib "Nəhcül-bəlağə"nin şərhini yazırdım. Birdən gördüm ki, arxadan çiynimə bir əl qoyuldu. Qorxdum və tez arxaya çevrildim. Arxaya baxanda heç bir kəsi görmədim. Lakin mənə dedi: "Yaz, əllərin ağrımasın." Tez ayağa qalxıb otaqdan çıxdım. Ürəyim elə çırpınırdı ki, sanki ağzımdan çıxıb yerə düşəcəkdi. Bir az gəzişdim, ancaq təsiri olmadı. Süpürgəni götürüb həyəti süpürməyə başladım ki, bəlkə bu hal məndən uzaqlaşsın. Yenə də xeyri olmadı. Dəstəmaz aldım, əl-üzümü yudum, xeyri olmadı ki, olmadı. Birdən yadıma düşdü ki, Quran ürəklərin şəfasıdır. Quranı götürüb oxumağa başladım. Oxuduqca ürəyim də rahatlaşdı. O qədər oxudum ki, əhvalım əvvəlki vəziyyətə qayıtdı. Halım tamamilə düzəldikdən sonra gəlib yazımı davam etdirməyə başladım. Heç özüm də bilmirdim ki, kim deyir və kim yazır. Beləliklə, "Nəhcül-bəlağə"nin şərhini yazıb qurtardım.

Quran elə bir möcüzədir ki, hər kəsin qəlbini rahatlaşdırır. Kimliyindən asılı olmayaraq Qurana iman gətirən hər bir kəs onun ayələrini oxuduqca və eşitdikcə qəlbinə rahatlıq gəlir. Hətta İslam Peyğəmbərinə(s) bütün ayələrin nazil olmasına baxmayaraq, Həzrət(s) özü də Quran eşitməyi çox xoşlayırdı. İbn Abbas deyir: "Günlərin birində Həzrət Peyğəmbər(s) mənə buyurdu: Mənim üçün Quran oxu. Ərz etdim: Ya Rəsulallah, mən oxuyummu?

Halbuki Quran sənə nazil olub və onun ayələrini bütün insanlara sən özün oxuyursan. Peyğəmbər(s) buyurdu: İstəyirəm ki, Quranı başqalarının dilindən eşidim. Mən Quran oxumağa başladım. Peyğəmbər(s) qulaq asdıqca gözlərindən yaş tökülürdü. Sonra buyurdu: Hər kim Allahın kitabının bir ayəsinə qulaq assa, eşitdiyi ayə qiyamət günü həmin şəxs üçün nura çevriləcək."

**3. Quran insanın ruhunu dəyişərək ona azğınlıqdan nicat verir.**

Quranın möcüzə olmasının əlamətlərindən üçüncüsü budur ki, o, insanı dəyişərək onu hidayət edir. Quran ayələri insanın qəlbinə o qədər dərin və güclü təsir göstərir ki, bir anın içində onu əyri yoldan düz yola yönəldir. Yuxarıda qeyd etdiyimiz Füzeyl ibn Ayazın əhvalatı kimi bir çox hadisələr həyatda baş vermişdir. Yəni bircə ayəni eşitməyin nəticəsində qatı bir cinayətkar etdiyi bütün əməllərindən peşman olub doğru yola qayıtmışdır.

Zərr ibn Ceyş deyir: "Kufə məscidində Quranı əvvəldən axıradək Həzrət Əli(ə) üçün oxuyurdum. "Ham-mim"lə başlayan surələrə yetişdikdə Həzrət Əli(ə) buyurardı: "Quranın gəlinlərinə çatmısan." "Şura" surəsinin 22-ci ayəsinə yetişdikdə isə Həzrət(ə) ağladı.

وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فِي رَوْضَاتِ الْجَنَّاتِ لَهُم مَّا يَشَاؤُونَ عِندَ رَبِّهِمْ ذَلِكَ هُوَ الْفَضْلُ الكَبِيرُ

-İman gətirərək yaxşı işlər görmüş kəslər isə cənnətin təravətli bağlarında olacaqlar. Rəbblərinin dərgahında onlar üçün istədikləri şey hazırdır. Bu, həmin böyük lütfdür.

Bu ayəni oxuduqdan sonra Həzrət Əli(ə) ağladı və buyurdu: "Mən burada dua edim, sən də amin de."

Quran elə bir möcüzədir ki, kimliyindən asılı olmayaraq, ona iman gətirənlərin qəlbinə böyük təsir göstərir. İstər peyğəmbər olsun, istər imamlar olsun və istərsə də adi insanlar olsunlar. Camaat gəlib Peyğəmbərin(s) ətrafında əyləşər, Peyğəmbər(s) də onlar üçün Quran ayələri oxuyardı. Onların qəlbləri haldan-hala düşərək hidayət olurdular. Günlərin birində bir ərəb Həzrətin(s) hüzuruna gəlib əyləşdi. Peyğəmbər(s) onun üçün “Zəlzələ” surəsini oxudu.

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ. وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

-Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir.

Ərəb bu surəni dinlədikdən sonra dedi: “Ya Rəsulallah, mənə kifayət edər. Əgər qiyamət günü zərrə qədər də olsa xeyir və şər əməlimin əvəzini görəcəyəmsə, bu, mənə bəs edər.”

O gündən sonra həmin ərəb hey ağlayar və bir yerdə oturmağa qərarı gəlməzdi. Onun belə bir halda olduğunu Peyğəmbərə(s) xəbər verdilər. Peyğəmbər(s) buyurdu: “Onun qəlbi imanla dolduğu üçün bu hala düşmüşdür.”

Əlbəttə, qeyd olunmalıdır ki, Quran ayələri nəinki təkcə insanların, hətta cinlərin də qəlbinə təsir göstərə bilir. Çünki Quran həm də cinlər üçün nazil olmuşdur. Peyğəmbər(s) Quran ayələrini onlar üçün də oxuyardı. Cabir ibn Abdullah deyir: “Peyğəmbər(s) “Ər-Rəhman” surəsini camaat üçün oxudu. Hamı sakit dayanmışdı. Peyğəmbər(s) buyurdu: Cinlər sizdən daha yaxşı cavab verirlər. Cinlər üçün bu ayəni oxuduqda:

فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ

-Belə isə (ey insan və cin tayfaları), Rəbbinizin nemətlərinin hansı birini təkzib və inkar edirsiniz?!

Onlar belə cavab verirdilər:

لا. لا بِشَيئٍ مِن آلَاءِ رَبِّنَا نُكَذِّب

-Təkzib etmirik. Biz Rəbbimizin heç bir nemətini təkzib etmirik.

Bu ayə "Ər-Rəhman" surəsində 31 dəfə təkrar olunmuşdur. Peyğəmbər(s) hər dəfə bu ayəni oxuyanda cinlər Həzrətə(s) cavab verirdilər."

Odur ki, hər bir insan gərək Quran oxumaq üçün vaxt ayırsın. Hər bir kəs bacardığı qədər Quran oxumalıdır. Allah-təala bizi buna görə yaratmışdır. İnsan Allaha ibadət etməlidir. Allah-təala insanı ibadət etmək üçün yaradıb. Heç kim deməsin ki, mənim Quran oxumağa, ibadət etməyə vaxtım yoxdur. Əgər insana vaxt verilibsə, ibadətə görə verilmişdir. İnsan üçün hər nə yaradılıbsa, onun ibadət etməsi üçün yaradılmışdır. Allah-təala insana hörmət edərək ona Quran nazil etmişdir. İnsan da gərək Qurana və Allaha qarşı hörmətsizlik etməsin. Biz Quranı qarşılamalı və onu başımızın üstünə qoymalıyıq. Bunun mənası odur ki, İlahi, Sənin bizim üçün nazil etdiyin kitabı başımızın üstünə qoyub onun ayələrinə əməl edəcəyik. "İsra" surəsinin 107-109-cu ayələrində belə oxuyuruq:

قُلْ آمِنُواْ بِهِ أَوْ لاَ تُؤْمِنُواْ إِنَّ الَّذِينَ أُوتُواْ الْعِلْمَ مِن قَبْلِهِ إِذَا يُتْلَى عَلَيْهِمْ يَخِرُّونَ لِلأَذْقَانِ سُجَّدًا. وَيَقُولُونَ سُبْحَانَ رَبِّنَا إِن كَانَ وَعْدُ رَبِّنَا لَمَفْعُولاً. وَيَخِرُّونَ لِلأَذْقَانِ يَبْكُونَ وَيَزِيدُهُمْ خُشُوعًا

-(Müşriklərə) de: “Bu kitaba iman gətirsəniz də, gətirməsəniz də, şübhəsiz, bu kitab(ın nazil olmasın)dan qabaq elm verilmiş kəslər (öz səmavi kitablarından bu kitabın haqq olduğunu bilirlər və) o, onlara oxunan zaman səcdə edərək üzü üstə düşürlər.” Və deyirlər: “Pakdır bizim Rəbbimiz! Həqiqətən, Rəbbimizin vədi həmişə yerinə yetəndir.” Və (Allahın hüzurunda) ağlayaraq üzü üstə düşürlər və (Quranı eşitmək və başa düşmək) onlarda (qəlblərində olan Allah) xofu və itaətkarlığı artırır.”

Əgər insan Quranın tərcümə və mənasını bilib oxuyarsa, istər-istəməz ürəyi yumşalar və gözləri yaşla dolar. Xüsusilə “Zumər” surəsinin son 6 ayəsini oxuduqda istər-istəməz insana təsir edir. Allah-təala bu ayələrdə belə buyurur:

وَوُفِّيَتْ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ وَهُوَ أَعْلَمُ بِمَا يَفْعَلُونَ. وَسِيقَ الَّذِينَ كَفَرُوا إِلَى جَهَنَّمَ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا فُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ رُسُلٌ مِّنكُمْ يَتْلُونَ عَلَيْكُمْ آيَاتِ رَبِّكُمْ وَيُنذِرُونَكُمْ لِقَاء يَوْمِكُمْ هَذَا قَالُوا بَلَى وَلَكِنْ حَقَّتْ كَلِمَةُ الْعَذَابِ عَلَى الْكَافِرِينَ. قِيلَ ادْخُلُوا أَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا فَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ. وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ. وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي صَدَقَنَا وَعْدَهُ وَأَوْرَثَنَا الْأَرْضَ نَتَبَوَّأُ مِنَ الْجَنَّةِ حَيْثُ نَشَاء فَنِعْمَ أَجْرُ الْعَامِلِينَ. وَتَرَى الْمَلَائِكَةَ حَافِّينَ مِنْ

حَوْلِ الْعَرْشِ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَقُضِيَ بَيْنَهُم بِالْحَقِّ وَقِيلَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

-Hər bir kəsə etdiyi(nin mükafatı) tam şəkildə veriləcək və O (Allah), onların etdiklərini daha yaxşı bilir. Kafirlər dəstə-dəstə cəhənnəmə tərəf sürüklənəcəklər. Nəhayət, ora çatanda onun qapıları açılacaq və gözətçiləri (məzəmmətlə) onlara deyəcəklər: “Məgər sizə özünüzdən (öz cinsinizdən) Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu günün görüşündən qorxudan peyğəmbərlər gəlməmişdi?” Onlar deyərlər: “Bəli, (gəlmişdilər), lakin (biz öz küfr və inadkarlığımıza israr etdik və nəhayət, Allahın) əzab vədi kafirlərə qəti oldu.” Onlara deyilər: “Cəhənnəmin qapılarından əbədi məskunlaşmaq üçün ora daxil olun!” Pis yerdir təkəbbürlülərin yeri! Rəbblərindən qorxanlar (isə) dəstə-dəstə cənnətə tərəf aparılarlar. Nəhayət, ora çatanda onun qapıları (daxil olmaq üçün onların üzünə) açılar. Onun gözətçiləri onlara deyərlər: “Salam olsun sizə! (Həm cism, həm də ruh baxımından) pak oldunuz. Buna görə də əbədi məskunlaşmaq üçün ora daxil olun!” (Cənnət əhli orada məskunlaşdıqdan sonra) deyərlər: “Şükür bizim barəmizdəki vədini gerçəkləşdirən və cənnət yerini irsi olaraq (dini qəbul edəcəkləri təqdirdə bizə şərik olacaq kəslərin payını da) bizə verən Allaha məxsusdur ki, cənnətin istədiyimiz yerində məskən seçirik. Əməl edənlərin mükafatı gözəldir! (Həmin gün) mələkləri Rəbblərinə şükür etməklə birlikdə Onu pak sifətlərlə mədh edən halda Ərşi (haqqın səltənət qərargahı və Onun əmrlərinin verildiyi mərkəzi dairəvi şəkildə) əhatə edən görərsən. Onların (bütün məhşər əhlinin) arasında haqq əsasında hökm çıxarılar (və qiyamət

hadisələri qurtardıqdan sonra) deyilər: “Həmd və şükür aləmlərin Rəbbi olan Allaha məxsusdur!”

Hədislərdə belə nəql olunur ki, Peyğəmbər(s) ətrafında olan möminlər üçün bu ayələri oxudu. Bir-iki nəfər istisna olmaqla, onların hamısı ağladı. Peyğəmbər(s) buyurdu: “Bu ayələr hər kimin ürəyinə təsir göstərirsə, onların qəlbləri imanla doludur.”

Orada ağlamayanlardan biri dedi: “Ya Rəsulallah, mən ayələri eşitdim, lakin ağlaya bilmədim. Mən mömin deyiləmmi?” Peyğəmbər(s) buyurdu: “Səndə iman var, lakin qəlbin hələ də paslıdır. Quran ayələrini eşitdikcə yavaş-yavaş qəlbinin pası təmizlənəcək.”

## Quranın səlisliyi və qətiliyi

Ötən bəhslərimizdə Quranın möcüzə olması haqda lazımi qədər söhbət etmişik. Quran bütün insanları və cinləri elmi və məntiqi mübarizəyə dəvət edərək möcüzə olduğunu sübuta yetirir. Hər kim Qurana və onun möcüzə olmasına inanmırsa, yaxud şəkk-şübhə edirsə, o zaman onun surələrindən birinə bənzər bir surə gətirsin. Quran əbədi möcüzə olduğu üçün qiyamətədək bu iddianı edir və hamını bu mübarizəyə səsləyir. Bir çox insanlar Quranın bu nidasına cavab vermək üçün işə başlamış və sonda məğlubiyyətlə üzləşmişlər. Quran nazil olduğu gündən bu günədək dilindən və millətindən asılı olmayaraq hər bir alim, ədəbiyyatçı və b. insanlar bu dəvət qarşısında aciz qalmışlar. Heç bir kəs indiyədək Quranın surələrindən birinə bənzərini dizəldə bilməmiş və bilməyəcək də. Çünki Quranın özünün xüsusi bir üslubu və qaydası vardır ki, bu, Allahın üslubudur. Quran Allahın kəlamıdır. Əgər Quran Allahın kəlamı olmasaydı, Allah kimi qüdrətli və

qətiyyətli danışa bilməzdi. Buna görə də bütün insanlar Quranın həmin iddiasına cavab verməkdə acizdirlər.

Quranın elə bir xüsusiyyət və üslubu var ki, hamını özünə cəlb edə bilir. Hər bir alim və bilikli insan Quranla ünsiyyət yaratdıqda baxıb görür ki, bu kitabın qarşısında heç bir söz danışmaq belə mümkün deyil. Quranın insanları (elmi və məntiqi mübarizədə) aciz edən üslublarından biri onun səlisliyi və qətiyyətidir. Belə ki, heç bir cümləsində insanı şəkkə salan bir söz yoxdur. Hər bir şeyi tam səlis və açıq şəkildə bəyan edir. Səlislik odur ki, sözü açıq-aydın şəkildə deyir, yəni gizli və başa düşülməyən sözlər yoxdur. Qətiyyətlilik odur ki, sözlərini kəskin və möhkəm deyir.

Bəzən insanlar elə sözlər deyirlər ki, onların bu kimi sözlərində səlislik gözə çarpmır. Yəni həmin sözləri müxtəlif cür yozmaq olur. Məsələn, bir insan gələcəkdə nə olacağını bilmədiyinə görə elə sözlər deyir ki, hər halda pis nəticəsi alınmasın. Amma tutduğu yola imanları olan və bu yolda heç bir şəkk-şübhələri olmayan cəsarətli insanların sözləri həm açıq-aydındır, həm də qətiyyətlidir.

## Quranın andları onun qətiyyətinə dəlildir

İslam Peyğəmbərinə(s) nazil olmuş bu müqəddəs kitabın hər bir ayəsi həm səlis, həm də qətiyyətlidir. Quranın səlisliyinə və qətiyyətinə ən yaxşı və aydın dəlil onun andlarıdır. Bəzən görürük ki, insan öz sözünü sübut etmək üçün and içir. And içməklə tərəf müqabilini onun sözündə şübhə olmadığına inandırmağa çalışır. Qurana onsuz da heç bir şübhə yoxdur. Lakin bu kitabda sözü daha da inandırıcı etmək və ona şübhə olmadığını başa salmaq üçün müxtəlif andlara rast gəlirik.

Fəxri Razi Əhli-sünnənin ən görkəmli və böyük alimlərindən biridir. Onun Qurana yazdığı böyük bir təfsir kitabı vardır. Həmin kitabda həqiqətən də gözəl mətləblər mövcuddur. O, Qurandan istifadə edərək bu mövzuda belə yazır: "Allah Öz Peyğəmbərini(s) insanları hidayət etmək üçün haqq olan dinlə göndərmişdir. Hər nəyi məsləhət görmüşdüsə, ona bəxş etdi və layiqsiz, uyğun olmayan şeyləri ondan uzaqlaşdırdı. Allah-təala ona hikmət (açıq-aydın dəlillər) əta etdi. Allah- təala insanların ürəyini yumşaltmaq üçün ona təsirli nəfəs və təsirli moizəetmə qabiliyyəti bəxş etdi. (Peyğəmbərin(s) sözləri ürəyində qərəzçiliyi olmayan, fikri təmiz və ağlı başında olan hər bir insanın qəlbinə nüfuz edərək onu öz təsiri altına alırdı.) Allah Öz Peyğəmbərinə(s) hər bir kəslə gözəl söhbət etmək qüdrətini əta etmişdi. Amma bütün bunlara baxmayaraq, ola bilər ki, onun sözləri yenə də bəzilərinə təsir etmək gücündə olmasın. Yəni ola bilər ki, bəziləri bu sözlərə inanmaq üçün daha möhkəm dəlil və sübutlara ehtiyac duysun. Buna görə də bəzi yerlərdə Allah-təala and içərək sözlərinin qətiyyətini nümayiş etdirmək istəyir.

## Quranın andlarına bir baxış

Qurani-Kərimi oxuyarkən müxtəlif yerlərdə bəzi andlara rast gəlirik. Burada yaxşı olar ki, həmin andlar haqqında da müəyyən qədər söz açaq. Ümumiyyətlə, Quranda üç qisim andlarla rastlaşırıq:

1. Allahın andlarından bir qismi Öz zatına and içməsidir. Buradan məlum olur ki, Allah-təalanın Öz zatına and içməsi çox mühüm məsələdir. Məsələn, "Hicr" surəsinin 92-ci ayəsində belə oxuyuruq:

فَوَرَبِّكَ لَنَسْأَلَنَّهُمْ أَجْمَعِيْنَ

-Buna görə də sənin Rəbbinə and olsun ki, şübhəsiz (qiyamət günü) onların hamısını sorğu-suala tutacağıq.

2. Quranda olan andların ikinci qismi Allah-təalanın Öz yaratdıqlarına and içməsidir. Məsələn, "Nəcm" surəsində belə oxuyuruq:

وَالنَّجْمِ إِذَا هَوَى

-And olsun çıxmaqda və batmaqda olan ulduza.

3. Üçüncü and isə Allahın Öz əməlinə və hərəkətinə and içməsidir. Məsələn, “Şəms” surəsinin 5-6-cı ayələrində belə oxuyuruq:

وَالسَّمَاءِ وَمَا بَنَاهَا. وَالْأَرْضِ وَمَا طَحَاهَا

-And olsun göyə və onu bina edən (O qüdrətli varlığa, vücuda), And olsun bu yerə və onu döşəyənə (O qüdrət sahibinə).

Ayəyə diqqət yetirdikdə görürük ki, bu ayədə Allah-təala həm göyə (yaratdığına), həm də onu bina etməyə and içir. Göyü yaratmağın və yeri döşəməyin özü bir qüdrət olduğu üçün Allah-təala onlara and içir. Deməli, Allahın yerə and içməsi ikinci qisim, onun döşənməsinə and içməsi isə üçüncü qisim anddır. Bunların hamısından ən mühümü Allahın Özünə and içməsidir. Quranı əvvəldən axıradək diqqətlə oxuduqda cəmi yeddi yerdə Allahın Öz zatına and içməsinin şahidi oluruq. Hədislərdə belə nəql olunur ki, Allahın Öz zatına and içdiyi ayələr nazil olduqda möminlərin ürəkləri titrəyər və qorxuya düşərdilər. Deməli, burada daha çox mühüm bir məsələ vardır ki, Allah-təala Özünə and içir. Burada çox yaxşı olar ki, həmin andlara diqqət yetirək.

## ALLAHIN BİRİNCİ QİSİM ANDLARI
## (Allahın Öz zatına içdiyi andlar)

### 1. Allaha iftira atanlar barədə Allahın andı

Qeyd olunduğu kimi, Allah-təala Quranda yeddi yerdə Öz zatına and içmişdir. O yerlərdən biri bəzilərinin Allaha iftira atdıqları zamandır. Yəni bəziləri Allaha iftira ataraq mələklərin Onun qızları olduğunu iddia edirdilər. Onlar belə bir iftira atanda Allah-təala onları hədələyərək ölüm zamanı, qəbirdə və qiyamət meydanında mühakiməyə çəkəcəyini bildirir. "Nəhl" surəsinin 56-cı ayəsində belə buyurur:

تَاللّهِ لَتُسْأَلُنَّ عَمَّا كُنتُمْ تَفْتَرُونَ

-Allaha and olsun ki, (qiyamət günü) iftira etdiyiniz şey barəsində sorğu-sual ediləcəksiniz.

### 2. Şeytanı özlərinə rəhbər seçənlər barədə Allahın andı

Allahın vilayətini bir kənara qoyub şeytanın ağalığını və vilayətini qəbul edən insanlar barəsində Allah-təala Öz zatına and içir. Yəni Allah şeytanı özlərinə başçı bilən insanlara əzab verəcəyinə and içir. "Bəqərə" surəsinin 257-ci ayəsində belə buyurulur:

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ

-Allah iman gətirənlərin dostu və başçısıdır. Onları (nadanlıq, küfr və itaətsizlik) qaranlıqlar(ın)dan (elm, iman və təqva) nur(un)a tərəf çıxarır. Kafir olanların

başçıları isə azğın və itaətsizlərdir ki, onları (hidayət) nur(un)dan (azğınlıq) zülmətlər(in)ə tərəf çıxarırlar. Onlar cəhənnəm əhlidirlər və orada əbədi qalacaqlar.

Bu ayədə Allah-təala Özünün və şeytanın vilayətindən söz açır. Hər kəs Allahın vilayətini qəbul edirsə, onlar mömin, hər kəs şeytanın vilayətini seçirsə, kafir və cəhənnəm əhlidirlər. Hər kəs şeytanın başçılığını qəbul edərsə, cəhənnəm əhlindən olacaqdır. Allah-təala "Nəhl" surəsinin 63-cü ayəsində belə insanlar barədə buyurur:

تَاللّهِ لَقَدْ أَرْسَلْنَا إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَهُوَ وَلِيُّهُمُ الْيَوْمَ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Allaha and olsun ki, (yəhudilər, xaçpərəstlər və başqaları kimi) səndən qabaqkı ümmətlərə (də peyğəmbərlər) göndərmişdik. Şeytan onların (puç və batil) işlərini onlar üçün zinətləndirdi və o, bu gün də onların (və digər kafirlərin və müşriklərin) yardımçı və başçısıdır. Onlar üçün ağrılı bir əzab vardır.

Burada qeyd etməliyəm ki, şeytanın vilayəti və başçılığı iki cürdür. Biri budur ki, insan Allahı özünə vəli və başçı bilir, amma hərdənbir şeytana da aldanır. Məsələn, namaz qılan, oruc tutan, xüms verən, digər vacib əməlləri yerinə yetirib pis işlərdən çəkinən və Allahı başı üzərində nəzarətçi bilən bir insan bəzən şeytanın tələsinə düşüb aldanır. Sonradan günah iş gördüyünü başa düşüb tez tövbə edir. Allahın bu andı hərdənbir şeytanın hiyləsinə aldanıb günah edən insana şamil edilmir. Allahın cəhənnəm vədi verib barələrində Öz zatına and içdiyi insanlar o kəslərdir ki, şeytanı bütünlüklə özlərinə rəhbər və başçı bilirlər. Bu, o insanlar barəsindədir ki, Allaha

qətiyyən imanları yoxdur. Onlar bu dünyada digər canlılar kimi ibadətsiz, itaətsiz və gecə-gündüz günah içində yaşayırlar. Onlar ibadəti, Allaha itaəti, qiyamət günü dirilib məhşərə gəlməyi, cənnət və cəhənnəmi boş söhbətlər bilirlər. Onlar Allaha ibadət edənləri dəli, fanatik, səfeh insanlar hesab edir və bu həyatda öz bildikləri və istədikləri kimi yaşayırlar. Bu adamlar o kəslərdir ki, Allah onların barəsində and içir və onlara cəhənnəm əzabı vədi verir.

### 3. Peyğəmbərin(s) vilayətini qəbul etməyənlər barədə Allahın andı

Allahın Quranda and içdiyi yerlərdən biri Peyğəmbərin(s) vilayət və başçılığını qəbul etməyənlər barəsindədir. İslam Peyğəmbəri(s) bütün müsəlmanların hamısına özlərindən daha çox səlahiyyəti vardır. “Əhzab” surəsinin 6-cı ayəsində belə buyurulur:

النَّبِيُّ أَوْلَى بِالْمُؤْمِنِينَ مِنْ أَنفُسِهِمْ

-Peyğəmbər möminlərə özlərindən daha çox layiqdir.

Peyğəmbər(s) müsəlmanlara özlərindən daha çox səlahiyyətlidir. Hər bir müsəlmanın barəsində nə istəsə, onu da edə bilər. Hər bir insanın öz-özünə nə qədər vilayət və ixtiyarı varsa, Peyğəmbərin(s) hər bir müsəlmana vilayət və ixtiyarı onun vilayətindən daha çoxdur. Yəni Peyğəmbərin(s) vilayəti bütün müsəlmanlara mütləq şəkildədir. İstər ictimai, istər fərdi, istər xüsusi, istər ümumi, istərsə də hüquqi məsələlərdə Peyğəmbərin(s) istəyi bütün müsəlmanların istəyindən üstündür. Məsələn, əgər iki nəfər arasında ixtilaf baş verirsə, onlar mühakimə məqsədilə Peyğəmbərin(s) hüzuruna gedirlər. Peyğəmbər(s) onların barəsində hər nə buyursa, onu da

qəbul etməlidirlər. Bir daha qeyd etməliyəm ki, bu, təkcə mühakimə məsələsində yox, bütün digər məsələlərdə də belədir. Peyğəmbərin(s) sözü hər bir baxımdan möminlər üçün höccətdir. Hər bir kəs Allahın Peyğəmbərinin(s) sözlərini qəbul etməsə və itaətsizlik göstərsə, açıq-aydın zəlalətə düşmüş olacaqdır. Allah-təala "Əhzab" surəsinin 36-cı ayəsində belə buyurur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا

-Və heç bir mömin kişiyə və mömin qadına yaraşmaz və caiz deyildir ki, Allah və Onun Rəsulu (onların barəsində) bir fərman verdikdə, onların öz işlərində ixtiyar sahibi olsunlar. Və kim Allaha və Onun Rəsuluna itaətsizlik etsə (asi olsa), şübhəsiz açıq-aşkar azğınlığa düşmüşdür.

Bu ayədən açıq-aydın görürük ki, Peyğəmbər(s) əmr verdikdə, bir söz buyurduqda, kimisə başçı təyin etdikdə, qanun qoyduqda ona qarşı etiraz edib itaətsizlik göstərən kəs zəlalətə düşmüş və yolunu azmışdır. Özü də elə aydın bir zəlalətə düşmüşdür ki, dəlil və sübuta da ehtiyac yoxdur.

Burada qeyd olunmalıdır ki, insan imanın ən yüksək mərhələsinə o vaxt yüksələ bilər ki, öz zatını Allahın və Peyğəmbərin(s) zatına qurban etmiş olsun. İnsan mənəviyyat aləmində o zaman yüksək məqamlara yüksələ bilər ki, öz eşqini Allahın və Peyğəmbərin(s) eşqinə qurban vermiş olsun. İman o zaman iman sayılar ki, insan özünü Allaha və Onun Rəsuluna(s) qurban etsin. Bu barədə həm Quran ayələrinə, həm də bir çox hədislərə rast

gəlmək olur. Nümunə üçün həmin hədislərdən birinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): فَوَالَّذِي نَفْسِي بِيَدِهِ لاَ يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى أَكُونَ أَحَبَّ إِلَيْهِ مِنْ نَفسِهِ وَ مَالِه وَلَدِهِ وَالنَّاسِ أَجْمَعِينَ

-Həzrət Peyğəmbər(s) buyurur: "And olsun o kəsə ki, canım Onun əlindədir, sizlərdən hər hansı biriniz məni özündən, mal-dövlətindən, övladınından və bütün insanlardan çox istəməyincə, iman gətirməmişdir."[1]

Bu hədisdən görürük ki, Allaha və Peyğəmbərə(s) iman gətirən hər bir kəs onları özündən, övladlarından, mal-dövlətindən və hamıdan çox sevməlidir. Hər kim əgər başqasını Peyğəmbərdən(s) çox istəsə, imanı yox dərəcəsindədir. Nəticədə görürük ki, iman o zaman iman sayılır ki, insan Peyğəmbəri(s) öz canından, malından, övladından və hər şeydən çox sevsin. Başqa bir hədisdə belə oxuyuruq:

قَالَ رَسُولُ اللهِ(ص): لاَ يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى يَكُونَ هَوَاهُ تَبَعًا لِمَا جِئتُ بِه

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizlərdən hər hansı biriniz mənim gətirdiklərimə (din və şəriətə) tabe olmayınca (əməl etməyincə), iman gətirməmişdir."[2]

Bu hədisdən də görürük ki, hər kəs Peyğəmbərin(s) şəriətinə tabe olmursa, deməli imanı yoxdur. Çünki Peyğəmbər(s) həm məsum, həm də Allahın yer üzündəki

---

[1] Təfsiri-nümunə,17-ci cild, səh.203.
[2] Təfsiri-nümunə,17-ci cild, səh.203.

nümayəndəsidir. Onun bütün danışıqlarının hamısı Allahın buyurduqlarıdır. “Nəcm” surəsinin 3-4-cü ayələrində belə buyurulur:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

-O, əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (yuxarı aləmdən) ona ilham olunan vəhydir.

Peyğəmbərin(s) bütün söylədiklərinin hamısı Allahın buyurduqlarıdır. Həzrət(s) heç bir vaxt öz nəfsi istəkləri ilə söz demir. Buna görə də onun bütün sözlərinə qulaq asmaq və əmrlərinə itaət etmək hər bir müsəlmana vacibdir. Allah-təala “Həşr” surəsinin 7-ci ayəsində belə buyurur:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

-Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif və malları) götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.

“Ali-İmran” surəsinin 31-ci ayəsində belə buyurulur:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

-De: “Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayan və mehribandır.”

Qeyd olunan ayələrdən açıq-aydın görürük ki, Allah-təala Öz itaətini Peyğəmbərin(s) itaətinə bağlamışdır. Hər kim Peyğəmbərə(s) itaət edərsə, Allaha itaət etmiş olur. Hər kəs Peyğəmbərin(s) sözlərinə qulaq asıb ona itaət edərsə, həqiqətdə Allahın sözlərinə itaət etmişdir. Hər kəs

Allahı sevirsə, o zaman Peyğəmbərinə(s) də itaət etməlidir. Peyğəmbərə(s) itaət etmək insanın öz xeyrinədir. Peyğəmbərə(s) itaət etmək insanın öz xoşbəxtliyinə səbəb olar. “Ənfal” surəsinin 24-cü ayəsində belə oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ

-Ey iman gətirənlər, sizi sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin.

Odur ki, hər kəs Peyğəmbərin(s) vilayətini qəbul etmirsə, onun əmrlərinin qarşısında itaət etmirsə, deməli Allaha və Peyğəmbərə(s) iman gətirməmişdir. “Nisa” surəsinin 65-ci ayəsində belə buyurulur:

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا

-Amma belə deyildir (onların imanları yoxdur). Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər.

**4. Məadı inkar edənlər barədə Allahın andı**

Quranda Allahın Öz zatına içdiyi andlardan biri qiyamət və məadı inkar edib yalan sayanlar barəsindədir. Məad odur ki, insan bu dünyada ona verilən ömür və özünün qazandığı ömrü axıra çatdıqdan sonra dünyasını dəyişib başqa bir aləmə köçür. Allah-təala hər bir insana müəyyən qədər ömür payı vermişdir. İnsan öz əməlləri ilə ona verilən ömrü azaldıb çoxalda bilər. Yəni Allah-təala

insana ömrünü azaldıb çoxaltma ixtiyarını vermişdir. Bəzi əməllər vardır ki, insan onların vasitəsi ilə ömrünü uzada, bəzi əməllərin vasitəsilə isə ömrünü qısalda bilər. Hər halda əvvəl-axır bu ömür axıra çatdıqdan sonra insan dünyasını dəyişməlidir.

İnsan dünyasını dəyişdikdən sonra başqa bir dünyaya qədəm qoyur. İnsan heç bir vaxt yox olub aradan getmir. Bütün alimlər bu qənaətə gəlmişlər ki, yaranan hər bir şey heç vaxt yox olub getmir. Sadəcə olaraq bir haldan başqa bir hala düşür. İnsan dünyasını dəyişdikdən sonra onun ruhu bərzəx aləminə aparılır. Qiyamət gününə qədər orada gözləmək məcburiyyətində qalır. Qiyamət günü Allahın əmri ilə bütün yaradılış öz məcrasından çıxıb dağılacaq və qiyamət səhnəsi hazırlanacaqdır. Bu səhnənin adına məhşər deyilir. Allah-təala bütün insanların hamısını dirildərək hesab-kitab üçün həmin səhnəyə gətirəcəkdir. İnsanın əməllərini qeydə alan mələklərin kitabı əsasında insanlar sorğu-sual ediləcək və əməlləri tərəzilərə qoyulacaq. Orada hər bir insanın qiyməti müəyyənləşdirildikdən sonra kimisi cənnətə, kimisi isə cəhənnəmə aparılacaq. İnsanın öləndən sonra dirilməsinə məad deyilir. Yəni insanlar öldükdən sonra mütləq dirilməli və etdiyi əməlləri barədə hesab-kitab olunmalıdır. Bəzi insanlar məada şübhə ilə yanaşır, öləndən sonra diriləcəyini və qiyamət gününün baş verəcəyini inkar edirlər. Allah-təala “Məryəm” surəsinin 66-cı ayəsində həmin insanların dediyi sözləri belə bəyan edir:

وَيَقُولُ الْإِنسَانُ أَئِذَا مَا مِتُّ لَسَوْفَ أُخْرَجُ حَيًّا

-(Məadı inkar edən) insan həmişə “mən öləndə(n sonra) doğrudanmı tezliklə (torpağın altından) diri(ldilərək) çıxarılacağam?!” deyir.

Sonra həmin surənin 68-ci ayəsində onlara cavab verərək Öz zatına and içir. Bu ayədə onlara xitab edərək məsələnin daha ciddi və mühüm olduğunu bütün insanlara eşitdirir.

فَوَرَبِّكَ لَنَحْشُرَنَّهُمْ وَالشَّيَاطِينَ ثُمَّ لَنُحْضِرَنَّهُمْ حَوْلَ جَهَنَّمَ جِثِيًّا

-Buna görə də and olsun Rəbbinə ki, şübhəsiz, onları şeytanları ilə (birlikdə məhşər səhnəsinə) toplayacaq, sonra isə (əzabın çoxluğundan) diz çökdükləri halda dəstə-dəstə cəhənnəmin dövrəsinə gətirəcəyik.

Hədislərdə belə nəql olunur ki, qiyamət günü kafirləri (onları yoldan çıxardan) şeytanları ilə birlikdə məhşər ayağına gətirəcəklər. Onların hamısını oddan olan zəncirlə bağlayıb cəhənnəmə atacaqlar. O zaman qiyamətin, cənnət və cəhənnəmin haqq olduğuna inanacaqlar. Belə olduğunu görüb çox peşman olacaq və “kaş dünyada torpaq olaydıq” deyə arzu edəcəklər. “Nəbə” surəsinin 40-cı ayəsində belə oxuyuruq:

إِنَّا أَنذَرْنَاكُمْ عَذَابًا قَرِيبًا يَوْمَ يَنظُرُ الْمَرْءُ مَا قَدَّمَتْ يَدَاهُ وَيَقُولُ الْكَافِرُ يَا لَيْتَنِي كُنتُ تُرَابًا

-Həqiqətən, Biz sizi yaxın olan əzabla qorxutduq. Elə bir gün(lə) ki, (o gün) hər kəs öz əlləri ilə öncədən göndərdiklərinə baxar, kafir deyər: “Kaş ki, torpaq olaydım.”

Onlar dünyada yaşayarkən peyğəmbərlərə inanmaz, qiyamətin baş verəcəyini inkar edər və öz bildikləri kimi həyat sürərdilər. Onlar üçün Allahın kəlamından

danışdıqda təkzib edərək boş sözlər kimi qəbul edərdilər. Orada çox peşman olacaqlar. Lakin bütün bu peşmançılığın onlara heç bir faydası olmayacaq. “Mülk” surəsinin 8-10-cu ayələrində bu insanlar barəsində belə oxuyuruq:

كُلَّمَا أُلْقِيَ فِيهَا فَوْجٌ سَأَلَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ نَذِيرٌ. قَالُوا بَلَى قَدْ جَاءنَا نَذِيرٌ فَكَذَّبْنَا وَقُلْنَا مَا نَزَّلَ اللَّهُ مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلَّا فِي ضَلَالٍ كَبِيرٍ. وَقَالُوا لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ مَا كُنَّا فِي أَصْحَابِ السَّعِيرِ

-Hər hansı bir dəstə oraya atıldıqları zaman gözətçilər onlardan soruşarlar: “Məgər (dünyada) sizə bir qorxudan (peyğəmbər) gəlməmişdimi?” Deyərlər: “Bəli, şübhəsiz, bizə (Allah tərəfindən) bir qorxudan gəlmişdi, lakin biz onu təkzib etdik və dedik: Allah heç bir şey nazil etməmişdir. Siz ancaq böyük bir azğınlıq içindəsiniz.” Və deyərlər: “Əgər Biz (həqiqətən,) eşitsəydik, ya düşünsəydik, əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”

Onlar cəhənnəmə düşdükdən sonra başa düşəcəklər ki, Allah tərəfindən göndərilən peyğəmbərlər, qiyamət, cənnət və cəhənnəm haqq imiş. Orada etiraf edəcəklər ki, dünyada bizim ağlımız olmayıb. Əgər ağlımız olsaydı və bu barədə düşünsəydik, hazırda belə bir vəziyyətdə qalmazdıq. Onlar dünyada başa düşməyən uşaqlar kimi idilər. Onlara nə qədər başa salırdılar, yenə də xeyri olmurdu. Elə öz bildiklərini edər və bu yolu da tutub gedərdilər. Kiçik bir uşağa bir şeyin yaxşı və ya pis olduğunu başa saldıqda anlamır. Milçək insanı narahat etdiyi kimi, öz bildiyini edir. Necə ki, milçək insanın əlinə və yaxud üzünə qonduqda onu qovursan, lakin o, yenə də

gəlib həmin yerə qonur. Uşaq da eynilə belədir. Onu bir şeydən uzaqlaşdırdıqda anlamır və yenə də ona tərəf gedir. Uşaq aclığını, susuzluğunu başa düşür, lakin ağlı olmadığı üçün öz xeyir və şərini bilmir. Ona nə qədər başa salsalar, yenə də başa düşmür. Böyüdükcə və ağıllaşdıqca yavaş-yavaş hər şeyi başa düşüb anlaya bilir. Nə qədər ağıllaşdıqca bir o qədər də xeyir və ziyanını anlayır. Odur ki, cəhənnəmə düşən insanlar deyəcəklər: “Əgər bizim ağlımız olsaydı, indi bu vəziyyətə düşməzdik. Biz dünyada yalnız gördüklərimizə inanır, qiyamətdən, cənnət və cəhənnəmdən danışanları ələ salardıq. Biz bütün bunları inkar edib öləndən sonra diriləcəyimizə inanmırdıq.”

Belə insanlar qiyamət günü çox peşman olacaq və təəssüflənəcəklər. Dünyada Allahın dininə, Peyğəmbərə(s), Əhli-beytə(ə) və insanlara zülm etdiklərinə görə və onları yoldan azdıran insanlarla dost olduqlarına görə çox peşman olacaqlar. “Furqan” surəsinin 27-28-ci ayələrində belə oxuyuruq:

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلاً. يَا وَيْلَتَى لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلاَنًا خَلِيلاً

-Və (yada sal) o gün(ü) ki, zalım öz əllərinin arxasını çeynəyərək deyəcək: “Kaş peyğəmbərlə birlikdə (mən də Allaha tərəf gedərək) bir yol tutaydım.” “Vay olsun mənə! Kaş (mənim azmağıma səbəb olan) filankəsi (özümə) dost tutmayaydım.”

Belə olduqda dünyada etdikləri zülmlərə və pis işlərə görə Allahdan üzr istəməyə başlayarlar. Lakin onların heç bir üzrü qəbul olunmayacaq. Allah-təala “Ğafir” surəsinin 52-ci ayəsində onlara cavab verərək belə buyurur:

يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ وَلَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

-(Həmin) o gün(də) ki, zalımlara üzrxahlıqları fayda verməyəcəkdir. Onlar üçündür (Allahın) lənət(i) və onlar üçündür xoşagəlməz ev!

**5. Allah kafirləri aradan aparmağa və onların yerinə saleh insanları gətirməyə qadirdir**

Allahın Quranda Özünə and içdiyi məqamlardan biri müşriklərin barəsindədir ki, onlar məadı inkar etməklə yanaşı, həm də iddia edirdilər ki, əgər birdən məad olmuş olsa belə bizim vəziyyətimiz möminlərin vəziyyətindən daha yaxşı olacaq.

Həzrət Peyğəmbər(s) Məkkədə müsəlmanlara məada dair ayələrdən oxuyurdu. Kafirlər və müşriklər bu ayələri eşitdikdən sonra Peyğəmbərin(s) yanına gəlib həyasızcasına dedilər: “Əgər birdən qiyamət və məad olmuş olsa, orada da bizim vəziyyətimiz dünyada olduğu kimi, sənə iman gətirənlərin vəziyyətindən yaxşı olacaq.

Onlar elə insanlardır ki, dünyada hər bir işi pul hesabına əmələ gətirdiklərinə görə belə başa düşürlər ki, qiyamət günündə də pulları ilə hansısa işi düzəldə biləcəklər. Onlar bu dünyada pul və malları ilə o qədər insanın haqqını ayaq altına atıb, batili üzə çıxarmışlar ki, qiyamət günü aləmin çarxının bunların əli ilə dövr edəcəyini düşünürlər. Onlar yüksək vəzifələr əldə etməklə, mal-dövlət toplamaqla dünyada bəzi işləri görə bildikləri üçün qiyamətə və məada inanmırlar. İnanmırlar ki, bu dünyada etdikləri hərəkətlərə görə qiyamətdə zəlil vəziyyətdə qalacaqlar. Əgər qiyamətə inanmış olsalar, yenə də elə başa düşürlər ki, orada da pulları ilə istədiklərini edə və hər bir vəziyyətdən çıxa biləcəklər.

Allah-təala “Məaric” surəsinin 40-cı ayəsində and içərək onların barəsində belə buyurur:

فَلَا أُقْسِمُ بِرَبِّ الْمَشَارِقِ وَالْمَغَارِبِ إِنَّا لَقَادِرُونَ. عَلَى أَن نُّبَدِّلَ خَيْرًا مِّنْهُمْ

-And olsun məşriqlərin və məğriblərin Rəbbinə ki, həqiqətən, Biz onların yerinə onlardan daha yaxşısını gətirməyə qadirik.

Əlbəttə, burada qeyd etmək lazımdır ki, Allahın andlarında da bəzi incəliklər vardır. Onları başa düşmək üçün xüsusi dərslər keçmək lazımdır. Bəzən Allah-təala “Sənin Rəbbinə”, bəzən “Məşriqlərin və məğriblərin Rəbbinə”, və s. kimi andlar içir. Əsl həqiqətdə bunların hamısı Onun Özüdür ki, hər birində xüsusi incəlik və elmi mətləblər vardır.

Odur ki, Allah-təala onların cavabında Peyğəmbərə(s) buyurur: “And olsun məşriqlərin və məğriblərin Rəbbinə ki, həqiqətən, Biz onların yerinə onlardan daha yaxşısını gətirməyə qadirik.”

Allah-təala onların belə iddia etmələrinə görə onları elə həmin an yox edib cəzalandırmağa qadirdir. Amma Allah-təala camaatın tərbiyə olunması üçün onlarla belə danışmağı məsləhət bilir. Onlar elə təsəvvür etməsinlər ki, Allah onlarla acizlik üzündən belə danışır. Əgər Allah istəsə, onların hamısını bir anın içində məhv edər və onların yerinə saleh və yaxşı bəndələr yaradar.

### 6. Qiyamət günü insanın sorğu-sual olunacağı haqda Allahın andı

Allahın Quranda Özünə and içdiyi məqamlardən biri qiyamət gününün sorğu-sualı barədədir. Yəni Allah-təala

qiyamət günü bütün insanları sorğu-suala çəkəcəyinə and içir. İnsan bu dünyada hər nə iş görübsə, qiyamət günü onların hesab-kitabını verəcəkdir. Heç kəs təsəvvür etməsin ki, bu dünyada əbəs yerə yaradılıb. Heç kəs elə düşünməsin ki, bu dünyada istədiyini edə bilər və axıra qədər də belə olacaqdır. Nə qədər ki, insan nəfəs alır, ixtiyarı da öz əlindədir. Nəfəsi kəsildikdən sonra bütün ixtiyarlar əlindən alınacaq. İnsanın ixtiyarı əlindən çıxdıqdan sonra isə digər ixtiyarsız hərəkət edən canlılara qoşulacaqdır. Günəş, ay və digər mövcudat icazə və ixtiyarsız hərəkət etdiyi kimi, insan da öldükdən sonra onlara qoşulur və heç bir ixtiyara malik olmur. Məsələn, günəşin və ayın heç bir ixtiyarı yoxdur ki, bir gün çıxsın, bir gün isə çıxmasın. Yaxud bir dəfə bir yerdən, bir dəfə başqa yerdən çıxmağa ixtiyarı yoxdur. Ona necə əmr verilibsə, o cür də hərəkət edir. Bu aləmdə və yaradılışda təkcə insanlara ixtiyar verilmişdir. İnsanın həyatının yalnız bir hissəsində ona ixtiyar verilib. Bir zaman insanlar ruh aləmində yaşamışlar. Orada onlara ixtiyar verilməmişdi. Bir zaman ananın bətnində yaşayıb orada da ixtiyarsız halda olmuşdur. Həmçinin insanın dünyaya gəlməsində, yaşamasında, böyüməsində, saçlarının ağarmasında, qocalmasında və nəhayət, ölməsində də ixtiyar onun əlində deyil. Əgər bu dünyada ona ixtiyar verilmişdirsə, yalnız bəzi hərəkət və əməllərində verilmişdir. İnsan öz bədən üzvləri ilə həyata keçirə biləcəyi əməllərdə və seçimdə ixtiyarlıdır. Məsələn, namaz qılıb- qılmamaqda, günah edib-etməməkdə, İslamı və Peyğəmbəri(s) qəbul edib-etməməkdə ixtiyar sahibidir. Heç bir kəs bu seçimlərdə kimisə məcbur edə bilməz.

Bir kişi Peyğəmbərin(s) hüzuruna gəlib belə ərz etdi: "Ya Rəsulallah, mənim uşaqlarım İslamı qəbul etmir.

Onlara bir az təpki göstərsəm, səni və gətirdiyin dini qəbul edərlər. Buna icazə varmı?” Peyğəmbər(s) sakitcə dayanıb Allahın qərarını öyrənmək istədi. Elə bu zaman cənab Cəbrayıl(ə) nazil olaraq bu ayəni gətirdi:

لاَ إِكْرَاهَ فِي الدِّينِ قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ

-Dində (əqidənin əsaslarında) məcburiyyət yoxdur (çünki daxili inanc və etiqadlar zorla qəbul etdirilə bilməz və dəlil-sübuta tabedir).

İnsan öz düşüncəsində, əməllərində və əqidəsində azaddır. Allah- təala hər iki yolu insana göstərmişdir. Hər kəs öz seçimində ixtiyar sahibidir. Ona haqq və batil yol göstərilmişdir. İslam dinində demokratiya belədir. Heç bir kəs bu dini zorla kiməsə tətbiq edə bilməz. Amma insan dünyadan getdikdən sonra yenə də ixtiyarsız mövcudata qoşulacaqdır. Daha heç bir ixtiyar sahibi olmayacaq. Daha ölməyində, qiyamətdə dirilməyində, məhşərə gəlməyində, cənnətə və cəhənnəmə getməyində heç bir ixtiyarı yoxdur. Etdiyi əməllərin qarşılığında hara göndərsələr, oraya getmək məcburiyyətindədir. Həmçinin qiyamət günü insandan etdiyi əməllər barədə mütləq sorğu-sual olunacaq. Hər kim buna inanmırsa, Allah-təala and içərək “Hicr” surəsinin 92-93-cü ayələrində belə buyurur:

فَوَرَبِّكَ لَنَسْأَلَنَّهُمْ أَجْمَعِيْنَ. عَمَّا كَانُوا يَعْمَلُونَ

-Buna görə də sənin Rəbbinə and olsun ki, şübhəsiz (qiyamət günü) onların hamısını sorğu-suala tutacağıq. (Dünyada) etdikləri əməllər barəsində.

Onlar elə güman etməsinlər ki, qiyamət günü dünyada istədiklərini etdikləri kimi edə biləcəklər. Qiyamət günündə insanların dərdinə dəyən yalnız təqva və yaxşı əməlləri olacaqdır. Heç bir pul-para, dünyada

tutduqları vəzifə onların dərdinə dəyməyəcək. Buna görə də İslam Peyğəmbəri(s) Quran oxuyanlara təkidlə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): يَا مَعَاشِرَ قُرَّاءِ الْقُرْآنِ اتَّقُوا اللهَ عَزَّ وَجَلَّ فِيمَا حَمَّلَكُمْ مِنْ كِتَابِهِ فَإِنِّي مَسْئُولٌ وَإِنَّكُمْ مَسْئُولُونَ إِنِّي مَسْئُولٌ عَنْ تَبْلِيغِ الرِّسَالَةِ وَأَمَّا أَنْتُمْ فَتُسْأَلُونَ عَمَّا حُمِّلْتُمْ مِنْ كِتَابِ اللهِ وَسُنَّتِي.

-Ey Quran oxuyanlar, Allahdan qorxun və təqvalı olun. Çünki həm məndən, həm də sizdən sorğu-sual olunacaq. Məndən təbliğat və risalətim haqda, sizdən isə ona (Qurana və sünnəmə) əməl edib- etməməyiniz haqda soruşulacaq.[1]

قَالَ عَلِيّ(ع): اِتَّقُوا اللَّهَ فى عِبادِهِ وَ بِلادِهِ فَاِنَّكُمْ مَسْؤولونَ حَتّى عَنِ البِقاعِ وَ الْبَهائِمِ. اَطِيعُوا اللهَ وَلا تَعصُوه

-Həzrət Əli(ə) buyurur: "Allahın bəndələri və şəhərləri barədə təqvalı olun. Çünki sizdən hətta ərazilər və heyvanlar barəsində sorğu-sual aparılacaq. (Onlarla necə rəftar etdiyiniz barədə soruşulacaq.) Allaha itaət edin və Ona qarşı günah etməyin."[2]

Ayə və hədislərdən açıq-aydın görürük ki, insan boş və əbəs yerə yaradılmayıb. Allah-təala insanın bu dünyada yaşaması üçün hər bir şey yaratmışdır. Başqa sözlə desək, hər bir şeyi insan üçün yaratmışdır. İnsan gərək ona verilən şeylər barəsində diqqətli olsun və onlara qarşı

---

[1] Mizanül-hikmə,5-ci cild, səh.2310.
[2] Mizanül-hikmə,5-ci cild, səh.2310.

zülm etməsin. Çünki qiyamət günü bütün bunlar barəsində insandan hesab-kitab alınacaq.

İmam Sadiq(ə) buyurur: “Qiyamət günü insan beş şey barəsində sorğu-sual olunacaqdır: Ömrünü necə sərf etdiyi, cavanlığını harada keçirtdiyi, malını haradan qazandığı, malını harada xərclədiyi və Peyğəmbər(s) və Əhli-beytin(ə) vilayəti barədə.”

“Cinn” surəsinin 16-cı ayəsində belə oxuyuruq:

وَأَلَّوِ اسْتَقَامُوا عَلَى الطَّرِيقَةِ لَأَسْقَيْنَاهُم مَّاء غَدَقًا

-(Mənə vəhy olundu ki): “Şübhəsiz, əgər (ins və cin) yolda (əqidə və əməlin düz yolunda) sabitqədəm olsalar, mütləq onları bol su (maddi və mənəvi bərəkətlər) ilə sirab edərdik.”

قَالَ الصَّادِق(ع): يَعْنِي لَوِ اسْتَقَامُوا عَلَى وَلَايَةِ عَلِيّ بْنِ أَبِي طَالِبٍ أَمِيرِ الْمُؤْمِنِينَ وَ الْأَوْصِيَاءِ مِنْ وُلْدِهِ ع وَ قَبِلُوا طَاعَتَهُمْ فِي أَمْرِهِمْ وَ نَهْيِهِمْ لَأَسْقَيْنَاهُمْ مَاءً غَدَقاً يَقُولُ لَأَشْرَبْنَا قُلُوبَهُمُ الْإِيمَانَ وَ الطّرِيقَةُ هِيَ الْإِيمَانُ بِوَلَايَةِ عَلِيّ وَ الْأَوْصِيَاءِ

İmam Sadiq(ə) bu ayə barəsində belə buyurur: “Yəni əgər (ins və cin) möminlərin əmiri Əli ibn Əbu Talibin(ə) və onun övladlarından olan vəsilərin vilayətində sabitqədəm olsalar, onların əmrlərinə tabe olub, çəkindirdiklərindən çəkinsələr mütləq onları bol su (maddi və mənəvi bərəkətlər) ilə sirab edərdik. Onların qəlblərini imanla dolduraraq.” Yuxarıdakı ayədə “yolda” kəlməsində məqsəd Əli(ə) və onun vəsilərinin vilayətidir.

Peyğəmbər(s) özündən sonra bütün ümmətə Əlinin(ə) vilayətini tapşırmışdır. Həzrət Əli(ə) Peyğəmbərin(s) vəsii və canişinidir. Həzrət Əlidən(ə)

sonra İmam Həsən(ə), sonra İmam Hüseyn(ə), sonra onun doqquz övladı bir-birinin ardınca Allahın yer üzündə höccətidirlər. Sonuncu imamımız İmam Mehdi(ə.c) hələ də yaşayır və qeybdədir. İnşallah, tezliklə zühur edib yer üzünü ədalətlə təmin edər və hamı onun bərəkəti sayəsində tam əmin-amanlıqda həyat sürər. Şükürlər olsun ki, Allah-təala bizə Həzrətin(ə.c) vilayətinin əsrində yaşamağı nəsib edib. Çox şükürlər olsun Allaha ki, hidayət çıraqlarının nuru ilə bizi haqqa hidayət edib. Biz hazırda Həzrətin(ə.c) vilayətində yaşayırıq. Xoş o insanların halına ki, Həzrəti(ə.c) ziyarət edir və onunla əlaqə saxlayırlar.

### 7. İnsanların ruzisinin Allah tərəfindən müəyyən olunması haqda Allahın Öz zatına and içməsi

Quranda Allahın Özünə and içdiyi məqamlardan biri də insanların ruzisinin Onun yanında müəyyən olunması ilə bağlıdır. “Zariyat” surəsinin 22-ci ayəsində insanların ruzisinin müəyyən olunması barədə belə oxuyuruq:

وَفِي السَّمَاءِ رِزْقُكُمْ وَمَا تُوعَدُونَ

-Sizin ruziniz və sizə vəd edilən şey göydədir.

Bu ayə bizə elə bir mətləbi bəyan edir ki, əgər biz həmin mətləbi həqiqətən də başa düşə bilsək, ona dərindən imanımız olsa və ruhumuz bu məsələni dərindən qəbul edə bilsə, yetmiş faiz demək olar ki, dünyada olan çətinliklərimiz öz həllini tapar. Allaha inanmağımıza və müsəlman olmağımıza, Quranın bu və bu kimi ayələrini oxumağımıza baxmayaraq, ürəkdən iman gətirmək başqa bir şeydir. Əsas odur ki, insanın ruhu bu məsələlərə iman gətirsin. Dildə müsəlmanam, Allaha və Peyğəmbərə(s) inanıram demək hələ ürəkdən iman gətirmək deyil. Dildə

sadəcə müsəlman olduğumuzu təsdiqləyirik. Ürəkdən iman gətirmək isə tamam başqadır.

Məsələn, dünyasını dəyişmiş bir insana qüsl verirlər. Bəzi insanlar gedib ona baxa bilirlər. Amma bəziləri isə meyitə baxmaqdan qorxurlar. Yaxud meyitə baxdıqdan sonra gecə qorxusundan evdə tək qala bilmir. Bəzi insanlar da vardır ki, meyitdən qorxmur, hətta ona elə qüsl verir ki, elə bil öz balasını yuyur. Meyitdən qorxan insan onun öldüyünü bilir, lakin ürəyində buna inanmır. Ürəyinə müxtəlif fikirlər gəlir və meyitin birdən diriləcəyini və onu qorxudacağını düşünür. Onu meyit olan otaqda tək saxladıqda az qalır ki, qorxudan ürəyi partlasın. Amma bəzi insanlar da vardır ki, gündə bir neçə meyitə qüsl verir, ondan sonra evdə tək də qalır və ürəyinə heç bir başqa fikir də gəlmir. Çünki o, yəqin bilir ki, əgər meyit diri olsaydı, onun qabağına uzatmazdılar. Ürəkdən başa düşür ki, qarşısındakı ölmüş insanı diriltmək mümkün deyil. Buna görə də heç bir qorxu-hürküsü yoxdur. İman da belədir. İnsanın imanı güclü olduqda başa düşür ki, öldükdən sonra yeni bir həyata başlayır və həmişə diridir. Bəzi insanlar isə imanları olmadığı üçün öldükdən sonra dirilməyi boş sözlər hesab edirlər. Bəziləri isə dildə ölümdən sonrakı həyatın olduğunu bilir, lakin ürəkdən iman gətirməyib.

Böyük alimlərdən biri övladlarına belə vəsiyyət etmişdir: “Mən öldükdən sonra mənə qüsl verilərkən kənar şəxslər ora daxil olmasınlar. Hətta əgər qüsl işlərində məni yuyana kömək etməyəcəksinizsə, siz də oraya daxil olmayın. Soruşdular: Nə üçün? Dedi: Mən orada çılpaq vəziyyətdə olduğum üçün ətrafdakılardan utanacağam.”

Bu alim tam yəqinliklə başa düşür ki, öldükdən sonra özü də nəzarət edir. Başa düşür ki, dünyasını dəyişdikdən sonra ruhu daim yaşayır. Onun bir gözü açıq idi və bununla da dünyanı görürdü. İkinci gözü və bəsirət gözü açıldıqda həm o dünyanı, həm də bu dünyanı görür. Amma bizim bir gözümüz açıq olduğundan və bəsirətimizin olmamasından o biri dünyaya tam qəlbimizlə imanımız çatmır. Biz onu ölü hesab edirik, halbuki o, bizi ölü görür. Bütün bunları çoxumuz bilirik, amma ürəkdən iman gətirmək tamam başqa şeydir. Odur ki, Allah-təala Quranda buyurur:

وَفِي السَّمَاء رِزْقُكُمْ وَمَا تُوعَدُونَ

-Sizin ruziniz və sizə vəd edilən şey göydədir.

Yəni sizin ruziniz müəyyən olunmuşdur. Hamının ruzi payı artıq ayrılıb və hazır vəziyyətdə saxlanmışdır. Həm insanların ruzisi, həm də onlara verilən vədlərin hamısı nağd formada Allahın yanında hazırdır. Amma bu məsələni danan insanlar da vardır. Onlar inanmırlar ki, ruziləri müəyyən olunmuşdur. Allah-təala bu məsələyə inanmayanlar üçün and içərək həmin ayədən sonrakı ayədə belə buyurur:

فَوَرَبِّ السَّمَاء وَالْأَرْضِ إِنَّهُ لَحَقٌّ مِّثْلَ مَا أَنَّكُمْ تَنطِقُونَ

-Beləliklə, and olsun göyün və yerin Rəbbinə ki, bu, (sizin ruzinizin göydə olması) sizin danışdığınız (zaman danışmağınızı bildiyiniz) kimi bir həqiqətdir.

İnsan elə başa düşməməlidir ki, öz ruzisini özü əldə edir. Allah-təala hər bir insanın ruzisini halaldan müəyyən edib. Hamıya halal ruzi çatacaq. Amma hər kəs halal ruzi həddini keçib harama əl uzadarsa, haram ruzi yeməli olacaqdır. Allah halal ruzini insana yetirir. Əgər insan

harama əl atsa və haram ruzi dalınca getsə, onu da əldə edə biləcək. Bu, onun öz işidir. Həm Allahın onun üçün müəyyən etdiyi ruzini, həm də haramdan əldə etdiyi ruzini yeyər.

Allah-təala bu mübarək ayədə insanın ruzisinin müəyyən olunduğunu bəyan edərək bir məsəl da çəkir. Həmin məsəl bundan ibarətdir ki, insan öz danışığına şübhə etmədiyi kimi, ruzinin də Allah tərəfindən müəyyən olunmasına şübhə etməməlidir. Daha aydın başa düşmək üçün belə də demək olar ki, Allah-təala insanlara nitq və danışıq qabiliyyəti verdiyi kimi, ruzini də eləcə verir.

Harun ər-Rəşidin zamanında Əsməyi adlı bir alim yaşayırdı. Onun əsl adı Əbdülməlik idi, lakin Əsməyi adı ilə şöhrət tapmışdı. O, həm tarixçi, həm ədəbiyyatçı və həm də şair idi. Zəmanəsinin ustadlarından hesab olunurdu. O deyir: "Bir gün mən Bəsrə məscidindən çıxarkən dəvənin üstündə bir ərəbin gəldiyini gördüm. Onunla salamlaşıb hal-əhval tutduq. Həmin ərəb məndən soruşdu: Haradan gəlirsən? Ona dedim: Elə bir yerdən gəlirəm ki, orada Allahın ayələri tilavət olunur. Ərəb dedi: Həmin ayələrdən mənə oxuya bilərsən? Mən ona "Zariyat" surəsinin 22-ci ayəsini oxudum:

وَفِي السَّمَاءِ رِزْقُكُمْ وَمَا تُوعَدُونَ

-Sizin ruziniz və sizə vəd edilən şey göydədir.

Mən bu ayəni oxuyandan sonra o, təəccüblə dedi: "Allah bizim ruzilərimizin hamısını müəyyən edib?" O, bu sözü deyəndən sonra dəvəsindən düşdü. Dəvəni kəsib ətini camaata payladıqdan sonra çıxıb getdi. Mən bu işə mat-məəttəl qaldım."

Əsməyi deyir: "Bu hadisənin üstündən bir müddət keçəndən sonra Harun ər-Rəşidlə birgə Məkkə ziyarətinə

getmişdik. Kəbənin ətrafına təvaf edərkən gördüm ki, bir ərəb məni asta səslə çağırır. Səs gələn tərəfə baxanda həmin ərəbin məni çağırdığını gördüm. O, mənə salam verdikdən sonra dedi: Əsməyi, məni tanıdınmı? Dedim: Əlbəttə, tanıdım. Sən həmin ərəbsən ki, məndən Quran ayəsi oxumağı xahiş etmişdin. Ərəb dedi: Bəli, mən həmin adamam. Mən səndən eşitdiyim ayəni və Allahın bu ayədə verdiyi vədin şahidi oldum. Ürəyimin dərinlikləri ilə başa düşmüşəm ki, mənim ruzimi Allah yetirir. Olarmı o ayədən savayı mənə başqa bir ayə də oxuyasan? Əsməyi deyir: Mən həmin ayədən sonra gələn ayəni ona oxudum.

فَوَرَبِّ السَّمَاءِ وَالْأَرْضِ إِنَّهُ لَحَقٌّ مِّثْلَ مَا أَنَّكُمْ تَنطِقُونَ

-Beləliklə, and olsun göyün və yerin Rəbbinə ki, bu, *(sizin ruzinizin göydə olması)* sizin danışdığınız *(zaman danışmağınızı bildiyiniz)* kimi bir həqiqətdir.

Bu ayəni oxuyandan sonra ərəbin halı pozuldu və təəccüblə dedi: Sübhanallah! Görəsən, Cəlil olan Allahın bu sözlərinə kim inanmayıb ki, bu cür and içir? Məgər Allahın insanların ruzisini müəyyən etməsinə inanmayanlar varmı? Əgər Allah Özünə and içirsə, deməli bu məsələyə inanmayanlar da varmış. Əsməyi deyir: Bu sözlərdən sonra həmin ərəb heyrətindən dünyasını dəyişdi.”

Odur ki, insan Allahın onun rusisini müəyyən etdiyinə ürəkdən iman gətirməlidir. Başa düşməlidir ki, özünü dağa-daşa vurmaqla deyil. Allah- təala nəinki insanların, hətta hər bir canlının belə ruzisini müəyyən edib və bu ruzini ona yetirir.

## 8. Allah-təala hər bir canlının ruzisinə zamindir

Quran ayələrinə və hədislərə diqqət yetirdikdə bu mövzuda çox söhbət etmək olar. Allah-təala hər bir canlının ruzisinə zamindir. Nümunə üçün həmin ayə və hədislərdən bir neçəsinə diqqət yetirək. “Hud” surəsinin 6-cı ayəsində belə oxuyuruq:

وَمَا مِن دَآبَّةٍ فِي الأَرْضِ إِلاَّ عَلَى اللّهِ رِزْقُهَا وَيَعْلَمُ مُسْتَقَرَّهَا وَمُسْتَوْدَعَهَا كُلٌّ فِي كِتَابٍ مُّبِينٍ

-Bu yer üzündə (heyvan, cin və insan olmasından asılı olmayaraq) hərəkət edən hər bir canlının ruzisi Allahın öhdəsindədir və O, onların əsl məkanlarını və müvəqqəti yerlərini (onların atalarının belində və analarının bətnində olan yerlərini) bilir. (Yaxud: O, onların (həyatda) məskunlaşdıqları məkanı və (ölümdən sonra) əmanət qoyulduqları yeri bilir.) (Bunların) hamısı aydın kitabda (uca aləmdə Allah dərgahına yaxın olanların nəzərlərində aydın olan Lövhi-Məhfuzda) qeyd olunmuşdur.

“Ənkəbut” surəsinin 60-cı ayəsində belə oxuyuruq:

وَكَأَيِّن مِن دَابَّةٍ لَا تَحْمِلُ رِزْقَهَا اللَّهُ يَرْزُقُهَا وَإِيَّاكُمْ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ

-Bir çox canlılar var ki, öz ruzilərini əldə edə bilmirlər (quruda və suda yaşayan heyvanların bir çoxu kimi). Onlara da, sizə də ruzini Allah verir. O, eşidən və biləndir.

Bu ayənin açıqlamasında qeyd etmək olar ki, canlı heyvanlar bu cəhətdən iki cürdür. Onların bəzisi öz azuqələrini toplayıb qış tədarükü görürlər. Məsələn, qarışqalara diqqət yetirdikdə görürük ki, həmişə özləri üçün ərzaq toplayıb yığırlar. Bəzi canlılar da vardır ki,

onların ruzisi gündəlikdir. Onlar özləri üçün ərzaq toplaya bilmədikləri üçün onların ruzisi hər gün Allah tərəfindən yetirilir. Hər bir halda hər bir canlının ruzisini Allah-təala müəyyən edir. “Zariyat” surəsinin 56-58-ci ayələrində belə oxuyuruq:

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ. مَا أُرِيدُ مِنْهُم مِّن رِّزْقٍ وَمَا أُرِيدُ أَن يُطْعِمُونِ. إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ

-Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam. Mən Onlardan nə Mənim üçün ruzi qazanmalarını istəyirəm, nə də Mənə yemək vermələrini istəyirəm. Şübhəsiz, Allah Özü (bütün ruzi yeyənlərə) ruzi verən, güc sahibi və qüvvətlidir.

## İki mühüm mətləb

Burada bəhsimizə uyğun olaraq iki mühüm mətləbi əziz möminlərin diqqətinə çatdırmaq istərdim. Həmin mətləblərdən biri budur ki, insan öz ruzisini tələb etməli və onun ardınca getməlidir. İnsan elə başa düşməsin ki, evdə oturub arxayın olmaqla onun ruzisi gəlib çatacaq. Allah-təala onun ruzisini müəyyən etmiş və insan üçün şərt qoymuşdur. Ataların belə bir məsəli vardır: “Səndən hərəkət, Allahdan bərəkət.” Əlbəttə, bu məsəl hədislərdən götürülmüş bir məsəldir ki, İmam Sadiq(ə) başqa sözlə desək belə buyurur:

لَا تَدَعْ طَلَبَ الرِّزْقِ مِنْ حِلِّهِ فَإِنَّهُ عَوْنٌ لَكَ عَلَي دِينِكَ

-Halal ruzinin ardınca getməkdən və onu tələb etməkdən əl götürmə. Çünki halal ruzi sənə dindarlıq etməkdə (imanının salamat qalmasında) kömək edər.

واعْقِلْ راحِلَتَكَ وَ تَوَكَّلْ

Sonra Həzrət(ə) belə buyurur: “Dəvənin ayağını bağla (onu boş-boşuna buraxma), sonra təvəkkül et.”[1]

Yəni insan ilk növbədə ağlı qəbul edən və başa düşülən işləri görməli, ondan sonra Allaha təvəkkül etməlidir. Dəvəni boş-boşuna buraxıb Allaha təvəkkül etsə və dəvəni itirsə, bu, insanın öz təqsiridir. Dəvəni bağlamalı, ondan sonra təvəkkül etməlidir. Həmçinin insan halal ruzi dalınca getməli, ondan sonra Allahdan ruzisini istəməlidir. Evdə işsiz oturub ruzisinin çatacağını gözləməməlidir.

İbn Təyyar adlı bir şəxs İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: “Ey Peyğəmbər(s) övladı, bu axır vaxtlarda maddi vəziyyətim çox ağırlaşıb. Əvvəllər çox yaxşı alver edirdim və vəziyyətim də yaxşı idi. Bu son vaxtlarda çox pis vəziyyətə düşmüşəm.”

İmam(ə) buyurdu: “Sənin dükanın varmı?”

İbn Təyyar dedi: “Bəli, böyük bir dükanım var idi. Orada alver edirdim. Vəziyyətim pisləşdikdən sonra həmin dükanı bağladım.”

İmam(ə) buyurdu: “Sən sabahdan get həmin dükanda əyləş. Səhər evdən çıxarkən iki rükət namaz qıl. Namazdan sonra belə dua et: "Ey mənim Allahım, Sənə təvəkkül edirəm və ruzimi səndən istəyirəm." Bu duanı etdikdən sonra get dükanı aç və orada əyləş. Qalan işləri Allah Özü qaydasına salacaq.”

İbn Təyyar deyir: “Səhər sübh namazını qıldıqdan sonra İmamın(ə) buyurduğu kimi, iki rükət namaz qılıb

[1] Mizanül-hikmə,5-ci cild, səh.2044.

dua etdim. Sonra evdən çıxıb dükana getdim. Dükanı açıb oranı silib-süpürdüm. Boş dükanın içərisində əyləşdim. Azacıq keçmişdi ki, bir nəfər parçasatan dükana daxil olub dedi: Parçalarımı satmaq üçün dükanının yarısını mənə icarəyə ver. Mən onunla razılaşıb dükanın yarısını ona icarəyə verdim. Onun parçası çox olduğundan çoxlu müştəri gəlib onunla alver etdi. Bir neçə gün beləcə davam etdikdən sonra həmin şəxs mənə dedi: Gəl, mən sənə parçalardan verim, sən də öz hissəndə sat, alver elə. Onunla razılaşdım və bu minvalla yaxşı və halal alver etməyə başladım. Haramlar qarşıma çıxdıqda onları özümdən uzaqlaşdırdım. İmamın(ə) bircə göstərişi ilə Allaha təvəkkül etdim və vəziyyətim çox yaxşılaşdı. Belə ki, bu ticarətlə özümə ev və minik aldım.”

Bu barədə olan ikinci mühüm mətləb odur ki, insan ruzinin azına və çoxuna razı olmalıdır. İnsan çox qazanmaq üçün halaldan uzaqlaşıb harama düşməməlidir. Allahın onun üçün nə yetirdiyinə qane olmalıdır. İnsan halal ruzi qazanmaq üçün çalışdıqda Allah-təala ona az da olsa ruzi yetirirsə, əgər insan Allahın verdiyi ruziyə qane olub razı qalarsa və haram yola əl atmazsa, Allah da onun az əməlinə razı olacaq.

قَالَ الصَّادِقُ(ع) مَن رَضِيَ مِن اللَّهِ بِاليَسيرِ مِن المِعاشِ رَضِيَ اللَّهُ مِنهُ بِاليَسيرِ مِن العَمَلِ

-İmam Sadiq(ə) buyurur: “Hər kim Allahın ona əta etdiyi az gəlirə və ruziyə razı olarsa, Allah da həmin şəxsin az əməlinə razı olar.”

Biz Allahı qane etmək üçün lazımi qədər əməl apara bilmirik. Axirətə özümüzlə Allahı qane edə biləcək hansı əməli apara biləcəyik? Allahı razı və qane salmaq

istəyiriksə, onda Onun bizə yetirdiyi az ruziyə də qane və razı olmalıyıq. Hədislərdə belə nəql olunur ki, qiyamət günü Allahın bu dünyada verdiyi çox az ruziyə qane olanlar, kasıbçılığın atəşində yananlar və səbir edib harama əl atmayanlardan Allah-təala hesab çəkməyə utanar. Çünki onlara nə qədər ruzi vermişdir ki, qiyamət günü onun hesabını da soruşsun? Belə insanları hesab-kitab olunmadan cənnətə aparacaqdır. Odur ki, əgər insan dünyada Allahın ona verdiyi az ruziyə qane olsa, həmin şəxs üçün hər şey yaxşı olar və Allah da onun az əməllərinə razı olar.

## ALLAHIN İKİNCİ QİSİM ANDLARI

## Allahın Öz yaratdıqlarına və işlərinə içdiyi andlar

Qeyd olundu ki, Allah-təalanın Quranda üç qisim andları vardır. Onlardan biri Allahın Özünə and içməsidir ki, bu barədə lazımi qədər söz açdıq. İkinci qisim andlar isə Allahın yaratdığına və gördüyü işlərə and içməsidir. Quranda bu qisim andlar çoxdur. Şübhəsiz, onların hamısını bu mövzuya sığışdıra bilmərik. Sadəcə olaraq bir neçə nümunə ilə kifayətlənə bilərik. Bu qisim andlarda Allah-təala gördüyü işlərə və həmin işlərin nəticəsində yaratdıqlarına and içir. Bunları ayırıb hərəsi haqda ayrıca söhbət etmək çox vaxt aparar. Ona görə də yeri gəldikcə hansının Allahın işi, hansının isə yaratdığı (məxluqu) olduğuna işarə edəcəyik. Lazım gəldikdə azacıq izahını da verərik.

### 1. Quran

Allahın andlarından biri Qurana içdiyi anddır. Yəni Allah-təala nazil etdiyi kitaba and içərək mühüm bir mətləbi bəyan edir. Bəhsimiz Allahın andlarına aid olduğu üçün anddan sonra buyurduğu mətləbin izahına da ehtiyac yoxdur. Məlumat üçün sadəcə olaraq həmin andlar barədə söz açaq. Məsələn, həmin nümunələrdən biri "Yasin" surəsinin əvvəllərindədir. Allah-təala buyurur:

بِسمِ اللهِ الرّحمن الرّحِيم. يس. وَالْقُرْآنِ الْحَكِيمِ

-Bağışlayan və mehriban Allahın adı ilə. Ya, Sin. Bu hikmətli Qurana and olsun.

Bu ayədə işlənmiş "Ya" kəlməsi xitab və nida işarələrindəndir. "Sin" isə İslam Peyğəmbərinin(s) adlarından biridir. Həmçinin "YaSin" Allahla Peyğəmbər(s) arasında olan rəmzlərdəndir. Bundan başqa digər mənalar da vardır ki, bu bəhsimizin ona aidiyyəti yoxdur. Ondan sonra Allah-təala buyurur: "And olsun hikmətli Qurana." And içdikdən sonra mühüm bir mətləbi bəyan edir. Əsas sözümüz Allahın and içməsindədir. Andla başlayan bu ayədə iki mətləb vardır. Ayədə işlənən "Vav" hərfi andın hərflərindən biridir. Allah-təala Qurana and içərək onun üçün bir təyin də gətirir. Yəni hikmətli Qurana and olsun. Həmin mətləblərdən biri budur ki, hikmətli sözünü insan barədə təyin kimi işlədərlər. Məsələn, filankəs hikmətli insandır. Yaxud Allah-təala Quranda Özü barəsində "Allah Əziz və hikmət sahibidir" - deyə bəyan edir. Yaxud görkəmli, ağıllı, dərrakəli alimə də hikmətli insan deyilir. Lakin bu ayədə Allah-təala insanın deyil, Quranın hikmətli olduğunu bəyan edir.

Bu ayədə olan ikinci mətləb isə odur ki, Quran ya Allahın işi, ya da Onun yaratdığıdır. Yəni görəsən, Quran Allahın işidir, yoxsa Onun yaratdığı? Bu barədə təriqətlər

arasında elmi ixtilaflar mövcuddur. Əhli-sünnənin dörd təriqətini və eləcə də şiələri təmsil edən alimlər bu məsələdə müxtəlif fikirlər irəli sürmüşlər. Əlbəttə, bu ixtilaf elmi bir ixtilafdır. Bunun nə siyasətə, nə də məzhəbə heç bir aidiyyəti yoxdur. Bu, tez-tez soruşulan bir mətləb olduğu üçün onun barəsində də lazımi qədər söz açmağa ehtiyac vardır. Əvvəlcə birinci mətləblə bağlı belə bir sualla söhbətimizə başlayaq.

## Nə üçün Quranın təyini "hikmətli" kəlməsidir?

Nə üçün Allah-təala Quranı hikmətli təyini ilə bəyan edir? Halbuki "hikmətli" diri və həm də ağıllı insana aid olan bir təyindir. Bu sualın cavabı belədir ki, Allah-təala Qurana "hikmətli" təyini verməklə iki mətləbi bəyan edir. Onlardan biri budur ki, Quran Allahın kəlamı və sözləridir. Deməli, Quranın söz deyəni hikmət sahibidir. Əgər bir insan bunu belə izah etsə, heç bir kəs onu məzəmmət edə bilməz. Çünki mətləbi düzgün mənalandırmışdır. İkinci mənaya gəldikdə isə, Allah-təala Qurana "hikmətli" təyini verməklə onun hikmətli olduğuna təkid edir. Yəni Allah- təala insanları başa salır ki, Quranın bütün buyurduqlarının hamısı hikmətlə bağlıdır. Onun ayələrinin hamısında hikmət vardır və bu hikmət dünya və axirətdə insanların üzünə rəhmət, məğfirət, səadət və izzət qapılarını açır. Allah-təala bu kitabların hamısını insanlara imam və yolgöstərən kimi təqdim edir. "Əhqaf" surəsinin 12-ci ayəsində həm Quran, həm də Allah-təala tərəfindən nazil olmuş bütün səmavi kitablar barədə belə oxuyuruq:

وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً وَهَذَا كِتَابٌ مُّصَدِّقٌ لِّسَانًا عَرَبِيًّا لِّيُنذِرَ الَّذِينَ ظَلَمُوا وَبُشْرَى لِلْمُحْسِنِينَ

-(O necə uydurma ola bilər), halbuki ondan qabaq Musanın (səma) kitabı (cəmiyyətin) rəhbər(i) və mərhəmət (idi). Və bu ərəbcə (özündən əvvəlki səmavi kitabları) təsdiqləyən bir kitabdır ki, zülm edənləri qorxutsun və yaxşı əməl sahibləri üçün bir müjdə olsun.

Bu ayədən açıq-aydın görürük ki, Allah tərəfindən nazil olmuş bütün kitablar insanlar üçün rəhbər və yolgöstərəndir. Hər kim Allahın nazil etdiyi kitabı özünə rəhbər tutaraq ona inanarsa, izzətə və səadətə çatar. İslam Peyğəmbəri(s) Quran barədə belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): عَلَيكُم بِالقُران فَاتَّخِذُوهُ اِمامًا قَائِدًا

-Sizə Quranı tapşırıram. Ondan möhkəm yapışın və onu özünüz üçün rəhbər və yolgöstərən qərar verin.[1]

Bu hədisdə Peyğəmbər(s) bütün insanları nəzərdə tutaraq Qurana iman gətirməyi təkid edir. Hər hansı bir insan səadətə, şərafət və izzətə çatmaq üçün Qurandan möhkəm yapışmalı və onun buyurduqlarına əməl etməlidir. Quranı özünə rəhbər və yolgöstərən seçməlidir. Yəni Quran necə yol göstərirsə, həmin yolla getmək lazımdır. Nəyi harada etməyin məsləhət olduğunu Quran insanlara başa salır, odur ki, insan öz düşündüyü kimi yolu tutub getməməlidir. Hər kəs Qurana iman gətirib təqvalı olarsa, Quran həmin şəxsi hidayət edər. Necə ki, “Bəqərə” surəsinin əvvəllərində belə buyurulur:

[1] Mizanül-hikmə, hədis 16125.

الم. ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

-Əlif, Lam, Mim. Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab təqvalılar (pərhizkarlar) üçün hidayət mənbəyidir.

Bu ayədən başa düşürük ki, Quran təqvalı insanlar üçün hidayət mənbəyidir. Çünki təqvasız insanlar onun buyurduqlarına əməl etmirlər ki, hidayət də olunsunlar. Həmçinin təqvalı insanlar Qurandan öyrənib təqvalı olublar. Əgər bir insan Qurana tabe olmasa, necə təqvalı ola bilər? "İsra" surəsinin 9-cu ayəsində belə buyurulur:

إِنَّ هَذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

-Həqiqətən, bu Quran (insan cəmiyyətini) ən möhkəm, sabit yola və dinə hidayət edir.

Bu ayədə isə bəyan olunur ki, Quranın hidayət etdiyi insan və cəmiyyət ən möhkəm və sabit olan yola hidayət olunmuşdur. Buna görə də insanların səadətə, möhkəm və doğru yola hidayət olunmaları üçün Quranın ətəyindən tutmaları son dərəcə vacibdir. Quranın keyfiyyət və xüsusiyyətlərindən biri də şəfadır. Yəni Quran insanların dərdlərinin dərmanıdır. İnsan maddi, mənəvi və ictimai xəstəliklərinin çarəsini Quranda tapa bilər. "İsra" surəsinin 82-ci ayəsində belə oxuyuruq:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ وَلاَ يَزِيدُ الظَّالِمِينَ إَلاَّ خَسَارًا

-Biz Qurandan möminlər üçün (mənəvi və ictimai xəstəliklərə) şəfa və rəhmət olan şeyi nazil edirik və o, zalımlara (ruhi və ictimai) ziyandan başqa bir şey artırmır.

Bu ayədə də görürük ki, Quran yalnız ona inanıb iman gətirənlər üçün şəfa mənbəyidir. Əgər insan səmimi

qəlbdən, sidq ürəklə Qurana iman gətirərsə, Quran onun bütün xəstəliklərinin, hətta canında olan xəstəliklərin dərmanı ola bilər. İmam Sadiq(ə) buyurmuşdur ki, xəstə bir insan dərin imanla, sidq ürəklə əlini bədəninin ağrıyan yerinə qoyaraq bu ayəni ("İsra" surəsi, ayə 82) oxuyarsa, Allah onun dərdinə şəfa verər.

Kitabların birində yazılır ki, bir nəfər ağır xəstəliyə düçar olmuşdu. Onun həm özü, həm də həyat yoldaşı pis xəstəliyə tutulmuşdular. O deyir: "Bir çox həkimlərə müraciət etdik, lakin dərdimizə çarə tapılmadı ki, tapılmadı. Gecələrin birində Peyğəmbər(s) və Əhli-beytə(ə) təvəssül edib yatdım. Yuxuda gördüm ki, möhtərəm bir insan gəlib mənə dedi: "Sağ əlini qabırğalarının üstünə qoyaraq "İsra" surəsinin 82-ci ayəsini oxu. Əgər belə etsən, Allah sənin dərdinə şəfa verəcək."

Gözlərimi açdıqda gördüm ki, bütün bunlar yuxuda baş vermişdi. Dəstəmaz alıb əlimi qabırğalarımın üstünə qoydum və həmin ayəni oxudum. Sonra həyat yoldaşımı çağırıb onun üçün də belə etdim. Beləliklə, hər ikimiz şəfa tapdıq."

Bunları deməkdə məqsədim odur ki, Quranın kəlmələri, ayələri və surələri şəfa olduğu kimi, ən əsas onun mənaları insan üçün şəfa mənbəyidir. Əgər insanlar Quranın "Ey insanlar!", "Ey iman gətirənlər!" nidasına cavab verərək ona əməl etsələr, onun ehkamlarını və buyurduqlarını öz həyatlarının proqramlarına daxil edib əməl etsələr, bütün maddi və mənəvi xəstəliklərdən nicat taparlar. Hazırda dünyada milyonlarla maddi və mənəvi xəstəliklərdən əzab çəkən insanların şahidi oluruq. İnsan cəmiyyəti xəstəliklərdən cana doyub. Bütün bunlara baxmayaraq, həmin xəstəliklərə düçar olmalarının səbəbi

haqda düşünmürlər. Hətta müsəlmanlar da belə xəstəliyə düçar olmalarının səbəbini bilmirlər. Bütün bunların səbəbi onların öz əqidələrindən uzaq yaşamaları və Allahın onlara göndərdiyi müqəddəs kitaba əməl etməmələridir.

Biz öz dilimizlə dünyaya müsəlman olduğumuzu iddia edirik, lakin əməllərimizdə İslama əməl etmirik. Bu, müsəlmanlar üçün ən böyük bədbəxtçilikdir. İslama əməl etməkdə kiminsə bizə mane olduğunu söyləməyə ehtiyac yoxdur. Biz özümüz öz əqidəmizdən uzaq yaşayırıq. Yəni bizim hərəkətlərimiz ziddiyyətlidir. Bir tərəfdən "müsəlmanıq" deyirik, digər bir tərəfdən isə İslamın qanunlarına riayət etmirik. Belə bir insan əlbəttə ki, nicat tapa bilməz və onun mənəvi xəstəliklərdən yaxa qurtarması mümkün deyil. Məsələn, elə bil bir xəstə həkimə müraciət edir. Həkim onu müayinə etdikdən sonra müalicə üçün dərmanlar yazır. Xəstə həkimin yazdığı dərmanları içmir və onun sözlərinə də qulaq asmır. Beləliklə, xəstəliyi də sağalmır. Sonra deyir: Həkimə də getdim, lakin sağalmadım. Xəstə o vaxt sağala bilər ki, həkimin göstərişlərinə əməl etsin və hansı dərmanları məsləhət görübsə onlardan istifadə etsin. Odur ki, hər bir müsəlman maddi və mənəvi xəstəliklərdən nicat tapıb hidayət olunmasını istəyirsə, Qurana əməl etməlidir. Quran insanlar üçün şəfadır. Bir çox ayələrdə buna rast gəlmək olur. O cümlədən "Yunis" surəsinin 57-ci ayəsində belə buyurulur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Ey (tarix boyu gələn bütün) insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), ürəklərdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.

Quranın keyfiyyətlərindən biri də zikrdir. "Sad" surəsinin 1-ci ayəsində bu barədə belə oxuyuruq:

ص وَالْقُرْآنِ ذِي الذِّكْرِ

-Sad. And olsun şərəfli və  yada salan Qurana.

Bu ayənin nazilolma səbəbi belədir: "Əbu Cəhl bir qrup müşriklə Peyğəmbərin(s) əmisi Əbu Talibin yanına gəlib dedilər: Sənin qardaşınoğlu bizim rahatlığımızı əlimizdən alıb. O, bizim ibadət etdiyimiz bütləri təhqir edib. Sən gərək onun qarşısını alasan. Əbu Talib bir nəfəri Peyğəmbərin(s) yanına göndərdi və onu çağırtdırdı. Peyğəmbər(s) otağa daxil olduqda gördü ki, müşriklərin böyükləri əmisinin yanında əyləşiblər. Peyğəmbər(s) müşriklərə salam verildiyi kimi salamlaşdı: "Salam olsun o kəslərə ki, hidayət yoluna tabe olurlar." Salamdan sonra əyləşdi. Əbu Talib müşriklərin sözlərini ona söylədi. Peyğəmbər(s) əmisinə buyurdu:

أَوَ هَل لَّهُم فِى كَلِمَةٍ خَيرٌ لَّهُم مِن هَذا يَسُودُون بِهَا العَرَب

-Onlara elə bir söz öyrətməyimə razıdırlarmı ki, o sözün vasitəsilə bütün ərəblərin arasında üstün və onlara ağa olsunlar?

Əbu Cəhl tez dilə gələrək dedi: "O nə sözdür elə?"

Peyğəmbər(s) buyurdu:

قُولُوا لا اِلَه اِلّا الله

-Deyin: "Allahdan başqa heç bir məbud yoxdur."

Müşriklərin hamısı əllərini qulaqlarına tutaraq tez otağı tərk etdilər. Otaqdan çıxarkən belə dedilər: “Biz indiyə qədər belə bir söz eşitməmişik. Bu, yalan bir sözdür.”

Elə oradaca Allah-təala bu ayəni nazil etdi:

ص وَالْقُرْآنِ ذِي الذِّكْرِ

-Sad. And olsun şərəfli və yada salan Qurana.

Allah-təala bu ayədə də Qurana and içir. Lakin burada Quranın başqa bir keyfiyyətini bəyan edir. Quran zikri xatırladandır. Quran Allahı insanın yadına salır. Quran Allahın nemətlərini insanlara xatırladır. Quran qiyaməti, habelə insanın özünü insanın yadına salır. İnsan üçün ən böyük bədbəxtlik və xəstəlik odur ki, Allahı, qiyaməti, ölümü və özünü yaddan çıxarsın. Hər kim Allahı yaddan çıxararsa, Allah Öz rəhmətini onlara nazil etməz. “Tövbə” surəsinin 67-ci ayəsində münafiqlərə xitab edilərək belə buyurulur:

نَسُواْ اللّهَ فَنَسِيَهُمْ

-Onlar Allahı unutdular, Allah da onları unutdu (bütün dəlil-sübutları göndərdikdən sonra onları özbaşına buraxdı).

Həmin surənin 19-cu ayəsində yollarını azan insanlar barəsində belə buyurulur:

إِنَّ الَّذِينَ يَضِلُّونَ عَن سَبِيلِ اللَّهِ لَهُمْ عَذَابٌ شَدِيدٌ بِمَا نَسُوا يَوْمَ الْحِسَابِ

-Şübhəsiz, Allahın yolundan azanlar üçün hesab gününü unutmalarının müqabilində şiddətli əzab vardır.

Onlar qiyaməti yadlarından çıxartdıqlarına görə yollarını azdılar. Əgər insan qiyaməti unutsa, xəstəliyə

düçar olar və müxtəlif cinayətlərə əl atar. Əgər insan öləndən sonra diriləcəyini unutsa, şeytan asanlıqla onu yoldan çıxarar. İnsanı nəzarətdə saxlayan amil onun ölümdən sonra dirilib hesab-kitab olunacağını bilməsidir. Əgər bir insan qiyamət günü sorğu-sual olunacağını, əməllərinə görə cavab verəcəyini bilib bunu başa düşsə, o zaman cinayətdən uzaq olar. Buna görə də "Həşr" surəsinin 19-cu ayəsində belə buyurulur:

وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنسَاهُمْ أَنفُسَهُمْ أُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ

-Allahı unutduqlarına görə, Allahın da onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar həmin fasiqlərdir!

Əgər insan özünü unutsa, dünyaya nə üçün gəldiyini də yaddan çıxaracaq. Belə insanların başları yalnız daş, torpaq, dəmir və s. kimi əşyalara qarışar. Gündə bir minik almaq, ev tikmək, qarnını doldurmaq fikri ilə yaşayar. Başı belə şeylərə qarışdığı üçün özünün kim olduğunu tamamilə yaddan çıxarar. Haradan gəldiyini, harada olduğunu və hara gedəcəyini unudar. Quran isə bütün bunları insanın yadına salır. Quranın keyfiyyətlərindən biri zikr olduğu üçün hər kəs onun ətəyindən tutsa, onun özünün kim olduğunu, Allahı və qiyaməti yadına salar.

Bu mətləbin nəticəsi odur ki, imam olaraq yol göstərən, hidayət edən, şəfa verən və qiyaməti, Allahı, cənnəti, cəhənnəmi və insanın kim olduğunu onun özünün yadına salan bu kitaba hikmətli keyfiyyəti vermək mümkündür. Deməli, Quran bu kimi xüsusiyyətlərinə görə hikmətli sayıla bilir.

Həzrət Əli(ə) buyurur: "Həqiqətən, ən gözəl ibrətamiz hekayətlər, ən bəlağətli öyüd-nəsihətlər, ən faydalı zikrlər Allahın kitabındadır."

## Quran Allahın işidir, yoxsa Onun yaratdığı?

Yuxarıda qeyd olundu ki, Allahın ikinci qisim andları Onun yaratdığına və işinə and içməsidir. Həmin andlardan biri Allahın Qurana and içməsidir. Nümunə üçün "Yasin" surəsinin ilk ayələrini qeyd etdik. Allah-təala bu mübarək ayədə hikmətli Qurana and içir. Bu ayədə iki mətləb haqda söz açmışdıq. Ötən bəhslərdə həmin mətləblərdən birini diqqətinizə çatdırdım. O da Quranın hikmətli bir kitab olduğu barədə idi. Bu bəhsimizdə isə ikinci mətləb barəsində söz açacağıq.

Bəhsimizdə olan ikinci mətləb budur ki, görəsən, Quran Allahın  işidir, yoxsa Onun yaratdığı? Bu barədə alimlər arasında elmi mübahisələr vardır və hər bir alim öz dəlil və sübutlarına söykənərək şəxsi fikrini bəyan edir. Həmçinin müxtəlif təriqətlərə məxsus bəzi alimlərin bu barədə öz nəzəri vardır. Bir daha qeyd edim ki, bu məsələ ictimai-siyasi xarakterli bir mübahisə də deyil. Hətta kiminsə bu barədə xüsusi araşdırmalar aparıb günlərlə vaxtını qeyd olunan məsələyə sərf etməsi də bir o qədər zəruri deyildir. Sadəcə olaraq bir çoxları bu məsələ ilə maraqlandığından bu haqda bir neçə kəlmə söz demək qənaətindəyəm.

Sözügedən mətləbi açıq-aydın şəkildə başa düşmək üçün məsələyə daha artıq diqqət yetirmək lazımdır. Yəni məsələnin aydınlaşdırılmasından ötrü bu barədə olan söhbətlərə xüsusi diqqət yetirməliyik. Bu məsələ daha çox elmi bir məsələ olduğu üçün mümkün qədər onu sadə şəkildə nəzərinizə çatdıracağam.

## Sübuti və səlbi sifətlər

Həmin mətləb bundan ibarətdir ki, Allahın iki cür sifəti vardır. Onlardan biri sübutidir ki, buna “sifati cəmaliyyə” - “Allahın camal sifətləri” adlanır. Yəni Allahda olan sifətlər. Hər kəsdə bu sifətlər olmuş olsa, onun kamalına, şövkətinə və əzəmətinə dəlildir. Yəni bu sifətin olması həmin şəxsin kamalına, şövkət və əzəmətinə dəlalət edir. Digər sifət isə səlbidir ki, “sifati cəlaliyyə” – “Allahda olmayan sifətlər” adlanır. Yəni hər kəsdə bu sifət olarsa, həmin şəxsin qüsurluluğuna dəlalət edir. Allahın zatında nöqsan olmadığı üçün neqativ (səlbi) sifətlər də Onda yoxdur.

Sübuti sifətlər Allahda olan sifətlərdir. Məsələn, elm, qüdrət, həyat və bu kimi sifətləri sadalamaq olar. Bu sifətlər kamal və camal sifətləridir. Səlbi sifətlər isə Allahda olmayan sifətlərdir. Məsələn, cisim olmaq kimi sifətlər. Cisim olmağı Allaha aid etmək (Allahı cisim bilmək) haramdır. Çünki Allah cisim deyildir. Əgər cisim olsa, o zaman məkana ehtiyacı olacaqdır. Belə olduqda Allahın ehtiyacı yaranmış olacaqdır. Halbuki biz Quranda “Allahus-Saməd” oxuyuruq. Yəni Allahın nəyəsə ehtiyacı təsəvvür olunmur. Yəni kimsə təsəvvür edə bilməz ki, Allahın kiməsə və ya nəyəsə ehtiyacı vardır. Amma əgər cisim olarsa, onun məkana ehtiyacı yaranacaq. Cisim istər yerdə olsun, istər göydə mütləq məkana ehtiyacı vardır. Məsələn, quş bir cisimdir. O, göydə də olsa, yerdə də olsa həmişə məkana ehtiyacı vardır. Buna görə də səlbi sifətlər Allahda olmayan sifətlərdir. Bu sifətləri Allahda təsəvvür etmək belə mümkün deyildir.

## Sübuti sifətlərin qisimləri

Deməli bildik ki, sübuti sifətlər Allahda olan, səlbi sifətlər isə Allahda olmayan sifətlərdir. Lakin Allahda olan sübuti sifətlər də iki qisimdir. Onlardan biri Allahın zati sifəti, digəri isə feli (iş) sifətidir. Burada yaxşı olar ki, onların hər ikisini başa düşmək üçün açıqlama verək.

**1.Allahın zati sifətləri**

Sübuti sifətlərin biri hissəsi Allahın zatına aid olan sifətlərdir. Yəni bu sifətlər Allahın zatında vardır. Onları Allahdan ayırmaq heç cür mümkün deyil. Yəni Allahın zatını həmin sifətlər təşkil edir. Məsələn, dirilik Allahın sati sifətlərindən biridir. Diriliyi Ondan ayırmaq mümkün deyil. Elm, qüdrət kimi sifətləri Allahdan ayırmaq mümkün deyil. Çünki bütün zati sifətlərin hamısı Allahın zatındadır. Heç vaxt Allahı elmsiz, qüdrətsiz təsəvvür etmək olmaz.

**2. Allahın feli (iş) sifətləri**

Allahın sübuti sifətinin ikinci qisminə gəldikdə isə, onlar Allahın felinin (işinin) sifətləridir. Yəni bu sifətlər Allahın gördüyü işlərin sifətidir. Məsələn, Rəzzaq (Ruzi verən), Xaliq (Yaradan) Allahın feli sifətləridir. Əgər Allah bir şeyi yaratmasaydı, Onun Xaliq olduğunu heç bir kəs bilməyəcəkdi. Əgər Allah ruzi verməsəydi, Onun Rəzzaq olduğunu heç bir kəs anlamayacaqdı. Deməli, Allahın feli sifətlərini onun işlərindən başa düşmək olur. Amma zati sifətlər bunun kimi deyil. Allah ruzi versə də, verməsə də, yaratsa da və yaratmasa da diriliyi ondan ayırmaq olmaz. Çünki dirilik və qüdrət kimi sifətlər Onun zati sifətləridir. Yaratmaq, ruzi vermək kimi sifətlər isə

Onun feli sifətləridir. Məsələn, bir şəxsə baxdıqda insanın ağlına sürücülük və yaxud dərzilik gəlməz. Amma əgər həmin şəxsin bir dəfə paltar tikdiyini, yaxud sürücülük etdiyini görərsə, onu yenə də gördükdə sürücülük, yaxud dərzilik yada düşəcək. Amma dirilik elə deyil. Hər bir insanı gördükdə diriliyi başa düşmək olur. Çünki Allahın zatında dirilik sifəti vardır. Allahın ölüm sifəti yoxdur. Çünki onun zatında ölüm yoxdur. İnsanlar bir zaman yox idilər. Bir zaman onlara həyat verildi, bir zaman da həmin həyat onlardan alınacaq. Amma Allah həmişə diridir və diri də olacaq. Çünki onda ölmək sifəti yoxdur. Dirilik Allahın zatının sifətidir. Amma ruzi vermək, yaratmaq isə Onun işinin sifətləridir. Onun ruzi verməsindən başa düşürük ki, Allah ruzi verəndir. Onun yaratmasından başa düşürük ki, Allah yaradandır. Əgər Allahın ruzi verməsindən xəbərimiz olmasaydı, Onun bu sifətindən də xəbərimiz olmayacaqdı.

## Allahın danışan olması

Burada olan mətləblərdən biri də Allahın sifətlərindən sayılan Onun danışan olmasıdır. Allah-təala yaradan, ruzi verən olduğu kimi, həm də danışandır. Necə ki, "Nisa" surəsinin 164-cü ayəsində oxuyuruq:

وَكَلَّمَ اللّهُ مُوسَى تَكْلِيمًا

-Və Allah Musa ilə məxsus bir tərzdə danışdı.

Təkcə bu ayə deyil, Allahın danışması ilə bağlı başqa ayələr də mövcuddur. Bu ayəni nümunə olaraq qeyd etdik və bu, Allahın danışan olmasından ötrü bizə kifayətdir.

Burada danışmaq dedikdə söhbət təkcə dil və ağız vasitəsilə ifadə olunan sözlərdən getmir. Danışmağın

müxtəlif növləri vardır. “Şura” surəsinin 51-ci ayəsində danışmağın üç növü bizim üçün bəyan edilərək belə buyurulur:

وَمَا كَانَ لِبَشَرٍ أَن يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِن وَرَاء حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا فَيُوحِيَ بِإِذْنِهِ مَا يَشَاء إِنَّهُ عَلِيٌّ حَكِيمٌ

-Heç bir insana Allahla danışmaq yaraşmaz və mümkün olmaz (mətləbin duyğuların rolu olmadan, ya yuxuda, ya da oyaq vaxtı, birbaşa və ya mələk vasitəsilə gizli şəkildə sürətlə təlqin edilməsindən ibarət) vəhy, yaxud (qeyb) pərdə(si) arxasından (danışmaq) və ya (mələklərdən) bir elçi göndərərək Öz izni (və nəzarəti) ilə istədiyini (şəxsin görməsi və səsini eşitməsi ilə) vəhy etməsi istisnadır. Həqiqətən, Allah uca məqamlı və hikmət sahibidir.

Bu mübarək ayədə üç danışıq növündən söhbət açılır. Onlardan biri vəhydir ki, bu barədə ötən bəhslərimizdə geniş söhbət açmışıq. Vəhy elə gizli bir səsdir ki, Peyğəmbər(s) onu eşidə bilir. İkincisi, arada pərdə olmaqla danışmaqdır. Yəni eşidən danışanı görmədən onunla söhbət edir. Məsələn, Allahın Həzrət Musa(ə) ilə danışması kimi. Allah-təala ağacda səs yaradaraq Musa(ə) ilə söhbət edir. “Qəsəs” surəsinin 30-cu ayəsində belə oxuyuruq:

فَلَمَّا أَتَاهَا نُودِي مِن شَاطِئِ الْوَادِي الْأَيْمَنِ فِي الْبُقْعَةِ الْمُبَارَكَةِ مِنَ الشَّجَرَةِ أَن يَا مُوسَى إِنِّي أَنَا اللَّهُ رَبُّ الْعَالَمِينَ

-Musa odun yaxınlığına gəldikdə o vadinin sağ tərəfindən, o bərəkətli (mübarək) torpaq sahəsindən, (oradakı) ağacdan nida gəldi ki, “Ya Musa, şübhəsiz, aləmlərin Rəbbi olan yeganə Allah Mənəm.”

Üçüncü növ danışıq isə Allah-təalanın mələklərdən elçi göndərərək peyğəmbərlə danışmasıdır. Yəni elçi vasitəsilə.

Danışmağın bir növü də vardır ki, bu da işarə və əlamətlərlədir. Ümumiyyətlə, danışmağın mənasına gəldikdə, danışmaq ona deyilir ki, danışan öz fikrində olan sözləri eşidənin beyninə ötürsün. Bu işi bəzən dildə danışmaqla, bəzən səs yaratmaqla, bəzən elçi göndərməklə, bəzən də işarələrlə yerinə yetirmək mümkündür. Məsələn, sürücü nəqliyyat vasitəsinə minib bir yerə getmək istəyir. Məqsədə çatmaq üçün bəzi yerlərdə dayanmalı, bəzi yerlərdən dönməli, bəzi yerlərdə gözləməli olur. Çünki yolda olan əlamət və işarələr onunla danışır və harada nə etmək lazım olduğunu ona başa salır. Əgər işıqforun qırmızı işığı yanırsa, sürücü başa düşür ki, burada mütləq dayanmalıdır. Yol-hərəkət nişanları da danışığın bir növüdür. İndi burada baxaq görək, Quran işarə ilə olan danışıqları qəbul edirmi? Cavab olaraq demək olar ki, Quranda bu barədə kifayət qədər ayələr vardır. Allahın yaratdıqlarının hamısı bizim üçün kəlmədir. Məsələn, “Kəhf” surəsinin 109-cu ayəsində belə oxuyuruq:

قُل لَّوْ كَانَ الْبَحْرُ مِدَادًا لِّكَلِمَاتِ رَبِّي لَنَفِدَ الْبَحْرُ قَبْلَ أَن تَنفَدَ
كَلِمَاتُ رَبِّي وَلَوْ جِئْنَا بِمِثْلِهِ مَدَدًا

-De: “Əgər dəniz mənim Rəbbimin (bütün kainatdan və mövcudatdan ibarət) sözləri(ni yazmaq) üçün mürəkkəb olsa, hətta onun bənzərini (başqa bir dənizi) köməyə gətirsək belə, şübhəsiz, o (dənizlər), Rəbbimin sözləri sona çatmamış qurtarar.”

Bu ayədə işlənmiş "kəlmə" sözü Allahın yaratdıqlarıdır. Ayədə Allah-təala məxluqa "kəlmə" deyir. Yəni bütün bunlar Allahın kəlməsi və sözləridir. Məsələn, gözəl bir binanın qarşısından keçərkən ona diqqətlə baxıb təəccübümüzü bildiririk. Heç bir kəs bizə bir söz demədən həmin binanın bir mühəndis tərəfindən tikildiyini düşünürük. Heç kim ağlına belə gətirmir ki, bu gözəllikdə bina öz-özünə yaranmış olsun. Çünki həmin bina insanla özünəməxsus işarələrlə danışır. Həmin binanın özünəməxsus incəliklərinə baxdıqca onu tikən mühəndisin dahi olduğu daha da gözə çarpır. Əgər bütün aləmə diqqətlə baxsaq, onların bizimlə danışdığının şahidi olarıq. Bütün yaradılışın hamısı Allahın kəlməsidir. Allah-təala beləcə bizimlə danışır. "Ali-İmran" surəsinin 45-ci ayəsində bu məsələ daha açıq-aydın şəkildə bəyan edilir:

إِذْ قَالَتِ الْمَلآئِكَةُ يَا مَرْيَمُ إِنَّ اللّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِّنْهُ اسْمُهُ الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ

-(Yada sal) o zaman(ı) ki, mələklər dedilər: "Ey Məryəm, həqiqətən, Allah sənə Öz tərəfindən adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdə verir."

Bu ayədə Allah-təala Məryəmə(s.ə) bir kəlməni müjdə verir ki, həmin kəlmənin adı Məryəm oğlu İsadır(ə). Deməli, bu ayədən açıq-aydın görürük ki, kəlmənin mənası İsadır(ə) və bu, Allahın yaratdığıdır. Həzrət Əli(ə) bu kimi ayələrin mənasını açıqladıqda belə buyurur:

يَقُول لِما أَرادَ كَوْنَهُ كُنْ، فَيَكُونْ. لا بِصَوْتٍ يَقْرَع، وَ لا بِنداء يُسْمع، وَ إِنَّما كَلامُه سبحانَهُ فِعْلٌ منه، أَنشأه

-Olmasını istədiyi hər bir şeyə “ol!” deyir və o, mövcud olur. *(Bu söz)* nə *(qulaqlara)* daxil olan səs vasitəsilədir, nə də eşidilən harayla. Allahın kəlamı Onun yaratdığı işindən başqa bir şey deyil.[1]

Bu mətləbdə də aydın oldu ki, Allah insanla danışır və danışmaq Onun sifətlərindən biridir. Allahın danışmağı isə qeyd etdiyimiz kimi, bəzən vəhy vasitəsilə, bəzən səs vasitəsilə, bəzən mələk vasitəsilə, bəzən də yaratdıqlarının hamısı ilə danışır. Yəni Allahın yaratdıqlarının hamısı Onun kəlmələridir.

Bu mətləb də bizə aydın oldu. Belə isə hazırkı bəhsimizdən belə bir nəticəyə gəlirik ki, Allah bizimlə danışır. Çünki danışmaq Allahın sifətlərindəndir. Amma danışdıqdan sonra həmin danışdığı sözlər Onun yaratdığıdır. Məsələn, Allah-təala Quranda belə and içir:

وَالسَّمَاء وَمَا بَنَاهَا. وَالْأَرْضِ وَمَا طَحَاهَا

-And olsun göyə və onun bina olunmasına (yaratmağa), And olsun bu yerə və onun döşənməsinə.

Bu ayədə Allah-təala iki and içir. Bir göyə, bir də onun yaradılmasına. Həmçinin yerə and içdikdən sonra onun döşənməsinə də and içir. Bunlardan biri Allahın feli (işi), biri isə Onun yaratdığıdır. Çünki göyü yaratmağın və yeri döşəməyin özü də bir qüdrətdir. Yaratmaq Allahın əməlidir (felidir). Yaratdıqdan sonra həmin şey Allahın məxluqu sayılır. Danışmaq da eynilə belədir. Allah danışandır. Danışmaq Allahın feli sifətidir. Danışdıqdan sonra həmin kəlmələr vücuda gəlir və Allahın yaratdığı, məxluqu sayılır. Nəticədə özümüz görək ki, Quran Allahın

---

[1] Nəhcül-bəlağə, 228-ci xütbə( bir hissəsi).

sifətidir, yoxsa məxluqu? Bütün bu bəhsimizdən əldə edilən nəticə isə budur ki, Quran Allahın məxluqudur. Çünki Allah onu danışıb göndərmişdir. Həmin danışıqlar qurtardıqdan sonra məxluqa çevrilir. Deməli, Quran indi Allahın yaratdığı məxluqdur. Quranın bütün kəlmələri Allahın sözləridir. Hətta Allah-təalanın bütün yaratdığı məxluqatın minacatına cavab verməsi də Allahın danışığı və kəlamıdır. Allah-təalanın heyvanlarla, insanlarla və digər məxluqlarla özünəməxsus danışığı vardır. Aləmdə baş verən hər bir hadisə Allahın danışığıdır.

## Heyvanların və insanların minacatına cavab Allahın kəlamıdır

Ənəs ibn Malik deyir: “Günlərin birində Peyğəmbərlə(s) bir çəmənlikdə əyləşmişdik. Ağacda əyləşən bir göyərçin öz-özünə oxuyurdu. Peyğəmbər(s) mənə buyurdu: Ey Ənəs, o göyərçinin nə dediyini bildinmi? Dedim: Xeyr, ya Rəsulallah. Peyğəmbər(s) buyurdu: O, Allahla minacat edərək deyir ki, ey mənim Rəbbim, gözlərimi məndən alıb, məni kor yaratmısan. Mənə ruzi yetir, çünki mən acam.

Ənəs deyir: Bir də gördük ki, o göyərçin ağzını açdı və bir çəyirtkə uçaraq gəlib onun ağzına girdi. Göyərçin onu yedikdən sonra yenə də oxumağa başladı. Peyğəmbər(s) buyurdu: İndi bilirsənmi o nə deyir? Dedim: Xeyr, ya Rəsulallah. Peyğəmbər(s) buyurdu: O deyir ki, şükürlər olsun o Allaha ki, Onu çağıranı unutmur.”

Görürük ki, Allah-təalanın məxluqata cavab verməsi Onun kəlamıdır. Allah-təala yaratdığı hər bir məxluqata cavab verir və Onun cavab verməsi də Onun kəlamıdır. Allah hər bir canlıya özünəməxsus şəkildə cavab verir.

Məsələn, bir nəfər səndən qələm istəyir. Sən ona iki cür cavab verə bilərsən. Biri budur ki, deyəsən "olmaz", "vermirəm". Bir cavab da budur ki, sən heç bir söz demədən qələmi ona uzadasan. Hər iki hal danışıq sayılır. Həm dildə demək, həm də qələmi ona uzatmaq. Odur ki, insanlar Allahla söhbət edir, Allah da onlara cavab verir. Elə bir insan yoxdur ki, Allahla minacat etsin, amma Allah ona cavab verməsin. Tarixdə bu barədə olan nümunələrdən birinə diqqət yetirək.

Musa Peyğəmbərin(ə) dövründə Bəni-İsraildə azğın bir cavan yaşayırdı. Onun işi günah və pis işlər görməkdən ibarət idi. Hamı onun pis işlərindən təngə gəlmişdi. Onu nə qədər başa salırdılarsa, heç kəsin sözünə qulaq asmır və öz bildiyini edirdi. Allah-təala Musa Peyğəmbərə(ə) xitab edərək buyurdu: "Onu yaşadığınız məntəqədən qovun."

Həmin cavanı oradan qovdular. Cavan həmin əyalətdən baş götürüb başqa bir kəndə getdi. Oranın camaatı da onu qəbul etmədilər. Hara getdisə, onun üçün yaşamaq mümkün olmadı. Axırda məcbur olub dağların birində bir mağaraya sığındı. Bir müddət orada yaşadıqdan sonra xəstələnərək halsızlaşdı. Elə bu haldaca üzünü torpağa qoyub Allahla minacat etməyə başladı: "İlahi, əgər anam mənim başımın üstündə olsaydı, mənə mərhəmət göstərib nəvaziş edərdi. Əgər indi o, mənim yanımda olsaydı, bu halıma və qəribçiliyimə ürəyi yanar və ağlayardı. Ey mənim Allahım, anamı məndən aldın, heç olmasa Öz rəhmətini məndən kəsmə. Ürəyimi hicran və ayrılıq atəşində yandırdın, heç olmasa məni Öz qəzəbinin odunda yandırma."

Allah-təala mələklərə əmr verdi ki, onun ata və anasının surətinə girib onun başının üstündə dayansınlar. Mələklər oğlanın ata və anası surətində onun yanına

gəldilər. Oğlan gözlərini açanda ata-anasını başı üzərində gördü. Amma artıq gec idi. Onun son nəfəsi idi. Allahla minacat edə-edə dünyasını dəyişdi. Allah-təala Musa Peyğəmbərə(ə) xitab edərək buyurdu: "Ey Musa, filan dağdakı mağarada bir nəfər dünyasını dəyişib. Get onun qüslünü ver, onun üçün namaz qıl və dəfn elə."

Musa Peyğəmbər(ə) həmin dağa yollandı. Mağaraya daxil olduqda əyalətdən qovduğu həmin cavanı gördü. Ərz etdi: "İlahi, bu həmin fasiq cavandır ki, Sənin əmrinlə şəhərdən qovmuşduq. Hansı səbəbə görə onu bağışladın?"

Allah-təala buyurdu: "Mən onu üç səbəbə görə bağışlayıb əfv etdim. Birincisi, onun xəstə olması, ikincisi, qürbətdə olması və üçüncüsü, son anlarında günahlarını etiraf etməsi idi. Bu üç səbəbə görə Öz mərhəmətimi ona şamil etdim."

Bu kimi əhvalat və hadisələrdən çox danışmaq olar. Bu əhvalatı nümunə üçün qeyd etdim ki, Allah-təala Onu çağıran hər bir kəsə müxtəlif tərzlərdə cavab verir. Söhbətimizin əsas nəticəsi budur ki, Allahın danışmağı Onun feli sifətidir (işidir). Danışıb qurtardıqdan sonra həmin danışıqlar Onun məxluqu sayılır. Deməli, Quran Allahın məxluqudur. Allah-təala dünya və axirətdə bizi Qurandan ayrı salmasın. İnşallah!

## Allahın İslam Peyğəmbərinin(s) canına and içməsi

Qeyd olundu ki, Allahın Quranda neçə qisim andları vardır. Həmin andlardan biri Öz zatına and içməsidir ki, bu barədə söhbət etmişik. Allahın ikinci andı isə Onun Öz əməlinə və yaratdığı məxluquna and içməsidir. Həmin andlardan biri Qurandır ki, Allah-təala nazil etdiyi bu

müqəddəs kitaba and içir. Bu barədə də kifayət qədər söhbət etdik. Allahın ikinci qisim andlarının ikincisi İslam Peyğəmbərinin(s) canına içdiyi anddır. Yəni Allah-təala Quranda mühüm bir mətləbi bəyan edərkən Peyğəmbərin(s) həyatına, ömrünə və onun müqəddəs olan vücuduna and içir. “Hicr” surəsinin 72-ci ayəsində belə buyurulur:

لَعَمْرُكَ إِنَّهُمْ لَفِي سَكْرَتِهِمْ يَعْمَهُونَ

-Sənin canına and olsun ki, onlar öz (küfr, günah və şəhvət) məstliklərində çaşqın və sərgərdan idilər.

Allah-təala bu ayədə İslam Peyğəmbərinin(s) canına, ömrünə və həyatına and içir. Peyğəmbərin(s) ömür və həyatı əvvəldən axıradək bərəkətli və mübarək idi. Allah-təala bu ayədə mühüm bir məsələ barəsində Həzrətin(s) canına and içdikdən sonra həmin mətləbi bəyan edir. Həmin mətləb Həzrət Lut Peyğəmbərin(ə) qövmünün məsələsi idi. Lut Peyğəmbərin(ə) qövmü çox azğınlaşmışdı. Onlar əxlaqi cəhətdən çox pis və iyrənc bir işə əl atmışdılar. Yəni öz cinsi tələbatlarını qane etmək üçün qeyri-təbii yola girmişdilər. Belə ki, onlar qadınlardan əl çəkib yalnız kişilərə meyl göstərir və homoseksualizmlə məşğul olurdular. Onların gördüyü bu iyrənc işlər Allahın qəzəbinə səbəb olurdu. Lut Peyğəmbər(ə) otuz il onları həmin işdən əl çəkməyə çağırdı. Lut(ə) istəyirdi ki, onları hidayət edərək düz yola gətirsin və onlar belə bir iyrənc işdən əl çəksinlər. Otuz il onları məzəmmət edib təbliğat aparmasına baxmayaraq, qövmü tutduqları işdən əl çəkmədi. Sonda Allah-təala onlara bəla nazil etdi. Qeyd olunan ayədə də Allah-təala İslam Peyğəmbərinin(s) ömrünə and içərək Lutun(ə)

qövmünə əzab nazil etdiyini bəyan edir. Həmin ayənin ardınca belə buyurur:

فَأَخَذَتْهُمُ الصَّيْحَةُ مُشْرِقِينَ . فَجَعَلْنَا عَالِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهِمْ حِجَارَةً مِّن سِجِّيلٍ. إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّلْمُتَوَسِّمِينَ

-Və (nəhayət) günəş çıxan zaman onları (göydən gələn) səs bürüdü. Beləliklə, onların şəhərlərini alt-üst etdik və onlara gil daşlardan yağış yağdırdıq. Şübhəsiz, bunda (bu hadisədə) ağıl və şüur sahibləri üçün (Allahın qüdrət və qəzəbi, bəndənin azğınlığının sonu barəsində) nişanələr vardır.

Allah-təala belə bir mətləbi bəyan edir və Peyğəmbərin(s) ömrünə and içir. Quranı əvvəldən axıradək oxuduqda görürük ki, Allah-təala insanlar arasında İslam Peyğəmbərindən(s) savayı başqa heç bir kəsin canına and içməyib. Çünki insanların ən gözəli, mükəmməli və şərafətlisi İslam Peyğəmbəridir(s). Bu barədə İbn Abbas belə deyir: "Allah-təala Quranda insanlar arasında Peyğəmbərdən(s) savayı başqa heç bir kəsin canına and içməmişdir. Çünki Allah-təala İslam Peyğəmbərindən(s) şərafətli, üstün və mükəmməl bir məxluq yaratmamışdır."

## İslam Peyğəmbərinin(s) fəziləti

Burada çox yaxşı olar ki, qısaca da olsa İslam Peyğəmbərinin(s) üstünlük və fəzilətləri barədə söz açaq. Baxaq görək, Allah-təala Həzrətin(s) fəzilətləri barədə hansı söhbətləri bizim üçün bəyan edir. Allahın Həzrət Peyğəmbər(s) barədə olan sözlərindən biri "Ali-İmran" surəsinin 164-cü ayəsidir. Bu ayədə Allah-təala İslam Peyğəmbərinin(s) göndərilməsini insanlara minnət qoyur.

Ümumiyyətlə, Allah-təala heç bir nemətə görə insanlara minnət qoymamışdır. Lakin İslam Peyğəmbərini(s) göndərməkdə bütün möminlərin boynuna haqq qoyaraq belə buyurur:

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ

-Şübhəsiz, Allah möminlərin boynuna onlara (mələklərdən və cinlərdən deyil) özlərindən Onun ayələrini onlara oxuyan, onları paklaşdıran və onlara (səmavi) kitabı, şəriət hökmlərini və əqli maarifi öyrədən bir peyğəmbər göndərən zaman haqq qoydu.

Buradan açıq-aydın şəkildə görürük ki, İslam Peyğəmbərinin(s) mübarək olan vücudu çox şərafətli və bərəkətlidir. Allah-təala yalnız onu göndərməklə möminlərin boynuna minnət qoyur.

## İslam Peyğəmbəri(s) bütün varlıq aləmi üçün Allahın rəhmətidir

Bundan əlavə, Quran ayələrinə diqqət yetirdikdə Həzrətin(s) başqa üstün cəhətlərinin də şahidi oluruq. Allah-təala onu bütün aləmlərə rəhmət və mərhəmət olaraq göndərmişdir. İslam Peyğəmbəri(s) bütün yaradılışın hamısı üçün rəhmətdir. “Ənbiya” surəsinin 107-ci ayəsində belə oxuyuruq:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

-(Ya Məhəmməd!) Biz səni aləmdəkilər üçün yalnız bir rəhmət olaraq göndərmişik.

İslam Peyğəmbərinin(s) mübarək olan vücudu həm bu dünya, həm axirət dünyası, həm insanlar, həm də qeyri-

insanlar üçün rəhmət və mərhəmətdir. Hətta Həzrət(s) mələklər üçün də rəhmətdir. Bu mübarək ayə nazil olduqda Peyğəmbər(s) Cəbrayıldan(ə) soruşdu: "Ey Cəbrayıl, bu rəhmətdən sənə də pay düşürmü?" Cəbrayıl(ə) ərz etdi: "Bəli, ya Rəsulallah. Çünki mən də öz aqibətimin necə olacağından çox qorxurdum. (Aqibətimdən çox nigaran idim.) Sənə iman gətirdikdən sonra Quranda mənim barəmdə nazil olmuş ayəni gördüm və aqibətimdən arxayın və rahat oldum. Allah-təala sənə nazil etdiyi kitabda mənim barəmdə belə buyurmuşdur:

ذِي قُوَّةٍ عِندَ ذِي الْعَرْشِ مَكِينٍ

-(Elə bir elçi ki,) çox qüvvətlidir və ərşin sahibi (Allahın) yanında məqam və mənsəb sahibidir."[1]

## Peyğəmbər(s) Məkkədə olduğuna görə Allah Məkkəyə and içir

Beləcə, biz görürük ki, İslam Peyğəmbərinin(s) şərafət və məqamı o dərəcədədir ki, hətta onun rəhmət payından mələklər də bəhrələnirlər. Quranda "Bələd" surəsinə diqqət yetirdikdə görürük ki, əgər Allah-təala Məkkəyə and içirsə, deməli Peyğəmbərin(s) vücuduna görə and içmişdir. Yəni Peyğəmbərin(s) orada doğulub boya-başa çatdığına görə Allah-təala oranı daha da şərafətli etmişdir və əgər ora and içmişsə, onun vücudunun hörmətinə görə and içmişdir. Ayə belədir:

لَا أُقْسِمُ بِهَذَا الْبَلَدِ. وَأَنتَ حِلٌّ بِهَذَا الْبَلَدِ

---

[1] Təkvir surəsi, ayə 20.

-Xeyr, and olsun bu şəhərə (əzəmətli Məkkəyə), Sənin yerləşdiyin bu şəhərə.

Bəzi təfsirçilər ayənin əvvəlində işlənmiş “La” kəlməsini inkar kimi işlətmişlər. Belə olduqda ayənin mənası bu cür alınır: “Mən bu şəhərə and içmirəm, ona görə ki, sənə bu şəhərdə çox əzab-əziyyət verdilər və sən də oradan (Mədinəyə) hicrət etdin.”

Hər iki halda görürük ki, əgər Allah-təala Məkkəyə and içirsə, yaxud and içmirsə səbəbkar Peyğəmbəridir(s). Yəni and içirsə onun mübarək vücuduna görədir, and içmirsə ona həmin şəhərdə əziyyət verdiklərinə görədir.

## Peyğəmbərin(s) əxlaqı ən yüksək əxlaqdır

Peyğəmbərin(s) əxlaqına gəldikdə isə, Quran onu çox əzəmətli və yüksək sayır. Biz yaşadığımız dünyaya elmi nöqteyi-nəzərdən diqqət yetirdikdə onun nə qədər əzəmətli və böyük olduğunun şahidi oluruq. Dənizlər, dağlar, meşələr, müxtəlif canlılar, faydalı qazıntılar, göy aləmində olan böyük sistem və qalaktikalar öz əzəməti ilə insanları heyran edir. Hətta astronomiya elmində ən böyük alim və mütəxəssislər belə hər hansı bir ulduzun, ayın, günəşin və s.-in barəsində konkret bir nəzəriyyə irəli sürə bilmirlər. Nəinki qalaktikaların, hətta yer kürəsindəki varlıqların barəsində belə çox cüzi məlumata malikdirlər. Çünki dünya çox böyük və əzəmətlidir. Bütün bunlara baxmayaraq, Allah-təala “Nisa” surəsinin 77-ci ayəsində belə buyurur:

قُلْ مَتَاعُ الدَّنْيَا قَلِيلٌ وَالآخِرَةُ خَيْرٌ لِّمَنِ اتَّقَى

-(Ya Məhəmməd) De: “Dünyanın mənfəəti azdır və təqvalılar üçün axirət daha yaxşıdır.”

Dünya bütün bu əzəmət və böyüklüyü ilə yenə də çox az və mənfəətsizdir. Amma axirət isə təqvalı insanlar üçün daha yaxşı və mənfəətlidir. Quranda Peyğəmbərin(s) əxlaqı haqda söhbət açıldıqda belə buyurulur:

وَإِنَّكَ لَعَلى خُلُقٍ عَظِيمٍ

-Həqiqətən, sən (bütün insani, əxlaqi fəzilətlərin cəm olduğu) böyük bir əxlaqa maliksən.[1]

Bu ayələrdən açıq-aydın görürük ki, Peyğəmbərin(s) özünün və əxlaqının əzəməti daha böyükdür. Peyğəmbərin(s) vücudu təmiz və pakdır. Onun bütün hərəkətlərində ismət və məsumluq gözə çarpır. Onun heç bir hərəkətində xəta və günah görünməmişdir. Həzrətin(s) danışığı, baxışı və bütün hərəkətləri Allahın bəyəndiyi kimidir. Peyğəmbərin(s) danışığına diqqət yetirdikdə "Nəcm" surəsinin 3-cü ayəsində belə oxuyuruq:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى

-O, əsla nəfsi istəkləri ilə danışmır.

Dünyada kimin barəsində belə bir sözü deyərlər. Məsumlardan başqa elə bir insan tapılarmı ki, dilindən xəta çıxmamış olsun? İnsanlar gün ərzində neçə dəfə yalan danışır və dil xətalarına yol verirlər. Amma Peyğəmbər(s) ömrünün əvvəlindən axırına qədər bircə dəfə də olsun yalan danışmayıb və günah işlətməyib. Allah-təala "Nəcm" surəsinin 17-ci ayəsində belə buyurur:

مَا زَاغَ الْبَصَرُ وَمَا طَغَى

-(Peyğəmbərin) göz(ü gördüyünü) əsla səhv görmədi və (görməli olduğunda) həddi aşmadı.

---

[1] Qələm surəsi, ayə 4.

Həzrətin(s) gözləri zərrə qədər də olsun həddindən çıxmamışdır. Gözlər üçün təyin olunan şeylərdən başqa heç bir şeyə baxmayıb. Yəni gözlər üçün qoyulan sərhədi heç bir vaxt aşmayıb. Hətta onun bütün bədən üzvləri və qəlbi belə zərrə qədər də olsun həddi keçməyib. "Nəcm" surəsinin 11-ci ayəsində belə oxuyuruq:

مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى

-(Peyğəmbərin) qəlb(i) gördüyündə yalan demədi.

Peyğəmbərin(s) bədən üzvləri və ruhu məsum idi. Ən əsas insanın qəlbidir ki, qəlbin necə olduğu bədən üzvlərində görünür. Əgər insanın ruhu təmiz olarsa, bədən üzvlərinin hamısı təmiz olacaq. Hər bir kəsin bədən üzvlərində xəta və günah görünürsə, onun qəlbi həmin qədər çirkli və natəmizdir. Məsələn, böyük bir su mənbəyindən şəhərdəki evlərə borular vasitəsilə su çəkirlər. Həmin su şor olarsa, evlərə çəkilmiş su kranlarından da şor su axacaq. Əgər su şirin olarsa, evlərə gələn su da şirin olacaq. Deməli, evlərə gələn suyun necəliyi mənbədə olan suyun necə olmasından xəbər verir. Heç bir vaxt ola bilməz ki, su mənbəyindəki su şor olsun, amma evlərə şirin su gəlsin. Buna görə də əgər insanın ürəyi təmiz olarsa, onun qulağı, gözü, dili və s. bədən üzvləri də təmiz olacaqdır. Əgər hərdənbir insanların bədən üzvlərindən xəta və günah görünürsə, həmin yol verilən xəta qədər ürəyi də çirklidir. Amma Peyğəmbərə(s) gəldikdə isə, ömrünün əvvəlindən axırına qədər onda kiçik də olsa belə xəta görünmədi. Çünki onun qəlbi pak və tər-təmiz idi.

## Allah və mələklər daim İslam Peyğəmbərinə(s) salavat göndərirlər

İslam Peyğəmbəri(s) hər bir cəhətdən mükəmməl olduğu üçün Allah və bütün mələklər daim ona salam-salavat göndərirlər. “Əhzab” surəsinin 56-cı ayəsində onun barəsində belə buyurulur:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

-Həqiqətən, Allah və Onun mələkləri daim Peyğəmbərə salam (salavat) göndərirlər. Ey iman gətirənlər, ona salam (salavat) göndərin və tamamilə (onun əmrinə) təslim olun.

## Salavatın fəziləti

Qeyd olunan ayədə açıq-aydın görürük ki, Allah və mələklər İslam Peyğəmbərinə(s) salam-salavat göndərirlər. Qeyd olunmalıdır ki, biz müsəlmanlar hər dəfə Peyğəmbəri(s) yad edərkən salavatla yad edirik. Yəni nə vaxt yadımıza düşürsə, o zaman da salavat göndəririk. Amma Allah və mələklərin salavatı bizimki kimi deyil. Onlar Peyğəmbərə(s) daim salam-salavat göndərirlər. Yəni onların Peyğəmbərə(s) göndərdikləri salavat əbədidir və heç bir vaxt kəsilmir. Salavat elə bir əməl və zikrdir ki, onun fəziləti daha çoxdur. Bir əməl ki, Allahın və mələklərin daimi və əbədi işidir, şübhəsiz, bu əməlin fəzilət və üstünlüyü də çox olmalıdır. İmam Sadiq(ə) buyurur: “Hədislərdə nəql olunur ki, hər kəs sübh və məğrib namazlarından sonra yerindən qalxmadan və yerini dəyişmədən bu ayəni oxuyaraq Peyğəmbərə(s) salavat göndərsə, Allah- təala həmin şəxsin yüz istəyini yerinə yetirər. Həmin istəklərin yetmişi dünya, otuzu isə axirət istəkləridir.”

Salavat insanın əməllərinin ağırlaşmasına səbəb olur. Yəni qiyamət günü insanın əməlləri ölçülərkən dünyada Peyğəmbərə(s) göndərdiyi salavatlar onun yaxşı əməllərinin ağır gəlməsinə səbəb olacaqdır. Həmçinin hər kəs günahının bağışlanmasını istəsə, Peyğəmbər(s) və Əhli-beytinə(ə) salavat göndərsin.

قَالَ الرِّضَا(ع): مَنْ لَمْ يَقْدِر عَلَى مَا يُكَفِّرُ بِهِ ذُنُوبَهُ فَلْيُكْثِرْ مِنَ الصَلَاةِ عَلَى مُحَمَّدٍ وَآلِهِ، فَإِنَّهَا تَهدم الذُّنُوب هداماً

-İmam Rza(ə) buyurur: “Hər kəsin özünü günahlardan təmizləməyə gücü çatmırsa, Peyğəmbər(s) və Ali-Peyğəmbərə(s) çoxlu salavat göndərsin. Çünki salavat insanın günahlarını möcüzə kimi aradan qaldırır.”

قالَ رَسولُ اللهِ (ص): مَنْ صَلَّى عَلَيَّ كُلَّ يَومٍ ثَلاثَ مَرّاتٍ وَفِى كُلِّ لَيلَةٍ ثَلاثَ مَرّاتٍ حُبّاً وَشُوقاً كانَ حَقّاً عَلى اللهِ عَزَّوَجَلَّ أنْ يَغْفِرَ لَه ذُنُوبَه تِلكَ الليلة وَذلكَ اليومَ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim şövq və məhəbbətlə hər gün mənə üç dəfə salam-salavat göndərərsə, Allah-təala həmin şəxsin o gün və o gecə etdiyi günahların hamısını bağışlayar.”

Keçmiş peyğəmbərlərin həyatına diqqət yetirdikdə görürük ki, onlar da İslam Peyğəmbərinə(s) salam-salavat göndərmişlər. Həzrət İbrahimin(ə) Allahın xəlili olmasının səbəblərindən biri də İslam Peyğəmbərinə(s) çoxlu salavat göndərməsi idi.

قالَ الصَّادِقُ(ع): إنّما اتَّخَذَ اللهُ إبراهيمَ خليلاً لِكَثْرَةِ صَلاتِهِ علي محمّدٍ وأهلِ بيتِهِ صلواتُ اللهِ عَلَيهم.

-İmam Sadiq(ə) buyurur: "Həqiqətən, Allah-təala İbrahimi(ə) Məhəmməd(s) və Əhli-beytinə(ə) çoxlu salam-salavat göndərdiyinə görə Özünə dost və xəlil seçdi."

Digər bir hədisdə İslam Peyğəmbəri(s) buyurur: "Hər kəs (mənə) çoxlu salavat göndərsə, ölümün acılığından və qorxusundan nicat tapar."

Həmçinin buyurur: "Hər kəs gün ərzində min dəfə mənə salavat göndərsə, dünyadan getməzdən öncə (can verən halında) cənnətdəki yerini ona göstərərlər."

Allah-təala yer üzündə ilk insan olaraq Adəmi(ə) yaratdı. Biz insanların hamımızın babası Həzrət Adəm(ə) olmuşdur. Adəm Peyğəmbərin(ə) həyat yoldaşı Həzrət Həvvadır. Allah-təala bütün bəşəriyyəti bu iki insandan xəlq edib. Həzrət Adəm(ə) yarandıqdan sonra ətrafına baxarkən bir insanın olduğunu gördü. Cəbrayıldan(ə) soruşdu: "Ey Cəbrayıl, Allah-təala məni yaratdıqdan sonra mələklərə mənə səcdə etməyi əmr etdi. Bütün mələklər səcdə etdilər, lakin şeytan mənə səcdə etməkdən boyun qaçırdı. Mən Allahın yaratdığı ilk insanam. Bəs mənim kənarımda bənzərim olan ikinci şəxs kimdir?" Cəbrayıl(ə) dedi: "Ey Adəm, bu Həvvadır, Allah-təala onu sənin üçün yoldaş və munis yaratdı." Həzrət Adəm(ə) Həvva ilə tanış olmaq məqsədilə irəli gəlib görüşmək üçün əlini uzatdı. Cəbrayıl(ə) onun əlindən tutub dedi: "Belə olmaz. İlk növbədə sizin kəbininiz oxunmalıdır. Kəbin oxunmazdan əvvəl mehriyyə müəyyən edilməlidir." Həzrət Adəm(ə) soruşdu: "Onun mehriyyəsi nədir?" Cəbrayıl(ə) dedi: "Onun mehriyyəsi Məhəmməd(s) və onun Əhli-beytinə(ə) salavat göndərməkdir." Adəm(ə) üç dəfə "Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd" - dedikdən

sonra Allah tərəfindən onların kəbinləri kəsildi. Adəmlə Həvva bir-birinə məhrəm və ər-arvad oldular.

Allah-təala Həzrət Məhəmmədin(ə) vücudunu mübarək və şərafətli etmişdir. İnsanlar arasında yeganə insandır ki, Allah-təala Quranda onun canına and içir. Həmçinin daim ona salam-salavat göndərir və iman gətirənlərə də ona salavat göndərməyi təkid edir.

## Allah Quranda İslam Peyğəmbərinin(s) adını Öz adının yanında çəkir

İslam Peyğəmbərinin(s) şərafət və üstünlüklərindən biri də budur ki, Allah-təala onun adını Quranda Öz adının yanında çəkir. Belə desək daha dolğun çıxar ki, İslam Peyğəmbərinin(s) daha üstün, daha şərafətli, daha fəzilətli olduğunu ondan başa düşürük ki, Allah-təala Quranda Öz adını çəkərkən Həzrətin(s) də adını Öz adı ilə yanaşı zikr edir. Quranda belə ayələrə bir neçə yerdə rast gəlmək mümkündür. Həmin ayələrdən bir neçəsini diqqətinizə çatdırıram. “Münafiqun” surəsinin 8-ci ayəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ

-Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə tabe olun.

Allah-təala bu mübarək ayədə bütün möminlərə xitab edərək Özünə və Peyğəmbərinə(s) itaət etməyin vacibliyini bəyan edir. Yəni Allaha itaət etməyin vacib olduğu kimi, Peyğəmbərə(s) də itaət etməyin vacibliyi buyurulur. Beləliklə, bütün möminlərə vacibdir ki, Allaha və Onun Peyğəmbərinə(s) itaət etsinlər. Həmin yerlərdən

biri “Ənfal” surəsinin 24-cü ayəsidir. Allah-təala bu ayədə də iman gətirənlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ

-Ey iman gətirənlər, sizi sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin.

Bu ayədə də Allah-təala Peyğəmbərin(s) adını Öz adının yanında çəkərək bütün möminləri həm Allahın, həm də Peyğəmbərin(s) çağırışını qəbul etməyə çağırır. Həmçinin “Həşr” surəsinin 8-ci ayəsində də Allah- təala Peyğəmbərin(s) adını Öz adının yanında çəkir. Bu ayədə mühacirlər barəsində söz açılmışdı. Mühacirlər o kəslərdir ki, Peyğəmbərlə(s) birgə Məkkədən Mədinəyə hicrət etmişdilər. Onların Məkkədə evləri, bağları və malları qalmışdı. Burada həmçinin heyvanları, ticarətxanaları və gəlirləri var idi. Lakin onlar məcburiyyət qarşısında qalaraq öz imanlarına və Peyğəmbərə(s) görə buraya hicrət etdilər. Onlar hər bir şeylərini orada tərk edərək Mədinəyə gəlmişdilər. Mədinəyə gəldikdə elə bir vəziyyətdə idilər ki, hətta axşam yeməyinə bir şeyləri də yox idi. Həmin vaxt belə bir ayə nazil oldu ki, Mədinədəki iman gətirmiş möminlər onlara kömək etsinlər. Peyğəmbərlə(s) birgə mühacirət edənlər mühacir, Mədinədə Peyğəmbərə(s) iman gətirib mühacirlərə kömək edənlər isə ənsar adlandırıldı. Allah-təala onların barəsində belə buyurur:

الَّذِينَ أُخْرِجُوا مِن دِيارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ أُوْلَئِكَ هُمُ الصَّادِقُونَ

-(Fəyin bir hissəsi) yurdlarından çıxarılmış və malları əllərindən alınmış, Allahın fəzl-mərhəmət və razılığını istəyən, Allaha və Onun Rəsuluna kömək edən yoxsul mühacirlərə məxsusdur. Əsl sadiqlər elə bunlardır.

Görürük ki, bu mübarək ayədə də İslam Peyğəmbərinin(s) adı Allahın adı ilə yanaşı zikr olunmuşdur. Yəni Peyğəmbərə(s) kömək etmək Allaha kömək etmək, Peyğəmbərə(s) itaət etmək Allaha itaət etməkdir. “Nisa” surəsinin 14-cü ayəsini oxuduqda burada da görürük ki, Allah-təala Peyğəmbərin(s) adını Öz adının yanında çəkmişdir. Bu ayədə Allah-təala belə buyurur:

وَمَن يَعْصِ اللّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ عَذَابٌ مُّهِينٌ

-Kim Allaha və Onun peyğəmbərinə itaətsizlik etsə və Onun (müəyyənləşdirdiyi) sərhədləri aşsa (Onun hökmlərinə qarşı çıxsa), (Allah) onu həmişəlik qalacağı oda daxil edəcək və onun üçün alçaldıcı bir əzab vardır.

“Münafiqun” surəsinin 8-ci ayəsinə diqqət yetirdikdə görürük ki, Allah-təala Peyğəmbərin(s) adını Öz adının yanında zikr edir və izzətin onlara məxsus olduğunu bəyan edir. Həmin ayədə belə buyurulur:

وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ

-İzzət və qüdrət Allaha, Onun Rəsuluna məxsusdur...

Bizim dünyada gördüyümüz dünyəvi izzətlərin hamısı məcazi və fani izzətlərdir. Kimisi özünə imarətlər tikdirməklə, kimisi çoxlu mal-dövlət yığmaqla, kimisi müxtəlif vəzifələr əldə etməklə özlərini izzət sahibi hesab edirlər. Lakin bütün bu izzətlərin hamısı məcazi olduğu

üçün bir gün məhv olub aradan gedəcəkdir. Məsələn, bəzən kiçik uşaqların evcik-evcik oynamaqlarına diqqətlə baxdıqda görürük ki, hər biri torpağın üzərinə cızıq çəkərək "bu, mənim evimdir" deyir. Sonra bir-birini cızıqdan çəkdikləri evlərinə qonaq çağırırlar. Onlar özləri də bilirlər ki, bütün bunlar həqiqi deyil. Onlar torpaq üzərində cızıq çəkərək özlərinə düzəltdikləri evlərin həqiqi olmadığını bildikləri kimi, Həzrət Əli(ə) də dünyada özlərinə imarətlər tikənləri həmin uşaqlara bənzədir və onların dünyada əldə etdiklərini məcazi bir məsələ olaraq qəbul edir. Çünki Həzrət(ə) hər bir şeyin zahirini deyil, həqiqətini görürdü. Dua edərkən Allaha belə minacat edərdi: "Ey mənim Allahım, hər bir şeyin həqiqətini və batinini mənə göstər."

Odur ki, dünyada gördüyümüz cah-cəlallar, şan-şöhrətlər, hay-küylər, imarətlər və mal-dövlətlərin hamısı gəldi-gedərdir və məcazidir. Uşaqların evcik-evcik oynamaqları bir neçə gündən ibarətdir. Böyüklərin də bütün bu dünyadan əldə etdikləri əlli-altmış ildən ibarətdir. Həqiqi baxımdan hər ikisi məcazi və aradan gedəsidir. Bütün bunlardan danışmaq, onların əldə etdikləri barədə söz demək şirindir, lakin onun həqiqətini başa düşüb əməl etmək çox çətindir. Dünyada olanların həqiqətini başa düşmək üçün tam və mükəmməl ağıl lazımdır.

İnsan nə qədər ki, şəhvətdən uzaqlaşmayıb, onun həqiqətini dərk edə bilməz. Şəhvət insanın gözlərini tutduğu üçün o, hər şeyin həqiqətini başa düşə bilmir. Şəhvət elə bir şeydir ki, insanın gözünü, qulağını, ürəyini bağlayır və hər şeyin zahirini ona göstərir. Həqiqəti görmək üçün şəhvətdən yaxa qurtarmaq lazımdır. Əgər insan hər bir şeyin həqiqətini başa düşsə, bu dünyanın

izzətlərinin heç birinin əsasının olmadığını dərk edər. Hətta dostluq və qardaşlıq da həqiqi olmasa, əvvəl-axır pozulub dağılacaq. Əgər insanların bir-birinə qarşı dostluğu, qardaşlığı və məhəbbəti iman əsasında olmasa, sonda bütün bu dostluq və qardaşlıq pozulub dağılacaq. Hamıya aydındır ki, həqiqi olmayan dostluğun sonu pis qurtarır. Həmçinin insan ailə qurduqda belə qurduğu ailə iman və həqiqət əsasında qurulmasa, əvvəl-axır həmin ailə dağılacaqdır. Məsələn, bir qız oğlanın gözəlliyinə görə, yaxud oğlan qızın gözəlliyinə görə ailə qurarsa, illər ötdükdən sonra həmin gözəllik aradan getdikdə ailənin də sonu çatacaq. Yaxud bir qızı puluna görə bir oğlana ərə verirlər. Pul qurtardıqdan sonra həmin ailə də dağılıb aradan gedəcək.

İman əsasında qurulmuş ailə isə sona qədər möhkəm və şirindir. Bütün dostluqlar da belədir. Yalnız iman əsasında qurulmuş dostluq möhkəm və əbədi olaraq qalacaqdır. Pul və yaxud vəzifəyə görə olan dostluqların hamısı əvvəl-axır pozulmalıdır. Nə qədər ki, pul var, dostluq da var. Pul qurtardıqdan sonra həmin dostluq da pozulacaq. Vəzifəyə görə olan dostluq vəzifə qurtarana qədərdir. Həyatda vəzifədə olan bir insanla dost olmaq üçün can atanlara da yetərincə rast gəlirik. Dost olduqdan sonra hey ətrafına dolaşır və ona salam verdikdə sevinir. Lakin həmin şəxsin vəzifəsi əlindən çıxdıqdan sonra onunla dost olmaq istəyən şəxs ona salam da vermir. Onların dostluğunun ömrü beləcə sona çatır. Bütün bunları həyatımızda çox görmüşük.

Harun ər-Rəşidin Bərməkilərlə arası çox yaxşı idi. Bərməkilər böyük bir ailədən ibarət idi və həmişə Harunun ətrafında olardılar. Onların ən görkəmlisi Cəfər Bərməki idi. O, on yeddi il Harunun yanında əyləşmişdi.

Hicri qəməri təqviminin 189-cu ilində onların dostluğu pozuldu. Harun Bərməkilərin hamısının başına oyun açdı. Onlar əllərində olan vəzifə və mal-dövlətlərini itirdilər.

Məhəmməd ibn Əbdürrəhman adlı bir nəfər deyir: “Qurban bayramı idi. Mən anamı təbrik etməyə getmişdim. İçəri daxil olanda gördüm ki, bir qadın anamın yanında əyləşib. Anamla görüşüb bayramlaşdıqdan sonra o, mənə dedi: Oğlum, bu qadını tanıyırsanmı? Dedim: Xeyr. Anam dedi: Bu qadının adı Ubadə xanımdır. Cəfər Bərməkinin anasıdır.

Mən qadının Cəfər Bərməkinin anası olduğunu bildikdə çox təəccübləndim. Çünki bir zamanlar Cəfər Bərməkinin ad-sanı, mal- dövləti var idi. Necə ola bilir ki, bu gün onun anasını əldən düşmüş bir vəziyyətdə görürəm? Yaxınlaşıb salam verdikdən sonra soruşdum: Xala, vəziyyətin necədir? Mənə özünüz haqda nə danışa bilərsiniz?

Qadın dedi: “Sənə ibrətamiz bir əhvalat danışa bilərəm. Bir gün Qurban bayramında oğlum Cəfər mənim üçün dörd yüz kəniz gətirmişdi. Onların hamısı mənim qulluğumda dayanmışdılar. Bununla belə, yenə də oğlumdan narazı idim. Deyirdim ki, dörd yüz kəniz mənim üçün çox azdır. Fələyin çərxi elə döndü ki, bu gün iki qoyun dərisinə möhtac qalmışam. İki ədəd qoyun dərisi tapa bilmirəm ki, birini altıma sərib üstündə uzanım, birini də üstümə atım.”

Mənim ürəyim onun halına yandı. Çıxarıb bir az ona pul verdim. O, həmin pulu görüb elə sevindi ki, az qalırdı sevincindən ruhu bədənindən ayrılsın.”

Ümumiyyətlə, təkcə bu hadisə deyil, tarixdə minlərlə belə əhvalatın şahidi olmuşuq. Dünyanın həqiqətinə diqqətlə baxa bilsək, onun izzətinin kökünün olmadığının

şahidi olarıq. Bu dünyada olan bütün izzətlərin hamısı axırda pozulmalıdır. Əsl izzət Allahın və onun Peyğəmbərinindir(s). Çünki əbədi və həmişəlik olan izzət Allaha məxsusdur. Odur ki, Quranda belə oxuyuruq: "İzzət və qüdrət Allaha, Onun Rəsuluna məxsusdur."

İnsan dünyasını dəyişdikdən, bəsirət gözləri açıldıqdan və hər bir şeyin həqiqətini başa düşdükdən sonra kimin əziz, kimin zəlil olduğunu başa düşəcəkdir.

## Allah-təala Peyğəmbərin(s) razılığını istəyir

Burada İslam Peyğəmbərinin(s) şərafət və üstünlükləri ilə bağlı qeyd olunası mətləblərdən biri də Peyğəmbərin(s) razılığının Allah-təala üçün mühüm əhəmiyyət kəsb etməsidir. Yəni Allah-təala heç bir vaxt Peyğəmbərin(s) narazı qalmasını istəmir. İslam Peyğəmbəri(s) Allahın yanında o qədər möhtərəm və əzizdir ki, Allah-təala heç bir vaxt onun narazı qalmasını istəmir. Quran ayələrini diqqətlə oxuduqda bunun şahidi ola bilirik. Məsələn, həmin ayələrdən bir neçəsinin nazilolma səbəblərinə diqqət yetirək.

Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra orada yaşayan yəhudilər müsəlmanlara tənə vurmağa başladılar. İslam Peyğəmbərinin(s) müstəqil və xüsusi qibləsi olmadığı üçün Həzrət(s) üzünü Beytül-Müqəddəsə tutaraq namaz qılırdı. Yəhudilər bundan istifadə edib şayiə yaymağa başladılar ki, İslam Peyğəmbəri(s) bizim qibləmizə tərəf namaz qılır. Bir müddətdən sonra bizim ehkamlarımıza da riayət edərək bizi də qəbul edəcək. Həzrət Peyğəmbər(s) bu şayiəni eşitdikdə çox narahat oldu. O, bu şayiədən qurtarmaq ümidi ilə Allahdan cavab gözləyirdi və Allahın bu barədə hökmünün intizarında idi. Elə həmin ərəfələrdə cənab Cəbrayıl(ə) nazil olub Peyğəmbərə (s) üzünü Kəbəyə tərəf tutaraq namaz qılacağını söylədi. Həmin məscid Mədinədə "Zu-qibləteyn", yəni "İkiqibləli" məscid adlanır. Allah-təala "Bəqərə" surəsinin 144-cü ayəsini nazil etməklə Peyğəmbərin(s) ürəyini sakitləşdirdi:

قَدْ نَرَى تَقَلُّبَ وَجْهِكَ فِي السَّمَاءِ فَلَنُوَلِّيَنَّكَ قِبْلَةً تَرْضَاهَا فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ

-Şübhəsiz, Biz sənin üzünün (bir işin baş verməsini gözləyən adam kimi) göydə o tərəf, bu tərəfə çevrilməsini görürük və indi səni razı qalacağın bir qibləyə tərəf döndəririk. Odur ki, üzünü Məscidül-Hərama tərəf döndər.

Bu ayədə açıq-aydın şəkildə görürük ki, Allah-təala Peyğəmbərin(s) ürəyini razı salmaq üçün onun üzünü qibləyə döndərdi və bütün şayiələrin kökünü kəsdi. Görəsən, kimdə belə bir şərafət vardır ki, Allah onun razılığına çalışsın. Allah-təala heç bir vaxt İslam Peyğəmbərinin(s) narazı qalmasını istəməmişdir. İslam Peyğəmbəri(s) yer kürəsində ən mükəmməl insandır ki, Allah-təala onu bütün aləmlərə nümunəvi insan kimi təqdim edir.

“Zuha” surəsinin 5-ci ayəsini oxuduqda da görürük ki, Allah-təala Peyğəmbərin(s) razılığına çalışır. Bu ayənin nazilolma səbəbi belədir.  Mədinədə on beş gün Peyğəmbərə(s) ayə nazil olmadı və Cəbrayıl(ə) gəlmədi. Peyğəmbər(s) bundan çox narahat idi. Çünki elə bir gün olmurdu ki, Cəbrayıl(ə) gəlməsin və ayə gətirməsin. Bəzi günlər Cəbrayıl(ə) iki dəfə Peyğəmbərin(s) yanına gəlirdi. On beş gün fasilə yarandıqda müşriklər şayiə yaymağa başladılar. Camaat arasında isə belə söz-söhbət yaydılar ki, Allah Məhəmmədi(s) özbaşına buraxıb və ona acığı tutub. Bu kimi şayiələr camaat arasında sürətlə yayılmağa başladı. Nəhayət, on beş gündən sonra Cəbrayıl(ə) nazil oldu. Peyğəmbər(s) onu görən kimi çox sevindi və dedi: “Gecikməyinin səbəbi nədir? Sənin üçün çox darıxmışdım.” Cəbrayıl(ə) ərz etdi: “Ya Rəsulallah, mən sənin üçün səndən daha çox darıxmışdım. Amma mən Allahın əmrindəyəm. O, nə vaxt buyursa, o zaman gələ bilərəm. Allah- təala bu ayələri sənə göndərib:

وَالضُّحَى. وَاللَّيْلِ إِذَا سَجَى. مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَى. وَلَلْآخِرَةُ خَيْرٌ لَّكَ مِنَ الْأُولَى. وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

-And olsun günəşin doğmasına və aydın gündüzə. And olsun sakitləşməkdə və (hər yeri) bürüməkdə olan gecəyə ki, (Ya Məhəmməd), Rəbbin səni tərk etməmiş və (sənə) acığı tutmayıb. Və şübhəsiz, axirət sənin üçün dünyadan daha xeyirlidir. Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.”

Bu ayədə də açıq-aydın şəkildə görürük ki, Allah-təala Peyğəmbərin(s) razı qalması üçün ona hər şey əta edəcək. Sual oluna bilər ki, Allah-təala Peyğəmbəri(s) razı salmaq üçün ona nə verəcəkdir?

Günlərin birində Həzrət Əli(ə) Kufə camaatı üçün söhbət edirdi. Peyğəmbərin(s) rizayəti barədə belə buyurdu: “Bir gün Peyğəmbər(s) mənə buyurdu: Qiyamət günü mənzillərin (dayanacaqların) birində günahkarlara şəfaət etmək üçün dayanacağam. Allahın günahkar bəndələrinə o qədər şəfaət edərəm ki, Allah-təala buyurar: Razı qaldınmı, ey Məhəmməd? O zaman deyəcəyəm: Razı qaldım. Razı qaldım.”

Sonra Həzrət Əli(ə) üzünü camaata tutub buyurdu: “Sizin fikrinizcə Quranda ən ümidverici ayə “Zumər” surəsinin 53-cü ayəsidir ki, Allah- təala buyurur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-De: “Ey Mənim (günah vasitəsilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün

günahları (hətta şirki) bağışlayır. Çünki bağışlayan və mehriban Odur!”

Amma biz Əhli-beytin(ə) fikrincə, Quranda olan ən ümidverici ayə “Zuha” surəsinin 5-ci ayəsidir ki, Allah-təala Peyğəmbərə(s) buyurur:

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

-Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.

## Peyğəmbərin(s) ümmətinə ürək yanğısı

Cabir ibn Abdullah Ənsari Həzrət Əlidən(ə) belə bir rəvayət nəql edir: “İslam Peyğəmbərinin(ə) son anları idi. Fatimeyi Zəhra(s.ə) atasından soruşdu: “Ya Rəsulallah, qiyamət günündə səni harada ziyarət edə bilərəm?”

Peyğəmbər(s) buyurdu: “Cənnətin qapısının yanında əlimdə “Əlhəmdu lillah” yazılmış bayraq tutmuş halda dayanacağam. Məni orada ziyarət edə bilərsən.”

Fatimeyi Zəhra(s.ə) soruşdu: “Əgər səni orada görə bilməsəm, hara gəlim?”

Peyğəmbər(s) buyurdu: “Əgər məni orada görə bilməsən, o zaman məni Kövsər hovuzunun kənarında ümmətimə su payladığım halda taparsan.”

Fatimeyi Zəhra(s.ə) soruşdu: “Birdən orada da səni görə bilməsəm, nə edim?”

Peyğəmbər(s) buyurdu: “Sirat körpüsünün kənarında ümmətimi dua edəcəyim halda görə bilərsən.”

Fatimeyi Zəhra(s.ə) soruşdu: “Birdən səni orada da tapa bilməsəm, hara gəlim?”

Peyğəmbər(s) buyurdu: “Əməllərin ölçüləcəyi mizanın (“tərəzinin”) kənarında ümmətim üçün Allaha dua etdiyim halda görə bilərsən.”

Fatimeyi Zəhra(s.ə) soruşdu: “Ata, əgər səni orada da görə bilməsəm, nə edim?”

Peyğəmbər(s) buyurdu: “Məni heç yerdə tapa bilməsən, son anda cəhənnəmin kənarında ümmətimi cəhənnəm atəşindən qurtardığım halda görə bilərsən. (Allah-təala ümmətimə cəhənnəm atəşindən nicat verməyə mənə icazə verəcək.)”

Xanım Fatimeyi Zəhra(s.ə) bu sözləri eşitdikdə çox sevindi.[1]

Böyük alimlərin biri belə bir hədis nəql edir: “Qiyamət günü İslam Peyğəmbəri(s) cəhənnəmin kənarından keçərkən onun hörmətinə xatir cəhənəmin hərarəti azalacaq. Cəhənnəmdəkilər oranın məmurlarından soruşarlar: Nə oldu ki, cəhənnəmin hərarəti azaldı? Onlar deyəcəklər: Çünki İslam Peyğəmbəri(s) buradan keçir. Cəhənnəm əhli fəryad qoparıb Peyğəmbəri(s) səsləyərək belə deyərlər: Ya Rəsulallah, biz kafir deyildik. Dünyada nəfsimiz bizi aldatmışdı. Bizə buradan nicat ver. Həzrət Peyğəmbər(s) onlara bir cavab verməyib ötüb keçmək istədikdə Allah-təala ona belə xitab edər: “Ey Mənim Peyğəmbərim, onlar səni səsləyirlər. Dayan, onlara mərhəmət göstər.”

Allah-təala öz bəndələrinə qarşı çox mərhəmətli və rəhmlidir. Allah heç bir bəndəsinin cəhənnəm odunda yanmasını istəmir. Lakin bəndələr öz nəfslərinə, şeytana, dünyanın fitnələrinə aldanaraq özlərini cəhənnəmə atmağa

---

[1] Biharül-ənvar,43-cü cild, səh.41.

məcbur edirlər. Allah-təala tək-tək hər bir bəndəsinə qarşı mehribandır.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə əyləşmişdi. Bir nəfər çöldən Mədinəyə gələrkən bir quşun yuvasına girdiyini gördü. Yuvaya yaxınlaşıb gördü ki, həmin quşun təzəcə çıxmış cücələri var. Onlardan xoşu gəldiyi üçün həmin cücələri götürüb şəhərə gəldi. O, Peyğəmbərin(s) səhabələrlə əyləşdiyini görüb onlara yaxınlaşdı və cücələri yerə qoydu. Az bir müddət keçməmiş həmin cücələrin anası heç nədən qorxmayaraq camaatın başı üstündən uça-uça özünü balalarına çatdırdı. Hamı bu mənzərənin şahidi oldu. Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: “Gördünüzmü ananın balalarına olan məhəbbətini?” Hamı yekdilliklə dedi: “Bəli, gördük, ya Rəsulallah.” Peyğəmbər(s) buyurdu: “Allahın Öz bəndələrinə olan məhəbbəti bu quşun balalarına olan məhəbbətindən min dəfə çoxdur.”

## İslam Peyğəmbəri(s) varlıq aləmində Allahın zatına ən yaxın olan insandır

Ötən bəhslərimizdə qeyd olundu ki, Allahın mühüm andlarından biri İslam Peyğəmbərinin(s) öz canına və ömrünə and içməsidir. Quran ayələrini oxuduqda görürük ki, Allah-təala yalnız bircə insanın canına and içmişdir. Əlbəttə, bu da Həzrət Məhəmməd Peyğəmbərin(s) müqəddəs olan vücududur. Çünki İslam Peyğəmbəri(s) Allah yanında ən əziz, ən şərafətli, ən əzəmətli və ən mükəmməl insandır. Onun şərafət və üstünlüyü heç bir şeylə müqayisə oluna bilməz. İslam Peyğəmbərinin(s) fəzilət və üstünlükləri barədə bir neçə mətləbi nəzərinizə çatdırdım.

Bu bəhsimizdə isə əlavə olaraq onun fəziləti barədə iki mətləbə də diqqət yetirəcəyik. Çox yaxşı olardı ki, insanlar iman gətirdikləri peyğəmbəri tanıyıb onun barəsində məlumat əldə etsinlər. Peyğəmbərin(s) dövründə yaşayanlar Həzrəti(s) görmüş, onun möcüzələrinin, şərafətinin, əxlaq və ədəbinin şahidi olmuşdular. Hazırkı dövrümüzdə Həzrətin(s) bizim üçün yadigar qalmış möcüzəsi Qurandır. Çox təəssüflər olsun ki, bir çox müsəlmanlar öz müqəddəs kitablarını açıb maraqlanmırlar. Peyğəmbərin(s) bir çox möcüzələri olmuşdur və onun dövründə yaşayanlar da həmin möcüzələri görmüşlər. Həzrətdən(s) bizim üçün yadigar qalmış böyük və əbədi olan möcüzə Qurandır ki, bir çox müsəlman onu üzündən belə oxumağı bacarmır. Hər bir müsəlmana vacibdir ki, iman gətirdiyi Peyğəmbər(s) və müqəddəs kitab haqqında məlumat əldə etsin. Hər bir müsəlmana lazımdır ki, Allahla onun arasında əlaqə yaradan Peyğəmbərin(s) hansı üstünlüklərə və şərafətə malik olduğunu bilsin. Ötən bəhslərimizdə də İslam Peyğəmbərinin(s) fəzilətləri haqda bir neçə nümunəni nəzərinizə çatdırdım. Burada əlavə olaraq həmin nümunələrdən ikisinə də diqqət yetirmək fikrindəyəm. İslam Peyğəmbərinin(s) fəzilət və şərafətlərindən biri varlıq aləmində Allahın müqəddəs olan zatına hamıdan daha yaxın olmasıdır. Bu barədə “Nəcm” surəsinin 8-9-cu ayələrində belə oxuyuruq:

ثُمَّ دَنَا فَتَدَلَّى. فَكَانَ قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

-Sonra (Peyğəmbərə) yaxınlaşdı və daha yaxın oldu. Beləliklə (onunla Peyğəmbərin arasında) iki kaman (qədər) və ya daha az məsafə var idi.

Cənab Cəbrayıl(ə) İslam Peyğəmbərini(s) meraca apararkən elə bir yerə yetişdilər ki, Cəbrayıl(ə) dedi: “Ya Rəsulallah, buradan o tərəfə mənə getməyə icazə yoxdur. Əgər buradan artıq getsəm, qanadlarım yanar.”

Allah-təala bir gecənin içərisində İslam Peyğəmbərini(s) meraca apardı. Həzrətin(s) meraca qalxdığı yer Məscidül-Həram, meracdan endiyi yer isə Məscidül-Əqsa idi. “İsra” surəsinin 1-ci ayəsində belə oxuyuruq:

سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا

-Öz bəndəsini (Muhəmmədi–səlləllahu əleyhi və alihi və səlləm) Özümüzün bəzi nişanələrimizi ona göstərmək üçün bir gecə Məscidül-Həramdan ətrafını mübarək (bərəkətli) etdiyimiz Məscidül-Əqsaya aparan Allah (hər bir eybdən) pak və nöqsansızdır.

Məscidül-Həram Məkkə şəhərindəki Kəbə məscididir ki, Allah-təala Peyğəmbəri(s) oradan meraca qaldırıb ərşi gəzdirdikdən sonra Məscidül-Əqsaya endirdi. Məscidül-Əqsa həmin Qüds məscididir ki, Yerusəlimdə yerləşir.

Merac gecəsində İslam Peyğəmbərinin(s) haraları gəzərək nələr gördüyü və Allahla hansı söhbətləri etdiyi “Merac” hədisində geniş şəkildə nəql olunmuşdur. Əsas bəhsimiz Həzrətin(s) fəzilətləri barədə olduğundan meracdakı hadisələrin üstündən keçirəm. Çünki əgər merac barədə söz açası olsaq, gərək günlərlə danışaq. Belə olduqda əsas bəhsimizdən uzaqlaşmış olarıq. Bəhsimizə aid olan mətləb meracda olan hadisələrdən biri - Peyğəmbərin(s) Allahın müqəddəs zatına daha

yaxınlaşması idi. Qeyd etdiyimiz ayədə açıq-aydın şəkildə görürük ki, Allah-təala belə buyurur:

ثُمَّ دَنَا فَتَدَلَّى. فَكَانَ قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

-Sonra (Peyğəmbərə) yaxınlaşdı və daha yaxın oldu. Beləliklə (onunla Peyğəmbərin arasında) iki kaman (qədər) və ya daha az məsafə var idi.

Bu ayə barəsində və Peyğəmbərin(s) meraca getməsi ilə bağlı rəvayətçilər bir sıra hədislər nəql etmişlər. O cümlədən İbn Abbas Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

قَالَ رَسُولُ اللهِ(ص): لِمّا عُرِجَ بِي إِلَى السَّماءِ دَنَوتُ مِن رَبِّي عَزّوَجَلّ حَتّى كَانَ بَينِي وَبَينَهُ قَابَ قَوسَين أَو أَدنَى

-Həzrət Peyğəmbər(s) buyurur: "Mən göyə merac etdikdə Allahın zatına (mərhəmətinə, qüdrətinə, hüzuruna, rəhmətinə) o qədər yaxın oldum ki, mənimlə Onun arasında iki kaman qədər və daha yaxın məsafə var idi.[1]

روى هشام ابن حكم عن موسى ابن جعفر(ع): فَلَمَّا أُسرِىَ بِالنَّبِي(ص) وَ كَانَ مِن رَبِّهِ كَقَابَ قَوسَين اَو اَدنَى رُفِعَ لَهُ حِجَابٌ مِن حُجُبِهِ

-Hüşam ibn Həkəm deyir: "Musa ibn Cəfər (ə) buyurdu: Elə ki Peyğəmbəri(s) meraca apardılar, onunla Rəbbinin arasında iki kaman qədər və ondan daha yaxın məsafə var idi. Onun üçün arada olan hicablar qaldırıldı."[2]

---

[1] Təfsiri-nümunə, 22-ci cild, səh.489.
[2] Yenə orada.

Qeyd olunan Quran ayəsi və hədislərdən açıq-aydın şəkildə görürük ki, Allah-təala İslam Peyğəmbərini(ə) meraca apardı və Onunla arasında iki kaman qədər və daha yaxın bir məsafə var idi. Burada qarşıya belə bir sual çıxır. Məgər Allah cisimdirmi ki, Peyğəmbərlə(s) Onun arasında belə az məsafə qalmışdır? Allah haradadır ki, Peyğəmbər(s) Ona bu qədər yaxınlaşmışdır?

Bu sualın cavabı belədir ki, Allah cisim deyil və Məkanı yoxdur. İnsanın gözləri Onu dərk edə bilməz. Allah cisim deyil ki, məkanı olsun və yaxud gözlər Onu görə bilsin.

قَالَ عَلِيّ(ع): لاَ تُدْرِكُهُ الْعُيُونُ بِمُشَاهَدَةِ الْعِيَانِ وَ لَكِنْ تُدْرِكُهُ الْقُلُوبُ بِحَقَائِقِ الْإِيمَانِ، قَرِيبٌ مِنَ الْاَشْيَاءِ غَيْرَ مُلاَبِسٍ، بَعِيدٌ مِنْهَا غَيْرَ مُبَايِنٍ

-Həzrət Əli(ə) "Nəhcül-bəlağə"nin 178-ci xütbəsində belə buyurur: "Gözlər Onu aşkar dərk etməzlər, lakin qəlblər imanın həqiqətləri vasitəsilə *(Onun vücudunu, təkliyini, hər şeyin sahib və idarə edəni olmasını və digər sifətlərini təsdiqləməklə)* Onu dərk edərlər. Hər şeyə yaxındır *(əhatə edib)*, amma yapışmayıb. Hər şeydən uzaqdır, amma ayrı deyil."

Bu barədə "Ənam" surəsinin 103-cü ayəsində belə oxuyuruq:

لاَّ تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

-Gözlər və onların görmə qabiliyyəti Onu dərk etməz və O, gözləri və görmələri dərk edər. O, lətif və xəbərdardır.

Beləliklə, Allah cisim deyil ki, onu bu gözlərlə görmək mümkün olsun. Cismani gözlərin Onu görməyə

qabiliyyəti yoxdur. Hətta bu gözlərlə qiyamət günündə də Allahı heç bir kəs görə bilməyəcək. Hər kəs Allahı cisim bilirsə və Onun məkanı olduğunu və qiyamət günü Allahı görə biləcəyini iddia edirsə, əsl həqiqətdə həmin şəxs Allahı tanımamışdır. Allah cisim deyil ki, Onun məkanı olsun və yaxud gözlər Onu görə bilsin. “Bəqərə” surəsinin 115-ci ayəsində belə oxuyuruq:

وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ عَلِيمٌ

-Şərq və qərb (yer kürəsi, eləcə də şərq və qərbdə olan bütün planetlər) Allaha məxsusdur. Odur ki, (bütün dua və ibadətlərdə) hansı tərəfə üz tutsanız, Allahın üzü (səmti) oradır. Şübhəsiz, Allah (vücud, qüdrət və rəhmət baxımından) geniş və biləndir.

“Hədid” surəsinin 4-cü ayəsində belə oxuyuruq:

وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنتُمْ

-Harada olsanız, O, sizinlədir.

“Qaf” surəsinin 16-cı ayəsində belə buyurulur:

وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

-Biz ona (insana) şah damarından da yaxınıq.

Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, hara baxsaq, Allahın səmtini görmüş olarıq. Harada olduğumuzdan asılı olmayaraq, Allah bizimlədir. Allah-təala bizə şah damarımızdan da yaxındır. Bir daha qeyd etməliyəm ki, Allah cisim deyil və Onun yaxınlığı da məkan yaxınlığı deyildir. Amma Peyğəmbərin(s) Allaha yaxınlaşması bu yaxınlıqlardan tam fərqlənir. Həzrət Peyğəmbər(s) bütün bunları batini (daxili) gözlə görürdü. Batinin iki növ görmə qabiliyyəti vardır. Bir növü ağlın gözüdür ki, dəlil-sübutlar və məntiq əsasında hər şeyin

həqiqətini görə bilir. Məsələn, bir nəfər gözəl bir imarətə baxır. Diqqətlə baxdıqdan sonra and içə bilər ki, bu imarəti hansısa bir mühəndis tikib. Halbuki cismani gözlərlə həmin mühəndisi görmür. O, imarətin mühəndisini ağlının gözü ilə gördüyü üçün and içir ki, bu imarəti hansısa mühəndis tikmişdir. İnsan bütün yaradılışa, gecənin gündüzlə əvəz olunmasına, aləmdə olan hər bir şeyin nizam-intizamına baxdıqda, ağlı ilə bu aləmi yaradanı görür. Batinin ikinci növ gözü isə insanın qəlbinin gözüdür ki, bu, tamamilə başqa bir şeydir. Ağlın gözü ilə çox insanlar həqiqəti görə bilərlər, lakin qəlbin gözü hər insanda açıq deyil. Qəlbin gözündə olan nuraniyyət heç bir şeydə yoxdur. Peyğəmbər(s) Allahı qəlbinin gözü ilə görürdü. Həzrətdən(s) soruşdular: “Sən Allahı görürsənmi?” Peyğəmbər(s) buyurdu: “Mən Allahı ürəyimin gözü ilə görürəm.”

İnsan təsəvvür etməsin ki, zahiri gözlər Allahı görə bilər. İnsanın zahiri gözlərinin Allahı görməyə qabiliyyəti yoxdur. İnsan Allahı qəlbinin gözü ilə görə bilər ki, Peyğəmbər(s) Allahı elə görür və onun qəlbi yanılmamışdır. Necə ki, “Nəcm” surəsinin 11-ci ayəsində belə oxuyuruq:

مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى

-(Peyğəmbərin) qəlb(i) gördüyündə yalan demədi.

Həzrət Əli(ə) də eynilə Peyğəmbər(s) kimi görürdü. Həzrətdən(ə) soruşdular: “Ya Əmirəlmöminin, sən Allahı görürsənmi?” Həzrət(ə) buyurdu: “Mən görmədiyim Allaha ibadət edərəmmi?”

Odur ki, əgər insanın qəlbinin gözləri açılsa, zahiri gözlərin görmədiyi hər bir şeyi görə bilər.

Rəvayətçi deyir: “Həzrət Fatimeyi Zəhra(s.ə) ömrünün son anlarında diqqətlə bir nöqtəyə baxırdı. Biz hiss etdik ki, nəsə mühüm bir hadisə baş verib. Sonra Xanım Fatimeyi Zəhra(s.ə) buyurdu: “Salam olsun Cəbrayıla. Salam olsun Allahın Rəsuluna. İlahi, məni peyğəmbərindən ayırma. İlahi, məni Öz rizayətin və mərhəmətinin kənarından ayırma. İlahi, məni Öz evin olan Darus-səlamdan uzaq salma.”

Sonra üzünü bizə tutub buyurdu: “Mənim gördüklərimi siz də görürsünüzmü?”

Dedik: “Xeyr. Xanım, sən nə görürsən?”

Buyurdu: “Göyün əhlini görürəm ki, dəstə-dəstə miniklərdə və piyada hərəkətdədirlər. Bu, Cəbrayıldır. Bu, Allahın Rəsuludur. Hazırda Həzrət(s) mənə belə buyurdu: “Qızım, qarşıda səni gözləyən sənin üçün arxada qoyduqlarından daha xeyirlidir. (Axirət sənin üçün dünyadan yaxşı və xeyirlidir.)”[1]

Xanım Fatimeyi Zəhranın(s.ə) Peyğəmbərdən(s) söylədiyi ən son hədis bu idi ki, ömrünün son anlarında ətrafındakılara söyləmişdi.

## Allah Öz Peyğəmbərini(s) düşmənlərin şərindən qorudu

Bəhsimizdə olan ikinci mətləb budur ki, Allah-təala İslam Peyğəmbərini(s) həmişə düşmənlərin şərindən və hücumlarından mühafizə etmişdir. Bu barədə “Maidə” surəsinin 67-ci ayəsində belə buyurulur:

[1] Fatimənin(s.ə) əxlaqı, səh.186.

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ

-Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq.

Quranda bir neçə yerdə rast gəlirik ki, Allah-təala Öz Peyğəmbərini(s) müdafiə etmişdir. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək. Həmin nümunələrdən biri belədir ki, düşmənlər Peyğəmbərə(s) iftira yaxaraq belə bir şayiə yaydılar ki, camaatdan kimsə bu sözləri ona öyrədib. “Nəhl” surəsinin 103-cü ayəsində isə belə oxuyuruq:

وَلَقَدْ نَعْلَمُ أَنَّهُمْ يَقُولُونَ إِنَّمَا يُعَلِّمُهُ بَشَرٌ لِّسَانُ الَّذِي يُلْحِدُونَ إِلَيْهِ أَعْجَمِيٌّ وَهَـذَا لِسَانٌ عَرَبِيٌّ مُّبِينٌ

-Əlbəttə, Biz onların “əslində bunu (Quranı) ona (Məhəmmədə – səllallahu əleyhi və alihi və səlləm) bir bəşər (yəhudi, xaçpərəst və farsların bəzi alimləri) öyrədir” - demələrini bilirik. (Lakin belə deyildir,) səhv edib nisbət verdikləri şəxsin dili ərəb deyildir, bu (Quran) isə açıq-aydın ərəb dilindədir!

Allah-təala “Nəcm” surəsinin 5-ci ayəsində həmin düşmənlərə belə cavab verərək Peyğəmbəri(s) müdafiə edir:

عَلَّمَهُ شَدِيدُ الْقُوَى

-Onu ona (Peyğəmbərə) qüvvələri möhkəm və güclü olan öyrətmişdir.

Kafirlər Peyğəmbərə(s) iftira ataraq ona “dəli” dedilər. Allah-təala yenə də Peyğəmbəri(s) müdafiə edərək onların ağızlarını yumdu. “Qələm” surəsinin 51-ci, “Hicr” surəsinin 6-cı ayəsində belə oxuyuruq:

وَإِن يَكَادُ الَّذِينَ كَفَرُوا لَيُزْلِقُونَكَ بِأَبْصَارِهِمْ لَمَّا سَمِعُوا الذِّكْرَ وَيَقُولُونَ إِنَّهُ لَمَجْنُونٌ

-Həqiqətən, kafir olanlar bu zikri (Quranı) eşidən zaman az qalırdı səni gözləri(nin nəhsliyi) ilə titrətsinlər! Və (Quranı dərk etməkdə aciz olduqlarına görə, onu gətirənin barəsində) deyirlər: “Həqiqətən, o, bir divanədir!”

وَقَالُواْ يَا أَيُّهَا الَّذِي نُزِّلَ عَلَيْهِ الذِّكْرُ إِنَّكَ لَمَجْنُونٌ

-Və (istehza məqsədilə Peyğəmbərə) dedilər: “Ey bu zikr (Quran) nazil olan şəxs, həqiqətən, sən dəlisən!”

Allah-təala “Qələm” surəsinin 1-2 və “Təkasur” surəsinin 22-ci ayəsində onların cavabını verərək belə buyurur:

ن وَالْقَلَمِ وَمَا يَسْطُرُونَ. مَا أَنتَ بِنِعْمَةِ رَبِّكَ بِمَجْنُونٍ

-Nun. And olsun qələmə, And olsun (qələmlərin üzərində yazdığı) nurlu Lövhi-Məhfuza və (qələmin batırıldığı yazdığı) mürəkkəbə və hər hansı bir sulu cövhərə ki, Sən Rəbbinin neməti və lütfü sayəsində divanə deyilsən!

وَمَا صَاحِبُكُم بِمَجْنُونٍ

-Sizin yoldaşınız və dostunuz (Peyğəmbər) divanə deyildir.

Digər bir yerdə Peyğəmbərə(s) iftira ataraq onu şair adlandırdılar. Allah-təala burada da onların cavabını

verərək Öz Peyğəmbərini(s) müdafiə etdi. “Saffat” surəsinin 36-cı ayəsində belə oxuyuruq:

وَيَقُولُونَ أَئِنَّا لَتَارِكُوا آلِهَتِنَا لِشَاعِرٍ مَّجْنُونٍ

-Və deyirdilər: “Yəni doğrudan biz divanə bir şairə görə öz tanrılarımızı tərk edək?!”

Allah-təala “Haqqə” surəsinin 40-41-ci və “Yasin” surəsinin 69-cu ayələrində onlara belə cavab verir:

إِنَّهُ لَقَوْلُ رَسُولٍ كَرِيمٍ. وَمَا هُوَ بِقَوْلِ شَاعِرٍ قَلِيلًا مَا تُؤْمِنُونَ

-Bu, (Quran) şübhəsiz, möhtərəm bir elçinin (Cəbrayılın və Peyğəmbərin) sözüdür. Bu, bir şairin sözü deyildir! (Lakin) Siz çox az iman gətirirsiniz!

وَمَا عَلَّمْنَاهُ الشِّعْرَ وَمَا يَنبَغِي لَهُ إِنْ هُوَ إِلَّا ذِكْرٌ وَقُرْآنٌ مُّبِينٌ

-Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu ona heç yaraşmaz da. Onun oxuduğu yalnız bir öyüd-nəsihət, aşkar və aydınlıq gətirən Qurandır.

Əgər Peyğəmbərin(s) həyatına diqqətlə nəzər salsaq görərik ki, Həzrət(s) heç bir vaxt şeir oxumamış və yazmamışdır. Çünki o, bir peyğəmbərdir və Allahın ayələrindən başqa bir şey oxumaq onun şəninə yaraşmaz. Həmçinin Allah-təala bu ayədə buyurur ki, Biz ona şeir öyrətmədik və bu, ona heç yaraşmaz da.

Allah rəhmət eləsin Molla Məhəmməd Füzuliyə. O, bu barədə belə yazmışdır:

*Ol düri dürci ənə əfsəh ki hikmət dayəsi,*
*Şeri şəhdilə ləbi canpərvərin tər qılmamış.*
*Şeir bir zirvədür amma biz kimi naqislərə,*
*Ol ki, kamildir, onu möhtaci zivər qılmamış.*

## Allah-təala Peyğəmbəri(s) və onun nəslini pak və bərəkətli qərar verib

İslam Peyğəmbərinin(s) şərafət və üstünlüklərindən biri də budur ki, Allah-təala həm onun özünü, həm də nəslini pak-pakizə və bütün aləmlərə mübarək qərar vermişdir. Allah-təala Peyğəmbərin(s) Əhli-beytinin(ə) barəsində “Əhzab” surəsinin 33-cü ayəsində belə buyurur:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

-Həqiqətən, Allah siz (Peyğəmbərin) Əhli-beyt(in)dən hər cür (növ) pisliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etmək istəyir.

Allah-təala Peyğəmbərin(s) qızı Həzrət Fatimeyi Zəhranın(s.ə) barəsində xüsusi olaraq “Kövsər” surəsini nazil etməklə onun nəslini bərəkətli etdi.

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم. إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ. إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

-Bağışlayan və mehriban Allahın adı ilə. (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. (Çoxlu xeyir, sabit din, əbədi kitab, sonsuz elm, Həzrət Fatimeyi Zəhra (salamullahi – ələyha)nın gündən-günə artıb çoxalan əbədi nəslini, ümmətin alimlərini, Kövsər hovuzu və cənnətdə çay əta etdik). Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl, (ona təkbir deyərək) əllərini boğazına qədər yuxarı qaldır (yaxud dəvə qurbanı kəs). Həqiqətən, (sən sonsuz və nəsilsiz deyilsən), sənin düşmənin özü sonsuz və nəsli kəsilmişdir.

Fəxri Razi deyir: “Bu surə o vaxt nazil oldu ki, düşmənlər Peyğəmbərə(s) sonsuz və nəsli olmayan ittihamı vururdular. Allah-təala bu surəni nazil etməklə

Peyğəmbərə(s) ürək-dirək verdi və ona elə bir nəsil bəxş etdi ki, qiyamətə qədər onun nəsli davam edəcəkdir. Tarix boyu Peyğəmbərin(s) övladlarını şəhid etdilər. Lakin bütün bunlara baxmayaraq, dünya Həzrətin(s) nəsli və övladları ilə doludur. Amma Bəni-Üməyyənin nəslinə gəldikdə isə, bircə nəfər də olsa həmin nəsildən qalmayıb."

Allah-təala Peyğəmbərin(s) nəslinə bərəkət verdi və onun düşmənlərinin nəslinin kökünü kəsdi. Allah-təala hər bir sahədə Öz Peyğəmbərini(s) müdafiə etmiş və bizə də onu müdafiə etməyi vacib buyurmuşdur. Hər bir müsəlmana vacibdir ki, öz dinini, Quranını, Peyğəmbərini(s) lazımi şəkildə müdafə etsin. Bu, hər bir müsəlmanın vacib olan məsələlərindəndir və Quranda dəfələrlə bu məsələyə rast gəlirik. Xanım Fatimeyi Zəhra(s.ə) Peyğəmbəri(s), onun dinini həm sözləri, həm göz yaşları, həm əlləri, həm də qanı ilə müdafiə etdi və bu yolda da şəhid oldu. Bu şərafətli xanım öz əməlləri ilə başa saldı ki, hər bir müsəlman öz Peyğəmbərini(s) müdafiə etməlidir. İslam Peyğəmbəri(s) varlıq aləmində ən mükəmməl və fəzilətli varlıq, həmçinin Allahın yer üzündə ən şərafətli nümayəndəsidir.

Allah-təala dünya və axirətdə bizi İslam Peyğəmbərindən(s) ayrı salmasın. İnşallah!

## Allahın qiyamət gününə içdiyi and

Qeyd olundu ki, Allah-təala müqəddəs olan kitabımız Quranda bizimlə söhbət edir. Allahın söhbətinin hər hansı birində tərəddüd və şəkk-şübhə hiss olunmur. Allah-təala hər bir sözü bu kitabda çox dəqiq və açıq-aydın şəkildə bəyan edir. Bu mətləbin sübutu Quranda olan Allahın

andlarıdır. Həmçinin qeyd edildi ki, Allah-təala Quranda məsələnin daha mühüm olduğuna inanmayanlara sübut etmək üçün həm Öz zatına, həm də yaratdığı məxluqata və əməllərinə (işlərinə) and içir. Allahın Qurana və İslam Peyğəmbərinin(s) ömrünə and içməsi barədə yetərincə söhbət etdik. Bu bəhsimizdə Allahın qiyamət gününə and içməsi barədə söz açacağıq. "Qiyamət" surəsinin əvvəllərinə diqqət yetirdikdə belə oxuyuruq:

لَا أُقْسِمُ بِيَوْمِ الْقِيَامَةِ. وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ. أَيَحْسَبُ الْإِنسَانُ أَلَّن نَّجْمَعَ عِظَامَهُ. بَلَى قَادِرِينَ عَلَى أَن نُّسَوِّيَ بَنَانَهُ

-And içirəm qiyamət gününə. Və and içirəm özünü məzəmmət edən nəfsə (möminin nəfsinə və Allaha asi olduğu üçün özünü məzəmmət edən ayıq vicdanına and olsun ki, qiyamət haqdır). Yoxsa insan belə güman edir ki, Biz əsla onun sümüklərini (öldükdən sonra torpaqların arasından) bir yerə yığa bilməyəcəyik? Bəli (bir yerə yığacağıq), hələ bir (üstəlik) onun barmaqlarının ucunu da əvvəl olduğu kimi, sirli xətlərlə düzəltməyə qadirik.

Allah-təala bu surədə qiyamətə and içərək söhbətə başlayır və mühüm mətləbləri bəyan edir. Allah-təalanın and içdiyi hər bir şey çox mühümdür. Əgər mühüm olmasaydı, Allah ona and içməzdi. İnsanlar öz danışıqlarında da tərəf müqabilini inandırmaq üçün mühüm və dəyərli şeylərə and içirlər. Heç bir vaxt görünməyib ki, kimsə qeyri-mühüm və dəyərsiz bir şeyə and içsin. Biz öz mədəniyyət və ədəbiyyatımızda and içərkən mühüm şeylərə and içirik. Məsələn, Allaha, Peyğəmbərə(s), Qurana and içirik. Bəzən atasının qəbrinə, anasının canına, balasının canına and içənlər də olur. Çünki onları çox mühüm hesab etdiyi üçün and içərək

qarşı tərəfi inandırmaq istəyir. “Qiyamət” surəsinin ilk ayəsində Allahın qiyamətə and içdiyindən başa düşürük ki, qiyamət günü çox mühüm bir gündür. Allahın yanında qiymət və əhəmiyyəti olan bir şeyə and içməsinin səbəblərindən biri də odur ki, insanların həmin məsələnin mühüm olduğuna diqqət yetirmələrini istəyir. Yəni insanın diqqətini cəlb edən andlardan biri də qiyamət günüdür ki, Allah-təala ona and içir.

## Qiyamət gününün adları

Qiyamət günü bütün insanların görəcəyi bir gündür. Hər bir insan həmin günü öz gözləri ilə görəcək və o gün həmin səhnədə olacaqdır. Bəzi kitablarda qiyamət günü üçün yüzdən çox ad saymışlar ki, hər bir adın öz sirri və açıqlaması vardır. Quran ayələrinə gəldikdə isə, qiyamət gününün bir çox adlarına rast gəlmək olur. Bu adların hər birinin mənası və səbəbi vardır. Nümunə üçün həmin adlarından bir neçəsini diqqətinizə çatdırıram.

### 1. Həsrət günü (يَومُ الْحَسرَةِ)

Həsrət günü qiyamətin adlarından biridir. Həmin gün insanlar dünyada hədər etdikləri ömür və həyatlarını yada salıb həsrət çəkəcəklər.

### 2. Peşmançılıq günü (يَومُ النَّدامَةِ)

Qiyamət gününün adlarından biri insanların peşmançılıq çəkdikləri bir gündür. Mömin və qeyri-mömin olmasından asılı olmayaraq, bütün insanlar peşman olacaqlar. Qeyri-mömінlər ona görə peşman olacaqlar ki, nə üçün biz Allahı tanımadıq və nə üçün Ona

ibadət etmədik? Möminlər isə ona görə peşman olacaqlar ki, nə üçün bütün ömrümüzün hamısını Allahın ibadətində keçirtmədik? Nə üçün iman və ibadətimiz az oldu? Bir sözlə desək, həmin gün möminlər ibadət və yaxşı əməllərinin azlığına görə peşman olacaqlar.

### 3. Hesab günü (يَومُ الْحِسَاب)

Qiyamətin adlarından biri hesab günü adlanır. Həmin gün insanlar əməlləri haqda hesab-kitab olunacaqlar. İnsanların kiçikli-böyüklü bütün əməllərindən hesab alınacaq. Məsələn, əgər bir insan dünyada kiçik bir yaxşılıq edibsə, onun da muzdunu hesablayacaqlar. Hətta insanın dünyada kiminsə üzünə xoş və yaxud pis baxıbsa, onların da hesabı çəkiləcək. Əgər insan dünyada bir möminə ondan əvvəl salam veribsə, yaxud otağa daxil olanda onun ayağına qalxıbsa belə bu kimi əməllərin hamısının hesabı istəniləcək.

Bir sözlə desək, insanın hər bir hərəkət və rəftarının mükafat və cəzası üzrə hesab-kitab aparılacaqdır. Əgər insanın bütün hərəkətləri Allaha xatir olarsa, ibadət və savabdır. Qiyamət günündə onların hamısının əcr və mükafatı vardır. Lakin insanın əməlləri Allaha xatir olmasa, həmin gün ona muzd verilməyəcək. Məsələn, biri var ki, bir mömin digərinin otağına daxil olur. Otaqdakı şəxs isə onun içəri daxil olduğunu görüb öz-özünə deyir: "İçəri daxil olan mömin insandır. Qoy onun hörmətinə görə ayağa qalxım və ehtiram göstərim." Belə olduqda həmin otaqda əyləşən Allahla özü arasında hesab açmış olur. Onun bu əməli Allah yanında bəyənilib qeydə alınır və qiyamət günü bu əmələ görə mükafat alacaqdır. Çünki həmin işi Allaha xatir görmüşdür. Yox, əgər otaqda

əyləşən şəxs mömin insanın otağa daxil olduğunu görüb öz-özünə "Çoxdandır əyləşmişəm, qoy ayağa qalxım, həm ayaqlarımın ağrısı çəkilsin, həm də o, elə bilsin ki, onun üçün ayağa qalxdım." – desə, bu əmələ qiyamət günü mükafat verilməyəcək. Həmin şəxs bununla sadəcə olaraq öz ayaqlarının ağrısı ilə bağlı problemini həll etmiş oldu. Bununla yanaşı, otağa daxil olan şəxs də elə başa düşdü ki, ona ehtiram göstərib ayağa qalxmışdır. Lakin niyyət Allaha xatir olmadığına görə, qiyamət günü bu əmələ heç bir mükafat verilməyəcək. Qiyamət günü əməllər hesab-kitab olunanda o əməllərə müzd və yaxud mükafat veriləcək ki, sırf Allaha xatir olmuş olsun. Əgər insan hətta kiçik bir əməli Allaha xatir etmişsə, onun üçün ibadət və savab yazılmış olar. İnsanın bütün əməlləri yazılıb qeydə alınır. Pis və yaxşı əməllərin hamısı qiyamət günü hesab-kitab olunacaqdır.

### 4. Sorğu-sual günü (يَومُ الْمَسأَلَة)

Qiyamətin adlarından biri sorğu-sual günüdür. Həmin gün insanın dünyada etdiyi bütün əməlləri barədə soruşulacaq. O gün artıq əməl günü yox, sorğu-sual günü olacaqdır. İnsan hər nə etmişsə, bu dünyada etmişdir. Qiyamət günü daha insana əməl etməyə ixtiyar verilməyəcək. O gün insan dünyada etdiyi əməlləri barədə sorğu-sual olunacaq.

### 5. (Başa)döyəcləyən gün (يَومُ القَارِعَة)

Qiyamət gününün adlarından biri döyəcləyən gündür. Allah-təala "Qariə" surəsinin əvvəllərində belə buyurur:

الْقَارِعَةُ. مَا الْقَارِعَةُ. وَمَا أَدْرَاكَ مَا الْقَارِعَةُ. يَوْمَ يَكُونُ النَّاسُ كَالْفَرَاشِ الْمَبْثُوثِ. وَتَكُونُ الْجِبَالُ كَالْعِهْنِ الْمَنفُوشِ

-(Qulaqları və ürəkləri) döyəcləyən (və Allah düşmənlərini əzən o dəhşətli) hadisə. Nədir o döyəcləyən və əzən (dəhşətli) hadisə?! Və sən nə bilirsən ki, o döyəcləyən (dəhşətli) hadisə nədir? (O hadisə qiyamətin qopmasıdır). O gün insanlar kəpənək kimi (ətrafa) səpələnər. Dağlar didilmiş rəngarəng yun kimi havada parça-parça olacaqdır.

Həmin gün qiyamətə inanmayanlar başlarına vura-vura deyərlər ki, bizə qiyamətin qopacağı haqda xəbər vermişdilər, lakin biz bütün bunları yalan hesab edirdik.

### 6. Ayrılıq günü (يَومُ الفِرَاق)

Qiyamətin adlarından biri ayrılıq günüdür. Həmin gün hamı bir-birindən ayrılacaq.

### 7. Əzab günü (يَومُ العَذاب)

Qiyamət gününün adlarından biri əzab günüdür. "Bəqərə" surəsinin 85-ci ayəsində belə oxuyuruq:

وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ

-Qiyamət günü isə (onlar) ən şiddətli bir əzaba tərəf qaytarılacaqlar. Allah etdiklərinizdən xəbərsiz deyildir.

Bu ayə kitab əhli barəsindədir ki, onlar Allahın hökmlərinin bəzisinə əməl edər, bəzisinə isə əməl etməzlər. Allahın hökmlərini öz istəklərinə uyğun olaraq döndərirdilər. Qiyamət günü Allah-təala onları şiddətli əzaba düçar edəcəkdir.

**8. Fərar günü (يَومُ الفَرار)**

Qiyamət gününün adlarından biri fərar günüdür ki, hamı bir-birindən qaçacaq. Hətta ana balasından, qardaş qardaşından belə qaçacaq. “Əbəsə” surəsinin 34-36-cı ayələrində belə oxuyuruq:

يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ. وَأُمِّهِ وَأَبِيهِ. وَصَاحِبَتِهِ وَبَنِيهِ

-O gün insan qaçar öz qardaşından; Anasından və atasından; Zövcəsindən və oğullarından.

**9. Haqq günü (يَومُ الْحَقّ)**

Qiyamətin adlarından biri haqq-həqiqət günüdür. Qiyamət günü bütün insanlar hər bir şeyin həqiqətini görəcəklər.

**10. Hökm günü (يَومُ الْحُكم)**

Qiyamətin adlarından biri hökm günüdür. Həmin gün Allahın hökmü nazil olacaq.

**11. Cəmləşən gün (يَومُ الْجَمع)**

Qiyamət gününün adlarından biri cəmləşən gündür. Həmin gün bütün insanları bir yerə toplayacaqlar.

**12. Mükafat və cəza günü (يَومُ الدِّين)**

Qiyamət gününün adlarından biri mükafat və cəza verilən gündür. Həmin gün insanların əməllərinə görə kiməsə mükafat, kiməsə isə cəza veriləcək. “Din” sözünün mənası ərəb dilində “cəza” deməkdir ki, həm mənfi, həm də müsbət mənaları ifadə edir. Amma Azərbaycan dilində

“cəza” kəlməsi mənfi mənada işlənir. Quran ayələrində isə istər yaxşı, istərsə də pis əməllərin hər biri müqabilində verilən qiymətə “cəza” deyilir. Yəni əgər insan yaxşı əməlinə görə müzd alırsa, ona da cəza deyilir, pis əməlinin müqabilində cəza alırsa, ona da cəza deyilir.

**13. Sirlərin açılacağı gün (يَومَ تُبلَى السَّرائِر)**

Qiyamətin adlarından biri sirlərin və pərdələrin götürüləcəyi gündür. Bu dünyada bütün eyib və nöqsanlar gizlidir. Hamı öz sirrini və nöqsanını gizli saxlayır. Lakin qiyamət günü bütün sirlər açılıb aşkara çıxacaq. Gizlində olanların hamısı aşkarlanacaq.

**14. Mal və övladın fayda vermədiyi gün**

**(يَومَ لا يَنفَعُ مَالٌ وَ لا بَنُون)**

Qiyamətin adlarından biri mal və övladın fayda verməyəcəyi bir gündür. Qiyamət günü elə bir gündür ki, heç bir insana mal-dövlətinin və övladının faydası dəyməyəcək.

**15. Zalımların əllərini çeynədiyi gün**

**(يَومَ يَعضُّ الظّالِم عَلى يَديه)**

Qiyamət gününün adlarından biri zalımların əllərinin arxasını çeynədiyi gündür. O gün zalımlar dünyada peyğəmbərlərə itaət etmədikləri və onların yollarını getmədikləri üçün peşmançılıqdan əllərini çeynəyəcəklər. “Furqan” surəsinin 27-ci ayəsində belə oxuyuruq:

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا

-Və (yada sal) o gün(ü) ki, zalım öz əllərinin arxasını çeynəyərək deyəcək: “Kaş peyğəmbərlə birlikdə (mən də Allaha tərəf gedərək) bir yol tutaydım.”

**16. Zalımların üzrü qəbul olunmayan gün**

**(يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ)**

Qiyamətin adlarından biri zalımların üzrxahlıqlarının qəbul olunmadığı bir gündür. Həmin gün zalımlar nə qədər üzr istəsələr, onların üzrü qəbul olunmayacaq.

**17. Günahkarların üzlərindən tanındığı gün**

**(يَومَ يُعْرَفُ الْمُجْرِمُونَ بِسِيمَاهُمْ)**

Qiyamət gününün adlarından biri də günahkarların üzlərindən tanındığı bir gündür.

Əlbəttə, Quranda saydıqlarımızdan əlavə qiyamətin başqa adları da vardır. Qiyamətin adları ilə bağlı ayə və hədislərdən istifadə olunduqda yüzdən artıq ad saymaq olar. Lakin ən məşhur adı isə elə qiyamətdir.

## Qiyamət günü insanın ən çətin anlarından biridir

Hər bir insanı qarşıda gözləyən çətin anlar vardır ki, onlardan biri də qiyamət günüdür. Bu barədə Peyğəmbər(s) və imamlardan bir çox hədis nəql olunmuşdur. Həmin anlardan biri insanın ölüm mələyi cənab Əzrayılı(ə) gördüyü zamandır. İnsanın bu anları çox

çətin anlardandır. Həmçinin insanın çətin anlarından biri qəbirdən qalxdığı zamandır. "Yasin" surəsinin 51-ci ayəsində belə oxuyuruq:

وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُم مِّنَ الْأَجْدَاثِ إِلَى رَبِّهِمْ يَنسِلُونَ

-Sura (ikinci dəfə) üfürülər, onda onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər.

İnsan qəbirdən qalxıb məhşər ayağına gətiriləcəyi zaman onun üçün ən çətin və ağır saatlardn biri olacaq. Çünki insanın qiyaməti o gündən başlayacaq ki, onu qəbirdən qaldırıb məhşərə gətirəcəklər. Xanım Fatimeyi Zəhra(s.ə) və Xanım Xədicə(s.ə) kimi hörmətli xanımlar həmin günün nigarançılığını çəkmiş və ağlamışlar. Həmçinin insanın çətin anlarından biri də qiyamət səhnəsində Allahın hüzurunda dayandığı andır.

قَالَ الإِمَام السَّجاد(ع): اَشَدُّ سَاعَاتِ ابْنِ آدَمَ ثَلَاثُ سَاعَاتٍ: اَلسَّاعَةُ الَّتِي يُعَايِنُ فِيهَا مَلَكَ الْمَوْتِ، وَالسَّاعَةُ الَّتِي يَقُومُ فِيهَا مِنْ قَبْرِهِ، وَالسَّاعَةُ الَّتِي يَقِفُ فِيهَا بَيْنَ يَدَيِ اللهِ تَبَارَكَ وَتَعَالَي ، فَاِمَّا اِلَي الْجَنَّةِ وَ اِمَّا اِلَي النَّارِ

-İmam Səccad(ə) buyurur: "İnsanlar üçün ən çətin anlar üçdür: 1. Ölüm mələyini müşahidə etdiyi zaman; 2. Qəbirdən (dirildilib) qalxdığı zaman; 3. Allah-təalanın hüzurunda dayandığı, ya cənnətə, ya da cəhənnəmə doğru (gedəcəyi) zaman."[1]

[1] Biharül-ənvar,7-ci cild, səh.105.

## Qiyamət günü hər kəs öz imam və rəhbəri ilə məhşərə gətiriləcək

Həm Quran ayələrində, həm də hədislərdə bəyan olunmuşdur ki, qiyamət günü hər bir insan dünyada sevdiyi və seçdiyi kəslə gətiriləcək. Hər kəs kimi özünə imam və rəhbər seçmişsə, qiyamət günü onunla birgə məhşərə gətiriləcək. "İsra" surəsinin 70-ci ayəsində belə oxuyuruq:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

-(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı ilə çağıracağıq.

Günlərin birində İmam Sadiq(ə) bir qrup səhabələrilə əyləşib söhbət edirdi. Söhbət əsnasında İmam(ə) onlara buyurdu: "Siz Allaha şükür etmirsinizmi?" Hamı İmamın(ə) bu sözlərini eşidib susdu. Başa düşdülər ki, İmam(ə) bu sözü buyurmaqla mühüm bir mətləbi onlara aydınlaşdırmaq istəyir. Buna görə də sakitcə dayanıb İmamın(ə) demək istədiyi mətləbi gözlədilər.

İmam(ə) sözünə davam edərək buyurdu: "Qiyamət günü Allah-təala hər kəsi seçdiyi rəhbər və vilayətini qəbul etdiyi imamı ilə (səhnəyə) çağıracaq. Allah-təala bizi Peyğəmbərlə(s), sizi isə bizlə (Əhli-beyt və məsum imamlarla) çağıracaq.[1] Sizin fikrinizcə, onlar (Peyğəmbər(s) və məsum imamlar) sizi hara aparacaqlar?"

---

[1] Peyğəmbərdən sonra elə bir zaman olmayıb ki, yer üzündə Allahın höccəti və insanlar üçün təyin etdiyi imam olmasın. Hər bir imamın dövründə olan insanlar (onun imamətini qəbul ediblərsə) qiyamət günü həmin imamla çağırılacaqlar. Həmin imamın dövründə hər kəs

Sonra üç dəfə təkrar edərək buyurdu: “And olsun Kəbənin Rəbbinə ki, sizi cənnətə aparacaqlar.”

Görürük ki, hər bir insan yaşadığı dövrdə Allahın təyin etdiyi imamın vilayətini qəbul edib ona itaət edibsə, qiyamət günü həmin imamla məhşur olacaq və cənnətə gedəcək. Yox, əgər hər bir insan yaşadığı dövrdə Allahın onun üçün təyin etdiyi imamı kənara qoyub başqasını özünə imam təyin etsə və onun vilayətini qəbul etsə, qiyamət günü onunla məhşərə çağırılacaq.

Əsbəğ ibn Nəbatə tarixdə baş vermiş təəccüblü bir hadisə barədə belə danışır: “Nəhrəvan müharibəsindən sonra Həzrət Əli(ə) qoşunla birgə Mədainə tərəf hərəkət etdi. Mən də onların arasında idim. Yolda səkkz nəfər münafiq  Həzrətdən(ə) ayrıldı. Həmin səkkiz nəfərin rəhbəri Əmr ibn Hüreys idi.

Həmin səkkiz nəfər Həzrət Əlidən(ə) ayrıldıqdan sonra bir yerdə əyləşib yemək yeyirdilər. Onların yanından kiçik bir kərtənkələ keçdi. Əmr ibn Hüreys tez həmin kərtənkələni tutub (Həzrət Əlini(ə) təhqir etmək mənasında) yoldaşlarına dedi: Bu kərtənkələ əmirəlmömininindir. Kim istəyirsə gəlib buna beyət etsin. Digər yeddi nəfər də yarızarafatla əllərini kərtənkələnin üstünə qoyaraq onunla beyət etdilər.

Əsbəğ ibn Nəbatə deyir: Cümə günlərinin birində həmin səkkiz nəfər Mədinəyə gəldilər. Həzrət Əli(ə) məsciddə xütbə oxuyurdu. Birdən  Həzrət(ə) buyurdu: “Camaat, Peyğəmbər(s) mənə min hədis öyrətmişdir. O hədislərin hər birindən min qapı açılır. Eşitmisinizmi ki, Allah-təala Quranda belə buyurur?

---

başqasını özünə imam və rəhbər seçibsə, qiyamət günü onunla məhşərə çağırılacaq.

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

-(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı ilə çağıracağıq.

Mən Allahın pak olan zatına and içirəm ki, həmin səkkiz nəfər qiyamət günü öz imamları ilə məhşər səhnəsinə çağırılacaq. Yəni beyət etdikləri kərtənkələ ilə. Bununla kifayətlənirəm. Əgər lazım olsa, onların adlarını bir-bir sizə söyləyərdim.”

Əsbəğ ibn Nəbatə deyir: Həzrət Əlinin(ə) bu sözlərindən çox təəccübləndim. Heç bir şey başa düşmədim. Çünki həmin səkkiz nəfər bizdən ayrılmış və bu gün gəlib məscidə daxil olmuşdular. Onların yolda nə iş gördüklərindən bizim xəbərimiz yox idi. Lakin həmin səkkiz nəfərin bizdən ayrıldığını görmüşdüm. Həzrət Əlinin(ə) bu sözlərindən sonra Əmr ibn Hüreysin üzünə baxdım. Gördüm ki, xəcalətdən xurma ağacı kimi başını aşağı salıb və alnından xəcalət təri axır. Onlar özləri də heç bir kəsə bu söhbəti açmamışdılar. Yolda tutduqları işin üstü sonradan açıldı. Onlardan biri mənimlə danışdı və yolda nə iş görmüşdülərsə mənə söylədi. Bundan sonra Həzrət Əlinin(ə) öz xütbəsində onların həmin işlərinə işarə etdiyini anladım.

## Qiyamət günü təqvalı insanları günahkarlar və zalımlardan ayıracaqlar

Qiyamət günü insan üçün ən çətin və ağır gündür. Qiyamət günü elə bir gündür ki, Allah-təala günahkarlarla təqvalıları bir-birindən ayıracaq. “Yasin” surəsinin 59-60-cı ayələrində belə buyurulur:

وَامْتَازُوا الْيَوْمَ أَيُّهَا الْمُجْرِمُونَ. أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

-(Günahkarlara belə xitab olunacaq:) "Bu gün (möminlərin və salehlərin cərgəsindən) ayrılın, ey günahkarlar." Ey Adəm övladı, məgər Mən (peyğəmbərlər və öz ağlınız vasitəsilə) sizə buyurmadımmı ki: "Şeytana ibadət etməyin! Şübhəsiz, o, sizin açıq-aşkar düşməninizdir?!"

Qiyamət günü günahkarlar mömin və təqvalı insanlardan ayrılacaq və cəzalarını çəkəcəklər. Bu, dünya həyatında idi ki, kafirlərlə möminlər bir yerdə yaşayırdılar. Dünyada onların hamısı bir kürənin, bir ölkənin, bir şəhərin və bir məhəllənin içərisində birgə yaşayırdılar. Amma qiyamət günü belə olmayacaqdır. Qiyamət günü Allah-təala fasiqləri və kafirləri möminlərdən ayıracaq. Təqvalı insanlara gəldikdə isə, Allah Öz xüsusi lütf və mərhəmətini onlara nazil edəcəkdir. "Məryəm" surəsinin 85-ci ayəsində belə buyurulur:

يَوْمَ نَحْشُرُ الْمُتَّقِينَ إِلَى الرَّحْمَنِ وَفْدًا

-(Yada sal) o gün(ü) ki, təqvalıları (məhşər səhnəsindən nur dəvələrə minmiş) süvarilər şəklində Rəhman olan Allaha tərəf toplayarıq.

İmam Baqir(ə) Peyğəmbərdən(s) belə bir rəvayət nəql edir: "İslam Peyğəmbəri(s) bu ayə barəsində Həzrət Əliyə(s) belə buyurdu: Ey Əli, bu dəstə insanlar təqvalı şəxsiyyətlərdir ki, Allah-təala onların əməllərini sevib bəyənir. And olsun Allaha, onlar qəbirlərindən qalxdığı zaman mələklər cənnət bəzəkləri ilə bəzədilmiş dəvələrdə

onları qarşılayacaqlar. Onları təzə gəlinin bəy otağına aparıldığı kimi, cənnətə aparacaqlar. Əvvəlcə cənnətin kənarında elə bir ağacın kölgəsində yer verəcəklər ki, həmin ağacın bir yarpağı min nəfərin üstünə kölgə salacaq. O ağacın sağ və sol tərəfində çeşmə vardır. Əvvəlcə onları sağ tərəfdə olan çeşmədə çimdirəcəklər. O çeşmənin suyu onların bədəninə dəyən kimi bütün mənəvi çirkinliklərdən təmizlənib pak olacaqlar. Sonra ağacın sol tərəfində olan çeşmədə bədənlərini yuyacaqlar ki, onun suyu onlara əbədi həyat bəxş edəcəkdir. Həmin çeşmənin adı "əbədi həyat" çeşməsidir ki, onun suyunda çimdikdən sonra əbədi olan həyata qədəm qoyacaqlar və heç bir vaxt onlara ölüm olmayacaq."[1]

Təqvalı insanlar günahkarlardan ayrılıb cənnətdə Allahın mərhəməti sayəsində olacaqlar. Onlar cənnətin naz-nemətləri ilə kef çəkəcəklər. Çünki onlar dünyada İlahi təqvaya riayət etmiş, Allahın insanlar üçün müəyyən etdiyi həddi aşmamışlar. Kafirlər, fasiqlər dünyada haram işlərdən ləzzət aldıqları zaman onlar Allahın halal-haramına riayət etmişlər. Onlar dünyada haram yeyənləri, haram sərvət toplayanları görüb səbir etmiş, əl-ayaqlarını heç bir vaxt harama tərəf atmamışdılar. Kafirlər və fasiqlər haram ləzzətlərin içində kef etdikləri zaman, təqvalı insanlar çətinliklər içində yanıb-yaxılmalarına baxmayaraq, Allaha xatir dözərək səbir edirdilər. Buna görə də Allah-təala qiyamət günü günahkarları onlardan ayıracaq və onları cənnətin nemətləri, Öz lütf və mərhəməti ilə sevindirəcək.

---

[1] Təfsiri Nurus-səqəleyn,5-ci cild, səh.485.

## Allahın zamana içdiyi andlar

Ötən bəhslərdə qeyd olundu ki, Allahın Quranda neçə qisim andları vardır. Yuxarıda bu barədə müəyyən qədər söhbət etmişik. Bu bəhsimizdə Allahın zamana içdiyi andlar barədə söz açacağıq. Ümumiyyətlə, Allah-təalanın Quranda müxtəlif zamanlara and içməsinə tez-tez rast gəlmək olur. Bütün bu andların hər birinin dərin və geniş mənaları vardır. Bir daha qeyd etməliyəm ki, Allah-təala ən mühüm yerlərdə mühüm olan şeylərə and içməklə bəyan edəcəyi mətləbin çox mühüm olduğuna təkid edir. Əlbəttə, biz bu bəhsimizdə Allahın müxtəlif zamanlara içdiyi andların hər biri barədə söz aça bilmərik. Çünki hər birinin xüsusi mövzusu və mənaları vardır ki, təfsir kitablarında bunlar qeyd olunmuşdur. Mövzumuz Allahın andları barədə olduğu üçün Onun zamana içdiyi andlar da bu qəbildən hesab olunur. Nümunə üçün həmin andlardan bir neçəsinə diqqət yetirək və Allahın nə üçün zamana and içməsinin səbəbini öyrənək.

Allahın zamanlara içdiyi andlardan biri dan yeri sökülməkdə olan sübh vaxtıdır ki, “Təkvir” surəsinin 18-ci ayəsində belə oxuyuruq:

وَالصُّبْحِ إِذَا تَنَفَّسَ

-Və and olsun sökülməkdə olan dan yerinə.

Allah-təala bu mübarək ayədə dan yerinin sökülməsinə, yəni gecənin gündüzdən ayrılmasına and içir. Bu, həmin sübh namazının vaxtıdır.

“Zuha” surəsinin 1-ci ayəsində günəşin doğmasına and içir. Yəni hava işıqlanmasına baxmayaraq, günəşin çıxmasına az qalır.

وَالضُّحَى

-And olsun günəşin doğmasına və aydın gündüzə.

Allahın zamanlar içərisində içdiyi andlardan biri gecədir. “Təkvir” surəsinin 17-ci ayəsində belə buyurulur:

وَاللَّيْلِ إِذَا عَسْعَسَ

-And olsun qaralmaqda və çəkilməkdə olan gecəyə.

Bu ayədə Allah-təala gecənin başlanğıcına, yəni havanın qaralıb gecə olmasına and içir. Bundan əlavə, Allah-təala “Ləyl” surəsinin 1-ci ayəsində hər yeri qaranlığa bürümüş gecəyə and içərək buyurur:

وَاللَّيْلِ إِذَا يَغْشَى

-And olsun (hər yeri zülmətə) bürüməkdə olan gecəyə.

Digər ayələrə diqqət yetirdikdə görürük ki, Allah-təala zamanlar içərisində günorta çağına da and içmişdir. “Şəms” surəsinin 3-cü və “Ləyl” surəsinin 2-ci ayələrində belə oxuyuruq:

وَالنَّهَارِ إِذَا جَلَّاهَا

-And olsun yeri işıqlı, havanı nurlu və günəşi görünən edən zaman gündüzə.

وَالنَّهَارِ إِذَا تَجَلَّى

-And olsun cilvələnməkdə olan gündüzə.

Bütün bunlar Allahın müxtəlif zamanlara içdiyi andlardır ki, oxuduğumuzdan əlavə ayələr də vardır. “Əsr” surəsinin 1-ci ayəsində isə ümumi olaraq əsrin özünə and içərək buyurur:

وَالْعَصْرِ

-And olsun əsrə.

Bu ayədə “Əsr”in neçə mənası vardır. Həmin mənalardan biri budur ki, müəyyən bir zaman qeyd olunmamışdır. Mütləq şəkildə bütün zamanlara şamil olunur. İkinci mənası barədə qeyd edirlər ki, günün qürub etməsinə az qalmış vaxta əsr deyilir. Yaxud belə deyək ki, əsr namazının vaxtıdır. Ayədə işlənmiş “Əsr”in üçüncü mənası İslam əsridir ki, Allah-təala ona and içir. Yəni and olsun o əsrə ki, İslam həmin əsrdə zühur etmişdir. Axırıncı variant isə Allahın yer üzündə olan sonuncu höccəti İmam Zamanın(ə.c) qeybdə olan əsridir ki, Allah-təala bu əsrə and içir. Bu mənaların hamısını ayədə işlənmiş “əsr”ə şamil etmək olar.

## Allahın zamanlara and içməsinin səbəbləri

### Zaman insanın ömrünün ən bahalı sərmayəsidir

Qeyd etdik ki, Allah-təala Quranda müxtəlif zamanlara and içir. Həmçinin bildik ki, Allah-təala ən mühüm şeylərə and içərək müəyyən mətləbləri bəyan edir. Burada sual oluna bilər ki, Allahın zamanlara and içməsinin səbəbi nədir? Görəsən, zaman necə mühüm bir şeydir ki, Allah ona and içir?

Alimlər bu sualın cavabında iki mətləbi bəyan etmişlər. Həmin mətləblərdən biri budur ki, Allah-təala zamana and içməklə insanın ömrünün qiymətli olduğunu başa salır. Yəni insanın ömrünü təşkil edən zamanlardır. Allah-təala zamana and içməklə insanların fikrini onların ömrünün ən bahalı sərmayəsi olduğuna yönəldir. Ömür insan üçün müxtəlif zamanlardan (saniyələr, dəqiqələr, günlər və s.) təşkil olunmuş müddətlərdir.

قَالَ عَلِيٌّ(ع): اِنَّ عُمَرَكَ وَقتُكَ الَّذِى اَنتَ فِيهِ

-Həzrət Əli(ə) buyurur: “Həqiqətən, sənin ömrün sənin içində olduğun vaxtındır.”[1]

Deməli, ömür insana verilən vaxtdan ibarətdir. Bəzi insanlara iyirmi, bəzisinə qırx, bəzisinə altmış il ömür verilmişdir. Bu ömür insanlara zamandan verilmiş vaxt payıdır. Zaman uzundur və onun yaranması milyon illər öncə baş vermişdir. Yəni Allah-təala zamanı milyon illər bundan əvvəl yaratmışdır ki, onun yaranma tarixini heç bir kəs dəqiq bilmir. Həmin bu zamandan insana müəyyən qədər pay verilmişdir. Buna görə də insana verilmiş bu pay çox mühümdür.

قَالَ عَلِيٌّ(ع): اِنَّ عُمرَكَ عَدَدُ اَنفَاسِكَ وَ عَلَيهَا رَقِيبٌ يُحْصِيها

-Həzrət Əli(ə) buyurur: “Sənin ömrün çəkdiyin nəfəslərin sayıdır və bu nəfəsləri bir gözətçi sayır.[2]

Buna görə də insan ona verilmiş bu vaxtın qədrini bilməlidir. İnsanın aldığı və verdiyi hər bir nəfəs onun ömrünün sayını təşkil edir. Hər bir nəfəs əgər bir saniyə olsa, həmin saniyələr üst-üstə yığılaraq insanın ömrünü təşkil edir. İnsan ömrünün nə vaxt sona çatacağını bilmir. Günlərin birində aldığı nəfəsi bir daha geri buraxa bilməyəcəkdir, yaxud verdiyi nəfəsi bir daha geri ala bilməyəcək. Çünki artıq onun ömrü qurtarmışdır. İnsanın ömrü qurtardıqdan sonra dünyanın hamısını onun üçün əlac etsələr də belə onu ölümdən qurtara bilməyəcəkdir. Buna görə də insan ona verilmiş bu vaxtdan səmərəli istifadə etməli və onun qədrini bilməlidir.

---

[1] Mizanül-hikmə,6-cı cild, səh. 4034.
[2] Mizanül-hikmə,6-cı cild, səh.4034.

قَالَ رَسُولُ اللهِ(ص): كُن عَلى عُمرِكَ اَشَحَّ مِنكَ عَلى دِرهَمِكَ وَ دِينَارِك

-Həzrət Peyğəmbər(s) buyurur: "Öz ömrünə qarşı dinar-dirhəmindən daha xəsis ol."[1]

Həzrət Peyğəmbər(s) bu kəlamı ilə təkid edir ki, insan öz ömrünü bihudə keçirməməli və hər dəqiqəsindən axirəti üçün səmərəli istifadə etməlidir. Mömin insan həmişə öz vaxtının qədrini bilər və onu boş keçməyə qoymaz. Pul-parada səxavətli, amma vaxtına münasibətdə paxıl olar. Əgər insan öz vaxtını ona-buna sərf etsə, bəs özü üçün nəyi xərcləyəcək? Hər bir gün insanın təzə vaxtıdır. O vaxtı ötürdükdən sonra bir daha geri qaytarmaq mümkün olmur. Buna görə də hər bir günün işini həmin gün görmək lazımdır.

قَالَ البَاقِرُ(ع): مَا مِن يَومٍ يَأتِي عَلَى اِبنِ آدَم إِلاّ قَالَ ذَلِكَ اليَوم: يَابنَ آدَم! أَنَا يَومٌ جَدِيدٌ، وَ أَنَا عَلَيكَ شَهِيدٌ، فَافعَل فِيَّ خَيراً، وَاعمَل فِيَّ خَيراً، أَشهَدُ لَكَ بِه يَومُ القِيَامَة، فَإِنَّكَ لَن تَرانِي بَعدَهَا أَبداً

-İmam Baqir(ə) buyurur: "Adəm övladı üçün elə bir gün yoxdur ki, həmin gün (danışıb) deməsin: Ey Adəm övladı, mən yeni bir günəm. Mən sənə şahidəm. Mənim içimdə xeyir işlər və xeyir əməllər et ki, mən də qiyamət günü sənin xeyrinə şahidlik edim. Mən getdikdən (ötüb keçdikdən) sonra sən məni bir daha görməyəcəksən."[2]

---

[1] Yenə orada.
[2] Nəfsin mühasibəsi, səh.14.

مَا مِن يَومٍ اِلّا يُنَادِى اِنِّ يَومٌ جَدِيدٌ فَاغتَنِمِى فَلَو غَابَت شَمسِى لَم تُدرِكنِى اِلَى يَومِ القِيَامَة

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: "Elə bir gün yoxdur ki, səsləyib deməsin: Mən yeni bir günəm. Məni qənimət bilin. Məndə olan günəşi (batdıqdan sonra) qiyamət gününə qədər bir daha görməyəcəksən."

İnsanın ömründən keçən hər bir günün öz hesabı və təklifləri vardır. Əgər insan bu günün təklif və hesabını əldən versə, bir daha onu qaytara bilməyəcək. Sabahısı gün sabahın hesabı və təklifi vardır. Əgər bu gün sübh namazına dura bilmədinsə, artıq o günü bir daha geri qaytara bilməyəcəksən. Artıq o günün sübh namazını əldən vermiş olacaqsan. Əgər insan bu günün namazını qəzaya veribsə, çalışmalıdır ki, sabahın və digər günlərin namazını əldən verməsin. Əgər insan istəsə ki, heç bir vaxt namazlarını qəzaya verməsin, gərək hər gününün namazını öz vaxtında qılsın. Əgər bircə dəfə qəyaya versə, daha həmin günü geri qaytara bilməyəcək.

Təxminən əlli-altmış il bundan əvvəl bir nəfər məscid tikdirmək üçün lazımli qədər torpaq sahəsi vəqf etmişdi. Amma belə bir şərt kəsmişdi ki, məscidin tikilməsinə başlayarkən ilk külüngü o adam vursun ki, ömrünün əvvəlindən axırına qədər bircə dəfə də olsa namazı qəzaya getməyib. Bu xəbəri bütün şəhərə bildirdilər. Axırda bir nəfər yaşlı qadın tapıldı. Həmin qadın deyir: "Mən həddi-büluğa çatdıqdan və mənə namaz vacib olduqdan sonra bircə dəfə də olsun namazımın qəzaya getməsi yadıma gəlmir." Sonra məscidin tikintisi ilə bağlı ilk külüngü də elə həmin qadın vurdu.

## İnsan ona verilən vaxtı qənimət bilməlidir

İnsan əlindən çıxan fürsəti heç bir vaxt geri qaytara bilməyəcək. Buna görə də hər bir günün öz təklifi və vəzifəsi vardır. İnsan daim çalışmalı və ömrünün, eləcə də ona pay verilmiş vaxtın qədrini bilməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): بَادِرْ بِأَرْبَعٍ قَبْلَ أَرْبَعٍ: شَبَابِكَ قَبْلَ هِرَمِكَ؛ وَصِحَّتِكَ قَبْلَ سُقْمِكَ؛ وَغِنَاكَ قَبْلَ فَقْرِكَ؛ وَحَيَاتِكَ قَبْلَ مَمَاتك

-Həzrət Peyğəmbər(s) buyurur: "Dörd şeyin qədrini əldən verməmiş qədrini (qənimət) bil. Qocalmamış cavanlığın qədrini bil. Xəstələnməmiş sağlamlığını qədrini bil. Yoxsullaşmamış malının qədrini bil. Ölüm yetməmiş ömür və həyatının qədrini bil."[1]

İnsan elə başa düşməməlidir ki, qocaldıqda rahat ibadət edə biləcək. Əksinə, insan cavanlıqda etdiyi ibadəti qocalıqda edə bilmir. Axı insan qocalanda dərmanla yatır, dərmanla durur. Dərmanla gəzir, dərmanla da yemək yeyir. Belə bir insan ibadətləri necə yerinə yetirə bilər. Halbuki cavanlıqda bütün bunları yetərincə edə bilərdi. Düzdür, insan ömrünün hər bir zamanının öz şirinliyi vardır, amma cavanlıqda etdiyi ibadəti artıq qocalanda çətinliklə yerinə yetirir. Odur ki, ibadətin də gözəli cavanlıq vaxtlarındadır. Həmçinin insan sağlam olduğu halda, yəni xəstələnməmiş öz qədrini bilməli və sağlamlığından istifadə edərək axirət azuqəsini toplamalıdır. O cümlədən insan əlində olan maddi imkanlardan da istifadə edərək axirəti üçün çalışmalıdır.

---

[1] Mizanül-hikmə,6-cı cild, səh.4034.

Elə olmamalıdır ki, imkanları əlindən çıxdıqdan sonra peşman olub desin: “Kaş filan xeyir əməli edəydim.” Heç kim mal-dövlətinin nə vaxt əlindən çıxacağını bilmir. Odur ki, əlində imkan olanda axirətini fikirləşməlidir.

Bir gün tanıdığım yaşlı bir insanla söhbət edirdim. Onun vaxtilə külli miqdarda mal-dövləti var idi. Axır vaxtlarda bütün mal-dövləti əlindən çıxmışdı. Oğlanlarının biri ilə yaşayırdı. O, mənə dedi: “Hamı bilir ki, vaxtilə mənim çoxlu mal-dövlətim var idi. Əlimdən çıxan bütün mal- dövlətimə görə bir zərrə də olsun narahat deyiləm. Soruşdum: Nə əcəb? Dedi: Çünki əlimdə mal-dövlət olan vaxtlarda çoxuna əl tutub ehsanlar etmişəm. Kimin imkanı olmadığını görmüşəmsə, ona əl tutmuşam. Ehtiyaclı gördüyüm hər bir kəsə həmin mal-dövlətdən bir miqdar vermişəm. Əgər mən bu yaxşılıqları etməsəydim, indi mal-dövlətimin əlimdən çıxdığına görə çox peşman olardım. Yəqin bilirəm ki, ehsan etdiklərim itməyib. Onlar mənim axirət azuqələrim olaraq qalır. Buna görə də heç bir naratçılığım yoxdur.”

Həmçinin insan öz həyatının qədrini ölməmişdən əvvəl bilməlidir. İnsan cavanlığından, sağlamlığından, mal-dövlətindən istifadə etdiyi kimi, həyat və ömründən də istifadə etməlidir. Çünki ömrü sona çatdıqda arzu edəcək ki, kaş dünyaya qayıdaydım və heç olmasa iki rükət namaz qılaydım. Amma nəfəs kəsildikdən sonra heç bir arzu yerinə yetməyəcək və insanın geri qayıtması mümkün olmayacaqdır. Buna görə də insan yaşadığı ömrün hər bir anından axirət üçün azuqə toplamalıdır.

Hədislərdə belə nəql olunur ki, camaat namazında deyilən bircə “Allahu-əkbər” zikrinin savabı yetmiş həcc ziyarətinin savabından çoxdur. Əgər insan bircə kəlmə “Subhanallah” zikrini edərsə, ona nə qədər savab yazılar.

Günlərin birində Həzrət Süleyman(ə) xalçasına minib səyahətə çıxmışdı. Dərələrin birinin dibində isə bir nəfər abid Allaha ibadət edirdi. O, başını göyə qaldırdıqda gördü ki, Həzrət Süleyman(ə) cah-cəlalla göydə uçur. Təəccüblə öz-özünə dedi: "Sübhanallah, gör Allah-təala Davudun oğluna necə əzəmət bəxş etmişdir." Külək onun bu sözlərini Süleymanın(ə) qulağına çatdırdı. Süleyman(ə) xalçaya göstəriş verdi ki, dərənin dibinə ensin. Xalça aşağı enib düz həmin abidin kənarında dayandı. Həzrət Süleyman(ə) abidə buyurdu: "Ey Allahın bəndəsi, əgər Allahın bəyənəcəyi dərəcədə bircə kəlmə "Sübhanallah" desən, bu zikrin əzəməti Süleymanın(ə) bütün mülkünün əzəmətindən çox və üstündür."

Odur ki, qiymətli və dəyərli ömrümüz öz əlimizdə olduğu zaman bu ömürdən istifadə edib bacardığımız qədər axirət azuqəsi toplamalıyıq. Bizə verilən vaxtın hər bir dəqiqəsində diqqətli olmalıyıq, çünki vaxtımızın nə vaxt qurtaracağını bilmirik. Böyük və əzəmətli insanların birinə belə bir sual verdilər: "Əgər cənab Əzrayıl(ə) gəlib sənin ömrünün sonuna üç gün qaldığını xəbər versə, həmin üç gündə nə edərdin?" Həmin şəxs belə cavab verdi: "Bir az rahat nəfəs alardım. Çünki ömrümün sonuna hələ üç gün qaldığını bilirəm. Amma mənə ömrümün sonuna nə qədər qaldığını hələ heç bir kəs deməyib. Ona görə də çox narahatam və hər bir dəqiqəmin qədrini bilməliyəm."

Odur ki, insan hər an öz vaxtının qədrini bilməli, halallaşmalı, insanlarla halallaşmalı, tövbə etməli, əməllərindən tövbə etməli, boynunda olan camaatın və Allahın haqqını yerinə yetirməlidir. Çox təəccüblüsü budur ki, insan ömrünün sonuna nə qədər qaldığını bilmir, amma tövbə və ibadətini nə üçün bu gün-sabaha saxlayır?

İnsan dünyada yaşadığı müddətdə onun kiçik və böyük əməllərinin hamısı yazılıb qeyd olunur. Qiyamət günü bütün əməllərini ona kino lenti kimi göstərəcəklər. Həmçinin ömrü boyu gördüyü yaxşı və pis işlərini, hətta boş keçirdiyi vaxtlarını belə ayrı-ayrı surətdə ona nümayiş etdirəcəklər.

Həzrət Peyğəmbər(s) buyurur: “Hər bir insana qiyamət günü ömrünün hər bir anı üçün otaqlar açılacaq. O cümlədən otaqlardan birində nur, şadlıq və rahatlıq görəcək. İnsan həmin otağı gördükdə o qədər sevinəcək ki, əgər həmin şadlığı bütün cəhənnəm əhli arasında bölüşdürsələr, heç bir qəm-qüssələri qalmaz və onlar cəhənnəm odunu unudarlar. Soruşacaq: Bu nə otaqdır belə? Deyəcəklər: Bu, dünyada Allaha ibadət etdiyin anların otağıdır.”

İkinci otaq çox qorxulu, əzablı və qaranlıq bir otaqdan ibarət olacaq. İnsan həmin otağı gördükdə elə qorxub vəhşətə düşəcək ki, əgər onun qorxusunu və vəhşətini bütün cənnət əhli arasında bölüşdürsələr, (cənnət əhli) həmin qorxu və vəhşəti görüb cənnətin nemətlərindən aldıqları ləzzəti unudarlar. Soruşacaq: Bu hansı otaqdır belə? Ona deyəcəklər: Bu, dünyada günah etdiyin anların otağıdır.”

Üçüncü otağı insana göstərdikdə baxıb görəcək ki, adi və boş bir otaqdır. Orada nə qəm-qüssə, nə də şadlıq görəcək. Soruşacaq: Bəs bu hansı otaqdır? Deyəcəklər: Bu, dünyada vaxtını boş keçirdiyin anların otağıdır. Həmin anlarda sən boş gəzirdin, yatırdın və şəriətin yol verdiyi işlər görürdün. Dünyada günah və savab etmədiyin anların otağıdır.”

Bunları gördükdə insan təəssüf edib peşman olacaq. Öz-özünə deyəcək: “Nə üçün mən ömrümü hədər yerə sərf

etdim?" Allah-təala "Təğabun" surəsinin 9-cu ayəsində belə buyurur: "Məhz o gün bir-birini (qarşılıqlı) ziyana uğratma günüdür."[1]

İnsan mütləq öz ömrünün qədrini bilməli və ona verilmiş vaxtı mühüm hesab etməlidir. Ömür sürətlə sona doğru yaxınlaşdığı üçün insan vaxtı fürsət bilib onun barəsində dəqiq olmalıdır. İnsanın öz ömrü barəsində dəqiq olması isə Allahın onun üçün müəyyən etdiyi vəzifələrə riayət etməsidir.

قَالَ عَلِيٌّ(ع): اِنَّ اَنفَاسَكَ اَجزَاءُ عُمرِك فَلا تُنفِهَا اِلّا فِى طَاعَةٍ تُزلِفُكَ

-Həzrət Əli(ə) buyurur: "Həqiqətən, sənin nəfəslərin ömrünün anları və hissələridir. Onu (ömrünü) Allaha itaətdən və səni Allaha yaxınlaşdıran əməllərdən başqa heç bir şeyə sərf etmə."[2]

İnsanın ömrü belədir ki, günü-gündən azalmağa doğru gedir. Ömür insana sayılıb verilmiş pul kimi bir dəfə verilir və onu diqqətlə xərcləmək lazımdır ki, axırda ziyana uğramayasan. Məsələn, gəlirli pul belədir ki, bir tərəfdən xərclədikcə, digər tərəfdən gəlir yeri olur. İnsan hər gün min manat qazanır və onu istədiyi kimi xərcləyir. Çünki bilir ki, hər gün onun müəyyən bir məbləğdə gəliri vardır. Amma sayılıb verilmiş pul belə deyil. Xərclədikcə azalır. Məsələn, insana bir il ərzində xərcləmək üçün müəyyən məbləğdə pul verilir. Daha gündəlik olaraq ona heç nə verilmir. Ona verilən illik pulu isə bir il ərzində

[1] Mizanül-hikmə,6-cı cild, səh.4036.
[2] Yenə orada.

xərcləməlidir. Buna görə də insan həmin pulun hətta bircə manatını belə çox diqqətlə və qənaətlə xərcləyir ki, ilin sonuna qədər kifayət etsin. Əgər beş-altı ay ərzində bir ilin pulunu xərcləsə, qalan aylar pulsuz qalacaqdır. İnsanın ömrü də həmin sayılıb verilmiş pul kimidir. Ömür keçdikcə sona yaxınlaşıb qurtarır.

Mən günlərin birində böyük alimlərdən birinin görüşünə getmişdim. Onunla bir neçə dəqiqə söhbət edib bəzi suallar soruşdum. Söhbətimiz qurtardıqdan sonra mən ondan üzrxahlıq edib dedim: “Sizin vaxtınızı aldığım üçün məni bağışlayın.” Həmin alim yaşlı bir insan idi. O, mənim üzrümü qəbul etdi, amma bir söz də əlavə edərək dedi: “Mən yaşlı bir insanam. Artıq ömrümün axırlarını yaşayıram. Nə qədər nəfəsim qaldığını, ömrümün sonuna neçə gün qaldığını bilmirəm. Amma onu bilirəm ki, bu qalan ömrümü də qənaətlə xərcləməliyəm. Yanıma hər gələnə yarım saat, bir saat və yaxud bir gün vaxt versəm, özüm üçün heç bir iş görə bilməyəcəyəm. Mən axirət işlərimi sahmana salmalıyam.”

## Bəzi insanların ömrü onların öz əleyhinə höccətdir

Burada bir mətləbə diqqət yetirməyimiz daha yaxşı olardı. Həmin mətləb budur ki, insanın ömrü demək olar ki, bütün insanlar üçün və xüsusi olaraq bəzi insanların əleyhinə höccətdir. Höccət odur ki, üzrü aradan qaldırır. Məsələn, peyğəmbərlər Allahın yer üzərində insanlara olan höccətidir. Onlar insanların üzrünü aradan qaldırırlar. Belə olduqda insan Allahın hüzuruna yol tapa bilmədiyindən üzr gətirə bilmir. Əgər insan “İlahi, mən haqq-həqiqət yolunu tapa bilmədim,” - desə Allah-təala

ona yol göstərmək üçün peyğəmbərlər göndərdiyini bildirəcək və onun üzrünü qəbul etməyəcək. Əgər insan desə ki, mən yolu tapa bilmədim, Allah-təala buyurar: “Mən bilirdim ki, sən yolu tapa bilməyəcəksən. Buna görə də sənin üçün peyğəmbər göndərdim və onlar da sənə yolu göstərdilər.”

Məsələn, qərib bir adama Şamaxıya getməyi tapşırırlar. O deyir: “Axı mən yolu tanımıram.” Ona deyirlər: “Sənin ağlın var, yolu kimdənsə soruşa bilərsən, yaxud yol hərəkəti nişanlarına baxıb yolu tapa bilərsən.”

Əgər həmin şəxs yolu tapmaq üçün ciddi məşğul olsa, yolu tapa bilər. Amma onu Şamaxıya yola salan şəxs yolu rahat tapması üçün ona bir nəfər bələdçi də qoşur. Bələdçi həmin şəxsə Şamaxı yolunu dəqiqliklə göstərir. Belə olduqda əgər o, yenə də Şamaxıya gedə bilməsə, onun hansı bəhanə və üzrü qəbul oluna bilər? Əgər ona bələdçini qoşmasaydılar da belə öz ağlı ilə çalışıb yenə də yolu tapa bilərdi. Amma bələdçisiz onun üzrünü azacıq da olsa qəbul edərdilər. Zirək adam olmadığı üçün yolu tapa bilmədiyini düşünərdilər. Ancaq bələdçi tam dəqiqliklə yolu ona göstərdikdən sonra əgər yenə də yolu tapmasa, heç bir üzrü qəbul olunmayacaq.

Odur ki, insanlara verilən ömür bəzi insanların əleyhinə höccətdir. Yəni ömürlərini bihudə və günahla keçirənlərin heç bir üzrü qəbul olunmayacaq. Dünyada haqqı qəbul etməyib, fasiq və küfr halında yaşayan, habelə Allahı, Peyğəmbəri(s), vilayəti, məadı və Quranı qəbul etməyib öz bildikləri kimi yaşayan nankor insanlar barəsində “Fatir” surəsinin 36-37-ci ayələrində oxuyuruq:

وَالَّذِينَ كَفَرُوا لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَى عَلَيْهِمْ فَيَمُوتُوا وَلَا يُخَفَّفُ عَنْهُم مِّنْ عَذَابِهَا كَذَلِكَ نَجْزِي كُلَّ كَفُورٍ.

-Kafir olanlar üçün cəhənnəm odu vardır. (Orada) nə onların ölümünə hökm olunar ki, ölsünlər və nə də əzabları yüngülləşdirilər. (Bəli,) Biz hər bir kafir və nankora beləcə cəza verəcəyik.

وَهُمْ يَصْطَرِخُونَ فِيهَا رَبَّنَا أَخْرِجْنَا نَعْمَلْ صَالِحًا غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ

-Onlar orada dad-fəryad edərlər: “Ey Rəbbimiz, bizi (buradan) çıxar ki, (indiyədək) etdiklərimizdən fərqli olaraq yaxşı işlər görək.”

أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ وَجَاءكُمُ النَّذِيرُ

-(Onlara deyiləcək:) “Məgər sizə nəsihət qəbul etmək istəyən kimsənin öyüd-nəsihət ala biləcəyi qədər ömür vermədikmi? Və sizə bir qorxudan (peyğəmbər) gəlmədimi?!”

Bu mübarək ayədə Allah-təala onlara cavab verir. Yəni onlara o qədər ömür vermişdir ki, bu vaxt ərzində düz yolu taparaq öyüd-nəsihət götürərdilər. Lakin onlar bütün bunlara əhəmiyyət verməyib ömürlərini hədərə verdilər. Onlar dünyadan uşaq ikən köçmədilər ki, üzrləri qəbul olunsun. Çünki insan dünyaya gəldikdən sonra həddi-büluğa çatana qədər dünyadan getsə, bütün üzrləri qəbuldur. Lakin həddi-büluğa çatdıqdan sonra ilahi vəzifələrə əməl etməsə və ömrünü bihudə işlərə sərf etsə, üzrü qəbul olunmayacaq. Hətta əgər on altı yaşına çatsa belə onun üzrünü cavanlığına görə qəbul edərlər. Amma ayədə Allah-təala onlara belə buyurur: “Məgər sizə nəsihət qəbul etmək istəyən kimsənin öyüd-nəsihət ala biləcəyi qədər ömür vermədikmi?”

Bu ayədən açıq-aydın başa düşürük ki, insanın ömrü haqqı və öyüd- nəsihətləri qəbul edəcəyi səviyyədə yefərli idi. Bundan əlavə, Allah-təala onlar üçün yolgöstərən peyğəmbərlər də göndərdi. Lakin onlar haqqı qəbul etmədilər, düzgün olan yolu seçmədilər və öz günahlarında israrlı oldular. Allah yüz iyirmi dörd min peyğəmbər göndərdi, amma onlar səhər yuxudan oyanan kimi birinci işləri peyğəmbərlərlə, Allahın dini ilə düşmənçilik etmək oldu. Onların fikrində haqqın əleyhinə hiylə və düşmənçilikdən savayı başqa bir şey olmadı. Belə insanların hansı üzrü qəbul ediləcək? Onlar Allahın hüzurunda etdikləri əməllərə görə nə bəhanə gətirəcəklər?

Qeyd olunmalıdır ki, günah işlədən insanlar bəzən gördükləri işlərin pis olduğunu bilir, bəzən də bilmirlər. O qədər günahlara aludə olurlar ki, axırda günah onlar üçün adət halını alır. Belə ki, çirkin əməlləri onların gözündə bəzənib zinətli görünür. Haram məclislər gözlərində gözəl və şirin nəzərə çarpır. “Tövbə” surəsinin 37-ci ayəsində belə oxuyuruq:

زُيِّنَ لَهُمْ سُوءُ أَعْمَالِهِمْ

-Əməllərinin çirkinliyi onlar üçün zinətlənmişdir.

Bu ayə günaha adət etmiş insanların çirkin əməllərinin onların gözündə zinətli görünməsini bəyan edir. Onlar günah çirkabına o qədər batmışlar ki, artıq həmin çirkabı da gözəl görürlər. Məsələn, iki gün günün altında qalmış bir qab südü kim götürüb içsə, həmin adam şəksiz xəstələnər. Deməli, xəstəliyin əlaməti zahirən nəzərə çarpmasa da belə artıq həmin süd xarab olmuşdur. Əgər həmin südü içmək istəyən insan ona həkim gözü ilə və yaxud elmi nöqteyi-nəzərdən baxsa, onun içində olan çirkabı və ya xəstəlik yaradan amilləri mütləq görə bilər.

Əgər insan haram məclislərə bəsirət və ağıl gözü ilə baxsa, onun çirkabını görə bilər. Amma günahkar insanlar belə məclislərin zahirinin gözəlliyini görürlər. Günah işlər onların qəlblərini o qədər örtmüşdür ki, artıq günah və haram əməllər gözlərində zinətli görünür. Onlar elə başa düşürlər ki, gördükləri çirkin işlərin hamısı gözəldir. "Kəhf" surəsinin 104-cü ayəsində belə oxuyuruq:

الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا

-Onlar dünya həyatındakı (hər hansı bir xeyir işdəki) səyləri (küfrlərinə görə) puç olaraq yoxa çıxmış və yaxşı iş görmələrini sanan kəslərdir.

Beləliklə, ömürlərini günahla keçirmiş, haqq yolundan uzaq düşmüş insanların aqibəti çox acınacaqlı olacaqdır. Onlar cəhənnəmdə ah-nalə edərək dünyada tutduqları çirkin işlərdən və pis əməllərdən peşman olacaqlar. Ancaq bu peşmançılığın heç bir faydası olmayacaq. "Əraf" surəsinin 53-cü ayəsində belə oxuyuruq:

..فَهَل لَّنَا مِن شُفَعَاءِ فَيَشْفَعُواْ لَنَا أَوْ نُرَدُّ فَنَعْمَلَ غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ قَدْ خَسِرُواْ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ

-(Cəhənnəm əhli) bizim üçün bizə şəfaət edəcək kimsələr varmı, yaxud etdiklərimizdən qeyrilərini yerinə yetirməyimiz üçün (dünyaya) qaytarıla bilərikmi? - deyəcəklər. (Xeyr,) onlar (həmin gün) şübhəsiz özlərini ziyana uğratmışlar və (Allaha, Peyğəmbərə(s) və dinə) iftira etdikləri şey onların gözlərindən itib.

Onlar dünyada qiyaməti, cənnət və cəhənnəmi inkar edirdilər. Elə bilirdilər ki, bütün bunlar boş şeylərdir. Elə başa düşürdülər ki, dünya həyatı onların ən kef çəkməli

yerləridir. Halbuki dünyada insanın ən yaxşı günləri belə əzab-əziyyətlidir. İnsan dünyada ən yaxşı anlarında belə nigarançılıqla yaşayır. Lakin insanın əsl yaşamalı həyatı axirət dünyasıdır. Bu dünya başdan-başa insan üçün problem və əziyyətdir. İnsanı bu dünyaya kef çəkməyə göndərməyiblər. İnsan sadəcə olaraq bu dünyada müəyyən vaxt ərzində yaşayır və ona verilmiş ömürdən istifadə edərək axirətini abadlaşdırmalıdır.

Tanıdığım mömin bir kişi dünyasını dəyişmişdi. O, təxminən doxsan yaşında rəhmətə getdi. Onun oğlu deyir: "Gecələrin birində atam yuxuma gəlib dedi: Mənə deyən yox idi ki, sən bu doxsan ili dünyada nə üçün qalmısan? Bura tamam başqa aləmdir. Dünyada axtardığımız eşq, ləzzət və ağlımıza gəlməyən gözəlliklər buradadır."

Qoca bir kişi oğlunun yuxusuna gələrək belə sözlər danışır və insanların böyük əksəriyyəti də buna inanır. Amma Quran bu sözləri bizə yüz dəfələrlə bəyan edib. Nə üçün çoxumuz buna inanmaq istəmirik? Quran axirət evinin dünya həyatından daha yaxşı olduğunu dəfələrlə bizə bəyan etmişdir. Dünya körpü kimi bir şeydir ki, insanlar onun üzərindən keçib axirətə qədəm qoyurlar. Allah insanı əbədi həyat üçün yaradıb, fani dünya üçün yox. Amma bir çoxu axirət üçün yarandığını yadından çıxararaq bu dünyanın bəzək-düzəkləri ilə başını qatır.

Bir nəfər televizorun antenini düzəltmək üçün nərdivanı qoyub dama çıxır. Dama çıxdıqda görür ki, orada çox gözəl meh əsir. Bir az orada əyləşib hava qəbul etdikdən sonra oğlunu səsləyib deyir: "Oğlum, anana de mənim üçün bura yemək göndərsin." Oğlu atasının bu sözlərini anasına deyir. Anası həyətə çıxıb kişini səsləyərək deyir: "Ay kişi, nə oldu? Kişi deyir: Nəyi soruşursan? Qadın deyir: Biz səni damın üstünə nə üçün

çıxartmışıq, yadından çıxıb? Hələ uşaqla xəbər də göndərmisən ki, sənin üçün ora yemək gətirək.”

Bu əhvalat gülməli də olsa dünyada bizim hamımızın başına gəlir, amma xəbərimiz yoxdur. Biz bu dünyaya nə üçün göndərildiyimizi yaddan çıxarıb, başımızı oyun-oyuncaqlarla qarışdırmışıq. Hətta Allah- təala peyğəmbərləri də ona görə göndərmişdir ki, bizə dünyaya nə üçün gəldiyimizi yadımıza salsın.

Odur ki, hər kəs dünyaya nə üçün gəldiyini yadından çıxarsa, ömrünü bihudə işlərə sərf etsə, Allahın və Peyğəmbərin(s) buyurduqlarına əhəmiyyət verməyib özünü çirkaba batırsa ziyana uğrayacaq. Dünyasını dəyişdikdən sonra isə bütün həqiqətləri görüb yenidən bu dünyaya qayıtmağı və yaxşı işlər görməyi arzu edəcək. Artıq ona heç bir möhlət verilməyəcək. “Mominun” surəsinin 99-108-ci ayələrində belə oxuyuruq:

حَتَّى إِذَا جَاء أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ. لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ

-Nəhayət, onlardan birinin ölümü çatan zaman (canı mələklərin əlində olduğu halda Allaha) deyər: “Ey Rəbbim, məni (dünyaya) qaytar, bəlkə (dünyada) qoyduğum şey (dünya malı və ömür günləri) barəsində yaxşı bir iş gördüm.”

كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ

-(Ona belə cavab verilər): Xeyr, bu, onun dediyi (boş) sözdür (gerçəkləşməyəcəkdir). Və onların qarşısında (qəbirdən) qaldırılacaqları günə qədər bərzəx (aləmi) vardır.

فَمَن ثَقُلَتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ. وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُوا أَنفُسَهُمْ فِي جَهَنَّمَ خَالِدُونَ.

-Beləliklə, kimin ölçülmüş (etiqad, əxlaq və əməl)ləri ağır və dəyərli olsa, belələri həqiqətən nicat taparlar. Və kimin ölçülmüşləri yüngül və dəyərsiz (küfr əqidələri, əxlaqi rəzilliklər və haram əməllər) olsa, öz varlıqları barəsində ziyana düşmüş və cəhənnəmdə əbədi qalacaq kəslər onlardır.

تَلْفَحُ وُجُوهَهُمُ النَّارُ وَهُمْ فِيهَا كَالِحُونَ. أَلَمْ تَكُنْ آيَاتِي تُتْلَى عَلَيْكُمْ فَكُنتُم بِهَا تُكَذِّبُونَ. قَالُوا رَبَّنَا غَلَبَتْ عَلَيْنَا شِقْوَتُنَا وَكُنَّا قَوْمًا ضَالِّينَ. رَبَّنَا أَخْرِجْنَا مِنْهَا فَإِنْ عُدْنَا فَإِنَّا ظَالِمُونَ

-Od(un şölələri) şiddətlə üzlərinə çırpılar və onlar orada qaşqabaqlı və xar olarlar və dodaqları yandığı üçün dişləri görünər.

(Allah onlara deyər:) "Məgər Mənim ayə və nişanələrim həmişə sizə oxunmurdu və siz həmişə onları təkzib və inkar etmirdiniz?!"

Deyərlər: "Ey Rəbbimiz! (Pis seçim etdiyimiz və nəfsi istəklərə tabe olduğumuz üçün) bədbəxtliyimiz bizə qalib gəldi və biz yolunu azmış bir dəstə idik. Ey Rəbbimiz, bizi buradan çıxar (və dünyaya qaytar). Beləliklə, əgər (bir daha küfr və günah azğınlığına) qayıtsaq, deməli onda mütləq zalımıq."

قَالَ اخْسَؤُوا فِيهَا وَلَا تُكَلِّمُونِ

-(Allah) buyurar: "Orada zəlil vəziyyətdə sakit və uzaq olun, Mənimlə əsla danışmayın!"

Bu ayədə görürük ki, Allah-təala onlara çox sərt və alçaldıcı cavab verir. Ərəb dilində “ixsə” iti qovmaq kimi “itil” və yaxud “sakit qal” mənasında işlənir.

Onlar dünyadan getdikdən sonra Allahdan geri qaytarılmalarını diləyəcək və Allah da onlara sərt cavab verəcək. Bundan əlavə, onlar yalan deyirlər ki, əgər dünyaya bir daha qayıtsalar, yaxşı işlər görəcəklər. “Ənam” surəsinin 27-28-ci ayələrində Allah-təala Peyğəmbərə(s) onların barəsində belə buyurur:

وَلَوْ تَرَىَ إِذْ وُقِفُواْ عَلَى النَّارِ فَقَالُواْ يَا لَيْتَنَا نُرَدُّ وَلاَ نُكَذِّبَ بِآيَاتِ رَبِّنَا وَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ

-Əgər onların odun üzərində saxlanıldıqları zamanı görsən (qəribə bir mənzərə müşahidə edəcəksən)! (Onlar həmin vaxt) “kaş ki, (dünyaya) qaytarılaydıq, bir daha Rəbbimizin ayələrini təkzib etməyəydik və möminlərdən olaydıq!” - deyərlər.

بَلْ بَدَا لَهُم مَّا كَانُواْ يُخْفُونَ مِن قَبْلُ وَلَوْ رُدُّواْ لَعَادُواْ لِمَا نُهُواْ عَنْهُ وَإِنَّهُمْ لَكَاذِبُونَ

-(Onlar dünyaya qaytarılmaq arzusunda səmimi deyildirlər,) əksinə, qabaqcadan gizlətdikləri şey (əməllərinin pislikləri) onlara aşkar olub. Əgər (dünyaya) qaytarılsalar, mütləq (yenə də) çəkindirildikləri şeyə qayıdarlar. Şübhəsiz, onlar yalançıdırlar.

Beləliklə, bu insanlar barəsində onlara dünyada verilmiş ömür onların əleyhinə höccət olacaq. Onlar bəhanə gətirərək üzrxahlıq istədikdə Allah-təala onlara belə buyuracaq:

أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ

-Məgər sizə nəsihət qəbul etmək istəyən kimsənin öyüd-nəsihət ala biləcəyi qədər ömür vermədikmi?

قَالَ الصَّادِقُ(ع): فى قوله تعالى: "أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّر" تُوبِيخٌ لِإبنِ ثَمَانِيَة عَشَرَةَ سَنَةً

-İmam Sadiq(ə) bu ayə barəsində belə buyurur: "Bu ayə on səkkiz yaşlı uşaq üçün də dəlil və sübutdur."[1]

Yəni on səkkiz yaşlı bir cavan dünyadan getdikdən sonra qiyamət günü deyə bilməz ki, mənim ömrüm az idi və mənə haqqı tapmaqda kifayət etmədi. Deməli, on səkkiz yaşlı bir uşağın üzrü qəbul olunmursa, yaşı çox olan insanların üzrü necə qəbul oluna bilər? İnsanın ömrü nə qədər çox olsa, bir o qədər onun əleyhinə dəlil və höccət sayılır. Yəni yaş ötdükcə və insan çox yaşadıqca onun əleyhinə olan sübutlar daha da möhkəmləşir.

قَالَ رَسُولُ اللهِ(ص): اِذَا اَتَى عَلَى العَبدِ اَربَعُونَ سَنَةً يَجِبُ عَلَيهِ اَن يَخَافَ اللهَ وَ يَحذَرَه

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsan qırx yaşına çatdıqda ona vacibdir ki, Allahdan qorxsun və özünü hazırlasın."[2]

قَالَ البَاقِر(ع): اِذَا بَلَغَ الرَّجُلُ اَربَعِينَ سَنَةً نَادَى مُنَادٍ مِنَ السَّمَاءِ: قَد دَنَا الرَّحِيل فَاَعِدَّ الزَّاد

-İmam Baqir(ə) buyurur: "İnsan qırx yaşına çatdıqda göydən bir carçı onu səsləyərək belə deyər: "Köç səfəri

[1] Mizanül-hikmə,8-ci cild, səh.4040.
[2] Yenə orada.

yaxınlaşır. Özün üçün azuqə topla! (Axirətin üçün tədarük gör.)” [1]

Bəzi insanlar elə başa düşməməlidir ki, belə çağırışlar yoxdur. Allahın mələkləri hər gün müxtəlif mövzularda insanları səsləyir və müəyyən sözləri çatdırırlar. Bu çağırışları eşidən insanlar var. Bəziləri elə başa düşməsinlər ki, bu çağırışlar təbii səslə insanın qulağına çatır. Bu səsi insan mənəvi qulaqları ilə eşidə bilər. Əgər bir insan yayın istisində, ramazan ayında oruc tutursa və yanında heç bir kəs olmasa belə, yenə də orucunu sındırmırsa, ürəyi su istəyəndə içmirsə, yemək istəyəndə yemirsə, deməli həmin səsi eşitdiyindən orucunu da heç bir vəchlə sındırmır. Bu insan başa düşür ki, pərdənin arxasında nələrsə onu gözləyir. Bu insan yəqinliklə bilir ki, ömür keçir və bir daha geri qayıtmır. Yayın istisində hicaba riayət edən xanım bilir ki, cəhənnəm odu dünyanın istisindən daha çox olacaq. Buna görə də özünü qiyamətin istisindən amanda qalmaq üçün hazırlayır. Deməli, bu qadın həmin çağırışı eşidir. Bəziləri var ki, nə halal bilir, nə haram. Nə namaz qılır, nə də oruc tutur. Amma deyir ki, mənim qulağıma qeybdən səs gəlir və mənə vergi verilib. Belə insanlar psixoloji baxımdan xəstədirlər. Mələklərin çağırışını o insanlar eşidir ki, əməlləri saf və Allah istəyən kimi olsun. Əgər bir insan Allaha ibadət edirsə, halal-harama riayət edirsə, deməli, həmin çağırışdan xəbəri vardır ki, bütün bu işləri görür. Səsi eşidən o insandır ki, halal zəhmətlə pul qazanır və xüms vaxtı gəldikdə xümsünü verməmiş gözünə yuxu getmir. Qorxur ki, malının xümsünü çıxartmadan ömrü

[1] Yenə orada.

qurtara bilər. Xümsü ayırıb qoyur ki, əgər birdən əcəli yetişsə, dünyadan boynunda xüms qaldığı halda köçməsin. Həzrət Əli(ə) beytülmalı əhlinə çatdırdıqdan sonra gedib yatırdı. Deyirdi ki, əgər birdən onu əhlinə çatdırmasam və bu gecə dünyadan getsəm, onların haqqı mənim boynumda qalar.

Odur ki, insan qırx yaşına çatdıqda göydən bir carçı onu səsləyərək belə deyər: “Köç səfəri yaxınlaşır. Özün üçün azuqə topla! (Axirətin üçün tədarük gör.)” Sual oluna bilər ki, insan axirət üçün hansı tədarükü görməlidir? Cavab belədir ki, əgər boynunda qəza namazları varsa, onları qılmalı, oruclarını tutmalıdır. Camaatla hesab-kitabını təmizləməlidir. Hər kimin haqqı boynunda qalıbsa, onunla halallaşıb haqqını qaytarmalıdır. Bir sözlə, boynunda olan ilahi vəzifələri yerinə yetirib tamamlamalıdır. Çünki insanın yaşı çoxaldıqca və ömrü uzandıqca üzrünün qəbul olunması da çətinləşər.

قَالَ البَاقِرُ(ع): إِذَا أَتَتْ عَلَى العَبدِ أَرْبَعُونَ سَنَةً قِيلَ لَهُ: خُذْ حِذْرَكَ فَإِنَّكَ غَيْرُ مَعْذُورٍ وَ لَيْسَ ابْنُ الْأَرْبَعِينَ بِأَحَقَّ بِالْحِذْرِ مِنِ ابْنِ الْعِشْرِينَ سَنَةً

-İmam Baqir(ə) buyurur: “Qırx yaşı keçdikdə bəndəyə deyirlər: “Ayıq ol, çünki bundan belə sənin heç bir üzrün qəbul edilməz. Artıq altmış yaşlı insana iyirmi yaşındakı insan kimi üzr gətirmək yaraşmaz.”[1]

Burada bir mətləbi qeyd etmək lazımdır ki, hər bir insan haqq-həqiqətdən və Allahın dinindən bildiyi və əməl etdiyi qədəri haqda sorğu- sual olunacaq. Yəni məsələn,

---

[1] Mizanül-hikmə,8-ci cild, səh.4040.

əgər bir insan dünyanın elə bir yerində yaşayıb ki, onun din barəsində qətiyyən məlumatı və xəbəri olmayıb. Nə halal, nə haram, nə cənnət, nə də cəhənnəm haqqında heç bir xəbəri olmayıb. Yalnız bircə kəlmə atasından "La ilahə illəllah" – "Allahdan başqa heç bir məbud yoxdur" kəlməsini eşidib və ona da əməl edib. Həmin şəxs bundan başqa bir şey bilmədiyi halda da dünyadan köçüb. Allah qiyamət günü onun üzrünü qəbul edəcək.

Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: "Ya Əli, Allah qiyamət günü belə bir insanı bağışlayar. Həzrət Əli(ə) ərz etdi: Ya Rəsulallah(s), bəs namaz, oruc və s. vacib əməlləri necə olacaq? Peyğəmbər(s) buyurdu: Allah qiyamət günü ondan namaz, oruc istəməyəcək. Çünki o, namazın, orucun və s. əməllərin adını eşitməmişdir. Yalnız bircə "La ilahə illəllah" kəlməsini eşidib və ömrünün axırına qədər də bu əqidədə olmuşdur. Əgər namazın, orucun və s. əməllərin adını eşitsəydi, tədqiqat aparmalı və onları da öyrənməli idi. Əgər namazın adını eşidib, namazsız dünyadan getsəydi, onun üzrü qəbul olunmayacaqdı. Lakin bütün bunlardan xəbəri olmadığına görə Allah onu bağışlayacaq."

Məsələn, əgər bir uşaq bir nəfərə "dünən burada bir əqrəb tapıb öldürmüşdülər" - desə, o gücə həmin şəxsin orada qorxudan yuxusu gəlməyəcək. Əgər yatsa və əqrəb onu sancsa, günahı özündədir. Çünki orada əqrəb olduğunu eşitdiyinə baxmayaraq, buna əhəmiyyət verməmişdi. Həmçinin bir insan Peyğəmbər(s), Quran, din, və s. barədə məlumatsız yaşayıbsa və heç bir şeydən xəbəri olmayıbsa, bu halda da dünyadan gedibsə, Allah onu bağışlayar. Lakin Peyğəmbərin(s), Quranın, dinin əsaslarının və hökmlərinin adını eşidib araşdırma

aparmadan və əməl etmədən dünyadan gedərsə, bu zaman Allah onun üzrünü qəbul etməyəcək.

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا بَلَغَ الرَّجُلُ أَرْبَعِينَ سَنَةً وَ لَمْ يَغْلِبْ خَيْرُهُ شَرَّهُ قَبَّلَ الشَّيْطَانُ بَيْنَ عَيْنَيْهِ- وَ قَالَ هَذَا وَجْهٌ لَا يُفْلِحُ

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsan qırx yaşına çatdıqda xeyir əməlləri şər əməllərindən çox olmasa (xeyir əməlləri şər əməllərini üstələməsə) şeytan həmin şəxsin gözlərinin arasından (alnından) öpüb deyər: (Qurban olum bu üzə ki,) bu üz bir daha səadətin üzünü görməyəcək." [1]

قَالَ الصّادِقُ(ع): إِذَا بَلَغتَ سِتِّينَ سَنَةً فَاحسَب نَفسَكَ فِي الْمَوتَى

-İmam Sadiq(ə) buyurur: "Elə ki, yaşın altmışa çatdı, özünü ölülərin içində hesab et." [2]

Yuxarıda qeyd etdiyimiz ayədə bəyan olunur ki, insanın ölümü çatan zaman Allahdan diləyər ki, onu geri qaytarsın və qayıdıb dünyada yaxşı işlər və saleh əməllər görsün.

حَتَّى إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ. لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ

-Nəhayət, onlardan birinin ölümü çatan zaman (canı mələklərin əlində olduğu halda Allaha) deyər: "Ey Rəbbim, məni (dünyaya) qaytar, bəlkə (dünyada) qoyduğum şey (dünya malı və ömür günləri) barəsində yaxşı bir iş gördüm."

---

[1] Mizanül-hikmə,8-ci cild, səh.4040.
[2] Yenə orada.

İnsan nə qədər həyatdadır elə təsəvvür etsin ki, dünyadan gedib və Allah da onu geri qaytarıb. Ölən zaman dünyaya qayıdıb yaxşı işlər görmək istəyirdisə, elə bu başdan, yəni sağ ikən həmin yaxşı işləri görməyə başlasın. Nə üçün ölümünü gözləyir? Elə təsəvvür etsin ki, ölüb və Allah onu yenidən həyata qaytarıb. Qayıtdıqdan sonra nə edəcəkdisə başlasın. İnsanın ömrü sürətlə ötüb keçir. Hər bir yaşın öz dövrü vardır. İslam Peyğəmbəri(s) müxtəlif yaşlı insanlar barəsində belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): أَبْنَاءَ الأَرْبَعِينَ، زَرْعٌ قَدْ دَنَا حَصَادُهُ، أَبْنَاءَ الْخَمْسِينَ هَلُمُّوا إِلَى الْحِسَابِ مَاذَا قَدَّمْتُمْ وَمَاذَا أَخَّرْتُمْ، أَبْنَاءَ السِّتِّينَ هَلُمُّوا اِلَى الْحِسَاب لا عُذْرَ لَكُمْ، أَبْنَاءَ السَّبْعِينَ عُدُّوا أَنْفُسَكُمْ فِي الْمَوْتَى

-Həzrət Peyğəmbər(s) xitab edərək buyurur: "Ey qırx yaşında olanlar, əkinlərin biçin vaxtıdır. Ey əlli yaşında olanlar, özünüzdən (dünyada) nə qoydunuz və özünüz üçün (axirətə) nə göndərdiniz? Ey altmış yaşında olanlar, hesaba gəlin (özünüzlə hesab-kitab çəkin) ki, qiyamət günü üzrxahlığınız qəbul olunmayacaq. Ey yetmiş yaşında olanlar, özünüzü ölülərin arasında hesab edin.[1]

قَالَ رَسُولُ اللهِ(ص): طوبي لِمَنْ طالَ عُمْرُهُ وَ حَسُنَ عَمَلُهُ فَحَسُنَ مُنْقَلَبُهُ اِذْ رَضيَ عَنْهُ رَبُّهُ وَ وَيْلٌ لِمَنْ طالَ عُمْرُهُ وَ ساءَ عَمَلُهُ وَ ساءَ مُنْقَلَبُهُ اِذْ سَخِطَ عَلَيْهِ رَبُّهُ

[1] Mizanül-hikmə,8-ci cild, səh.4040.

-Həzrət Peyğəmbər(s) buyurur: “Xoş o kəsin halına ki, ömrü uzun və əməli gözəl olmuş olsun. Belə olduqda onun gedəcəyi yer (axirəti) gözəl olar. Çünki Allah o şəxsdən razıdır.

Vay olsun o kəsin halına ki, ömrü uzun, əməli isə pisdir. Belə olduqda onun gedəcəyi yer çox pis olacaq. Çünki Allah həmin şəxsə qəzəblidir.”[1]

Tarixə nəzər saldıqda görürük ki, böyük şəxsiyyətlər Allahdan ömür dilədikdə belə diləmişlər: “Ey mənim Allahım, əgər mənim ömrümün uzun olmasında axirət mənfəəti varsa, ömrümü uzun et. Yox, əgər ömrümün uzun olmasında günaha və ziyana uğrayacağamsa, mənim ömrümü günaha səbəb olacaq dərəcədə uzun etmə.”

Həzrət Xanım Fatimeyi Zəhra(s.ə) bu barədə Allahla belə minacat edirdi:

اَللّٰهُمَّ بِعِلمِكَ الغَيبِ، وَقُدرَتِكَ عَلَى الْخَلقِ، أَحيِنِي مَا عَلِمتَ الْحَيَاةَ خَيرًا لِي، وَتوَفَّنِي إِذَا كَانَتِ الوَفَاةُ خَيرًا لِي

-İlahi! Səni and verirəm qeybdən olan elminə və məxluqlar üzərində qüdrətinə, məni sağ qalmağın mənim üçün yaxşı olduğunu bildiyin müddətə qədər sağ saxla və nə vaxt ölüm mənim üçün yaxşı olsa, onda öldür.[2]

İmam Səccad(ə) Allahla minacat edərkən belə deyərdi:

اِلهی وَ عَمِّرْنِي ما كَانَ عُمْرِي بِذْلَةً فِي طَاعَتِكَ، فَإِذَا كَانَ عُمْرِي مَرْتَعاً لِلشَّيْطَانِ فَاقْبِضْنِي إِلَيْكَ

---

[1] Yenə orada.

[2] Mizanül-hikmə,8-ci cild, səh.4040.

-Ey mənim Allahım, ömrümü sənin itaətinə sərf olununcaya qədər uzat və nə vaxt ömrüm şeytanın otlağına dönsə, canımı al və öz yanına apar.

Baxıb görürük ki, arif insanlar və mərifət əhli həmişə Allahın rizayət və razılığını istəmişlər. Əgər ömrünün uzun olmasında Allahın razılığı varsa bunu istəmişlər, yox, əgər ömrünün qısa olmasında Onun razılığı varsa, yenə də bunu istəmişlər.

Həzrət Əli(ə) insanın ömrünü hissələrə ayıraraq nəzmə çəkmişdir. İnsan ömrünün necə keçməsini və harada sərf olunmasını bəyan edir. Həmin şerin bir hissəsi belədir:

اِذا عَاشَ اْمْرُءٌ سِتِّينَ حَوْلاً    فَنِصْفُ اْلعُمْرِ تَمْحَقُهُ اللَّيالِي

وَنِصْفُ النِصْفِ يَمْضي لَيْسَ يَدْري    لِغَفْلَتِهِ يَمِيْناً مِنْ شِمَالِ

وَثُلْثُ النَّصْفِ آمَالٌ وَحِرْصٌ    وَشُغْلٌ بِالمكَاسِبِ وَاْلعِيَالِ

وَباقِيْ اْلعُمْرِ أَسْقَامُ وَشَيْبٌ    وَهَمٌّ بِاْرْتِحَالٍ وَاْنْتِقالِ

فَحُبُّ اْلمرْءِ طُوْلَ اْلعُمْرِ جَهْلٌ    وَقِسْمَتُهُ عَلى هَذا المِثَالِ

-İnsan altmış il ömür sürdükdə onun (o ömrün) yarısını gecələr yatmaqla əldən verir. Yerdə qalan (30 il) ömrünü isə qəflətdə keçirərək sağına-soluna baxmır. Həmin ömrün üçdə bir hissəsini arzu və xəyallarla, qazanc əldə edib ailəsini dolandırmaqla keçirir. Yerdə qalan hissəsini isə qocalıqla, dərd və zəhmətlə keçirərək sonda fani dünyadan köçür. Belə olduqda (ömrün qəflət içərisində keçməsini görüb) insanın uzun ömür arzulaması nadanlıqdır.

Həzrət Əli(ə) bununla bizə çatdırmaq istəyir ki, insan Allahdan təkcə uzun ömür deyil, bərəkətli ömür istəməlidir. Yəni uzun ömür sürüb nadanlıqla

yaşamaqdansa, az və bərəkətli yaşamaq daha yaxşıdır. Əgər insanın ömrü uzun olarsa, yaxşı əməlləri də olmalıdır. Əgər yaxşı əməlləri olmasa, ömür uzandıqca günahlar da günü-gündən çoxalır. Ömür çox qiymətli və dəyərli bir şeydir. Hamı ömrünü çox istəyir. Heç bir kəs razı olmaz ki, onun ömrünü kəsib başqasına versinlər. Tarix boyu yalnız bir nəfər öz ömrünü başqasına vermişdir. Həmin şəxs Adəm əleyhissalamdır. Allah-təala bütün peyğəmbərlərin siyahısını ona göstərdi. Adəm(ə) bütün peyğəmbərlərin həyat və ömrü ilə tanış oldu. Həmçinin öz ömrünün nə qədər olduğunu da gördü. Allah ona 1030 il ömür vermişdi. Həzrət Adəm(ə) həmin siyahıda Davud Peyğəmbərin(ə) ömrünün 40 il olduğunun şahidi oldu. Allaha ərz etdi: "İlahi, Davudun(ə) ömrü çox azdır. Mənim ömrümdən bir azını ona ver." Allah-təala buyurdu: "Sən öz ömründən nə qədər ona vermək istəyirsən?" Adəm(ə) ərz etdi: "Mənə 1030 il ömür vermisən. Həmin otuz ili Davuda(ə) bağışlayıram." Allah Adəmin(ə) duasını qəbul edərək onun ömründən 30 ilini Davud Peyğəmbərə(ə) verdi.

İmam Baqir(ə) "Rəd" surəsinin 39-cu ayəsi barədə buyurur: "Bu ayənin mənalarından biri də həmin məsələdir ki, Allah-təala Adəmin(ə) ömründən Davuda(ə) verdi."

يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

-Allah ("məhv və isbat" lövhəsində yazılmış olacaq hadisələrdən) istədiyini məhv və (bəzi hadisələri orada) dərc edir və Ümmül-kitab (Lövhi-Məhfuz və şeylərin sabit cəhətlərinin yazıldığı yer) Onun yanındadır.

Hədislərdə belə nəql olunur ki, insanların ömrü Allahın əlindədir. Kimin ömrünü nə qədər kəsmək və

çoxaltmaq Onun əlindədir. Lakin insana ömrünü çoxaldıb-azaltmaq ixtiyarı da vermişdir. Bəzən insan elə işlər görür ki, həmin işlər onun ömrünün azalıb-artmasına səbəb olur. Yəni yetmiş il ömür verilmiş bir insan elə bir iş görür ki, onun ömrünün iyirmi ilini kəsib əlli il edirlər. Bəzən insan elə yaxşı işlər görür ki, Allah onun ömrünü uzadır. Hədis və rəvayətlərdə insanın ömrünü çoxaldıb- azaldan əməllər nəql olunmuşdur. Yəni hansı əməllər insanın ömrünü uzadar və hansı əməllər insanın ömrünün azalmasına səbəb olar.

Beləliklə, Allah-təala Quranda zamanlara and içməklə insanlara başa salır ki, insan ömrünün qiyməti dəyərli və mühümdür. Buna görə də insan öz ömründən sərfəli istifadə edərək axirət gününü düşünməlidir. İnsan ona verilmiş zaman müddətindən istifadə edib ömrünün qədrini bilməlidir. Allah-təala bizi ömrümüzdən sərfəli istifadə etməkdə müvəffəq etsin. İnşallah!

## Allahın zamana and içməsinin ikinci səbəbi

### Ruzigardan ibrət götürmək

Qeyd olundu ki, Allah-təala Quranda müxtəlif zamanlara and içir. Allahın bir şeyə and içməsi buna dəlalət edir ki, həmin şey çox mühüm və dəyərlidir. Aydın məsələdir ki, Allahın Quranda zamanlara and içməsinin müəyyən səbəbləri vardır. Həmin səbəblərdən biri budur ki, Allah-təala zamana and içməklə insanların diqqətini onun mühüm olmasına cəlb edir. Zamanın hamısı insana verilməyib və o, dünyanın bu başından digər başına qədər uzadılmış bir kəndirə bənzəyir. Yuxarıdan ona baxdıqda hamısını görmək olur. Lakin quyunun dibindən həmin kəndirə baxdıqda sadəcə onun kiçik bir hissəsini görmək

olar. Zaman da eynilə uzun bir kəndirə bənzəyir ki, hər bir insana ondan az bir hissə pay verilmişdir. Bəzi insanlara 20 il, bəzisinə 30 il, bəzisinə 70 il, bəzisinə 80 il ömür verilmişdir. Bu zamandan insana hər nə qədər pay verilirsə, məhdud şəkildə verilmişdir.

Allah-təala Quranda zamana and içməklə insanların diqqətini onun məhdud və dəyərli olmasına cəlb edir. Belə ki, insan yaşadığı müddət ərzində ona verilmiş bu payın qədrini bilməli, onu boş şeylərə sərf etməməlidir. İnsana verilmiş ömür belədir ki, onun bir saniyəsini geri qaytarmaq üçün milyardlarla pul verilsə belə geri qaytarmaq mümkün deyil. İnsanın vaxtı xeyrə xərclənsə də ötüb keçir, şər işlərə xərclənsə də ötüb keçir. Onu bir daha geri qaytarmaq heç bir vəchlə mümkün deyil. Buna görə də insan ona verilmiş zamandan qənaətlə istifadə etməli və onu hədər etməməlidir. Əlbəttə, ötən bəhslərimizdə bu barədə lazımi qədər söhbət etdik. Bu bəhsimizdə isə ikinci səbəb və mənaya diqqət yetirək.

Allahın Quranda zamana and içməsinin ikinci səbəbi isə budur ki, Allah-təala zamana and içməklə insanları ruzigardan və tarixdən ibrət götürməyə dəvət edir. Əgər insan keçmiş tarixə diqqət yetirsə, şahların, peyğəmbərlərin, adi insanların həyatından bir çox ibrət və öyüd-nəsihət götürə bilər.

İbrət mələklər aləmindən insanın ürəyində yaranan ilahi bir qığılcımdır. Əgər insan ibrət götürmək istəsə, hər bir şeydən ibrət götürə bilər. Allah-təala insanın ibrət götürməsi üçün bütün amilləri onun ixtiyarına vermişdir. Məsələn, insanın ibrət götürməsi üçün lazım olan amillərdən biri ağıl, biri göz, biri isə qulaqdır. İnsan ətraflı düşündükcə hər bir şeydən ibrət götürə bilər. Bir hadisəyə baxmaqla və yaxud hansısa bir ibrətli sözü eşitməklə ibrət

ala bilir. Həmçinin insan öz daxilində olan vicdan, elm və s. kimi fitri amillərin vasitəsilə ibrət götürə bilər. O cümlədən tarixdə baş vermiş müsbət və mənfi hadisələrin hamısından ibrət götürmək mümkündür.

Mərifət əhli, gözüaçıq və ilahi eşqə bağlı olan insanlar həmişə tarixin bütün səhifələrindən və bütün hadisələrindən ibrət götürmüşlər. Hətta çox kiçik hadisələrdən belə ibrət dərsi almağı bacarmışlar. Ona görə də insaniyyətin yüksək mərhələlərini fəth etməyə nail olmuşlar. Allah-təala bütün insanları eyni yaratmışdır. Lakin taleyi dəyişmək insanın öz ixtiyarına verilmişdir. Xoşbəxt insanlar öz ixtiyarları ilə xoşbəxtlik yolunu seçmişlər. Allah-təala insana taleyini yazmağın ixtiyarını özünə vermişdir. Bu baxımdan ibrət götürmək insanın taleyini yaxşılaşdıran amillərdən biridir.

Tarixə nəzər saldıqda görürük ki, bəzi insanlar hansısa bir hadisə ilə qarşılaşdıqda ibrət götürmüş və özünü xoşbəxt insanların cərgəsinə qoşmaqla taleyini dəyişmişlər. Əgər bu haqda danışası olsaq o zaman günlərlə söhbət etmək olar. Hər halda burada nümunə üçün həmin hadisələrdən və taleyini dəyişən insanlardan bir neçəsini diqqətinizə çatdırıram.

## Tarixdən ibrət götürmüş insanlar

### Füzeyl ibn Ayaz

Füzeyl ibn Ayaz yolkəsən və quldur bir insan idi. Onun peşəsi karvanların qarşısını kəsib-soymaq və evlərdən oğurluq etmək idi. Özünün də çox böyük imkanları və mal-dövləti var idi. Bütün bunları quldurluqla əldə etmişdi. Özü üçün böyük bir quldur dəstəsi yaradıb onlara başçılıq edirdi. Bəzən karvanların

qarşısını kəsərkən camaatı soyur və oradakı adamları da öldürürdü. Hamı onun adını eşitdikdə qorxudan bədəni titrəyirdi. O elə bir quldur idi ki, evlərə oğurluq məqsədilə getdikdə ev sahiblərinə əvvəlcədən xəbərdarlıq edirdi.

Günlərin birində Füzeyl bulaq başında əyləşmişdi. Birdən gördü ki, gözəl bir qız əlində səhəng bulağa tərəf gəlir. Qızın gözəlliyinə heyran olub ona yaxınlaşaraq soruşur: Sizin eviniz hansı tərəfdədir? Qız onu tanıdığı üçün qorxudan yalan danışa bilmir və yaşadığı ünvanı ona söyləyir. Füzeyl deyir: Gecə məni evdə gözlə. Bu gecə sizə gələcəyəm.

Həmin gecə Füzeyl o qızın yaşadığı həyətin divarına çıxır. Divarın üstünə qalxdıqdan sonra bir az orada əyləşir. Birdən qonşunun səsini eşidir. Həmin vaxt qonşu gecə yarısı namaz qılıb Quran oxumaqla məşğul idi. Füzeyl diqqətlə qulaq asdıqda "Hədid" surəsinin 16-cı ayəsini eşidir:

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَن تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ

-Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yada salmaq və (Ondan) qorxmağın vaxtı çatmayıb?!

Bu ayə Füzeylin ürəyinə ox kimi sancıldı. Bir az düşünüb dedi: "Bəli, and olsun Allaha ki, indi vaxtı çatıb." Sonra divarın üstündən düşüb geri qayıtdı. Yavaş-yavaş fikirli halda gedib bir karvansaraya girdi. Qaranlıq olduğundan heç bir kəs onu tanımadı. Bir küncdə əyləşdi. Orada bir karvan gecələyirdi. Karvandakılar bir-biri ilə söhbət edib deyirdilər: "Görəsən, Füzeylin adamları keçib getdilərmi? Nə yaxşı olardı ki, onlar burada olmasınlar. Biz də rahat-rahat yolumuza davam edərdik." Füzeyl ayağa qalxıb deyir: "Qorxmayın, bundan sonra bütün yollar sizə açıqdır. Daha sizin qarşınızı kəsən olmayacaq.

Füzeyl artıq Allahın bəndəsi oldu. Nə qədər ki, o azad idi, sizin yollarda azadlığınız yox idi. Lakin bu gecədən Füzeyl qul və yollar sizə azad oldu. Çıxın yollara, bundan sonra sizə dəyib-dolaşan olmayacaq.”

Həmin gündən sonra Füzeyl çapıb-taladığı bütün mal-dövləti sahiblərinə qaytardı. Tanımadığı adamların mallarını isə onların adından şəriət qanunu ilə yerbəyer etdi. Füzeyl bir canavar idi ki, qarşısına keçəni parçalayırdı. Hamı onu görəndə qaçıb gizlənirdi. Lakin o, taleyini dəyişdikdən sonra elə bir mələyə çevrildi ki, hamı onun ətrafına dolanırdı. Füzeyl həmin gündən sonra Allaha ibadət etməyə başladı. Böyük abid və zahidlərin cərgəsinə qoşuldu. Sonra Məkkəyə köçüb ömrünün axırına qədər Kəbənin kənarında yaşadı və aşura günü dünyasını dəyişdi.

## Şəvanə

Bəsrə şəhərində Şəvanə adlı pozğun bir qadın yaşayırdı. Həm özü bu işlə məşğul olurdu, həm də qadın alveri edirdi. O, bu yollarla çoxlu mal-dövlət əldə etmişdi. Evində neçə-neçə qulluqçu və kənizləri var idi. Özü üçün beləcə həyat qurub yaşayırdı. Hamı onun necə bir insan olduğunu çox yaxşı bilirdi.

Günlərin birində Şəvanə evdə əyləşmişdi. Birdən qonşudan bir səs- küy eşitdi. Qulluqçulardan birini çağırıb qonşuda nə baş verdiyini öyrənmək üçün ora yolladı. Qulluqçu getdi, amma geri qayıtmadı. Şəvanə ikinci qulluqçunu da onun ardınca göndərdi. İkinci qulluqçu da getdi. Şəvanə bir az gözlədi, lakin bu qulluqçu da geri qayıtmadı. Axırda əsəbiləşib özü də qonşunun evinə getdi. Orada çoxlu adam var idi. İçəri keçdikdə gördü ki, qonşu

böyük bir məclis təşkil edib. Orada pak bir insan söhbət edir, camaata Quran ayələri oxuyurdu. Elə gözəl söhbət edirdi ki, hamı sakit dayanaraq heyranlıqla ona qulaq asırdı. Xətibin sözləri ürəkdən çıxıb ürəklərə daxil olurdu. Qurandan cəhənnəm haqda olan ayələri oxuyurdu. Şəvanə içəri daxil olduqda o, "Furqan" surəsinin 13-14-cü ayələrini oxuyub izah edirdi.

وَإِذَا أُلْقُوا مِنْهَا مَكَانًا ضَيِّقًا مُقَرَّنِينَ دَعَوْا هُنَالِكَ ثُبُورًا. لَا تَدْعُوا الْيَوْمَ ثُبُورًا وَاحِدًا وَادْعُوا ثُبُورًا كَثِيرًا

-Əl-ayaqları bağlı və bir-birinə zəncirlənmiş halda həmin odda dar bir yerə atılan zaman onlar orada ah-vay və ölüm diləmək fəryadı ucaldarlar. (Onlara deyilər:) Bu gün ah-vay və ölüm fəryadını bir dəfə ucaltmayın, ah-vay və ölüm fəryadını çox (dəfələrlə) ucaldın. (Çünki etiqad və əməldə olan hər bir günah üçün əzab, hər bir əzab üçün isə ah-vay və ölüm fəryadı vardır.)

Bu sözlər Şəvanənin qəlbinə sancıldı və ayələr onun halını tamamilə dəyişdirdi. Söhbət qurtardıqdan sonra Şəvanə xətibə yaxınlaşıb soruşdu: "Mən tövbə etsəm, Allah tövbəmi qəbul edərmi?"

Xətib onun kim olduğunu bilmirdi. Amma həmin şəhərdə Şəvanə adlı pozğun bir qadının yaşadığından xəbərdar idi. Buna görə də ona dedi: "Allahın rəhməti çox böyükdür. Əgər sənin günahın Şəvanənin günahı qədər böyük olsa, yenə də bağışlayar."

Şəvanə bu sözləri eşidib hönkürtü ilə ağlayıb dedi: "Şəvanə mən özüməm."

Xətib dedi: "Allah sənin tövbəni qəbul edər. Çünki Özü buyurmuşdur ki, bəndəm nə vaxt tövbə etsə, onu qəbul edərəm."

Həmin gündən sonra Şəvanə tövbə edib Allahın yoluna qədəm qoydu. Bütün çirkin əməllərindən əl götürdü. Aldığı kəniz və qulları azad etdi. Pis yollarla qazandığı bütün mal-dövlətini şəriət qanunu ilə yerbəyer etdi. Haram yeməklərlə cana gəlmiş bədənini o qədər arıqlatdı ki, bir dəri, bir sümük qaldı. Elə bir bəndəyə çevrildi ki, onun sözləri camaata təsir göstərirdi. Ağlaya-ağlaya camaata elə gözəl moizələr edirdi ki, hamının gözləri yaşarırdı. Etdiyi günahlara görə o qədər ağlayıb göz yaşı tökürdü ki, az qalırdı kor olsun. Camaat ona deyirdi: "Bu qədər ağlamaq axırda səni kor edəcək." O isə deyirdi: "Dünyanın korluğu axirətin korluğundan yaxşıdır."

Beləcə, biz görürük ki, bir kəlmə Quran ayəsi, yaxud hansısa bir hadisə insanın qəlbinə elə bir təsir göstərir ki, hətta onun taleyini belə tamamilə dəyişir. Əlbəttə, bir daha qeyd olunmalıdır ki, hadisələrdən və sözlərdən o insanlar ibrət dərsi götürə bilərlər ki, bunu qəlbən istəmiş olsunlar. Yəni insan əgər ibrət götürmək istəsə, götürə bilər.

## Həzrət Yəhya(ə) və günahkar adam

Yəhya Peyğəmbərin(ə) dövründə bir şəxsi günah iş gördüyünə görə daşqalaq etmək istəyirdilər. Günahkar adam Yəhya Peyğəmbərə(ə) dedi: "Ey Yəhya(ə), mən öz günahımı boynuma alıram və məni daşqalaq etməyə də razıyam. Amma səndən xahişim budur ki, məni daşqalaq edənlərin özləri mən etdiyim günahlardan etmiş olmasınlar. Əgər mənə daş vuranlar mənim kimi günahkardılarsa, onda bizim nə fərqimiz var?" Yəhya Peyğəmbərin(ə) bu sözlərdən çox xoşu gəldi və üzünü camaata tutub buyurdu: "Kimin bunun etdiyi günah kimi günahı varsa, o, daş atmasın."

Camaat bu sözü eşidən kimi əllərindəki daşları yerə ataraq öz evlərinə dağılışdılar. Yəhya Peyğəmbər(ə) həmin günahkar şəxsin yanına gəlib dedi: “Elə bil sənin qəlbində təqva və nuraniyyət var. Mənə nəsihət et.” Günahkar şəxs Yəhya Peyğəmbərə(ə) üç nəsihət etdi. Onun bu nəsihətlərini imamlarımız da təsdiqləmişlər. Günahkar şəxs Yəhya Peyğəmbərə(ə) belə dedi: “Ey Yəhya(ə), mən öz nəfsani istəklərimə tabe oldum və günaha batdım. Əgər istəyirsənsə Allah sənə qiymət, şərəf, izzət versin və heç bir vaxt zillətə düşməyini, mənim kimi alçalıb xar olmağını, Allah və mələklər yanında abrının getməsini istəmirsənsə, nəfsani istəklərinə tabe olma. İkinci nəsihətim budur ki, günahkar insanı heç vaxt məzəmmət etmə. Əksinə doğru yolu göstərməklə ona nicat ver. Üçüncü nəsihətim isə budur ki, öz qəzəbinə tabe olma. Qəzəblənərkən özünü ələ almağı bacar.”

## Ayətullah Şeyx Əli

Mənim ustadlarımdan biri deyir: “Ayətullah Bürucerdinin vaxtında Nəcəf şəhərindən Qum şəhərinə Şeyx Əli adlı böyük bir şəxsiyyət gəlmişdi. Onunla bağlı əhvalat belədir:

-Şeyx Əli cavan vaxtlarında Nəcəf şəhərinə dərs oxumağa gəlmişdi. Orada böyük müctəhidlərdən biri olan Ayətullah Həmədaninin ziyarətinə yollanır. Ayətullah Həmədani onun üzünə baxıb soruşur: Sənin adın nədir?

Həmin cavan deyir: Adım Əlidir.

Ayətullah Həmədani pəncərədən boylanıb Həzrət Əlinin(ə) hərəminin günbəzini ona göstərərək buyurur: Onun da adı Əlidir. Sənin onunla hansı münasibətin var?

Onun adını özünə qoymusansa, gərək özünü ona oxşadasan.

Ayətullah Həmədaninin bu sözləri həmin cavanın ürəyinə ox kimi sancılaraq təsir edir. Elə həmin gündən sonra həm elm, həm də təqva ilə məşğul olmağa başlayır. O, Qum şəhərinə qayıtdıqda artıq böyük bir şəxsiyyət idi. Deyirlər ki, Şeyx Əli mənəviyyat aləmində yüksək dərəcələrə çatmış bir şəxsiyyət olmuşdu. Belə ki, yüzlərlə müctəhidin ustadı olan Ayətullah Bürucerdi kimi böyük bir şəxsiyyət bir saat Şeyx Əlinin üzünə baxmaq üçün ondan vaxt alırdı.

Odur ki, hər bir kəs ibrət götürən insan olsa, keçmişdə baş vermiş hadisələrdən, böyük insanların sözlərindən, kiçiklərin hərəkətindən və baş vermiş əhvalatlardan ibrət dərsləri ala bilər. Əgər insan ibrət götürməyi bacararsa, dünya və axirətin xoşbəxtlərindən olar. Buna görə də Allah Quranda zamana and içməklə insanların fikrini zəmanədən, ruzigar və əsrlərdən ibrət götürməyə tərəf yönəldir.

## Quranda ibrət dərsləri

Ötən bəhslərimizdə qeyd olundu ki, Allah-təala zamanlara and içməklə insanların diqqətini iki mühüm məsələyə yönəldir. Onlardan biri insan ömrünün qiymətli olması, biri isə insanın zamandan ibrət götürməsidir. Hər iki mətləb haqqında yetərincə bəhs etdik. Burada çox yaxşı olar ki, ibrət bəhsinə aid olan bir mətləbi də diqqətinizə çatdırım. Həmin mətləb Quranda ibrət dərslərindən ibarətdir.

Ümumiyyətlə, Quranın bütün ayələri mərifət əhli və ayıq olan insanlara ibrət dərsləridir. Amma Quranda bütün

insanlar üçün təqva əhlinin dastanları, zalım insanların hekayətləri, zalım hökmdarların aqibəti haqda söhbətlər bəyan edilmişdir. Xüsusilə böyük peyğəmbərlərin tarixi və onların yaşadığı dövrdə baş vermiş hadisələr və lazımi mətləblər insanların ibrət götürməsi və ibrət dərsi alması üçün mühüm rol oynayır. “Yusif” surəsinin 111-ci ayəsində belə oxuyuruq:

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُوْلِي الأَلْبَابِ مَا كَانَ حَدِيثًا يُفْتَرَى وَلَكِن تَصْدِيقَ الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ كُلَّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ

-Şübhəsiz, onların (peyğəmbərlərin və onların ümmətlərinin) başlarına gələnlərdə ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) yalandan uydurulması mümkün olan bir söz deyil. Lakin özündən öncə olan (səmavi kitabların)ı təsdiq edən, (din işləri və mənəvi maarif barəsində) hər bir şeyi müfəssəl izah edən və imanı olan tayfa üçün doğru yol göstərən və mərhəmətdir.

## Quranda ibrət dərslərindən nümunələr

Quranı oxuduqca bir çox ayələrdə ibrət götürüləsi hadisələrlə rastlaşırıq. Burada çox yaxşı olar ki, nümunə üçün Qurandakı ibrət dərslərindən bir neçəsinə diqqət yetirək.

### Birinci nümunə

“Həşr” surəsinin 2-ci ayəsi Mədinədə yaşayan və əhd-peymanlarını pozub Peyğəmbərlə(s) müharibə etmək

istəyən yəhudilər barəsində nazil olmuşdur. Ayəni oxumazdan əvvəl onun nazilolma səbəbinə baxaq:

Mədinədə üç tayfadan ibarət olan yəhudilər yaşayırdılar. Bəni-Nəzir, Bəni-Qüreyzə və Bəni-Qəynuqa tayfaları. Onlar əslən ərəbistanlı deyildilər. Amma öz kitablarında Ərəbistan yarımadasında, yəni Mədinə şəhərində bir peyğəmbərin zühur edəcəyini oxuduqlarına görə onun intizarını çəkmək üçün bu şəhərə köçmüşdülər. İslam Peyğəmbəri(s) Məkkədən Mədinəyə hicrət etdikdən sonra onlardan heç bir müsəlmana təcavüz etməyəcəklərinə dair əhd-peyman aldı. Amma onlar bağladıqları bu əhd-peymana vəfa etmədilər. Müsəlmanlarla bağladıqları bu əhdi pozmaq üçün hər bir fürsətdən istifadə etməyə çalışırdılar.

O cümlədən hicrətin üçüncü ilində Ühüd müharibəsindən sonra Kəb ibn Əşrəf yəhudilərdən qırx nəfər süvari ilə Məkkəyə gəlib birbaşa Qüreyşin böyükləri ilə görüşdülər. Onlar Qüreyşlə əhd bağladılar ki, əl-ələ verib Məhəmmədlə(s) müharibə etsinlər.

Sonra Əbu Süfyan qırx nəfər məkkəlilərlə və Kəb ibn Əşrəf də qırx nəfər yəhudi ilə Məscidül-Hərama daxil olaraq Kəbə evinin kənarında bağladıqları əhd-peymanı daha da möhkəmləndirdilər. Allah-təala onların bu niyyətini vəhy vasitəsilə Peyğəmbərə(s) çatdırdı.

Günlərin birində Peyğəmbər(s) bir neçə nəfər müsəlmanla Bəni- Nəzir qəbiləsinə tərəf getdi. Bəni-Nəzir qəbiləsi Mədinə şəhərinin yaxınlığında yaşayırdı. Əmr ibn Üməyyə Bəni-Amir qəbiləsindən iki nəfəri qətlə yetirmişdi. Əmr ibn Üməyyə müsəlmanlardan idi. Lakin Bəni- Amir onların qəbiləsindən öldürülən həmin iki nəfərin qan bahasını tələb edirdi. Peyğəmbər(s) bu işdə onlara kömək etmələri və yaxud bu işin həll olunmasından

ötrü vasitəçi olmaları üçün Bəni-Nəzir qəbiləsinə getdi. Bəlkə də ola bilsin ki, Peyğəmbər(s) Bəni-Nəzir qəbiləsinin vəziyyətini daha yaxından öyrənmək üçün oraya getmişdi. Hər halda Peyğəmbər(s) oraya yetişib qalanın kənarında Kəb ibn Əşrəflə bu mövzu ətrafında söhbət edirdi.

Elə bu halda yəhudilər arasında gizli söz-söhbətlər başlandı. Onlar Peyğəmbərin(s) öldürülməsi üçün ən münasib bir vaxt olduğunu məşvərət edirdilər. Beləcə plan qurdular ki, bir nəfər qalanın üstünə çıxıb yekə bir daşı Peyğəmbərin(s) başına salaraq onu öldürsünlər. Bununla da onların canı Peyğəmbərin(s) əlindən qurtarsın. Yəhudilərdən biri olan Əmr ibn Cihaş bu işi görməyi boynuna götürərək damın üstünə çıxdı. Peyğəmbər(s) vəhy vasitəsilə onların bu hiyləsindən xəbər tutub ayağa qalxdı və dostlarına xəbər vermədən Mədinəyə qayıtdı. Onlar isə elə bilirdilər ki, Peyğəmbər(s) yenə də ora qayıdacaq. Sonra xəbər tutdular ki, Həzrət(s) artıq Mədinədədir. Onlar da Mədinəyə qayıtdılar.

Yəhudilər əhd-peymanlarını sındırdıqları üçün Peyğəmbər(s) müsəlmanlara döyüşə hazır olmalarına dair göstəriş verdi. Peyğəmbər(s) onlara zərbə vurmaq üçün ilk növbədə Məhəmməd ibn Məsləməyə əmr verdi ki, nəyin bahasına olursa-olsun Kəb ibn Əşrəfi öldürməlidir. Məhəmməd ibn Məsləmə Kəb ibn Əşrəfi yaxından tanıyırdı. O, tələ qurub Kəb ibn Əşrəfi öldürə bildi. Məhəmməd ibn Məsləmə Kəb ibn Əşrəfi öldürdükdən sonra yəhudilər arasında çaxnaşma yarandı. Bundan sonra Peyğəmbər(s) müsəlmanlara əhdi sındıran bu tayfa ilə döyüşmək üçün hərəkət etməyi əmr verdi. Yəhudilər müsəlmanların onların üstünə gəldiklərindən xəbər tutaraq öz qalalarına girib qapıları da möhkəm bağladılar.

Peyğəmbər(s) göstəriş verdi ki, qalanın ətrafında olan bəzi xurma ağaclarını kəssinlər. Ehtimala görə bəlkə də Peyğəmbər(s) bu işi onun üçün edirdi ki, yəhudilər öz mal-dövlətlərinə çox ürək bağladıqlarından bunu gördükdə qaladan çıxmaq məcburiyyətində qalacaqlar. Belə bir ehtimal da var ki, həmin xurma ağacları İslam ordusunun döyüş manevrinə maneə yaradırmış. Ona görə də həmin ağacları qopartdılar.

Hər halda bu iş yəhudiləri çox narahat etdi və onlar qalanın üstündən Peyğəmbəri(s) səsləyərək dedilər: “Ey Məhəmməd, özün bu işləri camaata qadağa etdiyin halda, nə üçün ağacları kəsib yandırdın?” Elə bu halda Allah-təala “Həşr” surəsinin 5-ci ayəsini nazil edərək onların cavabını verdi:

مَا قَطَعْتُم مِّن لِّينَةٍ أَوْ تَرَكْتُمُوهَا قَائِمَةً عَلَى أُصُولِهَا فَبِإِذْنِ اللَّهِ

وَلِيُخْزِيَ الْفَاسِقِينَ

-Hər hansı çox dəyərli xurma ağacını kəsdinizsə, ya onu öz kökləri üstündə boy atan halda buraxdınızsa (bu), Allahın izni ilə idi, (bəzi məsələlərə xatirdir) və bu, Allahın itaətsizləri rüsvay etməsi üçündür.

Bu ayə onlara qəti cavab verdi və hamıya bildirdi ki, bütün bunlar Allahın xüsusi göstərişləridir.

Qalanın mühasirəsi bir neçə gün çəkdi. Peyğəmbər(s) yəhudilərə göstəriş verdi ki, qan tökülmədən Mədinə şəhərini tərk etsinlər. Onlar Peyğəmbərin(s) bu sözünü qəbul etdilər və öz mallarından da bir qədər götürərək mədinədən çıxdılar. Onların bəzisi Şama, bəzisi Xeybərə, bəzisi isə Hiyrəyə getdilər. Mədinədə qalan malları, bağları və evləri isə müsəlmanların əlinə keçdi. Mədinədən çıxarkən bacardıqları qədər öz evlərini söküb

dağıtdılar ki, müsəlmanlar onlara sahib ola bilməsinlər.[1] Allah-təala bu ayəni onların barəsində nazil edərək buyurur:

هُوَ الَّذِي أَخْرَجَ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ مِن دِيَارِهِمْ لِأَوَّلِ الْحَشْرِ مَا ظَنَنتُمْ أَن يَخْرُجُوا وَظَنُّوا أَنَّهُم مَّانِعَتُهُمْ حُصُونُهُم مِّنَ اللَّهِ فَأَتَاهُمُ اللَّهُ مِنْ حَيْثُ لَمْ يَحْتَسِبُوا وَقَذَفَ فِي قُلُوبِهِمُ الرُّعْبَ يُخْرِبُونَ بُيُوتَهُم بِأَيْدِيهِمْ وَأَيْدِي الْمُؤْمِنِينَ فَاعْتَبِرُوا يَا أُولِي الْأَبْصَارِ

-Kitab əhlindən olan kafirləri (Bəni-Nəzir yəhudilərini) ilk dəfə yurdlarından çıxaran və dəstə halında sürgün etdirib evlərindən (Cəzirətül-ərəbdən) qovduran Odur. Siz onların çıxacaqlarını güman etmirdiniz. Onlar da hasarlarının və qalalarının onları Allahdan (Allahın iradəsindən) qoruyacağını güman edirdilər. Amma Allah(ın iradəsi, əzabı) onlara güman etmədikləri yerdən gəlib ürəklərinə qorxu saldı. (Belə ki,) onlar evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə dağıdırdılar. Ey bəsirət sahibləri! İbrət alın.

Allah-təala bu ayədə ibrət götürmək istəyənlərə, ağıl və bəsirət sahiblərinə bu hadisədən ibrət dərsi almağı başa salır. Hər bir insan başa düşməlidir ki, Allahın qüdrətinin qarşısında heç bir qüvvə dayana bilməz. Hər kəs Allaha və Onun dininə qarşı hansı bir qüvvəyə arxalansa, Allah-təala onu ağlına gəlməyən bir qüvvə ilə məğlub edər.

## Allahın gözəgörünməz və gizli qoşunları

---

[1] Təfsiri-nümunə,23-cü cild, səh.484.

Dünyada həmişə böyük qüdrət sahibləri və güclü ölkələr yalnız zahiri və maddi güclərinə arxalanmışlar. Amma Allaha pərəstiş edən möminlər isə mənəvi gücə və Allaha söykənirlər. Qeyd olunan ayədə “rəb” kəlməsi “vəhşət və qorxu” deməkdir ki, Allahın həmin gözəgörünməz qoşunlarından biridir. Yəni Allah-təala onların ürəklərinə qorxu və vəhşət salaraq onları məğlub etdi. Nəticədə onlar öz evlərini öz əlləri ilə viran etdilər. Quranda başqa ayələrdə də Allahın gözəgörünməz qoşunları haqda rastlaşırıq. Məsələn, Bədr müharibəsində müsəlmanların sayı düşmən qoşununun sayından az olmasına baxmayaraq, müsəlmanlar Allahın qüdrəti ilə onları məğlub etdilər.

Bədr müharibəsi hicrətin ikinci ilində baş vermişdi. Bu müharibədə müsəlmanların sayı 313 nəfər, düşmənlərin sayı isə 950 nəfərdən ibarət idi. Bu döyüşdə müsəlmanlar 22 şəhid verdilər. Lakin düşmənlərdən isə 70 nəfər öldürüldü və 70 nəfəri də əsir götürüldü. Müsəlmanların bu müharibədə qələbə çalmasının müxtəlif amilləri olmasına baxmayaraq, ən böyük amil Allahın gözəgörünməz qoşunları idi. “Ənfal” surəsinin 12-ci ayəsində belə oxuyuruq:

إِذْ يُوحِي رَبُّكَ إِلَى الْمَلآئِكَةِ أَنِّي مَعَكُمْ فَثَبِّتُواْ الَّذِينَ آمَنُواْ سَأُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرَّعْبَ فَاضْرِبُواْ فَوْقَ الأَعْنَاقِ وَاضْرِبُواْ مِنْهُمْ كُلَّ بَنَانٍ

-O zaman Rəbbin mələklərə vəhy edirdi ki: “Mən sizinləyəm! Odur ki, iman gətirənlərin qədəmlərini sabit edin. Tezliklə kafirlərin qəlblərinə qorxu salaram.

Beləliklə, boyunlarına (başlarına) zərbələr endirin və barmaqlarının hamısının ucunu kəsin."

Həzrət Peyğəmbər(s) Bədr müharibəsi haqda belə buyurur: "Allah- təala bizə Öz qoşunu ilə nüsrət əta etdi. Belə ki, meydanda təkcə mənimlə üz-üzə gələn düşmənin deyil, hətta məndən bir aylıq yol fasiləsi olan düşmənlərin də canına vəhşət və qorxu düşmüşdü."[1]

İslam rəvayətlərinə əsasən on ikinci imamımız İmam Mehdinin(ə.c) köməkçilərindən biri də "rəb" olacaq. İmam Sadiq(ə) buyurmuşdur ki, İmam Mehdiyə(ə.c) üç növ qoşun kömək edəcək: mələklər, möminlər və rəb.[2]

Əgər hazırkı dövrümüzdə gedən müharibələrə diqqət yetirsək Allahın gözəgörünməz qoşunlarının müsəlmanlara yardım etdiklərinin şahidi olarıq. Məsələn, Livanda gedən müharibələrə diqqət yetirsəniz görərsiniz ki, min nəfərdən ibarət olan müsəlman onlarla müharibə edən dünyanın böyük qüdrətlərini vəhşət və lərzəyə salmışlar. Heç kəs elə güman etməsin ki, onlar bu işi təkbaşına görmüşlər. Hər kəs Allahın dininə yardımçı olarsa, Allah da onlara yardım edər. Allah-təala gözəgörünməz qoşunları ilə hər bir yerdə müsəlmanlara yardımçıdır.

**İkinci nümunə**

Quranda ibrət almalı dərslərdən biri həmin qeyd etdiyimiz Bədr müharibəsi ilə bağlı hadisədir. Yuxarıda Bədr döyüşündə Allahın müsəlmanlara yardımı haqda söhbət etdik. Amma burada həm Bədr döyüşündə Allahın

---

[1] Təfsiri-nümunə,23-cü cild, səh.498.

[2] Yenə orada.

müsəlmanlara yardım etməsinə, həm də ibrətamiz məsələlərə toxunacağıq. Bədr döyüşündə müsəlmanların sayı 313 nəfər idi. Onlardan 77 nəfəri mühacirlər, 236 nəfəri isə ənsarlar idi. Mühacirlərin bayrağı Həzrət Əlinin(ə), ənsarların bayrağı isə Səid ibn Übadənin əlində idi. Onların ümumilikdə 70 dəvəsi, iki atı, 6 zirehi, 8 qılıncları var idi. Amma düşmənlərin sayı 1000 nəfərə yaxın idi və onların kifayət qədər silah-sursatı, habelə 100 atı var idi.

Bu müharibədə hamı Allahın qüdrətinin özünü göstərməsinin şahidi oldu. Belə ki, düşmənlər müsəlmanları iki dəfə çox, müsəlmanlar isə onları həqiqi saylarından az görürdülər. Quranda bu barədə belə oxuyuruq:

قَدْ كَانَ لَكُمْ آيَةٌ فِي فِئَتَيْنِ الْتَقَتَا فِئَةٌ تُقَاتِلُ فِي سَبِيلِ اللّهِ
وَأُخْرَى كَافِرَةٌ يَرَوْنَهُم مِّثْلَيْهِمْ رَأْيَ الْعَيْنِ

-Həqiqətən, sizin üçün (Bədr döyüşündə) bir-biriləri ilə qarşılaşan iki dəstədə (Allahın qüdrəti və tövhidinə dair) nişanə var idi. Bir dəstə Allah yolunda döyüşürdü və digər dəstə isə kafir idi ki, müsəlmanları öz gözləri ilə özlərindən ikiqat artıq görürdülər (və elə buna görə də məğlub oldular).

Həmin döyüşdə iştirak etmiş müsəlmanlardan biri deyir: “Döyüş başlamazdan öncə düşmən ordusuna baxıb dostuma dedim: Səncə düşmənlərin sayı 70 nəfər olarmı? Dostum dedi: Ola bilsin 100 nəfərə yaxın olsunlar.

Amma müharibə qurtardıqdan sonra çoxlu əsir tutmuşduq. Sonradan məlum oldu ki, düşmən ordusunun sayı bəlkə min nəfərdən də artıq idi.”[1]

Bu müharibədə həm Allahın gizli qoşunları və nüsrəti müsəlmanlara yardım oldu, həm də bunda bütün insanlar üçün böyük ibrət dərsi vardır. Əgər hər kəsin görən gözü və hiss edən qəlbi olarsa, o zaman tarixin bu səhifəsindən ibrət götürə bilər. Necə ki, Allah-təala həmin ayədə belə buyurur:

قَدْ كَانَ لَكُمْ آيَةٌ فِي فِئَتَيْنِ الْتَقَتَا فِئَةٌ تُقَاتِلُ فِي سَبِيلِ اللّهِ وَأُخْرَى كَافِرَةٌ يَرَوْنَهُم مِّثْلَيْهِمْ رَأْيَ الْعَيْنِ وَاللّهُ يُؤَيِّدُ بِنَصْرِهِ مَن يَشَاء إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لَّأُوْلِي الأَبْصَارِ

-Həqiqətən, sizin üçün (Bədr döyüşündə) bir-biriləri ilə qarşılaşan iki dəstədə (Allahın qüdrəti və tövhidinə dair) nişanə var idi. Bir dəstə Allah yolunda döyüşürdü və digər dəstə kafir idi ki, müsəlmanları öz gözləri ilə özlərindən ikiqat artıq görürdülər (və elə buna görə də məğlub oldular). Allah istədiyini Öz köməyi ilə qüvvətləndirir. Əlbəttə, bunda (bu işdə) bəsirət sahibləri üçün bir ibrət vardır.

**Üçüncü nümunə**

Quranda ibrətamiz hekayətlərdən biri Musanın(ə) Fironla olan əhvalatıdır ki, Allah-təala “Naziat” surəsinin 17-26-cı ayələrində belə buyurur:

---

[1] Təfsiri-nümunə,23-cü cild, səh.454.

اذْهَبْ إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى. فَقُلْ هَل لَّكَ إِلَى أَن تَزَكَّى. وَأَهْدِيَكَ إِلَى رَبِّكَ فَتَخْشَى. فَأَرَاهُ الْآيَةَ الْكُبْرَى. فَكَذَّبَ وَعَصَى. ثُمَّ أَدْبَرَ يَسْعَى. فَحَشَرَ فَنَادَى. فَقَالَ أَنَا رَبُّكُمُ الْأَعْلَى. فَأَخَذَهُ اللَّهُ نَكَالَ الْآخِرَةِ وَالْأُولَى. إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لِّمَن يَخْشَى

-Fironun yanına get! Çünki o tüğyan etmişdir. Və de: “(Küfr və tüğyandan) təmizlənmək istəyirsənmi? Səni Rəbbinə tərəf hidayət edimmi ki, Ondan qorxasan?” Beləliklə, (tövhid və öz peyğəmbərliyi barədə olan) o çox böyük nişanəni (müxtəlif hallara düşən əsanı) ona göstərdi. O, (isə) təkzib etdi və asi oldu. Sonra arxa çevirdi, (Musanın əleyhinə) çalışdı. O, (öz qövmünü) topladı, və (onlara) xitab edib dedi: “Mən sizin ən uca rəbbinizəm.” (Mal-dövlət xərclədiyinə və camaatın işlərini idarə etdiyinə görə özünü bütlərdən və onların digər ərbablarından üstün bir rəbb hesab edirdi). Beləliklə, Allah onu əvvəlinci və axırıncı küfrlü sözlərinin cəzası olaraq yaxaladı. Axirətin və dünyanın ibrətamiz əzabına giriftar etdi (Dəstəsi ilə birlikdə suda qərq edilməsi onun dünya əzabı, gecə-gündüz bərzəx odunda yandırılması isə onun axirət əzabıdır.). Şübhəsiz, bunda (bu hadisədə) (Allahdan) qorxan bir kəs üçün ibrət vardır.”

Tarixdə baş vermiş bu böyük hadisə Allahdan qorxanlar üçün bir ibrət dərsidir. Ümumiyyətlə, çox insan tarixdə baş vermiş hadisələri oxumuş və ya şahidi olmuşdur. Lakin bütün bu hadisələrdən az insan ibrət almışdır. Çünki həyatdan ibrəti yalnız o insanlar alırlar ki, onların qəlbləri oyaq, qulaqları eşidən və gözləri görəndir. Əgər bir insanın haqqı görmək üçün gözləri kor olsa, haqqı eşitmək üçün qulaqları kar olsa, qəlib ayıq olmasa,

bu insan necə ibrət götürə bilər. Hər halda ibrət götürmək istəyən insan üçün hər bir zamanda ibrət dərsləri vardır.

## Tarixdə baş vermiş ibrətamiz hekayətlərdən nümunələr

### Harun ər-Rəşidin qardaşı Hadinin hekayəti

Hadi Abbasi Harun ər-Rəşidin qardaşı idi. Abbasi xəlifələrinin içərisində Hadi Harundan əvvəl xəlifə olmuşdu. Onların çox ibrət götürüləsi tarixi var. Nümunə üçün onların dövründə baş vermiş əhvalatlardan birini nəzərinizə çatdırıram. Hadi öz zamanında Ğadir adlı gözəl bir qadına vurulmuşdu. Ona görə də həmin qadını qulluqçu adı ilə öz evinə gətizdirdi. Qadın onun evinə gəldikdən sonra Hadi öz məqsədini açıqlayıb danışdı. Qadın da ona razılıq verdi. Xilafətdə olduğu on dörd ayın bir hissəsini həmin qadınla yaşadı. Gecələrin birində yeyib-içməklə məşğul idilər. Birdən Hadi ona dedi: “Bilmirəm hansımız tez öləcəyik. Əgər birdən mən səndən tez dünyadan gedəsi olsam, məndən sonra yerimdə əyləşənlə də belə olacaqsan? Ğadir dedi: Allah eləməsin, bu nə sözlərdir danışırsan? Sənin ömrün uzun olacaq və biz heç bir vaxt bir-birimizdən ayrılmayacağıq. Hadi dedi: Sən mənə söz verib and iç ki, səndən əvvəl ölsəm, yerimdə əyləşənlə belə bir münasibət qurmayacaqsan. Məndən sonra bu evdən çıxıb gedəcəksən.” Hadi bunu hiss etmişdi. Çox yaxşı bilirdi ki, əgər başına bir iş gəlsə, onun yerində qardaşı Harun əyləşəcək. Ğadir and içib söz verdi ki, ondan sonra yerində əyləşənlə heç bir vaxt ünsiyyət qurmayacaqdır.

Bu söhbətin üstündən bir müddət keçmişdi ki, Hadi dünyasını dəyişdi. Harun ər-Rəşid xilafət kürsüsünə çıxdı. Bir gün Ğadiri çağırıb dedi: “Mənim ürəyim səni istəyir. Çox istərdim ki, mənimlə yaşayasan. Ğadir dedi: Mənim də ürəyimdən bu hisslər keçir. Amma sənin qardaşına söz verib and içmişəm ki, ondan sonra heç bir kəslə münasibət qurmayacağam. Harun dedi: Sən andını sındır və mənimlə yaşa. Mən də andını sındırdığına görə kəffarəni ödəyərəm.” Beləliklə, razılaşıb birgə yaşamağa başladılar. Qadın Hadi Abbasi ilə yaşadığı günlərini Harunla da yaşadı. Gecələrin birində Ğadir hövlnak və narahat halda yuxudan oyandı. Harun nə baş verdiyini soruşduqda Ğadir dedi: “Qardaşını yuxuda gördüm. Gəlib mənim üçün üç misra şeir oxudu.

Həmin şerin məzmunu belədir: Məndən sonra dünyanı sürüb, bağladığın əhd-peymanı pozdun. Səndən gözləmədiyim xəyanətləri mənə qarşı etdin. Amma bil ki, bu səhərə qədər mənə qovuşacaqsan.”

Harun dedi: “Bu, sadəcə bir yuxudur. Fikir vermə, hər şey yaxşıdır. Ğadir dedi: Yox, burada bir sirr var. Bu səhərə qədər nəsə baş verməlidir. Mən belə başa düşürəm ki, ömrüm qurtarmaq üzrədir.”

Bu hadisənin üstündən bir neçə saat keçmişdi ki, Ğadir dünyasını dəyişdi. Yuxuda gördükləri gerçək oldu. O, elə güman edirdi ki, həmişə kef içində yaşayacaq və bağladığı əhd-peymanın nəticəsini görməyəcəkdir. Ümumiyyətlə, insan həmişə başa düşməlidir ki, ölüm onu addım-addım izləyir. Heç bir kəs ölümün çəngindən qaça bilməyəcək. Bu dünyada eyş-işrətlə yaşayıb, qəflət içərisində gəzib-dolaşan kəslər elə başa düşməsinlər ki, bir gün ölüm onları da haqlamayacaqdır. Allah-təala Qurani-Kərimdə buyurur:

إِنَّهُمْ يَرَوْنَهُ بَعِيدًا. وَنَرَاهُ قَرِيبًا

-Onlar onu (o günü) uzaq görürlər (mümkünsüz bilərlər). Biz isə yaxın görürük.[1]

## Mərvan ibn Məhəmmədin aqibəti

Bəni-Üməyyə cəmi 1000 ay xəlifəlik etmişdir. Əməvilərin axırıncı xəlifəsi Mərvan ibn Məhəmməd idi ki, Himar Mərvan ləqəbi ilə tanınmışdı. Onun xəlifəliyi hicri qəməri tarixinin 132-ci ilinə təsadüf edirdi. O, 5 il 2 ay müddətində xilafət kürsüsündə əyləşdi. Abbasilərin qoşunu əməvilərə qarşı hücuma keçəndə Mərvan yeməklə məşğul idi. Amir ibn İsmayıl Mərvanın başını kəsdikdən sonra onun yerində oturub yeməyini yeməyə başlayır. Yemək yedikdən sonra isə Mərvanın böyük qızı ilə əylənmək üçün onu yanına çağırır. Mərvanın qızı ona deyir: “Ey Amir, ruzigarın belə bir anından ibrət götür. Mərvanın başını kəsib xalçasının üstündə oturdun. Onun yeməyini yedin. İndi də xəyanət etmək istəyirsən? Utan əməlindən və qəflət yuxusundan oyan. Ruzigarın vəfasızlığına bel bağlama. Ola bilsin ki, etdiyin bu əməllər bir gün sənin də başına gəlsin.”

Qızın bu sözləri Amirin ürəyini yaraladı. O sözlərdən sonra qızı azad buraxdı.[2]

Odur ki, həyatda baş verən hadisələrin və tarixdə olan hekayətlərin hamısı insanlar üçün ibrət dərsləridir. İbrət götürmək istəyən hər bir insan tarixin bütün səhifələrindən

[1] Məaric surəsi, ayə 6-7.
[2] 500 dastan, 2-ci cild, səh.392.

və müxtəlif zamanlarda baş vermiş hadisələrdən ibrət dərsi ala bilər. Hətta dünyanın nizam-intizamı, aləmin yaradılışı belə insan üçün ibrətdir. Allah-təala “Nur” surəsinin 44-cü ayəsində belə buyurur:

يُقَلِّبُ اللَّهُ اللَّيْلَ وَالنَّهَارَ إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لِّأُوْلِي الْأَبْصَارِ

-Allah gecə-gündüzü dəyişdirir (onların birini digərinin arxasınca gətirir və yaxud birindən azaldaraq digərinə artırır). Həqiqətən, bunda (bu dəyişkənlik və onun mənşəyində) bəsirət sahibləri üçün bir ibrət (və Allahın tövhid, qüdrət və hikmətinə dair bir dəlil) vardır.

## İbrət haqqında hədislər

İbrət götürmək haqqında hədislərə gəldikdə isə, Peyğəmbər(s) və məsum imamlarımızdan bir çox hədislər nəql olunmuşdur. Burada nümunə üçün sadəcə olaraq bir neçə hədisi diqqətinizə çatdırıram.

قَالَ عَلِيٌّ(ع): في تَصاريفِ الدّنيا اعتِبارٌ

-Həzrət Əli(ə) buyurur: "Dünyadakı hadisə və dəyişkənliklərdə ibrət dərsi var."[1]

قَالَ عَلِيٌّ(ع): رَحِمَ اللهُ اِمرأً تَفَكَّرَ فَاعتَبَرَ وَ اعتَبَرَ فَأَبصَرَ

-Həzrət Əli(ə) buyurur: "Allah rəhmət etsin o kəsə ki, düşünərək ibrət götürür və ibrət götürdükdən sonra gözüaçıq olur."[2]

قَالَ عَلِيٌّ(ع): لَوِ اعتَبَرتَ بِما أضَعتَ مِن ماضي عُمرِكَ لَحَفِظتَ ما بَقِيَ

-Həzrət Əli(ə) buyurur: "Əgər özünün tələf etdiyin keçmiş ömründən ibrət götürsən, şübhəsiz ki, qalan ömrünü qorumusan."

## İbrət götürməyin səmərəsi

İbrət götürməyin insana bir çox faydaları vardır ki, bunlar hədislərdə bizim üçün bəyan olunmuşdur. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ عَلِيٌّ(ع): لاعتِبارُ يُثمِرُ العِصمَةَ

---

[1] Ğürərül-hikəm, hədis 6453.

[2] Yenə orada,2-ci cild, səh.73.

İmam Əli(ə) buyurur: “İbrət götürmək insanı (günahdan və xətadan) qoruyar.”[1]

قَالَ عَلِيٌّ(ع): دَوامُ الاعتِبارِ يُؤَدّي إلَى الاستِبصارِ، ويُثمِرُ الازدِجارَ

-İmam Əli(ə) buyurur: “Daim ibrət götürmək qəlbin bəsirətinə gətirib çıxarar və günahlardan, xətalardan çəkinməklə nəticələnər.”[2]

قَالَ عَلِيٌّ(ع): مَنْ كَثُرَ اِعْتِبارُهُ قَلَّ عِثارُهُ

-İmam Əli(ə) buyurur: “Kimin ibrət götürmək qabiliyyəti çox olsa, büdrəyişləri az olar.”[3]

Bu bəhsimizin sonunda xatırlatmaq üçün bir daha qeyd edim ki, Allah-təala Quranda zamana and içməklə insanların fikrini zamanlardan ibrət götürməyə yönəldir.

## Allahın çoxsaylı andları

Ötən bəhslərimizdə qeyd olundu ki, Allahın Quranda üç qisim andları vardır. Həmin qisimlərdən biri Allahın Öz zatına içdiyi andı, biri yaratdığı məxluqa, biri isə öz felinə, yəni işinə olan andıdır. Burada qeyd olunmalıdır ki, bəs nə üçün Allah-təala Quranda and içir? Əgər möminlər üçün and içirsə, həqiqi möminlər onsuz da Allahın kəlamını qəbul edirlər. Yəni Allah and içməsə belə hər bir kəlməsi möminlər üçün şəkk-şübhəsiz qəbuldur. Yox, əgər kafirləri inandırmaq üçün and içirsə, kafirlər bu andlara etina etməyəcək və iman gətirməyəcəklər. Əgər belədirsə,

[1] Yenə orada, hədis 879.
[2] Yenə orada, hədis 5150.
[3] Ğürərül-hikəm, hədis 8056.

bəs nə üçün Allah and içir? Həmçinin Allah-təalanın and içməsinin səbəbi nədir?

Bu sualın cavabının iki səbəbi vardır. Həmin səbəblərdən birincisi belədir ki, and içmək söylənilən mətləbə təkiddir. And hər nə qədər çox olursa, deyiləcək mətləbə bir o qədər təkid olunur və bu, məsələnin daha mühüm olmasına dəlalət edir.

Allahın and içməsinin ikinci səbəbi də budur ki, and içdiyi hər bir şeyin mühüm olduğunu sübuta yetirir. Əgər insanlar da bir şeyə and içirlərsə mütləq mühüm şeylərə and içirlər. Heç kim heç bir vaxt mühüm olmayan şeyə and içmir. Məsələn, əgər Allah-təala günəşə və yaxud əsrə and içirsə, deməli günəş də, əsr də çox mühüm şeylərdir.

Biz Quranda da bunun şahidi oluruq ki, bəzən Allah-təala bir mətləbi bəyan etmək üçün bir dəfə, bəzən iki dəfə, bəzən üç dəfə, bəzən dörd dəfə, bəzən beş dəfə, bəzən də on bir dəfə and içdikdən sonra həmin mətləbi bəyan edir. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, Quranda cəmi bir yerdə Allah-təala on bir dəfə and içmişdir. Əgər Allah-təala bir mətləbi bəyan etmək üçün on bir dəfə and içirsə, görünür ki, həmin mətləb daha önəmli və daha mühümdür. Həmçinin and içdiyi şeylərin mühüm olması da buradan məlum olur.

## Allahın on bir andı və təzkiyənin əhəmiyyəti

Burada çox yaxşı olar ki, Allahın bir mətləb üçün çoxsaylı and içdiyi surəni oxuyaq və baxaq görək Allah-təala bu qədər and içməklə hansı məsələni bizim üçün bəyan edir? Yaxud belə deyək ki, o, hansı mühüm məsələdir ki, Allah-təala onun daha mühüm olmasını

göstərmək üçün on bir dəfə and içdikdən sonra onu bəyan edir?

Həm bu sualın cavabını, həm də həmin andlardan sonra bəyan olunan mühüm mətləbi qeyd etməzdən öncə məlum surəyə diqqət yetirək. Allah-təala “Şəms” surəsində belə buyurur:

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم. وَالشَّمْسِ وَضُحَاهَا. وَالْقَمَرِ إِذَا تَلَاهَا. وَالنَّهَارِ إِذَا جَلَّاهَا. وَاللَّيْلِ إِذَا يَغْشَاهَا. وَالسَّمَاءِ وَمَا بَنَاهَا. وَالْأَرْضِ وَمَا طَحَاهَا. وَنَفْسٍ وَمَا سَوَّاهَا. فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا. قَدْ أَفْلَحَ مَن زَكَّاهَا. وَقَدْ خَابَ مَن دَسَّاهَا

-Bağışlayan və mehriban Allahın adı ilə. And olsun günəşə və onun şüasının vüsətinə. And olsun (günəşin) ardınca çıxmaqda olan aya. And olsun yeri işıqlı, havanı nurlu və günəşi görünən edən zaman gündüzə. And olsun günəşi örtməkdə, üfüqləri və havanı qaranlıq etməkdə olan gecəyə. And olsun göyə və onu bina edən (O qüdrətli varlığa, vücuda). And olsun bu yerə və onu döşəyənə (O qüdrət sahibinə). Və and olsun (insanın) nəfs(sin)ə və ona doğru-düzgün biçim verənə. (Bədən üzvlərini bir-birinə mütənasib və xüsusiyyətlərini isə həm bədən, həm də xarici mühitə uyğun yaradana). Sonra da günahlarını və təqvalı olmağını ona ilham etmiş və onu iş görməyə qadir etmişdir. Nəfsini (etiqad və əxlaq kamallarında) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs şübhəsiz, nicat tapmışdır! Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!

Allah-təala bu surədə on bir dəfə and içdikdən sonra mühüm bir mətləbi bəyan edir. Bir mətləbin bəyan

olunması üçün on bir dəfə and içmək onu göstərir ki, həmin mətləb son dərəcə mühüm bir məsələdir. Allah-təala bu surədə and içdikdən sonra belə buyurur: “Nəfsini təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs şübhəsiz, nicat tapmışdır! Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!”

Deməli, buradan açıq-aydın şəkildə görürük ki, nəfsin təzkiyəsi insan üçün çox mühüm məsələdir. Hər kim nəfsini təzkiyə etməsə, özünü günah çirkabından təmizləməsə, nicat tampayacaq. Ümumiyyətlə, təzkiyə o qədər mühüm məsələdir ki, Quranda peyğəmbərlərin göndərilməsinin əsas hədəflərindən hesab olunur. Məsələn, “Cümə” surəsinin 2-ci, “Ali-İmran” surəsinin 164-cü ayələrində belə oxuyuruq:

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ

-Ayələrini onlara oxumaq, onları (əqidədə, əxlaqda və əməldəki çirkinliklərdən) təzkiyə (pak) etmək, onlara (səmavi) kitab, dini və əqli mərifətlər öyrətmək üçün ümmilərin (çoxusu savadsız olan camaatın) arasından özlərindən olan bir Peyğəmbər seçən Odur. Doğrudan da onlar bundan öncə açıq-aşkar azğınlıq içində idilər.

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلالٍ مُّبِينٍ

-Şübhəsiz, Allah möminlərin boynuna onlara (mələklərdən və cinlərdən deyil) özlərindən Onun

ayələrini onlara oxuyan, onları paklaşdıran və onlara (səmavi) kitabı, şəriət hökmlərini və əqli maarifi öyrədən bir peyğəmbər göndərən zaman haqq qoydu. Həqiqətən, onlar bundan əvvəl açıq-aydın bir azğınlıqda idilər.

Bu ayələrdən açıq-aydın görünür ki, təzkiyə etmək, yəni nəfsi paklaşdırmaq peyğəmbərlərin əsas hədəflərindən biridir. Allah-təala Quranda dörd ayədə təzkiyə və təlim məsələsini bir yerdə bəyan etmişdir. Həmin ayələrin üçündə təzkiyə məsələsini təlim və el məsələsindən önə çəkmiş, həmin ayələrin yalnız birində təlim məsələsini təzkiyədən öncə bəyan etmişdir. Bütün bunlar onu sübut edir ki, insan üçün nəfsini təmizləyib paklaşdırmaq ən mühüm məsələdir. Şəxsən İslam Peyğəmbəri(s) bu barədə belə buyurur:

إنّما بُعِثتُ لِأُتَمّم مكارِمَ الأَخلاق

-Həqiqətən, mən əxlaqi kəramətləri kamilliyə çatdırmaq üçün göndərilmişəm.[1]

Deməli, hər bir kəs nəfsini paklaşdıraraq əxlaqını kamilləşdirə bilsə, nicat taparaq xoşbəxtlər cərgəsinə qoşulacaq. Təzkiyə etməyin xeyri və nəticəsi də ancaq insanın özü üçündür. Necə ki, "Fatir" surəsinin 18-ci ayəsində buyurulur:

وَمَن تَزَكَّى فَإِنَّمَا يَتَزَكَّى لِنَفْسِهِ

-Və kim (əqidə, əxlaq və əməldə) təzkiyə (paklıq) axtarsa, ancaq öz xeyrinə paklıq axtarar.

---

[1] Mizanül-hikmə.Quranın andları,səh.86.

## Təzkiyənin mənası

Təzkiyənin mənasına gəldikdə isə paklaşdırmaq, təmizləmək və inkişaf etdirmək mənalarını ifadə edir. Deməli, hər bir insan ona ruh verildikdə pak olduğu kimi paklaşmaq istəyirsə, mütləq cismini və ruhunu pis sifətlərdən və çirkinliklərdən təmizləməlidir. İnsan bu cəhətdən yağış suyuna bənzəyir. Göydən düşən hər bir yağış damlası pak və tərtəmiz olur. Yerə düşdükdə torpağa qarışaraq çirklənir. Onun bir daha təmiz və pak olması üçün buxarlanıb göyə qalxmalıdır. İnsan da dünyaya gələrkən ruhu yağış suyu kimi pak və tərtəmiz olur. Getdikcə günahlara aludə olaraq çirklənir. İnsan günaha aludə olduqda nəticədə duaları və ibadətləri qəbul olunmaz. Hər bir insan dua və ibadətlərinin qəbul olunmasını istəyirsə, mütləq təzkiyə edilib ruhunu günahlardan təmizləməlidir.

Hədislərdə qeyd olunur ki, Həzrət Musa Peyğəmbərin(ə) dövründə bir nəfər Allaha gecə-gündüz dua edirdi. Nədənsə onun duaları müstəcəb olmurdu. Həzrət Musanın(ə) ona ürəyi yandı. Allahla minacat edərək dedi: “İlahi, nə üçün bu bəndənin dualarını qəbul etmirsən?” Allah-təala buyurdu: “Çünki onun qarnında, ətrafında və evində haram var.” [1]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْعَبْدَ لَيَرْفَعُ يَدَهُ إِلَى اللَّهِ وَ مَطْعَمُهُ حَرَامٌ فَكَيْفَ يُسْتَجَابُ لَهُ وَ هَذَا حَالُه

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, bəndə yeməyi haram olduğu halda əllərini dua üçün Allah

[1] Mizanül-hikmə,4-cü cild, səh.1658.

dərgahına uzadır. Məgər belə bir halda onun duası qəbul olunarmı?”[1]

قَالَ الصَادِقُ(ع): إذا أرادَ أحَدُكُم أن يُستَجابَ لَهُ، فَليُطَيِّب كَسبَهُ، وَليَخرُج مِن مَظالِمِ النّاسِ، وإنَّ اللهَ لا يُرفَعُ إلَيهِ دُعاءُ عَبدٍ وفي بَطنِهِ حَرامٌ، أو عِندَهُ مَظلِمَةٌ لِأَحَدٍ مِن خَلقِهِ

-İmam Sadiq(ə) buyurur: “Sizlərdən hər kim dualarının qəbul olunmasını istəyirsə, öz qazancını təmiz etsin və insanların haqqını ödəsin. Qarnında haram mal və boynunda bir kəsin haqqı olan insanın duası Allah dərgahına qalxmır.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): أَطِب كَسبَكَ تُستجَب دَعوتُكَ ، فَإِنَّ الرَّجلَ يَرفعُ اللُّقمَة إِلَى فِيهِ (حراماً)، فما تُستجابُ دعوتهُ أَربَعِين يوماً

-Həzrət Peyğəmbər(s) buyurur: “Qazancını halal et ki, duan qəbul olunsun. Çünki insan bir (haram) tikə ağzına qoyarsa, qırx gün ibadəti qəbul olunmaz.”[3]

قَالَ البَاقِرُ(ع): إِنَّ العَبدَ يسأَل الْحَاجةَ فَيكُون مِن شَأنه قَضاؤها إِلى أَجلٍ قريبٍ أَو وَقتٍ بطيءٍ، فيُذنب العَبد ذَنباً فَيقُول اللهُ تَبارَكَ وَتَعالَى لِلمَلَك: لا تَقْضِ حَاجتَه وَاحرِمْهُ إِيّاها؛ فَإِنّه تَعرَّضَ لِسَخَطى واستَوجَبَ الحِرمانَ منّي.

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Mizanül-hikmə,4-cü cild, səh.1658.

-İmam Baqir(ə) buyurur: “Bəndə Allahdan bir hacət diləyən zaman Allah-təala öz şəninə görə yaxın gələcəkdə, ya bir qədər təxirə salaraq onun duasını qəbul edər. Amma bəndə sonradan günah edər. Belə olan halda Allah-təala mələyə deyər: Onun diləyini yerinə yetirmə və onu (nemətdən) məhrum et. Çünki o, özünü Mənim qəzəbimə duçar etdi və Mənim tərəfimdən məhrumiyyətə layiq oldu.” [1]

Deməli, insanın aqibətinin necə qurtaracağı insanın özündən asılıdır. Əgər bir insan haram yeyirsə və günah iş görürsə, nəticədə ziyanını da özü çəkəcək. Quran üç nəfərin barəsində söz açdıqdan sonra onların hər birini öz günahına görə cəzalandırdığını bəyan edir. “Ənkəbut” surəsinin 39-40-cı ayələrində belə buyurulur:

وَقَارُونَ وَفِرْعَوْنَ وَهَامَانَ وَلَقَدْ جَاءهُم مُّوسَى بِالْبَيِّنَاتِ فَاسْتَكْبَرُوا فِي الْأَرْضِ وَمَا كَانُوا سَابِقِينَ. فَكُلًّا أَخَذْنَا بِذَنبِهِ

-Və Qarunu, Fironu və Hamanı da (məhv etdik). Şübhəsiz, Musa (tövhid və şəriətlər barədə) Bizim aydın dəlillərimizi onlara gətirmişdi, onlar isə yer üzündə təkəbbür və tüğyan etdilər. Amma əsla Bizim iradəmizdən önə keçən deyildilər (Bizim əzabımızdan qaça bilməzlər). Beləliklə (Biz) onların hər birini öz günahının cəzası ilə (bərk) yaxaladıq.

Beləcə, biz görürük ki, hər bir kəs öz günahına görə cəzasını çəkir. Yəni insanın başına hər hansı bir bəla gəlirsə, onun etdiyi günahların nəticəsidir. Bəzən insan elə bir günah iş görür ki, illərlə onun cəzasını çəkməyə məhkum olur.

[1] Yenə orada,4-cü cild, səh.1660.

قَالَ الصَّادِقُ(ع): أَما إِنه لَيْسَ مِن عِرقٍ يَضْرِب وَلا نَكْبَةٍ وَلا صُداعٍ وَلا مَرَضٍ إِلاّ بِذَنبٍ

-İmam Sadiq(ə) buyurur: “Əgər (insanın) boynunun damarı ağrıyırsa, ayağına bir daş dəyirsə, başı ağrıyırsa və ya xəstələnirsə, bütün bunlar onun öz günahının nəticəsidir.”[1]

Hər bir kəs Həzrət Yusif Peyğəmbər(ə) ilə Züleyxanın əhvalatı haqqında müəyyən qədər xəbərdardır. Züleyxa bütpərəst bir qadın idi. O, Misirin əzizinin arvadı idi. Həzrət Yusifi(ə) qul bazarından alıb gətirərək evlərində saxlamışdılar. Yusifin(ə) camalı o qədər gözəl idi ki, Züleyxanın gözü ona düşmüşdü. Ancaq Yusif(ə) onu özünə yaxın buraxmadığı üçün onu zindana saldırdı. Burada əsas sözümüz odur ki, Züleyxa Allah barədə bircə cümlə deməklə hidayət olunub xoşbəxtlər cərgəsinə qoşuldu.

-Züleyxa qocalıb əldən düşmüş, gözlərinin nurunu itirmişdi. Elə bir vəziyyətə gəlib düşmüşdü ki, küçələrdə dilənçilik edirdi. Züleyxa Misirdə tanınmış və görkəmli saray xanımlarından biri idi. O, Misirdə böyük şəxsiyyət hesab olunurdu. Axırda elə bir vəziyyətə düşdü ki, zəlil və xar oldu. Şah sarayının xanımı indi küçələrdə əl açıb dilənirdi. Günlərin birində yenə də küçədə dilənirdi. Hiss etdi ki, həmin küçədə izdiham və hay-küy var. Bir nəfərdən soruşdu ki, bu nə səs-küydür belə? Ona dedilər ki, Yusif(ə) bu küçədən keçəcək. O zaman Yusif(ə) artıq Misirin padşahı olmuşdu. Bütün səltənət onun ixtiyarında idi. Züleyxa dedi: O, keçəndə mənə də xəbər edin.

[1] 500 dastan, səh.465.

Yusif(ə) saray adamları ilə həmin küçədən keçərkən Züleyxaya xəbər verdilər. Züleyxanın gözləri görmürdü, ayağa qalxıb nə qədər əlini yellədisə, Yusif(ə) onu görmədi. Bir neçə müddətdən sonra başqa küçədə dilənərkən yenə də səs-küy eşitdi. Soruşdu: Burada nə baş verib belə? Dedilər ki, bu gün Yusif(ə) buradan keçəcək. Züleyxa dedi: Xahiş edirəm, bizim qarşımızdan keçəndə mənə də xəbər edin. Yusif(ə) oradan keçərkən Züleyxaya xəbər verdilər. Züleyxa yenə də ayağa qalxdı və əlini qaldırıb havada yellədi. Lakin bu dəfə də Yusif(ə) onu görmədən ötüb getdi.

Gecələrin birində Züleyxa yaşadığı çadırda xəyala dalmışdı. O, bütpərəst bir qadın idi. Onun Sənəm adlı bir bütü var idi. Bir xeyli düşündükdən sonra həmin bütü götürüb qarşısına qoydu, əli ilə axtarıb yerdən bir daş parçası tapdı və bütü sındırmağa başladı. Sənəmi sındıra-sındıra gözəl bir söz dedi. Onun bu cümləsini İmam Sadiq(ə) də təsdiqləyərək bizlər üçün nəql edir. Züleyxa bütü sındırdıqdan sonra dedi:

سُبْحَانَ الَّذِى جَعَلَ العَبِيدَ مُلُوكاً لِطَاعَتِهِم وَ جَعَلَ الْمُلُوكَ عَبِيداً لِمَعْصِيَتِهِم

-Pak və qüsursuzdur o Allah ki, qulları itaət və bəndəliklərinə görə padşah, padşahları da günahlarına görə qul etdi.

Bu sözlərdən sonra həqiqi Allahı tapıb ona ibadət etməyə başladı. Bütpərəstlikdən əl çəkib Allaha səcdə edirdi. O, yenə də günlərin birində küçədə əyləşib dilənirdi. Birdən səs-küy eşitdi. Bir nəfərdən soruşdu: Burada nə olub? Dedilər ki, bu gün Yusif(ə) bu küçədən keçəcək. Züleyxa heç bir kəsə bir söz demədi. Öz-özünə

fikirləşdi ki, Yusifin(ə) tanıdığı Allahı mən də tanımışam. Daha Yusif(ə) mənə lazım deyil. Yusif(ə) böyük izdihamla həmin küçədən keçərkən Züleyxa ayağa qalxmadı və ona fikir vermədi. Lakin Yusif(ə) onu gördü, amma onun Züleyxa olduğunu bilmədi. Xidmətçilərini çağırıb dedi: “Orada əyləşən dilənçi qadına istədiyini verib onu razı salın.”

Xidmətçilər Züleyxanın yanına gəlib dedilər: “Sən kimsən və nəyə ehtiyacın var? Züleyxa dedi: Siz kimsiniz? Dedilər: Biz şahın xidmətçiləriyik. Bizi göndərib ki, ehtiyacını ödəyib səni razı salaq. İstəyini de. Züleyxa dedi: Şahla görüşmək istəyirəm. Xidmətçilər dedilər: Bu, mümkün deyil. Əgər ehtiyacın varsa, dinardan, dirhəmdən sənə verə bilərik. Amma şahla görüşmək olmaz. Züleyxa dedi: Mən sizi çağırmamışam. Özünüz gəlmisiniz və deyirsiniz ki, şah məni razı salmağınızı sizə tapşırıb. Mən də buna razı olaram ki, şahla görüşüm. Əgər mümkün deyilsə, gedə bilərsiniz. Sizə ehtiyacım yoxdur.” Xidmətçilər gəlib olanları Yusifə(ə) dedilər: “Bir qoca arvaddır, dilənçilik edir. Onun istəyi sizinlə görüşməkdir. Bundan başqa heç nəyə razı olmadı.” Yusif(ə) dedi: “Bəli, mən onu razı salmağa söz vermişəm. Əgər mənimlə görüşüb razı qalacaqsa, çağırın gəlsin.”

Görüş vaxtını təyin etdilər. Yusif(ə) taxtda əyləşmişdi. Züleyxanı onun hüzuruna gətirdilər. Yusif(ə) diqqətlə baxanda onun Züleyxa olduğunu gördü və dedi: “Züleyxa, bu sənsən? Züleyxa dedi: Bəli, mənəm. Yusif(ə) dedi: Sən hələ yaşayırsan? Züleyxa dedi: Yusif, nə üçün mənim ölməyimi arzu edirsən? Yusif(ə) dedi: Xeyr, mən sənin ölməyini arzu etmirəm. Sadəcə təəccübləndim ki, nə əcəb bu vaxta qədər ölməmisən.”

Bu hadisənin uzun bir hekayəsi vardır ki, müxtəlif kitablarda qeyd olunmuşdur. Züleyxa Yusifdən(ə) öz istədiklərini aldı. O bilirdi ki, Yusif(ə) həm padşahdır, həm də Allahın peyğəmbəridir. Çox yaxşı bilirdi ki, Allah-təala Yusifin(ə) dualarını qəbul edir. Həm də Yusifin(ə) dilindən onu razı salmaq sözü çıxdığına görə ondan layiqli istəklər istədi. Həmin istəklərdən biri belə idi: "Mən istəyirəm ki, cənnətdə səninlə birlikdə olum. Bilirəm ki, əgər sən Allahdan istəsən, bu baş verəcək." Həzrət Yusif(ə) ona dua etdi və söz verdi. Züleyxa isə qalan ömrünü axıra qədər Allaha ibadət etməklə keçirdi.

Züleyxa bütpərəstlikdən əl çəkib haqq yolunu tapdı. Haqqı tapdıqdan sonra ona tabe oldu. Bir zamanlar demək olar ki, şahlıq kürsüsündə əyləşmiş xanım batil yolun nəticəsində zillətə düşdü. Sonra haqqı tapıb itaət edərək izzətə və səadətə çatdı.

## Təzkiyə olunmamağın aqibəti

Qeyd olundu ki, insanın nicat yolu nəfsinin təzkiyə və paklaşmasından asılıdır. Allah-təala "Şəms" surəsində on bir dəfə and içdikdən sonra buyurur: "Nəfsini təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs, şübhəsiz, nicat tapmışdır!"

Bu cümlədən sonra dərhal belə buyurur:

-Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!

Hər kim nəfsini paklaşdırmasa, şübhəsiz ki, ziyana uğrayacaq. Sual oluna bilər ki, əgər bir insan dünyada təzkiyə etməsə, hansı ziyanları çəkəcəkdir? Cavab budur ki, dünyada nəfsini təzkiyə etməyən insanlar axirətdə üç

əsas və böyük ziyan görəcəklər. Onlardan biri budur ki, Allah onlarla danışmayacaq. İkincisi budur ki, Allah onlara nəzər yetirməyəcək. Üçüncüsü isə Allah onları paklaşdırmayacaq. Belə olduqda nəfsini təzkiyə etməyən insan axirətin bədbəxtlərindən olacaqdır.

## Təzkiyənin qarşısını kəsən maneələr və qiyamət günü Allahın danışmayacağı kəslər

Burada qarşıya belə bir sual çıxır ki, hansı əməllər insanın təzkiyə olunmasına mane olur? Yaxud belə deyək ki, o, hansı insanlardır ki, Allah-təala onlarla danışmayacaq və Öz rəhmətini onlara nazil etməyəcək? Bütün bu sualların cavabı ayə və hədislərdə açıq-aydın şəkildə göstərilmişdir. Nümunə üçün həmin əməllərdən bir neçəsinə diqqət yetirək.

### 1. İlahi əhd-peymanına qarşı etinasızlıq

İnsanın nəfsinin saflaşmasının qarşısını alan və ruhunun paklaşmasına mane olan amillərdən beşincisi vədə xilaf çıxmaqdır. Yəni hər kim bağladığı əhd-peymanı sındırıb verdiyi sözün üstündə dayanmasa saflaşa bilməyəcək və nuraniyyətə, paklığa çatmayacaqdır. Hər kəs Allahla bağladığı əhd-peymanı pozaraq onu ucuz qiymətə satarsa, bu əməl həmin şəxsin axirətdə bədbəxtlər cərgəsinə qoşulmasına səbəb olacaqdır. Belə olduqda Allah-təala onunla danışmayacaq, ona lütf göstərməyəcək, onu paklaşdırmayacaq və ağrılı bir əzaba düçar edəcəkdir. Allah-təala “Ali-İmran” surəsinin 77-ci ayəsində əhd-peyman barədə belə buyurur:

إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعَهْدِ اللّهِ وَأَيْمَانِهِمْ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لاَ خَلاَقَ لَهُمْ فِي الآخِرَةِ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Həqiqətən, öz əhd-peymanları və andları(nı - dini qəbul etmək barəsində olan əhd-peymanlarını və haqqa kömək üçün olan andlarını pozmaq) müqabilində ucuz bir qazanc (vəzifə və mal) əldə edən kəslərin axirətdə bir payları yoxdur. Həmçinin Allah onlarla danışmayacaq, qiyamət günü onlara (rəhmət) nəzər(i) salmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu ayə barədə çox danışmaq olar. Ayə əsasən yəhudilər barəsindədir ki, Quran nazil olmamışdan əvvəl Tövratdan və İncildən İslam Peyğəmbərinin(s) barəsində olan əlamətləri bilirdilər. Onlar İslam Peyğəmbərinin(s) gələcəyi və əlamətləri barədə məruzə və məqalələr yazmışdılar. Axırıncı Peyğəmbərin(s) əlamətlərini yazıb imzalamışdılar. İslam Peyğəmbəri(s) zühur etdikdən sonra həmin əlamətlər onda göründü. Peyğəmbərə(s) müxalif olanlar isə onun əlamət və nişanələrini yazıb imzalayanları incitməyə başladılar. Onlar müxaliflərin təzyiqlərini görərək yazıb imzaladıqlarını boyunlarından atmaq istədilər. Onlar dünyada rahat və asudə yaşamaq üçün yazdıqlarını təkzib edib sözlərinin üstündə durmadılar. Onlar istəyirdilər and içib desinlər ki, bu sözləri də biz yazmamışıq. Hədis və rəvayətlərə əsasən, elə bu halda Allah-təala "Ali-İmran" surəsinin 77-ci ayəsini nazil edərək onları tənqid etdi və başa saldı ki, həqiqətən, öz əhd-peymanları və andları müqabilində ucuz bir qazanc

(vəzifə və mal) əldə edən kəslərin axirətdə bir payları yoxdur.

Buna görə də insan əhd-peyman bağladıqdan sonra heç bir vəchlə öz peymanını sındırmamalıdır. Bu məsələni Quranın müxtəlif ayələrində oxumaq olar. “Maidə” surəsinin 1-ci ayəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَوْفُواْ بِالْعُقُودِ

-Ey iman gətirənlər, əhd-peymanlarınıza (nəzir, əhd və and içmək kimi özünüzlə olan peymanlara, müqavilə və digər sazişlər kimi camaatla bağladığınız peymanlara və dinin hökmlərinə riayət etməyi boynuna götürmək kimi Allahla olan peymanlara ki, bəzi şeylərin halallığına və haramlığına riayət etmək də bu qəbildəndir) vəfa edin.

“İsra” surəsinin 34-cü ayəsində belə buyurulur:

وَأَوْفُواْ بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً

-Allahla olan əhd-peymanınıza, yaxud sizin özünüzün bir-birinizlə olan əhd-peymanınıza vəfa edin. Həqiqətən (qiyamət günü) peymandan soruşulacaqdır (peyman sahibindən, ya canlandırılaraq peymanın özündən soruşacaqlar).

Allah-təala “Möminun” surəsinin əvvəllərində möminlərin nişanə və əlamətlərini sadaladıqdan sonra 8-ci ayədə belə buyurur:

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Və o kəslər ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və (Allahın onlarla bağladığı, yaxud özləri öz aralarında bağladıqları və ya camaatla bağladıqları) əhd-peymanlarına riayət edirlər.

قَالَ رَسُولُ اللهِ(ص): أَقرَبُكُم غَدًا مِنّى فِى الْمَوقفِ أَصدَقُكُم لِلحَدِيث وَ أَداكُم لِلأَمَانَة وَ اَوفَاكُم بِالعَهدِ وَأَحْسَنُكُمْ خُلُقاً وَأَقْرَبُكُمْ مِنَ النَّاسِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü mənə ən yaxın olanınız düzgün danışan, əmanətə xəyanət etməyən, əhdinə vəfalı olan və xoşəxlaqlı olanınızdır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن كَانَ يُؤمِنُ بِاالله وَاليَومِ الآخِرِ فَليَف اِذَا وَعَد

-Həzrət Peyğəmbər(s) buyurur: “Allaha və qiyamət gününə imanı olan kəs (hər zaman bağladığı) əhdinə vəfalı olmalıdır.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): لا دِينَ لِمَن لا عَهدَ لَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Əhdinə vəfa etməyənin dini yoxdur.”[3]

Ayə və hədislərdən açıq-aydın şəkildə görürük ki, əhdə vəfasızlıq etmək və peymanı sındırmaq necə də pis işdir. Fərqi yoxdur ki, insan kiminlə əhd-peyman bağlayıb. İnsan istər Allahla, istərsə də insanlarla bağladığı əhdi heç bir vaxt pozmamalıdır. Məsələn, əgər bir insan “La ilahə illəllah” - deyirsə, deməli, Allahla əhd-peyman bağlayır. Buna görə də çox diqqətli olmalıdır ki, bağladığı əhdə vəfasızlıq və etinasızlıq etməsin.

---

[1] Biharül-ənvar, 77-ci cild, səh.156.
[2] Üsuli Kafi, 4-cü cild, səh.69.
[3] Mizanül-hikmə, hədis 22288.

Əbu Heysəm adlı bir mömin Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mənim işlərim çox olduğu üçün bir qulluqçuya ehtiyacım var. Mümkün olduqda mənə bir qul bağışlasanız, çox yaxşı olardı.”[1] Peyğəmbər(s) imkan olduğu təqdirdə bu məsələni həll edəcəyinə söz verir. Günlərin birində Peyğəmbərin(s) hüzuruna üç əsir gətirirlər. Peyğəmbər(s) həmin əsirlərdən birini bir möminə, digərini başqa bir möminə verdi. Üçüncü əsir qalmışdı ki, Xanım Fatimeyi Zəhra(s.ə) atasının yanına gəlib dedi: “Ya Rəsulallah, mənim ev işlərim çox olduğuna görə işləri təkbaşına görmək mənim üçün çox ağırdır. Mənə də bir qulluqçu bağışla.”

Həzrət Zəhra(s.ə) bu sözü deyərkən Peyğəmbərin(s) Əbu Heysəmə verdiyi söz yadına düşdü və həmin qulu qızına yox, Əbu Heysəmə verdi. Sonra buyurdu: “Doğrudur, qızım Fatimə(s.ə) də mənim yanıma gəlib qulluqçu istədi. Onun qulluqçuya daha çox ehtiyacı var idi. Amma mən Əbu Heysəmə söz verdiyim üçün həmin əsiri qızıma yox, ona (Əbu Heysəmə) verdim.”

Görürük ki, Həzrət Peyğəmbər(s) əhdə vəfalı olmağı bizə təkidlə bildirir və öz əməli ilə də bunu sübuta yetirir. Sözün şərafəti budur ki, əməl də onu təsdiq etmiş olsun. Hər kəsin əməli sözlərini təsdiq etməsə, onun sözləri boş sözlərdən başqa bir şey deyildir. Boş sözlərin də heç bir vaxt etibarı olmaz. Əhdə vəfalı olmaq imanın nişanələrindən biridir.

---

[1] O zamanlar Peyğəmbər(s) müharibələrdən əsir düşənləri möminlərə paylayırdı. Onlar həmin əsirləri qulluqçu kimi saxlayır və onların tərbiyəsi ilə məşğul olurdular. Boyunlarına hansısa bir günahın kəffarəsi gəldikdə həmin qulu azad etməklə günahlarını təmizləyərdilər.

قَالَ عَلِيٌّ(ع): مِن دَلائِلِ الإِيمان اَلوَفَاءُ بِالعَهد

-Həzrət Əli(ə) buyurur: “Əhdə vəfalı olmaq imanın əlamət və nişanələrindəndir.”[1]

İkinci xəlifənin hakimiyyət illəri Sasanilərin dövrünə təsadüf edirdi. O zamanlar böyük ölkələrdə yeddi şahdan biri də Kəsra hesab olunurdu. Ona şahlar-şahı deyərdilər. Müsəlmanların qoşunu Əhvaz şəhərinə qədər gəlib çatmışdı. O vaxtlar Əhvazda Hurmuzan adlı bir şəxs şahlıq edirdi. Müsəlmanlar oranı da fəth edib bütün əhalini əsir götürdülər. O cümlədən Hurmuzan şahı da əsir götürüb ikinci xəlifənin yanına apardılar. Xəlifə müəyyən fərmanlar verdikdən sonra belə qərara aldı ki, əgər Hurmuzan İslamı qəbul etməsə, onu öldürsün. Hurmuzanı başqa əsirlərdən ayıraraq bir otaqda saxlayırdılar. Hurmuzan xəlifəyə dedi: “İmkan varsa göstəriş ver ki, içmək üçün mənə su gətirsinlər.” Xəlifə nökərlərə su gətirməyi əmr verdi. Hurmuzan üçün taxta kasada su gətirdilər. Hurmuzan kasanı alıb baxdıqdan sonra xoşuna gəlmədi. Çünki həmişə büllur və şüşə qablarda su içirdi. Kasa taxtadan olduğu üçün onu qaytarıb dedi: “Mən bu kasadan su içmərəm.”

Xəlifə göstəriş verdi ki, ona şahlara layiq qabda su gətirsinlər. Onun üçün yaxşı və gözəl bir qabda su gətirdilər. Elə bu zaman Həzrət Əli(ə) də ora gəldi. Hurmuzan həmin qabı dodaqlarına yaxınlaşdırıb geri qaytardı. Özü bilərəkdən bir neçə dəfə bu hərəkəti etdi. Xəlifə onun hərəkətlərini diqqətlə izlədikdən sonra elə başa düşdü ki, o, qorxusundan belə edir. Buna görə də ona

[1] Mizanül-hikmə, hədis 22289.

dedi: “Narahat olma, nə qədər ki, o suyu içməmisən, səni öldürməyəcəyəm.” Hurmuzan bu sözü eşidən kimi su qabını yerə atdı. Qab sındı və su yerə dağıldı. Xəlifə üzünü Həzrət Əliyə(ə) tutub dedi: “Ya Əli(ə), bəs indi mən nə edim? Həzrət Əli(ə) buyurdu: Sözünün üstündə dur və əhdinə vəfalı ol. Sən özün dedin ki, o suyu içməyənə qədər səni öldürməyəcəyəm. Su yerə dağıldı və o da içmədi. Belə olduqda sən daha onu öldürə bilməzsən. Amma ondan vergi almaq olar.”

Hurmuzan Həzrət Əli(ə) ilə xəlifənin söhbət etdiyini görüb soruşdu: “Nə qərara gəldiniz.” Onlar müzakirə etdikləri məsələni ona da danışdılar. Hurmuzan bu sözləri eşitdikdən sonra üzünü xəlifəyə tutub dedi: “Mən indi hər şeyi başa düşdüm. Bir dində ki, bir kəlmə sözə görə insanların taleyi dəyişib yaxşılığa doğru gedirsə və həmin bir kəlmə söz verdikdə həmin söz olduğu kimi qalıb dəyişmirsə, belə bir dinin yolunda canımı da qurban verməyə hazıram.”

Sonra o, gəlib xəlifənin yanında əyləşdi və dedi: “İslamı qəbul etmək üçün nə iş görməliyəm.” Xəlifə ona kəlmeyi-şəhadəti başa saldı. O da kəlmeyi-şəhadətini deyib müsəlman oldu.

Hər bir insanın borcudur ki, nəticəsindən asılı olmayaraq verdiyi vədinə əməl etsin. Əhdə vəfalı olmaq, verilən sözə əməl etmək insanın insaniyyət və ilahi vəzifəsidir. İşin axırının necə qurtarmasından asılı olmayaraq, insan mütləq verdiyi sözə əməl etməli, əhd-peymanını heç bir vəchlə sındırmamalıdır.

Günlərin birində İmam Səccaddan(ə) soruşdular: “Bizim üçün İslam şəriətini bir cümlə ilə izah edə bilərsinizmi?” İmam Səccad(ə) buyurdu: “Haqqı

söyləmək, ədalətlə hökm vermək və əhd-peymana vəfalı olmaq.”

Hər bir müsəlmana əhdinə vəfa etməsi vacibdir. Bu elə bir əməllərdəndir ki, insanın ruhunu paklaşdırıb təmizləyər. Əks-təqdirdə insan onun üçün nəzərdə tutulmuş məqsədə (saflaşmağa) çata bilməyəcək.

### 2. Allahın kitabını ucuz qiymətə sataraq haqqı gizlətmək

İstər ümumi, ictimai və dini məsələlərdə, istərsə də xüsusi (iki nəfər arasında olan) məsələlərdə haqqın üstünü ört-basdır edib gizlədənlər cəzalanacaqlar. Haqq-həqiqəti gizlədən insan da qiyamət günü xar olaraq əzaba düçar olacaqdır. Allah-təala bu kimi insanlarla da danışmayacaq və onların qarınlarını odla dolduracaqdır. “Bəqərə” surəsinin 174-cü ayəsində belə buyurulur:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلَ اللّهُ مِنَ الْكِتَابِ وَيَشْتَرُونَ بِهِ ثَمَنًا قَلِيلاً أُولَئِكَ مَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ إِلاَّ النَّارَ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Şübhəsiz, Allahın kitabdan (səma kitabı olan Tövrat və İncildən) nazil etdiyini (alimlərin öz mənafelərinə görə camaat üçün haram etdikləri şeylərin halal olması barəsindəki ayələri) gizlədən və beləliklə də azacıq bir qazanc əldə edən kəslər qarınlarına oddan başqa bir şey daxil etmirlər (onların gizlətdikləri və ya əldə etdikləri o qazanc axirətdə od yemək şəklində zahir olacaqdır). Həmçinin Allah qiyamət günü onlarla danışmayacaq, onları (əməllərinin pisliyindən) paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu mübarək ayədə Allah-təala haqqı gizlədənlərin iki cür cəza ilə cəzalanacağını açıqlayır. Birinci cəza odur ki, azacıq qazanc əldə etmək üçün haqqı gizlədənlərin qarınlarını odla dolduracaq. İkinci cəsa isə Allahın qiyamət günü onlarla danışmaması olacaq. İnsan üçün qiyamət gününün ən böyük əzabı odur ki, Allah onunla danışmasın.

Qiyamət günü Allah-təala möminlərə lütf nəzəri ilə baxacaqdır. Hər dəfə baxdıqca rəhmət və mərhəməti nazil olacaq. Vay o kəsin halına ki, qiyamət günü Allahın nəzərindən kənarda qalmış olacaq. Həm Quran ayələrində, həm də hədislərdə belə nəql olunmuşdur ki, bir neçə qrup insanla Allah danışmayacaq. Onlardan biri də haqqı gizlədənlərdir. Allah bu insanları (əməllərinin pisliyindən) paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

## Haqqı gizlədənlər ən zülmkar insanlardır

Quranda haqqı gizlədənlərin ən zalım insanlar olduğu bəyan edilir. Hətta zülmkar insanların zülm etmələrinin səbəbi də bu insanlardır. Haqqı gizlətməklə zülm edənlər olmasa, zalım insanlar da olmaz. Çünki zalımlar bu kimi insanlara arxalanıb zülm törədirlər. Əgər Şüreyh Qazi kimi nanəcib insan olmasaydı, Yezid Kərbəlada böyük bir cinayəti törədə bilməzdi. Yezid Şüreyh Qazinin verdiyi fitvalara, gizlətdiyi həqiqətlərə və söylədiyi yalanlara söykənib Kərbəla faciəsini törətdi. Allah-təala "Bəqərə" surəsinin 140-cı ayəsində belə buyurur:

وَمَنْ أَظْلَمُ مِمَّن كَتَمَ شَهَادَةً عِندَهُ مِنَ اللّهِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ

-Allah tərəfindən yanında olan (hər hansı) bir şəhadəti gizlədəndən daha zalım kim ola bilər?! Allah etdiyiniz əməllərdən əsla qafil deyildir.

## Haqqı gizlədənlər lənətə düçar olacaqlar

Haqqı gizlədənlərin üçüncü cəzası budur ki, qiyamət günü həm Allahın, həm də bütün lənət edənlərin (peyğəmbərlərin, mələklərin və möminlərin) lənətinə düçar olacaqlar. Qiyamət günü elə bir gündür ki, hər bir kəs şəfaət olunmaq üçün kiməsə möhtac olacaqdır. Peyğəmbərin(s), imamların, şəhidlərin və digər şəfaət edənlərin kömək və şəfaətinə möhtac olan bir gündə haqqı gizlədənlər lənətlənəcəklər. "Bəqərə" surəsinin 159-cu ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ

-Həqiqətən, nazil etdiyimiz aydın dəlillər və hidayətləri kitabda insanlara bəyan etməyimizdən sonra (onları) gizlədən kəslər məhz Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər onlardır!

## Elm öyrənənlərə rəhmət, haqq-həqiqəti gizlədənlərə lənət

Burada çox yaxşı olar ki, lənətin mənası ilə tanış olaq. Allahın lənət etməsi odur ki, insanı Öz rəhmət və bərəkətindən uzaqlaşdırır. Bəzi alimlər demişlər ki, Allahın kiməsə lənət etməsi onun üçün axirətdə əzab və dünyada müvəffəqiyyətsizlikdir. Allahdan başqa lənət oxuyanların mənasına gəldikdə isə Allahdan kiminsə

(lənətə səbəb olanın) barəsində onun rəhmətindən uzaq düşməsini diləməkdir. Həmin lənət oxuyanlar mələklər, möminlər və həmçinin digər canlılar ola bilər. Bunu daha aydın başa düşmək üçün bir hədisə diqqət yetirək.

قَالَ رَسُولُ اللَّهِ(ص): وَ إِنَّ الْمَلَائِكَةَ لَتَضَعُ أَجْنِحَتَهَا لِطَالِبِ الْعِلْمِ رِضًا بِهِ وَ إِنَّهُ يَسْتَغْفِرُ لِطَالِبِ الْعِلْمِ مَنْ فِي السَّمَاءِ وَ مَنْ فِي الْأَرْضِ حَتَّى الْحُوتِ فِي الْبَحْرِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, mələklər (Allahın razı olduğu) elm[1] əldə edənlərə razılıq əlaməti olaraq qanadlarını onlar üçün açarlar. Göyün və yerin məxluqları, hətta dənizdəki balıqlar da elm öyrənənlər üçün Allahdan bağışlanmaq diləyərlər."[2]

Bu hədisdən açıq-aydın başa düşürük ki, elm öyrənənlər üçün yerdə və göydə olan məxluqlar, hətta dənizdə üzənlər belə Allahdan rəhmət, məğfirət diləyərlər. Əgər bir alim həqiqəti bildiyi halda haqqı gizlədərsə və öyrəndiyi elmi deyil, özünə sərf etdyi sözü deyərsə, bu zaman o, lənət oxuyanların lənətinə düçar olacaqdır. Burada əsas söhbət alimlər barədədir. Avam insanlar da ola bilər, lakin onlar bir o qədər də rol oynamır. Çünki onlar nə bilirlər ki, nəyi də gizlətsinlər. Amma bəzi hallarda haqqı demək iqtidarında olduqda belə onu demir və gizlədirlər. Bəzi hallarda isə maddi mənfəətinə görə yalançı şahid qismində iştirak edir. Bu insanlar da Allahın

---

[1] Burada elmdə məqsəd insanın imanını saxlayan, dünya və axirətinə fayda verən və Allahın razılığına səbəb olan elmdir.

[2] Təfsiri-nümunə,1-ci cild, səh.552.

və lənət edənlərin lənətinə düçar olacaqlar. İslamda elm öyrətməyə böyük əhəmiyyət verilir. Alimlərin məsuliyyətinin də çox ağır olduğu bildirilir. Buna görə də həmin işi görənlər əsasən bəzi alimlərdir və onlar öz mənfəətlərinə görə həqiqəti demirlər.

قَالَ رَسُولُ اللَّهِ(ص): مَن سُئِلَ عَن عِلمٍ يَعلَمهُ فَكَتَمَ، لُجِمَ يَومَ القِيَامَةِ بِلُجَامٍ مِن نَّار

-Həzrət Peyğəmbər(s) buyurur: "Elmli bir kəsdən söz soruşduqda bildiyini (həqiqəti) gizlədərsə, qiyamət günü onun ağzına oddan noxta vurulacaq."[1]

İmam Əlidən(ə) soruşdular: "Yer üzündə iblisdən və Firondan sonra ən pis adam kimdir?"

Həzrət(ə) buyurdu: "(Təqvadan uzaqlaşıb) fəsad törədən alimlər. O alimlər ki, haqqa batil donu geyindirib həqiqəti gizlədərlər. O kəslər ki, Allah-təala onlar barədə buyurmuşdur: "Məhz onlardır Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər!"[2]

## Haqq heç vaxt pərdə arxasında qalmaz

Haqq-həqiqət elə bir şeydir ki, heç bir vaxt pərdə arxasında qalmaz və əvvəl-axır üzə çıxar. Bu haqda bir çox rəvayət və ibrətamiz dastanlar nəql olunmuşdur. Misal üçün həmin dastanlardan birini nəzərinizə çatdırıram:

-Günlərin birində cavan bir oğlan padşahın oğlu ilə dostlaşır. Həmişə bir yerdə gəzib dolaşırlar. Bir gün

[1] Təfsiri-nümunə,1-ci cild, səh.551.
[2] Yenə orada.

padşahın oğlu dostunu evə qonaq çağırır. Süfrə kənarında əyləşib yemək yeməyə başlayırlar. Bu zaman qulluqçular süfrəyə iki bişmiş kəklik gətirirlər. Oğlan kəklikləri görən kimi öz-özünə gülümsəyir.

Padşahın oğlu təəccüblə soruşur: Nə üçün gülüm-səyirsən?

Oğlan deyir: Kəklikləri görəndə yadıma bir hadisə düşdü.

Padşahın oğlu soruşur: Hansı hadisə yadına düşdü? Danış, mən də eşidim.

Oğlan deyir: Bir gün yolda bir tacir gördüm. Mallarını aparıb satır və qayıdırdı. Hiss etdim ki, onda yaxşı pul var. Yolunun üstündə, xəlvət bir yerdə pusqu qurub onu gözlədim. Mənə yaxınlaşanda onu yaxalayıb pullarını istədim. O, mənimlə razılaşmadı. Ona dedim ki, belə olan halda səni öldürüb pullarını aparacağam. O, yenə də pulları verməkdən imtina etdi. Mən onu yerə yıxıb öldürmək istəyəndə, o, ətrafına baxıb heç kəsin olmadığını gördü. Amma uzaqda daşın üstündəki iki kəkliyi görüb uca səslə dedi: "Ey Allahın kəklikləri, şahid olun ki, mənim qatilim budur." Mən tacirin bu sözlərinə güldüm və onu öldürüb pullarını qarət etdim. Süfrəyə gələn bu kəklikləri görəndə də həmin hadisə yadıma düşdü.

Padşahın oğlu dedi: Deməli, kəkliklər öz şahidliyini etdilər. Sonra isə cəllada əmr etdi ki, oğlanı öldürsünlər.

Düzdür, bu bir hekayətdir, amma çox ibrətamiz hekayətlərdəndir. Bu bir daha sübut edir ki, heç bir vaxt haqqı gizlətmək olmaz. Bu, bir misal da olmuş olsa, hər halda həqiqət belədir. Heyvan da olsa, insan da olsa əvvəl-axır həqiqəti üzə çıxaracaq. Haqq-həqiqət dənizin suyuna bənzəyər. Ona nə qədər batil donu geyindirsələr də əvvəl-axır üzə çıxacaq. Batil isə dənizin üzündəki köpüklər

kimidir. Sahilə çatan kimi yox olur, dənizin suyu isə olduğu kimi qalır.

Buna görə də insan heç bir vaxt həqiqəti gizlətməməlidir. Haqqı olduğu kimi danışmalı, elmini gizlətməməlidir. İnsan elə başa düşməsin ki, həqiqəti söyləməklə dünya mənfəəti əlindən çıxacaq. Haqq-həqiqəti söyləmək insanın həm bu dünyasının, həm də axirətinin xeyrinə qurtarar.

### 3. Dünyaya (xeyir və mənfəətə) xatir rəhbərlərə beyət etmək

Qeyd olundu ki, dünyada bir sıra əməllər vardır ki, insanı axirət bədbəxtlərindən edər. Həmçinin həmin əməllər axirət günündə Allahın insanla danışmamasına səbəb olur. Bu barədə danışarkən təkcə Quran ayələrinə deyil, eləcə də Peyğəmbər(s) və imamlarımızın kəlamlarına da müraciət etmək olar. Qiyamət günü insan üçün ən ağrılı əzablardan biri Allahın onunla bir kəlmə kəsməməsidir.

Bu dünyada Allah-təala hər bir insana Onunla danışmağa icazə vermişdir. Hər kim Allahdan üz döndərib başı dünyaya qarışarsa, Allah-təala onu səsləyər və danışmağa çağırar. Lakin bir sıra insanlar Allahın bu sözlərinə əhəmiyyət verməyib Ondan uzaq gəzir və demək olar ki, Allahla küsülü yaşayır. Allah-təala belə insanları barışığa çağırmasına baxmayaraq, onlar buna heç bir əhəmiyyət vermirlər. Qiyamət günü baş verdikdə isə Allah da onlarla danışmayacaq. Qısa sözlə desək, bu dünyada Allahla danışmayan və Ondan uzaq gəzən şəxslə qiyamət günü Allah da onlarla barışmayacaq. Çünki vaxtında həmin insanları barışa, söhbətə, tövbəyə və ibadətə

çağırırdı, lakin onlar Allahın sözlərini qulaqardına vururdular.

Qiyamət günündə cənnət və cəhənnəmin, hesab-kitabın, dünyada onlara verilən vədələrin haqq olduğunu və işlərin çətinləşdiyini gördükdə isə belələri Allahla danışıb Ondan mərhəmət diləmək istəyəcəklər. Lakin bu zaman Allah onlarla danışmayacaq. Çünki onlar dünyada yaşadıqları zaman peyğəmbərlərin nida və çağırışlarına da müsbət cavab verməmişlər. Əksinə olaraq peyğəmbərlər onları haqqa dəvət etdikdə peyğəmbərləri ələ salmış, daşlamış, söz yarası vurmuş, döyüb öldürmüş və əllərindən gələn pislikləri etmişlər. Qiyamət gününü gözləri ilə gördükdən sonra isə vaxtilə peyğəmbərlərin söylədiklərinin haqq olduğunu, habelə cəhənnəmi gözləri ilə görüb deyərlər: “İlahi, bizi geri qaytar, bəlkə saleh əməllər etdik.” Onlara deyilər: “Xeyr, bu, onların dediyi (boş) sözdür (gerçəkləşməyəcəkdir)”.

İnsanın axirətdə xar olmasına və Allahın insanla danışmamasına səbəb olan amillərdən biri insanın öz dünyasına (dünya mənfəətinə) xatir imam və rəhbərə beyət etməsidir. Bu barədə də bir çox hədis və rəvayətlər nəql olunmuşdur. O cümlədən:

قَالَ رَسُولُ اللَّهِ ثَلاَثَةٌ لَا يُكَلِّمُهُمْ اللَّهُ يَوْمَ الْقِيَامَةِ وَلَا يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ... وَرَجُلٌ بَايَعَ إِمَامًا لَا يُبَايِعُهُ إِلَّا لِدُنْيَاهُ إِنْ أَعْطَاهُ مَا يُرِيدُ وَفَى لَهُ وَإِلَّا لَمْ يَفِ لَهُ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah qiyamət günü üç nəfərlə (dəstə ilə) danışmayacaq, onları paklaşdırmayacaq və onları ağrılı əzaba düçar edəcək... (Onlardan biri də) öz imam və rəhbəri ilə dünyəvi

məqsədlər üçün beyət edən şəxs. Əgər (imamı onun) istəyini yerinə yetirsə, əhdinə vəfa edir, yerinə yetirməsə isə əl çəkir."[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, əgər bir insan imam və rəhbərinə dünyaya xatir, öz mənfəətlərinə xatir beyət edərsə, qiyamət günü Allah-təala həmin şəxslə danışmayacaq. Çünki həmin şəxsin beyət etməsində məqsədi dünya hədəflərinə çatmaqdır, Allaha xatir yox. Sonra Peyğəmbər(s) bunun mənasını açıqlayaraq buyurur ki, əgər beyət etdiyi imam ona dünya malından bir şey versə, öz beyətində möhkəm dayanar. Dünyadan ona bir şey vermədikdə isə beyətini pozar.

## İmam və rəhbərlər iki qisimdir

Quran ayələrinə diqqət yetirdikdə görürük ki, Allah-təala insanlar üçün iki qisim rəhbər qərar vermişdir. Bir qismi insanları mənəviyyata, cənnətə, səadət və xoşbəxtliyə doğru hidayət edir, digər qismi isə insanları zəlalətə, alçaqlığa və cəhənnəmə tərəf yönəldir. "Ənbiya" surəsinin 73-cü ayəsində belə oxuyuruq:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

-Onları Bizim əmrimizlə doğru yola yönəldən rəhbərlər etdik.

Bu ayədə o qisim rəhbərlərdən söhbət gedir ki, onlar Allahın əmri ilə insanları doğru yola, səadət və xoşbəxtliyə dəvət edirlər. İkinci qisim rəhbərlər barəsində isə "Qəsəs" surəsinin 41-ci ayəsində belə buyurulur:

---

[1] Mizanül-hikmə, hədis 7620.

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ وَيَوْمَ الْقِيَامَةِ لَا يُنصَرُونَ

-Biz onları (küfr və tüğyanları ilə gələcək nəsilləri) (cəhənnəm) od(un)a sarı çağıran rəhbərlər etdik. Qiyamət günü (heç bir şəfaət sahibi tərəfindən) onlara kömək edilməyəcək!

Allah-təala insanları hər hansı imama beyət etməkdə azad qoymuşdur. Amma hər bir insan bunu da bilməlidir ki, qiyamət günü hər kəs öz imamı ilə məhşərə gətiriləcək. “İsra” surəsinin 71-72-ci ayələrində belə oxuyuruq:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُوْلَئِكَ يَقْرَؤُونَ كِتَابَهُمْ وَلاَ يُظْلَمُونَ فَتِيلاً.

وَمَن كَانَ فِي هَذِهِ أَعْمَى فَهُوَ فِي الآخِرَةِ أَعْمَى وَأَضَلُّ سَبِيلاً

-(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı və səma kitabları ilə çağıracağıq. Beləliklə, (əməl) kitabları sağ əllərinə verilən kəslər öz kitablarını oxuyarlar və onlara xurma çərdəyinin arxasındakı tel qədər zülm edilməz (nə günahlarından artıq cəza görərlər və nə də layiq olduqlarından az mükafat alarlar).

(Qəlbi) bu dünyada kor olan kəs axirətdə də kordur və o, (səadət) yolu(nu) çox azmışdır.

Surənin 72-ci ayəsindəki incə bir məqama da diqqət yetirək. Bu ayədə deyilir ki, dünyada kor olanlar axirətdə də kor olacaqdır. Burada əməldən söhbət getmədiyi üçün və imamət məsələsi olduğu üçün əməl dəftərindən söhbət açılmır. Çünki imamət məsələsi etiqad və əqidəyə aid olduğundan hər kəs dünyada öz imamını tanımırsa, qəlbi kor olmuşdur və qiyamət günü də məhşərə kor gətiriləcək. Ayənin ardınca buyurulur ki, onlar öz imamlarını düzgün seçmədikləri üçün yollarını çox azmışdılar.

Allah-təala insanların düzgün seçim etmələri üçün peyğəmbər və imamlar təyin etmişdir. Yolu düzgün seçməyi və hansı imama beyət etməyi bizə onlar göstərirlər. Hədislərə diqqət yetirdikdə bizə çox aydın surətdə bütün bu məsələləri öyrətmişlər. İmam Baqir(ə) buyurur:

قَالَ اللهُ تَعالی: لأُعَذِّبَنَّ كُلَّ رَعِيَّةٍ فِى الإِسلامِ دَانَت بِوِلايَةِ كُلِّ إِمامٍ جَائِرٍ لَيسَ مِنَ اللهِ

-Allah-təala buyurur: "Zalım insanların vilayət və rəhbərliyini qəbul edən hər bir rəiyyəti əzaba düçar edərəm. Zalım insanların rəhbərliyi Allaha aid deyil." [1]

Bu hədisdən başa düşülür ki, insan gərək Allahın təyin etdiyi imamın vilayətini qəbul etsin. Allah zalım insanların rəhbərliyini təsdiq etməyib. Digər bir hədisdə isə belə oxuyuruq:

قَالَ الصَّادِقُ(ع): مَن اَشرَكَ مَعَ اِمَامٍ, اِمَامَتُهُ مِن عِندِ اللهِ مَن لَيسَت اِمامَتهُ مِن اللهِ كَانَ مُشرِكاً بِالله

-İmam Sadiq(ə) buyurur: "Hər kəs Allahın təyin etmədiyi rəhbəri Onun təyin etdiyi rəhbərə şərik qoşsa, elə bil Allaha şərik qoşmuşdur." [2]

قَالَ الصَّادِقُ(ع): ثَلاَثَةٌ لاَ يُكَلِّمهُمُ الله يَوْمَ القِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ:

[1] Mizanül-hikmə,1-ci cild, səh. 228.
[2] Yenə orada.

مَن ادَّعَى إمَامَةً مِنَ اللَهِ لَيْسَتْ لَهُ؛

وَمَنْ جَحَدَ إمَاماً مِنَ اللَهِ؛

وَمَنْ زَعَمَ أَنَّ لَهُمَا فِي الإسلام نَصِيباً

-İmam Sadiq(ə) buyurur: "Allah-təala qiyamət günü üç dəstə insanla danışmaz, onları paklaşdırmaz və onları çətin əzaba düçar edər:

1.Özlərini yalandan Allah tərəfindən təyin olunmuş rəhbər kimi tanıtdıran şəxsləri;

2. Allah tərəfindən təyin olunmuş rəhbəri inkar edən şəxsləri;

3. Bu iki dəstənin İslamdan payları olduğunu bilən şəxsləri."[1]

Deməli, Allah-təala qiyamət günü bu üç dəstə insanla danışmayacaq və onları ağrılı əzaba düçar edəcəkdir. Birinci dəstə özlərini yalandan Allah tərəfindən təyin olunmuş kimi göstərən, ikinci dəstə Allah tərəfindən təyin olunmuş rəhbəri inkar edən və üçüncü dəstə isə onları təsdiqləyən kəslərdir. Yəni hər kəs bu iki dəstənin İslamdan payları olduğunu təsəvvür etsə, həmin şəxs də əzaba düçar olacaq və Allah-təala qiyamət günü onunla da danışmayacaq.

## Hər kəs öz sevdiyi ilə birgə olacaq

Burada bir mətləbə işarə etmək lazımdır ki, dünyada hər kəs kimi və nəyi sevirsə, qiyamət günü onunla birgə olacaq. Əgər insan günahkarları sevərsə onlarla, Allaha itaət edənləri sevərsə yenə də onlarla birlikdə olacaqdır.

---

[1] Mizanül-hikmə,1-ci cild, səh. 230.

Bu barədə də bir çox hədislər naql olunmuşdur. O cümlədən:

قَالَ البَاقِر(ع): إذا أَرَدتَ أن تَعلَمَ أنَّ فيكَ خَيراً فَانظُر إلى قَلبِكَ ؛ فَإِن كانَ يُحِبُّ أهلَ طاعَةِ اللهِ ويُبغِضُ أهلَ مَعصِيَتِهِ فَفيكَ خَيرٌ وَاللهُ يُحِبُّكَ ، وإن كانَ يُبغِضُ أهلَ طاعَةِ اللهِ ويُحِبُّ أهلَ مَعصِيَتِهِ فَلَيسَ فيكَ خَيرٌ وَاللهُ يُبغِضُكَ ، وَالمرءُ مَعَ مَن أحَبَّ

-İmam Baqir(ə) buyurur: "Əgər səndə xeyir olmasını (xeyirli adam olduğunu) bilmək istəyirsənsə, o zaman qəlbinə bax (müraciət et). Əgər Allaha itaət edənləri sevirsənsə və günahkarlardan acığın gəlirsə, deməli, səndə xeyir vardır və Allah da səni sevir. Yox, əgər Allaha itaət edənlərdən acığın gəlirsə və günahkarları sevirsənsə, səndə xeyir yoxdur. Allahın da səndən acığı gəlir. (Qiyamət günü) hər kəs öz sevdiyi ilə birlikdə olacaq."[1]

Suban Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi və onun Peyğəmbərə(s) qarşı hədsiz sevgisi var idi. Onu o qədər sevirdi ki, evdə əyləşib düşünür, ürəyinə bir xəyal və ya fikir gəldikdə tez gedib Peyğəmbərdən(s) soruşurdu. Günlərin birində havanın çox isti olduğu bir vaxtda o, yenə də Peyğəmbərin(s) yanına gəlir. Peyğəmbər(s) havanın belə isti vaxtında Subanın gəldiyini görüb təəccüblə soruşur: "Nə baş verib? Xeyr olsun, bu vaxtı gəlmisən?"

Suban deyir: "Ya Rəsulallah(s), səni görməyəndə narahat oluram. Bu gün evdə əyləşib öz-özümə fikirləşirdim. Birdən ürəyimə belə bir fikir gəldi. Əgər

---

[1] Musadəqətül-ixvan, səh.50.

qiyamət günü cənnətə də getmiş olsam, yəqin bilirəm ki, orada səninlə mənim yerim fərqli olacaq. Sən Allahın peyğəmbərisən. Allah-təala sənə uca məqamlar inayət etmişdir. Cənnətin ən yüksək dərəcəsində sən olacaqsan. Amma mən bilmirəm, cənnətə gedəcəyəm, yoxsa cəhənnəmə. Əgər Allahın lütf və mərhəməti ilə cənnətə getsəm, sənin yanında olmayacağam. Belə olduqda orada səni necə ziyarət edəcəyəm? Mən səndən ayrı qala bilmərəm. Buna görə də özümü çox narahat hiss edirəm. Bu gün həm səni ziyarət etmək, həm də bu məsələnin həlli yolunu öyrənmək üçün hüzuruna gəldim.”

Həzrət Peyğəmbər(s) onun cavabında “Nisa” surəsinin 69-cu ayəsini oxudu:

وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَئِكَ رَفِيقًا

-Allaha və Onun Peyğəmbərinə (səmimi) itaət edənlər (dünya və axirətdə) Allahın nemət verdiyi kəslərlə – peyğəmbərlər, doğruçular, şəhidlər, əməllərə şahid olanlar və saleh insanlarla birlikdədirlər. Onlar gözəl dostlardır.

Bu hədislər bizə açıq-aydın şəkildə öyrədir ki, hər kəs kimi sevirsə və kimə məhəbbət bəsləyirsə, qiyamət günü onunla birgə olacaq. Burada qeyd etmək lazımdır ki, hər kəs kimin əməlinə və işlərinə razıdırsa, qiyamət günü həmin işləri görənlərin sırasında olacaq. Əgər bir insan hər hansı bir cinayətə və yaxud xeyir bir işə razılığı varsa, orada olmasından asılı olmayaraq həmin işin baş vermәsində şərikdir.  Quran ayələrinə diqqət yetirdikdə bu məsələnin şahidi oluruq. Hər kəs zülm edən insanı dəstəkləsə, həmin zalımla heç bir fərqi yoxdur. Saleh

Peyğəmbərin(ə) qövmü onun dəvəsinin ayaqlarını kəsdi. Onlardan bir nəfər bu işi görmüşdü, lakin Allah-təala onların hamısını məhv etdi. Hətta Quranda Allah-təala bu kimi hadisələri bizə açıq-aydın nümunə ilə göstərmişdir. "Şüəra" surəsində Saleh Peyğəmbərin(ə) qövmü barədə belə buyurulur:

فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ فَأَخَذَهُمُ الْعَذَابُ إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

-Amma onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular. Artıq əzab onları yaxaladı (hamı məhv oldu). Şübhəsiz ki, bunda (Salehin bu hekayətində) bir ibrət vardır. Halbuki onların əksəriyyəti iman gətirmədi.[1]

قَالَ عَلِيٌّ(ع): اَيُّهَا النَّاس إِنَّمَا يَجْمَعُ النَّاسَ الرِّضَا وَ السَّخَطُ وَ اِنَّمَا عَقَرَ نَاقَةَ ثَمُودَ رَجُلٌ وَاحِد فَعَمَّهُمُ اللهُ بِالْعَذَابِ لَمَّا عَمُّوهُ بِالرِّضَا

-Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də bu barədə belə buyurur: "Camaat! Həqiqətən, günaha razı olmaq və Allaha ibadət etməkdən acığı gəlmək camaatı bir yerə toplamışdır. Səmud tayfasından yalnız bir nəfər dəvənin ayaqlarını kəsib onu öldürmüşdü. Lakin Allah onların hamısını əzaba düçar etdi. Çünki onlar bu işə (dəvəni öldürməyə) razı idilər.

Deməli, hər kəs zülm etsə və ya zülmkarın əməlinə razı olsa, onu dəstəkləsə, bu işdə kömək etsə, zülm

---

[1].Şüəra surəsi, ayə 157-158.

etməkdə şərikdir. İmam Hüseynin(ə) ziyarətnaməsini oxuyarkən bu mövzuya rast gəlmək olur:

لَعَنَ اللهُ اُمَّةً قَتَلَتكَ لَعَنَ اللهُ اُمَّةً ظَلَمَتكَ لَعَنَ اللهُ اُمَّةً سَمِعَت بِذلِكَ فَرَضِيَت بِهِ

- Allah səni öldürənlərə lənət etsin. Allah sənə zülm edənlərə lənət etsin. Allah o kəslərə lənət etsin ki, sənə edilən bu zülmü eşidib, bu işə razı olublar.

Kərbəlada Şimr(l) İmam Hüseynin(ə) başının üzərində dayanıb Həzrətin(ə) başını kəsmək istəyir. Hər kəs bu hadisəni görür, eşidir və ya eşidib, amma səsini çıxarıb etiraz etmirsə və ya dinmirsə, Şimrlə eyni dərəcədədir. Çünki Şimrin bu hərəkətinə razı olanlar onunla eynidirlər.

Cabir ibn Abdullah Ənsari Peyğəmbərin(s) ən yaxın səhabələrindən biri idi. O, İslam aləmində çox tanınmış və məşhur bir insandır. Ərbəin günü İmam Hüseynin(ə) qəbrini ziyarət edən ilk insan Cabir olmuşdur. Ətiyyə ibn Ovfi deyir: "İmam(ə) şəhid olduqdan sonra ərbəin günü Cabir ibn Abdullahla birgə Kərbəlaya gəldik. Cabirin ömrünün axır illəri idi. Qocaldığından onun gözləri tutulmuşdu. Mən onun əlindən tutub Fərat çayının kənarına gətirdim. Cabir orada ziyarət qüslü etdikdən sonra İmam Hüseynin(ə) qəbrinin yanına gəldik. Cabir orada əyləşərək əllərini İmamın(ə) qəbrinin üstünə qoyub, üç dəfə "Ya Hüseyn" deyərək səsləndi. Sonra dedi: "Ya Hüseyn, dost öz dostunu səslədikdə cavab verməzmi? Sonra öz-özünə dedi: Ey Cabir, o, sənə necə cavab verə bilər ki, axı başını bədənindən ayırıblar."

Cabir İmamın(ə) qəbri üstündə bu kimi söhbətlər edib o qədər ağladı ki, qəşş edib özündən getdi. Mən onun

üzünə su səpib onu ayıltdım. Cabir özünə gəldikdən sonra şəhidlərin qəbirlərinə baxıb dedi:

اَلسَّلامُ عَلَيكُم أَيَّتُهَا الاَروَاحِ الَّتِي حَلَّت بِفَنَاءِ الْحُسَين(ع) وَأَنَاخَت بِرَحلِهِ وَأَشهَدُ أَنَّكُم أَقَمتُمُ الصَّلاة وَ آتَيتُم الزَّكَاة وَ أَمَرتُم بِالْمَعرُوف وَ نَهَيتُم عَنِ الْمُنكَر وَجَاهَدتُم الْمُلحِدِين وَعَبَدتُمُ اللهَ حَتَّى أَتَاكُمُ اليَقِين وَالَّذِي بَعَثَ مُحَمَّدًا بِالْحَقِّ نَبِيًّا لَقَد شَارَكنَاكُم فِيمَا دَخَلتُم فِيهِ.

-Salam olsun siz pak ruhlara ki, Hüseynin(ə) yanında şəhid oldunuz. Şəhadət verirəm ki, siz namaz qıldınız, zəkat verdiniz, əmr be məruf və nəhy əz münkər etdiniz, pis insanlarla cihad etdiniz və ölənə qədər Allaha itaət və ibadət etdiniz. And olsun Məhəmmədi(s) məbus edən Allaha ki, biz də sizin daxil olduğunuz (aid olduğunuz, etdiyiniz) işə şərik idik.

قَالَ عَطِيَّةُ: فَقُلْتُ لِه: يا جَابِرٍ وَكَيْفَ وَ لَمْ نَهْبِطْ وَادِياً وَلَمْ نَعْلُ جَبَلًا وَلَمْ نَضْرِبْ بِسَيْفٍ، وَالْقَوْمُ قَدْ فُرِّقَ بَيْنَ رُؤوسِهِمْ وَأَبْدَانِهِمْ وَأُوتِمَتْ أَوْلَادُهُمْ وَأَرْمَلَتِ أزواجهم.

-Ətiyyə deyir: “Onun bu sözlərini eşidib təəccüblə dedim: Ey Cabir! Biz əziyyət çəkmədik, qılınc vurmadıq. (Biz heç burada olmamışıq)! Bu insanların başları bədənlərindən ayrılıb, ailələri tənha qalıb, uşaqları yetim qalmışdır. Necə ola bilər ki, biz əcr və savabda onlara şərik olaq?”

فَقَالَ لِي: يَا عَطِيَّةُ، سَمِعْتُ حَبِيبِي رَسُولَ اللَّهِ (صلى الله عليه وآله) يَقُولُ: «مَنْ أَحَبَّ قَوْماً حُشِرَ مَعَهُمْ، وَمَنْ أَحَبَّ عَمَلَ قَوْمٍ أُشْرِكَ

فِي عَمَلِهِمْ»، وَالَّذِي بَعَثَ مُحَمَّداً بِالْحَقِّ نَبِيّاً إِنَّ نِيَّتِي وَنِيَّةَ أَصْحَابِي عَلَى مَا مَضَى عَلَيْهِ الْحُسَيْنُ (عليه السلام) وَأَصْحَابُهُ

-Cabir mənə dedi: "Ey Ətiyyə! Mən öz iki qulağımla Allahın Rəsulundan(s) eşitmişəm ki, buyurub: "Hər kəs kimi sevərsə və hər kəs hansı qövmün əməlini sevərsə (bəyənərsə), o əməlin savabında onlarla şərikdir". Sonra dedi: "Ey Ətiyyə! Rəsulullah(s) buyurdu: "Mənim də əshabımın niyyəti – Hüseynin (ə) və əshabının həmin niyyətidir."

Bu hədisi Cabir ibn Abdullah kimi böyük bir səhabə nəql edir. Cabir İslam aləmində böyük və tanınmış bir şəxsiyyətdir. Bu hadisədən açıq-aydın görürük ki, hər kəs savab bir işdə niyyət etsə və üzrlü səbəbdən orada iştirak edə bilməsə, onlarla şərikdir. Həmçinin əgər insan günah işdə niyyət etsə və ya həmin günahın icra olunmasına razı qalsa, deməli, həmin günahda şərikdir.

**4. Zina**

İnsanı axirətin bədbəxtlərindən edən və Allahın qəzəbinə səbəb olan əməllərdən biri zinakarlıqdır. Bəhsimizə uyğun olaraq deyək ki, Allah- təala qiyamət günü zinakar insanla danışmayacaq və onu əzaba düçar edəcəkdir. Ümumiyyətlə, zina çox pis bir əməldir. Allahın bu işi görənlərdən o qədər acığı gəlir ki, kim zinakarlıqla məşğul olsa, qiyamət günü Allah-təala həmin şəxsə nəzər etməz və onunla danışmaz. Hədis belədir:

قَالَ الصَّادِقُ(ع): ثَلاَثَةٌ لاَ يُكَلِّمُهُمُ اللهُ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ:

تُوَطِّئُ فَرَاشَ زَوجِهَا؛

الدَّيُّوث؛

اَلشَّيخُ الزَّانِى.

-Həzrət İmam Sadiq(ə) buyurur: “Allah qiyamət günündə üç dəstə insanla danışmaz, onları paklaşdırmaz və onları şiddətli əzaba düçar edər. O üç dəstədən biri ərinə xəyanət edən qadın, biri biqeyrət kişi (dəyyus), biri isə zinakar qocalardır.”[1]

Bu çirkin əməl barədə danışmazdan öncə zinanın haram və qadağan olunması barədə olan ayəyə diqqət yetirək. Allah-təala “İsra” surəsinin 32-ci ayəsində belə buyurur:

وَلاَ تَقْرَبُواْ الزِّنَى إِنَّهُ كَانَ فَاحِشَةً وَسَاء سَبِيلاً

-Və zinaya yaxınlaşmayın (hətta onun üçün müqəddimə ola biləcək əməllərdən uzaq olun), çünki o, çox çirkin (bir əməl) və (cəmiyyətin pozulması və onun mənəviyyatsızlığı ilə nəticələnən) pis bir yoldur.

Bu ayədə olan incəliklərdən biri budur ki, Allah-təala insanları zinaya yaxınlaşmamağı əmr edir. Əlbəttə, insan zina etməməlidir, hətta bu əmələ yaxınlaşmamalıdır. Yaxınlaşmamaq dedikdə bu sözün içində zina etməyin qadağan olması da vardır. Ayənin belə gözəllik və bəlağətlə başlaması onu bildirir ki, zinaya yaxınlaşmaq dedikdə onun içində başqa əməllər də mövcuddur. Yəni insan hətta zinaya şərait yaradan amillərdən belə çəkinməlidir. Sual oluna bilər ki, o hansı əməllərdir ki,

[1] Böyük günahlar,2-ci cild, səh.331.

zina üçün şərait yaradır? Cavab olaraq demək olar ki, zinanın müxtəlif müqəddimələri vardır. Hər kəs bu müqəddimələri edərsə, nəticədə həmin pis əmələ düçar olacaq. Ayədə bizə zinadan qəti şəkildə çəkinməkdən əlavə, hətta bu əməlin müqəddimələrindən və insanı həmin əmələ yaxınlaşdıran amillərdən belə uzaqlaşmaq əmr olunur. Həmin çirkin əməlin şərait və müqəddimələrindən bir neçəsinə diqqət yetirək.

## Naməhrəmə baxmaq

Yəni naməhrəm oğlanın naməhrəm qıza, həmçinin naməhrəm qızın naməhrəm oğlana baxması haramdır. Çünki zinanın əvvəli baxmaqdan başlanır. İnsan naməhrəmə baxdıqda gözü onu tutur. Gözü tutduqdan sonra ürəyi onda qalır. Ürək qaldıqdan sonra fikri qarışır və o barədə düşünür. Fikir qarışdıqda isə şeytan da insanı zinaya sövq etməyə başlayır.

## Hicabsızlıq

Zina üçün şərait yaradan müqəddimələrdən ikincisi hicaba riayət etməməkdir. İstər kişi olsun, istərsə də qadın hər kəs geyimlərinə fikir verməlidir ki, naməhrəm onu gördükdə qəlbi həyəcana gəlməsin. Allah- təala Peyğəmbərə(s) buyurur ki, mömin kişilərə və mömin qadınlara bu işlərdə diqqətli olmaları barədə göstəriş versin. “Nur” surəsinin 30-31-ci ayələrində belə buyurulur:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ
إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ.

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ أَوْ آبَائِهِنَّ أَوْ آبَاء بُعُولَتِهِنَّ أَوْ أَبْنَائِهِنَّ أَوْ أَبْنَاء بُعُولَتِهِنَّ أَوْ إِخْوَانِهِنَّ أَوْ بَنِي إِخْوَانِهِنَّ أَوْ بَنِي أَخَوَاتِهِنَّ أَوْ نِسَائِهِنَّ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُنَّ أَوِ التَّابِعِينَ غَيْرِ أُوْلِي الْإِرْبَةِ مِنَ الرِّجَالِ أَوِ الطِّفْلِ الَّذِينَ لَمْ يَظْهَرُوا عَلَى عَوْرَاتِ النِّسَاء وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Mömin kişilərə de ki, (başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini (ondan) çevirsinlər və ayıb yerlərini (görünməkdən) qorusunlar. Bu onlar üçün daha pakdır. Həqiqətən, Allah onların etdiklərindən xəbərdardır.

-Mömin qadınlara de ki, (başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini (ondan) çevirsinlər və öz ayıb yerlərini (üz və əllərindən başqa bədənlərinin hər yerini yadların görməsindən) qorusunlar. Həmçinin öz zinət və bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və s., naçarlıqdan öz-özlüyündə) görünən (üst paltarları, əl və üz kimi şeylər) istisna olmaqla, üzə çıxarmasınlar. Gərək (boyun və sinələrinin örtülməsi üçün) baş örtüklərini (çəkib) yaxalarına salsınlar və zinət (və zinət yer)lərini ərlərindən, atalarından, qayınatalarından, oğullarından, ərlərinin oğullarından, qardaşlarından, qardaşlarının oğullarından, bacılarının

oğullarından, özlərindən olan (müsəlman) qadınlardan, kənizlərindən, şəhvəti olmayan qulluqçu kişilərdən və qadınlarla yaxınlıq qüdrəti olmayan uşaqlardan başqa heç kəsə göstərməsinlər. (Ayağına xalxal taxmış qadınlar) gizlətdikləri zinətlərin bilinməsi üçün ayaqlarını yerə (bərk) vurmasınlar. Ey möminlər, hamınız (bütün cəhətlərdə) Allaha tərəf qayıdın ki, bəlkə nicat tapdınız.

Bu ayələrdə açıq-aydın şəkildə əmr olunmuşdur ki, qadınlar hətta ayaqlarını yerə möhkəm vurmasınlar. Qədim vaxtlarda qadınlar ayaqlarına xalxal taxardılar. Ayaqlarını azacıq yerə möhkəm vurduqda həmin xalxallar səs çıxarardı. Bu da naməhrəm kişilərin həyəcanlanmasına səbəb olardı. Hazırkı dövrümüzdə isə demək olar ki, həmin xalxallar dikdaban ayaqqabı ilə əvəz olunmuşdur. Qadınlar həmin ayaqqabıları geyinib ayaqlarını yerə vurduqda taqqıldayaraq naməhrəmi özünə cəlb edə bilir. Hərçənd bu iş qadının özündən asılı olmasa da belə, yaxud niyyəti kimisə cəlb etmək olmasa da bilməlidir ki, bu kimi geyimləri Allah-təala haram buyurmuşdur. Yəni Allah-təala qadınlara İslamın buyurduğu kimi hicaba riayət etməyi və özlərini naməhrəmdən örtməyi əmr edir. Hətta yol yeriyərkən ayaqlarını belə yerə möhkəm vurmamalıdırlar.

## Erotik və şəhvətgətirici kitab, jurnal, məqalə və s.-ni oxumaq

Zina əməlinə şərait yaradan müqəddimələrdən biri də erotik və şəhvətgətirici kitablar, jurnallar və məqalələri oxumaqdır. Hər hansı bir kitab və jurnal insanın fikrini zinaya tərəf çəkirsə, deməli, onlar bu pis əməl üçün şərait yaradır.

### Erotik və şəhvətgətirici filmlər və s. kadrlara baxmaq

Həmçinin erotik və şəhvətgətirici filmlər, şəkillər, kadrlara baxmaq da haram və qadağandır. Çünki bütün bunların hamısı insanın zinaya sövq olunmasına şərait yaradır.

### Naməhrəm kişi və qadının xəlvət bir yerdə qalması

Ümumiyyətlə, naməhrəm kişi ilə naməhrəm qadın xəlvət otaqda qalmamalıdır. Çünki belə olduqda şeytan bundan istifadə edərək hər ikisini çaşdırır və zina etmək üçün şərait yaradır.

### Naməhrəm kişi ilə qadının həddindən artıq danışması

Zina üçün şərait yaradan amil və müqəddimələrdən biri də naməhrəm kişi ilə naməhrəm qadının müxtəlif mövzularda uzun-uzadı söhbət etmələridir.

Qeyd olunan amillərin hamısı zina üçün müqəddimədir. İnsan mütləq bu işlərdən çəkinməlidir. Buna görə də Allah-təala ayədə buyurur ki, zinaya yaxınlaşmayın. Yəni zina özü qəti qadağan olunması aydın məsələdir. Hətta bu əməl üçün şərait yaradan müqəddimələrdən belə çəkinmək lazımdır.

## Zinanın haram olmasının fəlsəfə və səbəbləri

Sual oluna bilər ki, zinanın haram edilməsinin səbəbi nədir? Cavab olaraq deyə bilərik ki, zinanın haram

olmasının böyük səbəbləri vardır ki, onların bəzisinə işarə edirəm:

1. Zina elə bir əməldir ki, hər hansı bir ailədə bu əmələ yol verilərsə, həmin ailədə hərc-mərcilik yaranar, ata ilə övladların münasibətləri pozular və bütün bunlar ailənin dağılmasına səbəb olar.

2. Zina olan yerdə ailədə və cəmiyyətdə olan məhəbbət pozulub aradan itir və həmin cəmiyyət heyvani cəmiyyətə çevrilir.

3. Zina elə bir əməldir ki, elm də bu əməlin nəticəsində insanların müxtəlif növ xəstəliklər tapmasını və cəmiyyətin sağlamlığının xətər altına düşməsini sübut edir.

4. Zina elə bir əməldir ki, abortların çoxalmasına, uşaqların öldürülməsinə və nəslin kəsilməsinə səbəb olur. Çünki zinakar qadınlar zinadan bətninə düşmüş körpələri dünyaya gətirməyə razı olmurlar. Buna görə də cinayətə əl ataraq abort etdirib körpələri tələf edirlər.

Ensiklopedik kitablara diqqət yetirdikdə görürük ki, statistik məlumatlara görə Qərb ölkələrində, xüsusilə ABŞ-da insanların 90 faizi bu çirkin əməlin nəticəsində müxtəlif xəstəliklərə düçar olmuşlar.[1] Bu elə bir rəqəmdir ki, səhiyyə təşkilatları tərəfindən rəsmi olaraq elan edilmişdir.

Digər bir kitabda yazılır ki, hər il Amerikada 3000-dən 4000-dək xəstə uşaq dünyaya gəlir. Bütün bunların da səbəbi həmin zinakarlıqla birbaşa bağlıdır.

Londonun cənubunda təbabət elmi ilə məşğul olan bir həkim məqalələrinin birində belə yazır: “Londonda hər

---

[1] Britaniya ensiklopediyası,3-cü cild, səh. 45.

il 50 min abort baş verir və dünyaya göz açan hər 20 uşaqdan 1-i qeyri-halal yolla (zinadan) dünyaya gəlir.”

Bütün dünya ölkələrində alimlərin apardıqları araşdırmalara və statistik məlumatlara diqqət yetirdikdə zinanın nə qədər çirkin bir əməl olduğunun və bu əməlin nəticəsində yaranmış xəstəliklərin və baş vermiş cinayətlərin şahidi oluruq.

## Ailə qurmaqda məqsəd

Görəsən nə üçün dünyada bu qədər dəhşətli xəstəliklər və cinayət hadisələri baş verir? Çünki dünyanın bir sıra ölkələrində əksər insanlar ailənin şəhvət və cinsi tələbatların ödənilməsi baxımından qurulmasının zəruri olduğunu düşünürlər. Onlar elə güman edirlər ki, ailənin məhz cinsi tələbata görə qurulması qaçılmazdır. Lakin əsl həqiqətdə ailənin yalnız şəhvət və cinsi tələbat əsasında qurulması ilə bağlı fikir sözün həqiqi mənasında reallığı tam əks etdirmir. Aydın məsələdir ki, ailə qurulmasında əsas məsələlərdən biri də cinsi tələbatların ödənilməsidir. Bununla belə, ailənin qurulması kimi mühüm bir məsələnin daha önəmli xüsusiyyətləri vardır. Ailə qurmaqda əsas məqsədlərdən birincisi insanların bir-biri ilə ünsiyyət qurması və onların arasında qarşılıqlı məhəbbətin yaranmasıdır. İnsanlar ailə qurduqdan sonra həm kişinin, həm də qadının ürəyi öz ailəsi ilə rahatlıq tapır. “Rum” surəsinin 21-ci ayəsində oxuyuruq:

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

-Onların yanında aramlıq tapasınız deyə sizin üçün (mələklərdən, cinlərdən və başqa məxluqlardan deyil) öz cinsinizdən zövcələr yaratmağı və sizin aranızda dostluq əlaqəsi, batini mehr-məhəbbət yaratması onun nişanələrindəndir, həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın tövhidi, qüdrəti və hikmətinə dair) nişanələr vardır.

Buradan da açıq-aydın şəkildə görürük ki, ailə qurmaqda əsas məqsəd cinsi tələbatların ödənilməsi məsələsi deyildir. Cinsi tələbatın təmin edilməsi həmin

məsələlərdən yalnız biridir. Bundan əlavə, daha mühüm və önəmli məsələlər də vardır ki, insanlar ailə qurmaqla həmçinin bir-birilərinə yardımçı olurlar. Yəni iki insan bir-biri ilə ailə qurur, aralarında mehr-məhəbbət yaranır və belə olduqda bir-birinə kömək və yardımçı olurlar. Ailə kiçik bir cəmiyyət olduğundan onun hər bir üzvünün də öhdəsinə müəyyən vəzifələr düşür. Bəzən onlar bu vəzifələri yerinə yetirməkdə bir-birinə yardımçı da olmalıdırlar.

Həzrət Fatimeyi Zəhra(s.ə) Həzrət Əli(ə) ilə ailə qurduqdan sonra Peyğəmbərin(s) hüzuruna gəldilər. Həzrət Peyğəmbər(s) onların istəyinə uyğun olaraq ailə işlərini aralarında bölüşdürdü. Həzrət İmam Baqir(ə) həmin məsələni bizim üçün belə açıqlayır:

اِنَّ فَاطِمَة عَلَيهَا السَّلام ضَمِنَت لِعَلِيٍّ عَلَيهِ السَّلام عَمَلَ البَيت وَالعَجِين وقَمَّ البَيت، وَضمِنَ عَلِيٌّ عَلَيهِ السَّلام مَا كَانَ خَلفَ البَاب. نَقلَ حَطَب وَأَن يَجِيءَ بِالطَّعَام،

-Həzrət Fatimə(s.ə) Həzrət Əli(ə) ilə ailə qurduqdan sonra ev işlərini aralarında böldülər. Xanım Fatimə(s.ə) xəmir yoğurmaq, yemək bişirmək, evi süpürmək və s. kimi ev işlərini öz öhdəsinə götürdü. Həzrət Əli(ə) də evin çölü ilə bağlı olan odun daşımaq, evə lazım olan ərzaqları alıb gətirmək və s. işləri öz üzərinə götürdü. Həzrət Peyğəmbər(s) onların ailə işlərini beləcə bölüşdürmüşdü.

Günlərin birində Həzrət Əli(ə) evə gəlib soruşdu: “Evdə yeməyə nəyimiz var?

Xanım Zəhra(s.ə) belə cavab verdi: Üç gün olar ki, ərzağımız qurtarıb.

Həzrət Əli(ə) buyurdu: Bəs nə üçün mənə xəbər etmirsən?

Xanım Zəhra(s.ə) buyurdu: Allahın Rəsulu məni sənin evinə gəlin göndərərkən səndən heç bir şey istəməməyi mənə tapşırmışdı. Mənə buyurmuşdu ki, əmoğlundan heç nə tələb etmə. Özü evə nə gətirərsə, gətirər. Əks-təqdirdə ondan bir şey istəmə ki, birdən onu almağa imkanı olmaz, qoy xəcalətli olmasın."

Buradan görürük ki, İslamın tərbiyə etdiyi ailə belə olmalıdır. Ailədə mövcud olan bu mehribançılıq qarşılıqlı məhəbbətin nəticəsidir. Ailə daxilində olan məsələlər də bütün üzvlərin hamısına aiddir. Ailənin hər bir üzvünün öhdəsinə düşən işlər vardır ki, bütün bu işlər məhəbbət və sevgi əsasında bölüşdürülməlidir. Hətta ailədəki çətinliklərə belə bütün ailə üzvləri dözüb səbir etməli və həmin çətinlikləri birlikdə aradan qaldırmalıdırlar. Ailə üzvləri həm çətin anlarda, həm də yaxşı günlərdə bir-birinə dayaq olmalıdırlar. Belə olduqda həmin ailə Allahın razılığını cəlb edər və Allah-təala bu cür ailəyə Öz rəhmətini və bərəkətini nazil edər.

Cabir ibn Abdullah Ənsari deyir: "Günlərin birində Peyğəmbər(s) qızının evinə gəldi. Gördü ki, Fatimənin(s.ə) başında dəvə yunundan bir şal var. Əl dəyirmanı ilə buğdanı üyüdə-üyüdə uşağına süd verir. Peyğəmbər(s) onun bu halını gördükdə gözləri yaşardı. Sonra buyurdu: Qızım, axirətin şirinliyindən əvvəl dünyanın acılığını dad. (Yəni dünyanın acılığını dadmayan axirətin şirinliyinə çatmaz. Ailə çətinliklərinə dözmək axirətin şirinliyini əldə etmək deməkdir.)

Xanım Fatimə(s.ə) ərz etdi: Batini (görmədiyimiz) nemətlərinə görə həmd olsun Allaha. Şükür olsun Onun zahiri nemətlərinə.

Həzrət Peyğəmbər(s) elə oradaca “Zuha” surəsinin 5-ci ayəsini qızına oxudu:

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

-Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.”

Həzrət Əli(ə) özü də ailə işlərində həyat yoldaşına kömək edərdi. Həzrət(ə) özü də belə buyurur: “Günlərin birində Peyğəmbər(s) bizə gəldi. Gördü ki, Fatimə(s.ə) qazanın kənarında yemək bişirməklə məşğuldur. Mən də mərcini təmizləyir və ona kömək edirdim. Peyğəmbər(s) bizə baxdıqdan sonra buyurdu: Ya Əli, sizə demək istədiyim bir söz var. Onu bil ki, bu sözlər Allah tərəfindəndir. Hər hansı kişi evdə öz həyat yoldaşına (ailə işlərində) kömək etsə, Allah-təala həmin kişiyə bədəninin tüklərinin sayı qədər ibadət savabı verər. Elə bir ibadətin savabını ki, il boyu gündüzləri oruc tutmuş, gecələri ibadətlə keçirmişdir.”

Həmçinin İslama görə qadının evdə ərinə qulluq göstərməsi Allah yolunda cihad etməyə bərabərdir. Allah-təala yolunda qadının cihadı evdə ərinə və övladlarına qulluq etməsidir. Əgər kişi evə ədəblə və məhəbbətlə gəlirsə və qadın da onun üçün yemək hazırlayır, qulluğunda dayanır, paltarlarını yuyur, uşaqlarına baxırsa, Allah-təala həmin qadına cihad meydanında al qanına boyanmış oğlanların savabını əta edər.

Bəs bütün bunlar nəyin sayəsində mümkün ola bilər. Aydın məsələdir ki, şəhvət və cinsi tələbatların ödənilməsi bütün bunları həll etmir. Deməli yalnız ailədə olan mehr-məhəbbət və qarşılıqlı sevgi bu kimi ülvi münasibətlərin əsası ola bilər. Belə olduqda isə heç şübhəsiz ki, ailə üzvlərinin hər biri bir-birinə kömək və yardımçı olar.

İslam dini də məhz belə bir ailənin tərəfdarıdır. İslam dini bu cür ailələri nümunə olaraq insanlara təqdim edir. Ailə şəhvət və cinsi məsələni təmin etməkdən ibarət deyil. Bəzən insan şəhvət məsələsini həll etmək üçün hər şeyi bərbad edir. Ailə insanlar arasında əlaqə və məhəbbətin yaranmasıdır. Ailə cəmiyyətin sağlam olması deməkdir, ailə insan tərbiyəsinin təməlidir.

Ailə qurmağın səbəblərindən biri də övlad tərbiyəsi ilə məşğul olmaqdır. Ər-arvad əl-ələ verib dünyaya gətirdikləri övladı tərbiyə edirlər. Övladı tərbiyə etməyin əsas hissəsi demək olar ki, qadınların öhdəsinə düşür. Əgər ana öz övladına gözəl tərbiyə verirsə, həmin övlad böyük şəxsiyyətə çevrilir. İslam Peyğəmbərinin(s) meraca getməsi hamıya məlumdur. Onun meraca getməsinin ən ümdə səbəbi anasının ona verdiyi tərbiyə idi. Peyğəmbər(s) anasının ətəyindən meraca qalxmışdı. Buna görə də ailədə ən əsas tərbiyə ananın öhdəsinə düşür. Əgər uşaq mənəvi yüksəkliklərə ucala bilirsə və insaniyyətin uca məqamını fəth edə bilirsə, bütün bunlar anasının ona verdiyi tərbiyənin nəticəsidir.

Müqəddəs Ərdəbilinin həyatına baxdıqda görürük ki, o, çox böyük bir şəxsiyyət olmuşdur. Mənəviyyat aləmində kifayət qədər tanınmış bir insan idi. Dəfələrlə İmam Zamanla(ə.c) görüşmüşdür. Onun belə yüksək məqam əldə etməsinin səbəbi anasının gözəl tərbiyə verməsi idi. Anası deyir: “Bu uşaq dünyaya gəldikdən sonra bircə dəfə də olsun ona dəstəmazsız süd vermədim. Hətta gecələr ağlayarkən gedib dəstəmaz alar, sonra gəlib ona süd verərdim.”

Hətta əgər ana öz övladına pis tərbiyə verərsə, onun da mənfi nəticələri özünü büruzə verəcəkdir. Uşaq ana bətnində olan zaman ananın qidalanması, haram

danışması, haramlara qulaq asmağı belə ona öz təsirini göstərir. Elm sübut etmişdir ki, ana musiqiyə qulaq asdıqda bətnindəki uşağın nəbzi dəyişir və musiqinin təsiri altına düşür. Hətta bircə dəfə haram yemək belə uşaqda öz mənfi təsirini göstərə bilir. Ana bətnində bu hiss olunmasa da, uşaq dünyaya gəldikdən sonra illər ötsə belə həmin haram tikə uşağın əməlində özünü göstərməlidir.

Kənddə yaşayan bir qadın deyir: "Mənim hamiləlik dövrüm idi. Qonşunun həyətində yetişən nar ağaclarından birinin budağı həyətimizə sallanmışdı. Həmin budaqda gözəl və qırmızı narlar var idi. Hamilə olduğum üçün ürəyimdən nar keçdi. Həmin narlardan birini dərib deşdim və suyunu içdim. Aylar keçdi və uşaq dünyaya gəldi. Uşaq böyüyüb beş- altı yaşına çatdı. O zamanlar hər kəsin qapısında dəridən su tuluğu asılardı. Suçu gəlib həmin tuluqları doldurub gedərdi. Camaat da həmin sudan istifadə edirdilər. Günlərin birində qonşular mənə gəlib şikayətləndilər ki, sənin bu uşağın gəlib qıyıqla tuluqları deşib qaçır. Mən bir az fikirləşib dedim: "Bütün bunlar mənim günahımdır. Bu uşağa hamilə olduğum zaman qonşunun ağacındakı narı deşib suyunu içmişdim. Həmin əməlim uşağa öz təsirini göstərmişdir. Mənim bircə mənfi əməlimin təsiri cəmiyyətdə özünü büruzə vermişdir."

Odur ki, hər bir valideyn ailədə bütün hərəkətlərinə diqqət yetirməlidir. Kiçik bir günah və ya hərəkət uşağa mütləq öz mənfi təsirini göstərməlidir. Odur ki, ata və ana öz rəftarına, ailədəki danışığına, baxmağına və bütün hərəkətlərinə diqqət yetirməlidirlər. İslamda tərbiyə məsələsinə o qədər diqqət yetirilir ki, hətta ən incə məsələlərdə belə insanları diqqətli olmağa çağırır. İslamda tərbiyə məsələsinə diqqət yetirdikdə hətta kiçik məsələlərdə belə böyük bir fəlsəfə vardır. Əgər insanlar

İslamın bütün məsələlərinə riayət etsələr, cənnəti bu dünyada öz gözləri ilə görmüş olarlar.

Ailə məsələsi cəmiyyətdə çox önəmli bir yer tutur. İslam dini hətta ailə qurmaq, gəlin gətirmək və zifaf gecəsi barəsində də müəyyən qaydalar buyurmuşdur. Ailə quran hər bir kişi evə gətirdiyi gəlini əmanət olaraq qəbul etməlidir. İmam Sadiq(ə) buyurur: “Müstəhəbdir ki, bəy otağına daxil olarkən hər ikisi dəstəmaz alsın, iki rükət zifaf gecəsinin namazını qılsınlar. Sonra bəy qızın alın tərəfində olan saçından tutaraq üzü qibləyə dayanıb bu duanı oxusun:

اللّهُمَّ بأمانَتِكَ أخَذْتُها وَبِكَلِماتِكَ اسْتَحْلَلْتُها فَإنْ قَضَيْتَ لِي مِنْها وَلَداً فَاجْعَلْهُ مُبارَكا تَقِيّا مِنْ شِيعَةِ آلِ مُحَمَّدٍ وَلا تَجْعَلْ لِلْشَيْطانِ فِيهِ شِرْكاً وَلا نَصِيباً

-İlahi, Sənin əmanətini aldım. (O əmanət ki) Sənin kəlmələrinlə (əqdin oxunması ilə) mənə halal olundu. Əgər ondan mənə övlad nəsib etsən, o övladı mübarək, təqvalı və Məhəmmədin(s) Əhli-beytinin şiələrindən qərar ver. Və şeytanı həmin övlada şərik və nəsib qərar vermə.”

## Zina etmək böyük günahdır

Qeyd olundu ki, zina elə bir pis əməldir ki, hər kəs bu işi görərsə, Allahın qəzəbinə düçar olar. Həmçinin zina insanın təzkiyə olunmasının qarşısını kəsən böyük maneələrdən biridir. İslam dini zinanı böyük günahlardan hesab edir. Allah-təala “İsra” surəsinin 32-ci ayəsində belə buyurur:

وَلاَ تَقْرَبُواْ الزِّنَى إِنَّهُ كَانَ فَاحِشَةً وَسَاء سَبِيلاً

-Və zinaya yaxınlaşmayın (hətta onun üçün müqəddimə ola biləcək əməllərdən uzaq olun), çünki o, çox çirkin (bir əməl) və (cəmiyyətin pozulması və onun mənəviyyatsızlığı ilə nəticələnən) pis bir yoldur.

قَالَ البَاقِر(ع): فِي قَوْلِهِ تَعَالَى ﴿وَلا تَقْرَبُوا الزِّنى إِنَّهُ كانَ فاحِشَةً﴾ يَقُولُ مَعْصِيَةً وَمَقْتاً فَإِنَّ اللَّهَ يَمْقُتُهُ وَيُبْغِضُهُ قَالَ ﴿وَساءَ سَبِيلًا﴾ هُوَ أَشَدُّ النَّاسِ عَذَاباً ، وَالزِّنَا مِنْ أَكْبَرِ الْكَبَائِرِ

-İmam Baqir(ə) bu ayənin şərhində belə buyurur: "Zina nifrətedici bir günahdır. Çünki Allah-təala zinanı düşmən bilir və ona nifrət edir. Buna görə də buyurur: "O, çox çirkin (bir əməl) və pis bir yoldur." Zinakar insanın əzabı bütün günahların əzabından çətindir. Zina ən böyük günahlardan biridir."[1]

Həm ayədən, həm də İmam Baqirin(ə) bu hədisindən açıq-aydın şəkildə görürük ki, zina böyük günahdır və hər kəs bu işi görərsə, Allahın əzabına düçar olar. Zina elə çirkin bir əməldir ki, ən pis günahlar cərgəsində dayanır. Zina əməlinin nə qədər çirkin və pis olduğu barədə Peyğəmbər(s) və imamlarımızdan çoxlu hədislər nəql olunmuşdur. Nümunə üçün onlardan bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): لَن يَعمَلَ اِبنُ آدَمَ عَمَلاً أَعظَمَ عِندَ اللهِ تَبَارَكَ وَتَعَالي مِن رَجُلٍ قَتَلَ نَبِيّاً أَو إِمَاماً، أَو هَدَمَ الكعبَةَ الَّتِي جَعَلَهَا اللهُ عَزَّوَجَلَّ قِبلَةً لِعِبَادِهِ، أَو أَفرَغَ مَاءَهُ فِي اِمرَأَةٍ حَرَاماً.

---

[1] Mizanül-hikmə, hədis 7636.

-Həzrət Peyğəmbər(s) buyurur: “Adəm övladının Allah yanında heç bir işi (günahı) bundan ağır ola bilməz ki, peyğəmbər və yaxud imam öldürsün, Allahın bəndələri üçün qiblə qərar verdiyi Kəbəni dağıtsın, yaxud hansısa qadınla haram yolla yaxınlıq (zina) etsin.”[1]

قَالَ الإِمَامُ الصَّادِقُ(ع): إِنَّ أَشَدَّ النَّاسِ عَذَاباً يومَ القِيَامَةِ رَجُلٌ أَقَرَّ نُطفَتَهُ فِي رَحِمٍ تَحرُمُ عَلَيهِ.

-İmam Sadiq(ə) buyurur: “Qiyamət gününün ən çətin əzabı o kişi üçündür ki, haram yolla qadınla yaxınlıq (zina) etsin.”[2]

## Zinanın dünyəvi və axirəti təsirləri

Zina haram əməllərdən və böyük günahlardan biri olmaqla yanaşı və hər bir günahın da müxtəlif təsirləri olduğu kimi, bu əməlin də müxtəlif təsirləri vardır. Yəni zina elə bir çirkin əməldir ki, insana həm dünyəvi, həm də axirəti təsirləri vardır. Həmin təsirlər bundan ibarətdir ki, insanın üzünün nurunu aparır, ruzinin kəsilməsinə səbəb olur, ölümü yaxınlaşdırır, habelə Allahın qəzəbinə, hesab-kitabın çətin olmasına və insanın həmişəlik cəhənnəmə düşməsinə səbəb olur. Bu barədə olan hədis belədir:

قَالَ رَسُولُ اللهِ(ص): يَا عَلِيُّ فِي الزِّنَا سِتُّ خِصَالٍ: ثَلاثٌ مِنهَا فِي الدُّنيَا، وَثَلاثٌ فِي الآخِرَةِ فَأَمَّا الَّتِي فِي الدُّنيَا فَيَذهَبُ بنور الوجه

---

[1] Mizanül-hikmə, hədis 7637.

[2] Yenə orada, hədis 7638.

(فَيَذهَبُ بِالبَهَاءِ)، وَيُعَجِّلُ الفَنَاءَ، وَيَقطَعُ الرِّزقَ، وَأَمَّا الَّتِي فِي الآخِرَةِ وَ أَمَّا الَّتِي فِي الْآخِرَةِ فَسَخَطُ الرَّحْمَنِ وَ سُوءُ الْحِسَابِ وَ وَ الْخُلُودُ فِي النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Əli! Zinanın altı nəticə və xüsusiyyəti var: Üçü dünyada, üçü axirətdə üzə çıxar. Dünyadakı nəticələri budur ki, abır-həyanı aparar, ölümü tezləşdirər və ruzini kəsər. Axirəti nəticələri isə ağır və dəqiq hesabatın aparılması, Rəhman Allahın qəzəbi və cəhənnəm odunda əbədi qalmaqdan ibarətdir."[1]

## Zinanın bərzəxdə olan təsiri

Zina elə bir günahdır ki, hətta insan dünyadan getdikdən sonra, yəni bərzəx aləmində də, qiyamətdən öncə onun təsir və nəticəsini görəcəkdir. Zinanın bərzəx aləmində çox acınacaqlı və pis təsirləri özünü büruzə verəcəkdir. Zinakar insan üçün hətta bərzəx aləmində də çətin və ağrılı əzab təyin olunmuşdur. Həzrət İmam Baqir(ə) bu barədə belə buyurur:

أَلَا وَ مَنْ زَنَى بِامْرَأَةٍ مُسْلِمَةٍ أَوْ يَهُودِيَّةٍ أَوْ نَصْرَانِيَّةٍ أَوْ مَجُوسِيَّةٍ، حُرَّةٍ أَوْ أَمَةٍ، ثُمَّ لَمْ يَتُبْ مِنْهُ، وَ مَاتَ مُصِرّاً عَلَيْهِ ، فَتَحَ اللَّهُ لَهُ فِي قَبْرِهِ ثَلَاثَ مِائَةِ بَابٍ تَخْرُجُ مِنْهَا حَيَّاتٌ وَ عَقَارِبُ وَ ثُعْبَانُ النَّارِ

-(Camaat!) Bilin ki, azad, yaxud kəniz olmasına baxmayaraq müsəlman, yaxud yəhudi, xristian və ya atəşpərəst qadınla zina edən şəxs tövbə etməyib. O, günahı

[1] Mizanül-hikmə, hədis 7638.

israr edən halda ölsə, Allah qəbirdə onun üzünə üç yüz qapı açar ki, həmin qapılardan odlu ilanlar, əqrəblər və əjdahalar çıxıb onun canına daraşar.[1]

Ümumiyyətlə, zina elə bir pis əməldir ki, şəhvətpərəst və nadan insanlar ona rəğbət bəsləyərlər. Qeyrət və namusun əsl mənasını dərk edən insanlar heç bir vaxt bu çirkin əmələ tərəf getməzlər.

İslam Peyğəmbəri(s) böyük günahlardan olan zinaya mübtəla olmuş (bu işin pis olduğunu anlamayan) insanlarla məntiqi və düzgün mübarizə apararaq zinanın çirkinliyini və qəbahətliliyini onlara başa salmışdır. İslam rəvayətlərində belə nəql olunur ki, bir nəfər cavan oğlan Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, mənə zina etməyə icazə verirsinizmi? Peyğəmbərin(s) ətrafında əyləşənlər onun bu sözlərindən narahat oldular.

Peyğəmbər(s) buyurdu: Ey cavan, razı olarsanmı sənin ananla zina etsinlər?

Cavan dedi: Xeyr.

Peyğəmbər(s) buyurdu: Razı olarsanmı kimsə sənin qızınla zina etsin?

Cavan dedi: Xeyr.

Peyğəmbər(s) buyurdu: Razı olarsanmı kimsə sənin arvadınla zina etsin?

Cavan dedi: Xeyr."

Peyğəmbərin(s) bu sözləri həmin cavan oğlana çox təsir etdi. O, etdiyi bu əməlinin pisliyini və çirkinliyini başa düşüb xəcalət çəkdi və peşman oldu. Həzrət Peyğəmbər(s) həmin cavana dua edərək belə dedi: "İlahi,

[1] Yenə orada,5-ci cid, səh.185.

bu cavanın qəlbini pak et. Onun günahlarını bağışla və iffətsizlikdən qoru."

O gündən sonra həmin cavanın nəzərində ən pis əməl zinakarlıq oldu və bir daha bu çirkin əmələ meyl göstərmədi.

"Kumeyl" duasını oxuyarkən orada belə bir ibarəyə rast gəlirik:

اَللّهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتي تَهْتِكُ الْعِصَمَ، اَللّهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتي تُنْزِلُ النِّقَمَ، اَللّهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتي تُغَيِّرُ النِّعَمَ، اَللّهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتي تَحْبِسُ الدُّعاءَ اَللّهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتي تُنْزِلُ الْبَلاءَ

-İlahi, mənim ismət pərdələrimi yırtan günahlarımı bağışla. İlahi, Sənin qəzəb və əzabının nazil olmasına səbəb olan günahlarımı bağışla. İlahi, mənim nemətləri dəyişən (məni onlardan məhrum edən) günahlarımı bağışla. İlahi, mənim duaların qəbul olunmasının qarşısını alan günahlarımı bağışla. İlahi, mənim bəlaların nazil olmasına gətirib çıxaran günahlarımı bağışla.

İmam Sadiq(ə) buyurur: "Nemətləri dəyişən (insanı onlardan məhrum edən), ruzinin qarşısını alan günahlardan biri də zinadır."[1]

## Zinanın məhşər günündə təsiri

İnsanın gələcəkdə üzləşdiyi ən çətin anlarından biri qiyamət səhnəsidir. Qiyamət günü elə bir gündür ki, bütün eyiblərin üzərindən pərdələr götürüləcək. İnsan qiyamət gününün çətinliklərindən və günahlarından uzaqlaşmaq

---

[1] Mizanül-hikmə, hədis 7649.

üçün çalışacaq. Amma zina kimi böyük və çirkin günahlar etmiş kəslərin vəziyyəti həmin gün çox acınacaqlı olacaqdır. Bu barədə də bir çox hədislər nəql olunmuşdur. O cümlədən:

قَالَ البَاقِرُ(ع): فَإِذَا بُعِثَ مِنْ قَبْرِهِ تَأَذَّى النَّاسُ مِنْ نَتْنِ رِيحِهِ ، فَيُعْرَفُ بِذَلِكَ وَ بِمَا كَانَ يَعْمَلُ فِي دَارِ الدُّنْيَا حَتَّى يُؤْمَرَ بِهِ إِلَى النَّارِ

-İmam Baqir(ə) buyurur: "Zinakar insan qəbirdən qalxdığı vaxt onun pis iyi insanlara əziyyət verər. Ona cəhənnəm oduna daxil olma əmri verilənə qədər pis iyi və dünyadakı pis əməli ilə tanınar."[1]

Həzrət Əli(ə) buyurur: "Qiyamət günü məhşər səhnəsini pis qoxu bürüyər. Belə olduqda bütün məhşər əhli bu iydən elə narahat olarlar ki, onlara nəfəs almaq belə çətinləşər. Elə bu halda carçı səslənib belə nida edər: Bilirsinizmi sizə əziyyət verən bu qoxu kimin qoxusudur?

Məhşər əhli deyər: Xeyr, bilmirik.

Carçı deyər: Bu iy dünyada zina edib tövbəsiz dünyadan gedənlərin övrətlərindən (cinsiyyət üzvlərindən) gələn qoxudur. Belə isə siz də onlara lənət oxuyun. Allahın lənəti olsun onlara.

Qiyamət səhnəsində hamı onlara lənət oxuyub deyər: Allah, zinakarlara lənət et."[2]

## Ən böyük zina

[1] Böyük günahlar, səh.185.
[2] Böyük günahlar, səh.186.

Zina əməli, ümumiyyətlə, böyük günahlardan biridir. Hər bir halda və surətdə zina etmək çirkin və nifrətli əməldir. Xüsusilə zinanın növlərinin içində ən pisi ərli qadının zinakarlığıdır. Qeyd olunduğu kimi, qiyamət günü Allah-təala ərinə xəyanət edən qadınla danışmayacaq, onu paklaşdırmayacaq və ağrılı əzaba düçar edəcəkdir.

قَالَ الإِمامُ الصَّادِقُ(ع): ثَلاثَةٌ لا يُكلِّمُهُمُ اللهُ تَعَالي وَلا يُزَكيهِم وَلَهُم عَذَابٌ أَلِيمٌ مِنهُمُ المرأَةُ الَّتِي تُوَطِّئُ (عَلَي) فَرَاشَ زَوجِهَا

-İmam Sadiq(ə) buyurur: "Allah qiyamət günündə üç dəstə insanla danışmaz, onları paklaşdırmaz və onlara ağrılı əzab verər. O üç dəstədən biri də ərinə xəyanət (zina) edən qadınlardır."[1]

Qadının əri olduğu halda zina etməsi həddindən artıq pis işdir. Hər hansı bir qadın bu işi görərsə, çox çətin və ağrılı əzaba düçar olacaq. Bu barədə Peyğəmbər(s) və imamlarımızdan bir çox hədislər vardır ki, bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): اِشتَدَّ غَضَبُ اللهِ عَزَّوَجَلَّ عَلَي اِمرأَةٍ ذَاتِ بَعلٍ مَلأَت عَينَهَا مِن غَيرِ زَوجِهَا... فَإِنَّهَا إِن فَعَلَت ذَلِک أَحبَطَ اللهُ كلَّ عَمَلٍ عَمِلَتهُ فَإِنْ أوطَأَتْ فِرَاشَهُ غَيرَهُ كَانَ حَقّاً عَلَى اللّه أن يُحرِقَهَا بِالنَّار بَعدَ أن يُعَذِّبَهَا فِي قَبرِهَا.

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər ərli qadın öz gözünü ərindən başqa bir kişi, ya naməhrəmlə doldurarsa, Allah-təala ona qəzəblənər və onun bütün əməllərini batil

[1] Səvabül-əmal,2-ci cild, səh.312.

edər. Əgər o, öz ərinə xəyanət edərsə, ona qəbir əzabı verdikdən sonra cəhənnəm odunda yandırmaq Allahın haqqıdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): لَمَّا اُسرِيَ بِي مَرَرتُ بِنِسوَانٍ مُعَلَّقَاتٍ بِثُدِيِّهِنَّ فَقُلتُ: مَن هَؤُلاءِ يَا جَبرَئِيلُ؟ فَقَالَ: هؤُلاءِ اللَّوَاتِي يُورِثنَ أَموَالَ أَزوَاجِهُنَّ أَولادَ غَيرِهِم

-Həzrət Peyğəmbər(s) buyurur: "Meraca aparıldığım gecə elə bir yerdən keçdim ki, orada qadınları sinələrindən (döşlərindən) asmışdılar. Soruşdum: Ey Cəbrayıl, bunlar kimlərdir? Cəbrayıl(ə) dedi: Bunlar o qadınlardır ki, öz ərlərindən olmayan (haram və zina yolu ilə əldə etdikləri) uşaqlarını ərlərinin varisi etmişlər."[2]

قَالَ الإِمَام عَلِيٌّ(ع): أَلا اُخبِرُكم بِأَكبَرِ الزِّنَا؟ ... هِيَ اِمرَأَةٌ تُوَطِّئُ فَرَاشَ زَوجِهَا فَتَأتِي بِوَلَدٍ مِن غَيرِهِ فَتَلزَمُهُ زَوجَهَا، فَتِلك الَّتِي لا يُكَلِّمُهَا اللهُ، وَلا يَنظُرُ إِلَيهَا يَومَ القِيَامَةِ، وَلا يُزَكِيهَا وَلَهَا عَذَابٌ أَلِيمٌ.

-Həzrət Əli(ə) buyurur: "Sizə ən böyük zinanın nə olduğunu xəbər verimmi?...Ən böyük zina odur ki, bir qadın öz ərinə xəyanət etsin, başqasından övlad dünyaya gətirib (həmin övladı) öz ərinin adına yapışdırsın. Allah-təala qiyamət günü belə bir qadınla danışmayacaq, ona

[1] Mizanül-hikmə, hədis 7640.
[2] Mizanül-hikmə,hədis 7641.

rəhmət nəzəri etməyəcək, onu paklaşdırmayacaq və onu ağrılı əzaba düçar edəcək.”[1]

Ümumiyyətlə, haram və zinakarlıq yolu ilə dünyaya gəlmiş uşaqlar hər bir cəmiyyətin tör-töküntüsü və problemləri hesab olunur. İlahi dəyərlər, mənəviyyat və Allahın dini ilə müxalif olan və onlarla mübarizə aparan insanların əksəriyyəti zina yolu ilə dünyaya gəlmiş kəslərdir. Əlbəttə, bir çox hədis və rəvayətlərdə zinadan əmələ gəlmiş insanın əlamət və nişanələri nəql olunmuşdur. Məsələn:

قَالَ الْإِمَامُ الصَّادِق(ع): إِنَّ لِوَلَدِ الزِّنَا عَلامَاتٍ: أَحَدُهَا بُغضُنَا أَهلَ البَيتِ، وَثَانِيهَا أَنَّهُ يَحِنُ إِلِي الحَرَامِ الَّذِي خُلِقَ مِنهُ، وَثُالِثُهَا اَلاِستِخفَافُ بِالدِّينِ، وَرَابِعُهَا سُوءُ المِحضَرِ لِلنَّاسِ وَلا يُسيءُ محضرَ إِخوانِهِ إِلّا مَن وُلِدَ عَلى غَيرَ فَراشِ أَبِيهِ اَو حَمَلَت بِهِ أُمُّه فِي حِيضِها

-İmam Sadiq(ə) buyurur: “Zinadan olanın əlamətləri vardır və həmin əlamətlər bunlardır: 1.Biz Əhli-beytə qarşı ədavət və düşmənçilik edər; 2.Əmələ gəldiyi həmin haram işə (zinaya) əlaqə və meylli olar; 3. Allahın dininə əhəmiyyət verməz; 4. Camaat barəsində pis danışar.”[2]

## Bədənin hər üzvünün zinadan payı var

Zina elə bir çirkin əməldir ki, hər kəs bu işi görərsə, bütün bədən üzvlərinin də onda payı vardır. Yəni bədənin hər bir üzvünün özünə məxsus zinası vardır ki, insan daim

[1] Yenə orada,hədis 7643.
[2] Mizanül-hikmə, hədis 7644.

ayıq olmalı və bütün zinalardan çəkinməlidir. Bu barədə onlan hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): عَلَى كُلِّ نَفْسٍ مِنِ بَنِى آدَمَ كُتِبَ حَظٌّ مِنَ الزِّنَا... فَالْعَيْنُ زِنَاهَا النَّظَرُ، وَالرِّجْلُ زِنَاهَا الْمَشْيُ، وَالأُذُنُ زِنَاهَا السَّمَاعُ.

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanın bədən üzvlərinin hər birinə zinadan bir bəhrə yazılmışdır ki, istər-istəməz ona yetişər. Məsələn, gözün zinası (naməhrəmə) baxmaq, ayağın zinası günaha tərəf getmək və qulağın zinası haram səslər eşitməkdir."[1]

قَالَ الصَّادِقُ(ع): مَا مِن أَحَدٍ إِلا وَ هُوَ يُصِيبُ حَظّاً مِنَ الزِّنَا فَزِنَا الْعَيْنَيْنِ النَّظَرُ وَ زِنَا الْفَمِ الْقُبْلَةُ وَزِنَا الْيَدَيْنِ اللَّمْسُ

-İmam Sadiq(ə) buyurur: "Elə bir kəs yoxdur ki, onun bədən üzvlərinin hər birinə zinadan bir pay düşməsin. Məsələn, gözün zinası (naməhrəmə) baxmaq, ağızın zinası (naməhrəmi) öpmək, əllərin zinası isə (naməhrəmin bədəninə) toxunmaqdır." [2]

قَالَ الْمَسِيح(ع): أَيُّمَا امْرَأَةٍ اسْتَعْطَرَتْ فَمَرَّتْ عَلَى قَوْمٍ لِيَجِدُوا مِنْ رِيحِهَا فَهِيَ زَانِيَةٌ وَ كُلُّ عينٍ زَانِيَةٌ

---

[1] Yenə orada, hədis 7655.
[2] Böyük günahlar,1-ci cild, səh.194.

-Həzrət Məsih(ə) buyurur: “Ətirlənib bayıra çıxan qadının ətri nə qədər ki, başqalarının burnuna yetişir, zinakardır və ona baxan hər bir göz zina edir.”[1]

[1] Mizanül-hikmə,5-ci cild, səh.2214.

**5. Qeyrətsizlik**

İnsanın təzkiyə olunmasına mane olan amillərdən biri də qeyrətsizlikdir. Hər kimdə qeyrət olmasa, nəfsini paklaşdıra bilməz. Həmçinin öncə də qeyd etdik ki, qiyamət günü Allahın danışmadığı, qəzəbləndiyi və ağrılı əzaba düçar etdiyi qrup insanlardan biri də qeyrətsiz və dəyyus insanlardır. Qeyrət hər bir kişi üçün mühüm və vacib amillərdəndir. Qeyrət imanın bir hissəsidir. Qeyrət barədə Peyğəmbər(s) və imamlarımızdan bir çox hədislər nəql olunmuşdur. Nümunə üçün həmin hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْغيْرَةَ مِنَ الإِيمان

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, qeyrət imanın bir hissəsidir."[1]

قَالَ عَلِيٌّ(ع): قَدْرُ الرَّجُل عَلى قَدْرِ هِمَّتِه وَ شَجاعَتُهُ عَلى قَدرِ أَنَفَتِهِ وَعِفَّتُهُ عَلى قَدْرِ غيْرتِه

-İmam Əli(ə) buyurur: "Kişinin dəyəri onun himməti qədərdir. Onun şücaəti abır-həya etməsi (alçaqlıq və zəlilliyi qəbul etməməsi), iffəti isə onun qeyrəti qədərdir."[2]

Qeyrət Allahın sifətlərindən biridir. Özü qeyrətli olduğu üçün bu əməli bəyənir və bəndələrinin də qeyrətli olmasını istəyir.

---

[1] Yenə orada, hədis 15550.
[2] Yenə orada, hədis 15558.

قَالَ رَسُولُ اللهِ(ص): كَانَ إبراهيمُ أبي غَيوراً وأنا أغيَرُ مِنهُ، وأرغَمَ اللّٰهُ أنفَ مَن لا يَغارُ مِن الْمُؤمِنِين

-Həzrət Peyğəmbər(s) buyurur: “Babam İbrahim (peyğəmbər) qeyrətli idi və mən ondan daha qeyrətliyəm. Allah qeyrəti olmayan müsəlmanın burnunu yerə sürtər.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إنِّي لَغَيُورٌ، واللهُ عزَّ وجلَّ أَغير مِنِّي وَ إِنَّ الله تَعَالَى يُحِبُّ مِن عِبَادِهِ الغَيُور

-Həmçinin Həzrət(s) buyurur: “Mən qeyrətliyəm. Allah isə məndən də qeyrətlidir. Həqiqətən, Allah-təala qeyrətli bəndələrini sevir.”[2]

## Qeyrətin əhəmiyyəti

Qeyrət elə bir keyfiyyətdir ki, insanın mükəmməlləşməsində mühüm rol oynayır. Deməli, əgər bir insanın qeyrəti yoxdursa, o, heç bir vaxt kamil insan ola bilməz. Qeyrət Allahın, peyğəmbərlərin və imamların keyfiyyətlərindən biridir. Allah-təala Özü hamıdan qeyrətli olduğu üçün qeyrətli insanları da sevir.

قالَ الصّادِقُ(ع): إنَّ اللهَ تَبارَك وَ تَعالى غَيُورٌ يُحِبُّ كُلَّ غَيُور وَ لِغِيْرَتِهِ حَرَّمَ الفَواحِش ظاهِرُهَا وَ باطِنُها

-İmam Sadiq(ə) buyurur: “Allah-təala qeyrətlidir və hər bir qeyrətli insanı da sevər. Gizlində və aşkarda çirkin

---

[1] Mizanül-hikmə, hədis 15554.
[2] Yenə orada, hədis 15561.

işləri haram buyurması da Onun qeyrətli olması ilə bağlıdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلا وَ إِنَّ اللهَ حَرَّمَ الْحَرام وَ حَدَّ الْحُدُود وَ ما اَحَدٌ اَغْيَرَ مِنَ الله وَ مِن غِيْرَتِهِ حَرَّمَ الْفَواهِش

-Həzrət Peyğəmbər(s) buyurur: "Bilin ki, Allah bütün haram işləri haram etdi və onlara hədd təyin etdi. Allahdan daha çox qeyrətli kim ola bilər? Hamıdan çox qeyrətli olduğundan pozğunluğu, azğınlığı və haram işləri haram buyurdu."[2]

## Qeyrətin mənası

Yaxşı olar ki, burada qeyrətin məna və tərifi ilə tanış olaq. Qeyrət sözünün mənası bir çox lüğət kitablarında belə yazılıb şərh edilmişdir: -Qorunması insanın ağlı ilə uyğun gələn vacib şeylərin qorunmasına qeyrət deyilir. Dini termin nöqteyi-nəzərindən qeyrət sözünün mənası belədir: İnsanın şəxsi hərəminə və hariminə başqalarının daxil olmasına icazə verməməyə qeyrət deyilir. İnsanın ona məxsus olan hərim və hərəminə başqalarının daxil olmasına icazə verməyən şəxsə isə qeyrətli insan deyilir.

Burada sual oluna bilər ki, insanın özünə məxsus olan hərim və hərəmi hansılardır? Yəni insanın özünə məxsus olan hansı şeyləri qoruması vacibdir?

Cavab belədir ki, hər bir insana dörd şeyi qorumaq vacibdir: Birincisi insanın dini, ikincisi vətəni, üçüncüsü

---

[1] əl-Kafi, 5-ci cild, səh. 353, hədis 1.
[2] Mizanül-hikmə, hədis 15564.

namusu, dördüncüsü canı və malıdır. Bunlar insanın hərəmidir. İnsanın imanı isə onun hərimidir. Heç bir vaxt insan yol verməz ki, onun imanına kimsə müdaxilə etsin. Hər kim bu yolda öldürülərsə, şəhid hesab olunar.

Buna görə də hər bir insana qeyrətli olmaq vacibdir. Əks-təqdirdə Allah-təalanın həmin şəxsdən acığı gələr, qiyamət günü onunla danışmaz və onu ağrılı əzaba düçar edər.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْجَنَّةَ لَتُوجَد رِيحُهَا مِن مَسِيرَةِ خَمسَمِائَةِ عَامٍ، وَلا يَجِدُهَا عَاقٌّ وَلا دَيُّوثٌ،

قِيلَ: يَا رَسُولَ اللهِ وَمَا الدَّيُّوث؟ قَالَ: اَلَّذِي تَزنِي اِمرَأَتُهُ وَهُوَ يَعلَمُ بِهَا

-Həzrət Peyğəmbər(s) buyurur: “Cənnətin rayihəsi beş yüz illik məsafədən burunlara çatar, ancaq naxələf övlad və dəyyus insana çatmaz.” Ərz edildi: “Ey Allahın Peyğəmbəri! Dəyyus kimdir?” Buyurdu: “Arvadı zina edən və bundan xəbəri olan kişi.”[1]

قَالَ الباقر(ع): ثَلاثَةٌ لا يَقبَلُ اللهُ لَهُم صَلاةً: مِنهُم الدَّيُّوثُ الَّذِي يُفجَرُ بِامرَأَتِهِ

-İmam Baqir(ə) buyurur: “Allah üç kəsin namazını qəbul etməz. Həmin kəslərdən biri də dəyyusdur ki, onun arvadı ilə zina edərlər.”[2]

## Zinakarlıqda vasitəçilik

[1] Mizanül-hikmə, hədis 15573.
[2] Mizanül-hikmə, hədis 15568.

Oxuduğumuz ayə və hədislərdən açıq-aydın şəkildə görürük ki, zina çox çirkin işlərdən və haram əməllərdən biridir. Belə ki, zina böyük günahlar cərgəsində qərar tutur. Hər kəs bu işlə məşğul olsa, Allah-təala qiyamət günü həmin kəslə danışmayacaq, onu paklaşdırmayacaq və onu ağrılı və çətin əzaba düçar edəcəkdir. Burada bir mətləbi də qeyd etmək lazımdır ki, zinakar insanlar üçün vasitəçilik etmək də böyük günahlardan hesab olunur. Ərəb dilində bu əmələ "qiyadət" deyilir. Kişi ilə qadının zina etməsi və yaxud iki kişinin bir-biri ilə cinsi münasibətə girməsi üçün vasitəçi olmağa "qiyadət" deyilir. Bu əməlin haram və böyük günahlardan olmasında heç bir şəkk-şübhə yoxdur. İki nəfərin zina etməsi üçün şərait yaradan və yaxud iki kişinin cinsi münasibətə girməsi üçün vasitəçilik edən insanın aqibəti çox acınacaqlıdır. Bu barədə də bir sıra hədislər nəql olunmuşdur. O cümlədən:

قَالَ رَسُولُ اللهِ(ص): لَيلَةٌ اُسرِيَ بِي ... رَأَيتُ اِمرَأَةً يُحرَقُ وَجهُهَا وَ يَدَاهَا، وَهِيَ تَأكلُ أَمعَاءُهَا...، فَإِنَّهَا كانَت قَوَّادَةً.

-Həzrət Peyğəmbər(s) buyurur: "Meraca aparıldığım gecə üz və əlləri yanan, öz bağırsaqlarını yeyən bir qadın gördüm... (Onun bu hala düşməsinin səbəbi) dünyada iki naməhrəmin zina etməsi üçün vasitəçilik etməsi idi." [1]

---

[1] Yenə orada, hədis 7670.

قَالَ رَسُولُ اللّهِ(ص): مَن قَادَ بَينَ اِمَرأَةٍ وَ رَجلٍ حَرامًا حَرَّمَ اللَّهُ عَلَيْهِ الْجَنَّةَ وَ مَأْواهُ جَهَنَّمُ وَ ساءَتْ مَصِيراً وَلَمَ يزل فِي سَخَطِ اللّهِ حَتّى يَمُوت

Digər bir hədisdə Həzrət(s) buyurur: "Hər kim haram iş (zina) etmələri üçün kişi ilə qadın arasında vasitəçi olsa, Allah-təala cənnəti həmin şəxsə haram edər. Onun yeri cəhənnəm, aqibəti də pis olar. Ölənə qədər Allah ona qəzəbli olar."[1]

قَالَ الصَّادِقُ(ع): لَعَنَ رَسُول اللّه اَلوَاصِلَة وَالْمُستَوصلَة. يَعنِى اَلزَّانِى وَ القَوَّادَة

-İmam Sadiq(ə) buyurur: "Allahın Peyğəmbəri(s) zina edənləri və bu işdə (kişi ilə qadının zina etmələri üçün) vasitəçi olanları lənətləmişdir."[2]

**6. Zinakar qoca**

Qeyd olundu ki, insanın ruhunun təmizlənməsinin qarşısını alan və Allahın qəzəbinə səbəb olan əməllərdən biri zinakarlıqdır. Ötən bəhslərimizdə vurğuladıq ki, zina hər bir halda və hər bir surətdə haram və böyük günahlardan sayılır. Zinanın hər bir forması çirkin və pisdir. Həmçinin qeyd olundu ki, xüsusilə ərli qadının zina etməsi onların ən pisi sayılır. Zinanın ən çirkin formalarından biri də yaşlı insanın zina etməsidir. Allah-

---

[1] Böyük günahlar,səh.329.
[2] Yenə orada.

təala belələrini qəzəbinə düçar etdiyi insanların cərgəsinə daxil edər və qiyamət günü onlarla danışmaz.

قَالَ الصَّادِقُ(ع): ثَلاَثَةٌ لاَ يُكَلِّمهُمُ اللهُ يَوْمَ القِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ:

تُوَطِّئُ فَرَاشَ زَوجِهَا؛

الدَّيُّوث؛

اَلشَّيخُ الزَّانِى.

-Həzrət İmam Sadiq(ə) buyurur: "Allah qiyamət günündə üç dəstə insanla danışmaz, onları paklaşdırmaz və onları şiddətli əzaba düçar edər. O üç dəstədən biri ərinə xəyanət edən qadın, biri qeyrətsiz kişi (dəyyus) və biri isə zinakar qocalardır."[1]

**7. Homoseksualizm**

İnsanın təzkiyə olunmasının qarşısını alan amillərdən biri də homoseksualizmlə məşğul olmaqdır. Bu, elə çirkin və pozğun cinsi azğınlıqdır ki, hər kim bu işi görərsə Allahın qəzəbinə düçar olar. Bu çirkin iş insan cəmiyyətini bərbad edərək bütün dəyərləri və insan mənəviyyatını tənəzzülə uğradar. Bu haqda Quran ayələrində də bəhs olunmuşdur. Lut Peyğəmbərin(ə) ümməti belə bir cinsi azğınlığa düçar olmuşdu. Allah-təala onlara bu əməllərinə görə şiddətli əzab nazil etdi. "Əraf" surəsinin 80-81-ci ayələrində oxuyuruq:

---

[1] Böyük günahlar,2-ci cild, səh.331.

وَلُوطًا إِذْ قَالَ لِقَوْمِهِ أَتَأْتُونَ الْفَاحِشَةَ مَا سَبَقَكُم بِهَا مِنْ أَحَدٍ مِّن الْعَالَمِينَ. إِنَّكُمْ لَتَأْتُونَ الرِّجَالَ شَهْوَةً مِّن دُونِ النِّسَاء بَلْ أَنتُمْ قَوْمٌ مُّسْرِفُونَ

-Və Lutu (yada sal, onun) o zaman(ını) ki, öz qövmünə dedi: "Siz aləmdəkilərdən sizdən qabaq heç kəsin etmədiyi o çirkin işi edirsiniz? Həqiqətən, siz arvadları qoyub şəhvətlə kişilərlə əlaqədə olursunuz. (Təkcə bu işdə deyil,) bəlkə siz (hər bir işdə fitri) həddi aşan bir dəstəsiniz."

Bu ayədən açıq-aydın şəkildə görürük ki, Lutun qövmü o vaxtadək görünməyən bir pozğunluqla məşğul idilər. Bu cinsi azğınlıq isə həmin homoseksualizm idi. Lut Peyğəmbərin(ə) qövmünun adı Sədum tayfası idi. Bu tayfa Həzrət Adəmdən(ə) 3422 il sonra yaranmış bir tayfa idi. Bu müddətdə məhz onlar misli görünməmiş bir pozğunluğun təməlini qoymuşdular. Allah-təala Lut Peyğəmbəri(ə) həmin qövmə elçi göndərdi. "Saffat" surəsinin 133-cü ayəsində buyurulur:

وَإِنَّ لُوطًا لَّمِنَ الْمُرْسَلِينَ

-Həqiqətən, Lut da Bizim peyğəmbərlərimizdən idi.

Quranda Həzrət Lutun(ə) adı 14 surədə və 27 ayədə zikr olunmuşdur. Həzrət Lut(ə) İbrahim Peyğəmbərin(ə) qardaşı oğlu idi. Lut və Sazə İbrahim Peyğəmbərə(ə) iman gətirən ilk şəxslər idilər. Onlar İbrahim Peyğəmbərlə(ə) Babildən Fələstinə hicrət etdilər və ətrafda olan Hibrun Şamat adlı bir məntəqədə məskunlaşdılar. Sonra Həzrət İbrahim(ə) Lutu Mutəfikat adlı bir əyalətə göndərdi. Mutəfikat Sədum, Sudeym, Luna və Umeyra kimi şəhərləri əhatə edirdi ki, Sədum onların hamısından böyük

bir şəhər idi. Həzrət Lut(ə) orada məskunlaşdı. Sədum şəhərinin camaatı pozğun və əxlaqsız idi. Onlar heç bir günahdan çəkinmir, özbaşınalıq və zorakılıq, yamanlıq və paxıllıq içində yaşayırdılar. Onlar həmçinin buradan keçən karvanların yolunu kəsir və mallarını qarət edirdilər. Nə dinləri var idi ki, onları bu hərəkətlərdən çəkindirsin, nə də abır-həyaları bar idi ki, xəcalət təri axıtsınlar. Həmin əyalətin camaatı böyük günahlara düçar olmuşdu. O cümlədən onlar qumarbazlıq, qarətçilik və homoseksualizmlə məşğul idilər.

Beləcə, Həzrət Lut(ə) Allahın əmri ilə onları hidayət etmək üçün həmin məntəqəyə getdi. Həzrət(ə) ilk gündən həmin qövmə nəsihətlər verməyə, onları pozğun əməllərdən çəkindirməyə başladı. Lakin onlar Luta(ə) iman gətirmədilər və öz çirkin əməllərini davam etdirdilər. Bütün bu zülm və ədalətsizlik, pozğunluq və əxlaqsızlıq Sədum camaatına azlıq edirmiş kimi onların kişiləri yeni bir günaha bataraq görünməmiş alçaqlığa əl atdılar: onlar şəhvətlərini söndürmək üçün qadın əvəzinə oğlanları öz yataqlarına sürüklədilər. Özü də bu rüsvayçılığı utanmaz-utanmaz açıq-aşkar şəkildə edir, heç kimdən gizlətmir, əksinə, başqalarını da onlara qoşulmağa çağırırdılar. Beləliklə, camaat tamamilə yolundan azmışdı. Fahişəlik gündən-günə daha da genişlənirdi.

Həzrət Lut Peyğəmbər(ə) belə bir qövmü hidayət etmək üçün çox zəhmətlərə qatlaşmalı oldu. Təxminən otuz il müddətində bu qövmü pis işlərdən çəkindirib Allaha tərəf dəvət etməyə çalışdı. Lakin bütün bunlara baxmayaraq, onlar Lutu(ə) təkzib edərək heç bir sözünə əhəmiyyət vermədilər və ona iman gətirmədilər. Hətta Lutun(ə) öz arvadı belə ona iman gətirmədi. Həmin qövmün içərisində yalnız Həzrət Lutun(ə) on iki qızı ona

iman gətirmişdi. Allah-təala Quranda onun hekayətini “Şüəra” surəsinin 160-174-cü ayələrində belə bəyan edir:

كَذَّبَتْ قَوْمُ لُوطٍ الْمُرْسَلِينَ. إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ لُوطٌ أَلَا تَتَّقُونَ. إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ. فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ. وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ. أَتَأْتُونَ الذُّكْرَانَ مِنَ الْعَالَمِينَ. وَتَذَرُونَ مَا خَلَقَ لَكُمْ رَبُّكُمْ مِنْ أَزْوَاجِكُم بَلْ أَنتُمْ قَوْمٌ عَادُونَ. قَالُوا لَئِن لَّمْ تَنتَهِ يَا لُوطُ لَتَكُونَنَّ مِنَ الْمُخْرَجِينَ. قَالَ إِنِّي لِعَمَلِكُم مِّنَ الْقَالِينَ. رَبِّ نَجِّنِي وَأَهْلِي مِمَّا يَعْمَلُونَ. فَنَجَّيْنَاهُ وَأَهْلَهُ أَجْمَعِينَ. إِلَّا عَجُوزًا فِي الْغَابِرِينَ. ثُمَّ دَمَّرْنَا الْآخَرِينَ. وَأَمْطَرْنَا عَلَيْهِم مَّطَرًا فَسَاء مَطَرُ الْمُنذَرِينَ. إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

-Lutun qövmü də Allahın peyğəmbərlərini təkzib etdi. O zaman ki, (qəbilə) qardaşları Lut onlara dedi: “(Bu şirk və küfrünüzdən) çəkinmirsinizmi?! Həqiqətən, mən sizin üçün etibar ediləsi bir peyğəmbərəm. Odur ki, Allahdan qorxun və mənə itaət edin. Mən bunun (risalətin) müqabilində sizdən heç bir muzd istəmirəm, mənim muzdum yalnız aləmlərin Rəbbinin öhdəsinədir. Siz bu dünyadakı insanlardan (yalnız) erkəklərə yaxınlıq edirsinizmi?! Və Rəbbinizin sizin üçün yaratdığı zövcələrinizi tərk edirsinizmi?! (Günahınız kiçik deyil). Siz (xilqət və fitrət yolundan, şəriət çərçivəsindən) həddi aşan tayfasınız.” (Onlar) dedilər: “Ey Lut, əgər (bu sözlərindən) əl çəkməsən, mütləq sürgün olunanlardan olacaqsan!” (Lut) dedi: “Şübhəsiz, mən sizin bu əməlinizlə düşmən olanlardanam. Ey Rəbbim, mənə və

ailəmə bunların gördüyündən (əməlin cəzasından) nicat ver.” Sonra ona və bütün ailəsinə nicat verdik. Yalnız (vəd olunmuş əzabda) qalanlardan olan qoca bir arvaddan (Lutun zövcəsindən) başqa. Sonra da o birilərini məhv etdik. Onların başlarına (daşdan) bir yağış yağdırdıq. (Xəbərdarlığa əhəmiyyət verməyən) qorxudulanların yağışı pis bir yağış idi!  Həqiqətən, bunda (bu hekayətdə Allahın qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) var və onların əksəriyyəti Haqqa iman gətirən deyildi.

## Əzabın nazil olması

Lut Peyğəmbər(ə) gördü ki, bu tayfa haqdan üz döndərib və onun dəvətini qəbul etmir, odur ki, camaatı ilahi əzabla qorxutmağa başladı. Ancaq camaat Lutun(ə) hədə-qorxusuna əsla məhəl qoymayıb dediklərini boş sözlər saydı. Lut camaat arasında öz dəvətini daha inadla yaymaqda davam edərək bu çirkin əməllərinin nə ilə qurtaracağını açıb onlara dedi. Sədumlular isə tutduqları yoldan dönməyərək özlərini daha da həyasız aparmağa başladılar. Axırda onlar Lutu(ə) ələ salaraq təhqir etdilər və beləliklə, özlərinə ilahi əzabı qazandılar.

Həzrət Lut(ə) bu zaman Allahdan istədi ki, həmin pozğun tayfaya ağır bir əzab göndərsin. Çünki yerli camaat öz əməllərinin çirkin olduğunu başa düşmək istəmir və inadkarlıq, dikbaşlıq edirdilər. İş o yerə gəlib çatmışdı ki, bu əxlaq pozğunluğunun bir xəstəlik kimi başqa yerlərdə də yayılmaq qorxusu yaranmaqda idi.

Allah-təala Lutun(ə) duasını qəbul edərək onlara lazımi cəza vermək üçün öz mələklərini həmin pozğun tayfanın üstünə göndərdi. Mələklər Sədum şəhərinə getməmişdən öncə İbrahim Peyğəmbərin(ə) evində qonaq oldular. İbrahim(ə) mələkləri yoldan ötən qonaq bilib çox yaxşı qarşıladı. Qonaqlar üçün kök bir dana kəsib süfrəyə dadlı yeməklər gətizdirdi. Ancaq onlar yeməyə əl vurmadılar. İbrahim onların bu hərəkətlərindən çox narahat oldu. Çünki o zamanlar adət belə idi ki, hər kəs kiminsə süfrəsində yemək yemirdisə, ora başqa niyyətlə gəldiyini fikirləşirdilər. Mələklər İbrahimin(ə) nigarançılığını hiss edib Allah tərəfindən göndərilən mələklər olduqlarını söylədilər. Onlar İbrahimə(ə) oğul

müjdəsi verdikdən sonra Lutun(ə) qövmünə bəla nazil etmək üçün gedəcəklərini söylədilər.

İbrahimin(ə) qanı bərk qaraldı. O, Lutun(ə) tayfasına göydən enəcək bəlanı yubatmaq üçün dil-ağız etdi. İbrahim(ə) ümidvar idi ki, həmin  pozğun adamlar bəlkə fürsət tapıb bu müddətdə peşman olduqlarını bildirər və tövbə edərək tutduqları əməllərə görə üzr diləyərlər. Bəlkə də Həzrət İbrahim(ə) Həzrət Luta(ə) görə belə nigaran idi. O qorxurdu ki, bu çaxnaşmada birdən Luta(ə) da bir ziyan dəyə bilər. İbrahimin(ə) ürəyindən keçənləri oxuyan mələklər ona "Özünə toxtaqlıq ver, ürəyindəkiləri də at getsin. Dikbaşlıqlarını davam etdirən, yaramaz işlərdən əl çəkmək istəməyən bu camaat üçün yardım diləmə" - dedilər. Onlar İbrahimi(ə) inandırdılar ki, Luta(ə) heç bir ziyan dəyməyəcək. Lutun(ə) arvadından (o, kafirlərlə həmrəy və əlbir idi) başqa onun bütün ailəsi bu bəladan xilas olacaqdır.

Mələklər İbrahimlə(ə) vidalaşaraq gözəl oğlanlar sifətində Səduma sarı tələsdilər. Onlar Lutun(ə) evinə qonaq gəldilər. Lut Peyğəmbər(ə) çox narahat idi ki, əgər onun qövmü qonaqlarından xəbər tutsalar, bu işin axırı çox pis qurtaracaq.  Lut(ə) bu düşüncələrə dalmışdı ki, tayfanın əlaltısı olan arvadı ev sahibinin və qonaqların sirrini camaata çatdırdı. Çox keçmədi ki, camaat sevinə-sevinə, gülə-gülə, ayaqlarını yerə döyə-döyə və tələm-tələsik Lutun(ə) evinə sarı qaçmağa başladı. Lut(ə) qorxu içərisində adamların qarşısına çıxıb and-amanla onları pozğun işlər görməməyə çağırdı. Lakin həmin əxlaqsız və səfeh adamlar Lutun(ə) yalvarışlarına məhəl qoymadılar. Buna görə də Lut(ə) əlacsız qalaraq qapını onların üzünə bağladı və qonaqların müdafiəsinə qalxdı. Qapı arxasında qalanlar hər an həyasızlığını artırır, özlərindən çıxaraq

başına hava gəlmiş adamlar kimi və üz-gözləri qızarmış, ağızları köpüklənmiş halda Lutun(ə) evinə hücum çəkib söyüş söyürdülər. Vəziyyəti belə görən Lut(ə) camaatı təbiətin qanun və adətlərinə əməl etməyə, Tanrının kişilərə halal etdiyi qadınlardan-arvadlarından kam almağa çağırdı. O, əlacsız qalıb qonaqlarının nicatı üçün hətta öz doğma qızlarını belə bu adamlara ərə verməyə razı oldu. Lut bir daha camaatı belə bir yaramaz adətə qoşulduqları üçün pislədi və bunun nə ilə qurtaracığını bildirib onlara hədə-qorxu gəldi. Ancaq onlar getdikcə daha da azğınlaşırdılar. Güclü şəhvət hissi gözlərini örtmüş, qulaqlarını kar etmişdi. Odur ki, onlar dedilər: "Ey Lut, sən yaxşı bilirsən ki, biz sənin qızlarından öz kamımızı ala bilmərik. Axı qadınları, qızları bizim görən gözümüz yoxdur. Sən ki bilirsən bizim istəyimiz nədir?!"

Mələklər Luta(ə) təskinlik verib dedilər: "Ey Lut, bil ki, sənin Tanrın tərəfindən göndərilmişik. Gəlmişik ki, səni bu zülmdən xilas edək. Arxayın ol, bu kafir və pozğun adamlar bizə yaxın düşə bilməzlər. Onlar tezliklə məğlub olacaqlar." Sonra Cəbrayıl(ə) işarə etdi və onların hamısı kor oldu. Qorxu və dəhşət hissi camaata qalib gəldi. Onlar Lutu(ə) hədələyib qaçmağa üz qoydular. Lakin Lut(ə) özünü toxtaq tutmuşdu. Cəbrayıl(ə) ona dedi: "Gecə yarısı ailənlə birgə buradan köç. Çünki ilahi əzab sübh çağına yaxın nazil olacaqdır."

Lut(ə) ona iman gətirənlərlə birgə şəhərdən çıxdı və sübh çağına yaxın Allahın əzabı həmin qövmə nazil oldu. "Hud" surəsinin 82-ci ayəsində belə buyurulur:

فَلَمَّا جَاءَ أَمْرُنَا جَعَلْنَا عَالِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهَا حِجَارَةً مِّن سِجِّيلٍ مَّنضُودٍ

-Beləliklə, elə ki, Bizim əmrimiz (mələklərə) yetişdi və istəyimiz qətiləşdi, həmin şəhərləri alt-üst etdik və onların üzərinə bişmiş və möhkəm gildən ibarət daş parçalarından dolu yağdırdıq.

Allah-təala “Hicr” surəsində İslam Peyğəmbərinə(s) xitab edərək Lutun(ə) qövmünün əhvalatını belə bəyan edir:

لَعَمْرُكَ إِنَّهُمْ لَفِي سَكْرَتِهِمْ يَعْمَهُونَ. فَأَخَذَتْهُمُ الصَّيْحَةُ مُشْرِقِينَ. فَجَعَلْنَا عَالِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهِمْ حِجَارَةً مِّن سِجِّيلٍ. إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّلْمُتَوَسِّمِينَ. وَإِنَّهَا لَبِسَبِيلٍ مُّقِيمٍ. إِنَّ فِي ذَلِكَ لآيَةً لِّلْمُؤمِنِينَ

-Sənin canına and olsun ki, onlar öz (küfr, günah və şəhvət) məstliklərində çaşqın və sərgərdan idilər. Və (nəhayət) günəş çıxan zaman onları (göydən gələn) səs bürüdü. Beləliklə, onların şəhərlərini alt-üst etdik və onlara gil daşlardan yağış yağdırdıq. Şübhəsiz, bunda (bu hadisədə) ağıl və şüur sahibləri üçün (Allahın qüdrət və qəzəbi, bəndənin azğınlığının sonu barəsində) nişanələr vardır. Və əlbəttə, o (viran edilmiş həmin şəhərlər) yol üzərində hələ də qalmaqdadır (və ibrət götürmək üçün bir amildir). Və həqiqətən bunda (bu hadisədə) iman əhli üçün (Haqqın qüdrəti və batilin cəzası barəsində) bir nişanə vardır.[1]

[1] Hicr surəsi, ayə 72-77.

## Homoseksualizm zinadan da çirkin və murdar işdir

Homoseksualizm o qədər çirkin və murdar bir əməldir ki, bəşər tarixində ondan çirkin bir əməl qeyd olunmamışdır. Zinakarlıq çirkin və pis işdir. Homoseksualizm isə ondan daha murdar və çirkin əməldir. Allahın bu dünyada nazil etdiyi ən ağır əzab məhz homoseksualizmlə məşğul olanlara göndərdiyi əzab olmuşdur.

قَالَ الصَّادِقُ(ع): حرْمَةُ الدُّبُرِ أَعْظَمُ مِنْ حُرْمَةِ الْفَرْجِ إِنَّ اللَّهَ أَهْلَكَ أُمَّةً بِحُرْمَةِ الدُّبُرِ، وَ لَمْ يُهْلِكْ أَحَداً بِحُرْمَةِ الْفَرْجِ

-İmam Sadiq(ə) buyurur: "Həqiqətən homoseksualizmin murdar və haram olması zinanın haram və çirkinliyindən daha çoxdur. Allah-təala bir ümməti (qövmü) homoseksualizmlə məşğul olduqlarına görə həlak etdi. Amma heç bir qövmü zina etdiklərinə görə həlakətə uğratmayıb. [1]

Homoseksualizmlə məşğul olanlar dünyəvi fəlakət və əzabdan əlavə, axirətdə də Allahın əzabına düçar olacaqlar. Bu barədə də bir çox hədislər nəql olunmuşdur:

قَالَ رَسُولُ اللهِ(ص): مَن جَامَعَ غُلاماً جَاءَ يَومَ القِيامَة جُنُباً لا يُنقِيهِ مَاءُ الدُّنيا وَ غَضَبَ اللهُ عَلَيهِ وَ لَعَنَهُ وَ اَعَدَّلَهُ جَهَنَّم وَ سَائَت مَصِيراً ثُمَّ قَالَ: اِنَّ الذَّكَرَ يَركَبُ الذَّكَر فَيَهتَزُّ العَرشِ لِذَلِك... فَيَحبِسَهُ الله عَلَى جسر جَهَنَّم حَتَّى يَفرغ اللهُ مِن حِسابِ الْخَلائِق. ثُم يُؤمَر بِهِ

---

[1] Böyük günahlar,1-ci cild, səh.203.

اِلَی جَهَنَّم فَیُعَذِّبُ بِطَبَقَاتِهَا طَبَقَةً طَبَقَة حَتَّی یَرِدَ اَسفَلَهَا وَلا یَخرج مِنهَا

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs bir oğlanla yaxınlıq etsə, qiyamət günü qüsllü halda məhşərə gətirilər və bütün dünyanın suyu onu pak etməz. Allah-təala ona qəzəblənər və lənətləyər. Cəhənnəm odunu onun üçün hazırlayar ki, onun yeri ən pis yer olar.”

Sonra Həzrət(s) buyurdu: “Hər kəs homoseksualizmlə məşğul olsa, Allahın ərşi lərzəyə gələr. Qiyamət günü homoseksualizmlə məşğul olanı cəhənnəmin kənarında saxlayar. İnsanlar hesab-kitab olunduqdan sonra onu cəhənnəmə atarlar. Cəhənnəmn qatları və təbəqələri içində həmişə əzab olunar.”[1]

قَالَ الصَّادِقُ(ع): ثَلاَثَةٌ لاَ یُکَلِّمهُمُ الله یَوْمَ القِیَامَةِ وَلاَ یُزَکِّیهِمْ وَلَهُمْ عَذَابٌ أَلِیمٌ... اَلْمُنکَح فِی دُبُرِهِ

-Həzrət İmam Sadiq(ə) buyurur: “Allah qiyamət günündə bir neçə dəstə insanla danışmaz, onları paklaşdırmaz və onları şiddətli əzaba düçar edər. Onlardan biri də homoseksualizmlə məşğul olanlardır.”[2]

---

[1] Böyük günahlar,1-ci cild, səh.203.
[2] Mizanül-hikmə, hədis 7619.

## Şəhvətlə öpmək və baxmaq

Homoseksualizmlə məşğul olma çirkin, murdar və haram işlərdən biri olduğu kimi, oğlan uşağını şəhvətlə öpmək və şəhvətlə baxmaq da haram və böyük günahlardandır. Bu işi görən adama yerin-göyün mələkləri lənət oxuyarlar. Bu barədə olan hədislərdən bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ قَبَّلَ غُلاماً مِنْ شَهْوَة اَلْجَمَهُ اللهُ عَزَّوَجَلَّ بِلُجَامٍ مِنْ نَار

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs oğlan uşağını şəhvətlə öpsə, Allah-təala (qiyamət günü) həmin şəxsin ağzına odlu noxta vurar."[1]

قَالَ الصَّادِقُ(ع): إِذَا أَقبَلَ (قبّل) الرَّجُلُ غُلاماً بِشَهوَةٍ لَعَنَتهُ مَلائِكَةُ السَّمَاءِ، وَمَلائِكَةُ الأَرضِ، وَمَلائِكَةُ الرَحمَةِ، وَمَلائِكَةُ الغَضَب، وَ أَعَدَّ لَهُ جَهنّم وَسَائَت مَصِيراً

İmam Sadiq(ə) buyurur: "Bir kişi oğlan uşağını şəhvətlə öpdüyü zaman göyün mələkləri, yerin mələkləri, rəhmət və qəzəb mələkləri həmin şəxsə lənət oxuyar. Onun yeri ən pis məkan (cəhənnəm) olar."[2]

Peyğəmbər(s) və imamlarımızdan nəql olunmuş hədislərdə bəyan olunur ki, şəhvət gözü ilə cavan oğlana və yaxud qadına baxmaq haramdır. Şəhvət gözü ilə

---

[1] Böyük günahlar,1-ci cild, səh.206.
[2] Böyük günahlar,1-ci cild, səh.206.

baxmağın pis aqibəti vardır ki, ötən bəhslərimizdə bunları qeyd etmişik.

**8. Onanizm**

İnsanın ruhunun paklaşmasının qarşısını alan və Allahın qəzəbinə səbəb olan amillərdən biri də onanizmdir. Bu, şəhvətin dəf edilməsinin ən pis növlərindən biridir ki, mənəvi ziyandan əlavə, insan üçün maddi və fiziki zərərlər də törədir. Belə ki, bu çirkin əməlin törətdiyi zərərlər demək olar ki, sağalmaz xəstəliyə gətirib çıxarır. Həmçinin bu əməl insanın imanını, əxlaq və mənəviyyatını pozub dağıdır. Dünya alimlərinin və psixoloqların bu barədə yazdıqlarına əsaslanaraq deyə bilərik ki, onanizm bir gənc üçün həlakedici əməldir. Bunun törədə biləcəyi bəzi ziyanları aşağıda təqdim edirəm:

1. İnsanın gözlərinin qüvvət və şəffaflığını zəiflədir;
2. İnsanın üzünün rəngi solğunlaşır;
3. İnsanın üzündə kompleks halları yaranır;
4. Gözlərin çevrəsi tünd halqa ilə əhatələnir;
5. Bədənin müxtəlif əzalarında süstlük və tənbəllik müşahidə olunur;
6. Yaddaş zəifləyir;
7. İştaha pozğunluğu yaranır və həzm çətinləşir;
8. Nəfəs daralır və təngnəfəslik baş verir;
9. İnsanın əxlaqı izaholunmaz dərəcədə dəyişilir;
10. Yuxusuzluğa səbəb olur;
11. İnsanı hər şeydən uzaqlaşdırır və siqaretə meyl edir;
12. Başgicəllənməyə səbəb olur;
13. Bel ağrısına səbəb olur;
14. İmmunitetin azalmasına səbəb olur;

15. Eşitmə qabiliyyətində problemlər yaradır;

16. Cinsi orqanlarda zəiflik və süstlüyə səbəb olur;

17. Evləndikdən sonra həyat yoldaşı üçün cinsi problemlər yaradır;

18.Onanizmə adət edənlər çox vaxt evləndikdən sonra cinsi yaxınlıqdan ləzzət almırlar.

Şəhvət məsələsində və onanizmdə ifrata yol vermiş kəslər yuxarıda sadaladığımız problemlərlə üzləşirlər. Buna görə də öz gələcəklərini düşünən cavanlar bu kimi murdar əməllərdən uzaqlaşmalı və vaxtında tədbir görməlidirlər. Unutmayın, bu da elə bir xəstəlikdir ki, öz mənəvi və maddi ziyanları ilə cəmiyyətin pozulmasına gətirib çıxarır.

## Onanizmi aradan qaldırmağın yolları

İslam alimləri və elm adamları onanizmin aradan qaldırılması üçün bir sıra çarə yollarını göstərmişlər. Onlardan bəzisini aşağıda diqqətinizə təqdim edirəm:

1. Naməhrəmə, açıq-aşkar filmlərə baxmaq kimi təhrikedici və şəhvətgətirici işlərdən uzaqlaşmaq;

2. Bütün günü əhatə edən gündəlik proqramın hazırlanması. Elə etmək lazımdır ki, boş vaxt qalmasın;

3. İdmana xüsusi diqqətin yetirilməsi;

4. Onu tərk etmək üçün başqa və yaxşı bir işə adət etmək;

5. Mütləq surətdə tək qalmaqdan çəkinmək;

6. Nalayiq və azğın adamlardan tam uzaqlaşmaq;

7. Yemək rejiminə riayət (İsti və acı yeməklərdən çəkinmək.) etmək;

8. Xüsusilə soyuq, yaxud ilıq su ilə çimmək;

9. Yəqinlik və iradəni möhkəmləndirmək;

10. İman gücündən bəhrələnmək və Quran oxumaq.

Yuxarıda sadalanan amillər vicdan əzabından, şəhvətpərəstlikdən, dünyadakı problemlərdən və axirət əzabından xilas olmaq istəyənlər üçün böyük bir köməkdir.

Onanizm insanın mənəviyyatını puç edən və insanı Allahın qarşısında alçaldan və Onun qəzəbinə səbəb olan çirkin bir əməldir. Belə ki, bu işi görən insan həm Allahın lənətinə düçar olar, həm də qiyamət günü Allahın danışmadığı insanların cərgəsində qərar tutar. Onanizmin çirkin, pis və günah əməllərdən olması barədə bir sıra hədislər var ki, onların bəzisini nəzərinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): نَاكِحُ الكَفِّ مَلعُونٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Şəhvətini əli ilə təmin edən şəxs məlundur.”[1]

قَالَ الصَّادِقُ(ع): ثَلاَثَةٌ لاَ يُكَلِّمهُمُ الله يَوْمَ القِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ... وَالنَّاكِحُ نَفسَه

-Həzrət İmam Sadiq(ə) buyurur: “Allah qiyamət günündə üç dəstə insanla danışmaz, onları paklaşdırmaz və şiddətli əzaba düçar edər. Onlardan biri də özləri ilə nikaha girən şəxslərdir (onanizmlə məşğul olanlardır).”[2]

Bir rəvayətdə belə nəql olunur ki, İmam Sadiqdən(ə) onanizm barədə soruşduqda İmam(ə) buyurdu:

---

[1] Böyük günahlar,2-ci cild, səh.333.
[2] Mizanül-hikmə, hədis 7619.

إثمٌ عَظيمٌ قد نَهَى اللّهُ تعالى عَنهُ في كتابهِ ، و فاعِلُهُ كناكِحِ نفسِهِ ، و لو عَلِمتُ بمَن يَفعَلُهُ ما أكَلتُ مَعهُ

فقالَ السّائلُ : فَبيِّنْ لي يا بنَ رسولِ اللّهِ صلى الله عليه و آله مِن كتابِ اللّهِ نَهيَهُ.

فقالَ : قولُ اللّهِ : فمَنِ ابْتَغى وَراءَ ذلكَ فأُولئكَ هُمُ العادُونَ

-Allahın Quranda qadağan etdiyi böyük günahlardandır. Onanizmlə məşğul olan şəxs özü ilə evlənmiş kəsdir. Əgər bu işi görən şəxsi tanısam, heç bir vaxt onunla bir süfrədə əyləşmərəm.

Bir nəfər soruşdu: "Ey Peyğəmbərin(s) balası, bu əməlin hökmü Quranın hansı ayəsində bəyan olunmuşdur?"

İmam Sadiq(ə) buyurdu: "Allah-təala ("Möminun" surəsinin 7-ci ayəsində) buyurur: "Odur ki, bundan (zövcələrdən və kənizlərdən) başqasını axtaranlar (bu ikisindən başqasından hər hansı bir cinsi ləzzət alanlar İslamın müəyyənləşdirdiyi) həddi aşanlardır."

**9. Münafiqlik (İkiüzlülük)**

İnsanın ruhunun paklaşmasının və təzkiyə olunmasının qarşısını alan amillərdən biri də münafiqlikdir. Yəni bir insan üzdə sənə dost olduğunu izhar etməsinə baxmayaraq, əslində tamamilə bunun əksini nümayiş etdirir və sənə qarşı düşmənçilik edir. Allah-təalanın münafiq insanlardan xoşu gəlmir. Münafiq və ya ikiüzlü insan o kəslərin cərgəsində qərar tutur ki, qiyamət günü Allah-təala onlarla danışmayacaq və onları

ağrılı əzaba düçar edəcəkdir. Bu barədə də bir çox hədislər nəql olunmuşdur:

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاثَةٌ لاَ يُكَلِّمهُمُ اللهُ وَ لا يَنظُرُ إلَيهِم يَومَ القِيامَةِ و لا يُزَكّيهِم و لَهُم عَذابٌ أليمٌ : ...و رَجُلٌ اِستَقبَلَكَ بِوُدِّ صَدرِهِ فَيُواري (وقَلبُهُ) مُمتَلِئٌ غِشّاً

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah qiyamət günündə üç dəstə insanla danışmaz, onlara nəzər etməz, onları paklaşdırmaz və onları ağır əzaba düçar edər. Onlardan biri də o kəsdir ki, səninlə qarşılaşdıqda özünü mehriban göstərir, lakin qəlbi tam əksinə, sənə qarşı kin-küdurətlə dolu olur."[1]

Ümumiyyətlə, hər kəs öz dünyagörüşünə uyğun olaraq başa düşür ki, münafiqlik çox çirkin və pis bir işdir. Quran ayələri və hədislərdə isə münafiq insanın xüsusiyyət və əlamətləri bizim üçün açıqlanıb bəyan edilmişdir.

## İkiüzlülüyün əsasları

Sual oluna bilər ki, ikiüzlülüyün əsasları haradan əmələ gəlir? Cavab olaraq demək olar ki, məsələn, hər hansı bir mühitdə Peyğəmbərin(s) İslam inqilabı kimi bir inqilab baş verdikdə və hökumət ədalət sütunlarının üzərində qurulduqda, təbiidir ki, bir sıra zalım insanların mənfəətləri təhlükə altına düşür. Buna görə də belələrinin məlum üç yoldan başqa yolları qalmır. Birinci yol budur ki, onlar öz mənfəətlərindən keçərək Allaha səmimi qəlbdən iman gətirsinlər. İkinci yol budur ki, əgər

[1] Mizanül-hikmə, hədis 7623.

bacarırlarsa inqilab etmiş qüvvəni əzsinlər. Üçüncü yol isə budur ki, zahirən İslamı qəbul edərək özlərini dost kimi göstərsinlər. Beləcə həmin inqilab etmiş qüvvədən intiqam almaq üçün yaxşı bir fürsətin ələ düşməsini gözləyirlər. Bəli, məhz bunlar münafiq, yəni ikiüzlü insanlardır.

İslam dini Məkkədə zühur etdikdən sonra münafiqlərlə onların arasında heç bir problem yaşanmırdı. Çünki müsəlmanların bir o qədər güc və qüdrətləri yox idi. Amma Mədinədə İslam hökuməti qurulduqdan və xüsusilə Bədr müharibəsində müsəlmanların qələbəsindən sonra bu məsələ aşkara çıxdı. O zaman Mədinədə camaatın hörmət bəslədiyi iki qüvvə var idi. Onlardan biri yəhudilər idi ki, camaat onlara ehtiram göstərirdi. İkincisi isə camaata rəhbərlik etmək iddiasında idi. Camaat onlara da hörmət edirdi. İslam Peyğəmbəri(s) zühur etdikdə isə həmin qüvvələrə hörmət bəsləyən camaatın əksəriyyəti Peyğəmbərə(s) qoşularaq ona iman gətirdilər. Onlar çevrələrinin boşaldığını görüb müxalifətə keçdilər. Bu adamların Peyğəmbərlə(s) müharibə etməyə qüdrəti çatmadığından onlar ikiüzlülüyə başladılar.

Burada bir neçə mühüm mətləbə diqqət yetirmək lazımdır. Həmin mətləblərdən biri budur ki, münafiqlik də iki qismə bölünür: batini və zahiri münafiqlik. Birinci qism münafiqlik əqidə ilə bağlıdır. Yəni zahirdə iman gətirmələrinə baxmayaraq, ürəklərində şirk və küfr gizlənmişdir. İkinci qism isə əməli münafiqlikdir. Belə insanlar daxilən Allaha iman gətirmələrinə və etiqadları İslam olmasına baxmayaraq, imanlarının əksinə əməl edirlər.

### 1. Əvvəldən iman gətirməyən münafiqlər

Əxnəs ibn Şəriq əvvəldən iman gətirməmiş və Məkkədə kifayət qədər tanınmış müşriklərdən biri idi. Sonralar o, Mədinə şəhərinə gələrək zahirdə İslamı qəbul etdi. Onun gözəl çöhrəsi, lətafətli danışığı var idi. Həmişə Peyğəmbəri(s) gördükdə onu çox sevdiyini söyləyir və Həzrətin(s) kənarında əyləşirdi. Hətta bəzi vaxtlar and içib deyirdi ki, Peyğəmbəri(s) çox sevirəm. Həzrət Peyğəmbər(s) də ona heç bir söz demirdi.

Günlərin birində onunla Səqif tayfasının adamları arasında söz-söhbət yarandı və bir-birilərinə qarşı düşmənçilik etməyə başladılar. Bu düşmənçilik sonda müharibəyə səbəb oldu. Əxnəs öz dostları ilə birgə gecə vaxtı müsəlmanların üzərinə hücuma keçdi. Onlar müsəlmanların heyvanlarını öldürüb, əkinlərini də yandırdılar. O, bu əməli ilə daxilindəki nifaq və küfrünü üzə çıxartdı. Hamı onun münafiq bir insan olduğunu başa düşdü. Bu hadisədən sonra Allah-təala “Bəqərə” surəsinin 204-206-cı ayələrini nazil etdi:

وَمِنَ النَّاسِ مَن يُعْجِبُكَ قَوْلُهُ فِي الْحَيَاةِ الدُّنْيَا وَيُشْهِدُ اللّهَ عَلَى مَا فِي قَلْبِهِ وَهُوَ أَلَدُّ الْخِصَامِ. وَإِذَا تَوَلَّى سَعَى فِي الأَرْضِ لِيُفْسِدَ فِيِهَا وَيُهْلِكَ الْحَرْثَ وَالنَّسْلَ وَاللّهُ لاَ يُحِبُّ الفَسَادَ. وَإِذَا قِيلَ لَهُ اتَّقِ اللّهَ أَخَذَتْهُ الْعِزَّةُ بِالإِثْمِ فَحَسْبُهُ جَهَنَّمُ وَلَبِئْسَ الْمِهَادُ

-İnsanların eləsi var ki, onun dünya həyatındakı danışığı səni heyran edir və o, Allahı öz qəlbində olana şahid tutur, halbuki o, düşmənlərin ən qəddarıdır. Üz döndərən (və sənin yanından çıxıb gedən, yaxud iş başına keçən) zaman isə yer üzündə fəsad törətmək, əkin sahələrini və nəsli məhv etmək üçün yola düşər. Allah fəsadı sevmir. Və ona “Allahdan qorx!” deyilən zaman

təəssübkeşlik və qürur onu günaha vadar edər (və o, zalımcasına əksül-əməl göstərər). Buna görə də cəhənnəm ona kifayətdir və əlbəttə (o) çox pis bir yerdir.

**2. Əvvəllər iman gətirən və sonradan nifaq yolunu tutanlar**

Allah-təala “Munafiqun” surəsinin 1-4-cü ayələrində belə buyurur:

إِذَا جَاءكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ إِنَّكَ لَرَسُولُ اللَّهِ وَاللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ. اتَّخَذُوا أَيْمَانَهُمْ جُنَّةً فَصَدُّوا عَن سَبِيلِ اللَّهِ إِنَّهُمْ سَاء مَا كَانُوا يَعْمَلُونَ. ذَلِكَ بِأَنَّهُمْ آمَنُوا ثُمَّ كَفَرُوا فَطُبِعَ عَلَى قُلُوبِهِمْ فَهُمْ لَا يَفْقَهُونَ. وَإِذَا رَأَيْتَهُمْ تُعْجِبُكَ أَجْسَامُهُمْ وَإِن يَقُولُوا تَسْمَعْ لِقَوْلِهِمْ كَأَنَّهُمْ خُشُبٌ مُّسَنَّدَةٌ يَحْسَبُونَ كُلَّ صَيْحَةٍ عَلَيْهِمْ هُمُ الْعَدُوُّ فَاحْذَرْهُمْ قَاتَلَهُمُ اللَّهُ أَنَّى يُؤْفَكُونَ

-Münafiqlər sənin yanına gəldikdə deyərlər: “Şəhadət veririk ki, həqiqətən, sən Allahın Rəsulusan.” Allah bilir ki, sən Onun Rəsulusan və həm də Allah şəhadət verir ki, həqiqətən, münafiqlər yalançıdırlar (və öz əqidələrinin əksinə olaraq şəhadət verirlər). Onlar öz andlarını sipər etmişlər, beləliklə Allahın yolundan üz döndərmiş və camaatı da ondan (bu yoldan) saxlamışlar; doğrudan da etdikləri iş olduqca pisdir! O (nifaq və pis əməl) buna görə idi ki, onlar (bəzi möcüzələri görməklə) iman gətirdilər, sonra isə kafir oldular (və münafiqlərə qoşuldular), beləliklə onların qəlblərinə (bədbəxtlik) möhür(ü) vuruldu, buna görə də başa düşmürlər. Onları gördükdə (yaraşıqlı) cüssələri (boy-buxunları) səni

heyrətləndirir və (elə yağlı dilləri var ki,) danışdıqları zaman sözlərinə qulaq asırsan, (amma imansız və mənəviyyatsız olduqları üçün) elə bil ki, dayaq verilmiş kötüklərdir! (Qorxaqlığın şiddətindən) hər bir fəryadın (səs-küyün) öz əleyhlərinə olduğunu zənn edirlər; onlar (həqiqi) düşməndirlər, onlardan özünü gözlə; Allah onları öldürsün! (Haqdan) necə və haraya döndərilirlər?!

Bu ayə “Tövbə” surəsinin 74-cü ayəsinə bənzəyir. Allah-təala həmin ayədə belə buyurur:

يَحْلِفُونَ بِاللّهِ مَا قَالُواْ وَلَقَدْ قَالُواْ كَلِمَةَ الْكُفْرِ وَكَفَرُواْ بَعْدَ إِسْلاَمِهِمْ وَهَمُّواْ بِمَا لَمْ يَنَالُواْ وَمَا نَقَمُواْ إِلاَّ أَنْ أَغْنَاهُمُ اللّهُ وَرَسُولُهُ مِن فَضْلِهِ فَإِن يَتُوبُواْ يَكُ خَيْرًا لَّهُمْ وَإِن يَتَوَلَّوْا يُعَذِّبْهُمُ اللّهُ عَذَابًا أَلِيمًا فِي الدُّنْيَا وَالآخِرَةِ وَمَا لَهُمْ فِي الأَرْضِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ

-Münafiqlər Allaha and içirlər ki, (Peyğəmbərin arxasınca pis söz) deməyiblər. Halbuki şübhəsiz, küfr sözü deyiblər və İslamı qəbul etdikdən sonra (dönüb) kafir olublar (İslamı izhar etdikdən sonra küfrü izhar ediblər). Və onlar nail ola bilmədikləri təhlükəli bir qərar (Peyğəmbərə sui-qəsd, ya onu Mədinədən çıxarmaq qərarını) qəbul etdilər. Onlar (Allaha və Peyğəmbərə) yalnız Allah və Onun Peyğəmbərinin onları Öz lütf və kərəmləri ilə ehtiyacsız etmələrini irad tutdular və qəzəbləndilər (beləliklə, nemətə şükür etmək əvəzinə intiqam almaq istədilər). Odur ki, əgər tövbə etsələr, onlar üçün daha yaxşıdır və əgər üz döndərsələr, Allah onlara dünya və axirətdə ağrılı bir əzab verəcək və yer üzündə onların bir başçı və köməkçiləri olmayacaqdır.

Bəyan olunan ayələrin nazilolma səbəbi barədə tarixi mənbələrdə, hədis və təfsir kitablarında geniş şəkildə

yazılmışdır. Ondan sonrakı ayələrin təəccüb doğuran nazilolma səbəbi vardır ki, qısası belədir:

-Hicrətin altıncı ilində Qədid əyalətində baş vermiş Bəni-Müstələq müharibəsindən sonra iki nəfər müsəlman quyudan su çəkmək istəyirdi. Onların biri ənsarlardan, digəri isə mühacirlərdən idi. Onlar quyudan su çəkərkən sözləri çəp gəldi. Onlardan biri ənsarları, digəri isə mühacirləri köməyə çağırdı. Mühacirlərdən bir nəfər öz dostunun köməyinə çatdı. Abdullah ibn Übey münafiqlərin tanınmış sərkərdəsi və böyüyü idi ki, o da həmin ənsarlardan olan müsəlmana kömək etmək üçün gəldi. Quyudan su çəkən həmin iki nəfərin söz-söhbəti daha da dərinləşdi. Onlar bir-biri ilə söz davasına çıxmışdılar. Elə bu an Abdullah ibn Übey üzünü ətrafdakı ənsarlara tutub belə bir atalar misalı çəkdi: "İtini yaxşı bəslə, axırda da səni yesin." Allaha and olsun ki, Mədinəyə qayıtdıqdan sonra əzizlərimiz zəlilləri oradan qovacaq.

O, əzizlər deyəndə məqsədi ənsarlar, yəni Mədinədə yaşayanlar, zəlillər deyəndə isə məqsədi mühacirlər idi. Yəni Mədinəyə qayıtdıqdan sonra ənsarlar mühacirləri oradan çıxaracaqlar.

Sonra Abdullah ibn Übey üzünü ətrafındakılara tutaraq dedi: "Bütün bunların hamısı sizin öz günahınızdır. Başınıza gələnlərin hamısı sizin gördüyünüz işlərin nəticəsidir. Əgər bu dəstəni (mühacirləri) öz şəhərinizə buraxmasaydınız, mallarınızı onlarla bölüşdürməsəydiniz, əgər öz yeməklərinizin artığını bunun kimilərə (əli ilə həmin mühacirə işarə edərək) yedirtməsəydiniz, indi sizin boynunuza minməzdilər."

Zeyd ibn Ərqəm imanlı bir gənc idi. Yaşı az olmasına baxmayaraq, Abdullahın bu sözlərini eşitdikdə

üzünü ona tutub dedi: “Allaha and olsun ki, zəlil sən özünsən. Məhəmməd(s) isə əziz və müsəlmanların sevimlisidir. Bundan sonra səninlə heç bir dostluq etməyəcəyəm.”

Abdullah onun üstünə qışqırıb dedi: “Kəs səsini, ay uşaq.”

Zeyd ibn Ərqəm Peyğəmbərin(s) yanına gələrək hadisəni bütünlüklə danışdı. Peyğəmbər(s) bir nəfəri Abdullah ibn Übeyin dalınca göndərdi. Abdullah gəldikdən sonra Peyğəmbər(s) ona buyurdu: “Mənim barəmdə bu nədir danışmısan?”

Abdullah dedi: “Sənə nazil olan kitaba and olsun ki, mən heç bir şey deməmişəm. Zeyd yalan deyir.”

Peyğəmbərin(s) yanında əyləşən ənsarlar dedilər: “Ya Rəsulallah, Abdullah bizim başçımızdır. Ənsarlardan olan bir uşağın onun barəsində dediyi sözləri qəbul etməyin.”

Peyğəmbər(s) onların üzrünü qəbul etdi. Ənsarlar Zeyd ibn Ərqəmi danlamağa başladılar.

Abdullah ibn Übeyin sözləri onun oğlunun qulağına çatdı. O, Peyğəmbərin(s) yanına gəlib dedi: “Ya Rəsulallah, eşitmişəm ki, atamı öldürmək istəyirsiniz. Əgər belədirsə, bu işi mənə tapşırın. Mən özüm onun başını kəsib sizin üçün gətirərəm. Çünki hamı bilir ki, ata-anasına məndən çox yaxşılıq edən yoxdur. Qorxuram ki, kimsə atamı qətlə yetirsin, həmin qatilin üzünə baxa bilməyim. Qorxuram ki, atamı qətlə yetirən möminlə üz-üzə gəlim və onu öldürüm. Belə olduqda cəhənnəm oduna düşə bilərəm.”

Peyğəmbər(s) buyurdu: “Ortada sənin atanı öldürmək məsələsi yoxdur. Nə qədər ki, o, bizimlədir, onunla xoş davran və ona yaxşılıq et.”

Sonra Peyğəmbər(s) bütün qoşuna Mədinəyə tərəf hərəkət etmək əmrini verdi. Səhərisi gün çıxdıqda Peyğəmbər(s) qoşuna istirahət etmək üçün dayanmaq əmrini verdi. Döyüşçülər o qədər yorulmuşdular ki, başlarını yerə qoyan kimi dərin yuxuya getdilər. Peyğəmbər(s) bununla həm də istəyirdi ki, camaat dünənki hadisəni və Abdullah ibn Übeyin sözlərini unutsunlar.

Nəhayət, Peyğəmbər(s) qoşunla birgə Mədinə şəhərinə daxil oldu. Zeyd ibn Ərqəm deyir: "Mədinəyə daxil olan kimi utandığımdan evə qaçıb bayıra çıxmadım." Elə həmin ərəfələrdə "Munafiqun" surəsi nazil oldu və Zeydin sözlərinin doğru olduğu, Abdullahın yalançı olması üzə çıxdı.

Bu hadisədən sonra Abdullah ibn Übey Mədinəyə daxil olmaq istədikdə oğlu onun qarşısını kəsib şəhərə daxil olmağa qoymadı. Abdullah oğluna dedi: "Vay olsun sənə, nə edirsən? Oğlu dedi: Allaha and olsun ki, Peyğəmbərin(s) icazəsi olmasa, səni şəhərə buraxmayacağam. İndi başa düşdünmü ki, əziz kimdir, zəlil kim?"

Abdullah bir nəfərin vasitəsilə öz oğlundan Peyğəmbərə(s) şikayət etdi. Peyğəmbər(s) onun oğluna xəbər göndərdi ki, Abdullahla işin olmasın, qoy şəhərə girsin. Abdullahın oğlu bu xəbəri eşitdikdə dedi: "İndi ki, Peyğəmbər(s) sənə icazə verir, şəhərə girə bilərsən."

Abdullah Mədinəyə daxil olduqdan bir neçə gün sonra xəstələnib öldü. "Munafiqun" surəsinin ilk ayələri nazil olduqdan sonra onun bütün yalanları üzə çıxmışdı. Ölməmişdən qabaq bəziləri ona dedilər: "Sənin barəndə çox şiddətli ayələr nazil olub. Peyğəmbərin(s) hüzuruna get və tövbə et. Həzrətdən(s) Allaha dua edib sənin bağışlanmağını istəməsini dilə." Abdullah başını

silkələyib dedi: “Mənə dediniz iman gətir, gətirdim. Mənə dediniz zəkat ver, verdim. Bircə o qalıb ki, mənə deyəsiz get, Məhəmmədə(s) səcdə et.”

Elə bu halda “Munafiqun” surəsinin 5-8-ci ayələri Peyğəmbərə(s) nazil oldu. Allah-təala bu ayələrdə belə buyurur:

وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْا يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ اللَّهِ لَوَّوْا رُؤُوسَهُمْ وَرَأَيْتَهُمْ يَصُدُّونَ وَهُم مُّسْتَكْبِرُونَ. سَوَاء عَلَيْهِمْ أَسْتَغْفَرْتَ لَهُمْ أَمْ لَمْ تَسْتَغْفِرْ لَهُمْ لَن يَغْفِرَ اللَّهُ لَهُمْ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ. هُمُ الَّذِينَ يَقُولُونَ لَا تُنفِقُوا عَلَى مَنْ عِندَ رَسُولِ اللَّهِ حَتَّى يَنفَضُّوا وَلِلَّهِ خَزَائِنُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَفْقَهُونَ. يَقُولُونَ لَئِن رَّجَعْنَا إِلَى الْمَدِينَةِ لَيُخْرِجَنَّ الْأَعَزُّ مِنْهَا الْأَذَلَّ وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَعْلَمُونَ

-Onlara: “Gəlin Allahın Rəsulu sizin üçün bağışlanmaq diləsin,” - deyildikdə (inkar və təkəbbür üzündən) başlarını bulayarlar, onları təkəbbürlə üz çevirən və başqalarını da düz yoldan saxlayan görərsən. Onlar üçün bağışlanmaq istəsən də birdir, istəməsən də. Əsla Allah onları bağışlamayacaqdır; Çünki Allah fasiq qövmü doğru yola yönəltməz. Onlar: “Allahın Rəsulunun yanında olanlara heç bir şey verməyin ki, (qoy) dağılışsınlar,”- deyən kimsələrdir. Halbuki göylərin və yerin xəzinələri Allaha məxsusdur və lakin münafiqlər (bunu) anlamazlar. Onlar deyirlər: “Əgər (bu döyüş səfərindən) Mədinəyə qayıtsaq, mütləq ən əzizlər ən zəlil olanları (münafiqlər dəstəsi Peyğəmbəri və yoldaşlarını) oradan çıxaracaqlar.”

Halbuki izzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur və lakin münafiqlər (bunu) bilmirlər.

## Qeyd olunan ayələrdə münafiqlərin on əlaməti

Ötən bəhslərimizdə qeyd olundu ki, insanın təzkiyə olunmasının, ruhunun paklaşmasının qarşısını alan amillərdən biri də münafiqlikdir. Münafiqlər o kəslərin sırasında qərar tutur ki, qiyamət günü Allah-təala onlarla danışmayacaq, onlara lütf nəzəri ilə baxmayacaq və onları ağır əzaba düçar edəcəkdir. Həmçinin qeyd etdik ki, münafiqlər əsasən iki cür olur. Onlardan biri əqidə üzrə, ikincisi isə əməli münafiqdir. Əqidə üzrə münafiq o kəsdir ki, əvvəldən iman gətirməyib, ancaq zahirən özünü müsəlman kimi göstərərək müsəlmanlara qoşulur. Sonradan yenə də İslamdan üz çevirərək köhnə əqidəsinə qayıdır. Əməli münafiq isə o kəsdir ki, əqidə baxımından müsəlmandır, lakin imanının əleyhinə hərəkət edir. Hər iki qrup insan haqda Quran ayələrindən bir nümunə də oxuduq.

Bu bəhsimizdə isə yuxarıda qeyd olunan ayələrdə münafiq insanın on əlamətinə işarə edəcəyik. Yəni bəyan olunmuş ayələrdə Allah-təala münafiq insanın on əlamət və sifətini bizə təqdim edir. Həmin əlamətlər və sifətlər bunlardır:

### 1. Açıq-aşkar yalan danışmaq

Münafiq insanın ayələrdə qeyd olunmuş əlamətlərindən birincisi açıq-aydın yalan danışmasıdır. Allah-təala buyurur:

وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

-Allah şəhadət verir ki, həqiqətən, münafiqlər yalançıdırlar (və öz əqidələrinin əksinə olaraq şəhadət verirlər).

**2. Camaatı aldatmaq və yoldan çıxarmaq üçün yalan and içmək**

Qeyd etdiyimiz ayələrə istinadən münafiq insanların əlamətlərindən ikincisi yalan and içərək camaatı azdırmaqdır.

اتَّخَذُوا أَيْمَانَهُمْ جُنَّةً فَصَدُّوا عَن سَبِيلِ اللَّهِ إِنَّهُمْ سَاءَ مَا كَانُوا يَعْمَلُونَ.

-Onlar öz andlarını sipər etmişlər, beləliklə Allahın yolundan üz döndərmiş və camaatı da ondan (bu yoldan) saxlamışlar; doğrudan da etdikləri iş olduqca pisdir!

**3. Həqiqəti dərk etməmək. Haqqı tanıdıqdan sonra yolu azmaq və bu işi təkrarlamaq**

Ayələrə əsasən münafiqlərin əlamətlərindən üçüncüsü budur ki, haqqı tanıdıqdan sonra iman gətirirlər, lakin get-gedə yollarını azırlar. Ayədə belə buyurulur:

ذَلِكَ بِأَنَّهُمْ آمَنُوا ثُمَّ كَفَرُوا فَطُبِعَ عَلَى قُلُوبِهِمْ فَهُمْ لَا يَفْقَهُونَ

-O (nifaq və pis əməl) buna görə idi ki, onlar iman gətirdilər, sonra isə kafir oldular (və münafiqlərə qoşuldular), beləliklə onların qəlblərinə (bədbəxtlik) möhür(ü) vuruldu, buna görə də başa düşmürlər.

**4. Batinlərinin əksinə olaraq zahiri görkəmləri və yağlı dilləri ilə özlərini göstərmək**

Ayədə bəyan olunur ki, münafiq insanların sifət və xüsusiyyətlərindən dördüncüsü zahiri görkəmlərini bəzəyib dillərini yağlı etməkdir. Allah-təala buyurur:

وَإِذَا رَأَيْتَهُمْ تُعْجِبُكَ أَجْسَامُهُمْ وَإِن يَقُولُوا تَسْمَعْ لِقَوْلِهِمْ

-Onları gördükdə (yaraşıqlı) cüssələri (boy-buxunları) səni heyrətləndirir və (elə yağlı dilləri var ki,) danışdıqları zaman sözlərinə qulaq asırsan.

**5. Quru taxta parçası kimi haqqın qarşılığında təsirsiz olmaq və hərc-mərclik**

Ayələrdə qeyd olunur ki, münafiq insanın xüsusiyyətlərindən beşincisi haqqa qarşı etinasız olmaqdır. Ayədə belə oxuyuruq:

كَأَنَّهُمْ خُشُبٌ مُّسَنَّدَةٌ

-(İmansız və mənəviyyatsız olduqları üçün) elə bil ki, dayaq verilmiş kötüklərdir!

**6. Xain olduqlarından hər bir hadisədə bədgüman olub həmin hadisələrin öz əleyhlərinə olduğunu zənn edərək qorxmaq**

Münafiq insanların əlamətlərindən və sifətlərindən altıncısı budur ki, qorxaqlıqlarının təsirindən hər bir hadisənin öz əleyhlərinə olduğunu güman edərlər. Ayədə belə buyurulur:

يَحْسَبُونَ كُلَّ صَيْحَةٍ عَلَيْهِمْ

-(Qorxaqlığın şiddətindən) hər bir fəryadın (səs-küyün) öz əleyhlərinə olduğunu zənn edirlər.

**7. Haqq-həqiqəti məsxərəyə qoyub ələ salmaq**

Münafiq insanların sifətlərindən yeddincisi haqq-həqiqəti məsxərəyə qoymaqdır. Onlar o qədər inadkar və təkəbbürlü olarlar ki, yanlarında haqq-həqiqətdən danışdıqda məsxərəyə qoyub başlarını bulayarlar.

لَوَّوْا رُؤُوسَهُمْ

-(İnadkarlıq və təkəbbürlülük üzündən) başlarını bulayarlar.

**8. Pozğunluq və günah etmək**

Münafiq insanın sifətlərindən səkkizincisi pozğunluq və günah etməkdir. Yəni münafiq insan heç bir vaxt günah etməkdən çəkinməz. Yeri gəldikcə hər cür günaha yol verir.

إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

-Allah pozğun qövmü doğru yola yönəltməz.

**9. Özlərini hər şeyin sahibi, başqalarını özlərinə möhtac sanmaq**

Qeyd olunan ayələrdə belə şərh olunur ki, münafiq insanın doqquzuncu sifəti özlərini hər şeyin sahibi bilmək və başqalarının isə onlara möhtac olduğunu güman etməkdir. Yəni onlar həmişə özlərinin qüdrətli olduğunu zənn edərlər. Onlar elə başa düşürlər ki, əgər məsrəf və ehsan etməsələr başqaları ehtiyac içində qalaraq məhv olacaqlar. Halbuki yerin və göyün bütün xəzinələrinin açarı Allahın əlindədir.

الَّذِينَ يَقُولُونَ لَا تُنفِقُوا عَلَى مَنْ عِندَ رَسُولِ اللَّهِ حَتَّى يَنفَضُّوا

-Onlar “Allahın Rəsulunun yanında olanlara heç bir şey verməyin ki, (qoy) dağılışsınlar”- deyən kimsələrdir.

### 10. Özlərini əziz, başqalarını zəlil təsəvvür etmək

Münafiq insanların sifət və xüsusiyyətlərindən onuncusu budur ki, özlərini əziz, başqalarını isə zəlil hesab edərlər.

يَقُولُونَ لَئِن رَّجَعْنَا إِلَى الْمَدِينَةِ لَيُخْرِجَنَّ الْأَعَزُّ مِنْهَا الْأَذَلَّ وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَعْلَمُونَ

-Onlar deyirlər: “Əgər (bu döyüş səfərindən) Mədinəyə qayıtsaq, mütləq ən əzizlər ən zəlil olanları (münafiqlər dəstəsi Peyğəmbəri və yoldaşlarını) oradan çıxaracaqlar.” Halbuki izzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilmirlər.

Qeyd olunan ayələrdən çıxarılmış bu on əlamət və sifət münafiq insanların xüsusiyyətləridir. Əlbəttə, münafiq insanların əlamətləri təkcə bu nişanələrlə bitmir. Quranın digər ayələrində də münafiq insanların müxtəlif əlamət və sifətləri açıqlanmışdır.

## Hədislərdə münafiq insanların sifətləri

Quran ayələrindən əlavə, Peyğəmbər(s) və məsum imamların kəlamlarında da münafiq insanların əlamətləri bəyan olunmuşdur. Həzrət Peyğəmbərin(s) özü münafiqlərlə bir dövrdə yaşayıb. İnsanlar arasında münafiqləri Peyğəmbərdən(s) daha yaxşı kim tanıya bilərdi? Qurana diqqət yetirdikdə münafiqlər barədə nə qədər ayələrin nazil olduğunun şahidi oluruq. Bəs bütün bu ayələrin nazilolma səbəbi nə idi? Kimlər barəsində bu ayələr nazil olmuşdur?

Əgər müşriklər barəsində nazil olmuşdusa, Allah-təala birbaşa olaraq onları müşrik adlandırmışdır. Əgər kafirlər barəsində nazil olmuşdusa, Allah-təala birbaşa kafirlərə xitab edir. Hansı ayədə müşrikə və yaxud kafirə münafiq deyilmişdir? Yəni Allah-təala Quranda kafirlərin, müşriklərin və münafiqlərin barəsində onların özlərinəməxsus şəkildə söhbət açmışdır. Hətta surələrdən biri də “Munafiqun” surəsidir ki, Allah-təala bu surədə münafiq insanın sifətlərini bəyan etmişdir. Bu münafiqlər həmin kəslərdir ki, Peyğəmbərə(s) “iman gətirmişik” deyirdilər, lakin arxada başqa hərəkətlər edirdilər. Onlar həmişə Peyğəmbərin(s) ətrafında dolaşırdılar. Çox vaxt isə Həzrətin(s) kənarında əyləşirdilər. İslam Peyğəmbəri(s) də onları hamıdan yaxşı tanıyırdı. Həm Quran ayələri, həm də cənab Cəbrayıl(ə) münafiqlərin hiylələrini İslam Peyğəmbərinə(s) çatdırırdılar.

Odur ki, münafiq insanların barəsində ən dəqiq söhbəti Peyğəmbər(s) edə bilər. Yəni münafiq insanın əlamətlərini Həzrət(s) daha yaxşı bilirdi. Həmçinin Həzrət Əli(ə) həmin münafiqlərlə eyni bir dövrdə yaşamışdır. Həzrət Əli(ə) təqvalı insanların sifət və xüsusiyyətləri barədə xütbə oxuyub izah etdiyi kimi, münafiqlərin barəsində də xütbə oxumuş və onların sifətlərini sadalamışdır. Həzrət Əli(ə) münafiqlərin sifət və xüsusiyyətlərini elə gözəl açıqlamışdır ki, sanki hər bir dövrdə yaşayan münafiq insanları görmüşdür.

قَالَ رَسُولُ اللهِ(ص): إنّ النِّفاقَ يَبدو لُمظَةً سَوداءَ، فكُلّما اِزدادَ النِّفاقُ عِظَما اِزدادَ ذلكَ السَّوادُ، فَإِذا استَكمَلَ النِّفاقُ اِسوَدَّ القَلبُ.

Həzrət Peyğəmbər(s) ikiüzlülük barədə belə buyurur: “İkiüzlülük əvvəlcə bir qara nöqtə kimi zahir olur və o,

artdıqca həmin nöqtə də böyüyür. İkiüzlülük təkmilləşəndə qəlb tamamilə qaralır.”[1]

Həzrət Peyğəmbərin(s) bu mübarək kəlamından açıq-aydın başa düşülür ki, ikiüzlülük insanın qəlbində birdən-birə yaranmır. Öncə qara nöqtə kimi insanın qəlbinə düşür. Artdıqca həmin qara nöqtə də böyüyür. Əgər insan qəlbinə düşmüş həmin qaralığı təmizləməsə, bütün qəlbi qapqara qaraldacaq. Qəlbi qaralmış insan isə bir daha xoşbəxtliyin üzünü görə bilməyəcək.

Qeyd olundu ki, Quran ayələrindən əlavə, hədislərdə də münafiq insanların əlamətləri zikr olunmuşdur. Burada yaxşı olar ki, nümunə üçün münafiq insanların sifətləri barədə nəql olunmuş həmin hədislərdən bir neçəsinə diqqət yetirək.

## 1. Öz barələrində ötəri, başqalarının barəsində dəqiq araşdırma aparmaq

Hədislərdə nəql olunur ki, münafiq insanlar həmişə öz barələrində dəqiq hesab-kitab aparmazlar. Amma başqalarının barəsində hər bir şeyi dəqiqləşdirmək və axırına çıxmaq istəyərlər. Ataların bu barədə bir misalı vardır ki, öz gözündə tiri görmür, başqalarının gözündə çöp axtarır.

قَالَ عَلِيٌّ(ع): أَلْمُنافِقُ لِنَفسِهِ مُداهِنٌ، وَعَلَى النَّاسِ طاعِنٌ

-Həzrət Əli(ə) buyurur: “Münafiq özü barədə səhlənkar olar və camaat barəsində isə dəqiq araşdırma aparar.”[2]

---

[1] Mizanül-hikmə, hədis 20553.
[2] Yenə orada, hədis 00061.

Deməli, münafiq insanlar həmişə özünün dağ boyda olan səhvinə əhəmiyyət verməz. Amma başqalarında olan kiçik bir xətanı axtarıb araşdırar və onu şişirtməyə çalışar. Möminlərin xüsusiyyətləri isə belə deyildir. Həm Quran ayələrində, həm də hədislərdə möminlərə təkid olunur ki, onlar ilk növbədə öz hesab-kitablarını düzəltsinlər. “Həşr” surəsinin 18-ci ayəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنظُرْ نَفْسٌ مَّا قَدَّمَتْ لِغَدٍ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

-Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs (özünün) sabah(ı) üçün qabaqcadan nə göndərdiyinə nəzər salmalıdır. Allahdan qorxun ki, Allah etdiklərinizdən xəbərdardır!

Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək Ondan qorxmağı təkid edir. Sonra isə axirət fikrində olmağı tövsiyə edir. Yəni hər bir mömin sabahı (axirəti) üçün qabaqcadan nə göndərdiyini düşünməli və əməllərinə fikir verməlidir. Həzrət Əli(ə) bu barədə gözəl bir xütbə oxumuşdur. Həmin xütbənin bir hissəsi belədir:

أَيُّهَاالنَّاس إِنَّمَاالدُّنْيا دارُ مَجازٍ وَالْآخِرَةُ دَارُقَرارٍ فَخُذُوا مِنْ مَمَرِّكُمْ لِمَقَرِّكُمْ وَ لا تَهْتِكُوا أَستَارَكُمْ عِنْدَ مَنْ يَعْلمْ أَسْرارَكُمْ وَ أَخْرِجُوا مِنَ الدُّنْيا قُلُوبَكُمْ مِنْ قَبْلِ أَنْ تُخْرَجَ مِنْهَا أَبْدانُكُمْ فَفِيهَا اخْتُبِرْتُمْ وَ لِغَيْرِهَا خُلِقْتُمْ أَنَّ الْمَرْءَ إِذا هَلَكَ قَالَ النَّاسُ: مَا تَرَكَ ؟ وَ قَالَتِ الْمَلائِكَةُ: مَا قَدَّمَ ؟ لِلّهِ آباؤُكُمْ فَقَدِّمُوا بَعْضًا يَكُنْ لَكُمْ وَ لا تُخَلِّفُوا كُلًّا فَيَكُونُ عَلَيْكُمْ

-Ey camaat! Dünya fanidir, axirət isə əbədi. Öz əbədi eviniz üçün hazırlıq işləri görün. Sizin bütün sirlərinizi bilən Allaha qarşı günah etməyin. O, sizin bədənlərinizi aparmamışdan öncə dünya məhəbbətini qəlblərinizdən çıxarın. Çünki siz əbədi yaşamaq üçün bu dünyada imtahan olunursunuz. Bir nəfər dünyadan getdiyi zaman adamlar bir-birindən "nə miras qoyub getdi?"- deyə soruşarlar. Lakin mələklər bir-birindən "özü ilə nə gətirmişdir? – deyə soruşarlar.

Sonra Həzrət Əli(ə) əlavə edərək buyurdu: "Sizi and verirəm ata-babalarınızın canına! Bu dünyaya aldanmayın. Bir hissəni *(mallarınızın bir hissəsini)* qarşıya göndərin *(Allahın göstərişi əsasında paylayın)* ki, sizin xeyriniz ondadır. Hamısını yerdə qoymayın ki, sizin ziyanınızadır *(bunun çoxlu çətinlikləri vardır)*." [1]

قَالَ عَلِيٌّ(ع): حَاسِب نَفَسَكَ لِنَفسِك؛ فَإِنّ غَيرَها مِن الأَنفُس لَهَا حَسِيبٌ غيرُك

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: "Öz nəfsinin hesabına yetiş. (Başqalarının hesabı sənə qalmayıb.) Çünki başqalarının hesab-kitabını (səndən başqa) çəkənlər vardır."[2]

قَالَ رَسُولُ اللهِ(ص): أَكيَسُ الكَيِّسِين مَن حَاسَبَ نَفسَهُ، وَعَمِلَ لِمَا بَعدَ الْمَوت، أَحْمَقُ الْحمقَى مَن اتَّبَعَ نَفسهُ هَواه، وَتَمَنَّى عَلَى اللهِ اَلاَمَانِيَّ

---

[1] Nəhcül-bəlağə.

[2] Yenə orada, hədis 3835.

-Həzrət Peyğəmbər(s) buyurur: “Zirəklərin ən zirəyi odur ki, öz nəfsinin hesab-kitabını apara, ölümdən sonra üçün çalışa. Axmaqların axmağı isə odur ki, öz nəfsinə tabe ola və Allahdan istəklər diləyə.”[1]

Həzrət Peyğəmbərin(s) Abuzərə etdiyi vəsiyyət-lərdən biri belədir:

يَا أَباذَرّ حَاسِبْ نَفسَكَ قَبلَ أَنْ تحُاسِبَ فَهُو أَهوَنُ لحِسابِكَ غداً

-Ey Abuzər, (qiyamət günü) hesaba çəkilməmişdən əvvəl özünlə hesab apar. Çünki bu (dünyada özünlə hesab çəkmək) sabahın (qiyamətdə sənin) hesabını yüngülləşdirər.[2]

Odur ki, hər bir mömin hər gün öz-özü ilə hesab aparmalı və çatışmayan cəhətlərini düzəltməlidir. Qazancının haradan olduğunu, harada xərclədiyini, həmçinin əməllərinin hesabını aparmalıdır. Əgər insan bu dünyada öz-özü ilə hesab aparmasa, qiyamət günü onun hesabı çox çətin olacaq.

لاَ يَكُونُ الرَّجُلُ مِنَ المتَّقِينَ حَتَّى يُحَاسِبَ نَفْسَهُ أَشَدَّ مِنْ مُحَاسَبَةِ الشَّرِيكِ لِشَرِيكِهِ، فَيَعْلَمَ مِنْ أَيْنَ مَطْعَمُهُ، وَمِنْ أَيْنَ مَشْرَبُهُ، وَمِنْ أَيْنَ مَلْبَسُهُ؟ أَمِنْ حِلَ ذٰلِكَ، أَمْ مِنْ حَرَامٍ

Həzrət Peyğəmbər(s) buyurur: “Təqvalı insan özü ilə (ticarət edən) şəriklərdən daha dəqiq hesab aparmalıdır. Yeməyinin, içməyinin və geyiminin haradan gəldiyini

[1] Yenə orada, hədis 3837.
[2] Yenə orada, hədis 3841.

(olduğunu) bilməlidir. Bütün bunlar halal yolla qazanılır, yoxsa haram yolla?”[1]

Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü insanlar üç dəstəyə bölünəcək. Onların bir dəstəsi dünyada yaxşı işlər görməkdə bir-birini ötən kəslərdir ki, hesab-kitabsız cənnətə daxil olacaqlar. İkinci dəstə orta səviyyəli (dünyada yaxşı əməl etməyə cəhd göstərmiş, vacibləri yerinə yetirməkdə, haramlardan çəkinməkdə çalışmış) insanlardır ki, onların hesab-kitabı asan olacaq. Üçüncü dəstə isə özlərinə zülm etmiş kəslərdir ki, məhşər qurtarana qədər onları həbs edib saxlayacaqlar. (Onların hesab-kitabı çox çətin olacaq və hər bir şey barədə bütün xırdalığına qədər sorğu-sual ediləcəklər.)” [2]

Günlərin birində Məkkədə İmam Musa əl-Kazim(ə) ilə Harun ər-Rəşidin yaxşı bir söhbəti düşdü. Məntiqli və elmi müzakirələr əsasında Harun soruşdu: “Ey Peyğəmbər(s) övladı, din nədir? Dini mənim üçün şərh et.” İmam Musa əl-Kazim(ə) müxtəlif rəqəm və ədədləri saymağa başladı. Harun gülüb dedi: “Mən sizdən din barədə soruşuram, siz isə mənim üçün rəqəmləri sayıb hesablayırsınız?” İmam(ə) buyurdu: “Sən bilmirsənmi ki, din başdan-başa hesab deməkdir? Dini başa düşmək istəyirsənsə, ilk növbədə hesab-kitabı başa düşməlisən.”

İmam Musa əl-Kazim(ə) ona bu sözləri deməklə başa salmaq istəyir ki, Allaha itaətsizlik edən, Onun qarşısında tüğyan edən insanın hesabı çox dəqiq və çətin olacaq. Harunun barəsində din hesab-kitabdır. İmam(ə) bu sözlərdən sonra “Ənbiya” surəsinin 47-ci ayəsini oxudu:

---

[1] Mizanül-hikmə, hədis 3847.
[2] Yenə orada, hədis 3874.

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ

-Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç kəsə heç bir şəkildə zülm olunmayacaq və onların haqlarından kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa belə, onu (tərəziyə) gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir.

Heç kim elə başa düşməsin ki, qiyamət günü kiməsə zülm olunacaq. Belə düşünənlər çox yanlış bir fikirdədirlər. Çünki qiyamət günü insanın bütün əməlləri ölçüləcək və onun əsasında mükafat və cəza tətbiq olunacaq. Hər kəs zərrə qədər yaxşı iş görübsə xeyrini, pis iş görübsə ziyanını çəkəcək. Deməli, əgər insana mükafat veriləcəksə, öz əməllərinin əsasında veriləcək. Əgər cəza veriləcəksə, bu da öz əməllərinin müqabilində olacaqdır.

Əbu Süleyman Darayinin şagirdlərindən biri deyir: "Əbu Süleyman dünyadan getmişdi. Bir ildən sonra onu yuxuda gördüm. Ondan vəziyyət və hal-əhvalını soruşdum. O mənə dedi: Dünyada olarkən bir gün Babus-səğir qəbiristanlığının kənarından keçirdim. Bir nəfər orada dəvənin üstündə yük aparırdı. Mən onun sahibinə demədən əlimi atıb həmin yükdən kiçik bir ağac qırıntısı götürdüm. Həmin ağac qırıntısından balaca bir çöpü ayırıb dişlərimi təmizlədim. Dünyadan köçdükdən sonra indiyə qədər həmin əməlimin hesab-kitabından qurtara bilməmişəm."

Rəhmətlik İmam Xomeyninin(r) oğlu deyir: "Atam rəhmətə gedəndən sonra gecələrin birində onu yuxuda

gördüm. Mənə baxıb buyurdu: Əhməd, bu dünya çox dəqiq dünyadır. Hətta əlimi qaldırıb camaata yelləməyim belə qeyd olunmuşdur. Mən buranın imtahanından keçib getdim. Sonra buyurdu: "Əlli ilə dəyməz ki, insan bu dünyanı tutub, axirətini əldən versin." Atamın bu sözlərindən sonra yuxudan ayıldım. Əhvalım çox yaxşı idi. Öz-özümə yuxunu təhlil etməyə başladım. O dünyanın hesab-kitabının çox dəqiq olduğunu və bütün əməllərin yazıldığını bildim. Atamın sözündən əvvəl bunları Quran bizə buyurmuşdur. Bütün bunları başa düşdüm, lakin "əlli il" söhbəti mənim üçün qaranlıq qaldı. Bir qədər düşündükdən sonra başa düşdüm ki, ömrüm əlli yaşımda tamam olacaq. Çünki bütün insanlar əlli yaşında dünyadan getmirlər. Atam yuxuda bunu işarə ilə mənə başa saldı ki, mən əlli ildən çox yaşamayacağam." İmamın(r) oğlu Seyid Əhməd Xomeyni düz əlli yaşında rəhmətə getdi.

## 2. Əmanətə xəyanət

Hədislərə əsasən münafiq insanın sifətlərindən biri də əmanətə xəyanət etməkdir. Yəni əmanət məsələsi münafiq insan üçün heç bir əhəmiyyət kəsb etmir. Münafiq istədiyi vaxt əmanətə xəyanət edə bilir. Lakin əmanət mömin və təqvalı insanlar üçün çox mühüm məsələdir. Kimliyindən asılı olmayaraq az və yaxud çox olmasına baxmayaraq hər kim möminə bir əmanət tapşırarsa, mömin insan heç vaxt və heç vəchlə həmin əmanətə xəyanət etməz. Deməli, mömінlə münafiqin fərqlərindən biri budur ki, mömin insan əmanətdə dəqiq, münafiq insan isə əmanətə qarşı laqeyddir. Münafiq insanların barəsində İslam Peyğəmbərindən(s) bir sıra hədislər nəql olunmuşdur. Həmin hədislərin birində Həzrət(s) münafiq insanların üç sifətini bəyan edir. Bu

hədisi imamlarımız da nəql etmiş və onun barəsində çox söhbətlər olunmuşdur. Hədis belədir:

قَالَ رَسُولِ اللهِ(ص): ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقاً وَ إِنْ صَامَ وَ صَلَّى وَ زَعَمَ أَنَّهُ مُسْلِمٌ مَنْ إِذَا ائْتُمِنَ خَانَ وَ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَف

-Həzrət Peyğəmbər(s) buyurur: "Oruc tutmasından, namaz qılmasından və özünü müsəlman hesab etməsindən asılı olmayaraq hər kimdə bu üç xislət olsa, münafiqdir: əmanətə xəyanət, yalan danışmaq və vədəxilaf olmaq."[1]

Deməli, münafiq insanların xislətlərindən biri əmanətə xəyanət etməsidir. Bir nəfərə əmanət tapşırıldıqda əgər həmin şəxs əmanətə xəyanət edərsə, münafiq insandır. Hərçənd özünü müsəlman hesab edir. Yəni əmanətə xəyanət edən insan özünün müsəlman olduğunu güman edir. Halbuki müsəlman heç bir vaxt əmanətə xəyanət etməz. Qurani-Kərimdə də əmanət barədə ayələr bəyan olunmuşdur. O cümlədən "Nisa" surəsinin 58-ci ayəsində belə oxuyuruq:

إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا

-Həqiqətən, Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir.

Bu ayədə açıq-aydın şəkildə əmr olunur ki, hər kəs ona tapşırılan əmanəti mütləq sahibinə qaytarmalıdır. Əmanət yiyəsi əmanəti necə vermişsə, eləcə də ona qaytarılmalıdır. Bu ayədə söhbət müsəlman və ya qeyri-müsəlmandan, namaz qılan, yaxud namaz qılmayandan

---

[1] Mizanül-hikmə, hədis 78.

söhbət getmir. Kimliyindən asılı olmayaraq əmanət tapşıran insanın əmanətinə heç bir vəchlə xəyanət etmək olmaz. Bu ayənin nazilolma səbəbinə diqqət yetirək:

-İslam Peyğəmbəri(s) tam qələbə ilə Məkkəyə daxil oldu. Bir zamanlar Peyğəmbər(s) Məkkədən gecə ikən hicrət edib Mədinəyə getmişdi. İllər ötdükdən sonra İslam ordusu əzəmətlə Məkkəni fəth etdi. Kəbə evi İslamdan öncə də müqəddəs və ehtiram göstərilməsi vacib olan bir məkan idi. Onun qapısının açarını bir nəfərə tapşırardılar. Peyğəmbər(s) Məkkəyə daxil olduqdan sonra soruşdu: “Kəbənin qapısının açarı kimdədir?” Dedilər: “Kəbənin qapısının açarını Osman ibn Təlhə saxlayır.” Peyğəmbər(s) onu çağırıb qapının açarını aldı. Bir qrup möminlə Kəbə evinə daxil oldu. Orada olan bütün bütləri sındırıb çölə tökdülər. Kəbənin içini və çölünü bütlərdən təmizlədikdən sonra Peyğəmbərin(s) əmisi Abbas xahiş etdi ki, Kəbənin qapısının açarını ona versinlər. Çünki o zamanlar Kəbənin qapıçısı olmaq böyük vəzifələrdən biri idi. Abbas istəyirdi ki, qardaşı oğlunun nüfuzundan öz xeyrinə istifadə etsin. Amma Həzrət Peyğəmbər(s) bu ayəni - “Həqiqətən, Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir,” - oxuya-oxuya açarları yenidən Osman ibn Təlhəyə qaytardı.

Həzrət Peyğəmbər(s) açarları Osman ibn Təlhədən aldığı üçün yenidən ona qaytardı. Yəni həmin açarları əmanət olaraq götürdüyü üçün həmin əmanəti öz sahibinə qaytardı. Həzrət Peyğəmbərin(s) bu hərəkəti bütün müsəlmanlara höccətdir. Hər kəs Allaha və Peyğəmbərə(s) itaət edirsə, mütləq Həzrətin(s) hərəkətlərindən örnək götürməlidir.

Əmanətə xəyanət etmək münafiq insanların xislətlərindən olduğu kimi, əmanətdarlıq da mömin

insanların sifət və xüsusiyyətlərindəndir. “Möminun” surəsinin ilkin ayələrində iman gətirmiş insanların xüsusiyyətləri sadalandıqdan sonra 8-ci ayədə belə buyurulur:

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Və (möminlər) o kəslər(dir) ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və (Allahın onlarla bağladığı, yaxud özləri öz aralarında bağladıqları və ya camaatla bağladıqları) əhd-peymanlarına riayət edirlər.

Bir insanın həqiqi mömin olub-olmadığını yoxlamaq istədikdə onun bu kimi xislətlərinə diqqət yetirilməlidir. Əgər bir müsəlman doğru danışırsa, verdiyi sözə əməl edirsə və əmanətə xəyanət etmirsə, deməli, o, həqiqi möminlərdəndir. Bu barədə olan bir neçə hədisə diqqət yetirək:

قَالَ رَسُولِ اللهِ(ص): لا تَنظُروا إلى كَثْرَةِ صَلاتِهِم وَصَومِهِم وَكَثْرَةِ الحَجِّ وَالمعرُوفِ وَطَنطَنَتِهِم بِاللَّيلِ وَلَكِنْ اُنظُرُوا إِلى صِدقِ الحَدِيثِ وَأَداءِ الأَمانَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “(Bir kəsin həqiqi mömin olub- olmamasını bilmək istəyirsənsə) onun çoxlu namaz qılmasına, hər gün oruc tutmasına, hər il həccə getməsinə, əmr be məruf etməsinə və gecələr ibadət etməsinə baxma. Onun doğru danışıb-danışmamasına və əmanətə xəyanət edib-etməməsinə bax.”[1]

Bu hədisdə bir çox incə mətləblər vardır. Həmin mətləblərdən biri budur ki, İslamda namaz o qədər mühüm

[1] Mizanül-hikmə, hədis 1503.

əməldir ki, əgər o, qəbul olmasa, Allah-təala insanın digər xeyir işlərini də qəbul etməz. Bu barədə İslam kitablarında çoxlu hədislər nəql olunmuşdur. Əgər bir insan Əbu Qubeys dağı qədər qızıl-gümüşünü Allah yolunda kasıblara paylasa, amma namaz qılmasa, qiyamət günü onun etdiyi yaxşılıqlar qəbul olunmayacaqdır. Bu hədisdə görürük ki, insanı bu qədər əhəmiyyətə malik olan namazla deyil, əmanətdarlıqla tanımaq olar. Deməli, əgər bir insan əmanətə heç bir vaxt xəyanət etmirsə, ona etibar etmək mümkündür. Çünki əmanətdarlıq mömin insanın xislətidir. Digər bir hədisdə belə oxuyuruq:

قَالَ رَسُولِ اللهِ(ص): مَنْ خانَ أَمانةً فِي الدُّنيا وَ لَمْ يَردَّها إِلي اَهْلِها ثُمَّ أَدرَكَهُ الْموتُ ماتَ عَلي غَيرِ مِلّتي، و يَلقَي اللهَ و هو عليهِ غَضبَانٌ

-Peyğəmbər (s) buyurur: “Hər kəs bu dünyada (həyatda ikən) əmanətə xəyanət edib onu öz sahibinə qaytarmasa, ölüm onu haqladıqda mənim millətimdən olmadığı halda ölmüşdür. Qiyamət günü Allah həmin şəxsə qəzəblənəcək.”[1]

Quran ayələrinə və hədislərə istinadən açıq-aydın şəkildə görürük ki, əmanətə heç bir vəchlə xəyanət etmək olmaz. Hər kim əmanətə xəyanət etsə və əmanəti qaytarmayınca ölüb dünyadan getsə, müsəlman kimi dünyadan getməmişdir. Qiyamət günü Allah-təala belə bir insana qəzəblənər.

قَالَ عَلِيٌّ(ع): لا تَخُنْ مَن إِئْتَمَنكَ وَ إِنْ خانَكَ وَ لا تُذِعْ سِرَّهُ وَ إِنْ أَذاعَ سِرَّك.

[1] Mizanül-hikmə, hədis 1503.

Həzrət Əli(ə) buyurur: "Sənə etibar edib əmanət tapşıran şəxsə xəyanət etmə, hətta o, sənə xəyanət etmiş olsa da belə. Onun sirrini faş etmə, hətta əgər o, sənin sirrini faş etmiş olsa da belə."[1]

Əmanət təkcə əşya, pul və s.-dən ibarət deyil. Söz, eyib, nöqsan da insanın yanında əmanət ola bilər. Allah-təala sirləri və eyibləri örtəndir. Hər bir müsəlman öz xasiyyətini Allah-təalanın xüsusiyyətləri ilə zinətləndirməlidir. Əgər bir möminin sənin yanında eybi və yaxud sirri varsa, onu açıb faş etmə. Çünki o da sənin yanında bir növ əmanətdir. Hədislərdə nəql olunur ki, əgər bir insan səninlə söhbət edərkən o tərəf, bu tərəfə baxıb ehtiyatla danışırsa, sənin heç bir vaxt həmin sözləri başqa yerdə açıb danışmağa ixtiyarın yoxdur. Hətta əgər bir insan səninlə söhbət edir və söhbət əsnasında dodağını sənin qulağına tərəf yaxınlaşdırıb bəzi sözləri yavaşca deyirsə, həmin sözlər sənin yanında əmanət sayılır. Onun həmin sözlərini kiməsə deməyə ixtiyarın yoxdur. Çünki o şəxs həmin sözləri pıçıltı ilə sənə deməklə dediyi sözlərin sənə əmanət olduğunu bildirir. Yaxud bir nəfər səninlə söhbət edərkən söhbət əsnasında bəzi sözləri asta səslə deyirsə, deməli həmin sözlər də sənin yanında əmanətdir. Əgər təkcə sənə danışırsa və heç bir kəsin bilməsini istəmirsə, deməli həmin sözləri sənə əmanət olaraq danışıb.

Bütün peyğəmbərlər və məsum imamlarımızın hamısı əmanətdar olmuşlar. Həm özləri əmanətdar olmuş, həm də insanlara əmanətdar olmağı təkidlə tövsiyə etmişlər. Əmanətdar insan hər iki dünyada salamat qalar.

---

[1] Yenə orada, hədis 1498.

Bu əməlin axirət xeyirlərindən əlavə, insana bu dünyada da bir neçə faydası vardır ki, onlardan biri də zənginliyə səbəb olar. Əmanətə xəyanət etmək isə yoxsulluq gətirər.

قَالَ رَسُولُ اللهِ(ص): أَلأَمانَةُ تَجُرُّ الرِّزْقَ وَ الْخِيانَةُ تَجُرُّ الْفقْرَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əmanətdarlıq zənginlik gətirir, əmanətə xəyanət yoxsulluq."[1]

## Əbdürrəhman ibn Siyabənin əhvalatı

Abdullah ibn Siyabə atası ilə birlikdə İmam Sadiqin(ə) dostlarından idi. O deyir: "Atam dünyadan köçdükdə yoxsul olduğundan mənim üçün miras buraxmadı. Atamın dostlarından biri mənim yanıma gəldi. Başsağlığı verdikdən sonra soruşdu: "Siyabədən sənə miras qalıbmı?" Dedim: "Xeyr." O dedi: "Mən sənin atanla yaxın dost idim. Gəl, mən sənə min dirhəm borc verim. Onu əlində maya et və ticarətlə məşğul ol. İşlərin sahmana düşdükdən və vəziyyətin düzəldikdən sonra mənim min dirhəmimi qaytararsan." Mən ona dedim: "Qoy anamla da məsləhətləşim, sonra sənə cavab deyərəm. Bu sözləri anama danışdıqda çox sevindi və razılaşdı."

Pulu ondan qəbul edib fəaliyyətə başladım. Bu söhbətin üstündən bir müddət keçdikdən sonra maddi vəziyyətim yaxşılaşdı. Hər bir şey öz qaydası ilə gedirdi. Artıq Məkkə ziyarətinə getməyi də qərara almışdım. Anamın yanına gedib onunla da məsləhətləşdim. Anam dedi: "Ziyarətə getməzdən əvvəl atanın dostundan aldığın borcu qaytar." Mən atamın dostundan aldığım borcu

[1] Biharül-ənvar, 75-ci cild, səh.114, hədis 6.

qaytardım və təşəkkür etdim. Sonra Məkkəyə getdim. Həcc mərasimini yerinə yetirəndən sonra Mədinəyə gəldim. Orada bir neçə nəfərlə İmam Sadiqi(ə) ziyarət etmək üçün onun yanına getdik. Yaşca hamıdan kiçik olduğumdan mən aşağı tərəfdə əyləşmişdim. İmam(ə) onlarla bir-bir söhbət etdikdən sonra növbə mənə çatdı. İmam Sadiq(ə) məndən hal-əhval tutduqdan sonra atamı xəbər aldı. Dedim: “Ey Peyğəmbər(s) balası, o, dünyasını dəyişib.” İmam(ə) atamın rəhmətə getdiyini eşitdikdə mənə başsağlığı verib onun üçün dua etdi. Sonra buyurdu: “Atan sənin üçün miras buraxıb?” (Yəni Məkkəyə hansı pulla getmisən). Cavab verdim: “Xeyr, heç bir miras buraxmayıb”. İmam Sadiq(ə) soruşdu: “Bəs hansı pulla Məkkəyə getmisən?” Başıma gələn bütün əhvalatı və borc macərasını İmam(ə) üçün danışdım. Hələ sözümü bitirməmiş İmam Sadiq(ə) buyurdu: “O min dirhəmi nə etdin? Sahibinə qaytardınmı?” Dedim: “Bəli, əmanəti qaytarıb Məkkəyə gəldim”. İmam Sadiq(ə) buyurdu: “Əhsən sənə! Düz danışmağına və əmanətə sadiq olmağına görə sənə eşq olsun”.

Sonra İmam Sadiq(ə) mənə buyurdu: “Əbdürrəhman, istəyirsənmi sənə bir vəsiyyət edim?” Dedim: “Əlbəttə ki, istəyirəm. Sizin dilinizdən bir neçə kəlmə nəsihətamiz sözlər eşitmək bizim üçün şərəf olardı.” İmam(ə) buyurdu: “Sənə doğru danışmağı və əmanətdar olmağı tövsiyə edirəm. Əgər həmişə doğru danışan və əmanətdar olsan, bütün camaatın gəlirində şərik olacaqsan. (Yəni Allah-təala camaata lütf etdiyi sərvətdən sənə də nəsib edəcək.)”

İmamla(ə) sağollaşdıqdan sonra öz yaşadığım şəhərə qayıtdım. İmam Sadiqin (ə) sözlərini isə heç vaxt yadımdan çıxartmadım. Həmişə o sözlərə riayət edirdim. Çox az bir müddətin içində mənim işlərim o qədər

genişləndi və gəlirim o qədər artdı ki, bir illik zəkatım 300 min dirhəm oldu.”

Bəli, əgər əmanətə sadiq olmaq məsələsinə cəmiyyətdə kamil şəkildə riayət olunarsa, bu rahatlığa, möhkəm əlaqələrə və qarşılıqlı etimadın artmasına səbəb olar. Bunun əksi olarsa, yəni əmanətə xəyanət olarsa o zaman qardaşlıq və dostluq əlaqələri qırılar, insanlar bir-birinə qarşı bədbin olarlar. İnsanlar özlərini təhlükəsiz hiss etmək əvəzinə bunun tam əksi ilə üzləşməli olarlar. Rahatlığın yerini nigarançılıq tutar və bütün bunlar da cəmiyyətdəki dəyərlərin məhv olmasına gətirib çıxarar. Beləliklə, deyə bilərik ki, əmanət ilahi məsuliyyətdir və hər bir müsəlman ona əməl etməlidir. Ona xəyanət etmək böyük cinayətdir və bu, insanlar arasındakı qarşılıqlı etimadı sarsıdır. Ona görə də Quranın, eləcə də Peyğəmbərin(s) və məsum imamlarımızın xüsusi diqqət yetirdikləri və tövsiyə etdikləri əmanətə diqqət edək ki, Allah-təalanın qəzəbinə də düçar olmayaq. Kimliyindən asılı olmayaraq hər kim bir müsəlmana əmanət tapşırarsa, onun əmanətinə xəyanət etmək olmaz.

قَالَ الصَّادِقُ(ع): اتَّقُوا اللَّهَ وَ عَلَيْكُمْ بِأَدَاءِ الْأَمَانَةِ إِلَى مَنِ ائْتَمَنَكُمْ- فَلَوْ أَنَّ قَاتِلَ عَلِيٍّ ائْتَمَنَنِي عَلَى الْأَمَانَةِ لَأَدَّيْتُهَا إِلَيْهِ

-İmam Sadiq(ə) buyurur: “Allahdan qorxun və əmanəti sizə etibar edən şəxsə qaytarın. Hətta Əmirəlmömininin (ə) qatili mənə bir əmanət tapşırsa, əmanəti mütləq onun özünə qaytararam.”[1]

[1] Mizanül-hikmə, hədis 1494.

قَالَ البَاقِرُ(ع): ثَلاثٌ لَمْ يَجْعَلِ اللّهُ عَزَّوَجَلَّ لِاَحَد فيهِنَّ رُخْصَةٌ: اَداءُ الاْمانَةِ اِلَى الْبَرِّ وَ الْفاجِرِ وَ الْوَفاءُ بِالْعَهْدِ لِلْبَرِّ وَ الْفاجِرِ وَ بَرُّ الْوالِدَيْنِ بَرَّيْنِ كانا اَوْ فاجِرَيْنِ

-İmam Baqir(ə) buyurur: "Üç şey var ki, Allah onlar barəsində heç kəsə istədiyi kimi davranmaq icazəsi verməyib: əmanəti yaxşı və ya pis əməl sahibi olmasından asılı olmayaraq sahibinə qaytarmaq; həm yaxşı və həm də pis əməl sahibi ilə olan əhd-peymana vəfalı olmaq; yaxşı və pis əməl sahibi olmasından asılı olmayaraq ata və anaya yaxşılıq etmək."[1]

## Həzrət Peyğəmbərin(s) yəhudi çobanla söhbəti

Hicrətin yeddinci ilində İslam Peyğəmbəri(s) 1300 nəfər əsgərlə Xeybər qalasını fəth etmək üçün Mədinədən hərəkət etdi. Xeybər qalası Mədinənin 30 kilometrliyində yerləşirdi. Müsəlmanlar Xeybər qalasının ətrafında yerləşdilər, ancaq bir müddət qalanı fəth edə bilmədilər. Bu müddət ərzində gətirdikləri ərzaq və suları qurtardı. Elə həmin ərəfələrdə yəhudi bir çoban qoyun sürüsü ilə oradan keçirdi. Həmin çoban Peyğəmbərlə(s) bir az söhbət etdikdən sonra iman gətirib İslamı qəbul etdi. Müsəlman olduqdan sonra baxıb gördü ki, buradakı insanların vəziyyəti çox pisdir və onların ərzaqları da artıq qurtarmışdı. O, bunu gördükdən sonra Peyğəmbərə(s) belə dedi: "Ya Rəsulallah, icazə versəydiniz bütün bu

[1] Yenə orada, hədis 1489.

qoyunların hamısını sizin ixtiyarınıza verərdim.” Peyğəmbər(s) buyurdu: “Bu qoyunlar sənin əlində əmanətdir. Sən başqasının əmanətini müsəlmanlara verə bilməzsən. Bizim dinimizdə əmanətə xəyanət etmək olmaz. Apar camaatın əmanətini qaytar.”

Çoban Peyğəmbərin(s) buyurduğuna əməl edərək aparıb yəhudilərin qoyunlarını özlərinə verdikdən sonra yenidən gəlib müsəlmanlara qoşuldu.[1]

Odur ki, hər bir müsəlmana əmanəti geri qaytarmaq vacibdir. Hər kəs əmanətə xəyanət edərsə, ilahi qəzəbə düçar olacaq. Heç bir mömin insan əmanətə xəyanət etməz. Lakin münafiq insanların əlamətlərindən biri budur ki, əmanət məsələsi onlar üçün əhəmiyyət kəsb etmir. İstədikləri vaxt əmanətə xəyanət etmək onların xüsusiyyətlərindəndir.

## 3. Yalan

Qeyd olundu ki, əməllərinin nəticəsində Allahın rəhmətindən uzaq düşmüş, qiyamət günü Allahın onlarla danışmadığı kəslərin cərgəsində dayanan dəstələrdən biri də münafiqlərdir. Münafiq o kəsdir ki, zahiri rəftarı ilə batini rəftarı tamamilə fərqlənir. Yəni münafiq insanlar ikiüzlüdürlər və onların dediyi sözlərlə əməlləri uyğun gəlmir. Ötən bəhslərimizdə bu barədə lazımi qədər bəhs etmişik. Həmçinin qeyd olunub ki, həm Quran ayələrinə, həm də hədislərə əsasən münafiq insanların bir sıra xislət və sifətləri vardır. Quran ayələrindən əlavə, münafiq insanların hədislərdə bəyan olunmuş iki əlaməti haqqında

[1] 500 dastan,1-ci cild, səh.66.

da bəhs etdik. Bu bəhsimizdə isə münafiq insanların üçüncü sifəti barədə söz açacağıq.

Münafiq insanların xüsusiyyət və əlamətlərindən biri də yalan danışmaqdır. Yəni yalan danışmaq öz-özlüyündə pis iş olmasından əlavə, həm də münafiqliyin əsas əlamətlərindən biri hesab olunur. Yalan barədə həm Quran ayələri, həm də bir çox hədislər bəyan olunmuşdur.

قَالَ رَسُولِ اللهِ(ص): ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقاً وَ إِنْ صَامَ وَ صَلَّى وَ زَعَمَ أَنَّهُ مُسْلِمٌ مَنْ إِذَا اؤْتُمِنَ خَانَ وَ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَف

-Həzrət Peyğəmbər(s) buyurur: "Oruc tutmasından, namaz qılmasından və özünü müsəlman hesab etməsindən asılı olmayaraq, hər kimdə bu üç xislət olsa, münafiqdir: əmanətə xəyanət, yalan danışmaq və vədəxilaf olmaq."[1]

Ümumiyyətlə, yalan danışmaq həm ağıl, həm də İslam şəriəti nöqteyi-nəzərindən çox pis və qəbahətli işlərdən hesab olunur. Yalanın nə olduğunu hamı çox yaxşı bilir. Hansı sahədə olmasından asılı olmayaraq həqiqətə uyğun gəlməyən söz demək yalan sayılır. Quran ayələrinə diqqətlə baxdıqda təxminən 300-dən çox ayə yalan barədə söz açmışdır. Nümunə olaraq həmin ayələrdən birini diqqətinizə çatdırıram. Allah-təala "Həcc" surəsinin 30-cu ayəsində belə buyurur:

فَاجْتَنِبُوا الرِّجْسَ مِنَ الْأَوْثَانِ وَاجْتَنِبُوا قَوْلَ الزُّورِ

-Murdar bütlərdən çəkinin və (yalan, böhtan, yalandan şahidlik və s.) əyri söz(lər)dən uzaq olun.

---

[1] Mizanül-hikmə, hədis 78.

Hədislərə diqqət yetirdikdə görürük ki, Peyğəmbər(s) və imamlarımızdan yalan barədə çoxlu hədislər nəql olunmuşdur.

قَالَ عَلِيٌّ(ع): عَلاَمَةُ اَلْإِيمَانِ أَنْ تُؤْثِرَ اَلصِّدْقَ حَيْثُ يَضُرُّكَ عَلَى اَلْكَذِبِ حَيْثُ يَنْفَعُكَ

-Həzrət Əli(ə) buyurur: "İman (nişanəsi) budur ki, sənin ziyanına olsa da belə doğru danışmağı, xeyrinə olsa da yalan danışmaqdan üstün tutasan."[1]

قَالَ رَسُولُ اللهِ(ص): وَإِيَّاكُمْ وَالكِذْبَ فَإِنَّهُ يَهدِى اِلَى الفُجُورِ وَهُمَا فِي النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Yalan danışmaqdan çəkinin! Çünki yalan insanı pis işlərə tərəf yönəldir. Onların hər ikisi (yalan və pis iş görənlər cəhənnəm) oduna daxil olacaq."[2]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا كَذَبَ الْعَبْدُ كِذْبَةً تَبَاعَدَ الْمَلَكُ عَنْهُ مَسِيرَةَ مِيلٍ مِنْ نَتْنِ مَا جَاءَ بِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Bəndə bircə yalan danışdığı zaman (özünün xəbəri olmadan) ağzından mələkləri uzaqlaşdıracaq dərəcədə pis iy gələr."[3]

Bəzən insan elə bir iş görür ki, onun nəticəsindən xəbərsizdir. Məsələn, xəstə bir insan həkimə gedir. Həkim

---

[1] Nəhcül-bəlağə, hikmət 458.
[2] Mizanül-hikmə, hədis 82.
[3] Böyük günahlar,1-ci cild, səh. 275.

ona yağlı yeməkləri qadağan edir. Xəstə həkimin sözlərinə qulaq asmır və yağlı yeməklər yeyərək deyir: “Həkim mənə demişdi ki, yağlı yeməklərin sənə ziyanı var. Amma mən yeyirəm, heç nə də olmur.” Günlər ötdükdən sonra həmin yağlı yeməklər artıq onun səhhətində öz işini görür. O zaman başa düşür ki, həkim nə üçün yağlı yeməkləri qadağan etmişdi.

Əxlaqi məsələlər də eynilə buna bənzəyir. Bir sıra hallarda adamlar elə əməllərə yol verirlər ki, bu da son nəticədə böyük fəzilətlərin əldən çıxmasına səbəb olur. Lakin həmin adamın bundan heç xəbəri də olmur. Yalan danışmaq hər bir cəhətdən pis işdir. Hamı yalanın pis olduğunu öz ağlı ilə başa düşür. Lakin insan yalan danışarkən onun ağzından və ürəyindən pis iy gəlir və bu iyi mələklər hiss edirlər.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ الْمُؤمِن اِذَا كَذِبَ بِغَيرِ عُذرٍ لَعَنَهُ سَبعُونَ أَلفِ مَلَكٌ وَ خَرَجَ مِن قَلبِهِ نِتنٌ حَتَّى يَبلُغَ العَرش.

-Həzrət Peyğəmbər(s) buyurur: “Mömin insan üzürsüz olaraq yalan danışdığı zaman yetmiş min mələk ona lənət oxuyar. Yalan danışan şəxsin qəlbindən pis iy xaric olub ərşə ucalar.”[1]

İmam Musa əl-Kazim(ə) Hüşama moizə edərkən belə buyurdu:

اِنَّ العَاقِل لا يَكذِب وَ اِن كَان فِيهِ هَواهُ

-Ağıllı insan yalan danışmaz. Hərçənd həmin yalan onun xeyrinə olsa da belə.

---

[1] Yenə orada.

Yalan danışmaq elə bir işdir ki, şəriət və axirət baxımından əlavə, insanı həm də bu dünyada böyük rüsvayçılıqla üz-üzə qoyur. Yalan danışdıqda insan camaatın gözündə etibardan düşür. Bir insanı yalan danışdıqda sonradan camaat onun doğru sözlərinə də inanmır. Çünki o, bir neçə dəfə yalan danışdığına görə onun danışdığının yalan olub- olmadığına heç kəs əmin deyil.

Sultan Hüseyn Xorasanda hakim idi. Onun Yaqub Mirzə ilə dostluğu var idi. Yaqub Mirzə Azərbaycanın hakimi idi. Onlar hərdən bir-biri ilə məktublaşırdılar. Günlərin birində Sultan Hüseyn öz işçilərindən olan Əmirhüseyn Abıverdini çağırıb deyir: “Bu məktubu, hədiyyələri və kitabxanadan “Külliyyati Cami”[1] kitabını da götürüb mənim adımdan Yaqub Mirzəyə apar.”

Abıverdi hədiyyələri götürüb kitabxanaya yollanır. Kitabxanaçıdan “Külliyyati Cami” kitabını istəyir. Kitabxanaçı kitabların ikisi də eyni qalınlıqda olduğundan səhvən həmin kitabın yerinə “Fütuhati Məkkiyyə” kitabını ona verir. Abıverdi kitabı alıb baxmadan çantaya qoyur və Azərbaycana yollanır. İki aydan sonra Azərbaycana çatır və Yaqub Mirzənin yanına gəlir. Sultan Hüseynin salamını ona yetirdikdən sonra hədiyyələri təqdim edir. Yaqub Mirzə əvvəlcə məktubu alıb oxuyur. Sonra üzünü Abıverdiyə tutub uzun yol gəldiyinə və zəhmət çəkdiyinə görə ona da təşəkkür edir. Abıverdi deyir: “Xeyr Sultan, heç bir zəhməti yoxdur. “Külliyyati Cami” kitabını öz dəsti xəttimlə yazdığım üçün onu da özümlə götürüb yol

[1] Ədəbiyyat kitabıdır. Yaqub Mirzənin həmin kitabdan çox xoşu gəlirdi.

boyu oxuya-oxuya gəlmişəm. Buna görə də yolun ağırlığını hiss etmədim.” Yaqub Mirzə “Külliyyati Cami” kitabının adını eşitdikdə çox sevinir və deyir: “O kitabı da gətirmisən?” Abıverdi deyir: “Bəli, Sultan. Yol boyu elə həmin kitabı oxuya-oxuya gəlmişəm.” Yaqub Mirzə həmin kitabı ondan alıb görür ki, “Fütuhati Məkkiyyə” kitabıdır. Sonra üzünü Abıverdiyə tutub deyir: “Bəs deyirdin ki, bu, “Külliyyati Cami” kitabıdır?

Abıverdi deyir: “Bunu eşitdikdə xəcalətimdən başımı aşağı salıb neçə addım arxaya gedib sakitcə yerimdə durdum. Yalanım üzə çıxdığına görə elə utandım ki, yer aralansaydı, yerə girərdim. Alnımdan xəcalət təri süzülürdü. Sağollaşmadan oranı tərk edib birbaşa Xorasana qayıtdım.”

Bəli, bu, tarixdə baş vermiş sadəcə bir hadisədir. Amma yalanla bağlı tarixdə baş vermiş hadisələrə nəzər yetirməyə heç bir ehtiyac yoxdur. Çünki bu günümüzə baxsaq, gündə nə qədər yalanların baş verdiyinin şahidi olarıq. Hər gün dünyanın dörd bir tərəfindən yalanlar eşidirik. Ən inkişaf etmiş ölkələrdə danışılan yalanlar isə “inkişaf etmiş” yalanlardandır.

Yalan ən böyük günahlardan biridir. Yalan danışan insanın etibarı olmaz. Ağıl da bunu qəbul edir ki, heç kim yalançıya etibar etməz və ya ona inanmaz. Odur ki, sənə inanan bir şəxsə yalan danışmaq ən böyük xəyanətdir.

قَالَ رَسُولُ اللهِ(ص): كَبُرَتْ خِيَانَةً أَنْ تُحَدِّثَ أَخَاكَ حَدِيثًا هُوَ لَكَ بِهِ مُصَدِّقٌ ، وَأَنْتَ بِهِ كَاذِبٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sənin düzgün adam olduğunu bilən və sənə etibar edən qardaşına yalan söyləməyin böyük xəyanətdir.”[1]

[1] Mizanül-hikmə, hədis 83.

## Yalan imanla uyğun gəlmir

Yalan elə bir şeydir ki, heç bir vaxt imanla uyğun gəlmir. İmanı olan şəxs yalan danışmaz. “Nəhl” surəsinin 105-ci ayəsində belə oxuyuruq:

إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ وَأُوْلئِكَ هُمُ الْكَاذِبُونَ

-Yalnız Allahın ayələrinə iman gətirməyənlər yalan uydurarlar və yalançı onlardır.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, Allaha iman gətirən insan heç bir vaxt yalan danışmaz. Mömin insana yalan danışmaq əsla yaraşmır.

Bir gün İslam Peyğəmbərindən(s) soruşdular: “Ya Rəsulallah, möminin qorxaq olması mümkündürmü?

Peyğəmbər(s) buyurdu: Bəli.

Soruşdular: Möminin paxıl olması mümkündürmü?

Peyğəmbər(s) buyurdu: Bəli.

Soruşdular: Möminin yalançı olması mümkündürmü?

Peyğəmbər(s) buyurdu: Xeyr.” [1]

Bu hədisdən başa düşürük ki, bir insan mömin olmasına baxmayaraq, qorxaq da ola bilər. Bir insan mömin olmasına baxmayaraq, paxıl da ola bilər. Amma mömin insanın yalançı olması mümkün deyil. Yəni əgər yalan danışırsa, o, mömin hesab olunmaz. Bir insanın həm yalançı və həm də mömin olması qətiyyən mümkün deyil. Çünki imanla yalan heç bir vaxt bir araya sığmaz.

---

[1] Mizanül-hikmə, hədis 400.

Əbu Dərda deyir: “Peyğəmbərdən(s) soruşdum: Ya Rəsulallah, möminin oğurluq etməsi mümkündürmü?

Peyğəmbər(s) buyurdu: Hərdən mömindən belə bir işin baş verməsi mümkündür. (Şeytana aldanıb oğurluq etməsi mümkündür.)

Soruşdum: Ya Rəsulallah, möminin zina etməsi mümkündürmü?

Peyğəmbər(s) buyurdu: Şeytanın hiyləsinə aldanaraq möminin zina etməsi bəzən baş verə bilər. Bilirəm ki, Əbu Dərda bu işə nifrət edir. (Yəni zina mənfur və çirkin bir əməldir. Əgər mömin bu işi görərsə, tövbə edib bir daha zinaya yaxın düşməz.)

Soruşdum: Ya Rəsulallah, mömin yalan danışa bilərmi?

Peyğəmbər(s) buyurdu: Xeyr. Hər kəs yalan uydursa (danışsa), mömin deyildir.”

İmam Əlinin(ə) xilafəti zamanında bir qara qulu Həzrətin(ə) hüzuruna gətirib dedilər: “Ya Əli, bu qulam oğurluq edib. Həzrət Əli(ə) soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. Həzrət(ə) bir də soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. İmam(ə) istəyirdi ki, qulam bu sözləri dili ilə təsdiq etməsin. Ona görə də bir daha buyurdu: Ey qulam, əgər bir dəfə də dilinlə təsdiq etsən, hökm verəcəyəm ki, sənin əlini kəssinlər. Oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam.”

Həzrət(ə) hökm verdi ki, onun əlini kəssinlər. Qulamın sağ əli kəsildi. O, kəsilmiş əlini sol əli ilə götürüb yarasından qan axa-axa bazara girdi. Həzrət Əlinin(ə) düşmənlərindən biri olan İbn Kəvva qulamı bu halda görüb yaxınlaşaraq soruşdu: “Sənin əlini kim kəsib belə?” İbn Kəvva özü də bilirdi ki, onun əlini Əli(ə) kəsib.

Bundan istifadə edərək qulamı Həzrətin(ə) əleyhinə danışdırmaq istəyirdi. İstəyirdi ki, qulam bazarda camaatın içərisində Əli(ə) barədə nalayiq sözlər desin. Qulam onun bu hiyləsini başa düşüb dedi: "İbn Kəvva, doğrudan da bilmək istəyirsən ki, mənim əlimi kim kəsib? Yoxsa hansısa məqsədlə soruşursan? İstəyirsən ki, deyim mənim əlimi İmam Əli(ə) kəsib və Həzrətin(ə) əleyhinə nalayiq sözlər danışım. İmama(ə) qarşı məndən istifadə etmək istəyirsən?" Buna görə də dedi: "İbn Kəvva, elə isə qulaq as, mən sənə deyim ki, əlimi kim kəsib. Mənim əlimi kəsən Məkkənin balasıdır. Mədinənin balasıdır. Allahın yer üzərində olan höccətidir. Peyğəmbərin(s) özüdür. Zəhranın həyat yoldaşıdır. Onun əli Allahın əlidir. Onun gözü Allahın gözüdür. Onun dini Allahın dinidir. O, bütün möminlərin ağasıdır. O, Peyğəmbərin(s) vəsisidir..."

Qulam əlindən qan axa-axa Həzrət Əlinin(ə) şəninə bu sözləri dedi. Bütün aləmi sözlərilə məftun etdi. Hamı onun sözlərinə heyran qaldı:

-Mən günah bir iş görmüşəm. Əli(ə) Allahın hökmünü icra edərək əlimi kəsib. Sən istəyirsən ki, bundan istifadə edib mənim dilimlə Əliyə(ə) nalayiq sözlər dedizdirəsən? Mən bir günah etmişəm, əlimi kəsiblər. İstəyirsən ki, bir günah da edib, Allahın yer üzündəki höccətinə nalayiq sözlər deyim? Sən bunu görməyəcəksən.

İbn Kəvva qulamın bu sözlərindən pərt oldu.

Bəzi kitablarda yazırlar ki, İmam Həsən(ə) və İmam Hüseyn(ə) bazardan keçərkən Həzrət Əlinin(ə) barəsində gözəl və tərifli sözlərlə çıxış edən həmin əli kəsilmiş qulamı görüblər. Onlar gəlib hadisəni atalarına söyləyiblər və xahiş ediblər ki, belə imanlı bir insanın bu vəziyyətdə qalması heyfdir. Həzrət Əli(ə) də sonradan həmin qulamı

yanına çağırtdırıb kəsilmiş əlini yerinə birləşdirir və mübarək əlini onun üstünə çəkir. Allahın izni ilə qulamın əli birləşib əvvəlki vəziyyətinə düşür.

Bu qulam mömin bir insan idi. Bircə dəfə şeytanın hiyləsinə aldanaraq oğurluq etmişdi. Həzrət Əli(ə) ondan üç dəfə oğurluq edib- etməməsini soruşdu. Hər üçündə də oğurluq etdiyini etiraf etdi. Əlinin kəsiləcəyini bildiyi halda belə yalan danışmadı və oğurluq etdiyini etiraf etdi. Çünki mömin insan olduğu üçün yalan danışmadı və günahının qiyamətə qalmasını istəmədi. Həmçinin əli kəsildikdən sonra camaatın içərisində uca səslə Həzrət Əlinin(ə) şəninə o cür gözəl sözləri söylədi.

Bəli, mömin insanın hərdən xəta və günaha yol verməsi mümkündür. Amma yalan danışması mümkün deyil. Yalan elə bir günahdır ki, insanı çox böyük pisliklərə tərəf sürükləyir. Belə ki, axırda insanı cəhənnəmlik edir. Peyğəmbər(s) və imamlarımızdan nəql olunan hədislərdə hətta zarafatla yalan danışmaq belə bəyənilmir.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْكَذِبَ لا يَصلُحُ مِنْهُ جِدٌّ وَلا هَزْلٌ، وَلا أَنْ يَعِدَ الرَّجُلُ ابْنَهُ، ثُمَّ لا يُنْجزَ لَه، إِنَّ الصِّدْقَ يَهْدِي إِلَى الْبِرِّ، وَإِنَّ الْبِرَّ يَهْدِي إِلَى الْجَنَّةِ، وَإِنَّ الْكَذِبَ يَهْدِي إِلَى الْفُجُورِ، وَ إِنَّالْفُجُورَ يَهْدِي إِلَى النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Yalan – istər ciddi olsun, istərsə də zarafat – doğru deyil. Həmçinin kişinin öz övladına vəd verib onu yerinə yetirməməsi də düzgün deyil. Həqiqətən, doğru danışmaq yaxşılığa aparar, yaxşılıq isə cənnətə yönəldər. Yalan danışmaq insanı pis

işlərə tərəf yönəldər, pisliklər isə insanı cəhənnəmə aparar.”[1]

Əsma binti Ümeys deyir: “Ayişəni gəlin kimi Peyğəmbərin(s) evinə gətirdik. Həmin gecə Peyğəmbərin(s) evində bir neçə qadın da var idi. Evdə yeməyə bir kasa süddən başqa bir şey yox idi. Peyğəmbər(s) həmin süddən azacıq içib kasanı Ayişəyə uzatdı. Ayişə də süddən bir az içib kasanı bizə uzatdı. Qadınların bəzisi dedi: Meylimiz çəkmir. Peyğəmbər(s) buyurdu: Həm aclığa dözürsünüz, həm də yalan danışırsınız.

Mən soruşdum: Ya Rəsulallah, bizlərdən birimizin nəyəsə meylimiz olsa və istəmədiyini desə, bu, yalan sayılırmı?

Peyğəmbər(s) buyurdu: Yalan elə yalan olaraq yazılır. Hətta kiçik yalan olsa kiçik yalan kimi yazılır.”[2]

Mərhum İmam Xomeynini(r) sürgün etmişdilər. Bir müddət İraqda sürgündə olduqdan sonra oradan da çıxardılar. Heç bir ölkə onu qəbul etmək istəmirdi. Nəhayət, Fransa onu qəbul etdi. Dörd ay da orada qaldı. İmam(r) Paris şəhərinin kənarında bir kəndi seçmişdi və bu dörd ayı da orada yaşadı. Dünyanın hər yerindən müxbirlər gəlib ondan müsahibə götürürdülər. Günlərin birində İmamın(r) nahar vaxtı idi. Onun üçün süfrə açmışdılar. Süfrədə bir az çörək, bir az göyərti, duz və pendir var idi. Müxbirlər həmin gün müsahibə aldıqdan sonra İmamın(r) süfrəsini də çəkilişə almaq qərarına gəldilər. Çünki onlar dünyanın heç bir yerində böyük bir

---

[1] Mizanül-hikmə, hədis 400.
[2] 500 dastan,1-ci cild, səh.248.

rəhbərin belə süfrə kənarında əyləşdiyini görməmişdilər. Elə bu zaman İmam(r) içəri daxil oldu və soruşdu: “Nə üçün bura yığışmısınız?  Dedilər: Sənin süfrəni də lentə almaq istəyirlər. İmam(r) süfrəyə diqqətlə baxdı. Süfrədə ət olmadığını görüb soruşdu: Nə üçün süfrədə ət olmayan gün çəkiliş aparmaq istəyirlər? Sonra dünya elə başa düşər ki, bizim süfrədə heç vaxt ət olmur. Belə çəkilişə mən razı deyiləm. Siz mənim sadə yaşadığımı dünyaya çatdırmaq istəyirsiniz. Amma bu yalan olar. Çünki bizim evdə bəzi günlər ət xörəyi də olur.”

Mərhum şəhid Rəcayi İran İslam inqilabından sonra ilk prezident idi. Prezident seçkiləri ilə əlaqədar olaraq onun müxtəlif şəkillərini çəkib təbliğat aparırdılar. Şəkillərin içərisində yaxşı bir şəkil var idi. Sadə camaatdan bir nəfərin onunla danışdığı halda çəkilmiş şəkil idi. Təbliğat üçün ən uyğun şəkil də elə həmin şəkil idi. Şəklin altında bir cümlə yazılmışdı və guya bu sözlər onun yanında dayanmış həmin kişinin sözləri idi: “Sən islamçı olduğun üçün sənə səs verirəm.”

Bu şəkli hazırlayıb Şəhid Rəcayiyə göstərdilər. Şəhid Rəcayi şəkilə diqqətlə baxdıqdan sonra dedi: “Şəkilin gözəl və təbliğat üçün yararlı olduğuna sözüm yoxdur. Amma bu sözü nahaq yerə yazmısınız. Axı həmin kişi mənə belə bir söz deməyib. Biz orada başqa bir mövzuda söhbət edirdik. Bu sözü şəklin altından götürün. Yaxşı söz olmasına və hamının xoşuna gəlməsinə baxmayaraq, tutduğunuz bu iş düzgün bir iş deyil. O kişi mənimlə görüşəndə belə bir söz deməyib. Onun adından yalan söz yazmaq düzgün deyil. Çap etdiyiniz bütün bu şəkilləri anbara yığın və camaata paylamayın.”

Odur ki, insan öz xeyrinə olsa da belə yalan danışmaqdan çəkinməlidir. Yalan danışmaq insanın

mənəviyyatını korlayar, insanı etibardan salar, ruhunu çirkləndirərək pis işlərə tərəf yönəldər. Buna görə də “İsra” surəsinin 80-ci ayəsində belə buyurulur:

وَقُل رَّبِّ أَدْخِلْنِي مُدْخَلَ صِدْقٍ وَأَخْرِجْنِي مُخْرَجَ صِدْقٍ وَاجْعَل لِّي مِن لَّدُنكَ سُلْطَانًا نَّصِيرً

-Və de: “Ey Rəbbim, məni (hər bir işin icrasına) haqq və doğruluqla daxil et və haqq və doğruluqla çıxar və mənə Öz tərəfindən mənə Sənin tərəfindən kömək edilmiş və (işlərimdə mənə) kömək edən bir hökmranlıq ver!”

## Yalanın nəticəsi və yalançının aqibəti

Yalan danışmaq insan mənəviyyatı üçün çox zərərli amillərdən biridir. Həm Quran ayələrində, həm də məsumların hədislərində bəyan olunur ki, yalan danışmaqdan qəti şəkildə çəkinmək lazımdır. Burada sual oluna bilər ki, yalan danışan insanın aqibəti necə olacaq? Yəni yalan insanı hansı nəticələrə gətirib çıxarır?

Cavab olaraq demək olar ki, Quran ayələrinə və hədislərə əsasən, yalan danışan insanı bir neçə acı aqibət gözləyir. Burada çox yaxşı olar ki, yalanın törətdiyi nəticələrdən bir neçəsinə diqqət yetirək.

### 1. Yalan danışan insan Allahın hidayətindən məhrumdur

Yalanın insana olan birinci təsiri budur ki, yalan danışmaq insanı Allahın hidayətindən məhrum edir. Əgər Allah-təala insanı öz lütf və mərhəməti ilə hidayət etməsə, insan heç bir mənəvi məqama çata bilməz. İnsan çox zəif bir məxluq olduğu üçün Allahın hidayəti olmadan özünü heç bir məqama yüksəldə bilməz. Allahın hidayəti insan

üçün çox mühüm və əhəmiyyətlidir. Belə ki, gün ərzində namaz qılarkən on dəfə Allahdan hidayət olunmağımızı diləmək bizə vacibdir. “Həmd” surəsində belə oxuyuruq: “İlahi, bizi doğru yola yönəlt.” Əgər Allahın hidayəti üzərində olmasa, insanın hidayət olunması qeyri-mümkündür.

Bir gün Həzrət Davud Peyğəmbər(ə) Allahla minacat edərkən belə dedi: “İlahi, Sənə çox şükürlər olsun ki, mən həmişə iki yolun ortasında qaldıqda düzgün yolu seçmişəm. Allah-təala ona buyurdu: Ey Davud, məgər düzgün yolu sən özün seçmisən, yoxsa səni doğru yola Mən yönəltmişəm?”

Həzrət Davud(ə) doğru yolda olduğu üçün Allaha şükür edirdi və Allahla belə minacat edirdi. Allahın isə onun bu sözündən xoşu gəlmədi. Çünki Davudun(ə) sözlərindən belə çıxırdı ki, guya doğru yolu özü seçib tapırdı. Allah-təala ona başa saldı ki, insanı doğru yola yönəldən Özüdür. Amma adi insanlar arasında bir çoxları iman gətirdiklərinə görə o qədər fəxr edirlər ki, guya doğru yolu özləri tapıb hidayət olmuşlar. Onlar daha başa düşmürlər ki, əgər Allahın hidayəti, lütf və mərhəməti olmasa, heç bir kəs doğru yola qədəm qoya bilməz. Buna görə də insan həmişə Allahın onu hidayət etməsi üçün bir sıra əməllərə riayət etməli, bəzi işlərdən də çəkinməlidir. Çünki bəzi əməllər insanın hidayət olunmasının qarşısını kəsir və nəticədə Allahın həmin şəxsdən Öz hidayətini götürməsinə gətirib çıxarır. “Zumər” surəsinin 3-cü ayəsində belə oxuyuruq:

إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ

-Əlbəttə, Allah yalançı, kafir və nankor kəsləri hidayət etməz.

“Ğafir” surəsinin 28-ci ayəsində belə buyurulur:

إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ مُسْرِفٌ كَذَّابٌ

-Həqiqətən, Allah israfçı və yalançını hidayət etmir.

Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, yalan danışmaq Allahın insanı hidayət etməsinin qarşısını kəsir. Deməli, hər kim yalançıdırsa, Allah həmin şəxsi hidayət etməz. Əgər bir insan yalan danışırsa, bu əməlindən peşman olmalı və tövbə etməlidir ki, Allah-təala onu hidayət etsin. Əks-təqdirdə hidayət olunması çox çətin bir məsələdir.

Xəvvat ibn Cübeyr gənc bir müsəlman idi. Günlərin birində Məkkə yolunun üstündə qadınlarla əyləşmişdi. Həzrət Peyğəmbər(s) oradan keçərkən Xəvvatın qadınlarla əyləşdiyini görüb buyurdu: “Qadınların yanında niyə oturmusan?”

Xəvvat Peyğəmbərin(s) bu sözlərindən utanıb tez özündən bir yalan uydurararaq dedi: “Ya Rəsulallah, mənim dəvəm ipə-sapa yatmır. Harada qoyuramsa o tərəf, bu tərəfə qaçır. Bu qadınlardan xahiş etdim ki, mənim dəvəm üçün bir kəndir toxusunlar. Ona görə də burada əyləşmişəm.”

Peyğəmbər(s) bir söz deməyib yoluna davam etdi. Geri qayıdanda Xəvvatın yenə orada əyləşdiyini görüb buyurdu: “Daha dəvə qaçmırmı?” Xəvvat utandığından başını aşağı salıb bir söz demədi. Həmin gündən sonra Xəvvat Peyğəmbərin(s) gözünə görünmürdü.

Günlərin birində Peyğəmbər(s) Xəvvatı məsciddə namaz qılarkən gördü. Gedib yanında əyləşdi və onun namazı qurtarmasını gözlədi. Xəvvat namaz qıla-qıla gördü ki, Peyğəmbər(s) onun yanında əyləşib. Buna görə də namazı bir az da uzatdı ki, bəlkə Peyğəmbər(s) çıxıb

gedər. Çünki etdiyi hərəkətinə və danışdığı yalana görə Həzrətin(s) üzünə baxa bilmirdi. Həzrət Peyğəmbər(s) öz ümmətinə qarşı atadan daha mehriban olduğu üçün buyurdu: "Xəvvat, namazı uzatma. Sənə sözüm var, tez qıl qurtar." Xəvvat namazı qurtardıqdan sonra Peyğəmbər(s) ona buyurdu: "İpə-sapa yatmayan dəvən daha qaçmır?" Xəvvat utandığından başını aşağı dikib sakitcə dilləndi: "Ya Rəsulallah, and olsun Allaha ki, mən sizə yalan demişəm. Mənim dəvəm qaçan dəvələrdən deyil. Qadınların yanında əyləşdiyimi gördüyünüz üçün nə deyəcəyimi bilmədiyimdən bu yalanı uydurdum. Amma yalan danışdığıma görə çox utanıram. Bu işimdən peşman olmuşam." Həzrət Peyğəmbər(s) buyurdu: "Allahu əkbər. Allahu əkbər. İlahi, Xəvvat peşman olub tövbə etdi. Onu hidayət et." Peyğəmbərin(s) bu duasından sonra Xəvvat həqiqi mömin olub hidayət olundu.[1]

Odur ki, əgər bir insan yalan danışırsa və bu işindən əl çəkmirsə, Allah belə bir insanı hidayət edib doğru yola yönəltməz. İstər ciddi, istərsə zarafatyana, istər fərdi, istərsə ümumi məsələlərdə, istər ictimai, istərsə siyasi məsələlərdə və bütün başqa məsələlərdə yalan danışmaq olmaz. Yalan elə yalandır və insan bu işdən peşman olub tövbə etməyənə qədər Allah-təala həmin şəxsi hidayət etməz.

### 2. Yalan danışan insan dünyada xar olar

Yalan danışmaq böyük günahlardan olduğundan axirət əzabından əlavə, bu dünyada da öz mənfi təsirini göstərir. Yalan danışmağın ikinci xüsusiyyəti budur ki,

---

[1] 500 dastan,1-ci cild, səh.556.

insanı bu dünyada xar-zəlil edir. Bu dünyada heç kim yalan danışan insana məhəbbət göstərib etibar etməz. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ عَلِيٌّ(ع): ثَمَرَةُ الكِذب اَلْمَهَانَةُ فِي الدُّنيا وَ العَذابُ فِي الآخِرَة

-Həzrət Əli(ə) buyurur: "Yalanın nəticəsi dünyada xar olmaq, axirətdə isə əzabdır."[1]

قَالَ الصَّادِقُ(ع): لا تَكذِب فَيَذهَبَ بَهَاؤُك

-İmam Sadiq(ə) buyurur: "Yalan danışma. Çünki yalan insanı abır-həyadan və qiymətdən salar."[2]

Odur ki, yalan danışmaq insanı xar-zəlil edər və abır-həyasını aradan aparar. Bir neçə dəfə yalan danışan insana kim etibar edər? Yalançı insan söz dedikdə onun sözlərinin doğru olub-olmamasına kim inanar? İnsan camaat arasında hörmətdən düşdükdən sonra şeytanın onu yoldan çıxarması daha asandır. İnsan etibardan düşdükdən sonra şeytan onu günahlara tərəf sürükləyər və aqibəti cəhənnəm olar.

## Vəlid ibn Üqbənin əhvalatı

Vəlid ibn Üqbə ibn Əbi Muit müsəlman idi, yəni Peyğəmbərin(s) ətrafında olan müsəlmanlarla birlikdə idi. Peyğəmbərin(s) tapşırığına uyğun olaraq hər kəs öz vəzifəsini yerinə yetirməklə məşğul olurdu. Həzrət(s) il ərzində bir dəfə müsəlmanlar yaşayan qəbilələrdən zəkat yığmaq üçün nümayəndələr göndərirdi. Zəkat vermək

---

[1] Mizanül-hikmə, hədis 17440.
[2] Yenə orada, hədis 17442.

istəyən insanlar öz zəkatlarını Peyğəmbərin(s) həmin nümayəndələrinə verirdilər. Əgər hər hansı bir qəbilənin adamları zəkat verməkdən boyun qaçırsaydılar, bu o demək idi ki, biz Peyğəmbəri(s) qəbul etmirik. Yəni hər kəs zəkatı vermək istəmirdisə, deməli bu hərəkəti ilə Peyğəmbəri(s) qəbul etmədiyini bildirirdi.

Günlərin birində Peyğəmbər(s) zəkat yığmaq üçün Vəlidi Bəni- Müstələq qəbiləsinə göndərir. Vəlid həmin qəbiləyə gələndə Bəni- Müstələq camaatı Peyğəmbərin(s) nümayəndəsinin gəlməsi xəbərini eşidib onu qarşılamağa çıxırlar. Vəlidin həmin qəbilə ilə söz-söhbəti və münaqişəsi olduğundan camaatın ona tərəf gəldiyini gördükdə elə başa düşür ki, onu öldürmək üçün gəlirlər. Vəlid bunu gördükdə oradan qaçaraq Peyğəmbərin(s) yanına gəlir və yalandan deyir: “Ya Rəsulallah, onlar zəkat verməkdən boyun qaçırtdılar.”

Həzrət Peyğəmbər(s) vəziyyəti öyrənmək üçün Xalid ibn Vəlid ibn Müğeyrəni Bəni-Müstələq qəbiləsinə göndərir. Xalid həmin qəbiləyə gedib bir gecə də orada qalır. Qəbilə camaatı ilə söhbət etdikdən sonra vəziyyəti tamamilə öyrənir. Görür ki, bu qəbilənin camaatı Peyğəmbəri(s) çox sevir və İslamın hər bir hökmünə can-başla riayət edirlər. Peyğəmbərin(s) yanına gəlib ərz edir: “Ya Rəsulallah, Bəni- Müstələq qəbiləsinin adamları vəfalı və dinlərində sadiq insanlardır. Onlar vergilərini də vaxtlı-vaxtında ödəyir və səni çox sevirlər.”

Elə bu zaman Allah-təala “Hucərat” surəsinin 6-cı ayəsini Peyğəmbərə(s) nazil edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن جَاءَكُمْ فَاسِقٌ بِنَبَأٍ فَتَبَيَّنُوا أَن تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلَى مَا فَعَلْتُمْ نَادِمِينَ

-Ey iman gətirənlər! Əgər bir fasiq sizə xəbər gətirsə onu araşdırın ki, məbada, bilmədən bir dəstəyə ziyan yetirəsiniz və sonra etdiyinizdən peşman olasınız.

Bu ayə Vəlid ibn Üqbənin yalançı və mənəviyyatsız olduğunu faş etdi. Allah-təala bu ayədə açıq-aydın şəkildə bəyan edir ki, əgər pozğun və günahkar bir insan sizə bir xəbər gətirsə, ona dərhal inanmayın. Onun sözü ilə bağlı araşdırma aparın. Bu ayə nazil olduqdan sonra Peyğəmbər(s) buyurdu: “Səbir və təmkinlə iş görmək Allahdan, tələsik və səbirsizliklə iş görmək isə şeytandandır.”

Bu hadisədən sonra Peyğəmbər(s) Vəlid ibn Üqbənin barəsində belə buyurdu: “Vəlid cəhənnəm əhlindəndir.”

Həmin əhvalatdan sonra Vəlid gedib Əmr in Asa qoşuldu və şərab içməyə başladı. Onlar hər gecə özləri üçün eyş-işrət məclisləri qurub hallanırdılar. Vəlid daha sonralar Peyğəmbərə(s) və Əliyə(ə) qarşı düşmənçiliyə başladı. Üçüncü xəlifənin dövründə Vəlid xəlifə tərəfindən Kufə şəhərinə hakim təyin edildi. Bütün bunlara baxmayaraq o, içki içməkdə davam edir və həmişə sərxoş olurdu. Tarix kitablarında yazılır ki, bir gün Vəlid sübh namazını sərxoş halda dörd rükət qıldı. Hətta özünü saxlaya bilməyib məscidi murdarladı. Camaat onu məzəmmət etməyə başlayanda isə Vəlid dedi: “Əgər az qılmışamsa, çox da qıla bilərəm.”

Vəlidin belə bir vəziyyətə düşməsi yalanlarının nəticəsi idi. Hər bir işin əvvəlində insan işin təməlini necə qoyarsa, elə də nəticə alacaq. Əgər bir işin təməli əyri olarsa, işin sonu da əyri alınacaq. Əgər bir işin təməli yalanla qurularsa, həmin yalan o insanı bədbəxt edər.

### 3. Yalançının aqibəti xeyirlə qurtarmaz

Yalanın təsirlərindən üçüncüsü budur ki, hər kim yalan danışsa və tövbə edib bu əməli tərk etməsə, aqibəti xeyirlə qurtarmayacaq. Yəni yalan danışan insan səadətin və xoşbəxtliyin üzünü görə bilməyəcək. Hər bir insan başa düşməlidir ki, onun aqibəti çox önəmlidir. Buna görə də hər kəs aqibətinin xeyirlə başa çatmasını istəyirsə, yalan danışmaqdan çəkinməlidir. Çünki yalan insanın aqibətini məhv edir. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ عَلِيٌّ(ع): اَلكِذبُ فَسَادُ كُلِّ شَيئٍ

-Həzrət Əli(ə) buyurur: "Yalan hər bir şeyi puç və məhv edər."[1]

قَالَ عَلِيٌّ(ع): كِثرَةُ الكِذب تُفسِدُ الدِّين وَ تُعظِمُ الوِزر

-Həzrət Əli(ə) buyurur: "Çox yalan danışmaq dini puç edər, günahı isə böyüdər."[2]

قَالَ عَلِيٌّ(ع): عَاقِبَةُ الكِذب اَلنَّدَم

-Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərkən buyurur: "Yalanın aqibəti peşmançılıqdır."[3]

قَالَ البَاقِرُ(ع): اِنَّ اللهَ عَزّوَجَلّ جَعَلَ لِلشَّرِّ اَقفَالا وَ جَعَل مَفاتِيحَ تِلكَ الاَقفَال اَلشَّراب وَ الكِذبُ شَرٌّ مِنَ الشَّرابِ

---

[1] Mizanül-hikmə, hədis 17447.
[2] Yenə orada, hədis 17445.
[3] Yenə orada, hədis 17446.

-İmam Baqir(ə) buyurur: “Allah pislik üçün qıfıllar yaratmışdır və o qıfılların açarını şərabda qərar vermişdir. Yalan şərabdan daha pisdir.” [1]

قَالَ الإِمَامُ الْحَسَن العَسكَرِي(ع): جُعلَتِ الْخَبَائِثُ فِي بَيتٍ وَ جُعِلَ مَفَاتحُهُ اَلكِذبَ

İmam Həsən Əskəri(ə) buyurur: “(Bütün) Pisliklər bir evə yığışıb və onun açarı da yalandır.” [2]

## Peyğəmbərin(s) günahkar bir kişi ilə söhbəti

Günlərin birində bir kişi Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mən iradəsi çox zəif olan bir adamam. Dörd böyük günaha düçar olmuşam ki, hamısını birdən-birə tərgidə bilmirəm. Birinci hansı günahı tərgidim?

Peyğəmbər(s) soruşdu: O günahlar hansılardır?

Həmin şəxs dedi: Zina, şərab, oğurluq və yalan.

Peyğəmbər(s) buyurdu: Birinci yalanı tərgit.”

Həmin kişi Peyğəmbərdən(s) ayrılıb getdi. Günlərin birində zina etmək fikrinə düşdü. Öz-özünə dedi: “Əgər zina etsəm və məndən nə etdiyimi soruşsalar, deyəcəyəm zina etmişəm. Belə olduqda mənə şəriət hökmü oxunacaq. Yox, əgər desəm zina etməmişəm, yalan demiş olaram. Belə olduqda Peyğəmbərin(s) yanında abrım gedəcək. Çünki mən ona yalan danışmayacağımı söz vermişəm.

[1] Yenə orada, hədis 17409.
[2] Yenə orada, hədis 17410.

Əgər oğurluq etsəm və məndən nə etdiyimi soruşsalar, gərək yalan danışmayım və oğurluq etdiyimi etiraf edim. Həmçinin şərab içsəm, yalandan deyə bilmərəm ki, şərab içməmişəm. Şərab içdiyimi söyləsəm, mənə hədd vurulacaq. Buna görə də yalan danışmamaq üçün bütün günahlardan əl çəkməliyəm.”

Həmin kişi bu düşüncələrlə adət etdiyi bütün günahları tərgidib Peyğəmbərin(s) yanına gəldi və dedi: “Ya Rəsulallah, mənə elə bir günahı tərgitməyi göstəriş verdin ki, ondan çəkinməklə bütün günahları tərgitməli oldum.”[1]

**4. Yalan danışanın etibarı olmaz**

Yalan danışmağın insana olan mənfi təsirlərindən biri budur ki, yalan insanı etibardan və inamdan salır. Yəni yalançı insana heç kəs etibar etmir və ona inanmır. Əgər bir insan yalançıdırsa, doğru söz belə dedikdə onun sözünün doğru olub-olmamasına kim inanar?

قال علي(ع): مَن عُرِفَ بالكذبِ قَلَّتِ الثِقَةُ بهِ، مَن تَجَنَّبَ الكذبَ صُدِّقَت أقوالُهُ.

-Həzrət Əli(ə) buyurur: “Hər kəs yalançılıqla tanınsa, etimad və etibarı azalar. Hər kəs yalandan uzaq dursa, sözləri və dedikləri inamlı olar.”[2]

---

[1] Mizanül-hikmə, hədis 17411.
[2] Yenə orada, hədis 17454.

قال علي(ع): الكَذّابُ مُتَّهَمٌ في قَولِهِ وَإِنْ قَوِيَتْ حُجَّتُهُ و صَدَقَتْ لَهْجَتُهُ.

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: “Yalançı insan dediklərini sübut etmək üçün əlində güclü dəlil və sənəd olsa da ittihama layiqdir.”

Yəni yalançı insan sözlərini inandırmaq üçün möhkəm dəlil-sübut gətirsə, yenə də onun sözünə etibar etmirlər. Ola bilsin ki, bu sözü düz demiş olsun, amma yalançı olduğu üçün onun dediyi sözlə bağlı araşdırma da aparırlar. Əgər yalançı mühüm bir xəbər gətirsə və bunu doğru dediyinə dair and içsə, onun sözlərinin doğru olub-olmamasını bilmək üçün başqasından da həmin xəbər barədə soruşurlar. Çünki o, yalançı olduğundan heç bir kəs ona etibar etmir. Əgər öz-özlüyündə düz demiş olsa, ona qulaq asanlar yenə də həmin sözün doğru olmasına şübhələnirlər. Yalan elə bir şeydir ki, insan ondan canını qurtara bilmir və yalançının sözünün və andının da etibarı olmur.

Sədi deyir: “Yalan danışmaq qılınc yarasına bənzəyir. Yəni yara sağaldıqdan sonra illər ötməsinə baxmayaraq, onun yeri və izi həmişə qalır.”

Deməli, insan yalan danışdıqda onun təsiri hələ uzun müddət özünü göstərir. Üstündən hətta illər ötməsinə baxmayaraq, düz danışsa da belə yenə də ona etibar etməyəcəklər. Qurandan nümunə olaraq Həzrət Yusifin(ə) qardaşlarını qeyd etmək olar. Onlar bir dəfə atalarına yalan dedilər, amma ikinci dəfə düz danışdıqda ataları onlara yenə də inanmadı. Hadisə belədir ki, onlar atalarına dedilər ki, ata can, icazə ver Yusif də bizimlə gəlsin. Biz onu qoruyar və qayğısına qalarıq. Beləcə, qardaşlar atalarını razı salıb Yusifi də özləri ilə apardılar. Onu

quyuya atıb köynəyini qoyun qanına buladılar. Sonra atalarının yanına gəlib dedilər: “Ata can, canavar Yusifi parçaladı.” Həzrət Yəqub(ə) onların yalan danışdığını başa düşdü. “Yusif” surəsinin 18-ci ayəsində belə oxuyuruq:

وَجَآؤُوا عَلَى قَمِيصِهِ بِدَمٍ كَذِبٍ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا فَصَبْرٌ جَمِيلٌ

-Və onun köynəyinin üzərində yalançı qan gətirdilər. (Ata) dedi: “(Siz dediyiniz kimi deyildir. Canavar Yusifi necə yeyib ki, köynəyini parçalamayıb?) Əksinə, nəfsiniz (pis) işi nəzərinizdə gözəl göstərmişdir. Buna görə də gərək gözəl bir səbir edəm.”

Bu hadisənin üstündən illər ötdü. Yəqubun(ə) gözləri Yusifin dərdindən kor olmuşdu. Yusifin qardaşları aclıq illərində Misirə gedib oradan buğda gətirirdilər. Bir dəfə Yusif onlardan kiçik qardaşı Binyamini də gətirmələrini tələb etdi. Onlar Binyamini özləri ilə Misirə gətirdikdə Yusif onu öz yanında saxladı. Qardaşlar atalarının yanına qayıdıb hadisəni olduğu kimi danışdılar. Onlar bu dəfə düz danışmalarına baxmayaraq, illər öncə danışdıqları yalana görə ataları onların bu doğru xəbərinə də inanmadı, həmçinin Yusifin xəbərini gətirdikdə dediyi sözləri orada da söylədi. “Yusif” surəsinin 83-cü ayəsində belə oxuyuruq:

قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا فَصَبْرٌ جَمِيلٌ

-(Yəqub) dedi: “Əksinə, (siz də günahkarsınız,) nəfsiniz işi sizin üçün nahaq olaraq cilvələndirmişdir. Odur ki, gözəl bir səbir etmək gərəkdir.”

Quranın bu ayələrindən də istifadə edərək qeyd etməliyik ki, əgər bir insan özünü yalançı kimi tanıtdırsa və sonradan doğru danışsa da belə, onun sözlərinə heç kəs etibar

etməyəcəkdir. Bəzən cəmiyyətdə bir neçə nəfərin yalançı olması digər insanları da etibardan sala bilir. Məsələn, bazarda yalan danışan bir neçə alverçinin ucbatından digər satıcılar da etibardan düşürlər. Bir satıcı malını satmaq üçün o qədər yalan danışır və yalandan tərifləyir ki, halal və doğru danışan satıcıya da heç bir kəs inanmaq istəmir. Elə fikirləşirlər ki, bütün satıcılar yalançıdır.

### 5-6. Yalan danışmaq Allahın qəzəbinə və mələklərin nifrətinə səbəb olar

Yalan danışmağın acı nəticələrindən biri budur ki, hər kəs yalan danışsa, Allahın qəzəbinə tuş gələcək. Bundan əlavə, mələklər də yalan danışan adama nifrət edər.

قَالَ عَلِيٌّ(ع): يَكتَسِبُ الكاذِبُ بِكَذِبِهِ ثَلاثا: سَخَطُ اللّه عَلَيهِ، وَاستِهانَةُ النّاسِ بِهِ، وَمَقتُ المِلائِكَةِ لَهُ

-Həzrət Əli(ə) buyurur: "Yalançı öz yalanları ilə üç şeyi qazanar: özünə qarşı Allahın qəzəbini, camaatın təhqir dolu baxışlarını və mələklərin ona qarşı nifrət və düşmənçiliyini."[1]

Allahın yalan danışan insana qarşı qəzəbli olduğu və yalançıdan acığı gəlməsi demək olar ki, hamıya aydındır. Burada çox yaxşı olar ki, müəyyən qədər mələklərin barəsində də söz açaq. Görək mələklərin insanlarla hansı əlaqə və münasibətləri vardır?

Ümumiyyətlə, yalan danışan insanlar elə başa düşürlər ki, yalan danışmaqla öz işlərini yola vermişlər və bununla da onların yalanından heç kəsin xəbəri olmayıb.

---

[1] Mizanül-hikmə, hədis 17460.

Yalanın çoxlu xüsusiyyətləri və təsirləri vardır ki, yalan danışan adam onlardan xəbərsizdir. Yalanın insana olan təsirlərindən biri budur ki, mələklər həmin şəxsə nifrət edərlər.

## Mələklərin insanlarla əlaqəsi

Mələklərin insanlarla demək olar ki, daim əlaqələri vardır. Quran ayələrinə diqqət yetirdikdə görürük ki, mələklər insanın bağışlanması üçün Allaha dua edirlər. Buna sübut olaraq "Şura" surəsinin 5-ci ayəsini misal çəkmək olar. Bu mübarək ayədə belə oxuyuruq:

وَالْمَلَائِكَةُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيَسْتَغْفِرُونَ لِمَن فِي الْأَرْضِ

-Və mələklər Rəbblərinə şükür etməklə birlikdə həmişə Onu (hər bir nöqsan və eyibdən) pak və müqəddəs bilir və yer üzündə olan kəslər üçün bağışlanma diləyirlər.

Sual oluna bilər ki, görəsən mələklər bütün insanlar üçün Allahdan bağışlanmaq diləyirlər? Bu sualın cavabını "Ğafir" surəsinin 7-ci ayəsi açıqlayır və bildirilir ki, mələklər yalnız Allaha iman gətirən insanlar üçün Allahdan bağışlanma diləyirlər. Həmin ayədə belə oxuyuruq:

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ

وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا

-Ərşi daşıyanlar (mələklər) və onun ətrafında olanlar Rəbblərinə sitayiş etməklə yanaşı, Onu pak sifətlərlə mədh edər, Ona (öz məqamlarına məxsus) iman gətirər, (insanlardan) iman gətirmiş kəslər üçün bağışlanma diləyərlər.

Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, mələklər insanların halından xəbərdardırlar. Həmçinin Allahın əmri ilə mələklərin insanlarla sıx əlaqələri vardır. Bir sıra hədislərdə belə nəql olunur ki, insanların bəzi əməllərinin nəticəsində mələklər həmin şəxslərdən uzaqlaşırlar. Ötən bəhslərimizdə qeyd etdik ki, yalan danışan insanın ağzından gələn pis qoxu mələkləri narahat edərək onları insandan uzaqlaşdırır. Lakin bütün bunlardan insanın özünün xəbəri yoxdur. Bizim onları görməməyimiz onların bizi görməməsinə və bizimlə əlaqədə olmamasına dəlil ola bilməz. Biz onları görsək də, görməsək də, yaxud inansaq da, inanmasaq da onlar bizi görür və bizimlə əlaqədədirlər. Bəzi insanlar Allahın lütfü sayəsində, habelə ibadət və itaətlərinin nəticəsində bəsirət gözləri açılmış və mələkləri görmək, səslərini eşitmək qabiliyyətini əldə etmişlər.

Mərhum Mirzə Cavad Təbrizi böyük arif və alimlərdən biri idi. O, öz əhvalatı haqda danışaraq başqasının adından belə deyirdi: “Mələklər insanı namaza oyatmaq üçün gəlib onu çağırarlar. Bəzən oyatdığı şəxsin adını çəkərək onu səsləyir. Bəzi günlər ad çəkmədən birbaşa səsləyib yuxudan oyadırlar. Mələklər məni oyadarkən adımı çəkmədikdə başa düşürəm ki, dünən hansı işlərimə görə mələklərin məndən acığı gəlmişdir. Buna görə də məni yuxudan oyadarkən adımı çəkmədən səsləyirlər.”

Mərhum Ayətullah Ənsari günlərin birində məğrib vaxtı azançıya dedi: “Qalx, məğrib azanını ver. Azançı soruşdu: Ağa, azan vaxtı olubmu? Ayətullah Ənsari dedi: Məgər gündüz mələklərinin gecə mələkləri ilə əvəz olunduğunu görmədinmi? Azançı deyir: Mən onun

sözlərindən təəccüblənib öz-özümə dedim: Mən mələkləri necə görə bilərəm?”

Odur ki, mələklər daim insanlarla əlaqədədirlər. Bəzi insanlar öz hərəkət və əməllərinin pisliyi nəticəsində mələkləri özlərindən uzaqlaşdırır, bəzi insanlar isə əməllərinin gözəlliyi ilə onları özlərinə cəlb edirlər. Mələklər bəzən insanların halına baxıb gülür, bəzən isə ağlayırlar.

Günlərin birində Həzrət Peyğəmbər(s) Cəbrayıldan(ə) soruşdu: “Mələklər gülüb ağlayırlarmı?”

Cəbrayıl(ə) ərz etdi: “Bəli, ya Rəsulallah. Mələklər bəzən insanların halına baxıb gülər, bəzən də ağlayarlar. Mələklərin güldüyü və təəccübləndiyi anlar bu vaxtlardır:

1. O kəslər ki, bütün gününü eyş-işrət, yeyib-içmək və əylənməklə qəflət içində keçirirlər. Bununla kifayətlənməyib axşam yenə də eyş-işrət və əylənməyə davam edən insanlara mələklər gülər və deyərlər: Ey qafil insan, səhərdən axşama qədər eyş-işrətdən, nəfsani istəklərinin qulu olmaqdan doymadınmı?

2. O kəslər ki, əkin-biçin, bağ yerləri və evlərinin çəpərlərini düzəltmək bəhanəsi ilə qonşunun sahəsinə və yaxud camaatın gediş- gəliş yerinə çıxaraq (bir-iki metr) özləri üçün yer artırırlar. Mələklər belə insanlara baxıb gülərək deyərlər: Yur kürəsinin böyüklüyü sənə bəs etmədi, kiçik bir hissəni (qəsb etməklə) gözün doyacaq?

3. Hicabsız gəzən qadını qəbrə qoyduqda naməhrəmlər onu görməsin deyə qəbrinin üzərinə pərdə (parça) salarkən mələklər gülüb deyərlər: Sağlığında cavan və təravətli olduğu zaman hicaba riayət etmirdi. (Naməhrəmlərin qarşısında o tərəf, bu tərəfə gedir və gözəlliyini ona-buna göstərirdi.) İndi isə hamının ondan çəkindiyi bir halda onu hicablayırlar ki, görən olmasın?

Mələklərin ağladığı anlar isə bunlardır:

1.Elm öyrənmək üçün qərib ölkələrdə təhsil almağa gedən və orada dünyasını dəyişən adama mələklər ağlayar.

2.Neçə illər övlad arzusunda olan ər-arvad axırda arzusuna çatırlar. Onların dünyaya gətirdiyi həmin övlad cavan ikən onların özlərindən qabaq dünyadan köçür. (Həmin uşağın anası ürəkyanğısı ilə ağladıqda) mələklər də ona qoşulub ağlayırlar.

3.Ata-anasını itirmiş yetim körpə gecə yarı yuxudan ayılıb valideynlərini yadına salaraq hönkürtü ilə ağlayır. Ata və anasının öldüyünü hiss edib ümidsizliklə üzünü yenidən yerə qoyub yatdıqda mələklər onun halına yanıb ağlayarlar.[1]

Burada qeyd etmək lazımdır ki, mələklərin gülməsi, ağlaması, qəzəblənib sevinməsi başqa və geniş bir mövzudur ki, yeri gəldikdə bu barədə də söhbət etmək olar. Mələklərin hissiyyatı (ağlayıb-gülməsi) onların öz halları və xüsusiyyətləri ilə ölçülür. Bizim əsas söhbətimiz mələklərin insanlarla mövcud əlaqələri və onların insanın yalan danışmasından acığı gəlməsi barədədir ki, qısaca da olsa bu barədə məlumat əldə etdik. Mələklər insanları sevir və heç bir vaxt onların pisliyini istəmirlər. Onlar heç bir vaxt istəməzlər ki, insanlar Allah-təalaya qarşı üsyankar olsunlar. Onlar daim bəndələri Allaha itaət etməyə çağırırlar. Hər bir müqəddəs ayda və gündə mələklər möminlərə xüsusi inayət edər və onları səsləyərlər.

Bəzən insan elə işlər görür ki, mələklərin ondan acığı gəlir və onun əlindən qəzəblənirlər. Həmin hallardan biri

---

[1] 500 dastan,2-ci cild, səh.420.

də insanın yalan danışmasıdır ki, yalan danışmaq mələklərin qəzəb və nifrətinə səbəb olur. Yəni yalanın xüsusiyyətlərindən biri də budur ki, mələkləri qəzəbləndirir və onlarda insana qarşı nifrət hissi oyadır.

**7.Yalan danışmaq ruzinin azalmasına və yoxsulluğa səbəb olur**

Yalan danışmağın insana təsirlərindən biri də onun ruzinin azalmasına və yoxsulluğa səbəb olmasıdır. Amma bir çox insanlar bunun əksini təsəvvür edirlər. Elə güman edirlər ki, yalan danışmaqla ruzilərini çoxaltmışlar. Ümumiyyətlə, hər bir günah insana öz təsirini göstərməlidir. Günah elə bir şeydir ki, insanı nemətlərdən məhrum edib yerinə əzab gətirir.

“Kumeyl” duasında oxuyuruq:

اَللّٰهُمَّ اغْفِرْ لِي الذُّنُوبَ الَّتِي تُغَيِّرُ النِّعَمَ

-İlahi, mənim nemətləri dəyişən (məni onlardan məhrum edən) günahlarımı bağışla.

İnsanın nemətlərinin dəyişməsi iki cürdür. Birincisi insanın fərdi, ikincisi isə ictimai halına şamil olunur. Yəni günahlar bəzən insanın fərdi, bəzən də ictimai nemətlərini dəyişərək onları həmin nemətlərdən məhrum edir. Günahın insana fərdi təsiri barədə “Şura” surəsinin 30-cu ayəsində oxumaq olar:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَن كَثِيرٍ

-Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O, (hələ) onların çoxundan keçir.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, insanın başına gələn hər bir müsibət onun etdiyi günahlara görədir. Halbuki Allah-təala insanın günahlarının çoxunu

bağışlayır. Yəni insanın başına gələn bu qədər müsibət və çətinliklər onun etdiyi günahın hamısı deyil, bir hissəsinin nəticəsidir.

قَالَ عَلِيٌّ(ع): تَوَقَّوا الذُّنُوبَ، فَمَا مِن بَلِيَّةٍ وَ لا نَقصِ رِزقٍ اِلّا بِذَنبٍ، حَتّى الخَدشِ وَ الكَبوَةِ وَ الْمُصِيبةِ. قَال اللهُ عَزَّوَجَلّ: وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ

-Həzrət Əli(ə) buyurur: “Günahlardan çəkinin. Çünki hər bir çətinlik (bəla), ruzinin azalması, hətta kiçik bir yara, narahatlıq və müsibət günahlarının təsirindəndir. Necə ki, Allah-təala buyurur: Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَا اختَلَجَ عِرقٍ وَلا عَثرت قَدمٌ إِلاّ بِمَا قَدَّمَت أَيدِيكُم، وَمَا يَعفُو الله عَنهُ أَكثَر

-Həzrət Peyğəmbər(s) buyurur: “Səbəbsiz yerə insanın bədənində heç bir damar tərpənməz (ağrımaz) və ayaq əzilməz. Bu, özünüzün qabaqcadan göndərdiyiniz şeylərin (öz günahlarınızın) cəzasıdır (nəticəsidir). Halbuki Allah o günahların çoxunu bağışlayır.”[2]

Bütün aləmdə heç bir şey boş və əbəs deyil. Hər bir şey nizam- intizam əsasında qurulmuşdur. Heç bir şey elə belə deyil. Bütün aləm hesab-kitab üzrə hərəkət edir. İnsan bədəninin bütün orqanlarının hamısı nizam-intizamla tərtib olunmuşdur. Əgər onlardan biri öz funksiyasını itirsə, insanın həyatı təhlükə altına düşür və bu, insana öz

---

[1] Mizanül-hikmə, hədis 6635.
[2] Yenə orada, hədis 6637.

mənfi təsirini göstərir. Eləcə də insanın bütün hərəkətləri mənəvi cəhətdən öz təsirini göstərməkdədir. Bircə baxışın belə insan mənəviyyatına müsbət və yaxud mənfi təsiri vardır.

Mənim ustadlarımdan biri deyir: “Ayətullah Bürucerdinin vaxtında Nəcəf şəhərindən Qum şəhərinə Şeyx Əli adlı böyük bir şəxsiyyət gəlmişdi. Onun əhvalatı belədir:

-Şeyx Əli cavan vaxtlarında Nəcəf şəhərinə dərs oxumağa gəlmişdi. Orada böyük müctəhidlərdən biri olan Ayətullah Həmədaninin ziyarətinə yollanır. Ayətullah Həmədani onun üzünə baxıb soruşur: Sənin adın nədir?

Həmin gənc deyir: Adım Əlidir.

Ayətullah Həmədani pəncərədən boylanıb Həzrət Əlinin(ə) hərəminin günbəzini ona göstərərək buyurur: Onun da adı Əlidir. Sənin onunla hansı münasibətin var? Onun adını özünə qoymusansa, gərək özünü də ona oxşadasan.”

Ayətullah Həmədaninin bu sözləri həmin gəncin ürəyinə ox kimi sancılaraq öz təsirini göstərir. Bircə sözün təsiri ilə elə həmin gündən sonra bu gənc həm elm, həm də təqva ilə məşğul olmağa başlayır. O, Qum şəhərinə qayıtdıqda artıq böyük bir şəxsiyyət idi. Deyirlər ki, Şeyx Əli mənəviyyat aləmində yüksək dərəcələrə çatmış bir şəxsiyyət olmuşdu. Belə ki, yüzlərlə müctəhidin ustadı olan Ayətullah Bürucerdi kimi böyük bir şəxsiyyət bir saat Şeyx Əlinin üzünə baxmaq üçün ondan vaxt alırdı.

Tarix boyu və ya hazırkı həyatımızda o qədər insana rast gəlmişik ki, bircə kəlmə sözün təsirindən xoşbəxtlər cərgəsinə qoşulmuşdur. Həmçinin bircə baxışın təsirindən bədbəxt olmuş insanları da çox görmüşük. Məsələn, bir oğlanın və yaxud bir qızın bircə baxışı ilə talelərini

dəyişənlər az olubmu? Bircə haram baxış insanın bədbəxt olmasına gətirib çıxarır. Burada söhbət təkcə baxmaqdan getmir, hər bir hərəkətin insan mənəviyyatına təsiri vardır. Hətta günah barədə fikirləşməyin özünün də təsiri vardır. Hər bir günah da insana öz təsirini mütləq göstərməlidir. Kiçik bir səhv və günah nizam-intizamın pozulmasına səbəb olur və həmin günahlar insan mənəviyyatındakı nizamı pozur.

Böyük arif, alim və mərifət əhli olan insanlardan biri deyir: "Günlərin birində beynimə günah bir fikir düşdü. Amma o günahı etmədim, sadəcə olaraq onu beynimdən keçirdim. Yolda gedərkən dəvə karvanı ilə rastlaşdım. Tacirlər başqa ölkələrdən dəvələrə yük vurub şəhərə gətirirdilər. Mən onların yanından keçəndə dəvələrdən biri mənə təpik atdı. Cəld tərpənməsəydim həmin təpik məni yamanca tutacaqdı. Evə gedib öz-özümə fikirləşərək dedim: "İlahi, bu nə olan iş idi? Nə üçün dəvə mənə təpik atdı? Ey mənim Allahım, bu nə sirdir belə?" Gecə yatıb yuxuda gördüm ki, bir nəfər mənə dedi: Dəvənin sənə təpik atması beynində fikirləşdiyin həmin günahın cavabı idi. Dedim: Axı mən həmin günahı etmədim, sadəcə fikrimdən keçirdim. Dedi: Dəvə təpiyi də sənə dəymədi ki, sadəcə təpik atdı."

Odur ki, insanın başına gələn bütün müsibətlər onun etdiyi günahların təsirindəndir. Hətta insanın namaza müvəffəq olmamasının səbəbi də onun günahlarıdır. Bir nəfər Həzrət Əlinin(ə) hüzuruna gəlib soruşdu: "Ya Əmrəlmöminin, nə üçün mən gecə namazına müvəffəq ola bilmirəm? Həzrət(ə) buyurdu: Gündüz etdiyin günahlar sənin əl-qoulunu qandalladığı üçün sən gecə namazına müvəffəq ola bilmirsən."

Günah elə bir şeydir ki, insanı bir çox xeyir işlərdən və nemətlərdən məhrum edir. Günah hətta insanın ruzisinə də öz təsirini göstərir.

قَالَ عَلِيٌّ(ع): اِحذَرُوا الذُّنوبَ فَإِنَّ العَبدَ لَيُذنِبُ فَيُحبَس عَنهُ الرِّزق

-Həzrət Əli(ə) buyurur: "Günahdan həzər edin (qorunun). Çünki bəndə günah etdikdə ruzisi azalır."[1]

Görürük ki, ruzinin azalmasına səbəb olan amillərdən biri də günahdır. Hər bir günahın özünəməxsus təsiri olduğu üçün sual oluna bilər ki, ruzinin azalmasına səbəb olan günah hansıdır? Cavab olaraq demək olar ki, çox vaxt insan başına gələn bəla və müsibətlərin hansı günahına görə olduğunu bilmir. Amma məsumların hədisləri hər bir günahın hansı xüsusiyyətə malik olduğunu bizim üçün açıqlayır. O cümlədən ruzinin kəsilməsinə və azalmasına səbəb olan günahlardan biri də yalan danışmaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلكِذبُ يَنقُصُ الرِّزقَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Yalan danışmaq ruzinin azalmasına səbəb olur."[2]

قَالَ عَلِيٌّ(ع): اِعتِيادُ الكِذب يُورِثُ الفَقر

-Həzrət Peyğəmbər(s) buyurur: "Yalana adət etmək yoxsulluğa səbəb olur."[3]

Yuxarıda günah barədə qeyd etdiyimiz mətləb günahın insana göstərdiyi fərdi haldır. Lakin günah təkcə

---

[1] Mizanül-hikmə, hədis 6640.
[2] Mizanül-hikmə, hədis 17463.
[3] Yenə orada, hədis 17464.

fərdi təsirlərlə tamamlanmır. Günah insanın fərdi halında olduğu kimi, ictimai halında da böyük təsirə malikdir. Yəni fərdi günahın nəticəsi fərdi, ictimai günahların nəticəsi də ictimaidir. “Rum” surəsinin 41-ci ayəsində belə oxuyuruq:

ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ لِيُذِيقَهُم بَعْضَ الَّذِي عَمِلُوا لَعَلَّهُمْ يَرْجِعُونَ

-İnsanların öz əlləri ilə etdikləri (böyük günahlar) üzündən suda və quruda fəsad (zəlzələ, tufan, qıtlıq, xəstəlik, müharibə, qətl, təhlükəsizlik) aşkar olur. Bununla (Allah) onlara etdiklərinin bəzisini daddırır ki, bəlkə Allaha tərəf qayıtsınlar.

Allah-təala bəla və əzabları nazil etməklə insanlara daddırır ki, bütün bunlar sizin etdiyiniz günahların nəticəsidir. Allah-təala bu bəlaları ona görə nazil edir ki, bəlkə insanlar tutduqları çirkin işlərdən və günahlardan əl çəkərək Ona tərəf qayıtsınlar. “Rəd” surəsinin 11-ci ayəsində belə buyurulur:

إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ

-Həqiqətən, Allah heç bir dəstə üçün (mövcud) olanı (nemət və firavanlığı, yaxud bəla və çətinliyi) onlar özlərində olanı (iman və küfrü, yaxud itaət və mənəviyyatsızlığı) dəyişdirməyincə dəyişdirmir.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, hər bir cəmiyyətin nicat tapması və yaxud bədbəxt olması onun öz əməlinin nəticəsindədir.

قَالَ الإِمَامُ الرِّضا(ع): كُلَّما أَحْدَثَ العِبادُ مِنَ الذُّنُوبِ ما لَمْ يَكُونُوا يَعْمَلُونَ أَحْدَثَ اللّهُ لَهُمْ مِنَ الْبَلاءِ ما لَمْ يَكُونُوا يَعرِفُون

-İmam Rza(ə) buyurur: “Əgər insanlar əvvəllər etmədikləri yeni günahları etsələr, Allah onlara elə bəlalar göndərər ki, insanlar (o vaxta qədər) belə bəla görməmişlər.”[1]

Bu hədisdən başa düşürük ki, hər bir cəmiyyətdə yeni günahlar vücuda gəlsə, Allah-təala həmin cəmiyyəti yeni bəlalara düçar edər. Yəni müasir günahlara görə müasir bəlalar da nazil olur. Cəmiyyətdə bəzi yeni xəstəliklər yaranır ki, iki yüz il əvvəl həmin xəstəliklərin sorağı belə yox idi. Statistik məlumatlara diqqət yetirdikdə nə qədər insanın QİÇS kimi xəstəliklərə düçar olmasının şahidi oluruq. Yeni günahlar nəticəsində cəmiyyət çarəsi təbabətə məlum olmayan və əlacı olmayan xəstəliklərə mübtəla olmuşdur. Bütün bunların hamısı insanların ictimai günahlarının nəticəsidir.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 177-ci xütbəsində belə buyurur:

أَيُّهَا اَلنَّاسُ إِنَّ اَلدُّنْيَا تَغُرُّ اَلْمُؤَمِّلَ لَهَا وَ اَلْمُخْلِدَ إِلَيْهَا وَ لاَ تَنْفَسُ بِمَنْ نَافَسَ فِيهَا وَ تَغْلِبُ مَنْ غَلَبَ عَلَيْهَا وَ ايْمُ اَللَّهِ مَا كَانَ قَوْمٌ قَطُّ فِي غَضِّ نِعْمَةٍ مِنْ عَيْشٍ فَزَالَ عَنْهُمْ إِلاَّ بِذُنُوبٍ اِجْتَرَحُوهَا لِأَنَّ اَللَّهَ لَيْسَ بِظَلاَّمٍ لِلْعَبِيدِ وَ لَوْ أَنَّ اَلنَّاسَ حِينَ تَنْزِلُ بِهِمُ اَلنِّقَمُ وَ تَزُولُ عَنْهُمُ اَلنِّعَمُ فَزِعُوا إِلَى رَبِّهِمْ بِصِدْقٍ مِنْ نِيَّاتِهِمْ وَ وَلَهٍ مِنْ قُلُوبِهِمْ لَرَدَّ عَلَيْهِمْ كُلَّ شَارِدٍ وَ أَصْلَحَ لَهُمْ كُلَّ فَاسِدٍ .

---

[1] Mizanül-hikmə, hədis 6641.

-Camaat! Dünya onu istəyəni və ona arxalananı aldadır, onun vurğunu olan kimsəyə simiclik etmir *(çirkinliklərə düçar edir)* və ona qalib gələnə *(malını əldə edənə)* qələbə çalacaqdır *(məhv edəcəkdir).* And olsun Allaha ki, heç vaxt nemət bolluğu və həyatın şadlığında olan heç bir tayfanın firavanlıq və şadlığı etdikləri günahlardan başqa bir şey səbəbindən zavala uğramayıb. Çünki *(əgər onlar nemət nankorluğu və günah etməklə yenə nemətə layiq olsaydılar, nemətin onlardan əsirgənməsi birindən layiq olduğu şeyi əsirgəmək olardı ki, bu da zülmdür. Allahın zülm etməsi isə qeyri-mümkündür, necə ki, ("Ənfal" surəsinin 51-ci ayəsində buyurulur:)* "Allah bəndələrə əsla zülm edən deyildir." Əgər insanlar çətinliklər onlara üz tutanda və nemətlər onlardan alınanda düzgün niyyət və vurğun qəlblərlə Rəbblərinə pənah aparsalar, əldən çıxanı onlara qaytarar və hər bir fəsadı onlar üçün islah edər, düzəldər.

Burada incə bir mətləbi diqqətinizə çatdırıram. Həmin mətləb budur ki, bəla həmişə ilahi qəzəb mənasında olmur. Çünki bəlanın başqa mənası və səbəbi də vardır. Heç kəsə ixtiyar verilməyib ki, bəlaya düçar olmuş insana Allahın qəzəbinə tutulmuş insan kimi baxsın. Kimin cənnətlik və kimin cəhənnəmlik olduğunu Allah bilir. Allah-təala cənnətə və cəhənnəmə gedən insanların bəzi əlamət və xüsusiyyətlərini Quranda bəyan etmişdir. Amma bundan başqa kiməsə ixtiyar verilməyib ki, kiminsə barəsində cənnətlik və yaxud cəhənnəmlik olduğunu iddia etsin. Bütün bunlar Allahın əlindədir. Bəzən bəlaya düçar olmuş insanlar Allahın qəzəbinə deyil, sadəcə olaraq bir sıra cəhətlərə görə bəla onlara gəlmişdir. Bu bəla isə Allahın qəzəbi kimi yox, onun mərhəməti olaraq göndərilmişdir.

قَالَ عَلِيٌّ(ع): إِنَّ البلاءَ لِلظّالِمِ اَدَبٌ وَ لِلمُؤمِنِ اِمتحَانٌ وَ لِلأَنبِيَاءِ دَرَجَةٌ وَ لِلأَولِيَاءِ كَرامَةٌ

-Həzrət Əli(ə) buyurur: "Bəla zalımlar üçün ədəb, möminlər üçün imtahan, peyğəmbərlər üçün dərəcə, övliyalar (Allahın dostları üçün) isə məqam və kəramətdir."[1]

Odur ki, əgər birinin canı, malı, övlad və ailəsi bəlaya düçar olursa, heç kim deyə bilməz ki, bu bəla ona hansı cəhətə görə nazil olub. Bu, Allahın Öz məsləhətidir və bu barədə heç kim qəti qərar qəbul edə bilməz. Birinə bəla gəldikdə bizim vəzifəmiz onun üçün dua edib Allahdan bəlanın geri götürülməsini diləməkdir. Allah Öz işini hamıdan yaxşı bilir və kiminlə necə rəftar etməsi Onun hikmətidir. Allah-təala sevimli bəndələrinə bəla göndərməklə onların məqamını yüksəldir.

Kərbəla hadisəsindən sonra İmam Hüseynin(ə) ailəsini əsir götürdülər. Nəhayət, əsirləri İbn Ziyadın məclisinə apardılar. Xanım Zeynəb(s.ə) qürurla həmin məclisdə əsirlərin arasında əyləşdi. İbn Ziyad soruşdu: "Mənə məhəl qoymayan bu təkəbbürlü qadın kimdir belə? Dedilər: Bu, Əlinin qızı Zeynəbdir. İbn Ziyad Xanım Zeynəbin adını eşidən kimi baxıb dedi: Həmd olsun Allaha ki, sizi qətlə yetirdi və rüsvay etdi."

Xanım Zeynəb(s.ə) ona belə cavab verdi: "Həmd olsun Allaha ki, bizi Öz Peyğəmbəri olan Məhəmmədlə(s) əzizlədi və hər növ çirkinlikdən pak etdi. Şübhə yoxdur ki, mənəviyyatsız rüsvay olar və günahkar yalan deyər. O isə biz deyilik, sizsiniz."

---

[1] Təfsiri-nümunə,20-ci cild, səh.446.

İbn Ziyad dedi: “Allahın qardaşına və əhli-beytinə nə etdiyini gördünmü?”

Xanım Zeynəb(s.ə) buyurdu:

مَا رَئَيْتُ اِلاّ جَمِيلاً هؤلاء قَومٌ كَتَبَ اللهِ عَلَيْهِم القَتْل فَبَرَزُوا الى مضاجعهم ، وَ سَيَجمَعُ الله بَينَكَ وَ بَينَهُم، فَانظُر لِمَن يَكون الفلج ، ثَكَلَتكَ اُمُّكَ يا ابْن مَرْجانَة...

-Gözəllikdən başqa bir şey görmədim. Onlar elə insanlardır ki, Allah şəhidliyi onların müqəddəratına qismət etdi və onlar öz qətlgahlarına qovuşdular. Tezliklə Allah səninlə onları bir yerə cəm edər. Elə isə bax gör, qələbə kimə məxsusdur? Anan matəminə otursun, ey Mərcanənin oğlu!..

Kərbəla hadisəsi İmam Hüseyn(ə) üçün yüksək dərəcə, onun səhabələri üçün imtahan və Xanım Zeynəb(s.ə) üçün isə məqam və kəramət idi.

## 4. Vədəxilaflıq

Peyğəmbər(s) və məsum imamların buyurduğu kəlamlara əsasən münafiq insanların sifətlərindən biri də vədəxilaflıqdır. Yəni vədəxilaflıq münafiq insanların əlamət və nişanələrindən biridir.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقاً وَ إِنْ صَامَ وَ صَلَّى وَ زَعَمَ أَنَّهُ مُسْلِمٌ مَنْ إِذَا ائْتُمِنَ خَانَ وَ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَف

-Həzrət Peyğəmbər(s) buyurur: “Oruc tutmasından, namaz qılmasından və özünü müsəlman hesab etməsindən

asılı olmayaraq, hər kəsdə bu üç xislət olsa münafiqdir: əmanətə xəyanət etmək, yalan danışmaq və vədəxilaflıq.”[1]

Bu üç xislət münafiq insanların ən əsas sifətlərindəndir ki, həm hədislərdə, həm də Quran ayələrində bəyan olunmuşdur. “Səff” surəsinin 2-3-cü ayələrində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ. كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ

-Ey iman gətirənlər, etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? (Niyə əməl etməyəcəyinizi bilə-bilə vəd verirsiniz?) Etməyəcəyiniz bir şeyi deməyiniz Allahın yanında çox mənfur bir haldır (çox böyük qəzəbə səbəb olar).

Bu ayənin bir neçə nazilolma səbəbi vardır. Əsasən bu ayə Ühüd döyüşündə nazil olmuşdur. Bu ayənin nazil olması ilə əlaqədar olaraq yazırlar ki, bəzi möminlər belə deyirlər: “Nə vaxt düşmənlə üz-üzə gəlsək onlara əsla arxa çevirməyəcəyik.” Amma onlar Ühüd döyüşündə qaçaraq Peyğəmbəri(s) tək qoydular. Belə ki, bu döyüşdə Peyğəmbərin(s) alnı yaralandı və dişi sındı.

Bəzi təfsirçilər yazırlar ki, bu ayənin nazilolma səbəbi belədir: “Allah- təala Bədr döyüşündə şəhid olanlar barəsində ayələr nazil etdi və şəhidə verilən dərəcə və savabları bəyan etdikdə səhabələrdən bəzisi dedilər: Allah-təala şəhidə bu qədər şərəf, dərəcə və şövkət bəxş edirsə, bundan sonra bütün döyüşlərdə daha möhkəm olacaq və düşmənə arxa çevirməyəcəyik.” Amma az bir müddətdən sonra Ühüd müharibəsi başlandı. Onlar bu

---

[1] Mizanül-hikmə, hədis 20577.

döyüşdə qaçaraq Peyğəmbəri(s) tək qoydular. Onlar öz vədlərinin üstündə durmadılar və verdikləri sözdən boyun qaçırdılar. Bu halda Allah-təala "Səff" surəsinin 2-3-cü ayələrini nazil etdi.

Odur ki, insan söz verdikdə sözünün üstündə durmalı, vədinə xilaf çıxmamalıdır. Hər kim vədəxilaflıq edirsə, bu əməl münafiqlik əlamətlərindəndir. Ümumiyyətlə, söz və vəd vermək borc kimi bir şeydir. İnsan mütləq həmin borcu vaxtlı-vaxtında çatdırmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلعِدَةُ دَينٌ. عِدَةُ الْمُؤمِن دَينٌ وَعِدَةُ الْمُؤمِن كَالأَخَذِ بِاليَد

-Həzrət Peyğəmbər(s) buyurur: "Vəd borcdur. Möminin vədi (onun boynunda olan) borcdur. Möminin vədi, onun öz vədini ovcunun içinə qoyması kimidir."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلعِدَةُ دَينٌ. وَيلٌ لِمَن وَعَدَ ثُمَّ أَخلَف. وَيلٌ لِمَن وَعَدَ ثُمَّ أَخلَف. وَيلٌ لِمَن وَعَدَ ثُمَّ أَخلَف.

-Həzrət(s) buyurur: "Vəd borcdur. Vay olsun vəd verib ona xilaf çıxana, vay olsun vəd verib ona xilaf çıxana, vay olsun vəd verib ona xilaf çıxana!"[2]

Həzrət Əli(ə) buyurur: "Mənim vədimə əməl etməyimin vaxtını gözləmək qərarsızlığım, səhərə vəd verdiyim şəxsin gecənin səhər olmasını gözlədiyi qərarsızlıqdan daha çoxdur. (Yəni bir nəfərə səhər hədiyyə verəcəyimi söz vermişəm. Həmin şəxs gecənin səhər

---

[1] Mizanül-hikmə,14-cü cild, səh 6880.
[2] Yenə orada.

olmasını səbirsizliklə gözləyir ki, həmin hədiyyəni məndən alsın. Mən vədimə əməl edəcəyimə görə ondan daha çox qərarsızam. Səhərin tez açılmasını gözləyirəm ki, verdiyim vədə əməl edim.) Yatağımda səhərin tez açılmasını gözləyirəm ki, verdiyim vədə əməl etmək üçün evdən çıxım. Qorxuram ki, hansısa bir iş verdiym vədi yerinə yetirməkdə mənə mane olsun.”[1]

Abdullah ibn Əbul Hümsa deyir: “Peyğəmbər(s) peyğəmbərliyə göndərilməmişdən qabaq onunla bir alver etdim və bir yerdə onunla vədləşdik. Amma həmin gün və səhərisi gün vədləşdiyimiz yerə getmək mənim yadımdan çıxdı. Üçüncü gün Həzrətin(s) yanına getdim. Həzrət(s) buyurdu: “Ey gənc, məni zəhmətə saldın. Mən üç gündür ki, burdayam (üç gündür ki, səni burada gözləyirəm).”[2]

Həzrət Əli(ə) Malik Əştəri Misirə vali göndərərkən ona nəsihət etdi. Həmin nəsihətin bir hissəsində belə buyurur:

وَ إِيَّاكَ وَ الْمَنَّ عَلَى رَعِيَّتِكَ بِإِحْسَانِكَ أَوِ التَّزَيُّدَ فِيمَا كَانَ مِنْ فِعْلِكَ أَوْ أَنْ تَعِدَهُمْ فَتُتْبِعَ مَوْعِدَكَ بِخُلْفِكَ فَإِنَّ الْمَنَّ يُبْطِلُ الْإِحْسَانَ وَ التَّزَيُّدَ يَذْهَبُ بِنُورِ الْحَقِّ وَ الْخُلْفَ يُوجِبُ الْمَقْتَ عِنْدَ اللَّهِ وَ النَّاسِ. قَالَ اللَّهُ تَعَالَى: كَبُرَ مَقْتاً عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا ما لا تَفْعَلُونَ

-Rəiyyətə etdiyin yaxşılığa görə minnət qoymaqdan, gördüyün işi olduğundan artıq saymaqdan və ya ona verdiyin vədə vəfa etməməkdən çəkin. Çünki minnət

[1] Mizanül-hikmə,14-cü cild, səh. 6880.
[2] Yenə orada,14-cü cild, səh. 6882.

qoymaq yaxşılığı nəticəsiz edir.[1] İşi olduğundan artıq güman etmək *(bir növ məğrurluq, zülm və yalandır və )* haqqın nurunu söndürür *(yaxşılıq və düzlüyü savabsızlaşdırır)*. Vədə vəfa etməmək də Allahın və xalqın qəzəbinə səbəb olur. Allah-təala buyurur: “Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.”[2]

Allah-təalanın Quranda adını çəkdiyi dostlarından biri Həzrət İsmayıldır(ə). Allah onu vədinə sadiq və bir neçə gözəl xüsusiyyəti olan dost kimi bütün aləmə təqdim edir. “Məryəm” surəsinin 54-55-ci ayələrində onun haqqında belə buyurur:

وَاذْكُرْ فِي الْكِتَابِ إِسْمَاعِيلَ إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ وَكَانَ رَسُولًا نَّبِيًّا

وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلَاةِ وَالزَّكَاةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا

-Və bu kitabda İsmayılı xatırla. O, vədlərində dürüst və (Allahın) elçi(si və xalqa) xəbər gətirən idi. O, öz ailəsinə həmişə namaz (qılmağı) və zəkatı (zəkat verməyi) buyurardı, Rəbbinin yanında bəyənilən idi.

Bu ayədə görürük ki, Allah-təala Həzrət İsmayılı(ə) tərif edərkən ilk növbədə onun sədaqətini və vədinə əməl etməsini önə çəkir. Sonra onun peyğəmbərliyindən söz açır.

Həzrət Əli(ə) dostun tərifi haqda belə buyurur: “Mənim keçmişdə bir din qardaşım (dostum) var idi.

---

[1] Necə ki, Qurani-Kərimin “Bəqərə” surəsinin 264-cü ayəsində buyurulur: “Ey iman gətirənlər! Sədəqələrinizi minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın.”

[2] Nəhcül-bəlağə.

(Onunla mənim dostluğum yalnız Allaha xatir idi). Onun belə bir xasiyyəti var idi. Nə söz versəydi, yerinə yetirərdi. Yerinə yetirə bilməyəcəyi işi isə söz verməzdi."

Allah-təala Həzrət İsmayılı(ə) tərif edərkən onun vədinə sadiq olduğunu bəyan edirsə, Həzrət Əli(ə) də öz dostunu vədinə əməl etməsi ilə tanıtdırırsa, deməli insani dəyərlərin ən əsaslarından biri də insanın vədinə vəfalı olmasıdır.

## Əhd-peyman barəsində maraqlı bir əhvalat

Siffeyn müharibəsindən sonra bir qrup insan müsəlmanlardan ayrıldı. Onların adını xəvaric, yəni "dindən xaric olanlar" qoydular. Bu adamlar nadan və cahil insanlar idilər və onlar tərəfindən hər cür cinayətin törədilməsi qaçılmaz idi. İslama olduğu kimi deyil, öz bildikləri kimi əməl edirdilər. Hakim və xəlifə kürsüsündə əyləşənlərin hamısı demək olar ki, onlarla müxalif idilər. Həccac ibn Yusif Səqəfi cinayətkar, qantökən və qəddar bir hakim idi. O dövrdə bir qrup xəvarici tutub Həccacın yanına gətirdilər. Həccac onların hamısı ilə bir-bir söhbət etdi. Onların hər birini məhkəməyə çəkib barəsində hökm oxuyurdu. Bəzisini zindana saldırır, bəzisini isə öldürürdü. Axırıncı şəxsə çatdıqda azan səsi eşidildi. Həccac zahirən özünü müsəlman kimi göstərdiyi üçün azan səsini eşitdikdə məhkəməni təxirə saldı. Həccac Ənbəsə adlı bir məmuru çağırıb dedi: "Bu bir nəfəri apar saxla və sabah mühakimə olunması üçün bura gətirərsən."

Ənbəsə deyir: "Onu götürüb saraydan çıxdım. İstəyirdim ki, onu bir gün öz evimdə saxlayım. Həccac onu mənə tapşırdığı üçün xüsusi diqqət yetirirdim ki, qaçmasın.

Əgər qaçsa, Həccac mənim dərimi soyar. Yolda həmin müttəhim mənə dedi: Sənə ümid bəsləyib, etibar etmək olarmı?

Dedim: Nə sözün varsa söylə, əlimdən gələn yaxşılığı əsirgəmərəm.

O dedi: And olsun Allaha ki, mən xəvaric deyiləm. Mənə böhtan atıb tutublar. Mənim heç bir günahım yoxdur, amma Allahın fəzl və kəraminə ümidvaram. Mənim səndən xahişim budur ki, bu gecə mənə icazə ver evimə gedim. Arvad-uşağımla vidalaşım və boynumda olan camaatın haqqını ödəyim. Söz verirəm ki, səhər tezdən sənin yanına qayıdacağam. Sonra məni hara aparırsansa, apar.

Ənbəsə deyir: Onun bu sözlərini eşitdikdə məni gülmək tutdu. Öz- özümə dedim: Heç belə bir şey ola bilərmi? Əgər mən bunu buraxsam, Həccac mənim dərimə saman təpər. Ona bir cavab vermədən yoluma davam etməyə başladım. Yol əsnasında həmin şəxs məndən bir neçə dəfə xahiş etdi ki, onu bu gecəlik evlərinə buraxım. Səhər tezdən qayıdacağına da söz verirdi. O, danışdıqca sözlərində bir həqiqət olduğunu hiss etdim. Yol əsnasında onun danışıqları yavaş-yavaş mənim ürəyimi yumşaltdı. Ona bu gecəni öz evində keçirməyə icazə verdim. O da səhər qayıdacağına söz verib məndən ayrıldı. Getdikdən sonra ürəyim titrəməyə başladı və mənə qorxu gəldi. Öz-özümə dedim: Bu nə iş idi mən tutdum? Nə üçün onu buraxdım? Heç bir zamin olmadan, quru bir sözlə mən onu necə buraxa bilərdim? Birdən səhər gəlməsə, mənim axırım necə olacaq? Bu fikirlərlə evə getdim və gecəni səhərə qədər yata bilmədim. Səhər tezdən onun dediyi vaxt qapı döyüldü. Qapını açdıqda gördüm ki, həmin müttəhim qapının ağzında dayanıb. Onu əlimdən necə buraxmağıma təəccüb etdiyim

kimi, qapının ağzında gördükdə yenə də təəccübləndim. Ondan soruşdum: Nə əcəb sən qayıtdın?

O dedi: Axı mən sənə qayıdacağıma söz vermişdim.

Dedim: Dünən səni buraxdıqdan sonra çox peşman olmuşdum və qayıdacağına gümanım yox idi. Səhərə qədər Həccaca nə cavab verəcəyimi fikirləşirdim.

O dedi: Allahı tanıyan və Ona mərifəti olan hər bir kəsə vacibdir ki, vədəsinə və verdiyi sözə əməl etsin. Mənim bu işdə axırımın necə olacağı, Həccacın mənim barəmdə nə hökm verəcəyi başqa söhbətdir. Əsas odur ki, mən verdiyim vədə əməl etməliyəm. Buna görə də sənə qayıdacağımı söz vermişdimsə, qayıtmalı idim.

Mən onun əlindən tutub Həccacın yanına apardım. Yolda başıma gələn əhvalatın hamısını Həccaca danışdım. Həccac mənə yolda onunla nə danışdığım, onu necə evlərinə buraxdığım, onun səhər necə qayıtması barədə suallar verdi. Bu söhbət əsnasında onun xəvaric olmadığı aydınlaşdı. Həccac mənə dedi: Ey Ənbəsə, istəyirsənmi bu müttəhimi sənə bağışlayım?

Dedim: Əgər bu işi görmüş olsanız, mənə böyük minnət qoymuş olarsınız.

Həccac dedi: Elə isə onu sənə bağışladım.

Mən həmin şəxslə birgə saraydan çıxıb ona dedim: Get, yolun açıq olsun, sən artıq azadsan.

Həmin şəxs başını aşağı salıb bir söz demədən yoluna davam etdi. Mən onun bu hərəkətinə yenə də təəccübləndim. Mən onu Həccacın əlindən alıb azad etdim, amma o, mənə heç bir təşəkkür belə etmədi və çıxıb getdi. Onun birinci hərəkəti, yəni söz verib vədinə əməl etməsi hara, bu hərəkəti hara? Mən onun bu hərəkətindən çox təəccübləndim. Səhərisi gün gördüm ki, qapı döyüldü. Qapını açdıqda həmin şəxsi yenə də qapının ağzında gördüm. Nə üçün yenidən

gəldiyini soruşduqda mənə belə cavab verdi: Sənə təşəkkür etmək üçün gəlmişəm. Soruşdum: Bəs nə üçün dünən təşəkkür etmədin?

Dedi: Ənbəsə, əvvəla məni azad edən Allahdır. İlk növbədə evə gedib Ona səcdə edərək təşəkkürümü bildirdim. Bu gün mənim azad olmağımda vasitəçi olduğun üçün sənə təşəkkür etməyə gəlmişəm. Əgər dünən sənə təşəkkürümü bildirsəydim, Allahın haqqı ilə sənin haqqını qarışdırmış olardım. Buna görə də ilk növbədə Allaha, sonra isə sənə təşəkkürümü bildirirəm."

Beləliklə, hər kəs Allahı tanıyırsa, verdiyi sözə əməl etməli, vədinə xilaf çıxmamalıdır. Vədə əməl etmək Allaha itaət etmək deməkdir. Allahı tanımaq Onun hökmlərinə ehtiram etmək deməkdir.

***Allah-təala hamıya mərifət və Onun hökmlərinə riayət etməyi nəsib etsin. İnşallah!***

# MÜNDƏRİCAT

QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR........
QURAN ƏBƏDİ MÖCÜZƏDİR......................................
Quranın adları..............................................................
Quranın sifətləri...........................................................
İslam hədislərində Quranın sifətləri.................................
Quran ilahi vəhydir.........................................................
Allahın vəhyi ...............................................................
İnsanın vəhyi ...............................................................
Şeytanın vəhyi..............................................................
Quranın nazil olması .......................................................
Quranın nazil olmasının lüğətdə və ayələrdə olan mənası
Quranın nazil olmasının növləri........................................
Quranın tədricən nazil olması ...........................................
Quranın birdəfəyə nazil olması .........................................
Quranın nazilolma səbəbi.................................................
Quranın nizamla yazılıb tərtib olunması...........................
Quranın möcüzə olması...................................................
Mübarizəyə dəvət ...........................................................
Quran əleyhinə elmi mübarizənin başlanması ..................
Museyləmə ......................................................................
Müəllifinin adı gizli saxlanılan kitab ...............................
İbn Əbil Ovca .................................................................
Quranın məna və təfsiri Əhli-beytin(ə) sinəsindədir.........
Quran ayələrinin təsiri....................................................
Quranla elmi mübarizə aparanların acizliyinin səbəbi......
Quranın möcüzə olmasının əlamət və nişanələri ..............
Quranın səlisliyi və qətiliyi ..............................................
Quranın andları onun qətiliyinə dəlildir............................
Quranın andlarına bir baxış..............................................
Allahın birinci qisim andları .............................................

Allahın Öz zatına içdiyi andlar........................................
Allaha iftira atanlar barədə Allahın andı ..........................
Şeytanı özlərinə rəhbər seçənlər barədə Allahın andı .......
Peyğəmbərin(s) vilayətini qəbul etməyənlər barədə Allahın andı ...........................................................................
Məadı inkar edənlər barədə Allahın andı .........................
Allah kafirləri aradan aparmağa və onların yerinə saleh insanları gətirməyə qadirdir ............................................
Qiyamət günü insanın sorğu-sual olunacağı haqqında Allahın andı ...........................................................................
İnsanların ruzisinin Allah tərəfindən müəyyən olunması haqda Allahın Öz zatına and içməsi.................................
Allah-təala hər bir canlının ruzisinə zamindir...................
İki mühüm mətləb .............................................................
Allahın ikinci qisim andları..............................................
Allahın Öz yaratdıqlarına və işlərinə içdiyi andlar ..........
Nə üçün Quranın təyini “hikmətli” kəlməsidir?...............
Quran Allahın işidir, yoxsa Onun yaratdığı? ...................
Sübuti və səlbi sifətlər......................................................
Sübuti sifətlərin qisimləri .................................................
Allahın danışan olması .....................................................
Heyvanların və insanların minacatına cavab Allahın kəlamıdır.............................................................................
Allahın İslam Peyğəmbərinin(s) canına and içməsi.........
İslam Peyğəmbərinin(s) fəziləti .......................................
İslam Peyğəmbəri(s) bütün varlıq aləmi üçün Allahın rəhmətidir .........................................................................
Peyğəmbər(s) Məkkədə olduğuna görə Allah Məkkəyə and içir...........................................................................
Peyğəmbərin(s) əxlaqı ən yüksək əxlaqdır.......................
Allah və mələklər daim İslam Peyğəmbərinə(s) salavat göndərirlər ......................................................................

Salavatın fəziləti........................................................
Allah Quranda İslam Peyğəmbərinin(s) adını Öz adının yanında çəkir ........................................................
Allah-təala Peyğəmbərin(s) razılığına istəyir...................
Peyğəmbərin(s) ümmətinə ürəkyanğısı............................
İslam Peyğəmbəri(s) varlıq aləmində Allahın zatına ən yaxın olan insandır ........................................................
Allah Öz Peyğəmbərini(s) düşmənlərin şərindən qorudu .
Allah-təala Peyğəmbəri(s) və onun nəslini pak və bərəkətli qərar verib..........................................................
Allahın qiyamət gününə içdiyi and .................................
Qiyamət gününün adları.................................................
Qiyamət günü insanın ən çətin anlarından biridir............
Qiyamət günü hər kəs öz imam və rəhbəri ilə məhşərə gətiriləcək........................................................
Qiyamət günü təqvalı insanları günahkarlardan və zalımlardan ayıracaqlar .................................................
Allahın zamana içdiyi andlar..........................................
Allahın zamanlara and içməsinin səbəbləri......................
Zaman insan ömrünün ən bahalı sərmayəsidir.................
İnsan ona verilən vaxtı qənimət bilməlidir.......................
Bəzi insanların ömrü onların öz əleyhinə höccətdir.........
Allahın zamana and içməsinin ikinci səbəbi....................
Ruzigardan ibrət götürmək.............................................
Tarixdən ibrət götürmüş insanlar ...................................
Quranda ibrət dərsləri....................................................
Quranda ibrət dərslərindən nümunələr............................
Birinci nümunə..............................................................
Allahın gözəgörünməz və gizli qoşunları........................
İkinci nümunə................................................................
Üçüncü nümunə .............................................................
Tarixdə baş vermiş ibrətamiz hekayətlərdən nümunələr ..

Harun ər-Rəşidin qardaşı Hadinin hekayəti ......................
Mərvan ibn Məhəmmədin aqibəti ....................................
İbrət haqqında hədislər ....................................................
İbrət götürməyin səmərəsi ................................................
Allahin çoxsayli andları ..................................................
Allahın on bir andı və təzkiyənin əhəmiyyəti ..................
Təzkiyənin mənası ...........................................................
Təzkiyə olunmamağın aqibəti .........................................
Təzkiyənin qarşısını kəsən maneələr və qiyamət günü
Allahın danışmayacağı kəslər .........................................
İlahi əhd-peymanına qarşı etinasızlıq ...............................
Allahın kitabını ucuz qiymətə sataraq haqqı gizlətmək ....
Dünyaya (xeyir və mənfəətə) xatir rəhbərlərə beyət etmək
.........................................................................................
Zina ..................................................................................
Naməhrəmə baxmaq .........................................................
Hicabsızlıq .......................................................................
Erotik və şəhvətgətirici kitablar, jurnallar, məqalələr və s.-ni oxumaq ...........................................................................
Erotik və şəhvətgətirici filmlər və s. kadrlara baxmaq .....
Naməhrəm kişi və qadının xəlvət bir yerdə qalması .........
Naməhrəm kişi ilə qadının həddindən artıq danışması .....
Zinanın haram olmasının fəlsəfə və səbəbləri ...................
Ailə qurmaqda məqsəd .....................................................
Zina etmək böyük günahdır .............................................
Zinanın dünyəvi və axirəti təsirləri ..................................
Zinanın bərzəxdə olan təsiri ............................................
Zinanın məhşər günündə təsiri .........................................
Ən böyük zina ..................................................................
Bədənin hər üzvünün zinadan payı var .............................
Qeyrətsizlik .....................................................................
Qeyrətin əhəmiyyəti .........................................................

Qeyrətin mənası
Zinakarlıqda vasitəçilik ...................................................
Zinakar qoca ..............................................................
Homoseksualizm ..........................................................
Əzabın nazil olması ......................................................
Homoseksualizm zinadan da çirkin və murdar işdir .........
Şəhvətlə öpmək və baxmaq .............................................
Onanizm ......................................................................
Onanizmi aradan qaldırmağın yolları ...............................
Münafiqlik (İkiüzlülük) ..................................................
İkiüzlülüyün əsasları .....................................................
Əvvəldən iman gətirməyən münafiqlər ............................
Əvvəllər iman gətirən və sonradan nifaq yolunu tutanlar
Qeyd olunan ayələrdə münafiqin on əlaməti ....................
Açıq-aşkar yalan danışmaq .............................................
Camaatı aldatmaq və yoldan çıxarmaq üçün yalan and içmək ....................................................................
Həqiqəti dərk etməmək. Haqqı tanıdıqdan sonra yolu azmaq və bu işi təkrarlamaq ............................................
Batinlərinin əksinə olaraq zahiri görkəmləri və yağlı dilləri ilə özlərini göstərmək ..........................................
Quru taxta parçası kimi haqqın qarşılığında təsirsiz olmaq və hərc-mərclik ...........................................................
Xain olduqlarından hər bir hadisədə bədgüman olub həmin hadisələrin öz əleyhlərinə olduğunu zənn edərək qorxmaq ......................................................................
Haqq-həqiqəti məsxərəyə qoyub ələ salmaq .....................
Pozğunluq və günah etmək .............................................
Özlərini hər şeyin sahibi, başqalarını özlərinə möhtac sanmaq ......................................................................
Özlərini əziz, başqalarını zəlil təsəvvür etmək
Hədislərdə münafiq insanın sifətləri ................................

Öz barələrində ötəri, başqalarının barəsində dəqiq araşdırma aparmaq ........................................................
Əmanətə xəyanət ..........................................................
Əbdürrəhman ibn Siyabənin əhvalatı ................................
Həzrət Peyğəmbərin(s) yəhudi çobanla söhbəti ................
Yalan ......................................................................................
Yalan imanla uyğun gəlmir ...............................................
Yalanın nəticəsi və yalançının aqibəti ..............................
Yalan danışan insan Allahın hidayətindən məhrumdur ....
Yalan danışan insan dünyada xar olar ..............................
Yalançının aqibəti xeyirlə qurtarmaz ...............................
Peyğəmbərin(s) günahkar bir kişi ilə söhbəti ....................
Yalan danışanın etibarı olmaz ...........................................
Yalan danışmaq Allahın qəzəbinə və mələklərin nifrətinə səbəb olar ..............................................................................
Yalan danışmaq ruzinin azalmasına və yoxsulluğa səbəb olur .......................................................................................
Vədəxilaflıq ...........................................................................